MÜNDƏRİCAT

İQTİSADİYYAT

DİLSUZ QASIMOV – *AZƏRBAYCANDA MÜLKİYYƏTİN ÖZƏLLƏŞMƏSİNİN MODELLƏRİ VƏ MƏRHƏLƏLƏRİ*.....12
ELTUN İBRAHİMOV, SEVİNC CABBAROVA – *NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SOSİAL SAHƏLƏRİN İNKİŞAF İSTİQAMƏTLƏRİ*.....19
MEHRİBAN İMANOVA, İLKİN HEYDƏRLİ – *SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ DAYANIQLIĞININ TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ*.....26
MƏDİNƏ ALLAHVERDİYEVA – *İNNOVASİYA SAHİBKARLIĞI SİSTEMİNDƏ MARKETİNQİN TƏŞKİLİ*.....32

FİLOLOGİYA

NURLANA ƏLİYEVA – *İSLAM SƏFƏRLİ POEZİYASINDA MÜHARİBƏ MÖVZUSU*.....38
FƏRMAN XƏLİLOV – *SƏRİŞTƏLİ PUBLİSİST*.....44
QƏNİRƏ ƏSGƏROVA – *HÜSEYN CAVİD DİLİNİN BƏZİ LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ*.....51
NÜŞABƏ MƏMMƏDOVA – *NAXÇIVAN ƏDƏBİ NƏSRİ MÜSTƏQİLLİK DÖVRÜNDƏ*.....58
YEDGAR CƏFƏROV – *ELEKTRON MƏKTUBLARIN DİLİ*.....64
ŞİRMƏMMƏD QULUBƏYLİ – *CEK LONDON VƏ ONUN "HƏYAT EŞQI" HEKAYƏSİ HAQQINDA*.....76
ANAR ABUZƏRLİ – *ƏDƏBİ TƏNQİD VƏ BƏDİİ NƏSR*.....83
ELNURƏ TAĞIYEVA – *AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ QAD-QOD KÖKLÜ SÖZLƏRİN MÜQAYİSƏLİ-TİPOLOJİ TƏHLİLİ*.....97
FİRUDİN RZAYEV – *NAXÇIVANDA MİLADDAN ÖNCƏ YAŞAMIŞ TAL PROTOTÜRKLƏRİ İLƏ BAĞLI ETNOOYKONİMLƏR*.....103
NURİDƏ QƏNBƏROVA – *AZƏRBAYCAN TƏNQİDİ REALİZMİ MƏMMƏD CƏFƏR TƏDQİQATLARINDA*.....111
NAZİRƏ ƏSGƏROVA – *MƏİŞƏT NAĞILLARININ SÜJET XƏTTİNDƏ QADINLARIN YERİ*.....117
MƏDƏD SƏFƏROV – *BƏZİ QRAMMATİK MƏFHUMLARIN MƏNİMSƏDİLMƏSİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ PARADOKSAL VƏZİYYƏTLƏRƏ REAL MÜNASİBƏT*.....122
KÜBRA VƏLİYEVA – *ƏRƏB NƏHVİLƏRİNƏ GÖRƏ "CÜMLƏ" MƏFHUMU*.127
NİCABƏT İSLAMOVA – *"QAMUSUL-MUHİT"-İN TANINMASINDA MÜTƏRCİM ASİMİN ROLU*.....134
İLHAMƏ RÜSTƏMOVA – *AZƏRBAYCANDA VƏ İNGİLTƏRƏDƏ ROMANTİK CƏRƏYANIN MEYDANA GƏLMƏSİNİN TARİXİ SƏBƏBLƏRİ*.....141
CƏMİLƏ MƏHƏRRƏMOVA – *PASSİV FONDA KEÇMİŞ BİR SIRA OYKONİMLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ (BABƏK RAYONU)*.....147

TARİX

VƏLİ BAXŞƏLİYEV – *NAXÇIVANIN ENEOLİT MƏDƏNİYYƏTİ.....155*
HACIFƏXRƏDDİN SƏFƏRLİ–*ŞƏRQ MEMARLIĞININ GÖZƏL NÜMUNƏSİ– YENGİCƏ HAMAMI.....174*
İBRAHİM KAZIMBƏYLİ – *İRƏVAN QUBERNİYASININ İNZİBATİ VAHİDLƏRİNDƏ AZƏRBAYCANLI ƏHALİYƏ QARŞI ERMƏNİLƏRİN PLANLI ŞƏKİLDƏ HAZIRLADIQLARI SOYQIRIM VƏ DEPORTASİYALARIN İLKİN MƏRHƏLƏLƏRİ (II MƏQALƏ).....181*
VASİF QAFAROV – *OSMANLI-AZƏRBAYCAN HƏRBİ ƏMƏKDAŞLIĞI VƏ AZƏRBAYCAN MİLLİ ORDUSUNUN YARADILMASI PROSESİ (1918-ci il iyun-oktyabr).....194*
MUSA QULİYEV – *PODPOLKOVNİK III EHSAN XAN NAXÇIVANSKİ – KƏNGƏRLİ……211*
SARA HACIYEVA, **MEHMAN ŞABANOV** – *NAXÇIVANDA XALÇAÇILIQ SƏNƏTİNİN İNKİŞAF TARİXİ……215*
ARZU ABDULLAYEV – *NAXÇIVAN ŞƏHƏRİNİN ELMİ HƏYATI, İCTİMAİ FİKRİN VƏ XALQ MAARİFİNİN VƏZİYYƏTİ (XIX ƏSR)……222*
ZAMİN ƏLIYEV – *XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİLƏRİN ƏSASSIZ “TÜRKİYƏ ERMƏNİSTANI” ƏRAZİ İDDİALARININ İFLASI.....236*
ASƏF ORUCOV – *NAXÇIVANIN ŞƏHƏR ƏHALİSİNİN ƏNƏNƏVİ YEMƏKLƏRİ (XIX-XX əsrlər).....244*
SƏBUHİ HƏSƏNOV – *ƏCDADLAR KULTU: TÖZLƏR VƏ DAŞBABALAR.....251*

COĞRAFİYA

SURXAY SƏFƏROV, FƏRİDƏ TALIBOVA – *METEOROLOJİ AMİLLƏRİN GÜNƏŞ ŞÜALARININ ATMOSFERDƏ MOLEKULYAR SƏPƏLƏNMƏSİNƏ TƏSİRİNİN RİYAZİ MODELLƏŞDİRİLMƏSİ.....258*

PEDAQOGİKA VƏ PSİXOLOGİYA

VAHİD RZAYEV – *NAXÇIVANDA KƏND İBTİDAİ MƏKTƏBLƏRİNİN YARANMASI VƏ İNKİŞAFI TARİXİNDƏN.....268*
SƏBUHİ İBRAHİMOV – *NAXÇIVAN İSLAM ALƏMİNİN AYRILMAZ TƏRKİB HİSSƏSİDİR……278*
SUNAY ABBASOVA – *MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN PSİXİ VƏ FİZİKİ İNKİŞAFINDA OYUNLARIN ROLU……284*
AYGÜN RÜSTƏMOVA – *KİÇİKYAŞLI MƏKTƏBLİ ŞAGİRDLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ ADAPTASİYASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ROLU.....290*
AYNUR ƏZİZOVA – *MİLLİ PEDAQOJİ ELMİN ƏHƏMİYYƏTİ……298*
EMELYA SÜLEYMANOVA – *MİLLİ PEDAQOGİKA XARAKTERİN FORMALAŞMASINDA ŞƏXSİ ƏMƏYİN ROLU BARƏDƏ……303*
KÖNÜL QARADAŞBƏYOVA – *XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ YOLLARI.....308*
LALƏ QARAYEVA – *MÜSTƏQİLLİK VƏ İDRAKİ FƏALLIĞIN ƏLAQƏSİ……315*

RİYAZİYYAT

ƏLÖVSƏT DADAŞOV, VƏFA QAFAROVA, TÜRKANƏ ƏLİYEVA – *İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ ZAMANI RİYAZİYYAT TƏLİMİNİN ƏSAS PRİNSİPLƏRİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ……322*

СОДЕРЖАНИЕ

ЭКОНОМИКА

ДИЛСУЗ ГАСЫМОВ – *МОДЕЛИ И ЭТАПЫ ПРИВАТИЗАЦИИ СОБСТВЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ.....12*
ЕЛТУН ИБРАГИМОВ, СЕВИНДЖ ДЖАББАРОВА – *НАПРАВЛЕНИЯ РАЗВИТИИ СОЦИАЛЬНЫХ ОБЛАСТЕЙ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ.....19*
МЕХРИБАН ИМАНОВА, ИЛЬКИН ГЕЙДАРЛИ – *НАПРАВЛЕНИЯ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИ-ЧЕСКОЙ СТОЙЧИВОСТИ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ.....26*
МАДИНА АЛЛАХВЕРДИЕВА – *МАРКЕТИНГОВАЯ ОРГАНИЗАЦИЯ В СФЕРЕ ИННОВАЦИОННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА.....32*

ФИЛОЛОГИЯ

НУРЛАНА АЛИЕВА – *ТЕМА ВОЙНЫ В ПОЭЗИИ ИСЛАМА САФАРЛИ.....38*
ФАРМАН ХАЛИЛОВ – *ОПЫТНЫЙ ПУБЛИЦИСТ.....44*
ГАНИРА АСКЕРОВА – *НЕКОТОРЫЕ ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ЯЗЫКА ГУСЕЙНА ДЖАВИДА.....51*
НУШАБА МАМЕДОВА – *НАХЧЫВАНСКАЯ ПРОЗА В ПЕРИОД НЕЗАВИСИМОСТИ.....58*
ЕДГАР ДЖАФАРОВ – *ЯЗЫК ЭЛЕКТРОННЫХ ПИСЕМ.....64*
ШИРМАММАД ГУЛУБАЙЛИ – *О ДЖЕКЕ ЛОНДОНЕ И ЕГО РАССКАЗЕ “ЛЮБОВЬ К ЖИЗНИ”.....76*
АНАР АБУЗЕРЛИ – *ЛИТЕРАТУРНАЯ КРИТИКА И ХУДОЖЕСТВЕННАЯ ПРОЗА.....83*
ЭЛЬНУРА ТАГИЕВА – *СРАВНИТЕЛЬНО-ТИПОЛОГИЧЕСКИЙ АНАЛИЗ СЛОВ С КОРНЕМ ГАД-ГОД В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ.....97*
ФИРУДИН РЗАЕВ – *ЭТНООЙКОНИМЫ, СВЯЗАННЫЕ С НАЗВАНИЕМ ПЛЕМЕН ТАЛ, ЖИВУЩИВ В НАХЧЫВАНЕ ДО НАШЕЙ ЭРЫ.....103*
НУРИДА ГАНБАРОВА – *АЗЕРБАЙДЖАНСКИЙ КРИТИЧЕСКИЙ РЕАЛИЗМ В ИССЛЕДОВАНИЯХ МАМЕДА ДЖАФАРА 111*
НАЗИРА АСКЕРОВА – *МЕСТО ЖЕНЩИН В СЮЖЕТНОЙ ЛИНИИ БЫТОВЫХ СКАЗОК.....117*
МАДАТ САФАРОВ – *ТРУДНОСТИ В УСВОЕНИИ НЕКОТОРЫХ ГРАММАТИЧЕСКИХ ПОНЯТИЙ И РЕАЛЬНОЕ ОТНОШЕНИЕ К ПАРОДОКСАЛЬНЫМ СОСТОЯНИЯМ.....122*
КУБРА ВАЛИЕВА – *КОНЦЕПЦИЯ «ПРЕДЛОЖЕНИЯ» ПО АРАБОВЕДЧЕСКИМ ГРАММАТИСТАМ.....127*
НИДЖАБАТ ИСЛАМОВА – *РОЛЬ МУТАРДЖИМ АСЫМА В ПОЗНАНИИ «ГАМУСУЛЬ-МУХИТ».....134*
ИЛЬХАМА РУСТАМОВА – *ИСТОРИЧЕСКИЕ ПРИЧИНЫ ПОЯВЛЕНИЯ РОМАНТИЧЕСКОГО ТЕЧЕНИЯ В АЗЕРБАЙДЖАНЕ И В АНГЛИИ.....141*

ДЖАМИЛА МАГЕРРАМОВА – *ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ НЕКОТОРЫХ ОЙКОНИМОВ ВХОДЯЩИХ В ПАССИВНЫЙ ФОНД (БАБАКСКИЙ РАЙОН)*.....147

ИСТОРИЯ

ВЕЛИ БАХШАЛИЕВ – *ЭНЕОЛИТИЧЕСКАЯ КУЛЬТУРА НАХЧЫВАНА*.....155
ГАДЖИФАХРЕДДИН САФАРЛИ – *ИЗЯЩНЫЙ ОРАЗЕЦ ВОСТОЧНОЙ АРХИТЕКТУРЫ-БАНЯ ЕНГИДЖА*.....174
ИБРАГИМ КАЗЫМБЕЙЛИ – *ПЕРВЫЕ ЭТАПЫ ГЕНОЦИДА И ДЕПОРТАЦИИ, ПОДГОТОВЛЕННЫЕ АРМЯНАМИ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ В АДМИНИСТРАТИВНЫХ УЧАСТКАХ ИРЕВАНСКОЙ ОБЛАСТИ (СТАТЬЯ II)*.....181
ВАСИФ КАФАРОВ – *ОСМАНСКО-АЗЕРБАЙДЖАНСКОЕ ВОЕННОЕ СОТРУДНИЧЕСТВО и ПРОЦЕСС СОЗДАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ АРМИИ (июнь-октябрь 1918 года)*.....194
МУСА КУЛИЕВ – *ПОДПОЛКОВНИК III ЭХСАН ХАН НАХЧЫВАНСКИЙ – КЕНГЕРЛИ*.....211
САРА ГАДЖЫЕВА, МЭХМАН ШАБАНОВ – *ИСТОРИЯ РАЗВИТИЯ КОВРОТКАЧЕСТВА В НАХЧЫВАНЕ*.....215
АРЗУ АБДУЛЛАЕВ – *НАУЧНАЯ ЖИЗНЬ ГОРОДА НАХЧЫВАН, СОСТОЯНИЕ ОБЩЕСТВЕННОЙ МЫСЛИ И НАРОДНОГО ПРОСВЕЩЕНИЯ (XIX ВЕК)*.....222
ЗАМИН АЛИЕВ – *КРАХ БЕЗОСНОВАТЕЛЬНОЙ ИДЕИ АРМЯН СОЗДАНИЯ «ТУРЕЦКОЙ АРМЕНИИ» В КОНЦЕ XIX -В НАЧАЛЕ XX ВЕКОВ*.....236
АСАФ ОРУДЖОВ – *ТРАДИЦИОННЫЕ ПИЩЕВЫЕ БЛЮДА НАСЕЛЕНИЯ ГОРОДА НАХЧЫВАН (XIX-XX вв)*.....244
САБУХИ ГАСАНОВ – *КУЛЬТ ПРЕДКОВ: TЁСЫ И ТАШДЕДЕ*.....251

ГЕОГРАФИЯ

СУРХАЙ САФАРОВ, ФАРИДА ТАЛЫБОВА – *МАТЕМАТИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ВЛИЯНИЯ МЕТЕОРОЛОГИЧЕСКИХ ЭЛЕМЕНТОВ НА МОЛЕКУЛЯРНОЕ РАССЕЯНИЕ СОЛНЕЧНЫХ ЛУЧЕЙ*.....258

ПЕДАГОГИКА И ПСИХОЛОГИЯ

ВАХИД РЗАЕВ – *ИЗ ИСТОРИИ СОЗДАНИЯ И РАЗВИТИЯ СЕЛЬСКОЙ НАЧАЛЬНОЙ ШКОЛЫ В НАХЧЫВАНЕ*.....268
САБУХИ ИБРАГИМОВ – *НАХЧЫВАН – НЕОТЪЕМЛЕМАЯ ЧАСТЬ ИСЛАМСКОГО МИРА*.....278
СУНАЙ АББАСОВА – *РОЛЬ ИГР В ПСИХОЛОГИЧЕСКОМ И ФИЗИЧЕСКОМ РАЗВИТИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА……*.....284
АЙГЮН РУСТАМОВА – *РОЛЬ САМООЦЕНКИ В АДАПТАЦИИ ШКОЛЬНИКОВ МЛАДШЕГО ВОЗРАСТА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ*.....290
АЙНУР АЗИЗОВА – *НАУЧНОЕ ЗНАЧЕНИЕ НАЦИОНАЛЬНОЙ ПЕДАГОГИКИ*.....298

ЭМЕЛЯ СУЛЕЙМАНОВА – *НАЦИОНАЛЫНАЯ ПЕДАГОГИКА О РОЛИ ЛИЧНОГО ТРУДА В ОРОРМИРОВАНИИ ХАРАКТЕРА.....303*
КЕНУЛЬ ГАРАДАШБЕКОВА – *ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ИСПОЛЬЗОВАНИЯ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ИНОСТРАННЫМ ЯЗЫКАМ.....308*
ЛАЛА КАРАЕВА – *СВЯЗЬ НЕЗАВИСИМОСТИ И ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ.....315*

МАТЕМАТИКА

АЛОВСАТ ДАДАШОВ, ВАФА ГАФАРОВА, ТЮРКАНА АЛИЕВА– *ЗНАЧЕНИЕ ИСПОЛЬЗВАНИЯ ОСНОВНЫХ ПРИНЦИПОВ ОБУЧЕНИЯ МАТЕМАТИКЕ ПРИ ПРИМЕНЕНИИ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ.....322*

CONTAINS

ECONOMY

DILSUZ GASIMOV – *MODELS AND STAGES OF PRIVATIZATION OF PROPERTY IN AZERBAIJAN……12*
ELTUN IBRAHIMOV, SEVINJ JABBAROVA – *THE ANALYSIS AND ASSESSMENT OF MAIN ASPECTS OF SOCİAL POLİCY IN NAKHCHIVAN AUTONOMOUS RESPUBLIC……19*
MEHRIBAN İMANOVA, ILKIN HEYDARLI – *THE WAYS OF SUSTAINABILITY PROVIDING OF INDUSTRIAL ENTERPRISES……26*
MADINA ALLAKHVERDIYEVA – *MARKETING ORGANIZATION IN INNOVATION ENTREPRENEURSHIP……32*

PHILOLOGY

NURLANA ALIYEVA – *THE THEME OF WAR IN THE POETRY OF ISLAM SAFARLI……38*
FARMAN KHALILOV – *COMPETENT PUBLICIST.....44*
GANIRA ASKAROVA – *SOME LEGISTIC FEATURES OF HUSEYN CAVID LANGUAGE……51*
NUSHABA MAMMADOVA – *PROSE OF THE NAKHCHIVAN IN THE PERIOD OF INDEPENDENCE……58*
YEDGAR JAFAROV – *THE LANGUAGE OF E-MAILS……64*
SHIRMAMMAD QULUBAYLI – *ABOUT JACK LONDON AND HIS STORY "LOVE OF LIFE"……76*
ANAR ABUZERLI – *LITERARY CRITICISM AND LITERARY PROSE……83*
ELNURA TAGHIYEVA – *COMPARATIVELY – TYPOLOGICAL ANALYSIS OF WORDS WITH THE ROOTS GAD-GOD IN THE AZERBAIJANI AND RUSSIAN LANGUAGES……97*
FIRUDIN RZAYEV – *THE ETHNOOYKONYMS RELATED WITH THE NAMES OF TAL TRIBES LIVED IN NAKHCHIVAN BEFORE CENTURY……103*
NURIDA GANBAROVA – *AZERBAIJAN'S REVOLUTIONAL REALISM IN THE PRESENT RESEARCH OF MAMMAD JAFAR……111*
NAZIRA ASGAROVA – *THE PLACE OF WOMEN IN THE PLOT LINE OF THE TALES……117*
MADAT SAFAROV – *REAL ATTITUDE TO DIFFICULTIES AND PARADOXICAL SITUATIONS ARISING WHILE COMPREHENSING GRAMMATICAL NOTIONS……122*
KUBRA VALIYEVA – *THE CONCEPT OF "SENTENCE" ACCORDING TO THE ARABIC GRAMMARIANS……127*
NIJABAT ISLAMOVA – *THE ROLE OF MUTARJIM ASIM IN THE RECOGNITION OF "GAMUSUL-MUHIT"……134*
ILKHAMA RUSTAMOVA – *THE HISTORICAL REASONS OF EMERGENCE OF ROMANTICISM IN AZERBAIJAN AND IN ENGLAND……141*
JAMILA MAHARRAMOVA – *LINGUISTIC ANALYSIS OF A NUMBER OF OYKONYMS IN THE PASSIVE BACKRAUND OF THE BABEK REGION.....147*

HISTORY

VELI BAKHSHALIYEV – *ENEOLIT CULTURE OF NAKHCHYVAN.....155*
HAJIFAKHRADDIN SAFARLI – *YENGIJA BATH HOUSE – ONE OF THE MAGNIFICENT SAMPLE OF EASTERN ARCHITECTURE……174*
IBRAHIM KAZIMBEYLI – *THE FIRST STAGES OF THE GENOCIDE AND DEPORTATIONS PREPARED PLANNED MANNER BY ARMENIANS AGANIST AZERBAIJANI POPULATION IN THE ADMISNISTRATIVE UNITS OF IRAVAN PROVINCE (ARTICLE II).....181*
VASIF GAFAROV – *OSMANLI-AZERBAIJAN MILITARY COOPERATION AND PROCESS OF ESTABLISHMENT OF AZERBAIJAN NATIONAL ARMY (June-October 1918)……194*
MUSA GULIYEV – *LIEUTENANT COLONEL THE THIRD EHSAN KHAN NAKHCHIVANSKI – KANGARLI……..211*
SARA HAJIYEVA, MEHMAN SHABANOV – *THE DEVELOPMENT HTSTORY OF THE CARPET-MAKING ART IN NAKHCHIVAN……215*
ARZU ABDULLAYEV – *THE SCIENTIFIC LIFE OF NAKHCHIVAN, THE STATE OF PUBLIC OPINION AND PUBLIC EDUCATION (XIX CENTURY).....222*
ZAMIN ALIYEV – *THE FAILURE OF BASELESS TERRITORIAL CLAIMS OF ARMENIANS ABOUT SO-CALLED “TURKISH ARMENIA” AT THE END OF XIX-EARLY XX CENTURIES……236*
ASAF ORUJOV – *TRADITIONAL MEALS OF NAKHCHIVAN’S CITY PEOPLE IN XIX-XX CENTURIES.....244*
SABUHI HASANOV – *FATHERS CULT: TOZES AND STONE FATHERS……251*

GEOGRAPHY

SURKHAY SAFAROV, FARIDA TALIBOVA – *MATHEMATICAL MODELING OF METEOROLOGICAL ELEMENTS EFFECT ON THE MOLECULAR SCATTERING OF SOLAR RAYS……258*

PEDAGOGICS AND PSYCHOLOGY

VAHID RZAYEV – *ABOUT THE HISTORY OF THE ESTABLISHMENT AND DEVELOPMENT OF RURAL PRIMARY SCHOOLS IN NAKHCHIVAN……268*
SABUHI IBRAHIMOV – *NAKHCHIVAN IS AN INTEGRAL PART OF THE ISLAMIC WORLD……278*
SUNAY ABBASOVA – *THE ROLE OF GAMES IN PSYCHIC AND PHYSICAL DEVELOPMENT OF EARLY SCHOOL AGED CHILDREN……284*
AYGUN RUSTAMOVA – *THE ROLE OF SELF-ASSESSMENT OF SMALL-SCHOOLCHILD TRAINING ACTIVITIES……290*
AYNUR AZIZOVA – *THE IMPORTANCE OF NATIONAL PEDAGOGICAL SCIENCE……298*
EMELYA SULEYMANOVA – *THE ROLE OF PERSONAL LABOR IN THE FORMATION OF CHARACTER IN NATIONAL PEDAGOGY……303*
KONUL GARDASHBAYOVA – *INNOVATIVE PEDAGOGICAL TECHNOLOGIES IN TEACHING OF FOREIGN LANGUAGES……308*

LALA GARAEVA – *RELATION OF INDEPENDENCE AND COGNITIVE ACTIVITY …… ……315*

MATHS

ALOVSAT DADASHOV, VAFA GAFAROVA, TURKANA ALIYEVA –*THE IMPORTANCE OF BASIC PRINCIPLES OF TRAINING MATHEMATICS WHILE APPLYING THE INFORMATION TECHNOLOGIES……322*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

İQTİSADİYYAT

DİLSUZ QASIMOV
“Naxçıvan” Universiteti
dilsuzqasimov1949 @gmail.com

AZƏRBAYCANDA MÜLKİYYƏTİN ÖZƏLLƏŞMƏSİNİN MODELLƏRİ VƏ MƏRHƏLƏLƏRİ

Məqalədə Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçmək məqsədi ilə hökumət tərəfindən geniş əhatəli və sistemli iqtisadi islahatlar həyata keçirilməklə mülkiyyət münasibətlərini əsaslı surətdə dəyişmək, iqtisadi sistemin transformasiyasını nəzərdə tutan özəlləşdirməni həyata keçirmək və çoxukladlı iqtisadiyyat yaratmaq məsələlərinə toxunulmuşdur.

Açar sözlər: iqtisadi islahatlar, mülkiyyət münasibətləri,özəlləşdirmə modelləri və mərhələləri.

Bazar iqtisadiyyatına keçidin əsasını təşkil edən özəlləşdirmə prosesinin səmərəli idarə olunması, özəlləşdirmədən sonra dövlət səhmlərinin idarə olunması və milli koorperativ idarəetmə sisteminin formalaşma məsələləri özəlləşdirmənin ikinci və sonrakı mərhələlərində mühüm əhəmiyyət kəsb edir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçmək məqsədi ilə hökumət tərəfindən geniş əhatəli və sistemli iqtisadi islahatlar həyata keçirilməyə başlanıldı. İqtisadi islahatların əsasında mülkiyyət münasibətlərini əsaslı surətdə dəyişməklə iqtisadi sistemin transformasiyasını nəzərdə tutan özəlləşdirmə prosesi dayanmışdır. İqtisadiyyatı yenidən qurmaq və onu bazar iqtisadiyyatı istiqamətində formalaşdırmaq üçün özəlləşdirməni həyata keçirmək və çoxukladlı iqtisadiyyatı yaratmaq konsepsiyası qəbul edilmişdir.

Bütövlükdə Azərbaycanda özəlləşdirmə prosesinin gedişini 5 mərhələyə bölmək olar:

1-ci mərhələ - 1995-1998-ci illər
2-ci mərhələ - 1998-2000- ci illər
3-cü mərhələ - 2000-2001-ci illər
4-cü mərhələ - 2001-2005-ci illər
5-ci mərhələ - 2005-....

1995-1998-ci illəri əhatə edən birinci mərhələdə dövlət müəssisələri,kiçik müəssisələrin,mənzil fondunun özəlləşdirilməsi nəzərdə tutulmuşdur.1998-2000-ci illəri əhatə edən ikinci mərhələdə orta və iri müəssisələrin özəlləşdirilməsi məqsədəuyğun hesab edilmişdir. 2000-2001-ci illəri əhatə edən və ondan sonrakı mərhələlərdə isə dövlət mülkiyyətində olan iri və böyük müəssisələrin özəlləşdirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycanda özəlləşdirmənin ən səciyyəvi cəhətlərindən biri onun aparılması modelləri ilə bağlıdır.Bir sıra ölkələrdə mülkiyyətin əhali arasında pulsuz bölüşdürülməsinə, yəni, vauçer özəlləşdirilməsinə, bəzi ölkələrdə isə mülkiyyətin satılması üsuluna üstünlük verilmişdir.Azərbaycanda isə özəlləşdirmənin iki modelinin uzlaşdırılması yolu seçilib. Çeklərin əhaliyə pulsuz verilməsi və dövlət müəssisələrinin özəlləşdirilməsi yəni pullu hərraclarda satılması xüsusiyyətlərini əks etdirir.

Azərbaycanda özəlləşdirmənin xüsusiyyətlərindən biri də onun kənd təsərrüfatından başlamasıdır. Bu obyektiv zərurətdən irəli gəlir. Bir tərəfdən bu, əhalinin istehlak malları ilə sənayenin isə xammalla təchiz olunması üçün əlverişli şərait yaradır. Digər tərəfdən, inzibati amirlik sisteminin sosial strukturunda bazar mexanizminə daha tez uyğunlaşan məhz kənd təsərrüfatı ilə məşğul olan kənd əhalisinin olmasıdır. Məhz kənd sakinlərinin gəlirlərinin əsas hissəsi şəxsi yardımçı təsərrüfatlarda istehsal edilən məhsulların satışından əldə edilir.

Azərbaycanda özəlləşdirmənin xarakterik cəhətlərindən biri də özəlləşdirmənin dünya ölkələrinin üzünə açıq olmasıdır. Bu iqtisadi islahatların aparılmasında xarici investorların maraqlarını artırır. Qanunvericiliyə görə xarici və fiziki şəxslərin özəlləşdirmədə iştirakı opsionların alınması yolu ilə həyata keçirilir. Bu opsion xarici sərmayəçiyə özəlləşdirmədə iştirak etmək üçün bir çek almaq hüququ verir.

Respublika vətəndaşlarına özəlləşdirmə prosesində iştirak etmək üçün ilkin bərabər imkan yaratmaq məqsədilə özəlləşdirmə payı verilmişdir. Özəlləşdirmə payı (çeki) respublikanın hər bir vətəndaşına özəlləşdirilən dövlət mülkiyyətindən əvəzsiz verilən hissədir. Dövlət mülkiyyətindən əvəzsiz pay əldə etmiş vətəndaşlar çeklərdən aşağıdakı istiqamətlərdə istifadə edə bilərlər:

a)çek hərracları vasitəsilə özəlləşdirmədə iştirak etmək;

b)investisiya fondlarını səhmlərə dəyişmək;

c) müəssisə səhmlərinə birbaşa mübadilə.

Azərbaycanda özəlləşdirilmə modelinin fərqləndirici cəhətlərindən biri də dövriyyəyə buraxılan özəlləşdirmə çeklərinin nominal qiymətə malik olmasıdır. Azərbaycanda özəlləşdirmə çeklərinin dövriyəyə buraxılması, ölkəmizdə özəlləşdirməyə başlamazdan əvvəl makroiqtisadi sabitliyə nail olunması nəticəsində, inflyasiya sərbəst bazar prinsipləri əsasında alqı-satqı zamanı tələblə təklif arasında nisbətlə müəyyən olunur.

Azərbaycanda özəlləşdirmə iki istiqamətdə həyata keçirilmişdir:

1) kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi;

2) orta və iri dövlət müəssisələrinin özəlləşdirilməsi.

Bütün özəlləşdirilən müəssisələr işçilərin sayına görə üç qrupa bölünür. Azərbaycanda müəssisələrin təsnifatı zamanı kiçik müəssisələrə 10-50, orta müəssisələrə 50-300, iri müəssisələrə isə 300-dən çox işçisi olan müəssisələr daxil edilir. Özəlləşdirmə 70-ci illərdən başlayaraq, dünyanın 80-dən çox ölkəsində sınaqdan keçirilib. Böyük Britaniyada "tetçerizm", Çində "kənddə islahatlar", Türkiyədə "kamuların islahatı" adlanan böyük özəlləşdirmə prosesi

80-ci illərin sonu-90-cı illərin əvvəlində keçmiş sosialist məkanını əhatə edən 18 ölkədə geniş vüsət almışdır. Müxtəlif ölkələrdə fərqli adlar daşıyan belə proqramlar fərqli şəraitlərdə də həyata keçirilməyə başladı. Bu tip proqramlar Çexiya və Slovakiyada “kupon özəlləşdirilməsi”,Litvada “sürətli özəlləşdirmə”, Monqolustan və Rumıniyada “vətəndaş proqramları”, Polşada “kütləvi özəlləşdirmə”, Rusiyada “vauçer özəlləşdirməsi” adı ilə tarixə düşdü. Azərbaycanda isə bu proqram “çek özəlləşdirməsi” adlandırıldı.

Ümumilikdə kütləvi özəlləşdirmə proqramları adı ilə qruplaşdırılan belə proqramlar bir-birindən aşağıdakı əlamət sıraları üzrə fərqləndirilə bilər:

a) proqramın məqsədinə görə,
b) onun reallaşdırılması üsulları və miqyasına görə,
c) reallaşdırma tempinə görə,
ç) proqramların daxili uyğunluğuna görə və
d) proqramların reallaşdırılması ilə əlaqədar risklərə görə.

Kütləvi özəlləşdirmə proqramları özündə bir neçə ümumi məqsədləri birləşdirə bilər: siyasi məqsədlər (iqtisadi transformasiya prosesinə əhalinin geniş kütləsinin cəlbi), sosial məqsədlər (səhmlərin bölgüsünün ədalətli forması), sistemli məqsədlər (iqtisadiyyata bazar prinsiplərinin tətbiqi), səmərəliliyin yüksəldilməsi məqsədləri (idarəetmənin və istehsalın modernləşdirilməsi).

Çexiya-Slovakiyada həyata keçirilən özəlləşdirmə proqramları qarşısına sistemli və siyasi, Rusiyada birinci növbədə siyasi, sonra isə sistemli,Polşada səmərəliliyin yüksəldilməsi və sosial ədalətin təmini, Qırğızıstanda sistem dəyişiklikləri məqsədlərini qoymuşdur. Azərbaycanda özəlləşdirmə proqramlarının məqsədi Rusiya ilə üst-üstə düşür. Belə ki, kütləvi özəlləşdirmə proqramları müxtəlif ölkələr üzrə özünəməxsus miqyaslara və idarəetmə dərəcələrinə malikdir. Digər proqramlarla müqayisədə Rusiyada özəlləşdirmə proqramının əhatə dairəsi daha geniş olaraq, özündə Rusiyanın bütün əhalisini və dövlət müəssisələrinin 80 faizini birləşdirib. Polşa modeli ondan xeyli dərəcədə fərqlənərək daha məhdud dairədə reallaşdırılmış və dövlətin əsas fondlarının 11 faizindən bir qədər çoxunu əhatə edib. Bu proqramın həyata keçirilməsində Polşa vətəndaşlarının 69 faizi iştirakçı olub. Bu proqramların ortasında isə Çexiyada özəlləşdirmə modeli dayanır ki, o da dövlət fondlarının 25 və ölkə əhalisinin 56 faizini əhatə edib. Azərbaycanda isə müvafiq surətdə dövlət mülkiyyətinin 75,7faizinin özəlləşdirilməsi nəzərdə tutulub. Hər bir kütləvi özəlləşdirmə proqramlarında fəaliyyət ardıcıllığına görə müəyyən özünəməxsus xüsusiyyətlər meydana çıxsa da, onların təbii olaraq ardıcıl fəaliyyətini üç mərhələyə qruplaşdırmaq mümkündür. Belə təsnifat proqramların daxili uyğunluğu əsasında aparılır. Belə ki, bütün proqramlar üzrə birinci mərhələdə vauçer, çek, kupon və ya səhm hüququ barədə şəhadətnamə paylanmaqla dövlət müəssisələrinin səhmlərinə süni tələbat yaradılır. İkinci mərhələdə özəlləşdirilən müəssisələrlə vauçer sahibləri arasında vasitəçilik funksiyasını yerinə yetirən investisiya fondları formalaşdırılır. Üçüncü mərhələdə müəssisələrin səhmləşdirilməsi, dəyərin

qiymətləndirilməsi və kiçik emissiya prospektlərinin buraxılış yolu ilə onların təklifi həyata keçirilir.(1)

Bütün digər postsovet dövlətlərində olduğu kimi, suverenliyini bərpa edərək sistem dəyişiklikləri yolu tutmuş müstəqil Azərbaycan Respublikasında özəlləşdirmənin mənşəyi, mahiyyəti və praktikası, bir tərəfdən Azərbaycan iqtisadiyyatının bir çox onilliklər ərzində keçmiş ittifaqın vahid xalq təsərrüfat kompleksinin tərkibində mərkəzləşdirilmiş planlı təsərrüfatın qanunauyğunluqları əsasında inkişafın xüsusiyətlərindən doğmuş amillərlə, digər tərəfdən, dünya təsərrüfatında və siyasətində cərəyan edən qlobal xarakterli proseslərin güclü təsiri və təyziqi altında formalaşmış amillərlə şərtlənmişdir:

Dövlət əmlakının özəlləşdirilməsinin həyata keçirilməsi üçün aşağıdakı məsələlərin həlli təmin edilmişdir:

a) Bazar sistemində iqtisadi münasibətləri tənzimləyən qanunlar və normativ aktların hazırlanması və qəbul edilməsi;

b)Bütün müəssisələrin, xüsusilə də keçid dövrünün və böhranın yaratdığı çətinliklərlə əlaqədar fəaliyyəti tam və ya qismən dondurulmuş müəssisələrin işləməsini, yenidən qurulmasını, fiziki və və mənəvi cəhətdən köhnəlmiş istehsal güclərinin modernləşdirilməsini təmin etməklə özəlləşdirməyə hazırlamaq;

c)Özəlləşdirmə prosesinin həyata keçirilməsini təmin etməyə yardımçı olan institutların (bank, maliyyə, fond birjaları, qiymətli kağışlar bazarı, fondlar və s.) yaradılması, fond bazarında və investisiya prosesində bütün hüquqi və fiziki şəxslərin sərbəst iştirakı;

d) İnvestisiya layihələrinin dövlət tərəfindən dəstəklənməsi və milli iqtisadiyyata daxili və xarici sərmayənin cəlb edilməsi üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

e) Özəlləşdirmədə iştirak etmək üçün ölkə əhalisinə ilkin bərabər şəraitin yaradılması;

f) Xüsusi mülkiyyətçilərin hüquqlarının mühafizəsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi.

1990-cı illərin əvvəllərində mülkiyyət, dövlətsizləşdirmə haqqında bir sıra qanunvericilik aktları və sənədlər qəbul edilmişdirsə də, bu hüquqi aktlar mürəkkəb və uzunmüddətli özəlləşdirmə prosesinin həyata keçirilməsi üçün kifayət etmirdi.Bu baxımdan 1992-ci ildə dövlət əmlakını idarə etmək və özəlləşdirmə prosesinin həyata keçirilməsini təmin etmək məqsədilə Əmlak Məsələri üzrə Dövlət Komitəsi yaradılmışdır.

1993-cü ilin yanvar ayının 7-də "Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minmiş və bununla da dövlət mülkiyyətinin özəlləşdirilməsinin hüquqi bazasının yaradılması təmin edilmişdir.Qanunda Azərbaycan Respublikasında dövlət mülkiyyətinin aşağıdakı ümumi prinsiplər əsasında özəlləşdirilməsi nəzərdə tutulmuşdur:

1) Dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesinin mərhələlərini, növbəliliyini, özəlləşdirmənin qruplar üzrə təsnifatını, yollarını, formalarını və variantlarını müəyyən etməklə dövlət tərəfindən tənzimlənməsi;

2) Özəlləşdirmədə dövlətin, əmək kollektivlərinin və əhalinin bütün sosial təbəqələrinin iqtisadi mənafeyinin nəzərə alınması;

3) Azərbaycan Respublikası vətəndaşlarının özəlləşdirmədə iştirakını təmin etmək məqsədilə özəlləşdirmə payının müəyyənləşdirilməsi;

4) Özəlləşdirilməsi məcburi sayılan müəssisələr (obyektlər) istisna olmaqla, özəlləşdirmənin forma və variantlarının seçilməsində əmək kollektivinin rəyinin nəzərə alınması;

5) Özəlləşdirmə prosesində antiinhisar siyasətinin tələblərinin nəzərə alınması;

6) Respublikanın xalq təsərrüfatına sərmayə cəlb etmək və işgüzar dairələrin təcrübəsindən istifadə məqsədilə xarici hüquqi və fiziki şəxslərin özəlləşdirmədə iştirakına şərait yaradılması;

7) Özəlləşdirməyə dair tədbirlərin aşkarlıq şəraitində həyata keçirilməsi və onun nəticələri üzərində dövlət nəzarətinin, habelə ictimai nəzarətin təmin olunması.

Beləliklə Azərbaycanda genişmiqyaslı özəlləşdirmə Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı qüvvəyə mindikdən sonra, 1996-cı ilin ikinci rübündən etibarən həyata keçirilməyə başlanılmışdır. Birinci proqram dövlət mülkiyyətində olan kənd təsərrüfatı istehasalı müəssisələri, torpaq və mənzil fondu istisna olmaqla xalq təsərrüfatının bütün sahələri üzrə dövlət müəssisələrinin və əmlakının özəlləşdirilməsi tənzimləyən hüquqi sənəddir. Bu proqramda özəlləşdirmənin başlıca məqsəd və vəzifələri, istiqamətləri, üsulları müddəti və mərhələləri, özəlləşdiriləcək müəssisə obyektlərinin təsnifatı, onların səhmdar cəmiyyətlərə çevrilməsi, səhmləşdirmənin konkret variantları öz əksini tapmışdır. Özəlləşdirməyə münasibətdə dövlət mülkiyyətində olan obyektlər 5 qrupa bölünmüşdür:

1) Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər;

2) Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

4) Yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq Dövlət Əmlak Komitəsinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

5) Özələşdirilməsi məcburi sayılan müəssisə və obyektlər.

Birinci proqramda göstərildiyi kimi, dövlət müəssisələrinin özəlləşdirilməsi hərrac, müsabiqə, səhmləşdirmə formalı müxtəlif investisiya fondları, qiymətli kağızlar və fond birjalarının vasitəçiliyi ilə həyata keçirilmişdir. Kiçik müəssisə və obyektlər pullu hərrac vasitəsilə, orta və iri müəssisələr isə səhmdar cəmiyyətinə çevrilərək çek hərracları vasitəsilə özəlləşdirilmişdir.

İlk növbədə qeyd etmək lazımdır ki, özəlləşdirmə ilə əlaqədar yeni qanunun qəbul edilməsi mövcud qanundan fərqli olaraq beynəlxalq maliyyə qurumlarının, o cümlədən Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının tövsiyyələri nəzərə alınmaqla hazırlanmışdır. Bu qanunda xarici investorlarla yanaşı yerli investorların maraqlarının qorunmasına da xüsusi diqqət yetirilmişdir.

Belə ki, yeni qanuna əsasən "Yerli investorların dövlət əmlakının özəlləşdirilməsinin bütün forma və üsullarında məhdudiyyətsiz iştirak etmək hüququ vardır".Özəlləşdirməylə əlaqədar Dövlət Proqramı çərçivəsində də özəlləşdirmə üçün açıq elan edilmiş müəssisə və obyektlərin özəlləşdirilməsini başa çatdırmaq vəzifələri qarşıya məqsəd qoyulmuşdur.

Qanunda mövcud üsullarla bərabər dövlət əmlakının özəlləşdirilməsinin iki yeni üsulu göstərilir:

a) Dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi;

b) Dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı.

Bu üsulların hər ikisi Baltikyanı ölkələrin, Şərqi Avropa ölkələrinin özəlləşdirmə təcrübəsində sınaqdan keçirilmiş və səmərəli nəticələr vermişdir.

Azərbaycanda həyata keçirilən özəlləşdirmə xüsusi mülkiyyət və bazar prinsipləri əsasında həyata keçirilsə də burada əhalinin həyat səviyyəsi və sosial vəziyyəti,investorların maraqları və iqtisadiyyatın ayrı-ayrı strukturlarının mövcud vəziyyəti də nəzərə alınmışdır.

Azərbaycanda özəlləşdirmə prosesində mühüm addım olaraq özəlləşdirmə çeklərinin dövriyyəyə buraxılmasına 1996-cı ilin yanvarın 1-dən başlanılıb və iki mərhələdə həyata keçirilib.Ümumilikdə vətəndaşlara 31,9 milyon özəlləşdirmə çeki paylanılıb.Həmçinin burada 1997-ci yanvarın 1-dək anadan olmuş vətəndaşlara 4 çekdən ibarət özəlləşdirmə payının verilməsi nəzərdə tutulmuşdur.Bu mərhələdə 25,5 milyona yaxın dövət özəlləşdirmə çeki silinib,bu da dövriyyəyə buraxılmış ümumi çeklərin təxminən 80 faizini təşkil etmişdir.Dövlət özəlləşdirmə paylarının dövriyyə müddəti bitdikdən (31 dekabr 2010-cu il) sonra özəlləşdirmə prosesində iştirak etmək üçün yeni mexanizmlər müəyyənləşdirilib. Keçid dövründən sonrakı dövr ərzində isə həyata keçirilən özəlləşdirmə nəticəsində 35 mindən çox kiçik müəssisənin özəlləşdirilməsi həyat keçirilib.1500-dən çox səhmdar cəmiyyəti yaradılıb və onların da hazırda əksəriyyəti özəlləşdirmə ərəfəsindədir. Özəlləşdirilmiş müəssisələrdə 300 mindən artıq vətəndaş işlə təmin olunub ,ümumilikdə isə 1 milyona yaxın vətəndaş özəlləşdirmə prosesində birbaşa və ya dolayı yollarla iştirak etmişdir.(2)

ƏDƏBİYYAT

1. Səmədzadə S. və b. - Sahibkarlığın əsasları.Bakı.2013. s.96

2. Həsənov R.- Müasir Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin xüsusiyyətləri. Bakı. 2012 s. 118.

РЕЗЮМЕ

ДИЛСУЗ ГАСЫМОВ

МОДЕЛИ И ЭТАПЫ ПРИВАТИЗАЦИИ СОБСТВЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

В статье затронуты вопросы основательного изменения отношений собственности, осуществления приватизации, предусматривающей трансформацию экономической системы, и создания многоукладной экономики в Азербайджанской Республике с целью перехода к рыночной экономике путём претворения в жизнь комплексных и системных экономических реформ со стороны правительства.

Ключевые слова: экономические реформы, отношения собственности, модели и этапы приватизации.

SUMMARY

DILSUZ GASIMOV

MODELS AND STAGES OF PRIVATIZATION OF PROPERTY IN AZERBAIJAN

In this article was studied the fundamental change of ownership relations, the privatization of the economic system, and the creation of multidimensional economics by implementing a comprehensive and systematic economic reform by the government in order to development of the free market economy in the Republic of Azerbaijan.

Key words: economic reform, property relations, privatization models and stages

(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

ELTUN İBRAHİMOV
SEVİNC CABBAROVA
AMEA Naxçıvan bölməsi
eltunibrahimov@yahoo.com, sjabbar@mail.ru

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SOSİAL SAHƏLƏRİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Sosial sahələr iqtisadi inkişafın əsas amili kimi insanların maddi və mənəvi tələbatlarına uyğun məhsul və xidmətlər sferasını yaradan, praktik baxımdan əhalinin hərtərəfli mədəni və düzgün fəaliyyətini formalaşdıran və onların ümumi ehtiyaclarının qarşılanmasının əsas mənbəyidir. Sosial sahələr insan amili ilə sıx bağlıdır. İnsan həyatında ortaya çıxan müxtəlif yönlü problemlər, minimum həyat səviyyəsinin qorunması, artan tələbatların əlverişli üsullarla ödənilməsi və bunlarla əlaqəli digər məsələlər düzgün sosial sistem formalaşdırmaq tələb edir. Məqalədə blokada vəziyyətində yaşayan Naxçıvan Muxtar Respublikasında sosial sahələr və onların mövcud vəziyyəti haqqında məlumat verilir.

Açar sözlər: sosial sahələr, muxtar respublika, təhsil, səhiyyə, əmək potensialı

Ölkəmizdə son illər ərzində aparılan sosial iqtisadi islahatlar müasir şəraitdə regionlarda tarazlı inkişafın təmin olunmasının əsas şərti hesab edilə bilər. Həyata keçirilən bu tədbir və islahatlar fərqli dövrlər üçün xarakterik xüsusiyyətlər daşımaqla ölkə iqtisadiyyatında və sosial sferada baş verən proseslərin hərtərəfli tənzimlənməsində böyük əhəmiyyətə malik olmuşdur.

Müasir şəraitdə iqtisadi və sosial inkişafın təmin olunması və mühüm dövlət layihələrinin həyata keçirilməsi istiqamətində strategiya, konsepsiyalar müəyyənləşdirilmiş, dövlət proqramları qəbul olunmuşdur. Əslində isə nəzərdə tutulan bu strategiya və konsepsiyalar, fərman və sərəncamlar həyata keçirilməkdə olan proqramların səmərəli icra olunmasında əsas hüquqi tənzimləmə metodlarıdır.

İqtisadi və sosial inkişaf strukturları baxımından ölkəmizin regionlarının əsas xüsusiyyətlərinə nəzər saldıqda, xüsusi olaraq qeyd olunmalıdır ki, Naxçıvan Muxtar Respublikası bu baxımdan xeyli əhəmiyyət daşıyır. Çünki Naxçıvan Muxtar Respublikası həm iqtisadi baxımdan və həm də coğrafi baxımdan ölkəmizin ən mühüm iqtisadi rayonlarından hesab olunur. Həmçinin o da qeyd olunmalıdır, muxtar respublikada gedən proseslər digər iqtisadi rayonlardan onunla fərqlənir ki, bu fərqliliyin əsas səbəbi kimi Naxçıvan Muxtar Respublikasının uzun illərdir ki, erməni təcavüzü nəticəsində blokada vəziyyətinə düşməsi və çətin iqtisadi-sosial şəraitdə yaşamasıdır. Lakin bütün

mövcud olan mürəkkəb şərait və gedən çətin proseslər müqabilində muxtar respublika özündə səmərəli sosial-iqtisadi siyasət kursunu müəyyən etmiş və idarəetmə strukturu formalaşdırmışdır.

Araşdırmalar göstərir ki, Azərbaycanın başqa regionları kimi Naxçıvan Muxtar Respublikası da 70-ci və 80-ci illərdə iqtisadi sahələrdə böyük müvəffəqiyyətlər əldə etmişdir. Naxçıvanda iqtisadi potensial aşkar edilmiş, bir sıra təbii sərvətlərin müntəzəm surətdə istehsal dövriyyəsinə daxil edilməsi, yeni sənaye müəssisələrinin yaranmasına və sənayenin kompleks inkişafı üçün zəmin yaratmışdır. Yeni imkanlar muxtar respublikada məhsuldar qüvvələrin daha geniş inkişafı üçün, xüsusilə əlverişli şərait yaratmaqla bərabər, onun zəngin təbii sərvətlərinin istehsal dövriyyəsinə cəlb edilməsi ehtimalını gerçəkləşdirmişdir [1, s 94].

Qəbul olunan proqramlar üzrə muxtar respublikada həyata keçirilən sosial inkişaf strategiyası əmək potensialı ilə yeni yaradılan iş yerlərinin bir-biri ilə uyğunluğunun, təhsilinin, səhiyyənin, idmanın yüksək standartlar şəklində təşəkkül tapmasının, xərclərin səmərəli icrasının və düzgün sosial siyasətin həyata keçirilməsinin əsas təminatçısıdır. Muxtar respublikada sənaye, aqrar sektor, nəqliyyat, ticarət, xarici əlaqələr, turizm sənayesi, investisiya qoyuluşu və s. istiqamətində son illər əldə olunmuş makroiqtisadi göstəricilərin müqayisə predmetinə nəzər salanda görmək olar ki, xüsusilə də başda Ümumi Daxili Məhsul olmaqla, bütün göstəricilərdə nəzərəçarpan artım müşahidə olunmaqdadır. Sosial siyasətin səmərəli icrasının və sosial sahələrin inkişafı yuxarıdakı göstəricilərdən bilavasitə asılı olmaqla muxtar respublikanın inkişafını şərtləndirən və əhalinin sosial-iqtisadi vəziyyətinin müsbət istiqamətə doğru dəyişməsini müəyyən edən əsas məsələlərdən hesab olunur. Aşağıdakı cədvəldə fərqli illər üzrə mühüm makroiqtisadi göstəricilərin dəyişkənlik dinamikası əks olunmuşdur

Cədvəl

Əsas makroiqtisadi göstəricilərin dəyişkənlik dinamikası
(2005-2016-cı illər üzrə)

İllər üzrə	ÜDM		Sənaye məhsulu		Əsas kapitala yönəlmiş investisiya (mln. manat)	K/t-nın ümumi məhsulu(mln. manat)	İqtisadiyyata kredit qoyuluşu (mln manat)	Ticarət dövriyyəsi (mln.manat)	Yeni iş yerləri (ədəd)
	Cəmi (mln. manat)	Hər nəfərə düşən (manat)	Cəmi (mln manat)	Hər nəfərə düşən (manat)					
2005	305.8	807.3	41.21	108.8	126.05	98.255	2.944	53.536	8419
2006	405.7	1059.7	70.44	184.0	191.76	109.01	7.813	92.024	8044
2007	544.96	1407.4	122.68	316.8	222.95	122.42	13.803	92.118	5827

2008	795.9	2016.6	164.45	418.5	309.6	153.42	18.885	103.75	6434
2009	973.7	2437.7	212.47	534.6	411.52	185.12	42.946	220.05	4742
2010	1171.3	2882.9	318.56	776.8	501.11	247.13	35.909	257.93	3556
2011	1786.3	4311.7	680.92	1643.5	815.57	296.12	47.229	400.86	3669
2012	2103.4	4973.8	799.49	1890.6	982.26	318.84	58.680	450.91	8069
2013	2338.9	5423,0	862.87	2000.6	1037.8	337.13	49.766	511.99	2260
2014	2391.0	5465,2	891.49	2037.3	924.63	355.16	54.457	517.43	3805
2015	2467.4	5581,1	916.82	2073.8	951.2	402.99	70.222	512.35	2908
2016	2582.4	5779,7	942.94	2110,4	997.61	429.45	43.355	463.24	3010

Qeyd: Naxçıvan Muxtar Respublikasıs Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. www.statistika.nmr.az/

Cədvəl məlumatları onu deməyə əsas verir ki, ÜDM-un, sənaye məhsulunun və ticarət dövriyyəsinin həcmində müvafiq dövrlər üzrə dinamik artım müşahidə olunur və bunun gələcək illər üçün də davam etməsi proqnozlaşdırılır. ÜDM-un inkişaf tempinə nəzər salsaq, görə bilərik ki, 2005-2016-ci illər arasında 8 dəfədən çox bir artım qeydə alınmışdır. Bunun paralel olaraq, adambaşına düşən ÜDM isə 7 dəfədən çox artmışdır. Bu onu göstərir ki, aradan keçən müddət ərzində muxtar respublika əhalisinin sayında azalma müşahidə edilməmiş, əksinə artmışdır. Bu həmdə, adambaşına düşən gəlirlərin artım göstəricisidir. Sənaye məhsulu və hər nəfərə düşən sənaye məhsulu da stabil olaraq artmaqda davam etmişdir. Əgər 2005-ci ildə adambaşına düşən sənaye məhsulu orta hesabla 109 manat idisə, 2010-cu ilə qədər 7 dəfə, 2016-cı ilə qədər isə 19 dəfə artmışdır. Lakin əsas kapitala yönəldilən investisiyalarda bəzən artım tempi pozulmuşdur. İnvestisiyalar üzrə ən yüksək rəqəm 2013-cü ildə qeydə alınmışdır. Sonrakı illərdə isə azalma müşahidə olunmuşdur ki, bunun səbəbi kimi neftin dünya bazarlarında qiymətinin aşağı düşməsi və dövlət sektorunda xərclərin artması kimi görürük. Bundan çıxış yolu isə səmərəli investisiya siyasəti həyata keçirmək, idxaldan asılılığı azaltmaq və muxtar respublikaya xarici investisiyaların sürətini artırmaqdan ibarətdir. Anoloji olaraq kredit qoyuluşu, ticarət dövriyyəsinin həcmində və iş yerlərinin sayında da artım müşahidə olunmuş və bunun gələcək illərdə də davam etməsi proqnozlaşdırılır.

Muxtar respublikada əsas sosial sahələr onun elm və təhsili, səhiyyəsi, idmanı, mədəniyyəti, mənzil-kommunal sistemi, sosial sığorta və sosial müdafiə sistemi, eyni zamanda ticarət və turizm sənayesi hesab olunurlar. Göstərilən bu sahələrin hazırki vəziyyəti, burada baş verən proseslər, ortaya çıxan problemlər muxtar respublikada sosial inkişafın dinamikasını xarakterizə edən əsas meyardır. Burada qeyd olunmalıdır ki, sosial inkişafa nail olunmasında, onun düzgün tənzimlənməsində dövlətin rolu əvəzedilməzdir. Dövlət müəyyən olunmuş tənzimləmə metodları vasitəsilə sosialyönümlü

iqtisadiyyatın hərtərəfli inkişafını təmin edir. “Sosial inkişafın dövlət tənzimlənməsi dövlətlə əhali və əhali tələbatını təmin edən obyektiv mexanizmlərin idarə olunması məcmuunu birləşdirir. Sosial inkişafın tənzimlənməsindən əvvəl əsas sosial obyektlərin mahiyyətini bilmək, onların formalaşmış qanunayğunluqlarını özündə əks etdirən və perspektiv dinamikasını müəyyən edən iqtisadi və sosial proseslərdir [2, s 27]. Bu prosesləri vaxtında öyrənib lazım olan problemləri vaxtında aşkar etmək dövlətin iqtisadi və sosial siyasətinin təməl obyekti hesab olunur.

Qeyd eləmək lazımdır ki, Naxçıvanda sosial sahələrin inkişafı yönündə hər şeydən öncə geniş qanunvericilik bazası və dövlət dəstəyi mövcuddur. Ölkəmizdə regional sosial, iqtisadi inkişafla bağlı həyata keçirilən bütün tədbirlər və qəbul olunan dövlət proqramları muxtar respublikada da qəbul edilmiş və bu proqramlara uyğun işlər həyata keçirilməkdədir.

İlk öncə müxtəlif sahələr üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə qəbul olunmuş proqramların bəzilərinin strukturuna nəzər yetirək:

1. Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)
2. Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
3. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
4. Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında
5. 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı
6. 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı
7. Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı (2013-2015-ci illər)
8. Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı
9. Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında və s.

Qəbul olunmuş bu proqramlar muxtar respublikada sosial-iqtisadi mühitin səmərəliliyinin yüksəldilməsində, müəyyən sahələr üzrə qarşıya çıxan problemlərin həll edilməsində xeyli imkanlar ortaya çıxarmışdır.

Naxçıvan Muxtar Respublikasında təhsil üzrə geniş maddi-texniki baza formalaşmışdır. İstər ibtidai təhsilin, istərsə də ali təhsilin hərtərəfli təşəkkül tapması və təhsil üzrə müəyyən olunmuş maraq və mənafelərin müdafiə edilməsi mühüm peşə və təhsil ocaqları tərəfindən yerinə yetirilməkdədir. Naxçıvanda təhsil sistemi universitetlərdən orta ixtisas məktəblərindən və ümumtəhsil ocaqlarından ibarətdir. Universitetlər və orta ixtisas məktəbləri

Naxçıvan şəhərində orta ümumtəhsil məktəblərinə isə həm Naxçıvan şəhərində, həm də digər bölgələrdə rast gəlmək olar.

Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universiteti muxtar respublikanın əsas ali məktəblərindəndir. Bu ali məktəblərdə həm muxtar respublikanın özündən, həm digər şəhər və rayonlardan və həm də xarici ölkələrdən gəlmiş yüzlərlə tələbə təhsil alır.Universitetlərin təhsil bazası yüksək səviyyədə və beynəlxalq standartlara uyğun təşkil olunmaqla yenicə təmir olunmuş binalarda yerləşir. Burada xarici və yerli universitetlərdə təhsil almış kadrlar dərs deyir ki, onların arasında elmlər doktorları professorlar elmlər namizədi və dosentlər də vardır. Universitetlər zəngin kitabxanaya ən müasir texnoloji avadanlıqlara geniş auditoriyalara və idman zallarına malikdir. Univeristetlər həm də qonşu və Avropa ölkələrinin digər universitetləri ilə müxtəlif səviyyəli əlaqələr təşkil etmişdilər.

Muxtar respublikanın orta ixtisas məktəbləri isə Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci Naxçıvan Dövlət Texniki Kolleci və Heydər Əliyev Adına Hərbi Liseydir ki, analoji sahələr üzrə kadrların hazırlanmasında əhəmiyyətli rol oynayırlar.

Təhsildə mövcud bu göstəricilərlə yanaşı son illər ərzində təhsil almaq imkanları zəif olan insanların təhsilə cəlb edilməsi istiqamətində işlər görülməkdədir. Belə ki, "Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası nəticəsində fiziki və əqli çatışmazlığı, psixi ləngimələri olan şəxslərin təhsilə cəlbi sistemli xarakter almış, onlar üçün hərtərəfli imkanlar yaradılmışdır. Bununla bərabər dərsə gedə bilməyən fiziki qabiliyyəti məhdud uşaqların təhsillə təminatı üçün Distant Təhsil Mərkəzi yaradılmışdır. Analoji sahə üzrə 2016-2020-ci illər üçün qəbul edilmiş dövlət proqramında qeyd olunan bütün zəruri məsələlər əsaslı surətdə diqqət mərkəzində saxlanılacaqdır.

Muxtar respublikada səhiyyə sosial sferanının ən əhəmiyyətli və diqqətdə saxlanılan sahələrindən biridir. Demək olar ki, əvvəlki illərlə müqayisədə son illər səhiyyə sistemi ilə bağlı əsaslı tədbirlər həyata keçirilir və səhiyyə infrastrukturu yenilənir. Hal-hazırda burada köhnə tibb ocaqlarından əsər-əlamət qalmamışdır. Həm Naxçıvan şəhərinin özündə, həmdə rayonlarda xeyli sayda xəstəxanalar, dispanserlər və ambulatoriyalar fəaliyyət göstərir. Bundan əlavə olaraq burada həm də təbii müalicə obyektləri mövcuddur. Onların ən mühümləri Darıdağ Balneoloji Mərkəz, Duzdağ Fizioterapiya Mərkəz və Badamlı Fizioterapiya Xəstəxanası hesab oluna bilər ki, hər il bu müalicə mərkəzlərinə ölkəmizin digər rayon və şəhərlərindən, həm də xarici ölkələrdən xeyli sayda insan müalicə məqsədilə gəlir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" əvvəlki illərin sosial siyasətinin davamı olaraq nəzərdə tutulmuş illərdə səmərəli məşğulluğun təmin olunmasında əlverişli şəraitin yaradılmasını planlaşdırır. Proqramda əsasən işaxtaranlar üçün münasib imkanların yaradılması, işçi qüvvəsi və iş bazarının

uyğunluğunun təmin olunması, bazarda tələb və təklifinin mövcud vəziyyətinin dəyərləndirilməsini və s. nəzərdə tutur. Əvvəlki illərin göstəricilərinə nəzər saldıqda göstərə bilərik ki, 2014-2015-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə keçirilən tədbirlər nəticəsində “6364 yeni iş yeri açılmış, əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılmış, 5537 işaxtaran müəssisələrdə mövcud olan vakansiyalar üzrə işlə təmin edilmiş, 627 nəfər ictimai işlərə göndərilmiş, əmək bazarının tələbinə uyğun olaraq işaxtaranlar üçün təşkil olunan peşə kurslarına 7595 nəfər cəlb edilmişdir. Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu da diqqətdə saxlanılmış, 158 nəfər kvota yerlərinə, sağlamlıq imkanları məhdud 171 nəfər münasib işlərə göndərilmiş, məhdud fiziki imkanlı 161 nəfər peşə kurslarına cəlb edilmişdir. Qadınların özünüməşğulluğunu təmin etmək üçün bir sıra sosial layihələr həyata keçirilmişdir” [4].

Muxtar respublikada sosial siyasətin müasir tələblər səviyyəsində həyata keçirilməsi son nəticə etibarilə vəsaitlərin səmərəli istifadəsində, işgüzar fəallığın artırılmasında, əhalinin müxtəlif qruplarının hərtərəfli təminatının yaxşılaşdırılmasında, bütün bunlar isə insanların yaşayış şəraitinin yüksəldilməsində və iqtisadi dirçəlişin təmin olunmasında əsas meyardır.

ƏDƏBİYYAT

1. Əhmədov.N.H. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: Əcəmi, 2015, 272s
2. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti, 2010, 326 s.
3. Hacızadə E.M. Sosiallaşan İqtisadiyyat. Bakı: Elm, 2006, 509 s
4. http://www.serqqapisi.az/

РЕЗЮМЕ

ЕЛТУН ИБРАГИМОВ, СЕВИНДЖ ДЖАББАРОВА

НАПРАВЛЕНИЯ РАЗВИТИИ СОЦИАЛЬНЫХ ОБЛАСТЕЙ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

Социальные области, как основной фактор экономического развития, создают товары и сферу услуг соответственно материальным и моральным потребностям людей, а также являются основным источником удовлетворения общих потребностей и формирования с практической точки зрения всесторонней культурной деятельности населения. Социальные сферы тесно связаны с человеческим фактором. Различные проблемы имеющиеся в жизни человека, сохранение минимального уровня жизни, удовлетворение растущих потребностей эффективными методами, а также связанные с этим другие задачи требуют формирования правильной социальной системы. В статье дается информация о социальных сферах живущей в условиях блокады

Нахчыванской Автономной Республики, а также о существующем положении этой сферы.

Ключевые слова: социальная сфера, автономной республики, образование, здоровье, рабочая сила

SUMMARY

ELTUN IBRAHIMOV, SEVINJ JABBAROVA

THE ANALYSIS AND ASSESSMENT OF MAIN ASPECTS OF SOCİAL POLİCY IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Creating important products and services which fit the material and spiritual needs of people, forming all civil and proper activities of people applicatively and being the main sources of their general needs, social spheres are the key factors of economical growth. Social spheres are intensely related to human factors. The multiple challenges in human life, the protection of the minimum life standards, meet the increasing demands via affordable ways and other related issues require to form a proper social system. The article concerns about the social spheres and their present situation in Nakhchivan Autonomous Republic living blockade.

Keywords: social spheres, autonomous republic, education, health, labor force

(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

MEHRİBAN İMANOVA
“Naxçıvan” Universiteti
Marketinq05@mail.ru
İLKİN HEYDƏRLİ
Naxçıvan Dövlət Universiteti
ilkin1995@gmail.com

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ DAYANIQLIĞININ TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Elmi məqalədə ölkənin sənaye müəssisələrininiqtisadi dayanıqlığının təminatı istiqamətləri haqqında danışılır.

Sənaye inkişafı üçün ən mühüm şərtlərdən biri izafi xərclərin azaldılması, istehsalın genişlənməsi əsasında istehsalat resurslarının istifadə olunması, innovativ fəaliyyət və idarəetmə sisteminin təkmilləşdirilməsidir.

Elmi məqalədə iqtisadi sabitliyə və maliyə təssərüfat fəaliyyətinə təsir göstərən daxili və xarici faktorların təyin olunması tədqiq olunmuşdur. Texnoloji, texniki təminat, istehsalın təşkili, istehsal gücünün sayı və tərkibini daxili faktorlar kimi hesab etmək zəruruidir.

Səhənin hüquqi təminatı, bilavasitə kənardan təsir göstərən faktorlar tədqiq olunmuşdur. Kənar xarici təsirlərə isə ölkənin iqtisadi vəsiyyəti, siyasi sabitlik, beynəlxalq bazarın təsiri, elmi-texniki tərəqqinin inkişafı daxildir. Sonda isəə sənaye müəssisələri üçün investisiya resurslarının formalaşması üzrə strateji istiqamətlər təyin olunmuşdur.

Açar sözləri: sənaye, innovasiya, investisiya resursları, istehsalatın təşkili, iqtisadı sabitlik

Müasir dövrdə sənayenin inkişafı iqtisadiyyatda mühüm yer tutur. Sənaye elə bir sahədir ki, bu sahənin inkişafına nail olmadan iqtisadiyyatda hər hansı bir uğurdan söhbət gedə bilməz. Azərbaycanda bu sahədə kifayət qədər potensial olsa da, bu potensialdan istifadə edilməsi yalnız ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur.

Sənaye müəssisələri öz iqtisadi dayanıqlığını və perspektiv inkişafını investsiya resurslarından lazımınca istifadə etmək yolu ilə təmin etməlidir. Bu məqsədlə ilk növbədə həmin resursların formalaşmasının strateji istiqamətləri düzgün müəyyən edilməlidir. Bu baxımdan N.İ.Laxmetkinanın təklifləri diqqəti cəlb edir. Lakin həmin tədqiqatçı tərəfindən istiqamətlər müəyyənləşdirilərkən sənaye üçün vacib olan istehsalın diversifikasıyası və innovasiya fəaliyyətinin genişləndirilməsi, idarəetmə sisteminin təkmilləşdiriməsi əsasında izafi xərclərin azaldılması, istehsal resuslarından istifadə olunması nəzərdə tutulmamışdır.

Sənaye sahəsinin texniki iqtisadi və maliyyə durumunun mövcud vəziyyətini nəzərə alaraq ilk növbədə əsas diqqəti müəssisələrin iqtisadi

dayanıqlığının təmin edilməsinə yönəltmək vacibdir. Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisləri üçün onların iqtisadi dayanıqlıq dərəcəsinin və təsərrüfat fəaliyyətinin daim dəyişən xarici mühitdən asıllığını müəyyən etmək lazımdır. Bu məqsədlə iqtisadi dayanıqlılığa və maliyyə təsərrüfat fəaliyyətinə təsir göstərən amillərin müəyyən edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu amilləri daxili və xarici amillərə bölmək olar. Daxili amillər istehsal kollektivinin işi ilə bağlı, xarici amillər isə ondan asılı olmayan amillərdir. Cəmiyyət inkişaf etdikcə, onun texnoloji imkanları artdıqca, istehsal münasibətləri sisteminin təkmilləşdirilməsi və onun bazasında sosial-iqtisadi tələbatların məcmusunun genişləndirilməsi adı çəkilən amillərin artmasına və onların istehsal prosesinin forma və məzmununa, bütünlükdə, istehsalın son nəticəsinə təsiri müəssisənin iqtisadi dayanıqlığında əks olunur. Müəssisənin hansı mülkiyyət formasında fəaliyyət göstərməsindən asılı olmayaraq, onun iqtisadi dayanaqlığına təsir göstərən əsas amillər aşağıdakılardır: texnolji və texniki təminat, istehsalın təşkili və müəssisədə işçi qüvvəsinin tələb olunan sayda və tərkibdə (ixtisasda) olması. Respublikamızın sənaye müəssisələrində yüksək ixtisaslı kadrların olması faktı danılmazdır. Son ilər müəssislərin aşağı güclə işləməsi səbəbindən onların sayı azalsa da, işçi texnoloji qurğu üçün kadr tələbatı əsasən ödənilir. Lakin bu müsbət meyli istehsalın texniki və texnoloji təminatına şamil etmək olmaz. Əlavə olaraq onu qeyd etmək lazımdır ki, rəqabətqabiliyyətli sənaye məhsulu istehsal etmək həmişə texnoloji təminatla xarakterizə olunur. Məhz bu təminat müəssisənin iqtisadi dayanıqlığını yüksək səviyyəsini əks etdirir. Sənaye müəssisələrinin iqtisadi dayanıqlığına təsir edən daxili amillərin içərisində istehsalın texniki təminatı xüsusi rol oynayır ki, buda mövcud avadanlıqların fiziki və mənəvi aşınma dərəcəsinə asılıdır(1; 121).

Müəssisələrin iqtisadi dayanıqlığına təsir göstərən daxili amillərdən biri də istehsalın təşkilidir. Məhz bu amil müəssisədə işçilərdən. avadanlıqlardan, əmək alətlərindən istehsal sahələrindən necə istifadə edildiyini göstərir. Ona görə istehsalın təşkilinin səmərəliliyini xarakterizə edən əsas meyarlardan biri istehsalın fasiləsizliyi, onun ritmliyi və əmək vasitələrindən proporsional istifadə hesab edilir. İstehsalın səmərəsiz təşkili isə öz növbəsində əmək məhsuldarlığının aşağı düşməsinə və əsas kapitaldan lüzumsuz istifadəyə şərait yaratmaqla müəssisənin pozitiv inkişafına mənfi təsir göstərir. Deməli, bütün daxili amillərin səmərəli inteqrasiyasının təmin edilməsi, məcmuu istehsal resurslarından düzgün istifadə edilməsi nəticə etibari ilə müəssisənin fəaliyyətini xarakterizə edən kəmiyyət və keyfiyyət göstəricilərinə təsir göstərir. Belə təsir məhsulun keyfiyyətinin və istehsalın rentabelliyinin, əmək məhsuldarlığının möhkəmlənməsinə, mənfəətin kütləsinin artmasına, işçilərin ixtisasının məzmunun dəyişməsinə imkan yaradır. Digər tərəfdən, məhsulun maya dəyərinin aşağı salınması, zay məhsulun azalması, istehsalda boş dayanmaların minimuma endirilməsi, borcların azaldılması, əsasən vəsaitlərdən və dövriyyə fondlarından səmərəli istifadə edilməsi təmin edilir ki, bu da müəssisənin ödəniş qabilliyətinin artmasına ekoloji təhlükəsizliyin formalaşmasına müəyyən təsir göstərir, onun iqtisadi dyanıqlığının möhkəm-

lənməsinə səbəb olur. Lakin bütün bunlarla yanaşı, tədqiq edilən sənaye müəssisələrinin gələcək inkişafını təmin etmək üçün istehsalın diversifikasiyasının, innovasiya fəaliyyətinin genişləndirməsi şərti ilə təmin edilməsinə zəruri ehtiyac duyulur. Həmin prosesin təşkili yeni növ məhsulun istehsalına, mövcud məhsulların modernləşdirilməsinə, az tələbat olunan məhsuların istehsaldan sıxışdırlıb çıxardılmasına, istehsal güclərindən düzgün istifadə etməyə imkan yaratmaqla əmtəəlik məhsulun natural formada artımına imkan yaradacaq və sənaye müəssisənin XİF genişlənməsinə imkan verəcəkdir. Lakin təcrübəyə görə istehsalçı ilə istehlakçı arasında münasibətlərin düzgün formalaşmaması qeyd edilən qiymətlərə öz mənfi təsirini göstərir (2; 183).

Beləliklə, respublikamızın sənaye müəssisələrinin iqtisadi dayanıqlığını təmin etmək, onların investisiya tələbatının bir hissəsini daxili imkanlar hesabına ödəmək üçün sənayenin geniş miqyaslı diversifikasiyası həyata keçirlməlidir. Fikrimizcə, buna vahid sahə investisiya strategiyası və siyasəti çərçivəsində nail olmaq mümkündür. Bütün bunlar öz növbəsində sənayedə mövcud idarəetmə strukturunun təkmilləşməsini, onun operativliyinin artırılmasını, marketinq fəaliyyətinin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən təşkilini, maliyyə menecmentinin mütərəqqi metodlarının idarəetmə təcrübəsində daha geniş istifadə edilməsini tələb edir.

Sənaye müsəssisələrinin iqtisadi dayanıqlılığının formalaşmasına təsir edən xarici mühit amillərini də öz növbəsində dolayı və birbaşa təsir amillərinə bölmək olar. Birbaşa xarici təsir amillərinə sahənin hüquqi təminatı (qanunlar, normativ-texniki sənədlər və digər normativ aktlar), rəqabət mühiti və istehlakçılar, resurs təminatı, infilyasiya səviyyəsi və s. aiddir. Dolayı xarici təsir amillərinə isə ölkənin iqtisadi vəziyyəti, siyasi sabitlik, beynəlxalq bazarın təsiri, elmi-texniki tərəqqinin səviyəsi aiddir. Birbaşa xarici təsir amillərinin sənaye müəssisələrinin dayanıqlığındakı roluna qiymət verərkən qeyd edilməlidir ki, sənaye müəssisələrinin fəaliyyəti hazırki mərhələdə hüquqi cəhətdən təmin etmişdir. Lakin bu sahənin normativ-texniki təminatını (istifadə edilən standartlar, texniki şərtlər, müxtəlif məsrəf normaları, təlimatlar və s.) qənaətbəxş etmək olmaz, odur ki, həmin norma və normativlərin yeniləri, daha mütərəqqisi ilə əvəz olunmasına zəruri ehtiyac duyulur. Sahənin iqtisadi dayanıqlığına təsir göstərən dolayı xarici təsir amillərini qiymətləndirərkən onu vurğulamaq vacibdir ki, ölkədə siyasi sabitlik və yüksək iqtisadi artım təmin edilmiş, benəlxalq münasibətlər ildən-ilə genişləndirilmişdir. Lakin elmi-texniki tərəqqi amili sənayenin iqtisdi dayanıqlığına öz təsirini göstərməkdədir. Məhz bu amilin təsri altında yüksək keyfiyyətli məhsul istehsal etmək və onları xarici bazara tələb olunan səviyyədə çıxarmaq mümkün olmaşdır. İxracın tərkibində sənaye məhsullarının xüsusi çəkisinin aşağı olması bu sahədə zəif elmi-texniki səviyyədən xəbər verir (4; 54).

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək hazırki şəraitdə ölkəmizin sənaye müəssislərinin iqtisadi dayanıqlığının formalaşmasına təsir edən daxili və xarici mühit amillərini təsnifatını və əlaqəsini aşağıdakı kimi göstərmək olar (şəkil 3.3). Lakin hər bir sənaye müəssisənin spesifik xüsusiyyətindən və tex-

niki-iqtisadi durumundan asılı olaraq hər iki qrup amillərinin təsir dərəcəsi müxtəlif ola bilər. Ona görə də müəssisənin iqtisadi və maliyyə dayanıqlığına təminat yarada bilən təkliflər, proqramlar və s. hazırlanarkən dərin təhlil nəticəsində amillərin vacibliyi nöqsanların aradan qaldırılması növbəliliyi ilə uzlaşdırılmalıdır. Məsələn, ixrac olunacaq sənaye məhsullarının həcminin artması müəssisənin beynəlxalq bazarda mövqeyini yüksəldəcəkdir. Sənaye məhsullarının çeşidlərinin çoxalması və onların xarici bazara satışa çıxarılması bütünlükdə müəssisənin informasiya təminatının əhəmiyyətini artırmaqla yanaşı daha dərin marketinq tədqiqatları aparmağı ön plana çəkəcəkdir. Sənaye məhsullarının daxili bazarda satışı beynəlxalq yükdaşımalar problemini gündəlikdən çıxaracaqdır və s.

Fikrimizcə, sənaye müəssisələrinin iqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi prosesi üç əsas mərhələdə həyata keçirilməlidir:

Birinci mərhələdə xarici və daxili mühit təhlil metodlarından istifadə etməklə düzgün qiymətləndirilməlidir;

İkinci mərhələdə sənaye müəssisəsinin iqtisadi və maliyyə dayanıqlığını təmin edə bilən kompleks texniki-texnoloji, sosial və təşkilati tədbirlərin işlənib hazırlanması əsasında müvafiq strategiya işlənilməlidir;

Üçüncü mərhələdə nəzərdə tutulan planlar, proqramlar və tədbirlər həyata keçirilməli və resurslar düzgün bölüşdrülərək itkisiz istifadəsi təmin edilməlidir (5;223).

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi əsasında belə qənaətə gəlmək olar ki, respublikamızın sənaye müəssisələri üçün investisiya resurslarının formalaşması üzrə aşağıdakı starteji istiqamətləri ön plana çəkmək vacibdir:

a) investisiya resurslarının zəruri həcminin müəyyən edilməsi;

b) real invesitisiya layihələrinin səmərəli maliyyələşdirmə sxeminin seçilməsi;

c) xüsusi və cəlb olunan investisiya resurslarının zəruri həcminin təmin ediməsi;

ç) investisiya resurslarının formalaşma mənbələrinin diversifikasiyası;

d) istehsalın divesifikasiyasının səmərəli təşikili əsasında müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması;

f) innovasiya fəaliyyətini geenişləndirməklə məhsulun keyfiyyətinin yaxşılaşdırlması hesabına xarici bazarda müəssisənin mövqeyini artırmaqla, XİF-dən əlavə vəsaitin əldə edilməsi;

i) yerli və beynəlxalq maliyyə qurumları ilə birlikdə maliyyə-sənaye quruplarını, holdinqlərin yaradılması.

Ölkəmizdə uzunmüddətli sənaye proqramının olması və bu proqramın icrasına dövlətin dəstəyi, eləcə də real investisiya layihələrinin həyata keçirilməsi sənayenin inkişafına təkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Əjdərov.T.N. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sənayesinin inkişaf istiqamətləri. Bakı: BDU, 2000, 764 s.
2. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Elm, 2001, 452 s.
3. Егоров В.В, Парсаланов Г.А. Прогнозирования национальной экономики. М: Инфра-М, 2001, 184 с.
4. Настенко А.Д. Васина Т.В. Прогнозирования отраслевого и регионально развития. М: Гелиос, 2002, 144 с.
5. Жданов В.Г. Инвестиционные механизмы регионального развития. Калининград: БИЗФ, 2001, 355 с

РЕЗЮМЕ

МЕХРИБАН ИМАНОВА, ИЛЬКИН ГЕЙДАРЛИ

НАПРАВЛЕНИЯ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ УСТОЙЧИВОСТИ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ

В научной статье говорится о направлениях обеспечения экономической устойчивости промышленных предприятий страны. Для развития промышленности одним из важных условий является уменьшение лишних затрат, использование производственных ресурсов на основе расширения производства, инновационной деятельности и совершенствования системы управления.

В научной статье исследовано определение внутренних и внешних факторов, влияющих на экономическую устойчивость и финансово-хозяйственную деятельность. Внутренними факторами необходимо считать технологическое, техническое обеспечение, организацию производства, число и состав производительных сил. Исследованы правовое обеспечение отрасли, конкурентная среда и потребители, ресурсное обеспечение, уровень инфляции как непосредственно воздействующие внешние влияющие факторы. К косвенным внешним влияющим факторам же относятся экономическое положение страны, политическая стабильность, влияние международного рынка, уровень научно-технического прогресса. В конце определены стратегические направления по формированию инвестиционных ресурсов для промышленных предприятий.

Ключевые слова: промышленность, инновация, инвестиционный ресур, организация производства, экономической устойчивости

SUMMARY

MEHRIBAN İMANOVA, ILKIN HEYDARLI

THE WAYS OF SUSTAINABILITY PROVIDING OF INDUSTRIAL ENTERPRISES

In this scientific article the ways of sustainability providing of industrial enterprises in the Republic of Azerbaijan are analysed. It considers that, for development of industry, the extending of innovation and production activity, the reducing of extra expenses due to improving of management system and using production resources are important terms in this case.

Also was researched the definition of factors which have a impact for the economic sustainability and financial-economic activity. As a internal factors the technological and technical support, the organization of production processing, the staff quantity and its' structure also considered important in this topic. As a external factors the legal base of industry, competition environment and consumers, resource supply, the level of inflation and as a indirect factors the general economic situation of country, the political stability, the influence of international markets and the level of scientific and technical progress were included into this research. And finally, the strategic ways of forming of investment resources for industry enterprises was defined.

Key worlds: industry, innovation, investment, resources, organization of production, economic sustainability

(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

MƏDİNƏ ALLAHVERDİYEVA
“Naxçıvan” Universiteti
q_fil@hotmail.com

İNNOVASİYA SAHİBKARLIĞI SİSTEMİNDƏ MARKETİNQİN TƏŞKİLİ

Bu gün muxtar respublikada həyata keçirilən sosial – iqtisadi inkişaf strategiyasının əsas məqsədi özəl sektorun inkişafı və biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasından ibarətdir. Hər il Naxçıvan MR-də sahibkarlığın inkişafı üçün ayrılan güzəştli kreditlərin həcmi artır.
Qeyd etməliyik ki, bazar iqtisadiyyatını sahibkarlıq fəaliyyətini nəzərə almadan təsəvvür etmək mümkün deyil. çünki bazar iqtisadiyyatlı ölkənin inkişafı yolu sahibkarlıq fəaliyyətinin daha da təkmilləşdirilməsindən, məqsədyönlü islahatların keçrilməsindən və məşğulluq səviyyəsinin yüksəldilməsindən keçir.

Açar sözlər: Naxçıvan Muxtar Respublikası, sahibkar, innovasiya, ETT. informasiya texnologiyaları, marketinq

Bazar iqtisadiyyatına keçidlə əlaqədar bu iqtisadiyyata xas olan sahibkar, sahibkarlıq qabiliyyəti, sahibkarlıq fəaliyyəti və sair kimi sözləri də dilimizdə vətəndaşlıq hüququ qazanmışdır.Sahibkar sözü sahib və kar ifadələrinin birləşməsi olub, nəyin isə sahibinin, mülkiyyətçinin nə ilə bir işlə məşğul olmasını ifadə edir. Daha aydın desək, sahibkar – yəni müəssisənin (firmanın) yaradılması, cəmiyyətə təklif olunan yeni ideyanın, məhsulun və ya xidmətin işlənib hazırlanması ilə bağlı riski öz üzərinə götürən şəxsdir. Sahibkar xeyir götürmək məqsədilə istehsal amillərini hərəkətə gətirən və ya bu fəaliyyəti təşkil edən iqtisadi subyektdir. Sahibkar, yəni mülkiyyətçi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün sahibkarlıq qabiliyyətinə malik olmalıdır.

Sahibkarlıq qabiliyyəti dedikdə, maddi və ya intellektual mülkiyyət sahiblərinin ictimai fəaliyyətin müəyyən sahəsində daha çox yararlı olması, müəyyən işi daha müvəffəqiyyətlə icra etməsi nəzərdə tutulur. Bu qabiliyyət bir tərəfdən sahibkarın fərdi psixi xüsusiyyətindən, digər tərəfdən isə onu əhatə edən iqtisadi şəraitdən asılıdır. Sahibkarlıq qabiliyyəti ya ictimai fəaliyyət prosesində, ya da təhsil prosesində əldə edilir. Uzun müddət birinci yol, yəni fəaliyyət prosesi üstünlük kəsb etdiyi halda müasir dövrdə ikinci yol üstünlük kəsb edir. Dövrün tələbinə cavab verən təhsil prosesində ayrı-ayrı şəxslər sahibkarlıq qabiliyyətinə yiyələnirlər. Sahibkarlıq qabiliyyəti xüsusi növ insan kapitalıdır. Daha aydın desək sahibkarlıq qabiliyyəti – nemətlər və xidmətlər yaradılması üçün istehsalın bütün digər amillərinin birləşdirilməsinə

yönəldilmiş xüsusi növ insan kapitalıdır. Əlverişli şəraitdə bu qabiliyyətin ictimai həyatın müxtəlif sahələrində istifadə edilməsi sahibkarlıq fəaliyyətidir.

Sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi mühitin formalaşdırılmasında aşağıdakı amillər də mühüm rol oynayır: sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik bazasının yaradılması; sahibkarlığa dövlət himayəsi, firmaların (müəssisələrin) yaradılmasına, fəaliyyətin genişlənməsinə imkan verən vergi, kredit, gömrük siyasətinin yeridilməsi; dövlət və xüsusi bölmə tərəfindən sahibkarlığın inkişafına yönəldilən vəsaitin artırılması, sahibkarlıq infrastrukturunun formalaşması və onun səmərəli fəaliyyəti üçün şəraitin yaradılması və s. Sahibkarlıq infrastrukturu dedikdə innovasiya mərkəzlərinin, lizinq firmalarının yaradılması, sahibkarların hazırlanması və ixtisasartırma məktəblərinin, kursların və s. olması nəzərdə tutulur.

İnnovasiya marketinqin öyrənilməsinə hər şeydən əvvəl onun bir sıra ümumi cəhətlərini nəzərdən keçirməkdən başlamaq lazımdır. Dünya iqtisadi ədəbiyyatında «innovasiya» potensial elmi-texniki tərəqqinin yeni məhsul və texnologiyalarda öz əksini tapması kimi şərh olunur.

Müasir dövrdə innovasiya sahibkarlığı yeni idarəetmə düşüncəsi ilə, səmərəli təsərrüfatçılıq haqqında ənənəvi təsəvvürləri aşılamaqla və böyük bazar orientasiyası ilə bağlıdır. Məhz yeniləşdirmə bacarığı hesabına dünyanın ən yaxşı şirkətləri uğura nail olurlar və «öz sahələrinin digər şirkətlərinə əziyyət verən böhranlara üstün gələrək hər dəfə güclü olurlar»

Yeniliyin yaradılması prosesi daima bərpa olunandır və qeyri-sabit xüsusiyyətlərə malik bazara istiqamətlənir. Bu birincisi, yeni elmi ideyaların və perespektivli məhsulların işlənib hazırlanması axtarışının daima dəstəklənməsini, və ikincisi isə inteqrasiya əlaqələrini saxlamaqla idarəetmə səlahiyyətlərinin maksimum qeyri-mərkəzləşdirilməsinin səmərəli və çevik şəkildə idarə edilməsini özündə ifadə edir.

Firmanın təşkilatı strukturunun layihələşdirilməsi zamanı müəyyənedici rol qeyri-mərkəzləşdirməyə məxsus olmalıdır. Konkret yeniliyin yaradılması prosesinin rəhbəri lazimi səlahiyyətlər və uyğun məsuliyyətlə təmin olunur. Uzun illər ərzində belə hesab edilib ki, elmin və texnikanın inkişafının dəqiq planlaşdırılması proqnozlaşdırılan nəticələrin alınması ehtimalını əhəmiyyətli dərəcədə artırır. Buna əsaslanan mütəxəssislər innovasiya proseslərinin idarə edilməsinin təşkilati sistemini formalaşdırmışlar. Bu gün marketinqin nəzəriyyəçiləri və praktikləri belə qənaətə gəlirlər ki, bazarda yeni məhsulların çeşidinin və sayının çoxaldılması, həmçinin onların artırılması üçün onların həyat tsiklini ixtisarı ilə əlaqədar olaraq firmada novator ideyaların yüksək sıxlığı vacibdir. İdarəetmənin innovasiya üslubunun tərəfdarları hesab edirlər ki, yaxşı yenilikçilik mühitinin yaradılması üçün həll edici rola firmaların müxtəlif bölmələrində qabaqcıl təcrübənin həvəsləndirilməsi, entuziastlara onların ideyalarının reallaşdırılması imkanlarının yaradılması zəruridir. Bununla yanaşı qeyd etmək lazımdır ki, innovasiyaların yayılması elə bir prosesdir ki onun forması və surəti komunikasiya kanallarının güclü olmasından, informasiyanın təsərrüfat subyektləri tərəfindən qavranılması

xüsusiyyətlərindən və s-dən asılıdır. İnnovasiyanın nüfuz etməsi isə yeniliyin kommunikasiya kanalları ilə müəyyən zaman çərçivəsində sosial sistemin üzvləri arasında ötürülməsi prosesidir. Ötürülmənin və diffuziyanın (nüfuzetmənin) vəzifəsi isə informasiya menecmenti kimi hər hansı bir elm sahəsi hüdudlarından nəzərdən keçirilə bilər

Son illər elm və texnikanın güclü inkisafı, eləcə də cəmiyyətin bu yeniliklərə durmadan artmaqda olan tələbatı ilə laqədar olaraq innovasiya getdikcə daha çox sahibkarlıq fəaliyyətinin ayrılmaz hissəsinə çevrilməkdədir. İnnovasiya sahibkarlığının inkişafı zəruriliyi aşağıdakı amillərlə şərtlənir:

-istehsalın inkişafının intensiv amillərinin güclənməsi ilə. Bu iqtisadi fəaliyyətin bütün sferalarında ETT-nin tətbiq olunmasına imkan verir;

- yeni texnikanın işlənmsi və tətbiqi səmərəliliyinin yüksəldilməsidir elmin müəyyənedici rolu ilə;

- yeni texnikanın yaradılması, mənimsənilməsi müddətlərinin

- əhəmiyyətli dərəcədə azaldılması, istehsalın texniki səviyyəsinin yüksəldilməsi

zəruriliyi ilə, ixtiraçıların və səmərələşdiricilərin kütləvi yaradıcılığının inkişafı zəruriliyi ilə;

- elmi-texniki istehsal prosesinin spesifik xüsusiyyəti ilə.

Sahibkarlıq fəaliyyəti təcrübəsinə innovasiyaları tətbiq edərkən innovasiya prosesini ləngitməyə və ya sürətləndirməyə qabil amilləri: elmi-texniki, təskilati-idarəetmə, maliyyə, hüquqi, siyasi, sosial-psixoloji və mədəni amilləri tədqiq etmək və qiymətləndirmək lazımdır.

Sahibkarlıq fəaliyyətinin inkişafında innovasiya kimi marketinqin də böyük əhəmiyyəti vardır. Belə ki, xarici ölkələrin sahibkarlıq fəaliyyəti ilə bağlı olan təcrübəsi göstərir ki, marketinq tədqiqatları aparılmadan daxili və xarici bazarda satış problemini düzgün həll etmək mümkün deyil. Müasir şəraitdə bazar iqtisadiyyatı və sahibkarlığın əsas tələbi öz fəaliyyətində “nə istehsal edilirsə onu satmaq” deyil, ən başlıcası “nə satılırsa‖ onu istehsal etmək” prinsipinə əsaslanmalıdır. Marketinq tədqiqatları nə vaxt, hansı çeşiddə və miqdarda, hansı qiymətə kimin üçün, nə istehsal etməli, həmçinin mal yeridilişi və satış vaxtını müəyyən etməyə imkan verir.

Nəzərə almaq lazımdır ki, bazarın öyrənilməsi, malların konkret növlərinin istehsal proqramının hazırlanması, uyğun kommunikasiyanın və malların daşınmasının dəqiq təşkili, optimal qiymət və tariflərin müəyyən edilməsi, servis xidmətinin genişləndirilməsi, mal bazarlarının infrastrukturunun formalaşdırılması və fəaliyyəti marketinqin əsaslarının tərkibinə daxildir.

Marketinq tədqiqatlarını həyata keçirən sahibkarlar nəzərə almalıdırlar ki, müəssisənin öz sənədlərindən səmərəli istifadə edilməsi marketinq məlumatlarının yığılması üçün göz qabağında olan, lakin çox vaxt kafi olmayan başlanğıc nöqtəsidir. Şirkətlərdə tez-tez, marketinq qərarlarının

əsaslandırılması üçün istifadə edilə biləcək əhəmiyyətli həcmdə informasiya gözlənilməyən yerlərdə misal üçün, mühasibatlıqda saxlanılır. Müxtəlif amillər haqqında informasiyaları, misal üçün, alışı kimin etdiyini və hansı həcmdə etdiyini hesab-fakturaların uçot məlumatlarından əldə etmək olar. Analoji qaydada, alışların uçotu məlumatları əsasında müştərilərin loyallığı modelləri haqqında nəticələr çıxartmaq, müştərilərin alışlarındakı boşluqları müəyyən etmək və daha dəyərli müştəriləri aşkarlamaq olar.

Təəssüflə qeyd etmək lazımdır ki, kiçik bizneslə məşğul olan çox sahibkarlar marketinq tədqiqatının aparılmasına şübhəli yanaşırlar. Bu onunla izah olunur ki, onlar sadəcə marketinq tədqiqatının mahiyyətini düzgün başa düşmürlər və bu işə vəsait sərf etmək istəmirlər.

Bəzi sahibkarlar isə marketinq tədqiqatının aparılmasını aşağıdakı səbəblərlə izah edirlər:

- vaxtın olmaması;
- birliyin olmaması;
- vəsaitin olmaması;
- marketinq nəticələrinin təcrübədə tətbiqi imkanlarının olmaması.

Nəzərə almaq lazımdır ki, hər hansı bir məsələ haqqında ətraflı informasiya olmadan düzgün qərar qəbul etmək olmaz. İnformasiya əldə etməyin ən sadə və səmərəli üsulu marketinq tədqiqatının aparılmasıdır.

Aparılan tədqiqatların yekun nəticəsi olaraq demek olar ki, bu sahədə bəzi problemlər vardır. Bu sahənin ölkəmizdəki ən aktual problemi ixtisaslı kadrların sayının çox az olmasıdır. Demək olar ki ―Marketinq ixtisası inkişaf etmiş qərb ölkələrinə nisbətdə bizim ölkəmiz üçün yeni ixtisasdır. Ölkəmizdə keçmiş fikirlər təəssüflər olsun ki hələ də qalmaqdadır. Ona görə də çalışmaq lazımdır ki, ixtisas seçən gənclər bu sahəyə doğru istiqamətləndirilsin, onlarda bu sahəyə maraq yaradılsın. Ümumilikdə çalışmaq lazımdır ki, ali ixtisas müəssisələrində bu ixtisasın praktiki hazırlığına da çox böyük önəm verilsin.

Eyni zamanda nəzərə almaq lazımdır ki, bazar şəraitində innovasiya sahibkarlığının xüsusiyyəti ondan ibarətdir ki, o, iqtisadi funksiyanı yerinə yetirir, basqa sözlə desək, milli və benəlxalq səviyyədə istehsal təcrübəsinin yayılmasına kömək etməklə kommersiya və qeyrikommersiya mübadiləsinə elmi-texniki nailiyyətləri cəlb edir. ənnovasiya sahibkarlıgının belə bir mühüm fərqləndirici xususiyyəti innovasiya bazarı subyektlərinin ikili rolu sayılır. Bu isə ondan ibarətdir ki, innovasiya məhsulunun istehsalçıları olan müəssisələr eyni vaxtda bu cür məhsulların istehsalçıları bazarında elmi-texniki məhsulların alıcıları, eləcə də istehlakçılarla qarsılıqlı əlaqədə innovasiya məhsulunun satıcıları sayılırlar. Öz növbəsində innovasiya məhsulunun satıcıları arasında rəqabət mübarizəsi innovasiya müəssisələrinin rəhbərlərini istehsalın texniki səviyyəsini və ya göstərilən xidmətlərin səviyyəsini yüksəltməyə, keyfiyyəti yaxşılaşdırmağa, istehsal xərclərini aşağı salmağa və

fəaliyyət effektivliyin yüksəltməyə sövq edir. Nəticədə innovasiya bazarında rəqabət müəssisənin innovasiya fəaliyyətinin inkişafını stimullaşdırır.
İnnovasiya sahibkarlığında marketinqin inkişafı mexanizminin tətbiqindən əsas nəticələri aşağıdakı kimi istifadə etmək məqsədəuygundur
- İnnovasiya potensialının yüksəldilməsi.
-ÜDM-da nnovasiya məhsullarından gəlirlərin payının artması.
-İnnovas iya məhsullarının buraxılışını xarakterizə edən göstəricilərin artımı.
-Kiçik innovasiya sahibkarlıgı subyektlərinin əsas istehsal fondlarının sürətli təzələnməsi və modernizasiyası.
-İnnovasiya və sosial infrastrukturun formalaşması və inkişafı.
-İnkisafın strateji resursu kimi innovasiya mədəniyyətinin formalaşması

ƏDƏBİYYAT

1. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf Problemeləri. Bakı, 1998.
2. Axundov S.Ə. Marketinqin əsasları. Bakı, 2001.
3. Axundov M.Ə. Strateji idarəetmə. Bakı, “Ağrıdağ”, 2001.
4. “Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri” mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2003.
5. Atakisiyev M.C., Süleymanov Q.S. “İnnovasiya menecmenti”, Bakı, 2004.
6. Niftullayev V. Sahibkarlığın əsasları. Bakı, Zaman, 2003.

РЕЗЮМЕ

МАДИНА АЛЛАХВЕРДИЕВА

МАРКЕТИНГОВАЯ ОРГАНИЗАЦИЯ В СФЕРЕ ИННОВАЦИОННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

Сегодня главной целью стратегии социально-экономического развития автономной республики является создание более благоприятных условий для развития частного сектора и деловой активности. С каждым годом увеличивается объем льготных кредитов, выделяемых на развитие предпринимательства в Нахчыванской Автономной Республике.
Следует отметить, что невозможно представить рыночную экономику без учета предпринимательской деятельности. потому что способ развития рыночной экономики идет через дальнейшее совершенствование предпринимательской деятельности, целенаправленные реформы и увеличение занятости.

Ключевые слова: Нахичеванская автономная республика, предприниматель, инновации, ETT. информационные технологии, маркетинг

SUMMARY

MADINA ALLAKHVERDIYEVA

MARKETING ORGANIZATION IN INNOVATION ENTREPRENEURSHIP

Today, the main goal of the socio-economic development strategy in the autonomous republic is to create a more favorable environment for private sector development and business activity. Every year the volume of preferential loans allocated for the development of entrepreneurship in Nakhchivan Autonomous Republic is growing.

It should be noted that it is impossible to imagine the market economy without considering entrepreneurial activity, because the way in which the market-driven economy develops is going through further improvement of entrepreneurial activity, purposeful reforms and increase of employment.

Keywords: Nakhchivan Autonomous Republic, entrepreneur, innovation, information technology, marketing

(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

FİLOLOGİYA

NURLANA ƏLİYEVA
“Naxçıvan” Universiteti
n.memmedova@nu.edu.az

İSLAM SƏFƏRLİ POEZİYASINDA MÜHARİBƏ MÖVZUSU

Məqalədə zəngin yaradıcılıq irsinə malik olan görkəmli şair İslam Səfərlinin yaradıcılıq yolu, xüsusilə şairin poeziyasında müharibə mövzusu əhatəli şəkildə təhlil olunmuşdur. İslam Səfərli poeziyasında müharibə mövzusu geniş bir məfhumdur. Çünki şairin özü müharibədə iştirak etmiş, həmin günlərin şahidi olmuş və bu mövzuda saysız-hesabsız şeirlər, poemalar yazmışdır. Məqalədə İslam Səfərlinin müharibə mövzusunda yaratdığı poeziya nümunələrinin geniş və əhatəli şəkildə təhlilindən ibarətdir.

Açar sözlər: şair, müharibə, qələbə, poeziya, kəşfiyyatçı

Hər bir sənətkar öz yaradıcılığı ilə özündən sonra bir abidə yaradır. Ürəklərimizdə yaranan belə abidələrdən biri də İslam Səfərli abidəsidir. İ.Səfərli qədim diyarımız Naxçıvanda dünyaya göz açıb. Yaradıcılığa çox erkən başlıyıb. İlk şeiri “Ədəbiyyat” qəzetində (1940) çap olunanda onun cəmi 17 yaşı vardı. Elə təzəcə ədəbi aləmdə tanınmışdı ki, müharibə başlandı. Zəngin yaradıcılıq irsinə malik olan görkəmli şair İslam Səfərli 1941-1945-ci illər müharibəsinin bütün dəhşətlərini görmüş və bu keşməkşli həyat yolu şairin yaradıcılığında, xüsusilə poeziyasında əhatəli şəkildə əks olunmuşdur. Lap yeniyetmə yaşlarından cəbhəyə gedib əvəllər məşhur 416-cı Taqanroq diviziyasının tərkibində vuruşan, sonralar Şimali Qafqazdan Krıma, Ukraynaya, Baltik ölkələrinədək ağır döyüşlərdə iştirak edən, mahir kəşfiyyatçı kimi böyk şücaətlər göstərən, yaralı vəziyyətdə də öz əzmini və qürurunu itirməyərək düşmənə ağır həmlələr endirən şairin müharibəyə getdiyi ilk gündən Qələbə gününə qədərki hadisələri dolğun şəkildə qələmə alması onun yüksək istedadının, eyni zamanda böyük Vətən sevgisinin təzahürü kimi diqqəti cəlb edir. Şairin həyat yoluna və ədəbi irsinə həsr olunuş mənbələrdə (1,səh.32) Naçıvanın Sarvanlar məhəlləsindən cəbhəyə yollanan 13 nəfərdən birinin də İslam Səfərli olduğu qeyd edilir. Ancaq şairin müharibə dövrü həyatını əks etdirən ən tutarlı mənbə özünün yaradıcılığı, xüsusilə müharibə mövzusunda yazdığı şeirləridir:

Onüçlərim! Onüçlərim!
Bir geyindik şineli biz.
Bir and içdik al bayrağa,
Bir döyündü ürəyimiz (2, səh.37).

Əsgər şineli geyinib al bayrağa and içən minlərlə gənclərdən biri kimi, yolu odlardan – alovlardan keçən şairin, müharibənin ilk günlərindən qəlbi intiqam hissi ilə döyünür, o, böyük gələcək uğrunda düşmənə nifrət hissi ilə yaşayaraq qaniçən yağıları lənətləyir. Cəbhədə ağır döyüşlərin iştirakçısı olan 18 yaşlı gənc şairin düşüncələri onun müharibə dövründəki yolunu, amalını əks elətdirir:

Tarix, baş əy əzmimizə,
alovlardan yaranmışıq.
Döyüşlərdə zəfər çalıb,
dəfələrlə sınanmışıq.
Cəbhələrə! Ər silahdaş,
bizik zəfər məşəlçisi.
Bizik böyük gələcəyin
sükançısı, müjdəçisi!..
...Nifrət bəşər düşmənինə!
Nifrət murdar itlərə!
Ölüm! İnsan qanı içən
o canavar Hitlerə! (1, səh.18).

1941-1945-ci illər müharibəsinin əksər iştirakçıları kimi İslam Səfərli də bu savaşda iştirakını Vətən borcunun yerinə yetirilməsi kimi qəbul edir və bu amal uğrunda od-alov içərisindən keçir. Döyüş meydanında hər anın bir hökmü olduğunu etiraf edən şair insanı yaşadan yalnız Vətən eşqi olduğunu, övladsız Vətən, Vətənsiz övlad məfhumunun mümkünsüz olduğunu poetik dillə dolğun şəkildə mənalandırır:

Döyüşdə hər anın hökmü başqadır,
Bir polad sipərə çevrilir bədən.
Övladı bir Vətən eşqi yaşadır,
Vətənsiz övlad yox, övladsız Vətən! (2, səh. 76).

İslam Səfərlinin müharibə mövzusunda yazdığı poeziya nümunələri içərisində "İtkin şahin", "Qərbi Berlindəki yaşıdım oğlana", "Üçüncü hərb istəmirik", "Onüçlər", "Səngərsiz döyüş", "Döyüşçünün xəyalı", "Xatirə", "Axı necə oldu ki..." və s. şeirlər ağır müharibə illərinin bütün dəhşətlərini, ağrı-acılarını əks etdirməklə yanaşı, şairin özünün də o əzablı yollardan keçə-keçə həmin qanlı-qadalı günlərin bədii salnaməsini yaratmasından, o dövr insanlarının duyğu və düşüncələrindən də ətraflı söz açır. Bu nöqteyi-nəzərdən şairin "Qərbi Berlindəki yaşıdım oğlana" şeiri çox xarakterikdir:

Bir vaxtda doğulmuşuq
İkimiz də anadan.
Fərqimiz ondadır ki,
Mən odlar yurdundanam,

Sənsə Almaniyadan(3, səh.44).

kimi çox sadə bir dillə təsvir edilən şeirdə müəllif öz yaşıdı olan alman oğlu ilə öz həyatını, keçdiyi yolları müqayisə edir, uşaqlıq dövrünə, məktəb həyatı illərinə, hər ikisinin Vətən məfhumuna münasibətlərinə, hər ikisinin hansı niyyət və məqsədlər uğrunda mübarizələr aparmasına nəzər salınır, nəhayət müharibənin nəticələrinin onların hansına nə qazandırdığı poetik şəkildə ifadə olunur:

Dörd il acıya dözdüm,
Dörd qış səngərdə yatdım.
Döyüşlərdə bərkiyib,
Döyüşlərdə boy atdım.

Yaralı əsgər təki,
Sən Berlinə dönəndə.
Qalib bir əsgər kimi
Döndüm yurduma mən də (3, səh.47).

İslam Səfərli poeziyasında müharibə mövzusu onun poemalarında daha qabarıq şəkildə özünü göstərir. Xüsusilə şairin “Yaralı nəğmə”, “Çex qızının məhəbbəti ” və “Sınaq gecəsi” poemaları bu mövzuda yazılmış ən yaxşı poeziya nümunələri kimi diqqəti cəlb edir. “Yaralı nəğmə” poemasında beş nəfər kəşfiyyatçının hərbi tapşırığı yerinə yetirərkən baş verən hadisələr təsvir edilir. Eyni zamanda müəllifin çox sadə, poetik dillə adi detallarla təsvir etdiyi kiçik bir epizod o ağır illərin ağrı-acılarını inandırıcı və təbii boyalarla əks etdirir:

İşıqlı güllələr
Dumanı yardı.
Başımız üstündə
tufan qopardı.
Gəldi, alov gəldi,
güllə nə gəldi,
Qazancamı dəldi.
çantamı dəldi.
Sındı, papağımdan
düşdü ulduzum.
Çox şükür qar üstdə
beşdi ulduzum.
Beşi də salamat,
beşi də canlı!
İkisi evlidir,
ikisi subay,
Biri nişanlı...(3, səh.70).

Ancaq müharibə nə evliyə, nə subaya, nə nişanlıya baxır... Təəssüf ki, az sonra həmin beş igid kəşfiyyatçıdan biri düşmən gülləsinin qurbanı olur. Həm də o, mahir bir nəğməkar, dilində çox nəğmələri yarımçıq qalan bir yeniyetmə idi. Əlbəttə, bu epizod bəlkə də şair təxəyyülünün məhsuludur, ancaq burda bir reallıq, eyni zamanda bir rəmzi məna var ki, müharibə çox ocaqları söndürüb, çox ürəkləri yaralı, çox nəğmələri yarımçıq qoyub. Elə məhz buna görə də müharibə mövzusunda ən yaxşı poemalardan birini "Yaralı nəğmə" adlandırmışdır.

İslam Səfərlinin müharibə mövzusunda yazdığı poemalar içərisində "Çex qızının məhəbbəti" poeması xüsusi yer tutur. "Böyük Vətən Müharibəsindən əlil qayıtmış tələbə dostum Əhəd Əliyevin dedikləri" epiqrafı ilə başlanan poema geniş və əhatəli süjet xətti, milli adət-ənənələrin mahiyyətinin izahı baxımından da diqqəti cəlb edir. Poemada qəhrəmanın ağır döyüşlərin birində gözlərini itirib əlil olması, hərbi xəstəxanada müalicə olunarkən çex qızı Erika adlı tibb bacısı ilə tanış olması, bu tanışlığınvə Erikanın dnya işığına həsrət qalan azərbaycanlı oğlana olan diqqət və ehtiramının məhəbbətə çevrilməsi və nəhayət onların hər ikisinin Azərbaycana dönüb ailə qurmaları, uzun müddət xoşbəxt həyat sürmələri təsvir edilir. Çex qızı Erika ilə Əhəd Əliyevin bir-birinə olan saf məhəbbətini poetik dillə təsvir edən müəllif sətiraltı mənada onu da ifadə etmişdir ki, eşq və məhəbbət kimi ali hiss göydən od-alov yağdığı günlərdə də unudulmur, yaşayır və zaman-zaman gələcək nəsillərə çatdırılır. Poema çox maraqlı bir sonluqla bitir:

Erika – çex dilində
Səhra gülü düməkdir.
Əhəd onu gətirib
Bizim səhrada əkdi (2, səh. 162).

Müharibə dəhşətlərini, insanlığa ölüm, ağrı-acılar gətirən hərb faciəsini əks etdirən "Sınaq gecəsi" poemasında da kəşfiyyatçı həyatının gizli məqamları, düşmənlə üz-üzə durma səhnələrində yaşanan göynərtilər təsirli və yaddaqalan çalarlarla təsvir edilir. Bu poemada şairin müharibəyə nifrəti, sülhə çağırış məqamları daha çox diqqəti cəlb edir.

Ümumiyyətlə, müharibə dəhşətlərinin hər üzünü görən İslam Səfərli müharibədən sonrakı illərdə yazdığı şeirlərində də sülhsevər bir qələm sahibi, insanları sülhə çağıran bir vətənpərvər kimi diqqəti cəlb edir. Onun

Sərt döyüşlər, fırtınalar
Oldu bizim nəsibimiz.
Cəbhələrdə qoyub gəldik.
Yarımızdan çoxunu biz (2, səh. 38).

Etirafından sonra uzun illər boyu da xəyallarında müharibəni canlandırmaq, döyüş səhnələrini yaddan çıxara bilməməsi, səngərlərdə

keçirdiyi günləri unuda bilməməsi həm müharibə illərində çəkdiyi ağrı-acıların, həm də müharibəyə nifrətin nəticəsi idi. Bu fikir şairin “Səngərsiz döyüş” şeirində də aydın şəkildə hiss olunur:

Yadımdan çıxmayır döyüş günləri,
Azı min səngərə sinə gərmişəm.
İllər dolansa da o vaxtdan bəri,
Elə bil cəbhəni dünən görmüşəm (2,səh.74).

Elə buna görə də şair, haqqında eşidib dəhşətlərini təsvir etdiyi Birinci Dünya Müharibəsi haqqında, iştirakçısı olub od-alovundan keçdiyi Böyük Vətən Müharibəsi haqqında bütün qənaətlərini ümumiləşdirəndən sonra “Üçüncü hərb istəmirik” şeirini belə yekunlaşdırmışdı:

Birincidə
Ağır həyat sürmüşük biz.
İkincisində
Min bir dəhşət görmüşük biz.
Biz palıdıq,
İndi daha tunc olmuşuq.
Biz poladıq,
Biz dəmirik.
Üçüncü hərb
İstəmirik!..
İstəmirik!.. (4, səh. 34).

Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus zəngin yaradıcılıq irsi qoyub gedən şair İslam Səfərli Azərbaycanın, o cümlədən doğulub boya – başa çatdığı qədim Naxçıvan diyarının əsrarəngiz gözəlliklərini əks etdirən poeziya nümunələrində olduğu kimi, dillər əzbəri olan nəğmələrində, dərin psixoloji prosesləri, ailə-məişət məsələlərini tam dolğunluğu ilə əks etdirən pyeslərində olduğu kimi müharibə mövzusunda yazdığı şeir və poemalarında zəngin poeziya ənənələrimizə sadiq qalmış, çox maraqlı və uzun ömürlü sənət nümunələri yaratmışdır. İslam Səfərlinin müharibə mövzusunda yaratdığı poeziya nümunələri xalqımızın tarixinin müəyyən dövrünün bədii salnaməsi kimi təqdirəlayiqdir.

ƏDƏBIYYAT

1. Əli Səfərli, Aybəniz Ağaqızı. Poeziyamızın İslam Səfərli zirvəsi. Bakı, “Nurlan”, 2006
2. İslam Səfərli. Seçilmiş əsərləri. Bakı, “Azərbaycan Dövlət Nəşriyyatı”, 1973
3. İslam Səfərli. Əbədi beşik. Bakı, “Yazıçı”, 1978

4. İslam Səfərli. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyatı", 2005
5. İslam Səfərli. Qağayılar yorulanda. Bakı, "Azərnəşr", 1964
6. İslam Səfərli. Dan ulduzu, bir də mən. Bakı, "Gənclik", 1974
7. İslam Səfərli.Torpağın ətri. Bakı, "Gənclik", 1967

РЕЗЮМЕ

НУРЛАНА АЛИЕВА

ТЕМА ВОЙНЫ В ПОЭЗИИ ИСЛАМА САФАРЛИ

В статье дан обширный анализ творческого пути, особенно темы войны в поэзии выдающегося поэта Ислама Сафарли.

Тема войны в поэзии Ислама Сафарли занимает обширное место. Потому что сам поэт был участником Второй мировой войны и написал множество стихотворений и поэм на эту тему. Статья состоит из обширного и всестороннего анализа написанных на тему войны поэтом Исламом Сафарли поэтических образцов.

Ключевые слова: поэт, война, победа, поэзия, разведчик**.**

SUMMARY

NURLANA ALIYEVA

THE THEME OF WAR IN THE POETRY OF ISLAM SAFARLI

In the article an extensive analysis of the creative path, especially the themes of the war in the poetry of the outstanding poet Islam Safarli was given.

The theme of war is a great notion in the poetry of Islam Safarli, as the poet is a war veteran, he witnessed those hard days and created a number of poem dedicated to these theme. The article contains wide and comprehensive analysis of İslam Safarli poetry on these theme.

Key words: poet, war, victory, poetry, explorer.

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

FƏRMAN XƏLİLOV
AMEA Naxçıvan Bölməsi
fermanhalilov@yahoo.com

SƏRİŞTƏLİ PUBLİSİST

Naxçıvan ədəbi mühitinin yetirməsi olan Seyid Səbrinin (1896-1974) mətbu və qeyri-mətbu məqalə və felyetonları onun publisistikası haqqında müəyyən mülahizələr söyləməyə imkan verir. Məqalədə onun “Şərq qapısı” qəzetində dərc edilən yazıları təhlil olunur. Müəllif araşdırmalar nəticəsində aydınlaşdırır ki, S.Səbri “Şərq qapısı” qəzetinin müxbiri kimi öz yazılarını daha çox 1925-1926-cı illərdə bu qəzetdə dərc etdirmişdir. Həmin yazılarda o, dövrü üçün aktual olan bir sıra problemləri gündəmə gətirmiş və diqqəti bu problemlərin həlli üzərinə cəmləşdirə bilmişdir.

Açar sözlər: Seyid Səbri, Naxçıvan, “Şərq qapısı” qəzeti, publisistika, sovet hakimiyyəti

XX əsrin əvvəllərində Naxçıvan ədəbi-mədəni mühitinin tanınmış simalarından biri olan Seyid Səbrinin (1896-1974) yaradıcılıq istiqamətləri çoxşaxəliliyi ilə diqqəti cəlb edir. O, 1920-ci ildən sonra yaranmış yeni ictimai-siyasi şəraitdə Naxşıvanda teatr və mətbuatın yaradılması və inkişaf etdirilməsində müəyyən xidmətlər göstərmişdir. S.Səbri həm də bədii və publisistik əsərləri ilə Naxçıvan ədəbi mühitində özünəməxsus bir iz qoya bilmişdir.

Biz bu məqaləmizdə S.Səbrinin “Şərq qapısı” qəzetində dərc olunan yazıları haqqında bəhs etməyi qarşımıza məqsəd qoymuşuq. Xatırladaq ki, bu qəzet varlığının ilk onilliyində öz səhifələrində “fəhlə, kəndli kütləsini təşkil edən və onları mədəni maarif yoluna” istiqamətləndirən, “şura işlərinin təşkili, koopetiv, kənd təsərrüfatı, su, torpaq məsələlərindən” bəhs edən yazıların dərc olunmasına üstünlük verirdi [1, s. 1]. Qəzetdə dünyada baş verən ictimai-siyasi proseslər, Naxçıvana aid “yeniliklər, təbəddülat, hadisat, nöqsan və müvəffəqiyyətlərə vaxtlı-vaxtında” [1, s.1] münasibət bildirilirdi. S.Səbri də “Şərq qapısı”nın fəal müxbirlərindən biri kimi öz yazılarını qəzetin bu tələblərini nəzərə alaraq yazırdı. Onun “Şərq qapısı”ında dərc olunan və əlimizə gəlib çatan yazılarını mövzusuna görə belə qruplaşdırmaq olar:

a) sovet hakimiyyətinin tərənnümü
b) maarif və mədəniyyətin təbliği
c) geriilik, xurafat və nadanlığın tənqidi
d) bəzi neqativ hallar və şəhər problemləri.

Əvvəlcə S.Səbrinin sovet hakimiyyətinin tərənnümünə həsr olunan yazılarını nəzərdən keçirək. Bu yazılardan biri bolşeviklərin lideri V.İ.Leninin

vəfatının ikinci ildönümü münasibətilə yazılıb. “Lenin yoxdur, yolu var” adlandırılan həmin məqalədə müəllif Lenini “sərvətdarlar (kapitalistlər – F.X.) aləmini tərpədən və tarixlər göstərməyən bir ali vücud” adlandırır, onun vəfatının “fəhlə və kəndliləri mütəssir”, “sərvətdarları isə şad və fərəhnak” etməsini vurğulayır. Müəllif “şura hökumətini” istəməyənləri “qarafikirli”, “sərvətdarları” “insan cəlladları” hesab edərək onlara xitabən özünəməxsus əminliklə yazır: “Haman sərvətdarlar bunu bilməlidirlər ki, Böyük Oktyabr inqilabı yaradan, dünyanın altıda bir hissəsini tutub yeni dünya bərpa edən və köhnə tarixi pozub təzə tarix yaradan bir qəhrəman ölməz... əgər Lenin yoxdursa, onun... fikri, yəni leninizm yaşayır və yaşayacaqdır” [8, s.3].

S.Səbrinin sovet hakimiyyətinin tərənnümü mövzusuna həsr etdiyi yazılarından biri də “Bu gün” sərlövhəsilə dərc olunmuşdur. Məqalə Naxçıvanda sovet hakimiyyətinin elan olunmasının altı illiyi münasibətilə yazılıb. Bu məqalədə də təmtəraqlı bir dillə “Naxçıvan ölkəsinin... kommunist firqəsinin rəhbərliyi altında yürüyüb... bir çox fəaliyyətlər” əldə etməsi, “kommunist firqəsinin varlığı ilə Naxçıvan ölkəsinin altı il yox, altı min il də bundan sonraya kimi hökmranlıq edəcəyindən” söz açılır. Müəllif bir qədər də irəli gedərək məqaləsini belə bitirir: “Kommunist firqəsi... Şərqi də şura eşqi ilə tənvir edəcək və Şərqin məzlum kütləsini... azadlığa çıxaracaqdır” [6, s. 4].

Haqqında bəhs etdiyimiz bu yazılardan hiss olunur ki, şura hökuməti vaxtilə yoxsulluq girdabından yaxa qurtarmağa can atan və bolşeviklərin şirin vədlərinə bənd olan S.Səbrinin Mirzə Cəlil demişkən, “hər babətdən məzaqına müvafiq” olmuşdur [4, s. 157].

Lakin zaman göstərdi ki, bolşeviklərin tilovuna düşən seyid səbrilərin tərənnüm etdiyi tarix səhnəsində 70 il zorla duruş gətirə bilən şura hökumətinin “altmış min il bundan sonra da yaşayacağı” haqqındakı xülyaları nə qədər boş, mənasız və çürük imiş. Bütün bunlara baxmayaraq, akademik İ.Həbibbəylinin bu məsələyə münasibətdə tutduğu mövqeyə haqq qazandırmaya bilmirik:”Şərq qapısı” qəzetini 1921-ci ildə mətbuat orqanı kimi sovet rejimi təsis etmişdi. Heç şübhəsiz, “Şərq qapısı”nda sovet quruluşunun ruhundan doğan, tələblərindən irəli gələn materiallar da az olmamışdır. Lakin qəzet fəaliyyətinin bütün dövrlərində maarifçilik idealını həmişə saxlaya bilmişdir” [2, s. 379].

Bu sözləri tamamilə S.Səbrinin fəaliyyətinə və təhlilini verdiyimiz yazılarına da aid etmək olar. Onun kommunist ideologiyasının təsiri və tələbləri ilə yazılan məqalələrinin də, demək olar ki, hamısının leytmotivini maarifçilik düşüncələri, təlim, təhsil və mədəniyyətin təbliği təşkil edir. Hətta sovet hakimiyyətini tərənnüm edən yazılarında da.

Leninə həsr olunmuş yazının sonluğuna diqqət edək: “Biz bu günləri Leninin vəfat günü olduqda başımıza vurub ağlamaq deyil, bəlkə dahimizin vəsiyyətinə əməl edib elmin dalınca gedib maarif və mədəniyyətə alışmalıyıq” [8, s. 3].

Yaxud götürək “Bu gün” məqaləsində işlədilən bu cümlələri: “Mövhumat dəryası sayılan Naxçıvan ölkəsinin hər bir yerində məktəblər

açılıbdır, teatrlar, qiraətxana və klublar düzəlibdir”; “Qəzetə, kitab üzünə həsrət qalan Naxçıvanın bu gün “Şərq qapısı” mətbəəsi vardır” [6, s. 4].

Beləliklə, aydın olur ki, S.Səbri sovet hakmiyyətinin tərənnümünə həsr etdiyi məqalələrini kommunist ideologiyası mövqeyindən yazsa da, müxbirlik etdiyi qəzetin simasına uyğun olaraq “maarifçilik idealını həmişə uca saxlaya bilmişdir”.

Seyid Səbrinin məqalələrinin bir qismi məktəb quruculuğu, şəhər və kənd müəllimlərinin ictimai həyatda fəallıqlarının artırılması və mətbuat məsələlərinə həsr olunmuşdur. “Darülmüəllimində”, “Yeni bina lazımdır”, “Axşam texnikumu lazımdır”, “Hansı vasitələrlə qəzetəmiz intişar tapar” adlı məqalələrdə bu məsələlərlə bağlı mülahizələri, iradları, arzu və təklifləri öz əksini tapmışdır.

1923-cü ildə yaradılan və 1939-cu ilədək fəaliyyət göstərən Naxçıvan Darülmüəllimini keşməkeşli bir yol keçərək təkcə Naxçıvan yox, Azərbaycanın digər regionları üçün də müəllim kadrları hazırlayan mötəbər bir təhsil ocağı olmuşdur [3, s. 26-36]. Muxtar respublikanın pedaqoji ictimaiyyəti və ziyalıları həmişə onun taleyi ilə maraqlanmış, qabaqcıl bir təhsil müəssisəsi kimi formalaşmasını arzu etmiş və bunun üçün əllərindən gələn köməklikləri əsirgəməmişlər.

Bir müxbir kimi Seyid Səbri də Darülmüəlliminin taleyinə biganə qalmamış, “Şərq qapısı”nda dərc etdirdiyi yazılarında onunla bağlı bəzi problemlərə toxunmuş və bu problemlərin aradan qaldırılmasına səy göstərmişdir.

Məsələn, o, qəzetin 22 fevral 1925-ci il nömrəsində həyəcanla bildirirdi ki: “Darülmüəllimində ikinci hazırlıq şöbəsinin altı tövlədir. Sinif çox pis qoxuyor... Əgər buna nəzər yetirilməzsə, tələbələr xəstələnər. Bir də jimnastik müəllimi yoxdur” [7, s. 4].

Başqa bir məqaləsində isə “Naxçıvanda maarif mənbəyi bir yer varsa, o da Darülmüəllimindir” yazır və təəssüflə onun yerləşdiyi binanın özünə layiq olmadığını vurğulayır: “Darülmüəlliminin şimdilik binası layiqli bina deyil. Pansion olması üçün otağı, klubu və qiraətxanası yoxdur... Naxçıvan mərkəzi bir şəhər olduğu üçün lazımdır gərək şəhərin darülmüəlliminin də layiqli klubu olsun” [15, s. 1]. Yazıda S.Səbrinin bir təklifi də öz əksini tapmışdır: “Böyləncə nöqsanları bir qədər çalışıb və bir qədər də para sərf etməklə rəf etmək olar”.

S.Səbrinin “Axşam texnikumu lazımdır” adlı məqaləsində daha ciddi və faydalı bir məsələyə toxunulur. Müəllif bildirir ki, Naxçıvanda axşam pedaqoji texnikumunun açılmasına ehtiyac vardır. O bu fikrini belə əsaslandırır: “Naxçıvan şəhərində bir dərəcəli məktəb bitirənlər içərisində kasıb ailədən olanlar az deyildir. Hansılar ki, gündəlik çörəyi qazanmaq dərdindən darülmüəllimində davam edə bilmədikləri kibi, ailə vəziyyətinin çətinliyindən dolayı başqa şəhərlərdə oxumağa gedə bilmiyorlar... Məktəblərimizdə dərs verməkdə olan müəllimlərimizin bəzilərinin bilikləri azdır” [5, s. 3]. Bu səbəbləri diqqətə çatdıran S.Səbri qətiyyətlə bildirir: “Oxumaq arzusunda olaraq fəqirlikdən gündüz oxumağı mümkün etməyən gənclərimiz və biliklərini

artırmaq arzusunda olan müəllimlər üçün Naxçıvan Maarif Komisarlığı bir axşam pedaqoji texnikumu açılmalıdır".

Müəllif təklifinin təsirini artırmaq üçün aid orqanlara bir xatırlatma da edir: "Başqa şəhərlərdə bu kibi oxumaq arzusunda olanlar üçün əmələ fakültəsi və başqa bu kibi bir çox məktəblər varsa da, fəqət Naxçıvanda hələ indiyə qədər o cür məktəblərin açılmasına heç təşəbbüsat olunmur".

Şəhər və kənd müəllimlərini ictimai işlərə qoşaraq və fəallıqlarını artırmaq da S.Səbrini düşündürən məsələlərdən biri olmuşdur. "Hansı vaitələrlə qəzetəmiz intişar tapar" adlı məqaləsinin əsas mövzusu "Şərq qapısı" qəzetinin tirajının artırılması üçün görülməli olan işlərin təşkili olsa da müəllif nəinki təkcə şəhər və kənd müəllimlərini hətta yerli iqtidarlı yazıçıları da Naxçıvan mühitində bir çox siyasi, iqtisadi, həyati, maddi və mənəvi nöqsanları və ehtiyacları rəf etməyə dəvət edir.

Müəllif "Şərq qapısı"nın tirajının artırılmasında müəllimlərin, xüsusilə kənd müəllimlərinin gücündən istifadə etməyin faydasından söz açaraq yazır: "İqtidarlı yazıçılarımız, kənd müəllimlərimiz kəndi fikirlərini bir qədər şu qəzetəmizin inişar tapmasına verərlərsə, o vaxt qəzetəmiz külli miqdarda nəşr edilər və həftədə iki dəfə yox, gündəlik qəzetə olar" [9, s. 2].

Məqalədə bu istiqamətdə işlərin təşkili üçün bəzi tövsiyələr də verilir: "Müəllimlərimiz nə cür çalışmalıdırlar? Əvvəl müəllimlərimiz kəndlilərin hallarından və ehtiyaclarından yazıb qəzetəmizə verməlidirlər. Sonra kənd məktəblərində oxuyan şagirdlər və bisavadlar kursunda çalışan bəzi bacarıqlı müdavimləri həmin "Şərq qapısı" qəzetəmizə abunəçi yazdırmalıdır. Tainki kəndli mətbuat aləmi ilə tanış olsun, həm də savadı artsın".

S.Səbrinin gerilik, xurafat və nadanlığın tənqidinə həsr olunan yazılarını da maarif və mədəniyyəti təbliğ edən məqalələrinin tərkib hissəsi hesab etmək olar. "Tazə həkim", "İt boğuşdurmaq" məqalələri bu qəbildəndir. "Tazə həkim" məqaləsinin "qəhrəmanı" qadınların avamlığından istifadə edərək pullarını əllərindən alan Sarvanlar məhəlləsinin sakini Kərbəlayi Məhəmmədin simasında fırıldaq işlərlə məşğul olanlar ifşa edilir. Müəllif Kərbəlayi Məhəmmədi gülünc vəziyyətə salaraq oxucularda ona qarşı nifrət oyada bilir. Əvvəlcə onun "fəzilətlərini" sadalayır: "Hər hansı qadının uşağı olmasa, ona həm dava, həm dua verir ki, tezliklə uşağı olsun və hər kimin qolu-qıçı ağrıyırsa, dərman və dua ilə yaxşı edir. Hər kimin nəyi itibsə, cinləri yığıb o itən şeyin yerini biliyor və yainki hər kimin bir qohumu uzaq müddətdir ki, başqa yerə gedib, yenə dua ilə tezliklə gətirdir" [14, s. 2]. Sonra müəllif diqqəti bu "əlifbanı da bilməyən" "qıçı şikəst" tipin vədləri ilə əməlləri arasındakı uyğunsuzluğa yönəldir: "Soruşduqda ki, pəs nə üçün öz qıçına dua yazmıyorsan? Cavabında diyor ki, həmin qıçımı cinlər qoymuyor yaxşı olsun".

S.Səbrinin acı gülüşləri ilə müşayiət olunan "İt boğuşdurmaq" yazısı isə belə başlayır: "Naxçıvan cümhuriyyətində davam edən fəna hərəkətlərdən birisi də it boğuşdurmaqdır" [10, s. 4]. Oxucuların diqqətini özünün tənqid hədəfinə yönəldən müəllif təkcə it boğuşdurmağın "fəna hərəkət" olduğunu yox, "itlərin boğuşması əsnasında" nədənsə narazı qalan iki doğma qardaşın –

it sahiblərinin özlərinin də “boğuşmasını” “insaniyyətə yaraşmayan hərəkətlər” adlandırır və belə nəticəyə gəlir ki, bu cür hərəkətlərin “avam camaatımızın içərisindən qaldırmaq lazımdır”.

Bu yazılar bir daha sübut edir ki, S.Səbri gerilik, nadanlıq və xurafatı tənqid edərkən də əslində maarifçilik missiyasını yerinə yetirmişdir.

Təkcə “Şərq qapısı”nın müxbiri olduğu üçün yox, həm də doğma diyarını sevən bir vətəndaş kimi yaşadığı məkanda baş verən bəzi neqativ hallar və problemlər də S.Səbrini narahat edirdi. Onun belə məsələlərə münasibəti “Su işçilərinin yaxşılarından istifadə etməli”, “Oğurluq”, “Məhkəmədə”, “Kooperativ lazımdır” adlı yazılarında öz əksini tapmışdır. “Su işçilərinin yaxşılarından istifadə etməli” yazısı ikicə cümlədən ibarətdir. Birinci cümlə belədir: “Su işlərinin qarma-qarışıq olmasına olan səbəblərdən biri də bacarıqlı su işçilərinin olmamasıdır” [13, s. 4]. Yeri gəlmişkən, S.Səbrinin bundan başqa da elə yazıları vardır ki, (“Şuralar seçkiləri necə keçdi Naxçıvanda”, “Kooperativ lazımdır”) ya iki, yada üç cümlədən ibarətdir [11, s. 3; 12, s. 2]. Lakin həcminin kiçikliyinə baxmayaraq, bu yazılar müəyyən təsiredici əhəmiyyət daşımışdır.

“Oğurluq” və “Məhkəmədə” yazıları da həcmcə çox böyük deyil. Bu yazılarda Naxçıvan Xalq Ədliyyə Məhkəməsində möhtəkirlik və dövlət əmlakını mənimsəməklə bağlı işlərə baxılması və cinayətkarların layiqincə cəzalandırılmasından bəhs olunur. “Oğurluq” yazısının “qəhrəmanları” Naxçıvan torpaqlarında sığınacaq tapan və hər addımında xəyanət niyyəti olan ermənilərdir: “Tiqran Qazarov nalbənd olduğu üçün Culfada işləməyə getmiş, orada Aram Babayevlə bərabər işlədiyi zaman hökumətə təəllüğü olan (aid olan - F.X.) dəmirləri kəsib nal qayırıb xstırmışlar. Avenis Melkumov isə bu hərifərin tutduqları cinayət işindən xəbəri olduğu halda hökumətə verməmiyinə görə müqəssir hesab olunur” [16, s. 4].

Yazıda o da xəbər verilir ki, bu cinayətkarlar tutduqları əmələ görə məhkəmə tərəfindən 18 ay azadlıqdan məhrum edilmişlər.

S.Səbri məqalələrini təkcə nöqsanları göstərmək xatirinə yazmırdı. O tənqidi münasibət bəslədiyi məsələlərin həlli üçün məsuliyyət daşıyan rəsmi dövlət orqanlarını hərəkətə gətirmək üçün də cəhdlər edirdi. Məsələn: “Yaxşı olardı ki, Xalq Maarif Komissarlığı tezliklə bi jimnastik müəllimi verəydi, tainki gündə bir saat şagirdlər jimnastik dərsə məşğul olaydılar” [7, s. 4].

Yaxud: “Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Maarif Komissarlığının nəzər-diqqətini cəlb edib tezliklə gələn il üçün yeni darülmüəllimin binasının tikdirilməsini arzu ediyoruz” [15, s. 1].

Və ya: “Məhəl aidlərin nəzər-diqqətini bu məsələyə cəlb edib lazımi ölşülər götürmələrini, mövhumat içərisində qalan qadınların mövhumatdan azad olmalarını və mövhumatın yüksəlməyib bəlkə məhv çalışmalarını bəkliyoruz” [15, s. 2].

Beləliklə, S.Səbrinin “Şərq qapısı”nda dərc olunan yazılarının təhlili göstərir ki, o, fəal bir müxbir kimi dövrü üçün aktual problemləri gündəmə

gətirmiş və özünəməxsus bir tərzdə oxuculara təqdim edə bilmişdir. Şübhə etmirik ki, onun yazılarının müəyyən əməli nəticəsi də olmuşdur.

ƏDƏBİYYAT

1. Birinci ümumnaxçıvan müxbirlər qurultayı. "Şərq qapısı" qəz., 23 avqust.
2. Həbibbəyli İ. "Şərq qapısı"nın üfüqləri / Həbibbəyli İ. Nuh çıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015, s. 378-382.
3. Xəlilov F. Maarif fədaisi: Həsən bəy Qazıyev. Naxçıvan: Əcəmi, 2016, 88 s.
4. Məmmədquluzadə C. Seçilmiş əsərləri. Dörd cilddə. Tərtib edəni və izahların müəllifi İ.Həbibbəyli. II c., Bakı: "Öndər" nəşriyyatı, 2004, 584 s.
5. Səbri S. Axşam texnikumu lazımdır // "Şərq qapısı" qəz., 1925, 1 oktyabr.
6. Səbri S. Bu gün // "Şərq qapısı" qəz., 1926, 28 iyul.
7. Səbri S. Darülmüəllimində // "Şərq qapısı" qəz., 1925, 22 fevral.
8. Səbri S. Lenin yoxdur, yolu var // "Şərq qapısı" qəz., 1926, 21 yanvar.
9. Səbri S. Hansı vasitələrlə qəzetəmiz intişar tapar // "Şərq qapısı" qəz., 1925, 11 mart.
10. Səbri S. İt boğuşdurmaq // "Şərq qapısı" qəz., 1925, 4 aprel.
11. Səbri S. Kooperativ lazımdır // "Şərq qapısı" qəz., 1926, №9.
12. Səbri S. Şuralar seçkiləri necə keçdi Naxçıvanda // "Şərq qapısı" qəz., 1926, №7.
13. Səbri S. Su işçilərinin yaxşılarını istifadə etməli // "Şərq qapısı" qəz., 1925, 8 sentyabr.
14. Səbri S. Tazə həkim // "Şərq qapısı" qəz., 1925, 17 mart.
15. Səbri S. Yeni bina lazımdır // "Şərq qapısı" qəz., 1925, 17 mart.
16. Səbri S. Məhkəmədə // "Şərq qapısı" qəz., 1925, 16 oktyabr.

РЕЗЮМЕ

ФАРМАН ХАЛИЛОВ

ОПЫТНЫЙ ПУБЛИЦИСТ

Опубликованные и неопубликованные статьи и фельетоны С.Сабри (1896-1974), бывшего воспитанника нахчыванской литературной среды, дают возможность высказать определенное суждение о его публицистике.

В статье анализируются его статьи, опубликованные в газете «Шерг гапысы».

В результате исследования автор смог выяснить, что С.Сабри в качестве корреспондента газеты "Шерг капысы" чаще всего публиковался в 1925-1926 годах. В данных статьях он выносил на повестку дня ряд актуальных для своего времени проблем и смог сосредоточить внимание общества на их решении.

Ключевые слова: Сеид Сабри, Нахчыван, газета "Шерг капысы", публицистика, советская власть.

SUMMARY

FARMAN KHALILOV

COMPETENT PUBLICIST

The author of the 20th century of Nakhchivan literary environment, S.Sabri’s(1896-1974) published and unpublished articles and feuilletons give an opportunity to deliberate on his publicity.

In this article his writings published in “Sharg gapisi” newspaper are analyzed.

In the result of investigations the author find out that as a correspondent in “Sharq qapisi” newspaper, S.Sabri has published his writings mainly in the years of 1925-1926 in this newspaper. In those articles he brought up some topical problems for his century and could draw everyone’s attention on these problems.

Key words: Sayid Sabri, Nakhchivan, “Sharg gapisi” newspaper, publicity, Soviet empire.

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

QƏNİRƏ ƏSGƏROVA
Naxçıvan Dövlət Universiteti
qenire@hotmail.com

HÜSEYN CAVİD DİLİNİN BƏZİ LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə Hüseyn Cavidin ədəbi dilinə münasibətindən bəhs olunur. Bu baxımdan, XX yüzilin əvvəlində ədəbi dilimizin norma vəziyyətini əks etdirən faktlar qruplaşdırılıb təhlil edilir. Şairin dilində türk ədəbi dilinin izlərini əks etdirən fonetik və leksik-qrammatik əlamətlər Hüseyn Cavidin yaradıcılığından alınmış örnəklərlə əsaslandırılır.

Açar sözlər: Hüseyn Cavid, ədəbi dil, leksik-qrammatik xüsusiyyətlər, norma, fonetik xüsusiyyətlər.

Müstəqil düşüncə sahiblərindən olan Hüseyn Cavidin Azərbaycan ədəbi dilində özünəxas və seçkin mövqeyi vardır. O, Azərbaycan ədəbi dilinin mürəkkəb və mübahisəli bir mərhələsində - XX yüzilin əvvəlində (Azərbaycan ədəbi dilinin türk ədəbi dilinə meyil etdiyi bir dövrdə) yaradıcılığa başlamışdır. Onun dili bir tərəfdən öz təfəkkür mədəniyyətini, digər tərəfdən həmin dövrdə türkçülüyün yaranması, formalaşması və inkişafının təsirini əks etdirir. “İctimai fikir tariximizdə türkçülüyün bir ideya cərəyanı kimi meydana çıxmasına səbəb, hər şeydən əvvəl, Azərbaycanın o zamankı ictimai-siyasi şəraiti idi. Vətəni parçalanan, işğal edilən, milli varlığı tapdanan, dini, dili təhlükə qarşısında qalan vəziyyəti idi” (1, 41).

Sözügedən dövrdə romantiklər ədəbi dilimizdə üç əsas məqsədi həyata keçirmək uğrunda mübarizə aparırdılar. Bunlardan biri türk şivələri arasındakı bir sıra fərqlərin aradan qaldırılması ilə bağlı idi. Bu məsələ o zaman ədəbi dil sahəsində böyük problem kimi diqqəti çəkirdi. “Azərbaycanda Qarabağ, Gəncə, Şirvan və s. şivələri, Osmanlı, İran sərhədinə yaxın olanların, Rusiyada yaşayan türklərin öz şivələri mövcud idi. Bu şivələrin bir araya gəlməməsi vahid dilin inkişafına mane olurdu” (3, 14). İkinci əsas məqsəd İstanbul türkcəsinin Azərbaycanda yayılması idi. Romantiklərin, demək olar ki, hamısı İstanbul türkcəsini dərin fikirləri ifadə etməyə qadir olan bir dil kimi dəyərləndirir və ona yüksək münasibət formalaşdırmağa çalışırdılar. Üçüncü ən böyük məqsəd isə ortaq türk dilinin yaradılması idi ki, bu məsələ çağdaş dövrümüzdə də aktualdır. Bu məqsədlər işığında yazıb-yaradan Hüseyn Cavidin dilində özəlliklərin olması təbiidir. Bu, bir tərəfdən də onun İstanbulda ali təhsil alması, Türkiyə ədəbiyyatının, xüsusilə Sərvəti-fünunçuların güclü təsiri altında olması ilə bağlı idi. Türkçülük ideyalarının təbliğinə əsərlərində daim yer ayırması onun da ümumtürk ədəbi dilinin tərəfdarı olmasına və məhz

həmin dildə yazmasına səbəb olmuşdu. 1917-ci ildə “Hərb və fəlakət” şeirində “Səni qurtarsa, qurtarır birlik” qənaəti ilə çıxış etməsi də Hüseyn Cavidin ümumtürk ədəbi dili ideyasına xüsusi önəm verməsinin ifadəsi idi.(13)

Saldırıb titirətirdi yer üzünü
“İttihad!” iştə ən böyük ideal
Səni qurtarırsa,qurtarır birlik,
Çünki birlikdədir,fəqət dirlik.(4,51)

Hüseyn Cavid də bir çox türkçülər kimi belə hesab edirdi ki, ümumtürk ədəbi dili türk millətinin vahidliyini, mövcudluğunu göstərən ən parlaq təzahürdür. “Dilsiz bir millət çapıq münqəriz olur (məhv edilmiş), bir millətin lisanı mövcudiyyətinin ən parlaq bürhanıdır” (faktıdır) (5, IV c.,185). Buna görə də Cavidin dil anlamı ümumtürk ədəbi dili-vahid türkcə anlayışına uyğun gəlirdi və bu qənaətin nəticəsi olaraq o əsərlərində təkcə Türkiyə türkcəsindən sözlər işlətməklə kifayətlənmirdi, onun dili: “Bütün tələffüz norması, morfoloji-sintaktik quruluşu, lüğət tərkibi ilə türkcəyə uyğun gəlir” (10, s.217). Türkiyəli tədqiqatçı Mustafa Haqqı Türkəqul 1963-cü ildə İstanbulda çap olunmuş “Hüseyn Cavid” kitabında Hüseyn Cavid əsərlərinin dili barədə olduqca dəqiq mülahizələr irəli sürmüşdür: “Hüseyn Cavidin dili Azərbaycan daxilində, istərsə də Azərbaycan xaricində ən çox münaqişə və mübahisə olunan bir mövzudur. Məlum olduğu kimi, İstanbul türkcəsi ilə Azərbaycan türkcəsi arasında ufaq da olsa bir ləhcə fərqi vardır. Cavid İstanbul türkcəsini mənimsəmiş, bu şivəni incəliklərinə qədər öyrənmişdir. Yaradıcılığının ilk dövrlərində, bilhassə şeirlərində, İstanbul şivəsini məharətlə kullanan şair, sonralar yaratdığı əsərlərində bu şivəni Azərbaycan ədəbi türkcəsinə yaxınlaşdırmağa çalışmış və demək olar ki, bu işdə müvəffəq olmuşdur. Bunun üçün də Cavidin türkcəsinə nə tamamilə İstanbul türkcəsi, nə də tamamilə Azərbaycan ədəbi türkcəsi demək qabildir. Cəsarətlə deyə bilərik ki, Cavid bu iki türkcə şivə arasında körpü yaratmış və bu iki şivə arasındakı məsafəni qısaltmışdır.

Hüseyn Cavidin işlətdiyi türkcə olduqca dadlı və işlənmiş, gözəl bir türkcədir. Şimali və Cənubi Azərbaycan, Türkiyə, Türküstan və s. türk ellərində tək bir münəvvər bulunmaz ki, Cavidi oxusun, onu anlamasın və onun türkcəsindən zövq almasın” (9, s.53)

H.Cavidin dili ortaq türk dilinin mümkünlüyünü təsdiq edən fakt və qaynaqlardan ibarətdir. Onun dili XX yüzilin əvvəlində ədəbi dilimizin müxtəlif normaları haqqında fikir söyləməyə imkan verən qiymətli mənbədir. Sözsüz ki, “dil normasız informasiya mənbəyinə çevrilə bilməz” (6, 3). Hüseyn Cavidin dilinə xas olan fonetik norma türk ədəbi dilinin fonetik sistemindən qaynaqlanıb. Burada diqqəti çəkən əsas fonetik xüsusiyyətlər səs əvəzlənmələri və fonetik hadisələrin təsiri ilə özünü göstərən bəzi əlamətlərdir ki, bu, o dövrdə təkcə Hüseyn Cavidin dil-üslub xüsusiyyəti deyildi, bütövlükdə ədəbi

dilimizə də xas idi. Həm ədəbi dilimizdə, həm də şairin dilindəki *x>q, y>g, d>t* əvəzlənmələri belə faktlardandır. Məsələn:

X>q Demiş: *Çıq,* ey səfalətpərvər insan!
Çıq, ey qafil bəşər! Dəf ol, çəkil, get! (4, 28).

O, bir cavan idi, küskün *baqışlı*, həm yorğun;
Vücudu xəstə, mükəddər, həyatı pək durğun (4, 38).

D>T Əmin olsun ki, pək aldanmıyorsunuz: yalnız
Bu *tatlı* fikri yaşatmaq qolay deyil, biliniz! (4, 37).

Ana evladını bəslər, *böyütür*,
Anasız millət, əvət, öksüzdür (4, 43).

G>Y Bunu əgri yola sapdıran cəsur
Qurt dedik qulağı çıqdı-baq odur (4,230)

Hüseyn Cavidin dilində ədəbi dilimizin o zamankı leksik normasını əks etdirən çox sayda faktik materiallar vardır və sözsüz ki, burada da türk ədəbi dilinin böyük təsiri görünür. Bunlar H. Cavidin spesifik leksikasına daxil olan vahidlərdir. Bu anlamda, şairin dilində türk ədəbi dilinin leksik faktları daha aktivdir. Şairin yaradıcılıq örnəklərində Azərbaycan ədəbi dilində daha çox XX yüzilin əvvəlində işlək olan, lakin türk dillərinin qədim leksik-qrammatik vahidi kimi işlənən "bəkləmək", "çıldırmaq", "bıkmaq", "bulunmaq" kimi bir sıra fellər diqqəti çəkir:

Bıqdım artıq, yenə hər günkü yemək (4, 197)

Hiç zərər yoq, fəqirlər acı,
Sən bəklə Səlmayı, ondan xəbər al (4, II c. 30)

Fərəhdən ağlar insan, bəlkə, bilməm!
Bulunmaz onda lakin hüznü-matəm (4, 27).

Sev, ağla, inlə! Bəlkə *bulunsun* bir az şəfa,
Çırpın xəyalü-hiss ilə həp məstü biqərar (4, 91).

Bu fellər çağdaş türk dilində indi də fəal mövqeyə malikdir, bizim dilimizdə isə artıq arxaikləşmişdir.

H.Cavdin dilində "bən" şəxs əvəzliyinə rast gəlirik,klassik ədbiyyarımızda bən və
mən əvəzliyi paralel işlənmiş,sonralar Azərbaycan dilində mən variantı sabitləşmişdir.
Sözlər deyirsən ki,bilməzəm bən, Məzmununu fəhm qılmazam bən (Füzuli),Məndən ruhə bən nə üçün can demişəm (Nəsimi).

Hüseyn Cavidin dilində bəzən elə leksik-qrammatik vahidlərlə qarşılaşırıq ki, Azərbaycan ədəbi dilində həmin vahidin qarşılığı olsa da, şairin

türk ədəbi dili faktlarından istifadə etdiyini görürük. Məsələn, dilimizdə çox işlənən “aldatmaq” felinin anlamında türk dilində “kandırmaq” (“qandırmaq”) feli işlənir ki, o, şairin dilində fəal mövqeyə malik olan vahidlərdəndir:

Anlamaz, kor xalqı *qandırmış* bütün,
Hər nə qusmuş, həp inandırmış bütün (4, 86).

Azərbaycan ədəbi dilində “uşaq” sözünün qarşılığı kimi türk ədəbi dilində “çocuq” sözü işlənir ki, bu leksem Hüseyn Cavidin dilində də işləkdir və demək olar ki, onun yaradıcılıq örnəkləri göstərir ki, şair “uşaq” sözündən istifadə etməmişdir, bu anlamda yalnız “çocuq” isminə müraciət etmişdir:

Bir həqiqətdir bu, varsa şübhəniz,
Ta *çocuqluqdan* nə öyrənmişsəniz... (4, 87).

Ümumiyyətlə, Hüseyn Cavidin dilində türk ədəbi dilinin təsiri böyükdür. Bu təsir ədəbi dilin bütün normalarında özünü göstərir. Bu baxımdan, qrammatik normada özünü göstərən indiki zaman fellərində işlənən “yor” morfemi xarakterikdir:

(xumarlanmış)
Çeşmi-məxmurinə baqdıqca yürək *çırpınıyor*,
Allah, Allah! Nə qədər ülvi... o mavi gözlər!
O səmavi gözlər! (4, 92).

Bir çiçəkdən *seçilmiyor* hərgiz,
Həm də bir qönçədir ki, pək nadir...(4, 97).

Türkologiya elmində “yor” morfemi mübahisələrə səbəb olan fakt kimi dilçi alimlərin diqqətinə layiq olmuşdur. Xüsusilə də onun genezisinin müəyyənləşdirilməsi ilə bağlı müxtəlif fikirlər formalaşmışdır. Bu morfemin gah “yürü” (mək) felindən, gah indiki zaman mənalı “yatur” feli sifətindən əmələ gəlməsi, gah da “durmaq” felindəki “d” səsinin “y” səsinə keçməsi hadisəsi ilə bağlılığı haqqında müxtəlif və mübahisəli mülahizələr irəli sürülmüşdür. Həmin morfemlə bağlı mülahizə və fikirlər indi də ziddiyyətli xarakterini saxlamaqdadır. Belə ki, onun haqqında konkret və dəqiq fikirlərə ehtiyac vardır. Bundan əlavə hal, şəxs kateqoriyalarında felin şəkillərində də bu məqamlara da rast gəlirik.Feilin əmr şəklinin özünməxsus şəkilçi ilə işlənməsi XVIII əsrə qədər özünü göstəmişdir.KDQ,Q.Bürhanəddin vəs .göstərə bilərik(Gəl gəl,gəl görəlim biz)

Gedəlim gəl, dedi, izlə beni (4. 226)

“Yaşatmam, yaşarım” – deyən səfillər
Qan içən vəhşilər yolunu izlər (4. 195)

Qeyri-qəti gələcək zamanın inkarında I şəxsdə _mam[2] şəkilçisi işlənmişdir.

Yazmam vəslinə meyindən ey pəri,
Məni görcək bilməm neçün yaşınur(Vaqif)

İsmin təsirlik halında –yı[4] şəkilçisinin işlənməsi H.Cavid əsərlərində daha aktivdir.

Bitirib levhəyi yorğun rəssam

Qalıq, əzizim! Dedi qalq! İştə tamam (4. 156)

İsmin təsirlik halının "yı[4]" işlənməsi XVIII əsrə qədərki Azərbaycan ədəbi dilində də özünü göstərmişdir. Səndədi şol gənci pünhan gəzmə hər viranəyi (Nəsimi)

Deməli,bu məqamlar bizim soykökümüzə dönüşü əks etdirir.

Hüseyn Cavidin dilində türk ədəbi dilinin leksikasına məxsus olan "bəkləmək" (gözləmək), "arkadaş" (yoldaş), "kəndi" (özü), "öylə" (elə), "böylə" (belə), "qaç" (neçə), "həpsi" (hamısı), "nərə?" (hara?), "yapmaq"(etmək) və s. kimi onlarla dil vahidi işlənmişdir. Bu sözlər içərisində türk ədəbi dilinin leksikasında indi də işlənmə tezliyi və zəngin semantikası ilə seçilən çoxlu vahidlər vardır. Məsələn, təkcə "bulunmaq" felinin mənalarının sayı ondan artıqdır.

Cavidin dilində köməkçi nitq hissələri zonasında da fərqli əlamətlər vardır. Azərbaycan dilində aktiv işlənən "bəli" ədatının əvəzinə, şairin dilində türk ədəbi dilinə xas olan "əvət" ədatının işlənməsi belə faktlardandır:

Əvət, bir öylə xoş məvada tənha
Yaşarmış qayğısız Adəmlə Həvva (4, 27).

Əvət!.. O sərvəti saman içində zənginlər
Kədər nə... bilməyəcək, istirahət etsinlər (4, 33).

Bundan başqa, Hüseyn Cavidin dilində *-mı*[4] sual əvəzliyinin *–dır*[4] xəbərlik şəkilçisindən əvvəl işlənməsi faktı ilə qarşılaşırıq ki, bu da bizim ədəbi dilimizdən daha çox türk ədəbi dilinə xas olan əlamətlərdəndir.

Hüseyn Cavidin dilində diqqəti çəkən dil vahidlərindən biri də çağdaş dilimiz üçün səciyyəvi olmayan "şu" əvəzliyidir:

Verin!.. Verin də, əvət, susdurun *şu* fəryadı,
Aman! Əsirgəməyin mərhəmətlə imdadı (4, 72).

"Şu" əvəzliyi Hüseyn Cavidin dilində fəal işlənən qrammatik vahidlərdəndir. Digər əsas nitq hissələri ilə müqayisədə ümumilik ifadə edən əvəzliklər üslub baxımından şairin dilini səciyyələndirən fakt kimi çıxış edir. Azərbaycan ədəbi dilində işarə məqsədi ilə həm "o", həm "bu", həm də "şu" əvəzliyindən istifadə edilmişdir. Əslində, onların hər üçünün funksiyası eynidir, lakin semantikasındakı fərqlər şairin dilində məna çalarları yaratmağa xidmət edir. "Hər şeydən əvvəl, yadda saxlamaq lazımdır ki, "şu" əvəzliyinin işarə etdiyi əşya "bu" və "o" əvəzlikləri ilə işarə edilən əşyalara nisbətən orta mövqedə durur. Yəni "bu" – yaxın, "şu" nisbətən uzaq, "o" daha uzaq predmetə işarə edir (8, 65).

Hüseyn Cavidin dilində elə sözlər var ki, Azərbaycan ədəbi dili üçün səciyyəvi olmayıb yalnız türk dilində işlənmişdir. Bu baxımdan, sokaq, sisli, bıyıq, kurnaz, bunalmaq (sıxılmaq, boğulmaq) sözünü örnək göstərmək olar:

Sənsiz bütün duyğularım *bunalmış,*
Zehnim, fikrim durmuş, həp dona qalmış (4, 131).

Hüseyn Cavidin dilində Osmanlı dilinin dəbdəbəsi hesab edilən "aşiyani-zövqü səfa", "ruhi-pürsükun", "fəzayi-naməhdud", "hissi-bəşər",

“səyyahi-zərrinpər”, “nəcmi-keysudar” kimi izafət birləşmələri olsa da, “vərəmli xəyal”, “vərəmli fırtına”, “kədərli duyğu”, “titrək əda”, “işvəli ümid”, “dalğın baxış”, “acıqlı məktub”, “elmin bağbanı”, “qəflət libası”, “ədalətdən xoşlanmaq”, “sevgi üçün yaradılmaq”, “vurğun gözlər” kimi uğurlu ifadələr də az deyil.

Qeyd edilənlər təsdiq edir ki, türk ədəbi dilinin Hüseyn Cavid yaradıcılığına böyük təsiri olmuşdur və şair bununla qürur duymuşdur. Turan Cavidin xatirələrindən öyrənirik ki, şair əsərlərinin imlasında dəyişmələr edilməsini istəməmişdi. “...İmlasının qorunması Hüseyn Cavid üçün əhəmiyyətliydi və elə bu səbəbdən də o, bəzən əlyazmalarının sonunda bunu xüsusi xatırladırdı: “İmlasına toxunmamalı!” (2, 4). Şairin əsərlərinin imlasında həm ədəbi dil tariximizin maraqlı bir dövrünün, həm də türk ədəbi dilinin xüsusiyyətlərini daşıyan çox sayda faktik materiallar vardır. “Hüseyn Cavidin yaradıcılığı bir tərəfdən də Türkiyə-Azərbaycan ədəbi əlaqələrini əks etdirmək baxımından son dərəcə faydalıdır” (7, 19).

Beləliklə, Hüseyn Cavidin dili həm ədəbi, həm estetik, həm tarixi, həm də ideya baxımından layiqli dildir.

ƏDƏBİYYAT

1. Bayramlı O. Müqəddimə / Hüseynzadə Ə. Qərbin iki dastanında türk. Bakı: Ağrıdağ, 1998, s. 1-46.
2. Cavid T. Bir neçə söz. / Hüseyn Cavid. Əsərləri, I c. Bakı: Lider Nəşriyyat, 2005, s. 4-6.
3. Həsənova S. “Füyuzat” jurnalı və dil problıemləri, Bakı: Elm, 2006, 298 s.
4. Hüseyn Cavid. Əsərləri, I c. Bakı: Lider Nəşriyyat, 2005, 256 s
5. Hüseyn Cavid.Əsərləri, I-IV cild,Bakı,Yazıçı,1982-1985.
6. Hüseynzadə Ç.Azərbaycan dilində morfoloji norma Bakı:Nurlan, 2004,280s.
7. Qarayev Y. Hüseyn Cavidin yaradıcılığı / Hüseyn Cavid. Əsərləri, I c. Bakı: Lider Nəşriyyat, 2005, s. 7-24.
8. Rəsulov Ə.A. Rüstəmov R.Ə. Türk dili. Bakı: Bakı Universiteti, 1991, 216 s.
9. Türkəqul M. Azərbaycan türk şairi H. Cavid. Bakı, 2002
10. T.Hacıyev. Azərbaycan ədəbi dilinin tarixi. Bakı: Maarif,1987
11. A. Kəngərli. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı, 2005
11. http://www.cavid.gen.az
12. http://www.huseyncavid.com
13. http://www.rasulzade.org

РЕЗЮМЕ

ГАНИРА АСКЕРОВА

НЕКОТОРЫЕ ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ЯЗЫКА ГУСЕЙНА ДЖАВИДА

В статье говорится об отношении Гусейна Джавида к литературному языку. В этом плане здесь сгруппированы и проанализированы факты, отображающие нормы литературного языка в начале XX века. Сопоставляются примеры, приведенные из творчества Гусейна Джавида с фонетическими и лексико-грамматическими признаками в речи поэта, отражающими следы турецкого литературного языка.

Ключевые слова: Гусейн Джавид, литературный язык, лексико-грамматические особенности, норма, фонетические особенности.

SUMMARY

GANIRA ASKAROVA

SOME LEGISTIC FEATURES OF HUSEYN CAVID LANGUAGE

The article deals with H.Javid's consideration for literary language. From this point of view, the facts reflecting the situation of our literary language at the beginning of 20 th century are classified and analyzed. The phonetic and lexical – grammatical signs reflecting the tracks of Turkic literary language in the language of the poet are grounded by the samples taken from his literary activities.

Key words: Huseyn Javid, literary language, lexical – grammatical signs, norm, the phonetic signs.

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

NÜŞABƏ MƏMMƏDOVA
“Naxçıvan” Universiteti
n.memmedova@nu.edu.az

NAXÇIVAN ƏDƏBİ NƏSRİ MÜSTƏQİLLİK DÖVRÜNDƏ

Azərbaycan ədəbi mühitinin tərkib hissəsi olan Naxçıvan ədəbi mühitinin öyrənilməsi mühüm problem kimi aktualdır.

Məhz buna görə burada yaranan ədəbiyyat Azərbaycan ədəbiyyatının inkişafına və müvəffəqiyyət qazanmasına ciddi təsir göstərmişdir. 1990-2000-ci illər Azərbaycanın tarixində mühüm dövrdür.

Bu dövrdə baş verən hadisələr Naxçıvana da təsir etmişdir. Bu təsir ədəbiyyat sahəsində, xüsusi ilə də nəsr sahəsində nəzərə çarpır.

Elmi məqalədə 1990-2000-ci illərdə Naxçıvanda yaşayan nasirlərin uğurları haqqında danışılır, həmçinin o dövrdə nəşr olunmuş bir sıra nəsr əsərlərinin təhliliverilmişdir.

Açar sözləri: Ədəbi mühit, ədəbiyyatşünaslıq, ədəbi tənqid, nəsr, nasir, dövlət müstəqilliyi, ənənə, novatorluq

Müstəqil dövlət kimi dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycan Respublikası zəngin siyasi və mədəni irsə malikdir ki, bu irsin içərisində Naxçıvan MR xüsusilə seçilir. XX əsrin 90-cı illəri xalqımızın qarşısında ən ağır sınaq illəri oldu. Azərbaycan, onun tərkib hissəsi olan Naxçıvan bu ağır sınaqlardan müvəffəqiyyətlə keçdi və özünün mövcudluğunu sübut etdi. Bu hadisələr Naxçıvanda elmi-ədəbi fikrin inkişaf etməsinə münasib şərait yaratdı. 1990-2000-ci illərdə baş verən bir sıra hadisələr Naxçıvana da öz böyük təsirini göstərdi. Həmin təsir ədəbiyyat sahəsində daha qabarıq görünürdü. Xüsusən də nəsr sahəsində uğurlar olduqca böyük olmuşdur. Çünki XX əsr Naxçıvan ədəbi mühitində bədii nəsr həmişə özünəməxsusluğu ilə seçilmişdir. Azərbaycan nəsrinin korifeyi Cəlil Məmmədquluzadənin, tarixi romanın banisi Məmməd Səid Ordubadinin (1872-1959) bu diyarda yetişib formalaşması və yerli ədəbi qüvvələrlə əlaqələri regionda nəsr sahəsində canlanma və inkişafa öz təsirini göstərmişdir. Bu səbəbdən 1990-2000-ci illərdən Naxçıvanda yaşayan qələm sahiblərinin nəsr sahəsində uğurları diqqətəlayiq olmuşdur.

Naxçıvanda yaşayan ədiblər ilk növbədə Azərbaycan ədəbiyyatında aktual mövzulara xüsusi diqqət yetirirlər. Müasir ədəbiyyatımızda belə mövzulardan biri şəhidlik və Qarabağ dərdidir ki, ədiblərin əksəriyyəti də məhz bu mövzulara müraciət edirlər. Nəsrin inkişafında Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələri olan H.İbrahimov, H.Arzulu və başqaları bu illərdə də çox ciddi, aktual mövzulara toxunmuşlar. H.İbrahimov «Əsrin onda biri» (1987), «Böhtan» (1998) əsərlərini bu dövrdə yazmışdır. O, iri həcmli nəsr əsərləri ilə

daha çox tanınmışdır. Xalq yazıçısı Hüseyn İbrahimovun XII əsrin qüdrətli memarı Əcəmiyə həsr etdiyi «Əsrin onda biri» romanı ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmiş, bu əsər həm də müasir mərhələdə Azərbaycan tarixi romanının dəyərli nümunələrindən birinə çevrilmişdir.

Yazıçının «Böhtan» romanında ədəbiyyatımızın romantik korifeyi Hüseyn Cavidin keşməkeşli ömür yolu sənətkarlıqla əks etdirilmişdir. Prof. Y.Axundlunun «Ədəbi mühit və sənətkar» kitabındakı «Hüseyn Cavid haqqında ilk roman» məqaləsində də H.İbrahimovun «Böhtan» romanı yüksək qiymətləndirilir. Bu əsər müəllifin bir neçə illik axtarışlarının bəhrəsidir. Roman bir neçə fəsildən və Cavidin həyatının müxtəlif illərini, dövrlərini əks etdirən yeddi nağıldan ibarətdir.

H.Arzulunun da yaradıcılığının ən qızğın dövrü 1990-2000-ci illərdir. Bu illərdə yazdığı «Qaçaq Quşdan» (2000), «Qara xəncər» (2004), «Sınıq güzgü» (2005) daha çox maraq doğuran əsərlərdir.

XIX əsrin əvvəllərində Azərbaycanın şimal əraziləri Rusiya işğalına məruz qaldıqdan sonra xalqın yadelli işğalçılara qarşı azadlıq mübarizəsini hakim dairələr ləkələməyə çalışmış, onun başçılarını isə «qaçaq» adlandırmışlar. Lakin xalq kütlələri öz qəhrəmanlarını unutmamış, onların şərəfinə mahnılar qoşmuş, rəvayətlər yaratmış, dastanlar bağlamışlar. Belə əsərlər bu gün də oxucuları Vətən torpağı uğrunda mübarizəyə səsləyir. Ümumiyyətlə, el qəhrəmanları barədə bir-birindən maraqlı romanlar, povestlər, səhnə əsərləri yaradılmışdır. Məhz həmin mövzuya hələ də marağın azalmadığı göz qabağındadır. Həmid Arzulu özünün "Qaçaq Quşdan" romanını məhz bu mövzuya həsr etmişdir.

Ə.Əliyev «Əlincə yaddaşı» kitabında yazır: «Quldur», «qaçaq» adı ilə yalnız iyirminci illərdə erməni müstəntiqlərinin imzası ilə Şahbuz rayonunun Keçili, Tırkeş, Culfa rayonunun Milax kəndində 38 nəfər güllələndi. 75 nəfər isə müxtəlif cəzalara məhkum edildi .

Beləliklə, Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan diyarında da 1920-30-cu illərdə hakimiyyətin belə məkrli siyasəti əleyhinə kütləvi hərəkatlar başlamışdır. Xüsusən dağ kəndlərində – Keçili, Ərəfsə, Milax, Teyvaz və s. yerlərdə əhalinin silahlı mübarizə aparması tarixi həqiqətdir.

H.Arzulunun 2004-cü ildə «Qara xəncər» romanı çap edilmişdir. «Qara xəncər» romanında müəllif 1988-90-cı illərdə Azərbaycanda, o cümlədən Naxçıvanda baş verən oyanış təlatümləri fonunda hüquqşünasların qanunların gücündən necə sui-istifadə etdiklərindən, xarici qüvvələrin maddi sərvətlərimizi talan etmək cəhdlərindən və ölkəyə yeni ruh yüksəkliyi, azadlıq, müstəqillik gətirmiş olan gənclərimizin mübarizəsindən bəhs edir. Real həyat hadisələrini, romantik məşəqqət və ehtirasları əks etdirən bu roman heç şübhəsiz hamının maraqla oxuduğu əsərlərdəndir.

Romanda göstərilir ki, qarşıda hələ Azərbaycanı daha çətin, daha ağır taleyüklü hadisələr, ölüm-dirim suallı problemlər gözləyirdi. Heydər Əliyevin Azərbaycana – Naxçıvana gəlişi, xalqın onu böyük məhəbbətlə bağrına basması, Naxçıvan Ali Məclisinə sədr seçilməsi məhz onun uzaqgörən siyasəti

ilə muxtar respublika barəsində olan Qars müqaviləsinin dünyaya yenidən ciddi şəkildə bəyan edilərək erməni fitnəkarlığına keçilməz sədd yaradılması belə problemlərdən idi.

H.Arzulunun «Sınıq güzgü» romanı 2005-ci ildə nəşr olunmuşdur. «Sınıq güzgü» romanı və «Turac nəğməsi» povesti Həmid Arzulunun onuncu kitabıdır. Bu əsərlərində müəllif məhəbbət və mərhəmət dünyasının sehrkar işığında çox böyük fədakarlıq və humanistlik göstərərək bir-birini xoşbəxt etməyə, yaşatmağa can atan cəfakeş gənclərdən, onların qeyri-adi romantik məhəbbətlərindən bəhs edir.

«Sınıq güzgü» və «Turac nəğməsi» əsərlərində qələmə alınan mövzu da Azərbaycan ədəbiyyatında az müraciət edilmiş, lakin çox gərəkli, lazımlı bir sahədir. Qayğıya, məhəbbətə, xüsusi dayağa ehtiyacı olan xəstə insanlardan, onların taleyindən bəhs edən bədii əsərlərimiz çox azdır. Halbuki bu insanlar haqqında yazmağa daha çox dəyər. H.Arzulunun məhz belə bir mövzuya müraciət etməsi, hər şeydən əvvəl, yazıçının öz mənəvi dünyasından bizə xəbər verir. Çünki belə hissləri yaşamadan, belə iztirablar, fırtınalar dünyasından keçmədən Nərgiz, Jalə, Nurid, Turac, Arzu, Araz kimi dərin psixoloji, romantik-dramatik obrazlar yaratmaq mümkün deyil.

Bu dövrdə Naxçıvanda yaşayan istedadlı nasirlərdən biri Rafiq Babayev olmuşdur. 1988-ci ildən Yazıçılar Birliyinin, 1986-cı ildən isə Jurnalistlər Birliyinin üzvü idi.

Bədii yaradıcılığa erkən başlasa da, ilk hekayələri 1973-cü ildə dərc olunmuşdur. O, həm də bir jurnalist kimi dövri mətbuatda müntəzəm çıxış etmişdir. 1992-ci ildə «Yazıçı» nəşriyyatında R.Babayevin «Yolçu daşı» kitabı çap olunub. Kitaba «İlğım», «Yolçu daşı» povestləri və beş hekayəsi daxil edilib.

«Yolçu daşı» povestində müəllif folklorumuzun verdiyi imkanlar daxilində qəhrəmanlıqlarla dolu keçmişimizə üz tutur, unudulmuş, yaddan çıxmış bir sıra adət-ənənələrimizi bugünkü nəslə müəyyən bir bucaq altında bütöv dünya kimi göstərir və sevdirir.

«Yurd» nəşriyyatının 1999-cu ildə nəşr etdiyi «Zühur» adlı kitaba R.Babayevin «Təkbətək», «Zühur» povestləri, «Sabaha bir gün qalmış», «Ağbiləк», «Arxadan gələn adam» hekayələri daxildir. Rafiq Babayevin əsərlərində psixoloji məqamlar, insanı düşündürən, həyəcanlandıran, qəlbinə təsir edən cizgilər çoxdur. Ona görə də oxucular bunlar haqqında fikirləşməli, düşünməli olur. Müəllif süjeti elə qurur, hadisələri elə təsvir edir ki, bəzi məsələlər açılmır, onları bilərəkdən gizlədir, nəticə çıxarmağı oxucunun mühakiməsinə buraxır. Adi oxucu bəzən müəllif niyyətini aydın duya bilmir. O, sənətkarlıq məsələsinə diqqət verən yazıçılardan olmuşdur.

Ömrünün son dövrlərində R.Babayev öz üzərində daha ciddi işləyərək bir-birindən maraqlı əsərlər yaratmışdır. 2007-ci ildə “Naxçıvan folkloru: bəşərilik, türklük , regionallıq” adlı monoqrafiyası dərc olunmuş, 2013-cü ildə isə “Ölüm mələyi” əsərini çap etdirmişdir. “Ölüm mələyi” əsərində də çoxlu

psixoloji məqamlar təsvir edilmiş, yenə də nəticə çıxarmağı oxucunun öhdəsinə buraxmışdır.

Naxçıvanda yaşayan qələm sahiblərindən Nurəddin Babayev və Akif Axundov publisistikaya meyl etsələr də nəsr sahəsində də böyük uğurlar qazanmışlar. N.Babayev nəsrində mövzu rəngarəngliyi diqqəti cəlb edir. O, publisistika ilə də məşğul olmuşdur.

Naxçıvanda yaşayıb-yaradan, Naxçıvanın ağır günlərinin şahidi olan yazıçı «Azərbaycan» nəşriyyatında buraxılan «Naxçıvan döyüşür», «Naxçıvan yaşayır» adlı kitabın tərtibçilərindən biridir. «Qeyrət qapısı» kitabında 1989-1991-ci illərdə Naxçıvanda baş verən hadisələr, torpaqlarımızın müdafiəsi uğrunda Naxçıvan camaatının birliyi və yekdilliyi əks etdirilir.

1986-1990-cı illərdə A.Axundovun «Sarı damğa» romanından və «Türkiyə səfiri» sənədli povestindən hissələr «Şərq qapısı», «Ayrılığın sonu varmış» («Təkcə sən») povestindən parçalar «Yaylım» qəzetlərində dərc edilmişdir. A.Axundovun «Qisas» povesti də maraqlı əsərlərdəndir.

Yazıçının nəsr əsərləri sırasında satirik hekayələri də diqqəti cəlb edir. A.Axundovun mənəviyyatımız üçün narahatlığı, sabaha olan nigarançılığı yeni yazdığı satirik hekayələrdə özünü biruzə verir. Lakin yazıçı hiss edir ki, bəzi adamların mənəviyyatını natəmiz hisslərdən təmizləmək, bir qism insanın qeyrət duyğularını oyatmaq tək onun işi deyil. Buna görədir ki, «Qurama» hekayəsində oxucularına səslənərək «Sizi deyib gəlmişəm» - deyir.

Naxçıvanda yazıb-yaradan bir çox nasirlər vardır ki, onlar rəngarəng əsərləri ilə daha çox seçilirlər. Klassik ənənəyə riayət edən nasirlər çalışırlar ki, bu ənənə daha mənalı, cazibəli, təsirli və həyəcanlı olsun. Lakin biz elə bir dövrdə yaşayırıq ki, ayrı-ayrı xalqların da qarşılıqlı mədəni, ədəbi ənənələri ilə tanış olub bu ənənələrdən də istifadə etməliyik. Bu zaman nəsrimiz zəngin xəzinəyə malik olar və daha böyük nailiyyətlər əldə etmiş olar.

Naxçıvanda yaşayıb-yaradan nasirlərdən biri də Güllü Məmmədovadır. Hekayə ilə ədəbiyyata gələn Güllü Məmmədova eyni zamanda böyük həcmli əsərlər də yazmış, xüsusən də tarixi mövzulara daha çox diqqət yetirmişdir. «Qarabəkir əfsanəsi» tarixi romandır. Yazıçı Güllü Məmmədovanın «Qarabəkir əfsanəsi» sənədli tarixi romanı 1918-20-ci illərdə Türkiyənin Doğu vilayətlərində və eləcə də Naxçıvanda baş verən hadisələrdən bəhs edir. Əsərdə azərbaycanlıların soyqırımı, qanlı faciələr, tarixi faktlar sənədlər əsasında təsvir edilmişdir. Romanda türk və Naxçıvan torpağını erməni işğalından azad edən türk sərkərdəsi Kazım Qarabəkir paşanın həyat və döyüş yollarından bəhs edilir. Bu əsər onun ən çox oxunan və oxucu rəğbəti qazanan nəsr əsərlərindəndir.

Qədim Naxçıvan torpağının keçmişi, tarixi şəxsiyyətləri haqqında gedən yazılar oxucular tərəfindən maraqla oxunur. Bu yazılarda oxucular tariximizin açılmamış səhifələri ilə tanış olur. Bu baxımdan Güllü Məmmədovanın yazdığı «Kalbalı xan" romanı daha maraqlıdır. "Kalbalı xan" romanı Naxçıvan xanlığının ictimai-siyasi hadisələrlə zəngin olan tarixindən və tarixi şəxsiyyətlərdən bəhs edir.

Ulu öndərimiz Heydər Əliyev tarixi əsərlərin daha çox yazılmasının vacibliyi haqqında aşağıdakı fikilərini söyləmişdir: “Çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Çünki, Naxçıvan xanlığının çox böyük tarixi vardır.”

Güllü Məmmədova yazırdı ki, bu romanı yazarkən məqsədim təkcə o dövrün ictimai-siyasi hadisələrini, Kalbalı xanın həyatını, gördüyü işləri qələmə almaq deyil. Eyni zamanda göstərmək istəmişəm ki, necə oldu ki, «Türkmənçay» müqaviləsindən sonra ermənilər Naxçıvana və İrəvana köçürüldü. Bu tarixi ədalətsizliklə, gələcək faciələrin əsasının qoyulmasında kimlər rol oynadı.

Həsən Elsevər, L.Əhmədova da nəsr əsərləri ilə müasir həyatımızın ciddi ictimai-əxlaqi problemlərinə diqqət yetirmişlər. Naxçıvan ədəbi mühiti sənətkarlarının əsərləri vasitəsilə çağdaş Azərbaycan ədəbiyyatı haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. Bu gün də Naxçıvan ədəbi mühitində yazıb-yaradan gənc qələm sahibləri dəstəsi daha həvəslə fəaliyyət göstərirlər. Onların yaradıcılığında Vətən məhəbbəti, torpaq təəssübkeşliyi üstünlük təşkil edir. Son dövrlərdə Naxçıvan ədəbi mühiti nəsrində canlanma hiss olunur. Belə ki, gənc qələm sahiblərindən Tural Həsənli, Nərgiz İsmayılova, Günay Məmmədova, Fərid Rəfibəyli və başqaları bu sahədə öz qələmlərini uğurla sınayırlar.

Ümumiyyətlə, naxçıvanlı nasirlərin hamısı coşğun yaradıcılıq fəaliyyətləri, ciddi axtarışları ilə diqqəti cəlb etmişlər. Zəmanəmiz böyük inkişaf və tərəqqi zəmanəsidir. Həyatımızın bütün sahələrində baş verən elmi-texniki inqilab ədəbiyyat sahəsində də özünü göstərməkdədir.

Ədəbiyyat və incəsənət ictimai şüurun elə bir formasıdır ki, orada sənətkardan həyatı düzgün əks etdirməklə bərabər onu dərindən təhlil etmək də tələb olunur. Dövlət müstəqilliyimizin bərpasından sonra baş verən dəyişikliklər nəticəsində qələm sahiblərinin qarşısında yeni mövzular, yeni tələblər qoyulmuşdur ki, naxçıvanlı nasirlərin yaradıcılığında da bu cəhətlərin geniş ifadəsini görmək mümkündür.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet ədəbiyyatı. Bakı: Maarif, 1988, 540 s.
2. Azərbaycan yazıçıları: Ensiklopedik məlumat ktabı. Bakı: Hünər, 1995, 639 s.
3. Azərbaycan tarixi. 7 cilddə, V c. Bakı: Elm, 2000, 516 s.
4. Axundlu Y.İ. Ədəbi mühut və sənətkar. Bakı: Adiloğlu, 2002, 187 s.
5. Axundlu Y.İ. Qaçaq Quşdan hqqında roman. «Şərq qapısı» qəz., Naxçıvan, 2000, 27 sentyabr
6. Axundov A.S. Naxçıvn ədəbi mühitindən səhifələr (1980-1990-cı illər). «Şərq qapısı» qəz., Naxçıvan, 2005, 13 iyul.
7. Arzulu H.F. “Qaçaq Quşdaan”. Bakı: Yazıçı, 2000, 300 s.

8. Həbibbəyli İ.Y. Nxçıvanda ədəbiyyat, ədəbiyyatda Naxçıvan. «Şərq qapısı» qəz., Naxçıvan, 2005, 13 aprel.
9. Xalq yazıçısı Hüseyn İbrahimov– 80. Bakı: Yurd, 1999, 107 s.
10. MəmmədovaN.M. Müstəqillik uğrunda mübarizə və Naxçıvanda ədəbi proses (1980-2000). Naxçıvan, "Əcəmi" nəşriyyatı, 2016, 88s.

РЕЗЮМЕ

НУШАБА МАМЕДОВА

НАХЧЫВАНСКАЯ ПРОЗА ПЕРИОД НЕЗАВИСИМОСТИ

Изучение Нахчыванской литературной среды которая является составной частью Азербайджанской литературы, приобретает актуальность как один из наиболее важных проблем. Именно поэтому,созданная здесь литература оказала серьезное влияние на развитие и достижение успехов Азербайджанской литературы. 1990-2000-е года-это важный этап в жизни Азербайджана. В этот период происходившие события оказали влияние и на Нахчыван. Это влияние видно в сфере литературы, а особенно в области прозы. В научной статье говорится об успехах прозаиков живущих в 1990-2000-х годах в Нахчыване, а так же анализируются ряд прозаичных произведений опубликованных в тот период.

Ключевые слова: литературная среда, итературоведение, литературная критика, проза, прозаик, государственная незавсимость, традиция, новаторство

SUMMARY

NUSHABA MAMMADOVA

PROSE OF THE NAKHCHIVAN IN THE PERIOD OF INDEPENDENCE

The study of the Nakhchivan literary environment, which is an integral part of the Azerbaijan literature, acquires a topicality as one of the most important problems. That is why the literature created here had a serious impact on the development and achievement of the success of the Azerbaijani literature. 1990-2000 years is an important stage inthelife of Azerbaijan. During this period, the events that took place had an impact on Nakhchivan as well. This influence is clearly visible in the field of literature, and especially in the field of prose. The scientific article talks about the successes of prose writers living in the 1990-2000-s in Nakhchivan, as well as a number of prose works published during that period were analyzed.

Key words : literary environment, literary criticism, prose , prose writer, state independence, tradition, innovation

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

YEDGAR CƏFƏROV
AMEA Nəsimi adına Dilçilik İnstitutu
yedgar@yandex.ru

ELEKTRON MƏKTUBLARIN DİLİ

Məqalə müasir kommunikasiyalarda mühüm yer tutan elektron məktubların dil-üslub xüsusiyyətlərinə həsr olunub. Burada elektron məktublar elektron diskursun xüsusi bir növü kimi nəzərdən keçirilir. Epistolyar üslubun ənənəvi və müasir formaları arasında paralellər aparılır. Elektron yazışmaların səciyyəvi xüsusiyyətləri müxtəlif aspektlərdən təhlil olunur. Araşdırma nəticəsində elektron yazışmaların özünəməxsus cəhətləri üzə çıxarılır. Elektron məktubların hazırlanması üçün müvafiq norma və qaydalar müəyyənləşdirilir.

Açar sözlər: məktub, epistolyar üslub, virtual diskurs, elektron məktub, elektron yazışma

Qloballaşma dövründə elektron kommunikasiya vasitələrinin sürətli inkişafı insanlar arasında tarixin heç bir dövründə olmadığı qədər operativ və sıx ünsiyyəti təmin edir. Hələ XIX əsrdə bir məktubun Londondan Nyu-Yorka, Bakıdan İstanbula, Sankt-Peterburqdan Tiflisə çatmasından ötrü onun müxtəlif nəqliyyat vasitələrində günlərlə yol getməsi lazım gəlirdi. XIX əsrin ikinci yarısında teleqraf texnologiyasının icad olunması və bu yeniliyin bütün dünyada sürətlə yayılması elektron inqilabın əsasını qoydu. İndi isə insanlar arasında kommunikasiyalar elektron inqilabın ən son nailiyyətlərindən olan internet vasitəsilə anında və interaktiv şəkildə baş verir.

İnternet kommunikasiyalarında elektron məktublar çox mühüm yer tutur. Bu vasitə internet şəbəkəsinin olduğu istənilən yerə elektron məlumatların (mətn, veb-səhifə, fayl və s.) cəmi bir neçə saniyə ərzində göndərilməsinə imkan yaradır. Dünyada ilk elektron məktub Rels Tomlinson tərəfindən 1971-ci ildə göndərilib. Hərbi məqsədlə o, bir-birinə yaxın məsafədə yerləşdirilmiş kompüterlər arasında ilk fayl mübadiləsini həyata keçirmişdi. Rels Tomlinson məktubun göndərildiyi server ünvanı ilə abonentin adını ayırmağa kömək edən @ (“ət” yaxud “doq”) işarəsinin də yaradıcısı sayılır [8].

Müasir dövrdə ən geniş yayılmış poçt hostinq serverləri kimi Gmail.com, Yahoo!, Hotmail tanınır. MDB məkanında isə Yandex, Mail.ru, Rambler.ru kimi poçt servisləri məşhurdur [3, s. 38].

Dünyada internetdən istifadə vəziyyəti üzrə statistik məlumatlar hazırlayan Radicati Group şirkətinin hesablamlarına görə, 2017-ci ildə bütün dünyada mövcud olan elektron ünvanların sayı 3.7 milyona çatıb. 2017-ci ildə cəmi bir gün ərzində göndərilən elektron məktubların sayı isə 269 milyarddan

çox olub [9]. Bu da dünyanın müxtəlif yerlərində hər saniyədə minlərlə elektron məktubun göndərilməsi və elektron məktubların kağız formatında hazırlanmış məktubların yerini tutması deməkdir.

Kompüterlərin müasir insanın həyat və məişətinə getdikcə daha da nüfuz etməsi, dünyanın fiberoptik kanallarla əhatə olunması, internet sisteminin inkişafı, informasiya iqtisadiyyatının inkişafı bu statistikanı ildən-ilə daha da yüksəldir. Müasir elektron inqilabın işarəsi olan "e-" istilahının iştirakı ilə yaradılmış "e-dövlət", "e-bankçılıq", "e-məktəb", e-kitab" kimi kombinasiyalar tədricən həyatımızda mühüm yer tutaraq gündəlik bir çox təcrübələrimiz kimi yazma vərdişlərimizi də dəyişir.

Bu məktublar müasir həyatın ən müxtəlif sahələrində, xüsusilə də işgüzar sferada o qədər əhəmiyyətli rola malikdir ki, onların yazılma texnikası barədə nəzəri və praktik biliklər yüksək peşəkarlıq göstəricisi sayılır. Çünki elektron yazışmalar səmərəli menecment sisteminin mühüm tərkib hissəsidir. Sürətlə inkişaf edən işgüzar sfera bu kommunikasiya formasından geniş istifadə edərək effektiv nəticələr qazanır. Məsələn, “Toyota” şirkətində məhsulların hazırlanması prosesi yazılı kommunikasiyalar əsasında reallaşır. Mühəndislər A4 vərəqin bir səhifəsi həcmində məktub-hesabatlar hazırlayırlar. Bütün hesabatlar ümumi şablon əsasında tərtib olunur. Belə bir format, şirkət əməkdaşlarına müəyyən problemlər haqqında məlumatları, analizlərin nəticələrini və rəyləri asanlıqla tapmaqda kömək göstərir, vacib aspektlərə hamılıqla diqqət yetirmək üçün böyük fayda verir.

Yaxşı yazan və özlərini yaxşı ifadə etməyi bacaran insanlar sosial münasibətlər sistemində böyük üstünlüklərə sahibdirlər. İnsanın söz və yazışmada ifadə etdiyi formalar onun şəxsiyyəti ilə bağlı vacib məlumatlar verir. Bir çox menecerlər öz fikirlərini yazılı şəkildə yaxşı ifadə edə bildiklərini düşünürlər. Amma bir çox hallarda onların yazışma təcrübəsi qısa və formal hesabatların hazırlanması ilə məhdudlaşır. Elektron məktubların hazırlanması və göndərilməsi isə sadə bir məsələ kimi görünsə də, ayrı-ayrı məqamların təhlili, əslində, onların müəyyən mürəkkəb cəhətlərinin, o cümlədən özünəməxsus dil-üslub xüsusiyyətlərinin olduğunu göstərir. Elektron məktublara qeyri-peşəkar yanaşma kommunikasiya proseslərində müəyyən çətinliklər yarada, fərdin bu prosesdə fəal, səmərəli və effektiv iştirakına mane ola bilər. Bu məktubların texniki özəllikləri qədər məktub mətnlərinin peşəkar səviyyədə hazırlanması bacarığı, elektron məktubların dil-üslub xüsusiyyətlərindən məqsədyönlü şəkildə istifadə də mühüm üstünlükdür.

Elektron məktubların dil-üslubunu ənənəvi məktublardan kənarda təsəvvür etmək düzgün olmazdı. Bu texnoloji yenilik, sırf mətn mənasında ənənəvi janr və üslub faktının davamıdır. Məlum olduğu kimi, məktubların dili dilçilikdə epistolyar üsluba aid edilir. Yunanca – epistole, latınca – epistola sözləri məktub deməkdir. Bununla belə, epistolyar üslub təkcə məktubları əhatə etmədiyindən, onunla bağlı müəyyən elmi mübahisələr vardır. Epistolyar üsluba hansı yazı nümunələrinin daxil olması barədə də yekdil bir fikir müəyyənləşməmişdir. Amma Adil Babayevin fikrincə, burada ən tutarlı

arqument elə üslubun adıdır. Bir halda ki, “epistola” yazıb göndərmə, iki tərəf arasındakı yazışma mənası verir, onda epistolyar üslubu mübahisəli hesab etməyə ehtiyac yoxdur. Bundan əlavə, nəzərə almaq lazımdır ki, epistolyar üslubda iki tərəf olur: korrespandent (yazan) və adresat (alan). Buna görə də təkcə məktubları deyil, nəsihətnamələri, öyüdnamələri, dəvətnamələri, çağırış tipli yazıları da epistolyar üsluba aid etmək olar [10].

Ümumilikdə, məktub hələ internet meydana çıxana qədər də əməli yazı nümunələrinin geniş yayılmış növlərindən hesab olunurdu. Məsafəli ünsiyyətin ən qədim vasitələrindən biri kimi ona təhsilindən, sosial statusundan asılı olmayaraq əvvəllər də hər bir insanın gündəlik həyatında təsadüf edilirdi. Məktubun təhkiyəsi monoloji daxili, yazılı nitq formasında olur. Korrespandet və adresat arasındakı münasibətlərin səmimiliyindən, doğmalığından asılı olaraq məktubun mətnində müxtəlif söz və söz birləşmələrindən istifadə edilir. Bu, elektron məktublarda da belədir.

Ənənəvi məktublar kimi elektron məktublar da, ünsiyyət-informativ məqsədinə asan çatmaqdan, rahat anlaşılmaqdan ötrü konkret struktura, sistem ardıcıllığına əsaslanmalıdır:

1. Müraciət hissəsi: məktubun bu hissəsində şəxsə hansısa formada xitab öz əksini tapmalıdır. Əgər münasibətlər rəsmi çərçivədədirsə, şəxsin ad və soyadı, yaxud vəzifəsi, titulu bu məqsədlə istifadə edilə bilər. Məsələn: Hörmətli Məmməd Əliyev, Hörmətli sədr, Hörmətli professor və s. Daha səmimi münasibətlər isə digər xitab formaları ilə ifadə olunur: Əziz bacım, Əziz dostum, Dəyərli qardaşım, salam və s.

2. Ümumi hissə: burada korrespandentlə adresat arasındakı münasibətlərə dair yığcam qeydlər öz əksini tapır. Əgər bu iki qurumun nümayəndələri, yaxud rəsmi şəxslərdirsə, qarşılıqlı münasibətlər, yaxud bir tərəfin digərinə münasibəti ifadə olunur. Əgər söhbət səmimi münasibətlərə malik fərdlərdən gedirsə, bu hissədə məktublaşan şəxslərin əhval-ruhiyyəsi, vəziyyəti barədə sualları, arzuları da öz əksini tapa bilər. Məsələn, *Hörmətli dostum, necə istirahət edirsən, kefin necədir? Arzum budur ki, həmişə gümrah və xoşbəxt olasan və s.*

3. Fərqləndirici hissə: bu hissə məktubun əsas məqsədini, başlıca məzmununu əhatə edir. Burada müxtəlif məsələlər barədə məlumat verilir, konkret vəziyyətlər, problemlər təsvir edilir, təkliflər, qiymətləndirmələr irəli sürülür.

4.Yekunlaşdırıcı hissə: burada məktuba yekun vurulur, hansısa xahiş, arzu öz ifadəsini tapır. Epistolyar üslubdan bəhs edilərkən, məktubların 3 və ya 4 növü göstərilir. 1. İntim-məişət mənşəli məktublar; 2. Ədəbi məktublar; 3. Açıq məktublar. 4. Rəsmi-işgüzar məktublar;

İntim-məişət mənşəli məktublar dedikdə ən dərin səmimiyyətə malik məktublar nəzərdə tutulur. Bu cür məktublar, adətən, bir-birinə doğma insanlar arasında yazılır. Belə məktublarda təntənəli söz və ifadələrdən çox da istifadə olunmur. Cümlələr sadə quruluşda olub, onun üzvləri xalq danışıq dilində olduğu kimi düzəlir.

Ədəbi məktublar isə intim-məişət üslublu məktublardan fərqli olaraq daha çox sosial mahiyyət daşıyır. Əslində, ədəbi məktubda epistolyarlıq təkcə onu yazanın – korrespondentin və adresatın olmasındadır. Tarixdə belə hadisələr çox olur ki, alim və ya şair, yazıçı müəyyən bir sosial problem haqqında öz dostu, ya məsləkdaşı ilə fikirlərini, ümumi dərdlərini bölüşür, yaxud hansısa bir hadisə ilə bağlı dostunu, bütövlükdə milləti, ictimaiyyəti təbrik etmiş olur. Ədəbi məktubun dili onu yazandan asılıdır. Əgər məktubu şair və ya yazıçı yazırsa, bədiilik burada aparıcı olacaqdır. Ədəbi məktublar sırasında S.Ə.Şirvaninin, H.B.Zərdabinin, Q.B.Zakirin, M.F.Axundovun, C.Məmmədquluzadə-nin, B.Vahabzadənin, S.Rüstəmin, M.Rahimin, M.Şəhriyarın məktublarını misal göstərmək olar. Cəmiyyətdə tanınan ayrı-ayrı şəxslərin müxtəlif əhəmiyyətli məsələlərlə bağlı mətbuat vasitəsilə bir-birinə ünvanladıqları məktublar isə açıq məktublar hesab edilir. Açıq məktubların məqsədi onun məzmununda əks olunan məsələ barədə bütün cəmiyyətin məlumatlanmasıdır.

Rəsmi-işgüzar üslubda yazılmış məktublar isə elektron yazışmaların, demək olar ki, əsasını təşkil edir. Çünki işgüzar sferalarda qurulan elektron kommunikasiyaların əsas məqsədi fikrin, rəyin, informasiyanın müəyyən qəlibə düşmüs (standart) formalarda və olduqca yığcam şəkildə verilməsidir ki, bu da rəsmi-işgüzar üslubun mahiyyəti ilə uyğunluq təşkil edir. Üslubun əsas səciyyəvi xüsusiyyəti də elə budur. Rəsmi-işgüzar üslub hamı üçün eyni və standartdır. Belə bir üslubda yazılmış məktublarda obrazlı ifadələrə, fərdi nitq xüsusiyyətlərinə rast gəlinmir. Belə məktubların lüğət tərkibi yığcam, sintaksisi məhduddur. Rəsmi - işgüzar üslubda bir sıra arxaik sözlər və köhnəlmiş sintaktik qəliblər uzun müddət qorunub saxlanıldığından bütün bunlara elektron məktubların dilində də rast gəlmək olar.

Bununla belə, elektron məktubları artıq tam mənasında ənənəvi epistolyar janra aid etmək mümkün deyildir. Bütün hallarda, elektron məktubların tərtibi ənənəvi məktublardan bir qədər fərqlənir. M.A.Kronqauz elektron məktubun daha demokratik mahiyyət daşıdığını, məsələn, bir çox müraciət formalarından yalnız elektron məktublarda istifadə olunduğunu qeyd edir [6, s.7].

Elektron məktub ənənəvi məktub nümunələri ilə müqayisədə nisbətən yarımrəsmi xarakter daşıyır. Nəticədə, burada ünsiyyətin formallığı azalır. Elektron məktub şifahi nitqlə yazılı nitq arasındakı orta bir mövqedə qərarlaşır. Bu, məktubda danışıq elementlərinin, peşəkar ifadələrin, jarqonların, ingilis dilində söz və ifadələrin, başqa dillərə aid sözlərin transliterasiya edilərək yazılması hesabına baş verir. Bütün bunlardan ənənəvi məktublarda istifadə olunmur. Elektron məktubu tərtib edən şəxs onu hazırlamağa da daha az vaxt sərf edir. Burada əsas diqqət məlumatın məzmununa, ona verilən reaksiyaya, ən əsası isə operativliyə yönəlir. Məsələn, məktubun mətnində salamlaşmadan dərhal sonra mətləbə keçid edilə bilər. Bütün bu cəhətlərə görə, müasir elektron məktubların dil-üslub xüsusiyyətləri ənənəvi məktublarda olduğundan xeyli fərqlənir.

Hər bir məktubun strukturu reqlamentləşdirilmiş (standart) və reqlamentləşdirilməmiş (qeyri-standart) olur. Reqlamentləşdirilmiş məktub lazımi tələbələrə cavab verməli, işgüzar yazışmanın çoxillik ənənələrinə əsaslanmalıdır. Reqlamentləşdirilməmiş məktub isə reqlamentləşmiş məktubla müqayisədə daha azad forma, struktur və üsluba malikdir. Bu məktublar konkret situasiyada, standartlardan kənar vəziyyətlərdə yazılır. Bu zaman izah zərurətindən irəli gələrək müəyyən nitq vasitələrindən çox istifadə olunur. Ona görə də bu tipli məktublarda ənənəvi formullar dəyişir. Məsələn, reklam məktublarını, press-relizləri, təklif paketlərini buna nümunə göstərmək olar. Göründüyü kimi, yeni qanunauyğunluqlar yeni formalar müəyyən edir. Elektron məktublarda istifadə üçün hansı formanın seçilməsində, reqlamentləşmə tələbinə nə dərəcədə əməl olunmasında təşkilat daxilindəki korporativ mühitin, kommunikasiya səviyyəsinin, həmçinin şəxsi münasibətlərin də böyük rolu vardır. Bir çox hallarda elektron məktublarda ənənəvi məktublara xas etiketlərdən istifadə olunur. Bəzən isə elektron yazışmalar zamanı bu etiket qəlibləri ya tamam buraxılır, yaxud bu formalardan çox məhdud şəkildə istifadə edilir. Çünki elektron kommunikasiya iştirakçılarının fikrincə, burada mühüm olan informasiyanın ötürülmə sürətidir. Nəsillər arasındakı fərqin də burada böyük rolu vardır. Belə ki, elektron yazışmaların yaşlı iştirakçıları, adətən, epistolyar janrın bütün tələblərinə əməl etməyə çalışırlar. Gənc nəslin nümayəndələrinə aid məktub nümunələrində isə bu, müşahidə olunmur. Onlar üçün informasiyanın operativ ötürülməsi, məktubun məzmunu onun tərtibi formasından daha önəmlidir. Ona görə də elektron məktub mümkün qədər qısa tərtib edilir. Onun bir sıra vacib strukturları, etiket elementləri buraxılır. Beləliklə, elektron məktublarda dil vasitələrinin zənginliyi kasadlaşır. Yaşlı nəslin təmsilçiləri isə ənənələrlə yeni dəyərləri birləşdirməyə çalışırlar [5, s. 45].

Bütün digər kommunikasiya üsulları kimi elektron kommunikasiya vasitələrinin, o cümlədən elektron məktubların da başlıca şərti tərəflərin bir-birini anlamasıdır. Bu baxımdan, ənənəvi məktublar daha üstün keyfiyyətlərə malikdir. Amma elektron yazışmaların iştirakçıları da öz aralarında bir-birini anlayırlar. Kommunikantlar arasında anlaşılmazlıqların ortaya çıxmaması üçün elektron məktubların hazırlanması ilə bağlı bir sıra tövsiyələr irəli sürülür. Hər bir elektron məktub qısa, konkret, məntiqi, birmənalı olmalı, müxtəlif şərhlərə yer verilməməlidir. Məktubun rəsmi-işgüzar üslubda və neytral tonda yazılması, emosional ifadə və kəlmələrdən istifadə edilməməsi, inandırıcı arqumentlər irəli sürülməsi, orfoqrafik və sintaktik səhvlər buraxılmaması da mühüm şərtlərdəndir.

Elektron məktubun kompozisiyası onun əsas hissəsini tamamlamalı, strukturu uyğun qurulmalıdır. Hər bir məktubun strukturu informasiyanın həcmi və çətinliyindən asılıdır. Yuxarıda da göstərdiyimiz ənənəvi normalara görə, mətnin strukturu üç hissədən ibarət olmalıdır: müraciət, əsas və yekun hissə. Əsas hissədə fakt və hadisələr göstərilir. İkinci hissədə isə çıxış, xahiş,

təklif, qərar və s. təqdim olunur. Məzmundan asılı olaraq bunlar dəyişə də bilər. Yekun hissədə isə məktub ümumiləşdirilərək tamamlanır.

Elektron məktubun mətni böyük olduqda mətn abzaslara bölünməlidir. Bu, oxucunun onu daha asanlıqla oxuyub anlamasına xidmət edir. Bütün hallarda böyük mətnli elektron məktublar yazmaq tövsiyə edilmir. Çünki mətnin böyüklüyü onun qavranılmasını çətinləşdirir. Elektron məktubun səmərəli və inandırıcı olması, məqsədlərini aydın ifadəsi də əhəmiyyətli şərtdir. Elektron məktublarda 7 mühüm şərtə xüsusi diqqət yetirilməlidir: 1) Məqsədin cəld şəkildə ifadəsi; 2) Məsələnin məğzi ilə təfərrüatların ayırd edilməsi; 3) Oxucuların söhbətə cəlb olunması bacarığı; 4) Yazışmaların müasir biznes şəraitinə uyğunlaşdırılması; 5) Fikirlərin xüsusiliyi və konkretliyi; 6) Yazışmaların pozitivliyi və səmimiliyi; 7) Mürəkkəb söz və söz birləşmələrindən imtina.

Hər bir elektron məktub anlaşıqlı və konkret olmalıdır. Lazımsız təfərrüatlar ixtisar edilməli, çətin, çaşdırıcı söz birləşmələri sadə dillə ifadə olunmalıdır. Mümkün qədər təsirli fellərdən istifadə edilməlidir. Çünki təsirli fellər yazışmanı təkmilləşdirir və mətnə konkretlik, qətilik gətirir. Bunun əksinə, məchul fellərdən, məlumatın üstüörtülü ifadəsindən, Ezop dilindən çəkinmək lazımdır.

Elektron məktubun mövzu bölümündə diqqəti cəlb edən adın yazılması çox vacibdir. Bir çox adresatların məktubu oxuyub-oxumamaq barədə qərarı mövzu bölümündəki ada əsasən müəyyənləşir. Mövzusuz elektron məktubların arzuolunmaz məktublar (spam) qutusuna düşmə və oxunmama ehtimalı çox yüksəkdir. Digər tərəfdən, məktubun adı elektron poçt qutusunun arxiv funksiyasından istifadə zamanı da çox faydalı olur və hətta illər əvvəl göndərilmiş məktubun istənilən zaman asanlıqla axtarılıb tapılmasını təmin edir.

Məktubun adı onun məzmununu icmallaşdıran kəlmələrdən təşkil olunmalıdır. Bu bölmədə uzun cümlələrin yazılması yolverilməzdir. Peşəkar baxımdan elektron məktubun adı 3 kəlməni ötməməlidir. Əvvəlcə göndərilmiş hər hansı bir elektron məktuba düzəliş edilərək təkrar göndərildikdə, mövzu adı bölməsinə də müvafiq düzəliş edilməlidir. Mövzu bölməsindəki sözlərin böyük şiriftlərlə yazılması məqsədəuyğun deyildir.

Məktubun mətnində də uğurlu girişdən istifadə ona marağı artıran cəhətlərdəndir. Ona görə də başlanğıc cümlə mümkün qədər qüvvətli yazılmalıdır. Effektiv aralıq cümlələr və sonluqlar isə mətnin qavranılmasını asanlaşdırır, konkret nəticə çıxarılmasına kömək göstərir. Pozitivlik, yüksək səmimiyyət ifadəsi də məktuba maraq və etimad yaradır. Bundan başqa, əldə olunmuş məlumatların konkret və effektiv formada ifadəsi, müvafiq təkliflərin irəli sürülməsindən ötrü uyğun formaların seçilməsi elektron məktublarda çox əhəmiyyətlidir. Etiraz məzmunlu fikirlərin aydın və nəzakətli şəkildə yazılması da elektron məktubların hazırlanmasının mühüm şərtlərindəndir.

Açar mənada, elektron məktub virtual məkanın semiotizasiyası hadisəsidir. İnformasiya kanalları vasitəsidir – indeksdir, siqnallardır, işarələrdir, simvollardır, modellərdir. Elektron yazışmaya sintaktik, semantik,

praqmatik, struktur və digər xüsusiyyətlər daxildir ki, bütün bunlar da onun formulə edilməsinə və xatırlanmasına kömək göstərir.

Elektron məktub aşağıdakı konstitutiv işarələri özündə əks etdirir:

-kreolizivlik, yəni şəkil, müxtəlif şirift növləri, rənglər, qrafik simvollar və s. bu kimi paralinqvistik vasitələrdən istifadə;

-emosiyaların, mimikaların müxtəlif vasitələrlə ifadəsi;

-müxtəlif tip diskursların kombinasiyası;

-xüsusi kompüter etiketindən istifadə və s.;

-danışıq nitqi vasitələrindən istifadə, şifahi nitq formalarına meyllilik;

-ədəbi dil normalarının pozulması;

-hansısa sözün, ifadənin xüsusi vurğulanması üçün rəngli və ya böyük hərflə fərqləndirilməsi [7, s. 172].

Bütün bu aspektləri nəzərə alaraq elektron məktubların hazırlanması zamanı aşağıdakı tövsiyələrə də əməl olunması faydalıdır:

-Elektron məktublar yalnız böyük hərflərlə yazılmamalıdır. Mətnlərin böyük hərflərlə tərtibi daha çox mühasibat proqramlarından fəal istifadə nəticəsində yaranan vərdişdir. Böyük hərflərlə yazılmış elektron məktubları oxumaq və anlamaq çox çətin olur. Çünki təhtəlşüurumuzda özünə yer tutmuş oxu vərdişlərinə görə böyük hərflərin öz yeri, kiçik hərflərin də öz yeri var. Böyük hərflərlə yazılmış məktublar onu hazırlamış şəxsin bu sahədə qeyri-peşəkarlığına dəlalət edir və yazışma qaydalarından xəbərsizliyini göstərir.

-Hər bir elektron məktub salamlama kəlmələri ilə başlamalıdır. Məktuba salamsız başladıqda adresata canlı insandan daha çox robot kimi yanaşmış olursan. Nəzərə almaq lazımdır ki, məktub başqa bir insana yazılır və ona salam vermək adi etik qaydadır. Dünyanın bütün ölkələri kimi, Azərbaycanda da elektron poçt mədəniyyəti salamlardan, insanların əhval-ruhiyyəsi barədə səmimi suallardan, xoş arzulardan, məktubun yazıldığı yerdə havaların necə keçməsi barədə məlumatlardan başlanan, sonda isə kiçiklərin gözlərindən, böyüklərin əllərindən öpən klassik məktublar əsasında formalaşıb. Ona görə də əvvəli və sonu olmayan elektron məktublar adresatlar tərəfindən xoş qarşılanmır. Bunu nəzərə alaraq hər bir elektron məktubu, ən azı bir salam kəlməsi ilə başlamaq və xoş ovqatla tamamlamaq lazımdır.

-Elektron məktublar Azərbaycan dilinin orfoqrafik qaydalarına uyğun yazılmalıdır. Danışıq dili ilə yazılı dil qaydaları arasındakı fərqləri bilməmək insanın dil savadının zəifliyindən xəbər verir. Elektron məktublarda nöqtə işarələrinin, ayırmaların yerli-yerində qoyulması, “tşk, slm.” və s. bu kimi “Olban dili” elementlərindən istifadə olunmaması çox mühümdür. Məktubun mətninə “bunu push edin”, “onu check etmək olarmı?” və s. bu kimi ingiliscə kəlmələrin daxil edilməsi də tövsiyə olunmur. Belə ki, məktub kommunikantlar arasındakı əsas ünsiyyət dilindən asılı olaraq ya tam Azərbaycan dilində, ya da ingilis, yaxud başqa dillərdə yazılmalıdır. Qarışıq bir dildə yazılmış elektron məktublar onun anlaşılmasını çətinləşdirir və korrespondent haqqında mənfi təəssürat formalaşdırır.

-Elektron məktubları insan əsəbi olduğu zaman, emosiyaların təsiri altında yazmamalı, mətn hazırlayarkən başqalarında qıcıq yarada biləcək əsəbi intonasiyadan qaçmalıdır. Belə ki, emosiyalar ötəri, onların təsiri ilə mətnə daxil edilmiş ifadələr isə qalıcıdır.

-Elektron poçta mütləq imza əlavə edilməlidir. Çünki məktubu nəzərdən keçirərkən, adresatlar onu kimin göndərdiyini bilmək istəyirlər. Ona görə də hər bir məktuba müəllifin adı, soyadı, iş yeri, əlaqə nömrəsi, iş yerinin internet səhifəsi barədə məlumatların əks olunduğu imza daxil edilməlidir. İmzada ad əvəzinə ad və soyadın baş hərflərinin yazılması uyğunsuz formadır. Eyni zamanda, imzada qısaltmalardan istifadə də tövsiyə olunmur.

-Yalnız fayllar əlavə edilmiş, mətn hissəsində isə heç nə yazılmamış elektron məktublar da qeyri-peşəkarlıq göstəricisi kimi dəyərləndirilir. Nəzərə almaq lazımdır ki, hər elektron məktub yeni bir ünsiyyət fürsətidir. Mətn hissəsinə salamlaşma kəlmələri və əlavə izahlar yazmaq adresatın məktuba daha həssas yanaşmasına kömək göstərəcək və daha sıx ünsiyyət üçün imkan yaranacaq.

-Şriftin növü və ölçüsü də elektron məktubların tərtibində mühüm şərtdir. Times New Roman, Comic-sans kimi yazı tiplərini oxumaq, adətən çətin olur. Bu baxımdan, elektron məktubların tərtibi üçün ən uyğun şirift Arial sayılır. Elektron məktublarda Calibri şiriftindən də istifadə etmək olar. Şirift üçün ən uyğun ölçülərsə 10-12-dir. Məktub qara, adi şiriftlərlə yazılmalıdır. Bəzi məqamların xüsusi diqqətə çatdırılmasından ötrü mətnin həmin hissələrini tünd, yaxud qırmızı rəngli şiriftlərlə fərqləndirmək olar.

-Ortaq jarqon və qısaltmalarla müntəzəm ünsiyyət qurulan adamlar xaricindəki adresatlar üçün bu cür ifadələr anlaşılmaz görünə bilər. Ona görə də hamı tərəfindən başa düşülən qısaltmalar istisna olmaqla, elektron məktublarda çox qısaltmadan istifadə məqsədəuyğun sayılmır. Yuxarı vəzifələrdə çalışan insanlara göndərilən məktublarda "lazım olanı edin" mənası verən "Fyi" qısaltmasından istifadə yolverilməzdir.

Ümumiyyətlə, bu, elektron məktubların və digər elektron yazışmaların maraqlı psixoloji aspektlərindəndir. Elektron məktub və ismarıclar insanlar arasında məsafələri ortadan götürdüyü kimi, iyerarxiyaları da aradan qaldırır. İnsan subordinasiya, sosial mövqe baxımından özündən çox yuxarı səviyyədə olan biri ilə ünsiyyət zamanı, özünü onunla eyni pillədə hiss etməyə başlayır. Bu yaxınlaşma yazı dilinə səmimiyyət gətirir. Amma burada ölçü hissini aşmamaq üçün hər kəsin öz məsuliyyətini dərk etməsi də mühüm şərtdir.

-Mətn yazılarkən əmr formasından mümkün qədər istifadə edilməməsi də qarşı tərəfə ehtiram nümunəsi kimi yüksək dəyərləndirilir. Rəsmi səciyyəli elektron məktublarda üç nöqtələr, emosiya işarələri və ekspressivlik yaradan digər bu kimi xüsusi simvollardan istifadə olunmamalıdır.

-Elektron məktublarda müəyyən bir konkretlik olmalı, məchulluğa meyl edilməməlidir. Hazırda Azərbaycan dilində yazılan əksər elektron məktublarda müşahidə etdiyimiz maraqlı bir məqam da var. İnsanlar korporativ yazışma zamanı gündəlik istifadə etdikləri Azərbaycan dilinin qəliblərindən kənara

çıxaraq bütün felləri məchul formada yazırlar. Məsələn, “Mövzunu araşdırıb sizə ən qısa zamanda cavab verəcəyik” kimi konkret forma əvəzinə, “Mövzu araşdırılacaq və sizə cavab veriləcək” formasından istifadə olunur. Bu, o qədər də məqbul forma deyildir.

-Kənar qurumdan hər hansı birinə elektron məktub göndərilərkən korrespondent öz işlədiyi müəssisəni təmsil etdiyi üçün - özünü birinci şəxsin cəmindən, yəni “biz” əvəzliyi ilə təqdim etməlidir. Rəsmi səciyyə daşıyan elektron məktublarda “loru dildən” istifadə olunmamalıdır. Bu, peşəkarlıqdan uzaq görünür və qarşı tərəfdə mənfi münasibət formalaşdırır. Müxtəlif texniki sistemlərdən istifadə etməklə elektron yazışmalardakı bir çox dil xətalarını aradan qaldırmaq olar. Bu, insanlarda bir vərdişə çevrilməlidir. İnsan hətta ən yaxınlarına ismarıc və ya elektron məktub yazanda belə bu qaydalara əməl etməlidir.

-Elektron məktublarda “nəzərinizə çatdırıram, rica edirəm” ifadələrindən istifadə edilməli, hər məktub xoş ifadələrlə (dərin hörmətlə, xoş çalışmalar və s.) tamamlanmalıdır. “Görüşərik”, “görüşənə qədər”, “salamat qalın” və s. bu kimi ifadələr isə elektron məktubların hazırlanması qaydalarına ziddir.

Bir çox böyük şirkətlər işgüzar yazışmalar üçün özlərinin korporativ standartlarını hazırlayır və elektron məktubları bu standartlar çərçivəsində tərtib edirlər. Bu, kommunikantların özlərini müəyyən olunmuş qrupun üzvləri kimi təqdim etməsinə imkan yaradır. Eyni vaxtda kütləvi sayda adresanta göndərilməsi və onlardan cavabların alınması imkanı verən elektron məktublar qrup halında müzakirələr üçün də mühüm vasitədir.

Elektron məktublarda bir çox ifadələr parol funksiyası daşıyır. Bu, ifadələr xüsusi diskursiv işarə kimi çıxış edir. Bu işarələrin köməyi ilə kommunikasiya prosesinin iştirakçısı tərəfdaşının aid olduğu sosial sinfi müəyyənləşdirə bilir. Diskurs iştirakçısı lüzumsuz terminologiyadan, ixtisarlardan, allüziyalardan, mətni ağırlaşdıran məqamlardan çəkinir. Bu, sosialtəqdimat funksiyasıdır [7, s. 171].

Dilin sosial və kommunikativ aspektləri dinləyənlərin, yaxud oxuyanların özünü müəyyən edilmiş dil kollektivinin üzvü kimi aparmasına və bu kollektivin xüsusiyyətlərini başqa şəxslərdə də axtarmasına imkan verir. Bu mənada, müvafiq diskursiv elementlər parol funksiyasını yerinə yetirərək ünsiyyət iştirakçılarını parametrlər üzrə klassifikasiya etməyə imkan verir: «özününkü – yad», yaxud «mütəxəssis – qeyri-mütəxəssis» və s. [4, s.14]

Elektron məktub özünü xüsusi işarələr sistemi kimi təqdim edir. O, müxtəlif verbal və qeyri-verbal vasitələrlə strukturlaşır. Belə bir strukturlaşma bir tərəfdən məktubun dinamik xarakterini təmin edir, digər tərəfdən də ənənəvi normaların dəstəklənməsinə imkan yaradır [7, s.171].

Bu kommunikasiya vasitəsinin digər bir sıra özünəməxsus cəhətləri də diqqəti çəkir. Bunlardan biri elektron məktubların silsiləvi xarakteridir. Elektron yazışmalar çox zaman, məktub və onlara cavabların silsiləsi halında

özünü göstərir. Bunlar vahid kommunikativ akt kimi qəbul olunur. Bu silsiləvilik daxilindəki xüsusi qaydalar onlar arasında əlaqəni təmin edir.

Elektron məktubların digər səciyyəvi cəhəti məktublararası anaforadır. Adi məktublarda olduğu kimi elektron məktublarda da eyni vaxtda bir deyil, bir neçə mövzu öz əksini tapa bilər. Bu cür məktublara müxtəlif sayda cavab strategiyaları mövcuddur. Bəzi hallarda bu strategiyanın cavab-cavab replikası kimi ola bilməsi mümkündür. Bu zaman replikalar arasında keçid üçün heç bir formal göstərici olmur. Amma bir çox hallarda da bu və ya digər mövzunun başa düşülməsindən ötrü zərurətlər meydana çıxır. Elektron yazışmalarda mətnin ayrı-ayrı fraqmentlərinə müxtəlif cavab sistemlərindən isifadə olunur. Məktublararası anaforalardan istifadə edənlər çox tez-tez müxtəlif keçid vasitələrindən faydalanırlar.

Müraciət, salamlaşma və vidalaşma imkanının mövcudluğu və növbəti məktublarda bu imkandan istifadə məsələsi də elektron məktubların diqqətçəkən cəhətlərindəndir. Belə ki, ilk iki məktub seriyası, adətən, salamlaşma və digər müraciət formullarından istifadə ilə başlanır. Amma növbəti məktublarda artıq salamlaşma və vidalaşma formullarına ehtiyac qalmır. Maraqlı bir məqamı diqqətə çatdıraq ki, müasir elektron yazışma formalarının müəyyən xüsusiyyətlərinə, hətta Puşkin dövründə də rast gəlmək mümkündür. O dövrlərdə ənənəvi poçt sistemi inkişaf etdiyindən məktublar, qeydlər, kuryerlə göndərilən digər göndərişlər eyni şəhərdə yaşayan adresata cəmi bir neçə saat ərzində çatırdı. Beləliklə, insanlar gün ərzində bir neçə dəfə məktub mübadiləsi edə bilirdilər. Hətta o epoxada da salamlaşma və vidalaşma formalarının növbəti məktublarda ixtisarına rast gəlmək olur.

Elektron məktublarda zaman deyiksisi də özünü göstərir. Məsələn: "Mən indi kompüter arxasında əyləşmişəm, kofe içirəm" və s. Bu göstəricilərdən real vaxt rejimində praktik baxımdan istifadə olunur. Çünki məktubu yazan adam onu dərhal göndərir. Adresat da onun "indi" deyərkən hansı zamanı nəzərdə tutduğunu düşünüb tapa bilir. Ənənəvi məktublarda zaman deyiksisinin bu növündən, adətən, istifadə olunmur. Ancaq məktubun yazıldığı vaxtın onun məzmununun ayrıca elementi kimi çıxış etmədiyi vaxtlarda (Məsələn, *İndi saat üçdür, yata bilmirəm və sənə bu məktubu yazmağa qərar verdim*) bu, istisnadır.

Hazırda Azərbaycanda elektron məktublarla bağlı özünü göstərən ən ciddi problemlərdən biri əlifba simvollarından düzgün istifadə məsələsidir. Elektron yazışmaların ortaya çıxdığı ilk illərdə Azərbaycana idxal edilən kompüterlərin çoxunda latın qrafikalı Azərbaycan əlifbasına uyğun əlifba simvolları yox idi. Ona görə də elektron yazışma aparanlar, əsasən, ingilis əlifbasından istifadə edirdilər. Hazırda kompüterlərdə Azərbaycan qrafikalı latın əlifbası tətbiq olunur. Bununla belə, elektron yazışmalarda ingilis qrafikasından istifadə vərdişləri yenə də qorunur. Bu, bir tərəfdən psixolinqvistik, digər tərəfdən isə semiotik-mədəni amillərlə bağlıdır. Bütün hallarda, Azərbaycan dilində aparılan elektron yazışmalar zamanı ingilis əlifbasından istifadə müəyyən çoxvariantlığa yol açır. Sözün qrafik formasının

dəyişməsi onda semiotik dəyişikliklərin də yaranmasına səbəb olur. Standart Azərbaycan əlifbası ilə yığılmış mətnlərdə bu cür dəyişiklikləri görmürük. Çünki onun qrafik forması birmənalıdır. İngilis qrafikasından istifadə isə Azərbaycan dilinin orfoqrafik normalarının aşınmasına böyük stimul yaradır və ümumən dildə aşınma baş verir. Elektron yazışmalarda ingilis qrafikasından istifadə, bəzi hallarda hətta qrammatik normaların pozulmasına da səbəb ola bilər. Bu, daha çox uzun müddətdən bəri ölkə xaricində yaşayan ana dili daşıyıcılarına aiddir.

Ümumiyyətlə, ana dilində yazışmaları ingilis dilinin əılifba simvolları ilə aparan nə qədər adam varsa, bir o qədər də prinsip var. Beləliklə, elektron yazışma mətnlərini müşahidə etməklə transliterasiya sisteminin aşağıdakı tiplərini üzə çıxarmaq olur: elmi, emprik, variativ və s. Bundan başqa, elektron yazışmalar aparan insanların əlifba simvollarından istifadəyə görə aşağıdakı kateqoriyalarını da müəyyənləşdirmək mümkündür: 1) peşəkar filoloji biliklərə malik fərdlər; 2) mental tərz və elmi məntiqin dominantlığı; 3) obrazlı təfəkkürün üstünlüyü ilə bədii, abstrakt təfəkkürün əks olunması; 4) müəyyən bir xarici dilə yönəlmə. Bu, orta məktəbdə istifadə edilmiş birinci xarici dil, yaxud adamın yaşadığı ölkənin dili ola bilər. Bütün bu kateqoriyalar ən müxtəlif kombinasiyalarda özünü göstərir və hər bir kombinasiya transliterasiya sisteminin çoxluğu ilə müşayiət olunur.

Yekun olaraq onu söyləyə bilərik ki, elektron məktublar özünü maraqlı linqvistik obyektlər kimi təqdim edir və gələcək dil araşdırmaları üçün geniş material verir.

ƏDƏBİYYAT

1. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, “Elm və təhsil”, 2011

2. Calallı İ. İnformatika terminlərinin izahlı lüğəti. Bakı, “Bakı” nəşriyyatı, 2017

3. Əliquliyev R., Şükürlü S., Kazımova S. Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər. Bakı, İnformasiya Texnologiyaları, 2009.

4. Бейлинсон Л.С. Профессиональный дискурс: признаки, функции, нормы. Волгоград, «Перемена», 2009, с. 14

5. Кожеко А.В. Эпистолярные жанры: традиционные и современные формы // Современные проблемы науки и образования. ФГАОУ ВПО «Сибирский федеральный университет», 2015, № 2-3.

6. Кронгауз М.А. Русский язык на грани нервного срыва. Москва, Астрель: CORPUS, 2012 s. 7

7. Нечаева В. С. Семиотические аспекты электронного делового письма // Вестник МГЛУ. Выпуск 19 (652), 2012

8. https://en.wikipedia.org/wiki/Ray_Tomlinson

9. https://www.radicati.com/?page_id=54

10. http://unec.edu.az/application/uploads/2015/07/ISGUZAR-YAZISMALAR-I-KOLOKVIUM-2003.pdf

11. https://www.science-education.ru/ru/article/view?id=23775

12. https://cyberleninka.ru/article/v/semioticheskie-aspekty-elektronnogo-delovogo-pisma-1

РЕЗЮМЕ

ЕДГАР ДЖАФАРОВ

ЯЗЫК ЭЛЕКТРОННЫХ ПИСЕМ

Статья посвящена особенностям языковой стилистики электронных писем, занимающих значимое место в современных методах коммуника ции. Электронные письма здесь рассматриваются как особый вид электронного дискурса. Проводятся параллели между традиционными и современными формами эпистолярного жанра. Анализируются различные аспекты характерных особенностей электронной переписки. Выявляются и исследуются своеобразные особенности электронных переписок. Определены соответствующие нормы и правила для подготовки электронных писем.

Ключевые слова: письмо, эпистолярный жанр, виртуальный дискурс, электронное письмо, электронная переписка

SUMMARY

YEDGAR JAFAROV

THE LANGUAGE OF E-MAILS

The article covers main features of the language style of e-mails, which are one of the top modern communication methods. E-mails are considered as the special type of virtual discourse. The comparison is made between traditional and modern forms of the epistolary genre. Various aspects of e-correspondence specifications are analyzed. Specific features of e-correspondence are researched. Norms and rules of e-mail writing are assigned.

Keywords: letter, epistolary genre, virtual discourse, e-mail, e-correspondence

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

ŞİRMƏMMƏD QULUBƏYLİ
“Naxçıvan” Universiteti
squlubeyli@mail.ru

CEK LONDON VƏ ONUN “HƏYAT EŞQİ” HEKAYƏSİ HAQQINDA

Bu məqalədə dünya ədəbiyyatının görkəmli nümayəndəsi Cek Londonun həyatından və onun yaradıcılığında müstəsna yer tutan ‘‘Həyat eşqi’’ hekayəsinin məzmun və ideyasından qısa şəkildə bəhs olunur. Göstərilir ki, bu hekayənin əsas mahiyyəti insan övladının təkcə təbiətin amansız qüvvələri üzərində deyil, həm də özü üzərində qələbəsini əks etdirməkdir. Bu hekayənin insanı sədaqət və xəyanət, həyat və ölüm kimi anlayışlar, maddiyyatın insan həyatındakı rolu barəsində bir daha dərindən, fərqli düşünməyə vadar etməsi kimi məqamlar əsərin təhlili əsasında şərh olunur. Əsərdəki müəyyən epizodların təhlili əsasında belə bir ideya xüsusi olaraq vurğulanır ki, insan ona verilmiş ömür payından nə istədiyini bildikdə ağlasığmaz çətinliklərə qalib gəlir, tükənməz həyat eşqi amansız ölümü məğlub edir.

Açar sözlər: Cek London, hekayə, yazıçı, həyat, ölüm, mübarizə, qələbə

Dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan Cek London (Con Qriffit Çeyni) 1876 - cı il yanvar ayının 12-də Amerikada, Kaliforniya ştatının San-Fransisko şəhərində dünyaya göz açmışdır. Yazarın anası Flora Velman ailənin beşinci və ən kiçik uşağı idi. Anasının vəfatından sonra atası Marşal Velman evə ögey ana gətirdikdə Flora Ohayonu tərk etmiş, San-Fransiskoya gələrək orada musiqi müəllimi işləməyə başlamışdı. Bioqraflarının bir çoxu yazarın atasının astroloq Vilyam Çeyni olduğunu qeyd edirlər. Lakin professor Çeyni heç vaxt bu dahi yazıçının atası olduğunu etiraf etməmiş, impotent olduğunu əsas gətirərək Cek Londonun özünə də bunun mümkün olmadığını bildirmişdi. Yazarın ata-anasının rəsmi şəkildə nigahda olduğunu təsdiq və ya inkar edən bir sübut yoxdur, çünki 1906-cı ildəki zəlzələdən sonra baş verən yanğınlar nəticəsində vətəndaş vəziyyəti aktlarının qeyd olunduğu sənədlər məhv olmuşdu (1). Lakin bu fakt bəllidir ki, onlar birlikdə yaşayıblar və Flora Velman uşaq gözlədiyini bildirdikdə Vilyam Çeyni qadını uşağı tələf etməyə məcbur etməyə çalışmışdı. Əsəbiləşən qadın özünə qəsd etsə də, həkimlər onu və deməli, gələcəyin dahi yazıçısını da xilas edə bilmişdilər. Görkəmli astroloq isə problemin həllini aradan çıxmaqda görmüşdü.

Uşaq doğulduqdan sonra Flora onun qayğısına qalmağı keçmiş kənizi Virginia Prentisə həvalə etmişdi. Cek London analıq məhəbbətini məhz bu

qadından görmüşdü. Sonra gələcək yazıçının anası vətəndaş müharibəsi veteranı, qismən əlil olan Con Londona ərə getmişdi. Son dərəcə yüksək insani keyfiyyətlərə malik olan atalığı uşağın gələcəkdə həyatda öz yerini tapa bilməsi üçün əlindən gələni etmiş, ona əsl atalıq qayğısı göstərmişdi. Təsadüfi deyildir ki, dahi yazıçı bu insana minnətdarlıq əlaməti olaraq onun soyadını özü üçün ədəbi təxəllüs kimi götürmüşdür.

Hələ ana bətnində real ölüm təhlükəsi ilə üz-üzə qalan yazarın uşaqlıq və ilk gənclik illəri Amerikada iqtisadi böhranın hökm sürdüyü bir dövrə təsadüf etmiş, o, maddi və mənəvi mərhumiyyətlər içərisində yaşamalı olmuşdu. Kiçik yaşlarından çörək qazanmaq məcburiyyətində qalan Cek ən müxtəlif işlərdə çalışmalı olub: qəzet satıb, gəmilərin göyərtələrini yuyub, parklarda, pivəxanalarda işləyib, yük vurub, yük boşaldıb və s. Onun ailəsi maddi vəziyyətini yaxşılaşdırmaq ümidi ilə tez-tez yaşayış yerini dəyişirdi. Müxtəlif yerləri dolandıqdan sonra onlar nəhayət Oukləndda məskunlaşdılar. 1886 – cı ildə Cek Oukland Dövlət Kitabxanasında son dərəcə şəfqətli, incə qəlbli kitabxanaçı İna Kulböflə tanış oldu və sonralar Kaliforniyanın ilk laureat şairi olan bu qadın onu müstəqil şəkildə oxuyub öz savadını artırmağa ruhlandırdı.

1889-cu ildə Cek London Hikmotun konserv zavodunda gündə 12-18 saat olmaqla işləməyə başlayır və iş son dərəcə ağır olduğundan işdən çıxmalı olur. Müstəqil fəaliyyət göstərmək qərarına gələrək o, dayəsi Virginia Prensisdən pul borc edərək tək dorağaclı bir yelkənli gəmi alır və qadağan olunmasına baxmayaraq dəniz ilbizləri tutmağa başlayır. Lakin bir neçə aydan sonra gəmi təmir oluna bilməyəcək dərəcədə dağılır və o, Yaponiyaya üzən gəmiyə matros kimi işə düzəlir. Bu səyahət onun maddi durumunu yaxşılaşdırmasa da, gələcəkdə yazacağı əsərlər üçün maraqlı mövzular verir.

Sonralar daha bir neçə iş yerini sınaqdan keçirən Cek Oukləndə qayıdır və liman sahilindəki bir barın sahibinə ürəyini açaraq universiteiə girmək, gələcəkdə yazıçı olmaq arzusunu bildirir və həmin şəxs ona kollecdə oxumaq üçün pul borc verir. Nəyin bahasına olursa olsun, ali təhsil almaq arzusunda olan Cek bütün yayı intensiv şəkildə hazırlaşaraq 1896 – cı ildə universitetə daxil olur. Lakin təhsil haqqını ödəmək iqtidarında olmadığından 1897- ci ildə universiteti tərk edərək təhsilini yarımçıq qoymalı olur. Universitetdə Meybl Epilqart adlı qızla tanış olur və yazıçının avtobioqrafik romanı olan "Martin İden"dəki hadisələr baş verir; qız onu sevsə də, onun "Mən yazıçı olacağam" sözlərinə gülməsə də, bir gün cana yığılaraq onun hekayələrini sevmədiyini, onun yazıçı ola biləcəyinə inanmadığını bəyan edir və ondan poçt idarəsində işləməyi xahiş edir. Nə vaxtsa böyük yazıçı olacağına bütün varlığı ilə inanan Cek, təbii ki, onun bu yalvarışını qəbul etmir. Meybl isə onun bir az da dözmək yalvarışına biganə qalır və onların arasındakı nünasibət pozulur.

1897 –ci ildə 21 yaşlı Cek London bacısının əri ilə birlikdə qızıl axtaranlara qoşulur. Klondaykdakı həyat tərzi, kifayət qədər qidalanmaq imkanından məhrum olması onun səhhətində problemlər yaradır. Qızıl tapa bilməsə də, London gələcək əsərlərini, o cümlədən, tənqidçilər tərəfindən ən yaxşı

hekayələrindən hesab olunan “Tonqal” hekayəsinin mövzusunu məhz burada keçirdiyi çətin həyat şəraitindən götürmüşdür. 1898-ci ildə Kaliforniyaya qayıdan Cek London “Martin İden” romanında təsvir olunduğu kimi məhz nəşr olunmaq üçün intensiv şəkildə yazmağa başlayır, çünki belə qərara gəlmişdi ki, fiziki işlə gün-güzəran düzəltmək mümkün deyil. Onun ilk dərc olunan hekayəsinə (“To the man on trail”) vur-tut beş dollar təklif edildikdə və ödənişi ləngidildikdə, London az qala yazıçılıq karyerasına son qoyacaqdı. Lakin “Qara pişik” adlı nəşr (“The black cat”) onun “Min ölüm” əsərini (“A thousand deaths”) qəbul edib ona qırx dollar ödədikdə yazar fikrindən daşındı (1).

Cek London fəal yazıçılıq karyerasına təzə çap texnologiyasının tətbiqi sayəsində çap məhsullarının maya dəyərinin aşağı düşdüyü bir dövrdə başladı. “İlk şimal hekayələri 1899-cu ildə nəşr olundu,1900-cu ildə isə artıq onun ilk hekayələr toplusu kitabı “Canavar oğlu” (Boston1900) adı altında çap olundu. Bunun ardınca isə digər hekayə topluları olan kitabları nəşr olundu: ”Atalarının tanrısı” (Çikaqo, 1901) “Şaxtanın övladları” (Nyu-York, 1902), “İnsana inam” (Nyu-York, 1904), “Ayüzlü” (Nyu-York, 1906), “İtirilmiş sima” (Nyu-York, 1910) hekayılərindən ibarət toplu, “Qarlar qızı” (1902), “Dəniz canavarı” (1904), “Martin İden”(1909)” (2). 1900 – cü ildə Cek London öz yaradıcılıq fəaliyyətindən 2500 dollar qazandı ki, bu da bu günkü qiymətlə təqribən 72000 dollara bərabərdir (1). Sonrakı illərdə o əsərlərini və onların çap hüquqlarını həmin dövr üçün kifayət qədər yüksək məbləğlərə satmağa başladı. Sonralar onun kitablarının qonoraro əlli min dollar səviyyəsinə çatmışdı. Hər gün 15-16 saat işləyən yazar qısa yradıcılığı dövründə qırx kitab yazmışdı.

Cek London 1900- cü il aprelin 7-də Meyblin rəfiqəsi olan Elizabet Maddern (Bessi) ilə evləndi. Yazar həmin qadına səmimi şəkildə bildirdi ki, onu sevməsə də, ondan xoşu gəlir və onların nigahı uğurlu olacaq (3). Onların iki qızı oldu və xarakterlərindəki ciddi uyğunsuzluq nəticəsində 11 noyabr 1904-cü ildə rəsmi şəkildə boşandılar. 1904-cü il iyulun əvvəlindən iyun ayınadək hərbi müxbir işləyərək rus-yapon müharibəsini işıqlandıran yazar bu müddət ərzində dörd dəfə həbs olundu və axırıncı dəfə şəxsən prezident Ruzveltin müdaxiləsi nəticəsində azadlığa buraxıldı. 1905- ci ildə yazar naşirlərindən birinin katibəsi olan Çarmian Kittreclə evləndi. Bioqraflar bu nigahın uğurlu olduğunu qeyd edirlər. Həmişə Cek Londonun yanında olan Çarmian onunla uzun səfərlərə çıxırdı. Bu cütlüyün uşaq yiyəsi olmaq cəhdləri uğursuzluqla nəticələndi.

1905-ci ildə Cek London Kaliforniyanın Sonoma adlanan hissəsində dörd kvadrat kilometr sahəsi olan ranço aldı. Bu mülkə son dərəcə bağlanan yazar etiraf edirdi ki, o məhz yeni torpaqlar alıb rançonu genişləndirmək məqsədilə öz bədii əsrlərini yazır. Bütün cəhdlərinə baxmayaraq Cek London rançoda iqtisadi uğursuzluğa düçar oldu. Onun bu sahədə o vaxtkı qiymətlərlə 80 000 dollara başa gələn “qurd yuvası” adlandırdığı 1400 kvadrat metr sahəni əhatə edən evi ora köçməyə iki həftə qalmış yanğın nəticəsində darmadağın oldu. Bu yazara əsl mənəvi zərbə oldu.

Cek London 1916-cı il noyabr ayının 22-də rançosundakı evində vəfat etdi. O hələ gənclik illərindən həyat tərzi ilə bağlı olaraq bir neçə ciddi xəstəliyə düçar olmuşdu. Ölərkən uremiya xəstəliyi (böyrək xəstəliyi nəticəsində bədənin öz-özünə zəhərlənməsi) səbəbindən dözülməz ağrılar içərisində çırpınır, ağrıları azaltmaq üçün morfi qəbul edirdi. Onun ölümü ilə bağlı sui-qəsd variantı da mövcuddur. Lakin yazarın ölüm haqqındakı şəhadətnaməsində onun məhz uremiya nəticəsində öldüyü təsdiqlənir.

Cek London "Həyat eşqi" hekayəsini 1905-ci ildə qələmə alıb. Əsərin qısa məzmunu aşağıdakı kimidir:

İki qızıl axtaran məqsədlərinə nail olaraq, müəyyən qədər sərvət əldə edərək geri qayıdırlar. Axsaya- axsaya qabaqda gedən birinci adamın dalınca arxada gələn ikinci adam da çaya girir. Bəzi yerlərdə buz kimi soyuq su dizlərinə qədər qalxır, onlar çayın dibini yoxlaya-yoxlaya, səndələyə-səndələyə irəliləyirlər. Arxada gələn adam az qalır bir şumal daşın üstündə büdrəyb yıxılsın, bir təhər müvazinətini tarazlayıb yerisə də, dəhşətli ağrıdan başa düşür ki, topuğu çıxıb. O, topuğunun çıxdığını qabaqda gedən yoldaşına – Billə bildirsə də, Bill çayın ortasında dizə qədər suya batıb qalmış, gözləri ilə onu yola salan yoldaşına zərrə qədər əhəmiyyət vermədən çayın o tayına keçərək axsaya-axsaya yalı aşıb gözdən itir.

Göz işlədikcə uzanan boş, qorxunc düzənlikdə tək qalan yolçu "Bill!" – deyə iki dəfə pıçıldadıqdan sonra çayın ortasında oturur və bu anda sanki ucsuz-bucaqsız düzənlik bütün müdhişliyi ilə onun üstünə çökərək onu boğur, bütün vücudu əsməyə başlayır, tüfəngi şappıltı ilə suya düşür. Bu əhvalat sanki onun insanlıq qüdrətini oyadır, qorxunu boğaraq dözülməz ağrıdan üz-gözü qırışsa da, səndələyə-səndələyə irəliləyərək sahilə çıxır və Billin dırmaşdığı dağ zirvəsinə gəlib çatır, axsaya-axsaya döş ilə enməyə başlayır.

Yolçu bilirdi ii, tək də olsa, azmaz. Onun məqsədi bir qayığın altında torpağın içində gizlətdikləri anbara gəlib çatmaq idi. Həmin anbarda patron, tilov ipi, qarmaq, bir az un, bir parça qaxac edilmiş ət və başqa şeylər var idi. Yəqin ki, Bill də orada onu gözləyəcək, onlar ikilikdə Qudzon körfəzindəki bollu yemək olan fraktiyalardan birinə gedib çıxacaqdılar. Bütün bunlar yolçunun düşüncələri idi və bu düşüncələr ona irəliləməyə stimul verirdi. İki gün heç nə yeməyən yolçu yol uzunu əyilib bataqlıqdakı kollardan giləmeyvə dərib ağzına atır, mədəsini aldadırdı.

Saat doqquzda onun ayağının baş barmağı daşa dəyib zədələnir. Yorğunluqdan səndirləyib yıxılaraq bir böyrü üstündə xeyli qalıb tərpəşə bilmir. Sonra qalxaraq ocaq qalayıb yaş çarıqlarını qurudur, şişmiş baldırını adyal parçası ilə sarıyır, bürünərək ölü kimi yatır və altı saatdan sonra yoluna başlayaraq alçaq təpəyə qalxıb ətrafa göz gəzdirir. Sonra şələsini düzəldərək yola düzəlir. Yediyi bataqlıq yemişi ağzını acılayır, əzablarşnı daha da artırırdı.

Yolda qabağına kəkliyin, maral sürüsünün çıxması, lakin dəhşətli aclıqdan əzab çəkməsinə baxmayaraq heç nə edə bilməməsi onu qəzəbləndirir, dözülməz aclıq ona uzanaraq dincəlməyə belə imkan vermir. Hava qaralmağa başlayanda xeyli əzab-əziyyət çəkməsinə baxmayaraq gölməçələrin birindəki

balaca bir çay balığını tutmaq cəhdi də boşa çıxır. İsti su içməklə gecələrini bir təhər keçirən yolçu bir səhər ayılanda xəstələndiyini hiss edir və artıq qarın yağdığını görür. O hara getdiyini özü də bilmədən irəliləyirdi, onda əvvəlki düşüncələrdən əsər-əlamət belə qalmamışdı. Yeganə məqsədi yeməyə bir şey tapmaq idi. Ac günlər davam etdikcə qarnındakı ağrı kütləşir, sanki mədəsi yuxuya gedirdi. Həddindən artıq zəiflədiyi üçün başı gicəllənir, gözləri dumanlandığından heç nəyi seçmir, tez-tez büdrəyib yıxılırdı. Artıq ayaq üstə dura bilmir, zəhlətökən qarabasma onu əldən salırdı.

Hekayənin ən cəlbedici hissələrindən biri yolçunun ayı ilə rastlaşdığı epizoddur. O, ayı ilə üz-üzə dayanarkən vəhşi heyvan sayağı elə nərildəyir ki, ayı qorxuya düşüb donquldana-donquldana uzaqlaşır. Bir dəfə o, canavarlar tərəfindən təzəcə yeyilmiş maral balasının sümüklərinə rast gəlir və həmin sümükləri dişlərinə çəkərək onlarda qalmış son həyat qalıqlarını sümürməyə başlayır. Gah sümüklər sınır, gah dişləri. Bəzən sümükləri daş altında əzərək toza döndərir və acgözlüklə udurdu. Artıq son dərəcə dəhşətli günlər başlamışdı, O, nə vaxt yatdığını, nə vaxt yuxudan ayıldığını xatırlamadan yeriyirdi. Yolçunun bədəni və ruhu bir-birindən ayrılmışdı. O, bir gün çayın qıvrıla-qıvrıla dənizə töküldüyünü, dənizdə bir gəminin lövbər saldığını görür və bütün bunların xəyal olduğunu düşünür. Sonra iyirmi addımlıqda bir xəstə canavar olduğuna əmin olduqda gördüklərinin həqiqət olduğunu dərk edir: həmin çay Koppermayn çayı, dəniz Şimal Buzlu okeanı, gəmi isə balina ovlayan bir gəmi idi. Gördüklərinin həqiqət olduğuna əmin olması onu sakitləşdirir, bütün varlığına dənizin sahilinə çatmaq arzusu hakim kəsilir.

Xəstə canavar yolçunun birinci öləcəyi ümidi ilə onun arxasınca sürünür və beləliklə onların arasında həyat uğrunda dəhşətli mübarizə başlayır. Bir gün günortadan sonra yolçu Billin canavarlar tərəfindən öldürüldüyünü görür, lakin nə onun sümüklərini sümürəcəyini, nə də qızıl kisəsini götürəcəyini düşünür. O hər gün gəmi ilə öz arasındakı məsafəni bir qədər azaldırdı. Lakin artıq tamamilə taqətdən düşmüşdü, gah iməkləyir, gah sürünür, gah da huşsuz halda yerə yıxılırdı. Sürünməklə bayılmaq növbələşirdi. Səbirli canavar isə ondan əl çəkmirdi. Lakin insanın səbri onunkundan daha çox idi və o, canavara qalib gələ bildi.

Bir gün balina tutan “Belford” gəmisinin elmi ekspedisiyasının alimləri gəminin göyərtəsindən baxarkən sahildə dənizə doğru ağır-ağır sürünən bir qaraltı gördülər, lakin onun nə olduğunu təyin edə bilmədilər. Onlar alim marağı ilə qayığa minib sahilə gəldilər. Gördükləri məxluqu insan adlandırmaq çətin idi: ”O nə görür, nə də bir şey başa düşürdü: yekə soxulcan kimi qum üstündə qıvrılırdı, inadla etdiyi bütün şeylər boşa çıxırdı. Qıvrıla-qıvrıla eşələnir, tükənməz səylər sayəsində saatda zorla bir qulac irəliləyirdi” (4, 331). Onlar yolçunu gəmiyə gətirdilər. Yalnız üç həftə keçəndən sonra o, kim olduğunu, başına nələr gəldiyini gəmidəkilərə danışa bildi...

Hekayənin qısa məzmunundan göründüyü kimi, yazıçının əsas qayəsi bütün fiziki və mənəvi gücünü səfərbər edərək yaşamaq uğrunda mübarizədə heç nədən çəkinmədən ölüm-dirim savaşına qoşulan insan övladının sonsuz

qüdrətini vəsf etməkdir. Əsər öz orijinallığı, forma və məzmununun qeyri-adiliyi ilə diqqəti cəlb edir. Belə ki, oxucu baş qəhrəman haqqında, demək olar ki, heç nə, hətta onun adını belə bilmir. Onun xarakteri, düşüncələri, yanında daşıdığı qızılı necə əldə etdiyi barəsində heç nə bəlli deyil. Bununla belə, yolçunun hərəkətlərindən bəlli olur ki, bu mübarizədə onun əsas məqsədi qızıl kisəsini nəyin bahasına olursa olsun, qoruyub saxlamaq, kasıblığın daşını atmaqdır. O, həmin kisənin onun sağ qalması üçün maneə olduğunu bilə-bilə əvvəl onu atmır, sonra iki dəfə hissələrə bölüb bir hissəsini gizlədərək digər hissəsini özü ilə götürür və ancaq son anda, fiziki, əqli, ruhi gücü tamamilə tükəndikdə qızılı yerə səpələyib yoluna davam edir.

Yolçu əlinə düşən hər şeyi yeyir, lakin bununla belə acından ölməkdə olduğu bir anda ona xəyanət edən dostunun qalıqlarına rast gəldikdə qəti qərara gəlir: "Elədir, Bill onu atıb getmişdi, amma o, Billin qızıllarını götürməyəcək, onun sümükləerini də gəmirib-sümürməyəcəkdi. "Əgər bu əhvalat tərsinə baş vermiş olsaydı, Bill indi mənim yerimdə olsaydı, qızıllarımı da götürəcəkdi, sümüklərimi də yeyəcəkdi, mütləq belə edəcəkdi" – deyə yolçu düşündü, başı gicəllənə-gicəllənə qabağa süründü (4, 329). Beləliklə, ən böhranlı anda belə o öz insani ləyaqətini qoruyub saxlata bilir. Bu hərəkəti və düşüncələri onun xarakteri haqqında çox şey deyir, onun mərdanəliyindən, kişiliyindən xəbər verir. Yolçunun xarakterinin açılmasında xəstə canavara olan münasibəti xüsusi rol oynayır. O məhz xəstə bir canavar tərəfindən məğlub edilməsi fikri ilə heç bir vəchlə barışa bilmir: "Sağlam canavara qismət olsaydı, bu məsələyə o qədər də əhəmiyyət verməzdi. Lakin belə ölümcül əfələ yem olmaq, onun üfunətli gödəninə düşmək onu dəhşətə gətirir, ona ağır gəlirdi..." (4, 330). Canavarı boğmaq üçün fiziki imkandan məhrum olan yolçu bütün ağırlığını canavarın üstünə salaraq dişləri ilə onu öldürür və sağ qalmaq üçün onun qanını içir. Beləliklə, insan əsərin digər qəhrəmanı - sağ qalmaq üçün son ana qədər mübarizə aparan canavar üzərində qələbə çalaraq sübut edir ki, həyat uğrunda çarpışmağa dəyər.

Bu hekayənin əsas mahiyyəti tamamilə əldən düşmüş, ruhi və fiziki cəhətdən tükənmiş bir insan övladının təkcə təbiətin amansız qüvvələri üzərində deyil, həm də özü üzərində qələbəsidir (5).

"Həyat eşqi"hekayəsi insanı sədaqət və xəyanət, həyat və ölüm kimi anlayışlar, maddiyyatın insan həyatındakı rolu barəsində bir daha dərindən, fərqli düşünməyə vadar edir. Cek London insanı ən çətin, amansız situasiyalarda sınağa çəkərək onun zəif və güclü cəhətlərini üzə çıxarır. Yolçunun hərəkətlərindən belə nəticə çıxır ki, insan ona verilmiş ömür payından nə istədiyini bildikdə ağlasığmaz çətinliklərə qalib gəlir, tükənməz həyat eşqi amansız ölümü məğlub edir.

ƏDƏBİYYAT

1. https://en.wikipedia.org/wiki/Jack_London
2. http://clb.az/files/mv/Cek_London140.pdf.

3. https://narminahadjieva.wordpress.com/2011/01/12
4. Cek London. Secilmlş əsərləri. Bakı, Öndər, 2005, 512 s
5.http://www.testsoch.info/rasskaz-lyubov-k-zhizni-xudozhestvennyj-analiz-london-dzhek/

РЕЗЮМЕ

ШИРМАММАД ГУЛУБАЙЛИ

О ДЖЕКЕ ЛОНДОНЕ И ЕГО РАССКАЗЕ “ЛЮБОВЬ К ЖИЗНИ”

В этой статье рассказывается о жизни и творчестве великого американского писателя Джека Лондона и его рассказе “Любовь к жизни”. Анализируя рассказ, автор статьи приходит к выводу, что герой спасается, потому что любовь к жизни не дает ему упасть духом и сдаться смерти просто так. Одна из важных идей рассказа та, что любовь к жизни, стойкость и дисциплинированность помогает преодолевать самые сложные ситуации. Если человек знает чего он хочет от жизни, он способен на многое, он способен преодолевать любые препятствия и опасности. Если в сердце человека есть жажда жизни, любовь к жизни он способен победить смерть.

Ключевые слова: Джек Лондон, рассказ, писатель, жизнь, смерть, борьба, победа

SUMMARY

SHIRMAMMAD QULUBAYLI

ABOUT JACK LONDON AND HIS STORY “LOVE OF LIFE”

This article deals with the life and creative activity of the great American writer Jack London and his story “Love of life”. Analyzing the novel the author comes to conclusion that the hero is saved, because the love of life does not let him fall into the spirit and surrender to death just like that. One of the important ideas of the story is that the love of life, perseverance and discipline helps to overcome the most difficult situations. If a person knows what he wants from life, he is capable of much, he is able to overcome any obstacles and dangers. If in the heart of man there is a thirst for life, a love of life, he is able to conquer death.

Key words: Jack London, a story, a writer, life, death, struggle, victory

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

ANAR ABUZƏRLİ
“Naxçıvan” Universiteti
anar_abuzerov@mail.ru

ƏDƏBİ TƏNQİD VƏ BƏDİİ NƏSR

Çoxəsrlik tarixə malik olan Azərbaycan ədəbiyyatının inkişafına zaman-zaman böyük töhfələr vermiş Naxçıvan ədəbi mühiti bütün sahələrdə olduğu kimi ədəbi tənqid sahəsində də yeni istiqamətlər müəyyənləşdirmişdir. Zəngin ənənələrə malik olan Naxçıvan ədəbi tənqidi XX əsrdə çoxşaxəli inkişaf yolu keçmişdir ki, bu da tədqiqat üçün geniş və əhatəli material verir. Bu baxımdan məqalədə Hüseyn İbrahimovun bədii nəsri tədqiqata cəlb olunmuş, bəzi ümumiləşdirmələr aparılmışdır.

Açar sözlər: Naxçıvan ədəbi mühiti, ədəbi tənqid, Hüseyn İbrahimov, bədii nəsr

Təsadüfi deyil ki, XX əsrdə Naxçıvanda ədəbi tənqidin mühüm qollarından biri bədii nəsrlə bağlı olmuşdur. Çünki həmin dövrdə Naxçıvanda bədii nəsr zəngin yaradıcılıq yolu keçmiş, çoxlu sayda yeni ənənələrə əsaslanan novator əsərlər yazılmışdır. Həmin dövrdə xalq yazıçısı, “Şöhrət” ordenli Hüseyn İbrahimovun (1919-2008) yaradıcılığı xüsusilə diqqəti çəkir. 1944-cü ildə ədəbiyyata şeirlə gələn ədib tezliklə nəsr sahəsində qələmini sınamış, dəyərli hekayə, povest və romanları ilə Azərbaycan ədəbiyyatına layiqli xidmət göstərmişdir. H.İbrahimov bir sıra dram əsərləri, həmçinin ədəbi-tənqidi və publisistik məqalələr yazmış, bədii tərcümə sahəsində də fəaliyyət göstərmişdir.

Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığı daima ədəbi tənqidin diqqət mərkəzində olmuş, AMEA-nın həqiqi üzvlərindən Məmməd Arif, Mirzə İbrahimov, İsa Həbibbəyli, müxbir üzvlər Təhsin Mütəllimov, Kamran Əliyev, xalq yazıçısı və şairlərindən Süleyman Rəhimov, Rəsul Rza, Qılman İlkin, Balaş Azəroğlu, Nəriman Həsənzadə, Fikrət Qoca, professorlar Qulu Xəlilov, Yavuz Axundlu, Qara Namazov, Şahin Səfərov, Hüseyn Həşimli və başqaları müxtəlif vaxtlarda görkəmli sənətkarın əsərləri barədə yüksək elmi fikirlər söyləmişlər. Ədibin yaradıcılığı barədə Mətanət Saraclı dissertasiya müdafiə etmiş, monoqrafiya yazmış (22), Hüseyn İbrahimova həsr olunmuş şeir, məqalə, xatirə və s.-dən ibarət kitablar da çap edilmişdir (11; 17).

Ümumiyyətlə, Azərbaycan ədəbi tənqidi tanınmış yazıçı Hüseyn İbrahimovun yaradıcılığına yüksək qiymət vermiş, onun əsərlərini tematika, problematika və poetika baxımından təhlil edib dəyərləndirmişlər. Naxçıvanda yaşayıb fəaliyyət göstərən bir sıra tənqidçi və ədəbiyyatşünaslar da Hüseyn

İbrahimovun yaradıcılığını təhlilə cəlb etmiş, o cümlədən onun nəsr əsərlərinin ideya-bədii məziyyətlərindən, müasir ədəbi prosesdə yerindən söz açmışlar. Bu kimi materialların nəzərdən keçirilməsi təkcə Hüseyn İbrahimovun yaradıcılıq axtarışlarına verilən qiymətin aşkarlanması baxımından deyil, bütövlükdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında XX əsrin ikinci yarısında ədəbi tənqidin inkişaf xüsusiyyətlərini araşdırmaq baxımından da faydalı və gərəklidir. Təqdim olunan məqalədə də məhz bu məsələlər tədqiq edilir.

XX əsrin ikinci yarısında Naxçıvanda ədəbi tənqidin ən fəal nümayəndələ-rindən biri filologiya üzrə elmlər doktoru, professor Yavuz Axundov (Axundlu) (1927-2017) olmuşdur. Naxçıvan ədəbi mühitinin yaradıcılıq axtarışlarını müxtəlif məqalələrində təhlil edərkən Hüseyn İbrahimovdan da söz açan Y.Axundov bir sıra məqalələrini bütövlükdə bu görkəmli yazıçının sənət dünyasına həsr etmişdir.

Yavuz Axundovun 1969-cu ildə dərc etdirdiyi “İstedadlı nasir” məqaləsində (2) tanınmış yazıçı Hüseyn İbrahimovun Azərbaycan ədəbi mühitində diqqəti çəkən yaradıcılığına nəzər salınmışdır. Məqalədə əvvəlcə onun hekayələri mövzuca qruplaşdırılaraq yığcam şəkildə dəyərləndirilmişdir. Yazıçının “Baharın hekayəsi”, “Göyərçinin məhəbbəti”, “”Ürək səhv edəndə”, “Qumralın məktubları” kimi məişət mövzulu hekayələrindən danışarkən Y.Axundov nəzərə çatdırır ki, “saf məhəbbət, yüksək mənəvi keyfiyyətlər bu hekayələrdə qabarıq şəkildə qələmə alınan əsas məsələlərdəndir”. H.İbrahimovun “Qəhrəman Qüdrətov”, “Müdirin məzuniyyəti”, “Eyvazovun salamı”, “Xəcalət” və s. hekayələri isə “yalançı, yaltaq, riyakar adamların tənqid olunduğu” satirik nümunələr kimi qiymətləndirilmişdir.

Ədəbiyyatşünas Y.Axundov həmin məqalədə H.İbrahimovun yaradıcılığında yeni mövzulara müraciətin getdikcə qabarıqlaşdığını də yaxşı hal saymış, ədibin “Şərq ölkələrində genişlənən milli azadlıq hərəkatı, beynəlxalq imperializmə qarşı mübarizə” məsələlərindən bəhs edən “Qanlı dəftər”, “Çətin yollarda”, hind qızı Kəmalənin iztirablı həyatını təsirli bədii boyalarla canlandıran “Kəmalə” , Danimarka səfərindən sonra yazdığı “Madam Heruta” hekayələrini də nəzərdən keçirmişdir.

“Sabahın sorağında” romanında müasirlərimizi düşündürən sosial-mənəvi problemlərin ustalıqla bədii təcəssümünə diqqət çəkən Y.Axundov ”yazıçının sənətkarlıq cəhətdən inkişaf etdiyini, qələminin püxtələşdiyini” bildirmiş, işıqlı idealın təntənəsini, mənfi qütbü təmsil edən qüvvələrin yaramaz əməllərinin ifşasını məharətlə bədii müstəviyə gətirdiyini vurğulamışdır. Tənqidçi yazırdı: “O, (H.İbrahimov - A.A.) kənddəki yeniliyi göstərmək, müəllimlərin işini, yaşayış tərzini, yenilik uğrunda mübarizəsini, təsvir etmək məqsədini qarşısına qoymuşdur. Müəllifin yaradıcılığına xas olan bir cəhət - ailə-məişət məsələlərini ön plana çəkmək meyli bu romanda da özünü göstərir”. “Sabahın sorağında” romanının süjet və kompozisiyasını, həmçinin obrazlar aləmini yığcam təhlil edən tənqidçi yazırdı: “H.İbrahimov həyata yaxşı bələd olan, qələmə aldığı mövzunu yaxşı bilən yazıçıdır. Onun

rəvan, səlis bədii dili, rəngarəng ifadə və təsvir vasitələri, gözəl nəql etmək tərzi vardır".

Tənqidçi Y. Axundovun məqalədə yazıçı Hüseyn İbrahimovun "Sabahın sorağında" romanını yüksək qiymətləndirməsi, nasirin yaradıcılığında yeni hadisə sayması təsadüfi deyildi. Belə ki, həmin roman 1964-cü ildə "Azərbaycan" jurnalında, iki il sonra isə kitab halında çap edilmiş, ədəbi ictimaiyyətin böyük marağına səbəb olmuşdu. Məşhur ədəbiyyatşünas alim, akademik Məmməd Arif Dadaşzadə "Qəhrəmanın sorağında" adlı məqaləsində romana yüksək qiymət verərək yazmışdı: "Müəllifin müsbət qəhrəman uğrundakı axtarışları, mənəvi-intellektual keyfiyyətlərə malik surətlər yaratmaq təşəbbüsləri qiymətləndirilməlidir. Yazıçının səmimiyyətlə təsvir etdiyi təmiz vicdanlı qəhrəmanları oxucuya çatdıra bilməsi bizi inandırır ki, o, gələcəkdə də bu yolda daha müvəffəqiyyətli addımlar ata biləcəkdir" (1).

Ədəbiyyatşünas-tənqidçi Təhsin Mütəllimov isə 1964-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi məqalədə H.İbrahimovun "Sabahın sorağında" romanındakı psixologizmə xüsusi əhəmiyyət verərək yazırdı: "Yazıçını mənəvi-əxlaqi problemlər daha çox məşğul etdiyi üçün bədii obrazların psixoloji aləminin, daxili səciyyəsinin təsvir və təhlilinə daha geniş yer verilmişdir.... Süjet xəttindəki hər bir hadisə əslində müsbət qəhrəmanların daxili səciyyəsinin, hamıya nümunə ola biləcək yüksək əxlaqi sifətlərinin açılmasına, daha canlı, daha qabarıq ifadəsinə kömək edir. "Sabahın sorağında" romanını kolxoz həyatından bəhs edən bir sıra əsərlərimizin "ənənəvi" süjetindən fərqləndirən əsas cəhət də məhz bu psixoloji problemin ön planda təsviridir" (20). Şair-publisist Cavad Cavadlı və pedaqoq Məhyəddin Əbdülov da 1964-cü ildə yazdıqları resenziyada əsərə yüksək qiymət vermiş, onu "son vaxtlarda müasir mövzuda yazılmış yaxşı əsərlərdən biri kimi" təhlil etmişlər (10). Bir sıra digər tənqidçi və ədəbiyyatşünaslar da Hüseyn İbarhimovun "Sabahın sorağında" romanını uğurlu nümunə kimi dəyərləndirmişlər. Y.Axundovun haqqında söz açdığımız qənaətləri də onlarla həmahəng səsləşir.

Professor Y. Axundlu 1988-ci ildə "Əsrin onda biri" resenziyasını yazıçı H. İbrahimovun eyniadlı romanına həsr etmişdir (5). Bu məqalənin əsas müddəaları alimin 1994-cü ildə yazdığı "Ömrün və sənətin müdriklik çağı" adlı məqaləsinin tərkibinə daxil edildiyindən (bax:3, s.70-78) təkrar olmasın deyə təhlilə cəlb etmirik.

Y.Axundlu "Ömrün və sənətin müdriklik çağı" adlı irihəcmli məqaləsində əvvəlcə H.İbrahimovun ömür yoluna nəzər salmış, sonra isə ədəbi yaradıcılığa şeirlə başlayan ədibin dramaturgiya, bədii tərcümə sahəsindəki fəaliyyətinə müfəssəl diqqət yetirmişdir. Tənqidçi Azərbaycan ədəbiyyatında ilk növbədə nasir kimi şöhrətlənən yazıçının bu istiqamətdəki sənət axtarışlarını daha əhatəli şəkildə təhlil etmişdir. Məqalə müəllifi qeyd edir ki, Hüseyn İbrahimovun "Qorxmaz kapitan", "Xəncər", "Məzar daşında bir yazı" kimi ilk hekayələri bədii cəhətdən müəyyən qədər zəif olsa da, yazıçının mövzu seçmək məharəti maraq doğurur. Sonrakı illərdə yaradıcılıq axtarışlarını davam etdirib qısa müddətdə məşhurlaşmış H. İbrahimovun ya-

radıcılığında həm lirik-psixoloji, həm də satirik səpkili nəsr əsərlərinin varlığını tənqidçi onun yaradıcılıq diapazonunun genişliyi kimi mənalandırmışdır. Bu məqamda tənqidçi, professor Qulu Xəlilovun da analoji fikirlərini xatırlatmaq yerinə düşər: “Hüseyn İbrahimovun əsərləri bizə haqq verir deyək ki, o, müasir həyatımızı yaxşı bilən, insan psixologiyasını, düşüncəsini yaxından müşahidə edən, bəzən epik, bəzən də çox sərrast satirik lövhələr yaratmaq qabiliyyətinə malik istedadlı yazıçıdır” (18).

Y.Axundlu “Ömrün və sənətin müdriklik çağı” adlı məqaləsində əsas diqqəti Hüseyn İbrahimovun romanlarına yönəltmişdir. Ədibin “Sabahın sorağında” romanının ideya-bədii məziyyətlərini təhlil edib “kənd nəsri”nin uğurlu nümunəsi kimi yüksək qiymətləndirən tənqidçi əsərdəki Zeynal, Firəngül, Mirzə Mahmud, Şükür, Qulam və s. kimi müxtəlif xarakterli obrazları da hərtərəfli şəkildə səciyyələndirmişdir. O da razılıq doğurur ki, tənqidçi yazıçının nəsr əsərlərinə ucdantutma aludəçiliklə deyil, obyektiv elmi meyarlar mövqeyindən yanaşmış, ədibin bəzi əsərlərindəki məhdud cəhətləri də açıb göstərmişdir. Məsələn, tanınmış nasirin “Günəş doğan yerdə” romanında Naxçıvanda 1918/1919-cu illərdə baş vermiş bəzi hadisələri canlandırarkən “vulqar sosioloji meyllərə” də yer verməsi məqalədə nəzərə çatdırılmış, bununla belə, əsərdəki “xarakter yaratmaq məharəti, sənətkarlıq qüdrəti” də nəzərdən qaçırılmamışdır (3, s.74).

Hüseyn İbrahimovun “Bahar yağışı” romanına da tənqidçi Y.Axundlu obyektiv baxış bucağından yanaşmışdır. Romandakı bəzi şablon xətləri də unutmayan tənqidçi əsərin əsas məziyyətlərini belə ümumiləşdirmişdir: “Yazıçı böyük bir tikinti kollektivində gedən proseslər, əmək cəbhəsində aparılan işlər barədə söz açmaqla yanaşı, ayrı-ayrı surətlərin çirkin əməlləri, xalq malını mənimsəməsi, xeyirxah, həqiqətpərəst adamların gücü ilə həqiqətin təntənəsinin labüdlüyü kimi məsələləri bədii sənət dili ilə vermişdir” (3, s.74-75). “Bahar yağışı” ilə məşhur Azərbaycan yazıçısı İlyas Əfəndiyevin “Sarıköynəklə Valehin nağılı” romanı arasında aparılan müqayisə qısa olsa da elmiliyi və inandırıcılığı ilə razılıq doğurur.

Y.Axundlu yazıçı H.İbrahimovun tarixi mövzuda yazdığı “Əsrin onda biri” romanına daha yüksək qiymət vermişdir. “Əsrin onda biri” romanı on ikinci əsrin məşhur Azərbaycan memarı, Naxçıvan şəhərində təxminən əsrin onda biri müddətində ucaltdığı Möminə xatun, həmçinin Yusif Küseyir oğlu türbələri ilə dünyada tanınmış Əcəmi Naxçıvaniyə həsr olunmuşdur. On ikinci əsr Azərbaycan mühitinə, onun görkəmli simalarına həsr olunmuş bir sıra tarixi səciyyəli bədii əsərləri xatırladan Y.Axundlu haqlı olaraq bu qənaətə gəlmişdir ki: “H.İbrahimov Əcəmi haqqında tarixi roman yazarkən mövcud ədəbi təcrübəyə arxalanmaqla yanaşı, özünəməxsus fərdi yazı manerasının imkanlarından da faydalanmışdır” (3, s.75).

Memar Əcəmi haqqında tarixi mənbələrdə məlumatların çox az olduğunu qeyd edən tənqidçi onu da nəzərə çatdırmışdır ki, H.İbrahimov “Əsrin onda biri”ni yazarkən bu məlumatları, bəhs olunan dövrün tarixi səciyyəsini şərtləndirən digər mənbələri diqqətlə öyrənmişdir. Ümumiyyətlə,

tarixi əsərlərində dövrün koloritini, mənzərəsini real, dolğun boyalarla vermək Hüseyn İbrahimov nəsrinin xarakterik xüsusiyyətlərindəndir. Vaxtı ilə professor Şahin Səfərov bu barədə fikrini belə ümumiləşdirmişdi: "Hüseyn İbrahimov tarixi əsərlərində də yazıçı təxəyyülü və fantaziyası ilə yanaşı, tarixilik sistemini və reallığı heç vaxt yaddan çıxarmamışdır" (24).

Y.Axundlu məqalədə qeyd edirdi ki, romandakı hadisələrin mərkəzində 1175-1186-cı illərdə Azərbaycan Atabəylər dövlətinin hökmdarı olmuş Atabəy Məhəmməd və memar Əcəmi surətləri dayanır. Tənqidçinin dəqiq müəyyənləşdirdiyi kimi, "Əsrin onda biri" romanında Atabəy Məhəmməd obrazı müxtəlif aspektlərdə səciyyələndirilir və bunlar bir-birini tamamlayır: sərt qayda-qanunlara əsaslanan tipik feodal hökmdarı, doğma yurdunu dərin məhəbbətlə sevən vətənpərvər, sənətə yüksək qiymət verən dövlət başçısı, nəhayət, xarakteri ziddiyyətlərdən xali olmayan bir qəhrəman...

Y.Axundlunun haqlı qənaətinə görə, romanda memar Əcəminin həm şəxsi taleyi, üzləşdiyi ağrı-acılar, həm də sənətkar məharəti və nüfuzu təsirli, tutarlı boyalarla təqdim olunmuşdur. Dəryanurla nakam məhəbbəti, ömrünü qürbətdə başa vurması və s. hadisələrin bədii təcəssümü də oxucuda maraq oyadır. Əcəmi ilə el qəhrəmanı Əli Şimşəyin yaxınlığına diqqət yetirən tənqidçi bunu mənəvi və fiziki qüdrətin xalq naminə birliyi kimi mənalandırmışdır. Əsərdəki digər obrazlar da məqalədə təhlil olunmuşdur. Romanın təsirli epizodlarından biri barədə tənqidçinin izahı bu baxımdan səciyyəvidir: "Xalq gücünün əzəmətini, el-oba ruhunun yenilməzliyini göstərmək üçün oğlu öldürülmüş ananın xarakterinin bədii təqdimi olduqca ibrətamizdir. Hökmdar ondan niyə ağlamadığının səbəbini soruşduqda ana belə cavab verir: "Niyə də ağlayım?...Onu ki gədə-güdə öldürməyib...Gör, oğlum kiminlə sinə-sinəyə dayanıb? Padşahla...Kimin qabağından qaçmayıb? Padşahın....Kimə öz kimliyini göstərib? Padşaha...Belə oğul anası ağlasa, el-oba onu qınayar...Mən ağlasam, onun öz qəbri də, atasının qəbri də od tutub yanar" (3,s.77).

Romanın mövzu, ideya, bədii dil, üslub xüsusiyyətlərini, obrazlar aləmini ümumən yüksək qiymətləndirən professor Y.Axundlu əsərlə bağlı bəzi tənqidi mülahizələrini də nəzərə çatdırmışdır. Görkəmli alimin bir iradı budur ki, Əcəminin romanda yer alan ateist fikirləri on ikinci əsrin reallıqları kontekstində o qədər də inandırıcı görünmür. Tənqidçinin başqa bir iradı isə tarixi gerçəkliyə sədaqət prinsipi ilə bağlıdır: "Romanda Nizaminin "İsgəndərnamə"sindəki Nüşabənin adı çəkilir. Bu obraz barədə də danışılır, halbuki əsərdə təsvir olunan hadisələr baş verən zaman "İsgəndərnamə" hələ yazılmamışdı" (3, s.77). Professorun bu iradları ilə razılaşmaq lazım gəlir.Onun başqa bir tənqidi qeydi isə, fikrimizcə, mübahisəlidir. Belə ki, alimin qənaətinə görə, yazıçı romanda Əcəminin memarlıq sənətinin sirlərini harada və kimdən öyrənməsini, eləcə də Naxçıvanda Mömünə xatun məqbərəsinin ucaldılmasını ətraflı təsvir etməyib... Halbuki romanda Əcəminin ucaltdığı Mömünə xatun məqbərəsinin tikintisi ilə bağlı təsvirlər geniş, sistemli və əhatəlidir. Xatırladaq ki, H.İbrahimov yaradıcılığı haqqında monoqrafiya

yazmış dos. Mətanət Saraclı da professor Y.Axundlunun bu iradını əsaslı saymamışdır (22,s.95-96).

Y.Axundlu bu məqalədə H.İbrahimovun mövzusu Böyük Vətən müharibəsindən götürülmüş “Qu quşları öləndə oxuyurlar” povesti, eləcə də 1937- ci ildə həbsə alınaraq 1941-ci ildə Uzaq Şərqdə, İrkutsk vilayətində sürgündə məhbusluq çəkərkən ömrünü başa vurmuş məşhur Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidə həsr olunmuş “Böhtan” tarixi romanı barədə qısa qeydlərlə kifayətlənmişdir. Tarixi nəsrin tanınmış tədiqatçısı olan professor Yavuz Axundlu həmin romana ayrıca məqalələr həsr etmişdir (6; 7; 8). Mətbuatda müəyyən ixtisarla dərc olunan həmin məqalələri professor ümumiləşdirərək “Hüseyn Cavid haqqında ilk roman” adı ilə “Ədəbi mühit və sənətkar” kitabında vermişdir (4, s.110-120).

Y.Axundlunun qeydlərindən öyrənirik ki, H.İbrahimov Hüseyn Cavid haqqında roman yazmaq istiqamətində ilk yaradıcılıq axtarışlarına 1956-1957-ci illərdən başlamış, bir müddət ara vermiş, nəhayət, 1980-ci illərin ortalarından yenidən bu mövzuya qayıtmış, bir neçə illik zəhmətdən sonra əsəri tamamlamışdır.

Tənqidçi “Böhtan”da tarixi faktlara istinadla yanaşı, müəllif təxəyyülünün məhsulu olan hadisə və obrazların varlığını da nəzərə çatdırmışdır ki, bu, tamamilə təbii haldır. Y.Axundlu yazırdı: “Romanda tarixi sənədlərlə, faktlarla, canlı xatirələrlə bir sırada müəllif təxəyyülündən doğan səhnələr qaynayıb qarışır. Təbii ki, bunlar yazıçı ustalığı, məharəti sayəsində bir-birini tamamlayır” (4, s.112). Xatırladaq ki, Hüseyn İbrahimov özü də romanın kitab halında ilk nəşrinə yazdığı “Müəllifdən” adlı ön sözdə bu məsələyə toxunaraq fikrini belə izah etmişdir: “Mən şair-dramaturqun (Hüseyn Cavidin – A.A.) zəngin və orijinal ədəbi irsini dəfələrlə araşdırandan, onunla bir yerdə sürgün həyatı yaşamış şahidlərdən bəzilərinin dediklərini saf-çürük edəndən, onun həbs olunması üçün “düzəldilən” xüsusi qovluqdakı məxfi sənədlərlə tanış olandan sonra “Böhtan” romanının yazmışam. Ancaq etiraf edirəm ki, xatirələrdən, sənədlərdən çox karıma gələn, əlimdən tutan özümün şəxsi mülahizələrim, yazıçı təxəyyülüm olub” (19, s.7).

“Böhtan” romanının maraqlı bədii quruluşa malik olduğunu vurğulayan Y.Axundlu burada bir sıra fəsillərlə (“Çeşməkli məhbus”, “Ağaclar kəsilib doğranan yerdə”, “Cavidə kim deyərdi ki”, “Ləkələnmişlər və qarayaxılmışlar”, “Dopros, yaxud şantaj” və s.) yanaşı, Cavidin ömür yolunun müxtəlif mərhələlərini əks etdirən yeddi nağılın da verilməsinə diqqət yetirmiş, fikrini belə ümumiləşdirmişdir: “Təbii ki, “nağıl” sözü burada şərti mənada işlənmişdir. Müəllif mümkün qədər xronoloji ardıcıllığa riayət etməyə çalışmış, H.Cavidin həyatının ilk dövrləri ilə məhbəs həyatını paralel surətdə əks etdirmişdir” (4, s.112) .

Məqalədə “Böhtan” romanındakı hər bir nağılın mündəricəsi barədə də müfəssəl dəyərləndirmələr aparılmışdır ki, bu da əsərin ideya-bədii məziyyətlərinin lazımınca aşkarlanmasına yönəlmişdir. İlk nağılda Cavidin uşaqlıq və ilk gənclik illərini əhatə edən müəllif sonrakı nağıllarda onun

Təbrizdə yaşaması, İstanbulda təhsil illəri, oradakı yaradıcılıq əlaqələri, Bakıdakı fəaliyyəti, ailə mühiti və s. məsələlər barədə müvafiq tərzdə söz açmışdır. Y.Axundlunun dəqiq müşahidəsinə görə, "Böhtan" romanının ən gərgin və ən maraqlı səhnəsi dördüncü nağılın ikinci hissəsində- "Acı bir xatirə" fəslində nəzərə çarpır. Bu hissəni müəyyən mənada romanın kulminasiyası da hesab etmək olar. Hüseyn Cavidlə Azərbaycanın o zamankı rəhbəri Mircəfər Bağırovun görüşünü təsvir edən "müəllif əslində Xeyirlə Şəri, İşıqla Zülməti, Humanizmlə Qəddarlığı qarşılaşdırır. Müəllif həm Bağırova, həm də Cavidə xas olan xasiyyətləri üz-üzə gətirir, bir-birinin xarakterik cizgilərini ön plana çəkir" (4, s. 118). Bu yöndəki təhlillərin timsalında Y.Axundlu hər iki obrazın xarakterini lazımınca səciyyələndirmiş, Cavidin qüdrət və əzəmətini bir daha diqqət mərkəzinə çəkmişdir. Bəzi nağıllarda Cavidin "Şeyx Sənan", "İblis", "Peyğəmbər", "Topal Teymur" kimi dram əsərləri barədə düşüncələri də verilmişdir. H.İbrahimov bu vasitə ilə onun dövrə, cəmiyyətə münasibətini məharətlə mənalandıra bilmişdir. Tənqidçinin müşahidəsinə görə, "Böhtan" romanında sürgündəki "Cavidi daha çox narahat edən xalqının taleyinin digər millətlərin əclaf nümayəndələrinə tapşırılması olmuşdur" (4, s.113).

Ümumiyyətlə, Y.Axundlu Cavid obrazının bədii təqdimini ardıcıllıqla izləmiş, əsas mərhələ və məqamları səciyyələndirmişdir. Onun keşməkeşli həyatı kimi, ölümünün də romanda təsirli bədii detallarla verildiyini qeyd etmişdir. Romanın sonunda yazıçının qar üzərində qızılı şüaların göründüyünü də nəzərə çatdırmasını tənqidçi həqiqətin gec-tez qalib gələcəyinə, ədalətin təntənəsinə olan inamın ifadəsi kimi mənalandırmışdır. Bütövlükdə professor Yavuz Axundlunun xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığına həsr etdiyi məqalə və resenziyalar Naxçıvan ədəbi mühitində nəsr tənqidinin dəyərli nümunələri sırasına daxildir.

Naxçıvan ədəbi mühitində ədəbi tənqidin, o cümlədən nəsr tənqidinin inkişafında tanınmış Azərbaycan ədəbiyyatşünası, akademik, əməkdar elm xadimi İsa Həbibbəylinin (Həbibovun) xüsusi xidmətləri vardır. Ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi əlaqələr sahəsində qiymətli tədqiqatları ilə tanınan İsa Həbibbəyli müasir ədəbi prosesin təhil olunub dəyərləndirilməsi sahəsində də ciddi işlər görmüş və görməkdədir. Görkəmli alimin bir neçə resenziyası və ədəbi-tənqidi məqaləsi xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığına həsr olunmuşdur.

H.İbrahimovun 1983-cü ildə çap olunmuş "Bahar yağışı" romanı barədə bir sıra tənqidçi və ədəbiyyatşünaslar fikir söyləmişlər. Bunların sırasında İ.Həbibbəylinin "İstehsalat romanında mənəvi həyat" məqaləsi xüsusi yer tutur (12). Məqalənin əvvəlində Hüseyn İbrahimovun yaradıcılığında bahar motivinin, əhvali-ruhiyyəsinin, rənglərinin özünəməxsus mövqeyinə diqqət yönəldən alim yeni romanı da bu kontekstdə nəzərdən keçirmişdir. Mövzusu qurub-yaradan zəhmət adamlarının həyatı və fəaliyyətindən götürülmüş bu romanda epik konfliktin bir qütbündə Araçay dəryaçasının tikinti rəisi Osman Məlikzadə və onunla birgə xalq malını mənimsəyən əlaltıları, digər tərəfdə isə

yenilik ruhu, vətənə xidmət əzmi ilə çalışan mühəndis Yalçın İbrahimbəyli və onun kimi sağlam qüvvələr dayanır. Əsas obrazların bədii təcəssümünə bu konflikt müstəvisində nəzər salan İ.Həbibbəyli vurğulayırdı ki, müəllif birtərəfli yolla getməmiş, istehsalat mövzusunda olan romanda “bu mübarizənin gedişatını ənənəvi xeyir-şər, mənfi-müsbət vuruşlarından, çəkişmələrindən xilas etmiş, hadisələrin təbii məntiqinə, həyati əsaslarına meydan vermiş”, surətləri təkcə istehsalat mühitində deyil, hərtərəfli şəkildə canlandırmış, “mənəviyyatların, dünyagörüşlərin, vicdanların fərqini açmağa” nail olmuşdur. Başqa sözlə deyilsə, istehsalat romanında mənəvi həyat da özünün dolğun bədii təcəssümünü tapmışdır. “Bütün bunlar romanın kompoziyasının bütövlüyünə, xarakterlərin canlılığına, kolliziyaların aydınlığına mühüm zəmin yaratmış, əsərin sosial əhəmiyyəti ilə bir sırada bədii səviyyəsini də qüvvətləndirmişdir”.

Gərgin və maraqlı konflikti, dolğun obrazları ilə səciyyələnən, ədalətin, həqiqətin təntənəsi ilə yekunlaşan bu romanda ayrı-ayrı hadisə və məqamların bədii təcəssümü, eləcə də obrazların xarakterlərinin açılması prosesində yazıçının təbiət detallarından həm fonyaradıcı aspektdə, həm də simvolik paralellik zəminində məharətlə istifadəsi də tənqidçinin dəqiq müşahidəsindən yayınmamışdır.

Hüseyn İbrahimovun “Səhv edəndə” adlı kitabına həsr etdiyi məqalə də İ.Həbibbəylinin çağdaş ədəbi prosesə geniş elmi-nəzəri ümumiləşdirmə mövqeyindən yanaşmasının əyani göstəricisidir (13). Hekayə, novella və kiçik povestlərdən ibarət həmin kitabı yazıçının çoxillik yaradıcılıq təcrübəsinin uğurlu bəhrəsi sayan İ.Həbibbəyli buradakı əsərləri birləşdirən ortaq cəhəti belə səciyyələndirmişdir: “Yazıçını qələmə aldığı çoxcəhətli əhvalat və obrazların mərkəzində əsasən bir meyar dayanır: Ləyaqət! Müəllif təsvir etdiyi hadisə və personajları qiymətləndirmə barometrinə çevirdiyi bu yüksək mənəvi keyfiyyəti aşkarlamaq niyyəti ilə hər dəfə yeni hadisəyə müraciət etmiş, aralarında müəyyən bənzəyiş olsa da, bir-birini təkrar etməyən vəziyyətlər yaratmışdır”. H.İbrahimovun kitabda verilmiş “İnam”, “Kənd həsrəti”, “Təmiz adam”, “Zərifənin çiçəkləri”, “Kərim əmi”, “Səfər müəllimin qızı” və digər hekayələrini müfəssəl şəkildə təhlil edən tənqidçi yazıçının yaratdığı Yelmar Zərgərli, Qoşqar Çinarlı, Sabir, Fərrux, Eldar və s. obrazları da məhz bu kontekstdə dəyərləndirmişdir.

Hüseyn İbrahimov bir sıra satirik hekayələr də yazmışdır. Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, hekayələrdəki satira elementləri onları kitabda verilən satirik novellalarla doğmalaşdırmışdır. Alim yazırdı: “Azərbaycan satirik nəsrinin ənənələrindən yaradıcılılqla faydalanan H.İbrahimov indiki həyatımızda klassik novella “qəhrəmanları” ilə qarşılaşarkən “Sənə min rəhmət, Mirzə Cəlil”, yaxud “Heyf, Mirzə Cəlil sağ deyil” kimi yerinə düşən, cəlbedici epiqrafların gur işığı altında ənənəvi gülüş obyektinin müasir vəziyyətini bacarıqla açıb göstərmişdir”. Akademik İ.Həbibbəyli bu məqalədə Azərbaycan tənqidi realizminin böyük ustadı Mirzə Cəlilin satirik nəsri ilə H.İbrahimovun “Arxayın Məmməd”, “Zırrama”, “Day lazım olmadı”, “Barıt”

və s. əsərləri arasında apardığı müqayisəli təhlillər həm də ədəbi irs və varislik probleminin açılmamış qatlarına işıq salır. Xüsusən Mirzə Cəlilin Usta Zeynal və H.İbrahimovun yaratdığı Arxayın Məmməd obrazlarının bu aspektdə nəzərdən keçirilməsi diqqəti çəkir.

H.İbrahimovun "Göyərçinin məhəbbəti", "Baharın hekayəsi", "Kamalın ad günü", "Səhv edəndə" kimi povestlərində sosial-mənəvi problemlərin qoyuluşu və bədii həllini məqbul sayan məqalə müəllifi bu əsərlərin hər birinin əsas özəlliklərini qısa şəkildə, lakin çox dəqiq elmiliklə vurğulamışdır.

Hüseyn İbrahimovu çağdaş Azərbaycan nəsrinin tanınmış və istedadlı yaradıcılarından biri kimi yüksək qiymətləndirən İsa Həbibbəyli onun "Səhv edəndə" kitabının nəşri ilə əlaqədar yazdığı məqalədə bəzi tənqidi qeydlərini də bildirmişdir. Alim haqlı olaraq yazıçının "Aspirant" hekayəsindəki Fərəc obrazının mükəmməl olmadığını, "Kamalın ad günü" povestində isə süjetin bəzi məqamlarının sterteotip ənənəvilik təəssüratı yaratdığını, həmçinin "Qapıçı" novellasında sonluğun hadisələrin məntiqi yekunu ilə birbaşa bağlılığının zəif göründüyünü nəzərə çatdırmışdır.

İ.Həbibbəylinin "Həyat eşqinin təsdiqi" məqaləsi (16) tanınmış sənətkarımız Hüseyn İbrahimovun "Əsrin onda biri" tarixi romanının nəşri ilə əlaqədar yazılmış resenziyadır. Tanınmış alim on ikinci əsrin məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaniyə həsr olunmuş bu romanı yazıçının yeni sənət uğuru kimi qiymətləndirmiş, daima qurub-yaratmaq əzmi ilə yaşayan, bütün varlığı ilə doğma elinə, torpağına bağlı olan memarın, eləcə də onun bir sıra müasirlərinin bədii obrazının, dövrü və mühitinin əsərdə əhatəli şəkildə təqdimini müsbət qiymətləndirmişdir. Resenziya müəllifi əsərin dilində işlənmiş bəzi alınmalara isə o qədər də ehtiyac duyulmadığını bildirib.

Akademik İsa Həbibbəylinin "Nəciblik" məqaləsi Hüseyn İbrahimovun hekayələrindən biri ilə eyniadlıdır (14). Yazıçının anadan olmasının 75 illiyi ilə əlaqədar qələmə alınmış bu məqalə sadəcə yubiley təbriki deyil, şəxsiyyət, yaradıcılıq psixologiyası və mühit arasında əlaqələrin elmi şərhini verən, dəyərli nəzəri ümumiləşdirmələrlə maraq doğuran analitik yazıdır. Sənətkarın yaradıcılığına onun şəxsi xarakterinin, mənəvi aləminin, həmçinin fəaliyyət göstərdiyi mühitin ciddi təsir göstərdiyini qeyd edən İ.Həbibbəyli yazırdı: "Hüseyn İbrahimovun bir özünəməxsusluğu da onun ictimai fəaliyyəti bədii fəaliyyətlə əlaqələndirməyi bacarmasıdır. Bu, bədii yaradıcılığın psixologiyası ilə bağlı olan mühüm məsələlərdən biridir ki, bizdə hələlik az öyrənilmişdir. Hüseyn müəllimin təcrübəsi, keçdiyi yol həmin baxımdan zəngin material verir". Bunun ardınca H.İbrahimovun nəcib xarakteri, çalışdığı müxtəlif sahələr və vəzifələrlə onun həmin dövrlərdə qələmə aldığı əsərlərin tematika və problematikası arasında çoxşaxəli paralellikləri aşkarlayıb təhlil edən məqalə müəllifinin gəldiyi nəticələr, irəli sürdüyü fikirlər böyük əhəmiyyət daşıyır.

Akademik İsa Həbibbəylinin "Bahar yağışının aydınlığı" məqaləsi isə xalq yazıçısı Hüseyn İbrahimovun səksən illiyi ilə əlaqədar qələmə alınmışdır (15). Məqalədəki elmi-nəzəri ümumiləşdirmələr, yazıçının əsərlərinin səciyyəvi ideya-bədii məziyyətlərinin dəqiqliklə müəyyənləşdirilməsi diqqəti

çəkir. Hər şeydən öncə, H.İbrahimovun mənsub olduğu ədəbi nəslin ədəbiyyatımızdakı yeri və missiyası barədə deyilənlər maraq doğurur. İ.Həbibbəyli haqlı olaraq yazırdı ki, ədəbiyyatda ciddi addımlarını ikinci dünya müharibəsindən sonra atan İmran Qasımov, Hüseyn Abbaszadə, Süleyman Vəliyev, Əzizə Cəfərzadə , Salam Qədirzadə və digərləri ilə bir sırada Hüseyn İbrahimov da “bədii yaradıcılığın ictimai mövzuların, ideoloji tələblərin məngənəsindən xilas olub, insan həyatı və mənəviyyatına, milli taleyimizdəki ağrı və qayğılara söykənməsi, yaxınlaşması, yön alması” üçün layiqli ədəbi xidmət göstərmişdir. Bu baxımdan akademikin aşağıdakı qənaəti də diqqətəlayiqdir: H.İbrahimovuin mənsub olduğu ədəbi nəsil özündən əvvəlki yazıçılarla (Süleyman Rəhimov, Əli Vəliyev, Nağı Nağıyev və s.) Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edən altmışıncı illər ədəbi nəsli “arasında etibarlı mənəvi körpüdür. Bütövlükdə altmışıncı illər nəsli bu körpüdən keçərək ədəbiyyata gəlmişdir”.

“Bahar yağışının aydınlığı“ məqaləsində xalq yazıçısı Hüseyn İbrahimovun hekayə, povest və romanları barədəki ümumiləşdirmələr bütövlükdə müasir nəsr tənqidini zənginləşdirən, dolğunlaşdıran qənaətlərdir. Yazıçının “Şirin xatirə”, “Kənd həsrəti”, “Təmiz adam”, “Qumralın məktubları” kimi hekayələrini “Azərbaycan ədəbiyyatının hekayələrdən düzəldilmiş nəhəng boyunbağısına məhz onun bəxş etdiyi mirvarilər” kimi dəyərləndirən tənqidçinin aşağıdakı fikirləri də ədəbi mətnlərin mahiyyətinə istinadən ortaya çıxmışdır: “Göyərçinin məhəbbəti”, “Səhv edəndə”, “Qu quşları öləndə oxuyurlar” və s. povestlərdə az qala ədəbi ənənənin əksinə olaraq , həyatı bütün təbiiliyi ilə yaşayan, düşünən, səhv edən, büdrəyən, aldanan, lakin çətin məqamda ayağa qalxmağı bacaran sıravi adamların həyatı, zəngin mənəviyyatı öz əksini tapmışdır. Bütün bunlar müəllifin hətta zor dönəmlərdə də ideoloji sxem və tələblərdən uzaqda dayanmasına, uzun ömürlü əsərlər yazmasına şərait yaratmışdır”.

Hüseyn İbrahimovun ədəbiyyatın şahmat taxtasında uğurlu roman gedişləri etməsini yaradıcılıq axtarışlarının tərkib hissəi kimi yüksək qiymətləndirən tənqidçi İ.Həbibbəyli onun “Sabahın sorağında” əsəri barədə yazırdı: “Bu, kəndi yalnız təsərrüfat, əmək yarışı, yaxud sinfi çəkişmələr meydanı kimi təqdim edən, özündən əvvəlki romanların uzun illər ərzində yaratdığı, formalaşdırdığı qəlibləşmiş ideoloji təsəvvürləri yıxıb uçuran yeni romandır. “Sabahın sorağında” romanı paytaxtdan uzaqda yaranmış yeni bir “Böyük dayaq”dır (Mirzə İbrahimovin romanı nəzərdə tutulur-A.A.).

Hüseyn İbrahimovun romanlarında epik təsvirin genişliyi, çoxşaxəliliyi, mövzunun dərinlik və əhatəliliyi, millilik və xəlqilik, tarixilik və müasirlik keyfiyyətlərinin mühüm yer tutması barədə də söz açan tənqidçi bu əsərləri təkcə həcminə görə yox, qaldırdığı problemlərin dəyərinə, insan talelərinin laylı süxurlarının bir neçə qatını açıb “sökə” bilməsinə, zəngin surətlər aləminə görə janrın dəyərli nümunələri kimi yüksək qiymətləndirmişdir. “Günəş doğan yerdə” romanının mürəkkəb dövrün hadisələrindən daha çox bənzərsiz insan taleləri ilə yadda qaldığını, “Bahar yağışı”nda əqidələrin,

mənəviyyatların çarpışmasının məharətlə təsvirini, "Əsrin onda biri" romanında sənətkar taleyi, zaman və şəxsiyyət probleminin bacarıqla həllini, "Böhtan" romanının isə repressiya törədənlərə ittiham, repressiya qurbanı olmuş Hüseyn Cavidin sənət və şəxsiyyətinə ədəbi ehtiram kimi təqdirəlayiq olduğunu yazan İsa Həbibbəylinin digər elmi müddəaları da dəqiq və inandırıcıdır.

Akademik İsa Həbibbəyli Hüseyn İbrahimovun yaradıcılığı barədə sonralar da bir neçə məqalə dərc etdirmişdir. Bu baxımdan onun "Şəxsiyyətin və sənətin vəhdəti" ("Ədəbiyyat qəzeti", Bakı, 2009, 12 iyun), Moskvada rusca çıxmış "Azərbaycanın xalq yazıçısı Hüseyn İbrahimov" («Международный научный журнал», Москва, 2008, № 2) və s. məqalələri xatırladıla bilər. Həmin məqalələrdə alim əvvəlki elmi-ədəbi düşncələrini daha da dərinləşdirmiş və ümumiləşdirmişdir.

Əməkdar elm xadimi, professor Hüseyn Həşimlının 1999-cu ildə yazdığı "Realizmin genişlənən üfüqləri" adlı məqaləsi isə daha çox Hüseyn İbrahimovun yaradıcılığının Azərbaycan ədəbiyyatında realizimin tarixi ənənələrinin yeni mərhələdə davamı və inkişaf xüsusiyyətləri, keçdiyi çətin yollar, qazandığı yeni keyfiyyətlər aspektində təhlili ilə maraq doğurur (11, s.65-70). Məqalə müəllifi haqlı olaraq vurğulayır ki, Hüseyn İbrahimovun yaradıcılığı Azərbaycan realizminin son əlli ilinin enişli-yoxuşlu yolu ilə həmahəng və paraleldir. Ədibin realizmi uzunmüddətli təkamül keçirmiş və əsərdən-əsərə püxtələşmişdir. H.İbrahimovun məharəti ondadır ki, sosializm ideologiyasının hakim olduğu zamanlarda yazdığı əsərlərdə də vulqar təsirlərdən mümkün qədər yan keçməyə çalışmışdır. "Sabahın sorağında" romanının yeni Azərbaycan nəsrinin təşəkkülü kontekstində qiymətləndirilməsi, əsərdəki "psixoloji təhlilin dərinliyi, adi adamların böyük qəlb təbəddülatlarının, mənəvi ağrılarının diqqət mərkəzinə çəkilməsi, sosioloji amillərlə müqayisədə mənəvi problemlərin qabarıqlaşdırılması" barədə deyilənlər bu baxımdan səciyyəvidir. "Bahar yağışı" romanı haqqında qənaətlər də realizmin dərinləşməsi kimi ümumiləşdirilmişdir: "Bahar yağışı" romanı ...hər şeydən əvvəl, realizmin dərinliyi və tənqidi pafosu ilə seçilir. Burada artıq konflikt kəskin ictimai qayə daşıyır: bir tərəfdə xalq, dövlət malını talayanlar, yüz cür yaramazlıqlar törədib öz mənfəətini hər şeydən üstün tutanlar, digər tərəfdə isə haqqın, ədalətin keşiyində dayanıb mənəvi təmizliyi özünə həyat amalı seçən, bu yolda əzablara qatlaşıb mübarizə əzmindən dönməyənlər dayanır" (11, s.67).

H.İbrahimovun "Əsrin onda biri" tarixi romanında gerçəklik və bədii təxəyyül barədə deyilənlər də bilavasitə ədəbi mətnin mahiyyətinə əsaslanır. Burada obrazların təqdimində romantik çalarların yer alması da nəzərdən yayınmamışdır. Eyni sözləri "Böhtan" romanı barədəki qənaətlərə də aid etmək olar.

Yazıçını məişət mövzusunda yazdığı çoxsaylı hekayə və povestlərdəki təbiilik, inandırıcılıq, həyatilik, təhkiyənin lirik notlarla müşayiət olunması, hadisəşiliklə bərabər müvafiq psixologizmin mövcudluğu da məqalədə nəzərə

çatdırılmışdır. H.İbrahimovun satirik nəsr əsərlərində Azərbaycan tənqidi realizminin klassik ənənələrinə bağlılıq və ondan yaradıcılıqla bəhrələnmə barədə də H.Həşimli müvafiq dəyərləndirmələr aparmışdır. Yazıçının müstəqillik dövründə yazdığı əsərlərin realist estetika baxımından nəzər salnımış, əsas məqamlar vurğulanmışdır.

Hüseyn İbrahimovun yaradıcılığı barədə Naxçıvan ədəbi mühitinin bir sıra digər nümayəndələri də fikirlər söyləmişlər. Tanınmış şair Müzəffər Nəsirlinin 1969-cu ildə yazdığı “Yaradıcılıq yollarında” məqaləsi yazıçının sənət aləminə müfəssəl baxışla səciyyələnir. M.Nəsirli qələm dostunun nəsr və dramaturgiya sahəsində ciddi uğurları kimi “Sabahın sorağında” romanı, Ü.Hacıbəyova həsr etdiyi “Ölməz mahnılar” kinopovesti, həmçinin “İtirilən sağlıq”, “Torpağın övladları” pyesləri, onların ideya-bədii xüsusiyyətləri barədə yığcam elmi fikirlər söyləmişdir (21). Fəttah Səmədoğlunun “Yazıçının şagirdlərə hədiyyələri” adlı məqaləsində isə əsas diqqət Hüseyn İbrahimovun uşaqların mütaliə, yaş səviyyəsinə uyğun olan “Rafiq və Tofiq”, “Kərim əmi”, “Tapmaca ustası”, “İngilis dili kitabı” və s. hekayələrinə, onlardakı nəcib əxlaqi qayəyə yönəldilmişdir. Məqalədə o da vurğulanırdı ki, yazıçının “Kərim əmi” hekayəsi Moskvada alman, ingilis, fransız dillərində nəşr olunan “Azərbaycan nəsri antologiyası”na da salınmışdır (23). Şair Həsən Valehlə yazıçı Rafiq Babayevin birlikdə yazdıqları “Baharlı günlərin nağılları” məqaləsi isə H.İbrahimovun “Bahar yağışı” romanı barədə yığcam düşüncələrdən ibarətdir (9).Məqalədə daha çox romanın obrazlarının əsas səciyyəsi barədə söz açılmışdır.

Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığına münasibət timsalında aparılan təhlillər göstərir ki, Naxçıvan ədəbi mühitində nəsr tənqidi özünəməxsus inkişaf xüsusiyyətlərinə malik olmuşdur.

ƏDƏBİYYAT

1. 1Arif M. Qəhrəmanın sorağında. “Ədəbiyyat və incəsənət” qəzeti, Bakı, 1964
2. Axundov Y. İstedadlı nasir. “Azərbaycan gəncləri” qəzeti, Bakı,1969, 22 may
3. Axundlu Y. Naxçıvan-yurdum mənim. Bakı: Sabah, 1997, 208 s.
4. Axundlu Y. Ədəbi mühit və sənətkar. Bakı: Adiloğlu, 2002, 186 s.
5. Axundlu Y. ”Əsrin onda biri”. “Azərbaycan müəllimi” qəzeti, Bakı, 1988,
6. Axundlu Y. Cavidə həsr olunmuş ilk roman. “Ədəbiyyat qəzeti”, Bakı, 1998, 18 sentyabr
7. Axundlu Y. Hüseyn Cavidə həsr olunmuş ilk roman. “Şərq qapısı” qəzeti, Naxçıvan, 1998, 17 oktyabr
8. Axundlu Y .Hüseyn Cavid haqqında ilk roman. “Azərbaycan” jurnalı, Bakı, 1999, № 4, s.174-176

9. Babayev R., Valeh H. Baharlı günlərin nağılları. "Yeni Ordubad" qəzeti, Ordubad, 1984, 16 fevral

10. Cavadlı C., Əbdülov M. "Sabahın sorağında" romanı haqqında. "Azərbaycan müəllimi" qəzeti, Bakı, 1964, 3 dekabr

11. Hüseyn İbrahimov-80 (təbriklər, məqalələr, xatirələr toplusu), (toplayanı və redaktoru Hüseyn Həşimli). Bakı:Yurd, 1999, 126 s.

12. .Həbibov İ. İstehsalat romanında mənəvi həyat. "Sovet Naxçıvanı" qəzeti, Naxçıvan, 1983, 21 dekabr

13. Həbibov İ. Kiçik janrın imkanları. "Sovet Naxçıvanı" qəzeti, Naxçıvan, 1986, 9 iyul

14. Həbibbəyli İ. Nəciblik. "Ədəbiyyat qəzeti", Bakı, 1994, 8 iyul

15. Həbibbəyli İ. Bahar yağışının aydınlığı. "Ədəbiyyat qəzeti", Bakı, 1999, 28 may

16. Həbibbəyli İ. Həyat eşqinin təsdiqi. "Ədəbiyyat və incəsənət" qəzeti, Bakı, 1988, 22 yanvar

17. Xalq yazıçısı Hüseyn İbrahimov (tərtib edəni Sarvan İbrahimov). Naxçıvan: Əcəmi, 2015. 376 s.

18. Xəlilov Q. Torpağa bağlılıq. "Ədəbiyyat və incəsənət" qəzeti, Bakı,1979, 15 iyun

19. İbrahimov H. Böhtan. Bakı: Şərq-Qərb, 1998, 286 s

20. .Mütəllimov T. "Sabahın sorağında". "Ədəbiyyat və incəsənət" qəzeti,Bakı, 1964, 12 dekabr

21. Nəsirli M. Yaradıcılıq yollarında. "Kommunist" qəzeti, Bakı,1969, 23 may

22. Saraclı M. Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığı. Bakı: Yazıçı, 1999, 132 s.

23. Səmədoğlu F. Yazıçının şagirdlərə hədiyyələri. "Azərbaycan pioneri" qəzeti, Bakı, 1969, 28 may

24. Səfərov Ş. Saçlar ağarsa da. "Ədəbiyyat və incəsənət" qəzeti, Bakı, 1989, 26 may

РЕЗЮМЕ

АНАР АБУЗЕРЛИ

ЛИТЕРАТУРНАЯ КРИТИКА И ХУДОЖЕСТВЕННАЯ ПРОЗА

Нахчыванская литературная среда как и во всех других областях дала много преподношений развитию Азербайджанской литературы, имеющее многовековую историю, а также определила новое направление литературной критики.

Нахчыванская литературная критика, имеющая богатую традицию, в XX веке прошла многостронний путь развития, которая дает общирный материал для исследования. С этой точки зрения художественная проза Гусейна Ибрагимова привлечена к исследованию и проведены некоторые обобщения.

Ключевые слова: Нахчыванская литературная среда, литературная критика, Гусейн Ибрагимов, артистическая проза

SUMMARY

ANAR ABUZERLI

LITERARY CRITICISM AND LITERARY PROSE

Nakhchivani literary environment which always made gifts for the development of Azerbaijani literature that has the century-old history defined new directions in the literary critism as all spheres. Nakhchivani literary crituque that has rich traditions passed a many-field development way in the XX century and this gives a wide and comprehensive materials fore research. From this point of view, in the article Husein Ibrahimov’s artisric prose is involved to research and generalized.

Key words: Nakhchivani literary environment, literary criticism, Husein Ibrahimov, artistic prose

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

ELNURƏ TAĞIYEVA
Gəncə Dövlət Universiteti
tagiyeva@gmail.com

AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ *QAD-QOD* KÖKLÜ SÖZLƏRİN MÜQAYİSƏLİ-TİPOLOJİ TƏHLİLİ

Qohum dillərə dair müqayisəli təhlil aparmaq həm asandır, həm də maraqlıdır. Ona görə ki, onların həm funksionallığı və həm də struktur tərkibi bir-birinin üzərinə düşür. Məqalədə Azərbaycan və rus dillərində qad-qod köklü sözlərin müqayisəli tipoloji təhlili verilmişdir.

Açar sözlər: müqayisə, tipologiya, genetika, müştərək, bərpa

Dliçilikdə qohum olan və qohum olmayan dillərin daxili quruluşuna dair çoxlu sayda tədqiqat əsərləri mövcuddur. Qohum dillərə dair müqayisəli təhlil aparmaq həm asandır, həm də maraqlıdır. Asandır ona görə ki, bu dillərdə tarixən nitq aktı əsasında normalaşma baxımından müəyyən fərqlər yaranmış olsa da onların həm funksionallığı və həm də struktur tərkibi bir-birinin üzərinə düşür. Maraqlıdır ona görə ki, bir dildə unudulmuş olan, işləklikdən çıxmış elementlər digər qohum dildəki izlərin əsasında bərpa edilə bilir. Həmçinin bir dilin yeni söz yaradıcılığında başqa dilin ənənəvi təcrübəsindən istifadə edilməsi istisna sayılmır. Beləliklə, xüsusən müasir dövrdə qohum dillər arasındakı əlaqələrin canlanması üçün onların müştərək sözlərlə, terminlərlə və terminoloji vasitələrlə daha çox təchiz olunması uzaqlaşmış əlaqələrin bərpası baxımından mühüm əhəmiyyət daşıyır. Qohum olmayan dillərin müqayisəli öyrənilməsində bir çox çətinliklər vardır. Birincisi, qohum olmayan dillərin struktur təhlili o məqsədlə aparılmır ki, onlarda tarixən mövcud olmuş genetik əlaqələr ortaya çıxarılsın. Mövcud tədqiqatlarda qohum olmayan dillər üzrə aparılan hər hansı təhlil onların genetik və tipoloji yaxınlığını təsdiq etmək meyillərindən uzaqdır. Bu sahədə aparılan tədqiqatların nəticələri daha çox praktik tələbatların ödənilməsinə xidmət edir. Praktik tələbat dillərin öyrənilməsi işi ilə əlaqədar bir qayda olaraq tədris prosesinə tətbiq edilir. Eyni zamanda, praktik tələbat dillərarası tərcümə məsələlərində xüsusi əhəmiyyət kəsb edir. Buna görə də qohum olmayan dillərin quruluşuna dair tədqiqatlarda dil vasitələrinin funksionallığı məsələləri daha çox üstünlük təşkil edir. Bununla belə qohum olmayan dillərə məxsus elementlərdə oxşarlıqların mövcudluğu da inkar edilmir. Məsələ burasındadır ki, qohum dillərin arasındakı oxşarlıq mövcud tədqiqatlarda genetik uyğunluqlar kimi nəzərə alınır (2, s. 106-111; 8, s. 141-142; 11, s. 150-161).

Qohum olmayan dillərin arasındakı oxşarlıqların səbəbləri dəqiq olaraq müəyyən edilmədiyinə görə aşkarlanan uyğunluqların necə adlandırılması

məsələsində fikir birliyi yoxdur. Görkəmli türkoloq A.M.Şerbak qohum olmayan dillərdəki oxşarlıqları sistem təşkil etməyən təsadüfi uyğunluq hesab edir. B.A.Serebrennikov isə V.M.İlliç Svitıç tərəfindən irəli sürülən nostratik nəzəriyyəyə qarşı çıxır və qohum olmayan dillərin arasında müşahidə olunan oxşarlıqları dillərin qohumluq əlamətini təsdiq edə bilməyən elementlər kimi nəzərə alır. B.A.Serebrennikov İlliç-Svitıçın rus və tatar dillərinə aid gətirdiyi oxumaqla bağlı nümunlərin düzgün təhlil edilmədiyini göstərir. İlliç Svitiıça görə rus dilindəki *nauka* sözünün kökü olan *uk* tərkibi oxumaq anlayışını əks etdirir. Tatar dilində isə bunun adekvatının *ukırqa* (oxumaq) sözündəki *uk* tərkibi göstərilir. B.A.Serebrennikov isə bu müqayisənin doğruluğunu qəbul etmir. Göstərir ki, buradakı səs oxşarlığı həmin sözlərin qohum olduğunu təsdiq etmir. Bu sözün kökünün tatar dilinə məxsus *ukırqa* sözü ilə yox, qədim prussiya dilindəki *iaukint* sözü ilə qohum olduğunu ağlabatan hesab edir (9, s. 27).

İlliç –Svitıç isə müxtəlif dillərin kök elementlərinə dair çoxlu materiallar əldə edib onların təhlili ilə belə nəticəyə gəlir ki, ayrı-ayrı dillər arasında müşahidə olunan koqnitiv elementlər həmin dillərin arasındakı ən qədim qohumluğun mövcudluğunun göstəricisidir (5, s. 37-56; 6, s. 4-179).

Hansı mütəxəssisin dillərarası oxşar elementləri necə qəbul edib-etmədiyindən asılı olmayaraq genetik cəhətdən qohum olmayan dillərdə bir çox eyniköklü elementlərin mövcudluğu həqiqətən inkaredilməz faktdır. Müasir dilçilikdə bu cür oxşar elementlərin təhlil və tədqiq edilməsi ilə dillərin mənşəyi barədə XIX əsrdən bəri davam edən genealoji və tipoloji təsnifata yenilik gətirə biləcək fikirlərin irəli sürülməsinə imkan verilməsi tamamilə mümkündür. Ayrı-ayrı qohum olmayan dillər arasında olduğu kimi tipoloji cəhətdən bir-birindən fərqlənən Azərbaycan və rus dillərində də müəyyən koqnitiv xarakterli kök elementləri mövcuddur. Əlbəttə ki, ilkin tərkib kimi formalaşmış köklər dillərin inkişafı prosesində müxtəlif derivativ formalar da qazanmışdır. Kök elementlərinə məxsus anlayışlar derivativ variantlarda da bu və ya digər şəkildə saxlanılır. Azərbaycan və rus dilləri ayrı-ayrı tipoloji quruluşa aid olduğu üçün derivativ formalarda fərqlər vardır, bununla belə ümumi məna anlayışları koqnitiv kök elementlərində öz izlərini qoruyur. Belə koqnitiv kök elementləri sırasında *qad* və *qod* kökləri özünəməxsus struktur-semantik keyfiyyətlərə malikdir. Azərbaycan dilinə məxsus derivativ variantlarda aqlütinativ quruluşa uyğun olaraq son şəkilçi elementləri işləndiyi halda rus dilində bu dilin analitik-flektiv quruluşuna müvafiq şəkildə derivativ elementlər həm sözün əvvəlinə, həm də sonuna artırılır. Eyni zamanda, kök sözlərin özləri sözün daxili elementlərinə çevrilmiş şəkildə işlənir.

Azərbaycan dilində *qad* kökü aqlütinasiya mərhələsində öz müstəqilliyini itirdiyi üçün onun ilkin anlayışını derivativ variant üzrə təyin etmək mümkün olur. Bu da ən ilkin mərhələdəki omonimlik üzrə formalaşan mənaları müəyyən etmək üçün şərait yaradır. Azərbaycan dilində *qad* kökü üzrə formalaşmış derivatlara görə həmin kökün aşağıdakı kimi omonim mənalara malik olduğu aşkar edilir:

1) *Qad* kökünə *–a* şəkilçisi əlavə edilməklə *dərd, bəla, ağrı, acı* mənalı *qada* sözü düzəlir. *Qada* sözünün özü isə həm nəvaziş və həm də qarğış, söyüş mənalarında işlənir: a) nəvaziş mənasında: *qadanı alım, qadan mənə gəlsin, qadan ürəyimə*; b) qarğış, söyüş mənasında: *qadam ürəyinə, qadam ağzua* (1, s. 105).

2) *Qad* kökünə *–aq* (*-q, -ğ*) şəkilçisi və ya şəkilçi elementləri artırmaqla bərkitmək (mismarla, mərtillə və ya kəndirlə) mənasını bildirən *qadaq* (qadağ) sözü düzəldilir: *Qadağı* taxtıya vırdım (Səlyan); -Soruş gör tükəndə *qadax* mıxı varmı? (Şəki) (1, s. 106).

3) *Qad* kökündən düzələn *qadaq* (*qadax*) sözünə *–lı* sifətdüzəldən şəkilçi qoşulduqda bağlı, bitişik, ayrılmaz mənasındakı *qadaxlı* sözü düzəlir: Qadan qarnında *qadaxlı* qalsın (Tovuz); -Heyvan başınnan *qadaxlı* qalıf (Qazax).

4) *Qad* kökündən düzələn *qadaq* (*qadax*) sözünə *–la* şəkilçisi əlavə edilməklə bərkitmək mənasındakı qadaxla sözü düzəlir. Taxtanı *qadaxlamazdan* qabağ ölç (Oğuz) (1, s. 106).

5) *Qad* kökünə *–ı* şəkilçisi artırmaqla təkəbbürlülük, yekəxanalıq mənası bildirən *qadı* sözü düzəlir: Elə *qadı-qadı* danışer ki, elə bilersən, əkə kişidi (Şəmkir); Ə, nə *qadı-qadı* danışırsan? (Amasiya) (1, s. 106).

6) *Qad* kökünə *–ın* şəkilçisi əlavə olunmaqla qadın sözü əmələ gəlir. *Qadın* sözü qədim mənbələrdə, xüsusən, "Kitabi-Dədə Qorqud"da ailə bünövrəsinin əsasını quran şəxs mənasında işlədilmişdir:

Küz almasına bənzər al yanaqlım!
Qadınım, dirəyim, döləyim (7, s. 138-139).

7) *Qad* kökünün *qadaq* derivatına *–a* şəkilçisi əlavə etməklə *qadağa* (*qadağan*) sözü əmələ gəlir ki, bu da yolu bağlı olan, yolverilməz olan, icazəsi olmayan mənasında işlənir. Ərəb dilində *qad* kökünün *xət* (xat) adekvatı üzrə formalaşmış *xəta* (xata) sözü *günah, səhv* mənasında işlədilir. Həmçinin, *xəta* sözü Azərbaycan dilində özünün ərəb mənşəli *bəla* sözü ilə birlikdə mürəkkəb tərkib kimi *xata-bəla* şəklində işlədilir.

Xəta sözü fars dilində müvafiq derivativ elementlərlə birlikdə də işlənib Azərbaycan dilinə də daxil olmuşdur: *xətabəxş* (günahı bağışlayan), *xətakar* (müqəssir, günahkar), *xətərnak* (qorxunc, qorxulu, xəta-bəla gətirən).

Qad kökü üzrə rus dilinin lüğətində 151 sözün düzəldiyi qeydə alınmışdır (10). Bunların içərisində həm pozitiv, həm də neqativ mənalı derivatlar vardır. Pozitiv mənalı sözlərə dair aşağıdakıları nümunə göstərmək olar: *выгадать* (mənfəət etmək), *выгадывать* (qazanmaq, qənaət etmək), *выгадываться* (qazanılmaq, mənfəət əldə edilmək), *гадать* (ehtimal etmək, güman etmək), *гадалка* (baxıcı), *гадальный* (baxıcılıq vasitələri), *гадальщик* (baxıcılıqla məşğul olan), *гадание* (falabaxma), *загадный* (fikirdə tutulan), *загадать* (fikrində tutmaq), *загадка* (tapmaca, sirr), *загадочно* (müəmmalı), *загадочность* (müəmmalı, qəribə, gözlənilməz), *загадывать* (fikrində tutmaq), *нагадать* (fal açmaq), *наугад* (bəxtə-bəxt, necə gəldi), *негаданный* (gözlənilməyən), *отгадать* (tapmaq), *отгадка* (cavab, həll), *отгадчик*

(yozucu), *отгадываться* (tanınmaq), *погадать* (fal açmaq), *разгаданный* (yozulmuş), *разгадать* (tapılmaq, anlamaq), *разгадка* (tapma, tapılma), *угадать* (duymaq), *угадка* (duyum), *угадчик* (tez duyub tapan).

Neqativ mənalara aid aşağıdakı kimi nümunələri misal göstərmək olar:

Гад (pis, yaramaz, həşərat), *гадить* (murdarlamaq), *гадкий* (pis, murdar, iyrənc), *гадливый* (iyrənc), *гадюка* (kürzə ilan, zəhər tuluğu), *пригадать* (uduzmaq).

Azərbaycan və rus dillərində *qad* köklü sözlərin müəyyən qismi həm pozitiv və həm də neqativ mənalar üzrə bir-birini tamamlaya bilir. Məsələn, rus dilindəki *гадать, гадание, загадка, загадочный, угадать, разгаданный* sözlərində qeyri-adilik, müəmmalılıq, sirlilik anlayışları Azərbaycan dilindəki *qadı* (böyük, təkəbbürlülük, çoxbilmişlik, çoxbilmişliyə görə özündən razı) sözü ilə müəyyən uyğunluğa malikdir. Bunun kimi, rus dilindəki *гад* köklü neqativ məna bildirən *гадюга, гадина, гаданный, гадость, гадючий, изгадить* sözləri Azərbaycan dilindəki *qada* (bəla, uğursuzluq, azar) sözünün ümumi motivi üzrə uyğun gəlir.

Eyni zamanda *qad* sözünün qeyri-adilik, böyüklük, ucalıq, əlçatmazlıq anlayışı üzrə ingilis dilində *God* (Allah, himayəçi, büt), sözü yaranmışdır. *God* sözü ingilis dilində “God willing” (Allah yetirsin), “God vless you” (Allah sizdən razı olsun) kimi ibarələrin tərkibində də işlənir ([13, s. 137).

Ərəb dilində *qad* kökü üzrə *qadir* (tanrı), həmin kökün *qüd* variantı üzrə *qüdrət* (qeyri-adi bacarıq) kimi sözlər yaranmışdır. *Qad* kökünün *xod* variantı üzrə fars dilində *xoda* (Tanrı, Allah) sözü formalaşdırılaraq işlədilir.

Qad kökünün *qod* variantı üzrə yaranmış derivatların da müəyyən qismi Azərbaycan və rus dillərində müştərək mənalarla səciyyələnir.

Azərbaycan dilində *qod* kökü üzrə *qodu* (bayram şənliyinin oyunbazı), *qod* kökünün *qud* variantı üzrə *quda* (ailə quranların valideynləri) kimi pozitiv mənalı sözlər yaranmışdır. *Qud* kökünün *qut* variantı isə pozitiv mənada toxtaqlıq (yedim, ürəyimə *qut* oldu) mənasında müəyyən nitq areallarında işlənir. *Qud* kökündən, eyni zamanda neqativ məna üzrə *quduz, qudurğan* sözləri də əmələ gəlmişdir. Rus dilinin etimoloji lüğətində *qod* kökü əsasında formalaşmış 85 derivativ variant qeydə alınmışdır (3). Bunlar daha çox il və yararlı olmaq mənası ilə bağlı sözlərdən ibarətdir.

Rus dilinin etimoloji lüğətində *qod* sözünün ümumslavyan mənşəli olduğu və yararlılıq, gərəklilik və il məzmunu bildirdiyi göstərilir. Başqa slavyan dillərində həmin kök sözün bayram, şənlik, qonaqlıq, şadlıq məclisi kimi mənalar bildirdiyi də göstərilir. Rus dili lüğətlərində, həmçinin *qod* kökünün pis, yaramaz, qəddar mənaları bildirdiyi də göstərilir. Maraqlıdır ki, rus dilinin etimoloji lüğətində *qod* kökünün *qad* variantının sürünən heyvan, ilan mənası ilə yanaşı qoyun, eşşək mənası bildirdiyi də göstərilir (4). Azərbaycan dilində isə *qod* kökündən düzələn *qoduq* sözü eşşəyin balası mənasını bildirir.

M.Fasmerin lüğətində *qod* kökünün niderland dilində *kwaad* şəklindəki derivatının *qəddar çirkin, iyrənc, mənfur* mənalarının bildirməsi də qeydə alınmışdır (12).

Qod kökünə məxsus derivatların neqativ məna bildirən qismi Azərbaycan dilindəki quduz sözünün mənası ilə uyğunlaşır. Belə ki, həm *kwaad, duat* və həm də *quduz* sözlərində sözlərində ziyankarlıq anlayışları bir-birinin üzərinə düşür.

Beləliklə *qad* və *qod* köklü sözlərin araşdırılması onu göstərir ki, hər iki kökdə və onların digər fonetik variantlarının derivatlarında ümumi motivasiya üzrə bir-birinin üzərinə düşən həm pozitiv, həm də neqativ mənalar vardır. Belə sözlərin tədqiqi və təhlili onu deməyə əsas verir ki, müasir dillərin tipoloji quruluşundan asılı olmayaraq onların leksik tərkibində oxşar köklü sözlərin mövcudluğu təkzibedilməzdir. Lakin belə sözləri alınmalarla və ya genetik qohumluq əlaməti ilə eyniləşdirmək mümkün deyildir. Bununla birlikdə təhlil edilən sözlər dilin qədim mərhələsinin məhsulu kimi nəzərə alınmalıdır. İlkin kök söz elementlərinin arasındakı oxşarlıq əlaməti onu deməyə əsas verir ki, ayrı-ayrı tipoloji quruluşa malik olan dillərdə sözlərin formalaşması prosesinin özü ümumi prinsiplərin əsasında baş vermişdir. Görünür bu da ən ilkin mərhələdə dillərin köksözlülüyə malik olmasının əlamətidir. Mümkündür ki, dillərarası ilkin oxşarlıqların mövcudluğu digər səbəblərlə də bağlı olsun. Bu isə daha dərin, daha ətraflı, daha geniş tədqiqatlar aparılmasını zəruriləşdirir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Azərbaycan. Elmlər Akademiyası nəşr., 1964.
2. Богородицкий В.А. Введение в татарское языкознание. (Введение в татарское языкознание в связи с другими тюркскими языками). Казань: 1953.
3. Этимологические онлайн-словарь русского языка /hrrps: Ulexicoqraphy. online. /etimology/q/qad.
4. Enc-dic.can/ruschty/A-3-2513.
5. Иллич - Свитыч В.М. Алтайские дентальные т, д, б. “Вопросы языкознания”, 1963, № 6, с. 37-56.
6. Иллич-Свитыч В.М. Опыт сравнения ностратических языков (в-к). М.: 1971, с. 4-179.
7. Kitabi-Dədə Qorqud. Bakı, 1962, s. 17.
8. Мусаев К.М. Некоторые вопросы лексико-семантической дифференциации и интеграции тюркских языков- “Тюркологические исследования”. М.: 1976, с. 141-142.
9. Серебренников Б.А. Почему трудно верить сторонником ностратической гипотезы. “Вопросы языкознания”, 1986, №3, с. 27.
10. Sostav slova. Ru /root/qad? page=2

11. Щербак А.М. К вопросу об отдельных связях тюркских языков. – “Актуальные вопросы сравнительного языкознания”. Л., 1980.
12. www.onlinedies.ru/slovar/fasmer/g/gad.htru.
13. Yusifov M. Linqvistik tipologiya. Bakı: Elm və təhsil, 2017, s. 138-139.

РЕЗЮМЕ

ЭЛЬНУРА ТАГИЕВА

СРАВНИТЕЛЬНО-ТИПОЛОГИЧЕСКИЙ АНАЛИЗ СЛОВ С КОРНЕМ *ГАД-ГОД* В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ

В статье указывается, что в Азербайджанском и русском языках в корнях *гад-год* и между их производными, по общему понятию, существует совместность. Из-за того, что между Азербайджанским и русским языками не существует генетического родства, невозможно считать, образованные на их основе производные, родственными признаками. Так же не существуют типологических сходств между этими двумя языками. Признаки перехода, анализируемых корней от одного языка в другой, не является правдоподобными. Таким образом, анализируемая совместность в двух языках, на основе корневых наблюдений, по совместным признакам, показана как результат развития.

Ключевые слова: сравнение, типология, генетика, совместный, восстановление

SUMMARY

ELNURA TAGHIYEVA

COMPARATIVELY – TYPOLOGICAL ANALYSIS OF WORDS WITH THE ROOTS *GAD-GOD* IN THE AZERBAIJANI AND RUSSIAN LANGUAGES

The article states that in the Azerbaijani and Russian languages, in the roots *gad-god* and between their derivatives, in accordance with the general concept, there is a compatibility. Due to the fact that there is no genetic relationship between the Azerbaijani and russian languages, it is not possible to consider the derivatives derived from them as related signs. There are also no typological similarities between the two languages. The signs of the transition of the analyzed roots from one language to another are not plausible. Thus, the analyzed compatibility in two languages, based on root observations, by common features, is shown as the result of development.

Key words: comparison, typology, genetics, common, restoration

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

FİRUDİN RZAYEV
AMEA Naxçıvan Bölməsi
firudinrzayev@gmail.Com

NAXÇIVANDA MİLADDAN ÖNCƏ YAŞAMIŞ TAL PROTOTÜRKLƏRİ İLƏ BAĞLI ETNOOYKONİMLƏR

Məqalədə m.ö. Naxçıvanda yaşamış Tal türklərinin adı ilə bağlı oykonimlərdən bəhs olunur. Naxçıvanla bağlı bu mövzu indiyədək alimlər tərəfindən araşdırılmamışdır. Bu prototürk adlarını daşıyan oykonimlərideki dil elementləri müxtəlif sözlük və mənbələrlə müqayisəli təhlil olunmuşdur. Bu istiqamətdə dil elementləri əski yazılı salnamələrə istinadən də təhlil olunmuşdur. Bu yazılardakı qədim türk sözləri ilə oykonimdəki sözlərin müqayisəsi yeni elmi nəticələr ortalığa çıxarır. Linqvistik təhlil zamanı Naxçıvan oykonimlərində ortalığa çıxan yazıyaqədərki dövr dil elementləri antik yazılarda da təkrarlanır. Tarixi materialların hərtərəfli araşdırılması zamanı aydın olur ki, oykonimlər bu tayfaların adından yaranıb. Talprototürkləri isə antik mənbələrə əsasən m.ö. IV minillikdə qədim Naxçıvan-Naxər ölkəsi ərazilərində yaşamışlar.

Açar sözlər: m.ö minilliklər, etnooykonim, Tal türkləri, dil elementləri.

Naxçıvan əhalisinin etnogenezi, eləcə də bradakı tayfalarla bağlı oykonimlər sistemli tədqiq edilməmişdir.Belə tayfalardan biri də m.ö. IV-III minilliklərdə bu ərazidəki adlarda z izini qoymuşTal türkləridir. Yalnız Q.Qeybullayev dalaylarla bağlı yazılarında bu tayfa adınıTolos kimi vermiş,onların mənşəyi, dili, yayım arealı, tarixi dövrü heç bir tədqiqatçı tərəfindən araşdırılmamışdır. Onların qədim Azərbaycan boyları olub Naxçıvan əhalisinin etnogenezində iştirakı, eləcə də onlarla bağlı oykonimlər tərəfimizdən ilk dəfə olaraq tədqiq edilir.

Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan, eləcə də ümumtürk coğrafi arealında “tal” sözü ilə xeyli sayda məntəqə adlarına və onlarda qədim dövr türk dili elementlərinə rast gəlirik ki,bu sözün canlı ismə, bir tayfa, tirə adına mənsubluğu ortaya çıxır. Coğrafi adlar üzərində apardığımız müqayisəli araşdırmalarda bu tayfalar “tal”, “tol”, “tel”, “tul”, “til” yazılışlarında a≈o, a≈u, a≈i,a≈o, a≈esəsəvəzlənmələri ilə sənədlərə düşmüşdür.

Bu istiqamətdə Q.Qeybullayev xalqımızın etnogenezini araşdırarkən Assur mənbələrində “dalaylar” ölkə adına rast gəldiyini, onların Xəzər ətrafında yaşadığını, tolmat, teleut, tele, tolostayfa adlarının Dalay adına uyğun olduğunu yazsa da,o, Tal tayfa adına toxunmamış, bu komponentli məntəqə adlarının izahını verməmişdir(8, s. 249).

Biz Amur və Xabarovski bölgələrində Taldan, Talakan adda şəhər və çay adlarına (12, s. 42-43), dan/tan sözününisə, lüğətlərdə “düzən” və “möcüzəli” mənalarına rast gəlirik (13, s. 1616; 25, s. 607). Talakan adındakıkan-“yurd, məkan” sözü ümumtürklərdəBeyləqan, Namanqan, Abakan, Kalakan kimi xeyli coğrafi adlarda eramızın V-VI əsrlərində kan-“kağan” kimi əski rütbə olaraqƏrgənKan, YağlakarKan, Kara kan,Kadırkan kimi şəxs adlarında təkralanmışdır(12, s. 38-39, 58-59;18, s. 384). Sözlərdə türk dillərinə məxsus k≈x≈hfonetik dəyişikliyi ilə (6, s. 419; 27, s. 86) ümumtürklərdə“xan”, “kan”, “han”kimi titul bildirmişdir. Burada adları formalaşdıran “tal” sözü Taldan-“Tal duzu”, Talakan- “Talkağanı” və “Tal yurdu” və s. mənalarTal tayfa adnı daşıyır. Areal türk toponimlər sözlüyündə Talan, Talar, Talnax, Talak, Tal, Talti, Göytürk tayfalarında Toliş, Talas, Talakan, Taldı, Telexan, Taluy, Tola (18, s. 388-390; 12, s. 29, 42-43, 56, 60) kimi yüzdən yuxarı coğrafi ad “Tal” tayfa adı ilə bağlıdır.

Azərbaycanlılar yaşayan Gürcüstan ərazilərindəki Tela, Sitelmat-“Zəkalı Tal yurdu”, Axtal- “Uca Tal”, Talat-“Tal məkanı” kimi şəhər, qəsəbə və dağ adlarını (22, s. 25, 154, 180, 307) gürcülər yad dilə aid edirlər. Türkiyədə Talas, Til, Tilek, Tuluk (2, s. 94, 102), Bütöv Azərbaycanda Talti, Talbi, Tal, Talabu, Tala, Tulu (1, s. 90-92; 14, s. 38; 27, s. 463), qədim Naxçıvanda Tutal, Tal, Catallar, Talin, Tilyak, Tulus kimi xeyli coğrafi ad qaynaq və arxiv sənədlərində qeydə alınır (4, s. 164, 167, 171, 180). Bütöv Azərbaycanda 250-dən yuxarı coğrafi addan “tal” komponentli 141 məntəqə qəsəbə adı talların türk tayfası olduğunu sübut edir.

“Tal” sözünün mənasına biz M.Kaşğari, V.Radlov və qədim türk sözlüklərində “ağacın budağı”, “qol” (9, s. 563; 10, s. 412), başqırt, özbək, tatar, uyğur, qazax, qırğız dillərində “tal”, “şak”, “putak”, “varis” mənalarında rast gəlirik (6, s. 142-145). OykonimlərdənTalan-“Tal məkanı”, Talar-“Tal əri”, Talas-“Güclü Tal”, Taltan-“Tal düzü”, Talak-“Uca tal” və s. adları əmələ gətirən qədim dövr türk dili elementləri yazılarımızda geniş izah edilmişdir (3, s. 532; 15, s. 606). Adlardakı kan-“kağan”, “yurd, məkan”, an-“mənsubluq şəkilçisi”, ər-“igid, kişi”, tan-“tən”, ti-“tıkmək”, as/es-“güclü, zəkalı”, qədim dil elementləri Assur, Het, Yunan yazılarında prototürklərə aid adlarda təkrarlanmışdır. Bunların bir qismi arxaik formada hazırda qaş-“işıq, şüa”, san-“şan-şöhrət”, abu/abi/apa-“qardaş”, “ata”, “xan”, qar/kar-“sevimli”, “əziz” və s. sözlərdə “ad-san”, “bu bizə kardır”, “qaş qaraldı”, “qardaş” ifadələrində qalmaqdadır (3, s. 1; 7, s. 146; 11, s. 32, 55).

Tayfa adına qoşulan əski sözlər iltisaqi dillər üçün xarakterik olan söz+söz, yəni mürəkkəb quruluşlu sözə çevrilməklə Tal+as, Tal+kar və söz+şəkilçi yəni söz və qrammatik əlaqə Tal+an, Tal+a xüsusiyyətlərini özündə cəmləşdirir. Adlar iltisaqilik qanunları ilə formalaşsa da, qədim dövr sözyaratma üslubudur. Buna görə də oykonimlərdə sözlərin mənalarını müasir dil üslubu və etimoloji izahlarla Talak-“uca tallar”, Talkar-“sevimli tallar” şəklində I növ, Talkan-“Talkağanı”, II növ, Talti-“Talların tikdiyi”, Talkan-“talların yurdu” şəklində III növ təyini söz birləşmələri kimi qəbul etmirik.

Çünki bu qədim adlanmada fonem-morfem, səs-məna üslubları müasir dil fonetikası və morfologiyasından fərqlənir və dilin ibtidai quruluşudur. Mənbələr isə adlara qoşulan prototürk dili vahidlərinin m.ö. Mitan, Manna, Midiya, Atropatena, Albaniya türk dövlətlərinin, Qinz+an, Ak+bat+an, Ama+kar, As+ti+ak, Tan+ay, Ar+an, Ər+bak(7, s. 82, 97, 100; 23, XI, 4,13) və s. şəxs adlarında təkrarını göstərir. Tallarıqədim türk-Azərbaycan boyu olub, m.ö. IV-III minilliklərdə prototürk ittifaqında yer almış,böyük güc olmuşlar.

Gürcü alimi V.QamrekeliTal tayfa adını "Val/Dval" kimi təhrif edib Pliniy və K.Ptolomeyiə istinadən onları m.ö. XV əsrdə Şimali Qafqaz düzənliklərində məskun, tayfa kimi gürcülərin babaları sayır. Təbii ki, o dövr gürcülər hələ xalq kimi formalaşmamışdır və bu kiçik xalq, Xəzər dənizinə qədər yayıla bilməzdi (-F.R.). Strabon, KorneliyTasit, İosifFlavi də o dövr kaspilərin bu ərazidə Kaspianaadlı güclü və böyük qədim Azərbaycan əyalətləri olduğunu yazır. Bu mənbələr V.Qamrekelinin fikrini təkzib edir. Z.Vaneev isə Pliniyə istinadən talları Xəzər dənizinə qədər olan ərazilərdə subərlərlə birgə yerli xalq kimi göstərir, onlar tal deyil "dval" adlandırır. Burada da açıqca tarixi məlumat, mənbədəki Tal "Dval" kimi təhrif olunur(19, s. 354-377).Herodotun yazılarında isə, Siciliyada Sirakuz şəhərində Tel-talların, hökmdar Telin, Sibaris şəhərində çar Telisinin adı çəkirilir. Biz Mitan dövləti, Urmiya gölü ətrafında, Anadoluda, "Dədə Qorqud" kitabında da Subarti, Subaris, Sirakuz, Şirakuz kimi ölkə və şəhər adlarını görürük (25, s. 311, 629). V.Bartold, O.Gokyay və b. bu sözü "Şerikuz", "Şeruk" kimi şirakları türk bolqar boyu hesab edirlər (20, s. 98-114). Bu yazılarda tallar, Telin, Telisinsubartu-subarların dövründə göstərilirsə (28, 138; 25, s. 311, 515, 552), onda Tal türkləri subərlərlə eyni tarixi dövrdə, m.ö. IV-III minilliklərdə tarixdə yeralmışlar.

Bu haqda QayYuliy Solin yazır: "Mitridata sığınacaq verən və Midiya əsilli, Asiyada yaşayan savromatlara görə tallar şərqdə Kaspi dənizi sahillərində çay ağzında yaşayan tayfalarla həmsərhəd idi". K.Gəncəli isə V əsrə dair yazılarında Buqa adlı sərkərdənin Simbatı həbs etdiyini, bu hadisələrin baş verdiyi Toran-Turan elində Tiladdakəndin olduğunu yazır.Bununla bərabərİ.DyakonovAssur yazılarında Təbriz ətrafında Talay-Dalay ölkə adı və Mannada tayfa adı olduğunu, başqa bir mənbə isə, m.ö. VI əsrdə sakların Talas çayı hövzəsini tutduğunu yazır.F.Bayat da peçeneqlər arasında Tolmaç, Var hunları arasında Talan, Tolu tayfaları qeyd edilir(19, s.354-377). Q.Qeybullayev isə onları tolo, tele, teleut tayfalarına uyğun Tolmat boyları kimi göstərir (8, s. 249). VI əsrə aid Orxon yazıları isə Talas abidə adını göstərir (18, s. 339-342, 390).

Mesopotamiyaya aid tədqiqat aparan A.Zoriç Lon-Meradan qərbdə, Kiad və Oris arasında (ərazi hansı ölkəyə aiddir göstərilmir -F.R.) Talay düzənliyinin adını çəkir,V.Puzanov və V.Trepavlov isə öz yazılarında Itık rayonunda Talay ulus adı və sərkərdə Talay şəxs adlarınaKunqay-Alatauda isə Çok-Tal kənd adını göstərir(19, s. 359-377). Talların bir tayfa olduğuŞakarimKudayberdi-ulının yazıları ilə də təsdiq edilir. O, qazax, qırğız,

türklərinin mənşəyi haqqında yazılarında Balxaş gölünə axan Karatalçayı, Sır-Dəryadan cənubda Kanqlı və Dulat boylarının yaşadığını, mənşəcə onların çuylar olub m.ö. II əsrdə Qərbi Alataudaməskunlaşdığını yazır. O, Böyük Juzda dulatlar arasında ən qədim tayfa Sarı Uysınları, tayfa ittifaqında isə Kırık, Jolay, kuleklərlə birgə əsl güc olan Talay tayalarını göstərir. O, talayların Sır-Dəryanın cənubunda məskunlaşdığını yazır (26, s. 24, 55). As+ay, Dor+ay, Tal+ay kimi adların türklərin Ay inancı ilə bağlı olması, bu tayfaların eyni mənşə, inanc və dilə mənsubluğunu tam sübut edir.

Biz Yunanlarda -os adlıq hal şəkilçisi ilə Talos-Tal tunc nəhəngi, Arqos çarı-allahı Talay (kitabda Tal, Talayon) və Tallo-bahar tanrısı adlarına rast gəlirik (13, s. 977-978). Bəs o dövrdə Sır-Dəryadan cənubdakı Talay tayfa adının Yunan mifində “Talay” yazılışında təkrarı nə ilə bağlı olmuşdur? Biz Tal tayfa adının Ay inancı ilə tarixi dövrünü nəzərə alsaq (m.ö. IV-III minillik) heç şübhə yox ki, Talay tanrı adı Yunan mifinə Doray tanrı adi ilə bərabər qədim türklərdən adlamışdır ki, bu da yunan mədəniyyəti və mifinə Türk təsirinin tarixi sübutudur (-F.R.).

R.TilovKoban ərazisindəki at rəsmli baltaları m.ö. II minilliyə son tunc dövrü Sak tayfa mədəniyyətinəvə Kaş,talaylara aid edib, onları Qafqaz Koban mədəniyyətinə bağlı tayfalar hesab etmiş, rus arxeoloqları B.Texov, S.Valcak və A.Skakov da 1920-ci ilədək Naxçıvan ərazisi olan Sürməli-Iğdir bölgəsində Talay-Tilay məzarlığı aşkar edib bu mədəniyyətin skiflərdən qabaqkı dövrə aid edib, burada Tal-Til adda bir tayfanın olduğunu yazmışlar. BizŞimal Sibirdə də Ob çayı vadisi Topa TalArtı rayonunda Tal adında məzarlığa rast gəlirik. (19, s. 354-377). O.Osmanovisə bir kitabında Taltürkərinin adını TURUĤ TAL KUN ifadəsində verərək bu yazını m.ö. III-II minilliklərə aid edib, qırğızlar içərisində xeyli sayda başqa türk tayfalarının da olduğunu yazır (17, s. 417-418).

Biz TURUĤ TAL KUN ifadəsindəturu-“tayfa”, tur-“oğul”, an-mənsubluq şəkilçisi və“məkan, ünvan”, Tal tayfa adı və kun/qın-“qala” qədim türk sözləri olub sözü “Tal tayfalarının qalası” mənasında izah etmişik. Bu sözlər m.ö. V-III minilliklərdə kuti, lulubəy, kas vəmidiyalılardaTiri+gan, İmaşkun, Kinzin, Kintau kimi adlarda da bu mənanı daşımışdır(7, s. 57;19, s. 354-357). Tallarınm.ö. II minillikdə bu ərazilərdə osetinləri qovması isə, onları qədim, güclü, öz ölkələri olan tarix proseslərə təsir edən tayfalar kimi təqdim edir. Biz yuxarıda Orta Asiyadakı “Taldı Kurqan” sözünün mənasına toxunduq. Bu adda Tal-tayfa, dı/ti-“tikmək”, Kiur Kas və Quti tayfalarının tanrıları və qan/kan-“məkan, yurd” sözü, “Tal tayfasının tikdiyi Kiur yurdu” mənasında Tal sözünü tayfa adı kimi göstərir.

Hett ölkəsində m.ö. II minillikdə biz Tlabarna-Talabarna çar adına rast gəlirik və onu çar Telebuni əvəz edir. Bəzi qaynaqlarda da m.ö. III minillikdə hurri, subar, komanların məskun olduqları Urmiya bölgəsində Tal-Arpaçiya (əsərdə Tal və Arpaçay?-F.R.) qədim şəhər qalıqlarına rast gəlirik. Burada Tal-Brak, Tal-Xalaf adlı şəhər ərazilərindən m.ö. IV-III minilliyə aid arxeoloji nümunələr aşkar edilmişdir (25, s. 192, 311, 368-369). Adlarda Tal tayfa adı,

müasir Arpaçay adı, Brak-böriak-“uca qurd”, kal-“ulu”, af/əf/-“ev”-“Ulu ev” qədim türk sözləri Tal tayfa adı ilə birgə çəkilir. Bu isə talların Naxçıvan ərazisində m.ö. IV-III minillikdə yerli sakinlər olduğunu bir daha sübut edir.

Biz peçeneqlərdə böri-“qurd”, tol/tal tayfa adı, maç-“baş” sözlərindən yaranmış “Qurd başlı tal” mənalı “Börü tolmaç” tayfa adını görürük (5, s. 91). M.Seyidov, Yaşar Kalafatın yazılarında da Gökböri -GÖY QURD göydən, işıq içində oğuzlara kömək üçün yenir və Azərbaycan, Türk coğrafiyasında “Ulu Kurt”, “GokKurt” mifi geniş yer alır (19, s. 456; 21, s. 164). “Boritolmac” tayfa adının etimoloji mənası da talların bir tayfa olduğunu, qurda inancın isə, onların türk mifi ilə bağlılığını da tamamilə təsdiq edir.

Nəticə olaraq qeyd edək ki, m.ö. IV-III minilliklərdə as, naxər, kas, kuti, lulubəy, turukku-türk, subər və digər prototürklərlə bərabər Tal tayfaları da tarix səhnəsində olmuş, minlərlə adda öz izlərini qoymuşlar. Naxçıvan ərazisindəki Tal türkləri ilə bağlı adların etimoloji izahları da elmi cəhətdən əhəmiyyətlidir.

Tilyak. Naxçıvanın Dərənurgut nahiyəsində 1590-cı ildə “Tilyak”, 1728-ci ildə “Tallaq” (4, s. 149, 180), 1828-1928-ci illərdə bu ərazidə “Gilək”, Tillək kimi qeydə alınan ad, tədqiqatlarda Lek tayfa adı, tila-“xəzinə”, “qızıl” sözləri ilə “Leklərə məxsus qızıl yer” kimi izah edilir (2, s. 198). Biz adın Tal tayfa adı, ak-“uca” sifətindən “Uca tallar” mənasında olduğuna əminik (9, s. 9;19, s. 371-372).

Tulud. Ad a≈u səsəvəzlənməsi ilə Tal tayfa adı, ud/at “cəmlik şəkilçisi” və “məkan” mənalı sözlə “Tal yurdu” mənasında izah olunur. Məntəqə 1727-ci ilin sənədlərində Naxçıvanın Azadciran nahiyəsində (16, s. 31), 1856-cı ildə l≈n sonor səslərin əvəzlənməsi ilə “Tunud”, 1934-37-ci ildə rus əlifbası ilə təhrif olunaraq “Tolsər” yazılışında qeydə alınır (19, s.172). “Məkan”, “cəmlik” bildirən -at sözü, Paralat, Tibet, Oriyat, Tanqut, Tuput (7, s. 136; 8, s. 56) tayfa adlarında da bu mənaları daşıyır.

Çatallar. Ada 1590-cı ildə Naxçıvanın Karni sonra, Aralıq, 1733-cü ildə isə Iğdir nahiyəsində Cutulu, Cudulu yazılışlarında rast gəlirik (4, s. 68, 171). Qədim Kuti qəbirləri aşkarlanmış, Çatal adlı məntəqə Türkiyənin Qaraman ərazisində də mövcuddur (Şəxsi müşahidə -F.R.). Tayfa adı və ça/sa-“urək”, “sən”, “ağıl, zəka” qədim türk sözləri ilə “Zəkalı tallar” mənasında izah olunan bu ada (7, s. 57; 9, s. 477) -larşəkilçisi sonralar əlavə edilmişdir.

Talin(2 ad). Naxçıvanın Xınzirək nahiyəsində nahiyə və kənd kimi qeydə alınan bu ad, 1590-cı ildə Talin, 1724-cü ildə isə Kiçik Talin kimi qeydə alınır (4, s. 47, 171). Sonra ada mənbələrdə rast gəlinmir. Məntəqə adı “Tal” tayfa adı və **-in/an** mənsubluq şəkilçisi ilə “Tallara məxsus” kənd mənasında izah olunur.

Tuluca. 1590-cı ildə Naxçıvanın Karni nahiyəsində a≈u səsəvəzlənməsi və (4, s. 164) **uca**-“seçilən” “kiçik koma”, “kiçik taya”, sözləri ilə qeydə alınan bu ad (3, s. 604;10, s. 267) “Seçilən, tallar” mənasında izah olunur. Təbii ki, addakı “uca” sözünün müasir “uca” sifəti ilə heç bir əlaqəsi yoxdur.

Tulus. Bu ad 1590-cı ildə Naxçıvanın Sisyan nahiyəsində

göstərilməklə (4, s. 171). 1747-1828-ci illərdə bu nahiyədə “Dulus” kimi yazılmışdır. Tal tayfa adı və us-“ağıl, zəka”, “müdrik” qədim türk sözü adı “Müdrik tal” kimi izah edir. M.Kaşğari sözlüyündə **us**-“susmaq”, “sanmaq” “kərkəz quşu”, “xeyir” (9, s. 699) mənalarını da daşıyır.

Tutal. Ad 1590-cı ildə a≈u səsəvəzlənməsi ilə “Tutul” kimi yazılışında Naxçıvanın İrəvan nahiyəsində göstərilir (4, s. 160). Tal tayfa adı və omonim xarakterli tu-“su”, “dağ”, “yaxşı” ,“tikmək”, “sahib olan” qədim türk sözləri ilə (3, s. 584;7, s. 82) ad “Sahibkar Tal” kimi izah olunur. M.Kaşğaridətu-“örtmək, bağlamaq” (9, s. 648), uyğur, özbək, qazaq dillərində “dağ” (6, s. 142-143), başqırdlarda tu-“su”, A.Kaulbarsın 1873-cü ilə aid xəritəsində isə tu/tau-“dağ” mənalarında da (19, s. 373-376) verilir.

Tal. Naxçıvanın Karbi nahiyəsində 1590-cı ildə “Kətxuda Tal” kimi insan yaşamayan məntəqə olaraq göstərilir (4, s. 162).MəntəqəTal tayfa adını daşıyır.

Talcan. Naxçıvanın Şürəgəl nahiyəsində 1728-ci ildə qeydə alınan bu ad (4, s. 124), **can/san**-“şan-şöhrət” sözü ilə “Şanlı tal” mənasında izah olunur.

Telsin. Ad 1724-cü ildə Naxçıvanın Dərələyəz nahiyəsində göstərilir (16, s. 34). Qədim şumerlərdə Sin və Nanna adları ilə Sin-Zuən “Günəş və Ay allahı” var idi, o, şumerlərdə Kutu günəş allahını təmsil edirdi. Sonralar bu adı “Sin” kimi akkadlara adlamış, abxazlarda isə Saun “ruzi bərəkət” Allahı olmuşdur M.Kaşğaridə sin-“sayılmaq, sanmaq”, qədim Kas türklərində isə san y≈s səsəvəzlənməsi ilə yanq-“şanlı, öndə duran” mənasını daşımışdır (19, s. 376). Biz adın Sin tanrı adından “Sin talları” mənasında teofor ad olduğunu düşünürük.

Beləliklə adlardakı əski dövr tu/ti-“su”, “tikmək”, ak-“uca”, us-“ağıl, zəka”, sa-“sən”, san-“şanlı, öncül” sözləri və Sin tanrı adı, -in/an mənsubluq, -ud/at-“cəmlik” şəkilçiləri də Tal türklərinin m.ö. IV-III minilliklər Naxçıvan ərazisində yaşamaqla bu ərazi məntəqə adlarında da öz izlərini qoyduğunu tam təsdiq edir.

ƏDƏBİYYAT

1. Azərbaycan SSR-nin qısa toponimlər lüğəti. Bakı: ASE Baş redaksiyası. 1986, 114 s.

2. Bağırov A.N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.

3. Дрвнетюркскийсловрь. Ленинград:Наука.1969, 676 с.

4. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.

5. Fuzuli Bayat. Türk dili tarihi. Ankara:Genc,Ofset, 2003, 209 s.

6. Karşılaştırmalı Türk LehceleriSözlüğü I cild, Ankara: KültürBakanlığı, 1992, 1183 s.

7. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.

8. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.

9. Mahmud Kaşğari. Divanülüğat-it-türk. Dizini "ENDEKS", Ankara: Basımevi, 1985, 887 s.
10. Mahmud Kaşğari. Divanülüğat-it-türk. I c., Ankara: TürkTarihKurumuBasımevi, 1985, 530 s.
11. Mahmud Kaşğari. Divanülüğat-it-türk. II c., Ankara: TürkTarihKurumuBasımevi, 1985, 366 s.
12. Малый атлас мира. Москва: Картография ГУГК, 1985, 331 с.
13. Мифы Древней Греции. Мифологический словарь. Москва: Изд. Falcson-Technology, 2004,
1000 с.
14. Моллазаде С.М. Топонимия северных районов Азербайджана. Баку: Маариф, 1979, 206 с.
15. Мурзаев Е.М. Словарь народных географических терминов. Москва:Наука, 1985, 606 с.
16. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
17. ОсмоновО.Дж. История Кыргызстана (с древнейших времен до наших дней): Учебник
для вузов. Бишкек: Раритет- Инфо, 2008, 606 с.
18. Rəcəbov Ə.Ə., Məmmədov Y.İ. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.
19. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər). Bakı:
ADPU nəşriyyatı.528 s.
20. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
21. Seyidov M.M. Azərbaycan mifik təfəkküründün qaynaqları Bakı: Yazıçı, 1983, 326 s.
22. Советский союзГрузия. Москва: Мысль, 1967, 318 с.
23. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А.Стратановского.Москва:
Наука,1964, 941 с.
24. Tarih.Ic. Ankara: TürkTarihiKurumuBasımevi, 1993, 205 s.
25. Всемирнаяистория. Т. I, Москва: Госиздат,1956, 746 с.
26. Шакарим Кудайберды-улы. Родословная тюрков, киргизов, казахов и ханских династий /
Пер.Б.Каирбекова, Алма-Ата: Жазушы, 1990, 118 с.
27. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif, 1967, 420 s.
28. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.

РЕЗЮМЕ

ФИРУДИН РЗАЕВ

ЭТНООЙКОНИМЫ, СВЯЗАННЫЕ С НАЗВАНИЕМ ПЛЕМЕН ТАЛ, ЖИВУЩИВ В НАХЧЫВАНЕ ДО НАШЕЙ ЭРЫ

Статья посвящена этноойконимам до н.э. связанные с прототюркским племенем Тал. Эта тема, связанная с Нахчываном, до сих пор не были исследованы учеными. Языковые единицы в ойконимах, носившие, имени этих прототюрков сопоставлены разными словарями и источниками. По этому направлению были исследованы и сопоставлены языковые элементы на основе древних летописей. При сопоставлении слова в летописях с древнетюркскими словами выявлены много научных результатов. Обнаруженные языковые элементы в Нахчыванских ойконимах, дописьменного периода при лингвистическом анализе повторялись и в античных летописях. Путём всестороннего анализа исторических материалов и языковых элементов выявлено, что ойконимы наименованы с именами этих племен. А прототюркиТал на основе античных сведений жили на древней Нахчыванской земле, в стране Нахарин-еще с IV тысячелетия до н. э.

Ключевые слова: тысячелетии до н.э., этноойконимы, Тал, языковые элементы.

SUMMARY

FIRUDIN RZAYEV

THE ETHNOOYKONYMS RELATED WITH THE NAMES OF TAL TRIBES LIVED IN NAKHCHIVAN BEFORE CENTURY

The article deal swith the ethnooykonyms related with the names of Tal turuks tribeslived in Nakhchivan B.C.This topich asneverbeenin vestigated by the scientists till nowadays. The language elements existinth ese prototurk oykonym shave comparative investigated with different dictionaries and sources. The comparative investigation of the ancient turkic words existin the sewriting swith the words reflected in the se oykonyms give opportunity tocarry outsomenew scientifec results. During the linguisticin vestigation weseeth attheancient language element sexistinthe oykonyms of Nakhchivan are repeate dinancient writings. During the detail edinvestigation of historical materials it isclearthatthe oykonyms have been formed fromth esetribenames. According tothe ancient sources the prototurks Tal were live dinthe territories of Nakhchivan-Nakhar countryin the IV millenniums B.C.

Key words: millenniums B.C., ethnooykonyms, Tal, language elements

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

NURİDƏ QƏNBƏROVA
Naxçıvan Dövlət Universiteti
qenberovan@gmail.com

AZƏRBAYCAN TƏNQİDİ REALİZMİ MƏMMƏD CƏFƏR TƏDQİQATLARINDA

Məqalədə Azərbaycan tənqidi realizminin tədqiqi məsələlərindən, həmçinin Məmməd Cəfər Cəfərovun Azərbaycan tənqidi realizminin tədqiqi istiqamətindəki fəaliyyətindən ətraflı şəkildə bəhs olunur. Həmçinin Məmməd Cəfər Cəfərovun tədqiqatlarında tənqidi realizm ədəbi cərəyanının öyrənilməsi, bu ədəbi cərəyana məxsus sənətkarların yaradıcılığında əksi məsələləri barədə mülahizələrinə də münasibət bildirilmişdir.

Açar sözlər: M.Cəfər, tənqidi realizm, ədəbi yaradıcılıq, ədəbi məktəb, C.Məmmədquluzadə

Məmməd Cəfər Azərbaycan ədəbiyyatında bütün dövrlərin mükəmməl tədqiqatçısı olmaqla yanaşı, ədəbiyyatın bütün sahələrinə obyektiv yanaşmış, uğurlu elmi qənaətləri ilə ədəbi-tarixi yaddaşda özünəməxsus yer qazanmışdır. Ədbiyyatımızda əks olunmuş Azərbaycan reallığının ortaya qoyulmasında akademikin mütərəqqi xidməti olmuşdur. O, ədəbiyyatımızda təsvir edilən Azərbaycan reallığını təhlil edərək bunu ədəbiyyatşünalığımıza daşıya bildi. XIX-XX əsr Azərbaycan ictimai reallığını açıq-aydın şəkildə, öz eybəcərliyi ilə ortaya qoymağı bacardı.

Məmməd Cəfər müəllim realist ədəbiyyatla romantik ədəbiyyatı araşdırarkən onların arasındakı ən mühüm fərqi belə aydınlaşdırmışdır:

“Realizmdə tip, xarakter özü hərəkət edən, özü müstəqil düşünən varlıqdır. Hadisələr də onun kimi, öz real qanunauyğunluqları ilə cərəyan edən hadisədir” (1, s. 147).

Məmməd Cəfər müəllimin nöqteyi-nəzərinə bir az da aydınlıq gətirsək, deyə bilərik ki, realist üslubda yazıçının məqsədi daha nəqd və qısa zaman kəsiyi naminədir. Burada reallıq tələbi problem olaraq gündəmə gətirilir. Bunsuz addım atmaq mümkünsüzdür. Burada xəstə yeməsə, ölməlidir problemi gəl-gəl deyir.

Beləliklə, Məmməd Cəfər müəllim romantizm ilə realizmin təsir gücündən bəhs edərkən haqlı olaraq göstərmişdir ki, “realizmdə ideya daha güclü, daha sabit və daha aydındır” (1, s. 148).

Azərbaycan realizminə tarixi konteksden yanaşan Məmməd Cəfər Cəfərov böyük dramaturq Mirzə Fətəli Axundov ədəbi təsirinin realizmin meydana çıxmasında böyük gücü olduğunu göstərir. O, bunu aşağıdakı kimi qiymətləndirir: “Mirzə Fətəli yaradıcılığı bizim ondan sonrakı realist ədəbiyyatımızın

manifestidir. Bizim Cəlil Məmmədquluzadə, Haqverdiyev, Vəzirov kimi ədiblərimizin hamısı Mirzə Fətəlinin fəlsəfi məktublarından yaranmışdır” (2).

“Əgər ədəbiyyatımıza, M.F.Axundovla başlayan tənqidi realist ədəbi cərəyana diqqətlə nəzər salsaq görərik ki, bu ədəbiyyatda demokratik ideyalara, hər şeydən əvvəl, geridə qalmış vətəndaşı sevmək onu yenidən tərbiyə etmək məqsədilə tənqid etmək yolu ilə gəlmişdir”. Bu realizm “sözün geniş mənasında xalqı yenidən tərbiyə etmək təşəbbüsü idi”, zamanın ən böyük inqilabi tədbirlərindən biri idi (4, s. 66).

Qeyd edək ki, çox keçmədən, yəni 1940-cı illərdən başlayaraq Məmmədcəfər Cəfərov Azərbaycan ədəbiyyatında realizm cərəyanının hərtərəfli tədqiqinə başlamış oldu. Və demək olar ki, başlamış olduğu işi də müəyyən zaman kəsimində sona çatdıra bildi. Belə ki, “ədəbiyyatşünas-alim Azərbaycan ədəbiyyatında realizmə gətirib çıxaran yolların mahiyyətini açmaqla yanaşı, bir ədəbi metod kimi realizmin üstünlüyündən bəhs edərək, onun ayrı-ayrı mərhələlərinin daxili orijinal keyfiyyətlərini müəyyənləşdirmişdir (3, s. 158).

Bəzən tənqidçilər tərəfindən belə fikirlər səslənir ki, Məmməd Cəfər o dövrün sosialist realizmindən uzaqlaşa bilməmişdi. Ancaq qeyd etmək yerinə düşərdi ki, “Sosialist realizmi ilə əlaqədar bir çox məsələlərə bugünkü baxış dünənkindən fərqlənir. M.Cəfər tənqidinə də, təbii ki, tarixi baxımdan yanaşmaq lazımdır. Çünki yaşadıqları cəmiyyətin xoş gələcəyinə şübhə etmirdilər. Amma bununla bərabər, namuslu tənqidçilər yuxarıdan gəlmə hazır tələblərə uyğunlaşmaq yolu da tutmurdular” (3, s. 123).

Məmməd Cəfərin araşdırmaları reallıqla bağlı olduğundan və Azərbaycan reallığını olduğu kimi göstərdiyindəndir ki, onun qələmindən çıxan hər söz, hər cümlə, hər məqalə bütün dövrlərdə ədəbiyyatşünasların bayrağına, silahına çevrilə bildi. Bunun nəticəsidir ki, bəzən ədəbiyyatşünaslar onu “reallığı olduğu kimi göstərməyi bacaran” ədəbiyyatşünas adlandırmışlar. Ona görə ki, XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycanda meydana çıxan tənqidi realizm və onun nümayəndələri haqqında da məhz ilk dəfə Məmməd Cəfər araşdırmalar aparmağa başlamışdır.

Nədən yazıb-yazmaması sənətkarın öz işidir, bu, fərdi üslubla bağlı məsələdir. Əsas məsələ yazılanın doğru olub-olmamasıdır. Məmməd Cəfərin ən böyük üstünlüyü isə onda idi ki, o nəyi araşdırmağı qarşısına məqsəd qoyurdusa buna əzab-əziyyətlə, min bir zəhmət bahasına olsa da nail olurdu. Ancaq qeyd edək ki, akademikin araşdırmaları bir daha sübut etdi ki, o, əsl vətənpərvərdir. Belə ki, hansı dövrdə olursa olsun və necə yazılıbsa bunu məhz oxucuya doğru şəkildə tənqidçilərdən qorxmadan təqdim etmək üçün, əsl ziyalı və əsl vətənpərvər olmaq gərəkirdi. Elə buna görə də Məmməd Cəfərin Azərbaycan tənqidi realizmini araşdırmağa başlaması və bu sahədəki tədqiqatları tezliklə ədəbiyyatşünaslıqda böyük səs-küy qopardı. Səbəbsə çox sadə idi: Klassik realistlərin yaradıcılığında həyatın canlı təsvirini olduğu kimi – eybəcərliyi və mənfilikləri ilə birgə təqdim etmək. Bunlarsa təbii ki, o dövrdə tənqidçilərdə qıcıq yaratmaya bilməzdi. Ona görə də bəzən Məmməd Cəfəri

daha çox mənfiliklərdən yazan adlandırırdılar. Bu məsələyə gəlincə, fikrimizcə M.Cəfərin aşağıdakı sözlərini xatırlatmaq yerinə düşər:

"Bəzən belə sözlər eşidirsən ki, guya Cəlil Məmmədquluzadə mənsub olduğu cəmiyyətin daha çox nöqsanlarından yazmaqla… müsbət cəhətlərə az fikir vermişdir. Belə düşünənlər çox şeyi unudurlar, onu da unudurlar ki, axı ədibin ən böyük məqsədlərindən biri zəhmətkeş xalqı bədii ədəbiyyatın köməyi ilə yenidən tərbiyə etmək, həm də mübariz, üsyankar ruhda tərbiyə etmək idi. Belə olduğu halda… dostunu, düşmənini yaxşı tanımayan, zülmə hədsiz dözümlülük göstərən Novruzəliləri onların yazıçısı olan Cəlil Məmmədquluzadə necə tənqid etməyə bilərdi?" Novruzəliləri tənqid etməyə (daha doğrusu, Novruzəlilərin miskinliyini təsvir etməyə) M.Cəlilin ərki və haqqı çatırdı. Ona görə ki, "Azərbaycanın böyük siyasi xadimi" (M.Cəfərin ifadəsidir) öncə Novruzəlilərin düşmənlərinə qarşı çıxırdı. M.Cəlil heç də bir para "millət qəhrəmanları" kimi xalqı zillətə salan mürtəce siyasi rejimə mədhiyyələr oxumurdu. Əksinə, xalqın miskin hala düşməsinin başlıca səbəblərindən birini siyasi müstəqilliyin olmamasında görürdü (3, s. 125).

Akademikin 1940-cı ildən başlayaraq Azərbaycan ədəbiyyatında klassik realizmlə bağlı apardığı araşdırmalar, klassik realizmin nümayəndələri haqqında yazdığı məqalələrlə kifayətlənmir. O, klassik realizmin nümayəndələrindən Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov kimi ədiblər haqqında ətraflı məlumatlar vermişdir. Belə ki, "İctimai fikir tarixində məslək və ideya qardaşları kimi tanınmış Mirzə Cəlil və Sabirə həsr edilmiş əsərlər görkəmli alimin ciddi axtarışlarının məhsuludur. Bu əsərlərdə hər iki ədibin mənalı həyat yolu ilə yanaşı bədii irsi də ayrı-ayrı nəzəri problemlər baxımından təhlil edilmiş, onların çoxcəhətli yaradıcılıqlarındakı sənətkarlıq məsələlərinin mövzu dairəsi və ideyalar aləminin də elmi-nəzəri dəyəri müəyyənləşdirilmişdir" (3).

Qeyd edək ki, "Hünərvər şair" məqaləsinin əsas mövzusu Sabirin vətəndaşlığıdır. Tənqidçi şairin yaradıcılığına bütövlükdə nəzər salır, onun mövzu və motivləri, Sabir realizminin səciyyəvi qanunauyğunluqları üzərində maraqlı müşahidələr aparmış və ümumiləşmiş nəticələrə gəlmişdir. Sabir poeziyasının beynəlmiləlçilik və inqilabilik keyfiyyətləri üzərində, onun zəmini və mənbəyi üzərində yeni və maraqlı müşahidələr məqalədə diqqəti cəlb edir. Müəllif göstərir ki, Sabir böyük maarifçi idi, lakin onun maarifçiliyi inqilabçılığı üçün bir vasitə idi. Bu poeziyada din də inqilabi hərəkata qarşı bir maneə və əngəl olmaq mənasında tənqid edilirdi. Burada qadın hüquqsuzluğu mövzusu da ictimai azadlıq hərəkatı ilə, inqilabi mövzu ilə bilavasitə bağlanır. Şübhəsiz, qadın öz hüququ uğrunda mübarizədə həmişə, ənənəvi şəkildə deyildiyi kimi, passiv deyildi. Sabir bu "passivlikdə" başqa bir məzmun və məna görürdü. O, görürdü ki, bu mübarizə "sözün müasir mənasında qadın hərəkatı", "qadın azadlığı uğrunda mütəşəkkil mübarizə hərəkatı" şəklini ala bilmişdir… İş aynalı tüfəng, beşaçılan məqamına gələndə Azərbaycan qızı aslana dönürdü; Məfkurə mübarizəsi, mənəvi hüquq mübarizəsi məqamına gələndə isə boynunu çiyninə

qoyur, qolları sustalır, başını aşağı dikir, düşmənlə nə dildə danışacağını bilmirdi”.

Məqalədə Sabir satirasının nikbinliyi, inqilabi təsdiq pafosu doğru müşahidə edilir; şair mənfi tipləri danışdırır, mənfilər isə zamanın dəyişən, yenidən doğulan, inqilabiləşən mənzərəsini özləri öz dilləri ilə təsvir edirdilər. Burada yeni ilə köhnə, kəndli ilə bəy, Zilli-Sultan ilə onu ittiham edən xalq həmişə bir yerdə, vəhdətdə görünür.

Canlı elmi-publisist təhlil N.Nərimanovun yaradıcılığına həsr olunan məqalə üçün də səciyyəvidir. Müəllif Nərimanovun bədii, elmi və fəlsəfi əsərlərinə, mühazirə və nitqlərinə, siyasi-publisist yazılarına istinad edərək, onu Azərbaycan ədəbiyyat tarixində realist bir dramaturq, nasir, tənqidçi, pedaqoq və jurnalist kimi oxucuya təqdim edirdi. Onu Şərqdə inqilabi ideyalarını yorulmaz təbliğatçısı, Azərbaycan inqilabi-demokratik ədəbiyyatın məşhur simalarından biri kimi qiymətləndirirdi. Məqalədə ədibin bədii irsinin fərqli xüsusiyyətləri, vətənpərvərliyi və humanizminin mahiyyəti, nəzəri fikirlərindəki təkamülün tədricən inkişaf edərək estetik prinsiplərlə qovuşması izlənilirdi. Tənqidçi Nərimanov realizmindəki xəlqilikləri, vətəndaşlıq pafosundan bəhs edərək göstərirdi ki, ədəbiyyatın ideallığı Nərimanovun estetik görüşlərinin əsasında dayanır. Lakin o, inqilabi sənət nəzəriyyəsinin mühüm prinsiplərini yerli ədəbi şəraitlə, milli spesifika ilə də əlaqələndirə bilirdi.

Ədibin yaradıcılığının əhəmiyyətini mövcud ictimai həyatı necə, nə dərəcədə doğru göstərməsi ilə qiymətləndirilən “Bahadır və Sona”nı sadəcə bir məhəbbət romanı kimi deyil, ibrətli bir ictimai roman kimi qiymətləndirir və təhlil edirdi, onun müvəffəqiyyətlərinin sirrini çox doğru olaraq buradakı tiplərin hamısının dərin ictimai məzmunla zəngin olmasında görürdü (5, s. 67).

XIX əsrin sonları və XX əsrin ilk illərində Azərbaycan ədəbiyyatını Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Zeynalabdin Marağalı, Əbdürrəhim Talıbov və başqa görkəmli maarifpərvər ziyalılar təmsil etmişlər. Digər tərəfdən, Cəlil Məmmədquluzadənin “Çay dəsgahı”, “Kişmiş oyunu”, “Danabaş kəndinin məktəbi”, “Danabaş kəndinin əhvalatları”, “Poçt qutusu” kimi əsərləri də eyni tarixi dövrdə qələmə alınmışdır. Bütün bu faktları yada salan Məmməd Cəfər Mirzə Cəlil yaradıcılığını məxsusi fərqləndirərək yazmışdır: “Cəlil Məmmədquluzadə görkəmli müasirləri içərisində sənəti, fərdi üslubu, yazı manerası, nadir istedadlı satirik olması ilə, digər tərəfdən, mövcud ictimai quruluşa, feodal-patriarxal həyat tərzinə və köhnəlmiş etiqadlara qarşı daha amansız olması ilə fərqlənirdi. Onun əsərlərində hər cür sünilikdən, qondarmaçılıqdan uzaq, yüksək tərbiyəvi əhəmiyyəti olan gülüş dövrün ədəbiyyatında, bədii təfəkküründə fövqəladə orijinal bir ədəbi hadisə idi” (6, s. 268).

Görkəmli tənqidçi keçən əsrin 40-cı illərinin əvvəllərindən böyük ustad Cəlil Məmmədquluzadənin yaradıcılığı ilə ayrıca maraqlanmağa başlamışdır. Bu mövzuda onun ilk məqaləsi- ədibin ölümünün 10 illiyi münasibətilə yazdığı “Azərbaycanın böyük satirik xadimi” “Vətən uğrunda” jurnalının 1942- ci il birinci sayında çap olunmuşdur. Bu məqalə yenilik ruhu ilə diqqəti cəlb

etmişdir. Ədibin ölümünün 15, 20, 25 illiyi münasibətilə də onun məqalələri mətbuatda çap edilmişdir.

Yüksək elmi səviyyədə yazılmış əsərləri ilə Azərbaycan ədəbi-estetik fikrinə yeni-yeni uğurlar qazandıran ədəbiyyatşünas alim Məmməd Cəfər eyni zamanda mirzəcəlilşünaslıqda xüsusi məqama malik zəka sahiblərindən olmuşdur. Ümumiyyətlə, XX əsr Azərbaycan ədəbiyyatşünaslığının zənginləşdirilməsi baxımından alimin "Cəlil Məmmədquluzadə" əsəri ayrıca təhlil olunmalı, dəyərləndirilməlidir. "İlk dəfə 1966-cı ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən kitab halında çap edilən bu əsər Azərbaycan ədəbiyyatında tənqidi realizm və "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi kimi şöhrətlənmiş Cəlil Məmmədquluzadə haqqında ədəbiyyatşünaslıq elmimizdə meydana çıxmış ən sanballı elmi əsərlərdən biridir" (7, s. 408). Doğrudur, akademik Məmməd Cəfərə qədər də Cəlil Məmmədquluzadənin həyatı, sənət yolu, jurnalistlik fəaliyyəti dönə-dönə tədqiqat obyektinə çevrilmişdir. Lakin digər klassiklərə münasibətində olduğu kimi, Mirzə Cəlil dünyasına baxışında da Məmməd Cəfər özünəməxsus elmi mövqe nümayiş etdirmiş, irəli sürdüyü müddəaların obyektivliyinə, ideoloji təsirlərdən uzaq olmasına ciddi cəhdlə yanaşmışdır. Bunun nəticəsidir ki, alimin "Cəlil Məmmədquluzadə" əsəri çağdaş estetik-nəzəri təfəkkürün tələblərinə belə cavab verməkdədir. Bununla da Məmməd Cəfər elə ilk öncədən Mirzə Cəlil irsinə münasibətdə sosialist realizminin "qiymətləndirmə" prinsiplərindən azad olduğunu təsdiqləmiş, böyük demokratın yaradıcılığını məhz dünya ədəbiyyatının mütərəqqi hadisəsi kimi qiymətləndirmişdir. Əslində artıq bu, mirzəcəlilşünaslıqda yeni istiqamətin yüksələn xətlə inkişafı demək idi (7, s. 144).

"Cəlil Məmmədquluzadə" əsərində ilk növbədə diqqəti cəlb edən təhlillərin özünəməxsus struktur daxilində təqdimidir. Məmməd Cəfərin bu əsəri dörd bölmədən ibarətdir. Maraqlıdır ki, bölmələrdə başlıq yoxdur. Daha doğrusu, sanki başlıqları Mirzə Cəlilin yaradıcılığından seçilmiş epiqraflar əvəzləyir. Fikrimizcə, elmi təhlillərin belə bir kompozisiya ilə təqdimi də müəllif məramına xidmət etmişdir. Başqa sözlə, Məmməd Cəfər bu üsulla demək istəmişdir ki, Cəlil Məmmədquluzadənin ömür və sənət yoluna dair elmi təhlillər zamanı istinad ediləcək ən birinci mənbə elə Mirzə Cəlilin öz yaradıcılığıdır. Faktdır ki, alim elmi müddəalarının təqdimi üçün ənənəvi şəkildə qərb marksistlərinin nəzəri fikirlərinə əsaslanmamışdır. Ümumiyyətlə, Məmməd Cəfərin "Cəlil Məmmədquluzadə" əsərində kənar müəllif olaraq yalnız Seyid Cəfər Pişəvərinin bir cümləsinə rast gəlmək mümkündür (7, s. 143).

"Cəlil Məmmədquluzadə" əsərinin "Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir… Bu ola gərək hər bir qələm sahibinin amalı!" epiqrafı ilə başlayan birinci bölməsində əvvəlcə ümumi şəkildə Mirzə Cəlil sənətinin məram və məqsədi diqqətə çəkilir, əhatə etdiyi mövzuların coğrafi hüdudları nəzərə alınmaqla "Molla Nəsrəddin" jurnalına qiymət verilir, Mirzə Cəlilə məxsus ilk qələm təcrübələrinin yığcam təhlili aparılır. O da var ki, əsərdə Cəlil Məmmədquluzadə ilə bağlı qələmə alınmış müəyyən tərcümeyi-hal faktları, o cümlədən ədibin təvəllüd ili (1869), "Çay dəstgahı"

birpərdəli alleqorik pyesinin yazılma tarixi (1889) və janrı artıq çağdaş mirzəcəlilşünaslıq tərəfindən dəqiqləşdirilmişdir (19, s. 28).

ƏDƏBİYYAT

1. Cəfər M. Seçilmiş əsərləri. 3 cilddə. II c., Bakı: Çinar-çap nəşriyyatı. 2003, 281 s.
2. Cəfər M. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973.
3. Məmməd Cəfər: taleyi və sənəti, Bakı: Elm və Təhsil, 2009, 208 s.
4. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif. 1978, 200 s.
5. Əzizova N. Romantizm - Akademik Məmməd Cəfərin tədqiqatları əsasında. Bakı: Borçalı, 2007, 110 s.
6. 19. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997.

7. Həbibbəyli İ. Məmməd Cəfər elmi məktəbi/ Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 694 s.

РЕЗЮМЕ

НУРИДА ГАНБАРОВА

АЗЕРБАЙДЖАНСКИЙ КРИТИЧЕСКИЙ РЕАЛИЗМ В ИССЛЕДОВАНИЯХ МАМЕДА ДЖАФАРА

В статье рассматривается изучение критического турецкого реализма, а также деятельность Мамеда Джафара Джафарова в исследовании критического турецкого языка. Также были высказаны взгляды Мамеда Джафара Джафарова на изучение литературного реализма критического реализма, его взгляды на противоречия в творчестве этих литературных направлений.

Ключевые слова: М. Джафар, критический реализм, литературное творчество, литературная школа, К. Маммадгулузаде

SUMMARY

NURIDA GANBAROVA

AZERBAIJAN'S REVOLUTIONAL REALISM IN THE RESEARCH OF MAMMAD JAFAR

The article deals with the study of critical Turkish tealism, as well as the activities of Mammad Jafar Jafarov in the study of critical Turkishism. Also, Mammad Jafar Jafarov's views on the study of the literary realism of critical realism, his views on the contradictions in the creativity of these literary trends were expressed.

Key words: M.Jafar, critical realism, literary creativity, literary school, C.Mammadguluzade

(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

NAZİRƏ ƏSGƏROVA
AMEA Naxçıvan Bölməsi
naziraasgerova@yahoo.com

MƏİŞƏT NAĞILLARININ SÜJET XƏTTİNDƏ QADINLARIN YERİ

Məqalədə məişət nağıllarının süjet xəttində qadınların yeri araşdırılmışdır. Bu nağıllarda qadınlar gah padşaha öz ağlı və fərəsati ilə qalib gələn kəndlinin kiçik qızı, gah padşahı düşmən əsirliyindən qurtaran həyat yoldaşıdır. Qadınlar bəzən düşmən ordusuna qalib gələn , həm də əhalini düşməndən xilas edən padşahın yeganə qızı kimi çıxış edir. Məqalədə qadınların öz ağlı və qorxmazlığı sayəsində arzularına çatması, mənəvi keyfiyyətləri ilə haqqın nahaqq üzərində qələbəsinə nail olması göstərilmişdir.

Açar sözlər: nağıl, ailə, qadın, poetika, obraz.

Azərbaycan xalq yaradıcılığı nümunələri içərisində nağılların xüsusi yeri vardır. Bu nümunələr içərisində nağıllar “ən sevimli” janrdır desək, yanılmarıq. Çünki bu janra məxsus nümunələr istər yenicə dərk etməyə başlayan körpəyə, istər həyatın ağuşuna müstəqil atılmağa tələsən yeniyetməyə, istərsə də dünyagörmüş ahıl insana mənəvi zövq vermək baxımından xüsusi qiymət kəsb edirlər.

Azərbaycan nağılları içərisində ailə-məişət nağılları digər nağıllarla müqayisədə daha çoxdur. Folklorşünas Füzuli Bayat bu haqda belə yazır: “Məişət nağılları söyləndiyi çağın normalarını, adət-ənənələrini, görənəklərini yansıdır. Nağılların müasir durumuna baxaraq onlardan bəzilərini daha əskidən, bəzilərini isə daha sonradan yarandığını demək təbii ki, doğru deyildir. Azərbaycan folklorşünaslığında məişət nağıllarının heyvanlar haqqında və sehrli nağıllardan sonra yarandığı haqqında fikirlər qeyri-ciddidir” (4, 126). Bu nağıllarda əsas obrazlar, qəhrəmanlar, adətən, bacarıqlı, fərasətli və ağıllı olurlar. Onlar öz ağlı və qorxmazlığı sayəsində arzularına çatır, mənəvi keyfiyyətləri ilə haqqın nahaqq üzərində qələbəsinə nail olurlar.

Bu obrazlar içərisində çox vaxt qadın qəhrəmanlarla da qarşılaşırıq. Belə ki, qadınlar bu nağıl mətnlərində gah padşaha öz ağlı və fərasəti ilə qalib gələn kəndlinin kiçik qızı, gah padşahı düşmən əsirliyindən qurtaran həyat yoldaşı, gah da düşmən ordusuna qalib gələrək həm öz atasını, həm də əhalini təcavüzə məruz qalmaqdan xilas edən padşahın yeganə qızı kimi çıxış edirlər. Ümumiyyətlə, hər nağıldakı ideya haqqın nahaqq üzərində, xeyrin şər üzərində qələbəsindən ibarətdir. Bu qələbənin təmin olmasında çox vaxt qadınlar fəal iştirak edir, öz cəsur xarekterləri ilə heç də canlı-cüssəli igid pəhləvanlardan geri qalmırlar, “aslanın erkəyi-dişisi olmaz” ideyasını özlərinə şüar edərək

qəhrəmanlıq nümayiş etdirirlər. Aşağıda biz bu barədə daha geniş söhbət açmağa çalışacağıq.

Bir sıra məişət nağıllarında qadınların kişilərlə döyüş meydanlarında onları sınağa çəkməsi, bəzilərində qızın sevgisini qazanmaq üçün onun müəmmalı suallarına oğlanın cavab verməyə çalışması sübut edir ki, qədim türklərdə ailə qurmaq məqamında oğlan və qızlar sərbəst olmuşlar. Bu məqamla biz sonrakı dövrlərdə yaranmış “Kitabi - Dədə Qorqud” da da qarşılaşırıq. Prof. Q Qədirzadənin vaxtilə verdiyi açıqlaması burada yerinə düşərdi: “Bu baxımdan Beyrəklə Banıçiçəyin sınaşması daha çox diqqəti cəlb edir. Beyrək tanımasa da, Banuçiçək onu tanıyır. At çapırlar. Beyrəyin atı keçir, ox atırlar, Beyrək qalib çıxır” (8, 17). Ox atmaqda Banuçiçəyə qalib gələn Beyrək güləşdə də ona qalib gəlir. Ancaq bundan sonra Banıçiçək Beyrəklə nişanlanır. Bu məqam bir çox məişət nağıllarında da izlənməkdədir.

Bildiyimiz kimi, şifahi ədəbiyyat hər zaman yazılı ədəbiyyatın qaynağı olmuşdur. Nağıllar da şifahi ədəbiyyat nümunəsi kimi bu barədə çox fəaldır. Eyni zamanda, nağıllara başqa şifahi ədəbiyyat nümunəsi daxilində və ya əksinə, nağıl içərisində başqa xalq yaradıcılığı nümunəsinə təsadüf etmək mümkündür. Məişət nağılları bu baxımdan daha çox diqqəti cəlb etməkdədir.

Bir çox nağıllardan aydın olur ki, bir şah digəri ilə müharibəyə başlamazdan əvvəl ona bir neçə tapmaca göndərər, qarşı tərəf bunlara cavab tapa bilmədikdə müharibəyə başlamaq üçün onun əlində əsas olarmış (5, s .24).

Çox vaxt belə nağıllarda verilmiş müəmmalı sualların, tapmacaların cavablarını qadınlar açır. Folklorşünas O.Əliyev “Şahla qız” nağılından misal gətirərək yazır ki: “ Şah kəbin kəsdirdiyi qızı çox çətin sınağa çəkir, həlledilməz sual-tapmaca ilə onu çətin vəziyyətə salır. Sövdəgər qızı ağıl və fərasəti ilə bu sınaqdan çıxır, şahın özünü heyran qoyur, sual-tapmacanın cavabını tapır, bununla da şaha üstün gəlir. .Nağılda tapmacanın işlədilməsi təsadüfi deyil. Nağıldakı bu tapmacaların mənşəyi uzaq keçmişə gedir, qədim adətlə - nişanlının ağlının, bacarığının sınağı ilə bağlanır” (6, 27).

Bir çox nağıllarda qadınlara məxsus geyim adəti də öz əksini qoruyub saxlamaqdadır. Məsələn, qadınlarda yaşınma adəti ilə bağlı bir sıra xalq yaradıcılığı nümunələrindən maraqlı məlumatlar əldə etmək olar. Bu adət, yəni Azərbaycan qadınlarının məhrəm olmayandan yaşınması adəti bəzi nağıl mətnlərində görünməkdədir. Belə nağıllarda qadınlar üzlərini gizlədərlər ki, naməhrəm görməsin. Bəzən isə padşahların təkidi ilə üzdəki niqabı açmalı olurlar: “Cəlladlar ipi hazır edib, saldılar Nardan xanımın boğazına, Nardan xanım tez niqabı üzündən götürüb üzünü padşaha göstərdi...” (2, 157).Yaşınma adəti ilə bağlı Prof. Q.Qədirzadə də N.Gəncəvinin “İsgəndərnamə” əsərindən maraqlı nümunələr göstərib:

Üzünü gizlətmək xoşdur qadına
Qadın ki yadlara açar üzünü
Nə əri düşünər, nə də özünü.
Bərklikdə ansa da daşı, poladı,
Yenə də qadının qadındır adı (7 , s. 119).

Əvvəldə qeyd etdiyimiz kimi, xalq yaradıcılığı nümunələrinin bəzilərində digər xalq yaradıcılığına məxsus nümunələrə təsadüf etmək mümkündür. Öz yığcam tutumu ilə böyük məna kəsb edən atalar sözlərinə də çox vaxt nağıl mətnlərində rast gəlinir. Böyük-böyük işlərin həllində ağır yükü öz zərif çiyinlərinə götürərək onun öhdəsindən məharətlə gələn qadınların cəsarəti çox vaxt bu atalar sözü ilə xarakterizə olunur "Aslanın erkəyi, dişisi olmaz". "Tulampaçı Əhmədin nağılı"nda (3, 147) bu kəlamın işlənməsi fikrimizi təsdiqləyir. Qızları ilə oturub söhbət edən padşah böyük qızına sual edir ki, aslanın erkəyi yaxşıdı, yoxsa dişisi. Qız da cavab verir ki, aslanın dişisi erkəyindən yaxşıdır. Qəzəblənən şah qızının boynunun vurulması əmrini versə də, vəzirin məsləhəti ilə qız ölkədən qovulur. Əhməd adlı çox kasıb oğlana ərə gedən qız öz ağıl və fərasəti ilə Əhmədin tacir olması üçün səy göstərir. Nəticədə çox varlanan Əhməd səfərdən qayıdarkən köhnə daxmasının yerində öyük bir imarət görür. Bütün uğurlarına arvadının ağlı və fərasəti ilə çatır. Padşah da sonda böyük qızının bu ağlına heyran qalaraq "Aslanın erkəyi-dişisi olmaz" məsəlini təsdiqləyir. Folklorşünas R.Əliyev nağıl mətnlərində qadının müxtəlif işlərdə kişilərə tay gələ biləcək hünərə malik olmasını ifadə edən maraqlı faktı ön plana çəkir: "Ata qızlardan soruşur ki, evi kişi tikər, ya qadın? Adətən, suala cavab verən üç bacı olur və təsadüfi deyil ki, iki böyük bacı ev tikməkdə kişilərə üstünlük verir. Kiçik bacı isə matriarxatlığın təsiri ilə evin qadın tərəfindən tikilməsinə üstünlük verir. Bu, birinci mərhələdir. Ata acıqlanır. Kiçik qızı lap tənbələ ərə verir ki, tik görüm necə tikirsən? Qız tənbəl Əhmədin evinə gedir. Əhmədi tənbəllikdən qurtarır. Əhməd pul qazanmağa gedir. Müəyyən işlərdən sonra pul qazanır, evə göndərir, qız da evi tikdirir" (7, 45). Tənbəl və qorxaqlardan bəhs edən məişət nağıllarında bu obrazların: tənbəl və qorxaqların məhz güclü qadın obrazı vasitəsilə islah olunması süjetləri üstünlük təşkil edir.

Qeyrətli, namuslu, ailə üçün özünü fəda edən qadınlarla yanaşı xəyanətkar, ailəsini öz hisslərinə qurban verən qadınlar da istisna deyildir. Yazılı ədəbi nümunələrdə bu mövzudan geniş şəkildə istifadə edilməkdədir. Vurğulayaq ki, bu mövzu ədəbiyyatın başlanğıcı olan şifahi nümunələrdə də əks olunmuşdur. Nağıllar isə bu baxımdan daha fəaldır. "Güdül divin nağılı", "Noxudu keçəl" nağıllarında xəyanətkar qadın obrazları ilə qarşılaşırıq (2, 329). "Noxudu keçəl" nağılında ərinə xəyanət etmək istəyən qadın ağıllı Keçəlin sayəsində ifşa olunur. Belə nəticə əldə olunur ki, xəyanət və yalan gec-tez aşkara çıxır. Ona görə də halala haram qatmaq, ailəyə yalan söyləmək insan övladına, əsasən də qadına yaraşan sifətlər deyil. Daha çox tənqidi mahiyyət daşıyan bu mətnlərə əxlaqi dəyərlərə xidmət edən nümunələr kimi yanaşmaq lazımdır.

Bütün bunlarla yanaşı, bir çox nağıl mətnlərində bəzi ailə-məişət detalları öz əksini tapmışdır. Yuxarıda söylədiklərimizə əlavə olaraq demək istərdik ki, fədakar, ailəsini və xalqını qoruyan, onların mənafeyi naminə hər bir çətinliyə dözməyi bacaran qadınlarla yanaşı maddi çətinliyi qəbul edə bilməyən, "yağ-bal içində" yaşamağı arzu edən qadın obrazları da bəzi nağıl

mətnlərinin əsas obrazları kimi diqqəti cəlb etməkdədir. “Pinəçi Məhəmməd”(1, 246), “Dad Xanpərinin əlindən” (1, 255), “Üç bacı”, (1, 164) nağılları da bu baxımdan xarakterikdir. “Pinəçi Məhəmməd” nağılında öz halal zəhməti ilə yediyi soğan-çörəyi dünyanın hər cür naz-nemətindən üstün tutan ər və fitvaya gedərək bu halal çörəkdən imtina edən arvad obrazı qarşılaşdırılır. Ərinin daha çox pul qazanmağı üçün təkid edən qadın obrazına “Pinəçi Məhəmməd” və “Dad Xanpərinin əlindən” nağıllarında rast gəlirik. Bu qadınlar xalqın görmək istəmədiyi xüsusiyyəti ifadə etməklə əslində bu xüsusiyyətlərin ifşa edicisidirlər. Çətin və müşkül işlərin öhdəsindən gələrək zəfər qazanan qadın-ana obrazının əksinə olaraq bu qadınlar hər anda öz mənafeyini düşünür, rahat həyat üçün yeri gələndə ailələrindən belə imtina edirlər.

Bütün bunlara baxmayaraq, Azərbaycan nağıllarının çoxunda qadın sözün əsl mənasında namus, qeyrət, şərəf simvolu kimi təqdim olunur. Nağıl qəhrəmanı olan ananın gözləri qarşısında balasına qəsd olunur, evi, ailəsi məhv edilir, ana-atası öldürülür. Ucalıq mücəssəməsi olan qadın-ana öz qəlbini içində didib-dağıdır, lakin heç vaxt əyilmir. Qəlbi qədər özü də gözəl və əlçatmaz olan qadın ailəsinin yolunda canından keçməyə hazırdır. Azərbaycan qadını hər zaman barışmaz hücumlara sinə gərmiş, amansız dəhşətlərlə üzləşmiş, çovğuna, borana qarşı mübarizə aparmış, lakin qələbəni, azadlığı təmin etmişlər. Bu sarsılmaz qadın şərəf və ləyaqəti epik növün sevimli janrı olan nağıllardan tutmuş yazılı ədəbiyyatın bütün növlərinə aid janr nümunələrində öz bariz əksini indi də tapmaqdadır.

ƏDƏBİYYAT

1. Azərbaycan nağılları. Beş cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2005, 360 s.
2. Azərbaycan nağılları. Beş cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2005, 296 s.
3. Azərbaycan nağılları. Naxçıvan. I cild. Bakı, 2005, 296 s.
4. Bayat F. Folklor dərsləri. Bakı, Elm və təhsil, 2012, 424 s.
5. Əliyev O.Tapmacaların janr xüsusiyyətləri və nağıllarda yeri. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (XIX), Bakı, “Səda”, 2006.
6. Əliyev R. Azərbaycan nağıllarında mifoloji mətnlər. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (XIX), Bakı, “Səda”, 2006.
7. Qədirzadə H.Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003. 368 s.

РЕЗЮМЕ

НАЗИРА АСКЕРОВА

МЕСТО ЖЕНЩИН В СЮЖЕТНОЙ ЛИНИИ БЫТОВЫХ СКАЗОК

В статье изыскано место женщин в сюжетной линии бытовых сказок. Здесь женщина то младшая дочь крестьянина, которая побеждает падишаха со своей догадливостью, то супруга, освобождающая падишаха из вражеской неволи. Иногда женщина выступает как победительница над вражеской армией, одновременно как единственная дочь падишаха,

которая спасает населения от врагов. В то же время в статье показано, что как женщины своим умом и храбростью достигают своих желаний, обеспечивают победу правоты над несправедливостью со своими моральными качествами.

Ключевые слова: сказка, семья, женщина, поэтика, образ.

SUMMARY

NAZIRA ASGAROVA

THE PLACE OF WOMEN IN THE PLOT LINE OF THE TALES

In the article the place of women in the plot line of the tales was investigated. In such kind of tales women are either a country man's girl who wins the padishah with her mind and ability or wife who escapes the padishah from slavery. Sometimes women perform as the only girl of padishah who win the army of enemy and save people from enemy. At the same time in the article the succeeding of the women their wish for their mind and fearlessness, and achieving the victory of justice on injustice with their moral qualities.

Key words: tale, family, woman, poetics, character.

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

MƏDƏD SƏFƏROV
“Naxçıvan” Universiteti
medetseferov@gmail.com

BƏZİ QRAMMATİK MƏFHUMLARIN MƏNİMSƏDİLMƏSİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ PARADOKSAL VƏZİYYƏTLƏRƏ REAL MÜNASİBƏT

Bu yazıda bəzi qrammatik məfhumların mənimsədilməsində qarşıya çıxan çətinliklər və paradoksal vəziyyətlərə real münasibət bildirməkdən söz açılır. Həmçinin yer zərfləri ilə yer-məkan bildirən isimlərin oxşar və fərqli cəhətləri konkret faktlarla şərh edilmişdir. Yazıda həmçinin dilimizdə ən çox işlənən “var” sözünün leksik-semantik, morfoloji və sintaktik məqamlarından danışılır və praktik olaraq konkret fikirlər söylənilir.

Açar sözlər: qrammatika, məfhum, var, leksik, semantik, morfoloji, sintaktik. Yer zərfləri, yer bildirən isimlər.

Azərbaycan dilçiliyinin mühüm bir bölməsi olan qrammatika dilimizin qrammatik quruluşunu öyrənən elm sahəsidir. İki hissədən: morfologiya və sintaksisi əhatə edən Azərbaycan dilinin qrammatikası tanınmış dilçi alimlər tərəfindən mükəmməl şəkildə işlənərək istifadəyə verilmişdir. 53 ildir ki, qanım, canım, vətənim, anam, balam kimi sevdiyim Azərbaycan dilini tədris edirəm. 33 il orta məktəbdə, 20 il ali təhsil ocağında. Bunları qeyd etməyə də bilərdim. Lakin fikirlərimin təsir gücünü artırmaq, diqqətə çatdırılması üçün məcburi gediş etdim...Keçək mətləbə:

Azərbaycan dilinin qrammatikasının, xüsusən morfologiyanın tədrisində, yəni qrammatik məfhumların mənimsədilməsində elə çətinliklər, yaxud paradoksal vəziyyətlərlə qarşılasırsan ki, (müəllim-tələbə, müəllim-dərslik, tələbə-dərslik yaxud internet-biz) kimin haqlı olduğu mübahisəyə səbəb olur.

Ancaq fakt yumruq kimi bir şeydir, haradan vursan fəsad törədir, iflicə gətirib çıxarır. Konkret faktlara müraciət edək:

Digər maraqlı bir dil faktoruna nəzər salaq: Azərbaycan dilinin sonuncu orfoqrafiya lüğətində 110503 söz var. Bu sözlər qruplaşdırılaraq dilimizdəki on bir nitq hissəsinə paylanmışdır. Yəni, kitab, qələm, gələn, arzu və.s -isim, qırmızı, yağlı, evdəki-sifət və s. Dilimizdə hər gün işlənən yox, heç, xeyr sözləri inkar, hə, bəli sözləri təsdiq ədatı kimi qəbul edilib. Bu, doğrudur. Bəs niyə dildə ən çox işlənən var sözü heç bir nitq hissəsinə daxil edilməyib?!! Yalnız, mərhum professor Y.Seyidov 2002-ci ildə “Azərbaycan dilinin qrammatikası” kitabında bu söz haqqında məlumat verib, ancaq bəzi məşğələlərdə hansı nitq hissələrinə aid olduğunu qeyd etməyiblər. Bir növü bu sözün hansı nitq hissəsi olduğunu heç bir dilçi alim konkret olaraq

söyləmiyiblər. Buna görə də bu söz və bundan sonra söyləyəcəyimiz bəzi qrammatik məlumatlar haqqında mübahisə doğurmayacaq fikirlər söyləməyi zəruri sayaraq və bu sözün –var sözünün leksik, morfoloji və sintaktik məqamlarını açıqlamağı qarşımıza məqsəd qoyduq.

Konkret leksik mənaya malik olan, üç səs , üç hərfdən ibarət olan "var" sözü əsasən bir əşyanın mövcudluğunu, məhfumun varlığını, kimdə, nədə, harada olduğunu, təsirlik haldan başqa bütün hallarla əlaqəyə girir. Məsələn, məndə qələm, biri vardı, biri yox, Bakıda çoxlu uca binalar var və s.

Bütün orta və ali məktəb qrammatikalarında yer zərfi- yer, məkan bildirən isimlər, yer zərfi-yer zərfliyi, yer zərfliyi-tamamlıq məsələləri öz əksini tapıb. Bu barədə çox deyilib, bir çox məqalələr yazılıb, lakin hələ də öz həllini tapmayıb. Bu maraqlı məsələ hələ də problem olaraq qalır, daha doğrusu, bu qrammatik məfhumlar "tor"dadır, "labirint"dədir. Deməliyik ki, zərf öz qrammatik xarakterinə görə mürəkkəb, lakin öyrənilməsi vacib olan sahədir.

Bu nitq hissəsinin mürəkkəbliyi, hər şeydən əvvəl onun başqa nitq hissələrinə oxşarlığından irəli gəlir.

Uzun illərin müşahidələri göstərir ki, şagirdlərin də, tələbələrin də əksəriyyəti, demək olar ki, hamısı yer zərfləri ilə yer bildirən, məkan bildirən isimləri qarışdırırlar. O, cümlədən yer zərflikləri ilə tamamlığın eyniləşdirilməsi, oxşar və fərqli cəhətlərinin bilinməməsi də paradoksallıq yaranır.

"Morfologiya"nın tədrisinə başlayanda tələbələrin səviyyəsini yoxlamaq üçün tələbələrə bir neçə sual verirəm. Bunlardan birini nümunə üçün diqqətə çatdırıram: Kim bir cümlə deyər ki, orda yer zərfi olsun. Tələbələrin 90 faizindən eşidirik: Əhməd məktəbə getdi. Nailə kitabxanadan kitab aldı. Uşaqlar həyətdə oynayırlar. Ovçu ov vurmaq üçün meşəyə getdi. Şübhəsiz ki, cavablar doğru deyil. Çünki məktəb, kitabxana, meşə, Bakı və s. yer bildirən isimdir, zərf deyil. Bunlar cümlədə yer zərfliyi vəzifəsində çıxış edir. Bu cavablardan göründüyü kimi, tələbələr morfologiya ilə sintaksisi qarışdırırlar. Bilməlidirlər ki, morfologiya "real həyatdır", sintaksis "səhnə"dir. Yəni bir, isim cümlədə müxtəlif cümlə üzvü ola bilir, həmin sintaktik vəzifədən "rol"dan çıxandan sonra, yenə də təklikdə isim kimi qalır.

Qeyd etməliyik ki, bu mövzuların tədrisi zamanı qarşıya xeyli çətinliklər çıxır. Bu da təbiidir, çünki tələbələr morfoloji təhlil zamanı yer zərflərini (yuxarı, aşağı, irəli, geri, bəri, içəri, sağa, sola və s) məkan bildirən və məkani hallarda işlənən isimlərə (şəhər-ə, Bakı-da, meşə-dən, ev-də və s.) qarışdırırlar. Belə səhvlər, əlbəttə ki, təsadüfi hal deyildir. Yer zərfləri ilə məkan bildirən isimlər arasında, həqiqətən oxşarlıq var. Belə ki, hər ikisi yönlük, yerlik, çıxışlıq halda eyni suala-(hara, haraya, harada, haradan) cavab olur və cümlədə yer zərfliyi vəzifəsində çıxış edir.

Bunları fərqləndirmək üçün aşağıdakıları bilmək lazımdır. Bunlar həm şagirdlər, həm tələbələr, magistrlər, hətta bir qrup ixtisas sahiblərinə gərəkdir.

1.Yer zərfləri barmaqla sayıla biləcək qədər azdır (yuxarı, aşağı, irəli, geri, bəri, sağa, sola, həmçinin heç və hər sözləri tərəf, yan sözlərinə qoşulub zərf

yaradan sözlər), məkan bildirən isimlər isə çoxdur: (meşə, dağ, məktəb, bağça, şəhər və kənd adları və s.)

2.Yer bildirən isimlər hara, haraya, haradan suallarına cavab olmaqla bərabər adlıq halda nə sualına cavab olur. Məs, uşaqlar bağa getdilər. Onlar geriyə döndülər. Cümlələr bağ-a və geri-yə sözlərinin hər ikisi yönlük haldadı, haraya sualına cavab olur, yer-məkan bildirir. Lakin bağ sözündə əşyavilik məzmunu var, geri sözündə yox. Bağ sözü adlıq halda mübtəda, təsirlik halda tamamlıq olur, geri sözü ola bilməz. Məs, Bağ bizimdir (nə? bağ) –mübtədadır. Amma geri sözü nə sualına cavab ola bilmir və mübtəda vəzifəsini daşımır.

3. Bağ, məktəb, bağça, Bakı, Şərur, Naxçıvan və s yüzlərlə məkan bildirən isimlər bir isimdən əvvəl gəlib atributivləşə bilməz, cümlədə təyin vəzifəsini daşımaz. Ancaq yer zərfləri atributivliləşə bilər, cümlədə təyin olar. Məs, aşağı mərtəbə, yuxarı otağa, irəli tərəf, içəri otaq. Qonaqlar içəri otağa keçdilər. Qonşumuz yuxarı məhlədə yaşayırlar.

4. Yer zərflərindən əvvəl təyinedici söz: sifət, feili sifət, say, işarə əvəzliyi gələ bilməz. Yer bildirən isimlərin əvvəlində gələ bilər. Məs, təzə məktəb, yeni kənd çiçəklənən Naxçıvan, o, şəhər, zənginləşmiş kitabxana və s.

5.Yer , məkan bildirən isimlər konkretdir, yer zərfləri isə mürəkkəbdir. Məs, tələbələr sinfə girdilər. Arif-kitabxanaya getdi amma, maşın aşağı getdi. Adil sola getdi. Hara getdi?

Göründüyü kimi sağa, yuxarı və s.yer zərflərində konkretlik yoxdur. Yəni, bir qədərdə loru dildə desək, Adil aşağı getdi konkret ünvan yoxdu...

6.Yer, məkan bildirən isimlərin son nöqtəsi var. Məs, ovçu meşəyə girdi, amma ovçu yuxarı getdi-son nöqtəsi bilinmir, izaha ehtiyacı var. Məs, ovçu yuxarıya getdi, yəni o iri qayanın dibinə...

7. Bu bəndə diqqət yetirək:

Yer bildirən isimlərdən yönlük hal şəkilçisini atsaq, cümlə cümləliyini itirər. Məs, Arif məktəbə getdi cümləsində məktəb sözündə-ə-yönlük hal şəkilçisini atsaq, Arif məktəb getdi?! Amma Arif aşağı-ya endi cümləsində aşağı sözündən-ya-yönlük hal şəkilçisini çıxsaq, Arif aşağı getdi formasında olar. Və cümlədə heç bir məntiqi məna dəyişikliyi olmaz.

Göründüyü kimi, yer zərfləri ilə yer, məkan bildirən isimlər arasında oxşar və fərqli cəhətlər çoxdur. Bunları qeyd etdiyimiz parametrlərlə öyrənilsə, mənimsənilsə sözügedən məsələ ətrafında mübahisələr azalar, bəlkə də yox olar, yuxarıda qeyd etdiyimiz “tor”, paradoksal vəziyyət aradan qalxar.

Dilimizdə “var” sözünün işlənmə məqamları çox genişdir. “Var” sözü ol köməkçi nitq hissəsinə qoşulub ekspressiv məna daşıyaraq nitqimizdə işlənir. Məs, Var olsun sədaqət, bir də məhəbbət (S.Vurğun). Qoy var olsun xalqın varı. Var ol, qardaşım, səndən çox razıyam. Sonuncu cümlədəki var ol ifadəsi yaxşı ol, yaş, sağ ol ifadəsinin sinonimidir.

“Var” sözü bir nitq hissəsi kimi ən çox ismin xüsusiyyətlərini daşıyır və onun əsas əlamətlərini özündə ehtiva edir.

Nümunələr: konkret nümunələrə-faktlara nəzər yetirək:

Bildiyimiz kimi, ismin əsas xüsusiyyətləri hallanmaq, cəmlənmək, şəxslənmək-xəbərlik şəkilçiləri qəbul etmək, mənsubiyyətə görə dəyişməkdir və leksik şəkilçi qəbul edib digər nitq hissəsinə keçməkdir və s.

-"Var" sözü cəmlənə bilir: Yazıqların varları, karları dağılıb getdi (Ə.Vəliyev) Varları olsaydı adamı it yerinə qoymazdılar (M.Süleymanova)

-"Var" sözü isim kimi hallanır: var, var-ın, var-a, var-ı, var-da, var-dan. Məs, var, pul dərd gətirər, ay bala (Ə.Vəliyev).Varın adı vardı, yoxun adı yox (El sözü). O, nə vara baxmaz , nə pula. Varı qoruyarlar ki, var olsun. Varda, pulda ona çatan olmaz. Vardan-yoxdan çıxıblar. "Var" sözü mənsubiyyətə görə dəyişir: mənim varım, sənin varın, onun varı, bizim varımız, sizin varınız, onların varı. "Var" sözü leksik şəkilçi qəbul edib feil də ola bilir. Var-lan(maq),-sız, -lı şəkilçi si qəbul edib sifət olur: var-lı kişi, var-sız adam, -lıq şəkilçisi qəbul edib isim düzəldir: varlıq. Varlığa tələsiyən yoxsulluğa tez düşər (atalar sözü).

"Var" sözü "yox" sözünə qoşularaq mürəkkəb isim əmələ gətirir. Var-yox. Məs, yazıq Əhmədin bütün var-yoxu əlindən getdi. "Var" sözü həm təklikdə, həm də birləşmə şəklində cümlədə mübtəda, xəbər, tamamlıq olur.

Nümunələrə diqqət yetirək: "Var" köməkçi nitq hissəsi deyil (mübtəda). "Naxçıvan" Universitetində ciddi nizam-intizam var(dır)-xəbər.

Əliqulu vardan-yoxdan çıxdı (tamamlıq). Birləşmə şəklində: Bizim varımız nə gəzir (mübtəda). Hər kəs elin varını qorumalıdır (tamamlıq). Onların varı başlarından aşır (mübtəda) və s.

Deyilənlərdən belə bir qənaətə gəlmək olur ki, "var" sözü, konkret leksik mənaya malik olmasa da, dilimizdəki ümumişlək sözlər sırasında dayanır, əsasən, var (dövlət) mənasında isim olmaqla bərabər, leksik-semantik məna çalarları ilə , morfoloji və sintaktik məqamları ilə də işlək dil vahididir.

РЕЗЮМЕ

МАДАТ САФАРОВ

ТРУДНОСТИ В УСВОЕНИИ НЕКОТОРЫХ ГРАММАТИЧЕСКИХ ПОНЯТИЙ И РЕАЛЬНОЕ ОТНОШЕНИЕ К ПАРОДОКСАЛЬНЫМ СОСТОЯНИЯМ

В этой статье идет речь о трудностях в усвоении некоторых грамматических понятий и о реальном отношении к пародоксальным состояниям. А так же конкретным фактам и дано обозрение сложных и отличительных особенностей наречия места и существительных, обозначающих место.

В сатье говорится так же о слове «есть», «имеется», которое очень много употребляется в нашей речи, о его лексико-семантических, морфологических и синтаксических особенностях.

Ключевые слова: грамматика, понятие, имеется, лексический, семантический, морфологический, синтактический, наречие места, существительное, обозначающее место

SUMMARY

MADAT SAFAROV

REAL ATTITUDE TO DIFFICULTIES AND PARADOXICAL SITUATIONS ARISING WHILE COMPREHENSING GRAMMATICAL NOTIONS

The article deals with the difficulties in adopting some grammar concepts and expessing a real attitude to paradoxical situations. Also, similarities and differences of place names with space envelopes are commented with concreate facts. In the article also deals with the lexical-semantic, morhological and syntactic moments of our language the word “have” and are being said practically specific ideas.

Key words: grammar, notion, existance, lexical, semantic, morphological, syntactic, adverb of place, place names.

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

KÜBRA VƏLİYEVA
AMEA Naxçıvan Bölməsi
kubra.valiyeva@yahoo.com

ƏRƏB NƏHVİLƏRİNƏ GÖRƏ “CÜMLƏ” MƏFHUMU

Dilçilikdə Sintaksisin əsasını cümlə nəzəriyyəsi təşkil edir. Cümlə başlıca sintaktik vahiddir. O, müəyyən məna və struktur əlamətlərinə görə xarakterizə olunur. Ərəb dilçiliyində həm ərəb dilçilərinin, həm də dünya şərqşünaslarının cümlə haqqında müxtəlif fikirləri mövcuddur.

Məqalədə nəhv elmində cümlə, onun strukturu və bu barədə dilçilərin müxtəlif görüşlərindən bəhs olunur. Nəticə olaraq müəllif belə qənaətə gəlir ki, ərəb qrammatikasının tədqiqi ilə məşğul olan dilçilərin “cümlə” anlayışının məzmunu ilə bağlı olan mülahizələri ərəb dilçiliyini zənginləşdirən orijinal və obyektiv elmi qənaətlərdir.

Açar sözlər: Ərəb qrammatikçilər,sintaksis, kəlimə, kəlam, kəlim, qövl, cümlə.

Dilçilikdə dilin sintaktik sistemindən bəhs edən şöbə sintaksis adlanır. “Sintaksis” termini yunan mənşəli “syntaxis” sözündən olub “tərtib edilmə” mənasını bildirir. Sintaksisin obyekti həm söz birləşmələri, həm də cümlələrdir. Sintaksis bu vahidlərin hər birinin əlamət və xüsusiyyətlərini, dildəki mövqe və rolunu aydınlaşdırır. Cümlə özünün quruluşuna, ifadə tərzinə intonasiyasına və sair keyfiyyətlərinə görə dildə müxtəlif tipdə özünü göstərir. Cümlə dilin ən böyük vahididir. Dilin əsas qrammatik quruluşu cümlədə təzahür edir.

Sintaksisin tədqiqi tarixi çox qədim dövrlərlə bağlıdır. Sintaksis anlayışı dil haqqında elmə hələ eramızdan əvvəl qədim hind alimləri tərəfindən daxil edilmişdir. Hind dilçiləri ilə yanaşı, klassik yunan, roma və ərəb dilçiləri də dilin sintaktik sistemindən bəhs etmişlər [5, s. 271].

Bolqar mənşəli filosof Guliya Kristeva diqqəti o zamankı ərəb qrammatikləri tərəfindən qrammatik cümlə nəzəriyyəsinin müəyyənləşdirilmədiyinə cəlb edir. Düzdür, onlar ismi cümləni feili cümlədən fərqləndirsələr də, subyekt və predikat haqqında bəlli konsepsiyaları yox idi. Bu günün özündə də belə ərəb dili qrammatikası terminologiyasında “subyekt” istilahı mövcud deyildir. Bu, ərəb dili qrammatikasının Aristotel məntiqindən uzaq spesifik xüsusiyyətlərini əks etdirən simptomlarından biridir. Müəllif qeyd edir ki, “qiyas” anlayışı ərəb qrammatiklərinə dili səbəblərə əsaslanan harmonik bir sistem üzərində qurmağa imkan vermişdir. Lakin G. Kristeva onu da təstiq edir ki, ərəb dili yunan dili ilə müqayisədə daha empitikdir və daha çox ontoloji-dini mühakimələrlə bağlıdır [4, s. 137-138].

Ənənəvi ərəb qrammatikləri cümlə tipini təyin etmək üçün söz sırası variantından istifadə etmişdirlər. Onlar başlanğıc mövqedə yerləşən sözə əsasən cümlənin iki tipini fərqləndirmiş və belə nəticəyə gəlmişlər ki, ad qruplu sözlə başlayan cümlə ismi, fellə başlayan cümlə isə feli cümlədir. İsmi və feli cümləyə əlavə olaraq digər bir cümlə növü – zərfi cümlə də vardır ki, bu zaman zərf, yaxud sözönlü ifadə başlanğıc pozisiyada yerləşir [2, s. 136].

Ərəb dilində “kəlimə”, “kəlam” və “qövl” istilahlarının kəsb etdiyi qrammatik mənaların analizi cümlə məfhumunu anlama işinə xeyli kömək etmiş olar.

Ərəb dilində “kəlimə” sözü müxtəlif mənalarda işlənmişdir. Abbas Həsən "النحو الوافي مع ربطه بالأساليب الرفيعة و الحياة اللغوية المتجددة" kitabının “الكلمة” başlıqlı yarımparaqrafında yazır:

"حروف الهجاء تسعة و عشرون حرفا، (و هي أ – ب – ت – ث – ج ...)، و كل واحد منها رمز مجرد؛ لا يدل إلا على نفسه، ما دام مستقلا لا يتصل بحرف آخر. فإذا اتصل بحرف أو أكثر، نشأ من هذا الاتصال ما يسمي: "الكلمة" ...و كل كلمة من هذه الكلمات التي نشأت بالطريقة السالفة تدل على معنى؛ لكنه معنى جزئي (أي مفرد)"

(Əlifba iyirmi doqquz hərfdən ibarətdir (əlif, bə, tə, sə, cim və s.). Onların hər biri özlüyündə mücərrəd bir simvoldur və başqa bir hərflə birləşənə qədər müstəqil olaraq qalır. Bir və ya daha çox hərflə birləşdikdə həmin əlaqədən “kəlimə” adlanan şey əmələ gəlir... Yuxarıdakı qaydada əmələ gələn sözlərin hər biri müəyyən bir məna bildirir. Amma bu, tək sözlə ifadə olunan cüzi mənadır) [14, s. 14].

Müəllif qeyd edir ki, iki və daha çox sözün birləşməsindən “mürəkkəb məna” (معنى مركب) ortaya çıxır. Bu məna “cüzi” mənaların bir araya gəlməsindən yaranır və nəhvilər onu müxtəlif adlarla adlanrırırlar. Məsələn, “mürəkkəb məna”, “tam məna” (المعنى التام), “faydalı məna” (المعنى المفيد), yaxud “susmağın üstün tutulduğu məna” (المعنى الذي يحسن السكوت عليه). Yəni cüzi mənanın əksinə olaraq mürəkkəb mənada dinləyicini qane edən məqamlar vardır. Deməli, kəlimə bir neçə hərfin birləşməsindən əmələ gəlmiş cüzi mənalı, yəni tək bir sözdür.

Doktor Emil Bədii Yəqub kəliməni bir qədər fərqli şərh etmişdir. O, sintaksisdə kəliməni bir (ل ön qoşması kimi), yaxud bir neçə hərfdən ibarət olub formal olaraq tək bir məna bildirən söz (لفظ) adlandırmaqla yanaşı, dilçilikdə onun cümlə (الجملة), yaxud tam mənalı ibarə (العبارة التامة المعني) olduğunu irəli sürür və buna dair tövhid kəlməsini misal gətirir: لا إله إلا الله [17, s. 552]. Ərəb nəhvinin imamı sayılan Sibəveyhi “kəlimə” sözünün cəmini (الكَلِمُ) işlədərək onu üç qismə ayırır: isim, feil və hərf [16, s. 12].

İbn Huteyl qeyd edir ki, kəlam (الكلام) subyekt – predikat əlaqəsi əsasında iki kəlməni əhatə edir (ما تضمن كلمتين بالاسناد) [11, s. 12]. Kəlam müstəqil mənaya sahibdir. Kəlama cümlə də deyilir. Amma cümlə kəlamdan fərqlənir, belə ki, hər bir kəlamın cümlə olmadığı təqdirdə, hər bir cümlə kəlam ola bilər. Çünki cümlədə əsil predikasiya mövcuddur [12, s. 33].

Kəlamda “tərkib”lə “müstəqil ifadə” birgə mövcud olmalıdır. Əgər ayrı-ayrılıqda yalnız “أقبل”, yaxud “فاز” desək, bu, kəlam sayılmaz. Çünki

mürəkkəb birləşmə deyildir. Hətta "أقبل صباحا..."، yaxud "لن يهمل واجبه..." və ya "فاز في يوم الخميس..." yaxud da "لن يهمل واجبه..." birləşmələri də kəlam deyildir. Çünki o, tərkibinə baxmayaraq I, yaxud II şəxsin qənaətlənəcəyi bitmiş fikri ifadə etmir.

Beləliklə, qrammatiklər cümləni iki növə ayırırlar: 1) əsil cümlə (الجملة الأصلية). Subyekt – predikat əlaqəsi üzərində qurulur; 2) böyük cümlə (الجملة الكبرى). Bu növ cümlə mübtədadan (مبتدأ) və xəbərdən ibarət olur, amma xəbəri ya ismi, ya da feli cümlə olur (məsələn: الله له ما في السماء، يوسفُ مات أخوه).

İbn Hişam özünün "أوضح المسالك إلى ألفية ابن مالك" adlı əsərində kəlamın reallaşması üçün ləfz və ifadənin birgə mövcudluğunun zəruriliyini qeyd edərək göstərir ki, kəlam ən azı iki ad qruplu sözdən ibarət olmalıdır. Qrammatiklər ərəb kəlamının icmal şəklində altı formada, müfəssəl şəkildə isə on bir formada təzahür etdiyini irəli sürürlər. Yəni kəlam a) iki isimdən; b) fel və isimdən; c) iki cümlədən; ç) fel və iki isimdən; d) fel və üç isimdən; e) fel və dörd isimdən ibarət ola bilər. Müfəssəl şəkildə təsnif etdikdə isə birinci bəndin növbəti dörd forması olduğu iddia edilir, yəni iki isim dedikdə, ya mübtəda və xəbər (زيد قائم), ya mübtəda və xəbəri əvəz etmiş feli cümlənin mübtədası (أقائم الزيدان), ya mübtəda və xəbəri əvəzləmiş məchul növ felinin mübtədası (أمضروب زيد), ya da mənalı isim və onun mübtədası (هَيْهاتَ الأمْ) nəzərdə tutulur [7, s. 14-15].

"Kəlim" (الكَلِمُ) faydalı, yaxud qeyri-faydalı olub-olmamasından asılı olmayaraq üç və daha artıq sözdən ibarətdir. "Kəlim" məna cəhətdən daha çox ümumi səciyyə daşıyır və "ة-" (tə mərbutə) artırmaqla təki düzələn topluluq bildirən isimlər qrupuna daxil olur [8, s. 7].

Tək, yaxud mürəkkəb, faydalı, yaxud qeyri-faydalı olmasından asılı olmayaraq insanın ifadə etdiyi hər bir ləfz "qövl" (söyləm) adlanır. İstər kəlimə, istər kəlam, istərsə də kəlim qövl çərçivəsinə daxildir, yəni bunların hər birinə "qövl" demək məqbuldur.

Professor doktor Hadi Nəhr "kəlimə"nin məcazi anlamda "kəlam" mənasını ifadə etdiyini Quran ayələri ilə təsbit edir:

"كَبُرَتْ كَلِمَةً تَخْرُجُ مِنْ أَفْوَاهِهِمْ (القرآن الكريم)"

(Onlar çox böyük-böyük danışırlar (Ağızlarından çıxan söz necə də böyük küfürdür)) (əl-Kəhf, 18/5).

Müəllif kəlamın üç növü olduğuna işarə edir: isim, fel və hərf [10, s. 17-18].

İbn Malik isə qeyd edir ki, isim, fel, sonra hərf bərabərdir kəlim. Tək halı "كلمة" sözüdür, "القول" isə ümumidir. Kəlimə bəzən kəlam yerində işlədilir [13, s. 18]. Yəni kəlamın mənası bitmiş məna ifadə edən ibarədir, "kəlim" üç qisimdir: isim, fel, hərf, tək halı isə "كلمة" sözüdür, qövl bu növlərin hər birini əhatə edir və s.

Ərəb cümləsini araşdıran tədqiqatçının qarşısına bir qrup qrammatiklərə görə üst-üstə düşən, digər bir qrupuna görə isə fərqlənən, bir – birinə qarşılıqlı nüfuz edən iki istilah çıxır. Bunlar cümlə və kəlamdır (الجملة و الكلام) [17, s. 24]. İbn Cinniyə görə cümlə (الكلام) bitmiş bir fikri ifadə edən və öz – özlüyündə

müstəqil olan hər bir ləfzdir, yəni müstəqil mənaya malik sözlər qrupudur [9, s. 17]. Doktor Xəlil Umeyra Zəməxşəri, İbn Yəiş və digər qrammatiklərin cümlə və kəlam haqqında dedikləri ilə tam razılaşmır:

"ما يرتضيه الزمخشري و ابن يعيش حدًا للكلام، حدًا للجملة، و نخالفه كما نخالف من تبعه في أن الكلام هو الجملة، و نخالف ابن هشام و من سار على منهجه في أن الكلام أخص من الجملة و هي أعم منه، فنرى أن الجملة ما كان من الألفاظ قائما برأسه مفيدا لمعنى يحسن السكوت عليه...إن الكلام تآلف عدد من الجمل للوصول إلى معنى أعمَ مما في الجملة و أشملَ، و على ذلك فقد كان القرآن الكريمُ".

(Kəlamı cümlə hesab edənlərin ardıcıllarına qarşı çıxdığımız kimi, Zəməxşəri və İbn Yəişin kəlama və cümləyə həddqoymaqla razılaşmasına da qarşı çıxırıq. Eyni zamanda kəlamı cümlədən daha xüsusi və cümləni kəlamdan daha ümumi hesab edən İbn Hişam və onun yolu ilə gedənlərə qarşı çıxırıq. Biz düşünürük ki, cümlə ona qarşı sükutun yaxşı olduğu bir mənaya dəlalət edən və bitmiş bir fikri ifadə edən sözlərdən ibarətdir... Həqiqətən, kəlam cümlədən daha ümumi və daha əhatəli bir mənaya nail olmaq üçün bir neçə cümlənin birləşməsidir. Buna görə də Qurani-Kərim Allahın, şeir və nəsr isə ərəblərin kəlamıdır) [15, s. 77-78].

Emil Bədii Yəqub cümləni aşağıdakı kimi xarakterizə edir: “Cümlə, yaxud kəlam müstəqil və bitmiş mənaya malik iki və daha artıq sözün birləşməsindən əmələ gəlir. Məsələn, “الصدق مَنْجاةٌ” (Doğruluq nicatdır), “ يفوز المجتهد” (Çalışan uğu qazanar). Cümlə üçün iki elementin olması vacibdir: tərkib (ifadə, söz birləşməsi) və müstəqil bitmiş mənа” [18, s. 326-327].

İstər yazılı, istərsə də şifahi ərəb dilində başlıca olaraq iki cümlə strukturundan bəhs olunur. Orta əsr qrammatikləri bunu ismi (al-jumla al-ismiyya) və feli (al-jumla al-fi′liyya) adlandırırlar. “İsimlə başlanan (بداء أصيلا) cümlələr ismi, fellə başlanan cümlələr isə feli cümlələr adlandırılır” [3, s. 8]. Lakin bəzi ərəb dilçiləri buna daha bir cümlə növünü – zərf cümləsini (جملة ظرفية) də əlavə edirlər. Onlar zərf cümlələrini müstəqil bir cümlə növü kimi müəyyən edərkən cümlənin hansı nitq hissəsi ilə başlandığını əsas götürürlər. Onların fikrincə, bu növ cümlələr isimlə və ya fellə yox, məhz ön qoşma ilə başlandığı üçün onları nə ismi, nə də feli cümlə növünə aid etmək olar. Həm də burada başlanğıcda gələn ön qoşmalı xəbər yer bildirdiyi və yer zərfliyi olduğu üçün bu növ cümlələri zərf cümlələri adlandırmışlar (məs. في الدار رجل). Məsələ burasındadır ki, bu alimlər həmin cümlələrin əks düzülüşlü variantını (الرجل في الدار) artıq ismi cümlə hesab edirlər. Alimlərin böyük əksəriyyəti isə bu növ cümlələrdə xəbərin əsas hissəsinin isimlə ifadə olunduğunu nəzərə alaraq onları ismi cümlələrə aid edirlər. Bir qrup başqa ərəb dilçiləri şərt cümləsi növünün də olduğunu iddia edirlər. Bu zaman onlar cümlənin şərt ədatı ilə başlandığını əsas götürürlər. Ərəbşünas alim, dosent M.Qarayev istər orta, istərsə də müasir ərəb dilçilərinin çoxunun belə bir cümlə növünün olması fikri ilə razılaşmadıqlarını və onu feli cümlələrə mənsub etdiklərini söyləyir [1, s. 64].

Vilyam Rayt (William Wright) ənənəvi ərəb qrammatikasında cümlədən bəhs edərək bəzi məqamlara aydınlıq gətirərək deyir: “A sentence, of

which the predicate is a preposition with a genitive indicating a *place*, is called by the Arabs جملة ظرفية *a local sentence*; and if the genitive indicates any other relation but that of place, it is said to be جملة جارية مجرى الظرفية *a sentence that runs the course, or follows the analogy of a local sentence*".

(Xəbəri yer bildirən ön qoşma və yiyəlik halda olan sözlə ifadə olunan cümlə ərəblər tərəfindən جملة ظرفية *zərfi cümlə* adlandırılmışdır; əgər yiyəlik hal (da olan söz) məkan istisna olmaqla, digər əlaqələri bildirərsə, ona جملة جارية مجرى الظرفية *zərfi cümləyə bənzər cümlə* deyilir) [6, s. 178].

Cümlə doğru olub-olmaması ehtimalına görə iki növə ayrılır: doğru və yanlış olması ehtimal edilməyən inşai (əmr, qadağan, sual və arzu bildirən cümlə), doğru və yanlış olması ehtimal edilən xəbər cümləsi. İnşai cümlə də öz növbəsində iki qismə ayrılır:

1) Danışıq momentində gerçəkləşməyən tələbi cümlə. Bu cümlə aşağıdakıları əhatə edir: a) əmr bildirir, məsələn: "اجتهد" (Çalış!); b) inkar bildirir, məsələn: "لا تكذب" (Yalan danışma!); c) sual bildirir, məsələn: هَلْ جَزَاءُ الإِحْسَانِ إلاَّ الْإحسانُ (Yaxşılığın əvəzi yalnız yaxşılıq deyildirmi?!) *(ər-Rəhman, 55/60)*); ç) arzu bildirir, məsələn: "ليت الشباب يعود" (Kaş gənclik geri qayıdardı) və d) nida bildirir, məsələn: "يا أيها الطلاب، اجتهدوا" (Tələbələr, çalışın!).
2) Danışıq zamanı reallaşması tələb olunmayan qeyri-tələbi cümlə. Bu cümlə aşağıdakıları əhatə edir: a) tərif və məzəmmət formalarını, məsələn: نعمَ المجتهدُ زياد (Ziyad necə də çalışqandır!); b) təəcüb bildirir, məsələn: ما اجمل الصدقَ (Doğruluq nə gözəl şeydir!); c) and ifadə edir, məsələn: بالله لأجتهدنَّ (Vallah, mütləq çalışacağam!); ç) ümid ifadə edir, məsələn: عليهم يجدون فيها بعض العزاء (*السباعي*) (Bəlkə. Onlar bununla bir qədər təskinlik tapsınlar).

Struktur cəhətdən cümlə üç qismə ayrılır: 1) fel və feli cümlənin mübtədası ilə (yaxud məchul növ felinin mübtədası ilə) məhdudlaşan əsil (أصليّة) cümlə; 2) mübtəda (مبتدأ) və xəbəri ismi, yaxud feli cümlədən ibarət böyük cümlə (كبرى), məsələn: الظلم مرتعه وخيم (Zülümün otlağı qorxuludur), زيد مات أبوه (Zeydin atası öldü); 3) ikisindən birinin mübtədanın xəbəri olduğu ismi, yaxud feli cümlədən ibarət kiçik cümlə (صغرى). Yuxarıda göstərilən misallardakı "مرتَعه وخيم" və "مات أبوه" cümlələri kimi [18, s. 327-328].

Beləliklə, ərəb qrammatikasının tədqiqi ilə məşğul olan məşhur dilçilərin irəli sürdükləri müxtəlif mülahizələrin müqayisəli təhlilindən aydın olur ki, ərəb nəhvində "cümlə" anlayışının məzmunu ilə bağlı olan bu fikirlər ərəb dilçiliyini zənginləşdirən orijinal və obyektiv elmi qənaətlərdir.

ƏDƏBİYYAT

1. Abbasov İ.Ə. Ərəb dilində sintaktik kateqoriyalar və bəlağət. Bakı: Bakı Çap Evi, 2011, 440 s.
2. Esam K. Grounding in English and Arabic news discourse. Jhon Benjamin Publishing Company, 2000, 274 p.
3. Ərəb dilinin qrammatikası. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu.

B-181/314.

4. Kristeva J. El lenguaje, ese desconocido: introduccio´n a la lingüistica. Caracas, 15, segunda edicio´n, Madrid: Editorial Fundamentos, 1999, 372 p.

5. Qurbanov A. Ümumi dilçilik. İki cilddə. Bakı: Nurlan, 2004, 748 s.

6. Wright W. A Grammar of the Arabic Language, translated from the German of Caspari, and edited with numerous additions and corrections by William Wright, vol. II. London, Edinburgh, 1862, 327 p.

7. أوضح المسالك إلى ألفية ابن مالك. تأليف الإمام أبي محمد عبد الله جمال الدين بن يوسف ابن أحمد الأنصاري، المصري و معه كتاب عدة السالك إلى تحقيق أوضح بن عبد الله بن هشام المسالك و هو الشرح الكبير من ثلاثة شروح. تأليف محمد محي الدين عبد الحميد عفا الله تعالى عنه، الجزء الأول، القاهرة: دار الاطلاع 2004، 334 ص.

8. أبو العباس محمد علي، 450 سؤالا و جوابا في النحو و الصرف، القاهرة 1996، 384 ص.

9. ابن جني، الخصائص، تحقيق محمد علي النجار، بيروت، عالم الكتب، 1996، 1347 ص.

10. التسهيل في شرح ابن عقيل. دروس و تطبيقات، الجزء الأول، تأليف الأستاذ الدكتور هادي نهر، ط، 1، الأردن – أريد: الشركة الولية للطباعة، 2003، 235ص.

11. شرح المقدمة المحسبة في النحو الموسوم بـ: عُمْدَةُ ذَوِي الهِمَمِ على المحْسِبَةِ في علمَيِ اللسان و القلم لابن هطيل اليمني جمالُ الدين عليُّ بِنْ محمدِ بنِ سليمان بن أحمد المتوفي سنة 812 هجرية، دراسة و تحقيق د. شريف عبد الكريم النجّار. الطبعة الأول، عمان: دار عمار، 2008 م – 1428هـ.، 634 ص.

12. شرح الرضي على الكافية، الرضي الاستراباذي، تحقيق يوسف حسن عمر، 1978، 520ص.

13. شرح ابن عقيل على الفية ابن مالك و معه كتاب منحة الجليل، بتحقيق شرح ابن عقيل، تأليف محمد محي الدين عبد الحميد، الجلد الاول، تهران، 1383، 621 ص .

14. عباس حسن، النحو الوافي مع ربطه بالأساليب الرفيعة و الحياة اللغوية المتجددة. الجزء الأول، دار المعارف، ط 12، 1974 712ص.

15. عميرة خليل أحمد، في نحو اللغة و تراكيبها، جدة، عالم المعرفة، ط 1، 1404 هـ - 1984مـ، 383 ص.

16. كتاب سيبويه أبي بشر عمرو بن عثمان بن قنبر.تحقيق و شرح عبد السلام محمد هارون. الجزء الأول، ط 1، بيروت: دار الجيل، 1966، 430 ص.

17. الكيلاني إيمان "محمد أمين" (الدكتورة). دور المعنى في توجيه القاعدة النحوية من خلال كتب معاني القرآن. عمان: دار وائل للنشر، ط. 1، 2008، 314 ص.

18. موسوعة النحو و الصرف و الإعراب. إعداد الدكتور أميل بديع يعقوب، ط3، بيروت: دار العلم للملايين، 1994،

722 ص.

РЕЗЮМЕ

КУБРА ВАЛИЕВА

КОНЦЕПЦИЯ «ПРЕДЛОЖЕНИЯ» ПО АРАБОВЕДЧЕСКИМ ГРАММАТИСТАМ

Основой синтаксиса в лингвистике является теория предложения. Предложение является основной синтаксической единицей. Оно характеризуется определенным смыслом и структурными особенностями. В Арабской лингвистике также существуют множество мнений арабских лингвистов и мировых востоковедов о предложении.

В статье рассматривается предложение в науке синтаксис, его структура и различные взгляды лингвистов об этом.В результате автор приходит к выводу, что мнения лингвистов, участвующих в изучении арабской грамматики «О предложении» являются оригинальными и объективными научными выводами, которые обогащают арабскую лингвистику.

Ключевые слова: Арабские грамматисты, синтаксис, слово, афоризм, выражение, речь, предложение.

SUMMARY

KUBRA VALIYEVA

THE CONCEPT OF “SENTENCE” ACCORDING TO THE ARABIC GRAMMARIANS

The basis of syntax in linguistics is the theory of sentence.The sentence is the main syntactic unit. It is characterized by certain meaning and structural features.In Arab linguistics there aredifferent opinions on sentence by both Arabic linguists and the world orientalists.

The article deals with sentence, its structure and scientists’ different views on this subject. As a result, the author comes to such a conclusion thatthe opinions related to the content of “sentence” conception by the linguists involved in the study of Arabic grammar are the original and objective scientific findings that enrichthe Arabic linguistics.

Key words: Arabic grammarians, syntax, word, aphorism, expression, discourse, sentence.

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

NİCABƏT İSLAMOVA
AMEA Naxçıvan Bölməsi
İslamovanecabet77@gmail.com

“QAMUSUL-MUHİT”-İN TANINMASINDA MÜTƏRCİM ASIMIN ROLU

Keçmişdən bu günümüzə qədər gəlib çatmış qiymətli əsərlərin yeni nəslə çatdırılmasında tərcüməçilər çox böyük rol oynamışlar. Belə tərcüməçilərdən biri də Asim əfəndidir. “Qamusul-muhit” və “Burhan” kimi qiymətli lüğətlərin yüksək səviyyədə tərcüməsi nəticəsində Asim əfəndi “mütərcim Asim” adını almış və bu adla məşhurlaşmışdır. Eyni zamanda bu əsərlərin tanınmasında Asimin böyük rolu olmuşdur. O, əsərləri tərcümə edərkən əslinə bağlı qalmayaraq özündən əvvəlki kitablardan da istifadə etmiş bu kitablardakı doğru və yanlışları tədqiq edərək üzə çıxartmışdır.

Açar sözlər: Mütərcim Asim, lüğət, “Qamus”, “Burhan”

Ərəb alimləri dilçilik sahəsində bir çox nailiyyətlər əldə etmişlər. Hələ orta əsirlərdə dilçiliklə bağlı ərəb alimlərinin yazdıqları əsərlərə nəzər salsaq görərik ki, onlar fonetik məsələləri daha dəqiq işləmiş, bir neçə istiqamətdə lüğətlər hazırlamış, söz kökünə aid anlayışı düzgün müəyyən etmişlər. Ümumilikdə həmin dövrlərdə Şərqdə dilçiliklə və lüğətçiliklə bağlı çox qiymətli əsərlər yazılmışdır. Əsasən ərəb və fars dillərində yazılmış bu əsərlər tərcüməçilər tərəfindən həmin dövrdə danışılan osmanlı türkcəsinə də tərcümə olunmuşdur. Bu əsərləri geniş oxucu kütləsinə tanıdılmasında tərcüməçilərin xüsusi xidmətləri vardır. Osmanlı sultanları da bu şəxslərə dəstək olaraq qiymətli kitabların çap olunmasını təşkil etmişlər. Belə görkəmli tərcüməçi alimlərdən biri də Mütərçim Asim adıyla tanınan Əhməd Asimdir.

Əhməd Asim tarixçi, şair, amma hər şeydən əvvəl dilçi alim idi. O, görkəmli alim Firuzabadinin ərəb dilində yazdığı “Qamusul-muhit” adlı əsərini “Əl-okiyanul-Basit fi Tərcəmətul-Qamusul muhit” adıyla osmanlıcaya tərcümə etmişdir. Ona şöhrət qazandıran ən qiymətli əsərlər də məhs “Qamusul muhit” və “Burhan” olmuşdur [1, səh148]. Bu iki kitabdan birincinin müəllifi artıq yuxarıda da qeyd etdiyimiz kimi Firuzabadi, ikincisinin müəllifi isə Məhəmməd Hüseyn bin Xaləfi Təbrizi olmuşdur. Bu kitabın ön sözündə Asim əfəndi onu “Qamusul-əcəm” adlandırsada əsər “Burhani-Qati tərcüməsi” kimi məhşurlaşmışdır. Lügətdə fars dilində olan sözlərlə yanaşı, astonomiya, astrologiya, fəlsəfə, təsəvvüf, həndəsə kimi elm sahələrinə də aid müxtəlif məlumatlar almaq mümkündür. Mütərcüm tərcümə zamanı sadəcə mənbədəki məlumatlarla kifayətlənməyib otuzdan çox kitabdan istifadə edərək əsərə

möhtəşəm bir tərtibat vermişdir. Bu kitablardan birinin fars, digərinin isə ərəbcə olduğunu nəzərə alsaq Mütərcim Asimin hər iki dili yüksək səviyyədə bildiyini söyləyə bilərik. Bu iki tərcümədən sonra Əhməd Asim Mütərcim Asim adını aldı və bu adlada məşhur oldu [4, səh 665]. Tərcümə zamanı Asim yeri gəldikcə bu əsərlərə öz fikirlərini də əlavə etmişdir. Həmin əlavələri edərkən "mütərcim deyir ki" ifadəsindən istifadə etmişdir. Asim bu iki əsəri osmanlıcaya tərcümə etməklə cöx mükəmməl əsərlər ərsəyə gətirmişdir. Əgər hər hansı bir sözün mənşəyi və mənası haqqında müxtəlif qaynaqlarda müxtəlif fikirlər irəli sürülmüşsə dəqiq məlumat əldə etmək üçün bu iki əsərə baxmaq kifayət edir. Cünki bu əsərlər luğətçilik sahəsində ən etibarlı qaynaq hesab olunur.

Seyyid Əhməd Asim Antəp Şəriyyə Məhkəməsi Baş katibliyində işləyən Seyyid Məhəmməd Cənani əfəndinin oğlu idi. Əbülziya Mehmed Tevfiq onun 1755-ci ildə Antəpdə dünyaya gəldiyini qeyd edir. Asimin həyatını araşdırdıqda onun çox savadlı və tanınmış nəsildən olduğu məlum olur [1, səh 448].

O, hələ uşaq yaşlarından elmə maraq göstərməyə başlamışdır. Dövrün görkəmli alimləri olan Ömərzadə Hafiz və Hacı Həsənzadədən dərs almışdır. Fars filologiyasını və ədəbi elimləri atasından almışdır. Onun adı həmçinin Kilisin görkəmli şairlərindən olan Ruhi Mustafa əfəndinin tələbələri arasında da çəkilir. Fars və ərəb dillərini gözəl bilməsi ona bu dildə olan əsərləri oxumağa və onlardan faydalanmağa imkan yaratmışdır. Hələ çox gənc olmasına baxmayaraq elmi və savadı sayəsində hamının hörmətini qazanmışdır. Bunun nəticəsidir ki, gənc yaşlarından əvvəlcə məhkəmə katibliyi, sonra isə Battal Paşazadə Seyyid Mehmet Nuri Paşanın divan katibi vəzifəsinə təyin olunmuşdur. Lakin Battal Paşazadə Seyyid Mehmet Nuri Paşa haqqında ölüm fərmanı çıxması nəticəsində Antəpdə qarışıqlıq yarandı. Bu qarışıqlıq Asimə də təsirsiz ötüşmədi. O bütün sərvətini itirdi. Alimə ən çox təsir edən isə onun kitabxanasının talan edilməsi oldu. Asim əfəndi Ailəsi ilə birlikdə Kilisə köçmək məcburiyyətində qaldı [4, səh 665].

Asimin həm tənzimat fərmanlarının oxunduğu dövrlərdə həm də ondan sonrakı dövrlərdə türk dilinin bəsitləşdirilməsi, sadə xalq tərəfindən asan başa düşüləcək bir hala gətirilməsində əvəzsiz rolu vardır. 1789-cu ildə İstanbula gələn Asim burada çox böyük çətinliklərlə üzləşsə də bu cətinliklər onun iradəsinin möhkəmlənməsinə kömək etdi. İstanbula köçməsindən iki il sonra iranlı alim Məhəmməd Hüseyn bin Xəlif əl-Təbrizinin " Burhani- qati" adlı lüğətini fars dilindən osmanlıcaya tərcümə etməyə başlamışdır. "Tibyani-nafi dər tərcamei burhani qati" adını verdiyi bu kitabın tərcüməsini altı ildə başa çatdıraraq sultan III Səlimə təqdim etmişdir. III Səlim onun bu əsərinə yüksək maraq göstərmiş və Asimi çox böyük hörmətlə qarşılamışdır [4, səh 667]. Lakin həmin dövrün şexulislamı olan Şərifzadə Ataullah əfəndi onun bu müvəffəqiyyətinə paxıllıq etmiş və Asimin sultanın yanında xüsusi hörmətə sahib olmasına mane olmağa çalışmışdır. Bunun nəticəsində də sultanın Asimə maaş təyin etməsinə mane olmuşdur. Lakin bütün bunlar onu heç də ruhdan

salmadı. “Burhani-qati” dən sonra ərəbcə və osmanlıca mənzum lüğət də yazaraq hökmdara təqdim etdi. Çalışqanlığı ilə hökmdarın rəğbətini qazanan Asim “vakanuvistlik” adı verilən xüsusi bir vəzifəyə təyin olundu. Bu vəzifənin məqsədi həmin dövrdə baş vermiş bütün hadisələri yerində qələmə almaq idi. Asim ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır.

Mütərcim Asim 1819-cu ildə İstanbulda vəfat etmişdir.

Asimə ən cox şöhrət qazandıran əsər isə Firuzabadinin qələmə aldığı “Qamusul-muhit” əsərinin osmanlıcaya tərcüməsi olmuşdur. Bu əsəri tərcümə etməyi ona müəllimi Abdullah Nəcib Əfəndi tövsiyə etmişdir. Əsər beş ilə tərcümə edilmişdir. Mütərcim Asim həmin əsəri tərcümə etdikdən sonra 1810-cu ildə əlyazma nüsxəsini sultan II Mahmuda təqdim etmişdir. II Mahmud kitabla tanış olduqdan sonra onun nəşr olunmasına göstəriş vermişdir. Əsər 1814-cü ildə nəşr olunmuşdur. “Bunun qarşılığı olaraq isə II Mahmud Asimə III Səlimin dövründə yanan evindən daha böyük bir ev və Sələnik qazılığını vermişdir. “Qamusul-muhit” əlyazma nüsxəsi “Əl okeanul-basit fi tərcəməti-l-qamusul-muhit” adı ilə Murad Molla kitabxanasının I Abdulhəmid bölümündə mühafizə olunur [3, səh 288].

“Qamusul-Muhitin” tərcüməsində sözlər diğər lüğətlərdə olduğu kimi baş hərflərinə görə əlifba sırası ilə düzülməmişlər. Sözlərin düzülüşü qafiyəyə görə, yəni sözün kökünün son hərfinə görə hər hansı bir sözü tapmaq üçün əvvəlcə ərəbcə sözün kökünün necə olmasını bilmək lazımdır. Qeyd etmək lazımdır ki, ərəbcə lüğətlərdə sözlər söz kökləri ilə yazılır. Yəni məsələn, məktub sözünün mənasını bilmək istəyirsənsə, o zaman həmin sözü “m” hərfi ilə deyil “ktb” (kətəbə) söz kökü ilə axtarmaq lazımdır. Ərəb dilində saitlər yazılmır. Buna görə də kətəbə ktb şəklində yazılır. Bu kökdən gələn sözlərə baxaraq məktub sözünün mənasını tapmaq olar. “Qamusul-muhit” lüğətindəki hər maddədə eyni hərflə bitən sözlər yazılmışdır. Bu maddələrdə sözlər bildiyimiz ərəbcə lügətlərdəki sözlər kimi yazılmışdır. Yəni kəlmələrin kökündəki baş hərflərə görə düzülmüşdür. Lüğətin söz tutumu təqribən 60 000-dir [3, səh 288]. Firuzabadinin qələmə aldığı “Qamus” söz tutumuna görə Cövhərinin yazdığı “Sıhahdan” zəif hesab olunur. Asim əfəndi bu lüğəti çox yüksək səviyyədə tərcümə etmişdir. Adı çəkilən əsərlərdən sonra onun Mütərcim Asim adı alması da bunu sübut edir. Həm “Qamus”-un həm də “Burhan” ın tərcüməsi zamanı əsərlərə yeri gəldikcə öz fikirlərini də əlavə etmişdir. Mütərcim Asim “Qamusu” tərcümə edərkən minlərlə arxaik kəlmələrdən istifadə etmişdir. Bunlara bir necə misal cəkək. “Yabca-yabca yürümək”, yəni yavaş-yavaş getmək, “kəmirtlək”, yəni qığırdaq, “dərnəkli”, yəni səliqəli, tör-töküntü olmayan və sairə. “Sihah” və “Qamus” u qarşılıqlı tədqiq edərkən Asim əfəndinin nə qədər mükəmməl bir tərcüməçi və Şərq dillərinə nə qədər dərindən bələd olduğu ortaya çıxır. Məsələn “ Çil” sözü “Qamusul-muhitt” də qirmiziya meyilli olan bir əlamət kimi izah edilir. Asim əfəndi isə onu daha da açaraq dərisi sıyrılmış ət rəngi kimi ifadə etmişdir. Həmin kəlmə çox məşhur əsər olan “Divanu-l-lğatu-l-turk” də “çil- xal, ləkə, əzilmə nəticəsində dəridə əmələ gəlmiş iz” mənasını verir [6, səh 547].

"Qamus" bir neçə dəfə tərcümə edilmişdir. "Qamus" un tərcüməsi 1887-ci ildə üç cild halında nəşr olunmuşdur. Bu cildlərdəki ki səhifələrin sayı 2854-dür. Mütərcim Asim əsəri tərcümə edərkən həmin müəllifin diğər əsərlərindən və başqa lüğətlərdən də istifadə etmişdir. Müəllif lüğəti sətir-sətir tədqiq etmiş, Firuzabadinin fikirlərinə aydınlıq gətirmək üçün öz fikirlərini və izahlarını da əlavə etmişdir. Hər bir sözün üzərində diqqətlə dayanaraq onun osmanlıca olan qarşılığını vermişdir. Ədəbi dildə qarşılığı olmayan sözlərin mənasını müxtəlif bölgələrin ləhcələrində axtarmağa çalışmışdır. Bu zaman onun ən çox müraciət etdiyi dialekt Antəp və onun ətrafında yaşayan əhalinin danışdığı dialekt olmuşdur. Bunun səbəbi də Asimin əslən Antəpdən olması idi. Yəni bu səbəbdən də ən cöx bu bölgənin əhalisinin danışdığı ləhcəni yaxşı bilirdi. Ərəb dilinin söz ehtiyatı həddindən artıq çoxdur, sinonim sözlər də küllü miqdardadır. Buna görə də bəzən hər hansı bir sözün birbaşa qarşılığı olmur. Sözün birbaşa qarşılığı yoxdursa onda Asim həmin sözün hansı mənaya gəldiyini geniş şəkildə izah etmişdir. Asim əsəri çox sadə dildə tərcümə etmişdir. Ümumiyyətlə Asimin dil üslubu haqqında alimlərin fikirləri üst-üstə düşmür. Məsələn Namiq Kamal Asimin dilinin çox sadə və oxunaqlı oduğunu qeyd edir. O, Asimin sadə dil ilə, yeni bir çığır açdığını söyləyir. Lakin Fuad Köprülü bu mövzuya tamam başqa aspektdən yanaşır. O bildirir ki, Asimin əsərlərindən yalnız tərcümə etdikləri asan dillə yazılıb. Asim bunları belə yazmaq məcburiyyətində idi. Cünki həmin dövrdə bütün əsərlər bu üslubda yazılırdı. Köpülü Asimin digər əsərlərinin çox ağır, qəliz, maraqsız bir dillə yazdığını qeyd edir [4, səh 667]. Lakin, Köprülü Asimin bu çətin üslubuna baxmayaraq, möhtəşəm əsərlər yaratdığını çox qüvvətli təsfirləri ilə güclü tərcümələr etdiyini də qeyd edir. Asimin çox geniş lüğətcilik anlayışı var. Başqa alimlərin lüğət tərcümə edərkən ifadə etməyə çəkindiyi və birbaşa tərcüməsini verməyərək dolayı yollarla izah etməyə çalışdığı sözlərin birbaşa tərcüməsini Asim vermişdi. Bununla da osmanlı türkcəsin söz ehtiyyatının nə qədər zəngin olduğunu göstərmişdir. Bu əsər yazıldıqdan sonra dilçilər arasında mübahisəyə səbəb olan sözlər bu kitabdan istifadə edərək aydınlaşdırılmışdır. Mütərcim Asim bu kitabı tərcümə edərkən həmin dövrdə yazılmış digər məşhur kitabların demək olar ki, hamısını gözdən keçirmişdir. Həmin kitabları da yaxından tədqiq edərək burada olan müxtəlif fikirləri bir-biri ilə qarşılaşdıraraq tədqiq etmiş və doğru nəticəni ortaya çıxartmışdır.

"Qamusul muhit" də müxtəlif şəxs adlarına heyvan adlarına, yer adlarına da rast gəlmək mümkündür. Asimin tərcüməsində bu mövzularla bağlı kitabın əslində olmayan lətifələrə, əhvalatlara, hekayələrə də rast gəlmək mümkündür. Müəllif bura həmçinin öz həyatında baş vermiş maraqlı hadisələri də daxil etmişdir. O, bu tərcümədə sözlərin ərəbcə mənalarını izah etməklə yanaşı, onun türkcə olan qarşılıqlarını da göstərmişdir.

Asimə şöhrət gətirən digər bir məşhur əsər də artıq yuxarıda da qeyd etdiyimiz kimi "Burhan" dır. "Burxani-qati" kimi tanınan bu kitabın ön sözündə Asim "Qamusul-əcəm" kimi qiymətləndirərək bu kitaba təriflər yağdırmış və onu "Kitabu-Burhani-Qatul-bəyan" adlandırmışdır.

Hindistanda farsdilli ədəbiyyatln çox yayıldığı dövrlərdə bu əsərləri oxuyub başa düşmə zərurəti meydana çıxdı. Bunun nəticəsində də lüğətçilik inkişaf etməyə başladı Bu dövrdə bir sıra qiymətli lüğət kitabları yazıldı ki, bunlara da “Luğatul-furs”, “Məcməul-furs”, “Fərhəngi Cahangiri” kimi lügətləri misal göstərmək olar. Bunlardan “Luğatul-furs”-un söz tutumu 2278, “Məcməul-furs” un 6000, “Fərhəngi-Cahangiri” nin 6950 kəlmə idi. Dövtünün ən çox kəlmə tutumuna malik olan lüğəti isə Məhəmməd Hüseyn bin Hələfi Təbrizinin “Burhani-qati” lüğətidir. Müəllif bu əsərdə 20000-dən artıq sözü bir araya gətirmişdir [6, səh 548]. Kitaba çox geniş bir müqəddimə yazılmışdır. Məllif burada əsərə “sağlam və rəddi mümkün olmayan” mənasına gələn “Burhani-qati” adını vermişdir. Bundan əvvəlki lüğətlərin bəzilərində sözlərin düzülüşü son hərfə görə, bəzilərində başdan ikinci hərfə görə, bəzilərində isə ilk və son hərflərinə görə düzülmüşdür. “Burhani-qati” də isə sözlər fars əlifbasına görə düzülmüşdür. Həm Hindistanda, həm də bütün Şərq ölkələrində çox böyük nüfuz qazanmasına baxmayaraq bu kitabda da müəyyən çatışmamazlıqlar var. Bu çatışmamazlıqların çox olmas lüğətin həcminin geniş olmasından irəli gəlmişdir. “Burhani-Qati” də də diğər lüğətlərdə olduğu kimi müxtəlif sözlərin izahlarında sitatlar gətirilməmişdir. Bundan əlavə müəllif qədim fars dilini yaxşı bilmədiyi üçün bəzən ərəbcə olan sözlərlər farsca olan sözlərlə qarışıq salmışdır. Həmçinin başqa dillərdən fars dilinə keçən sözlərlə mənalarında da səhvlər vardır. Müəllif müxtəlif yer, tarix və insan adlarını qələmə alarkən də dəqiqlik göstərməmişdir.

Asimin bu əsəri tərcümə etməsinə əsas səbəb lüğətin söz və termin baxımından çox zəngin olması idi. Tərcüməçi bu kitabı tərcümə edərkən 35-dən artıq müxtəlif mənbədən istifadə etdiyini qeyd edir [1, səh 449]. Alim bu kitabı tərcümə edərkən həm bədəncə, həm də ruhca xeyli yorulduğunu da bildirir. Asim bu kitabı altı ilə tərcümə edərək 1212-ci ildə bitirmişdir. “Burhan” həm məzmun, həm də tərtibat baxımından üstün bir kitab kimi qiymətləndirilmişdir. Əsərin fars dilində olan əsl nüsxəsində sözlər səssiz hərflərə görə düzülmüşdür. Bu zaman qısa səsli hərflər nəzərə alınmamışdır. Amma tərcümədə isə bunların ilk qısa səsləri də nəzərə alınaraq fəthə, kəsrə və dammaya əsasən düzülmüşdür ki, bu da oxucunun işini xeyli asanlaşdırır. Asim sözlərin türkcə işlənmə səviyyələrinə görə müxtəlif quruplara ayırmışdır. Bəzi sözləri “türkidə” başlığı altında yazmışdır. Burada Türkiyədə hamı tərəfindən başa düşülən sözlər yazılmışdır. Türkiyədən kənarda olan türkdilli xalqların dilində olan sözləri “Türkistanda” başlığı altında yazmışdır. “Türki-qədim” başlığı altında qədim türkcədə işlənən sözlər yazılmışdır. “Türki-qayri-məhşur” başlığı altında isə çox işlənməyən kəlmələr, “Türki-məhcur” terminini isə ümümiyyətlə, artıq istifadə olunmayan sözlər üçün istifadə etmişdir [6, səh 547]. Tərcümədə həmçinin atalar sözlərinə, müxtəlif yemək və içki adlarına, bunların hansı bölgəyə aid olması haqqında da məlumatlar var. Bundan əlavə burada həmçinin müxtəlif bitki ağac, cicək adları, onların faydaları, müxtəlif

dərman bitkiləri onların hansı məqsədlə istifadə edilməsi haqqında maraqlı məlumatlar tapmaq da mümkündür.

Bu əsər haqqında da "Qamusul-muhit" də olduğu kimi çoxlu şərhlər yazılmışdır. Bu şərhlərdən bəziləri onu tənqid, bəziləri isə tərif edir. Lakin, ümumilikdə götürdükdə əsərlərin hər ikisi həm əsli, həm də tərcümə baxımından mükəmməl bir əsərdir. Onların tanınmasında Mütərcim Asimin çox böyük rolu olmuşdur.

ƏDƏBİYYAT

1. Ahmed Asım, Türk Ansklopedisi. Cild 3, 1971 , səh 448-449, ümumi cild sayı 32
2. Əbuzziya Tevfik "Numuneyi-ədəbiyati-osmaniyyə", İstanbul, matbaayi-Əbuzziya, 1851, tərcümə edən Furkan Özürk, İstanbul 2015, həcmi 1048 s.
3. Kılıc Hulusi. "El-Kamusul-muhit", İslam Ansklopedisi. Cild 24, 2001, səh 287-288, ümumi cild sayı 44.
4. Köprülü Fulad "Asim əfəndi", Türk Ansklopedisi, C.1, İstanbul, 1971, səh 665-671, ümumi cild sayı 32
5. Mütercim Âsım Əfəndi, "Burhan-ı Katı", Hazırlayan: Derya, Ankara: Türk Dil Kurumu Yayınları, 2009, 1197 s.
6. Furat Ahmet Suphi "Arap edebiyyatı tarihi." Edebiyyat Fak. İstanbul, 279 s. 1996.
7. www.Wikipediya.orq

РЕЗЮМЕ

НИДЖАБАТ ИСЛАМОВА

РОЛЬ МУТАРДЖИМ АСЫМА В ПОЗНАНИИ ГАМУСУЛЬ-МУХИТ

Переводчики сыграли огромную роль в переводе ценных произведений, которые передавались из поколения в поколения и дошли до наших времен. Одним из таких переводчиков был Асим ефенди. В результате перевода на высшем уровне таких ценных словарей как «Гамусуль-мухит» и «Бурхан» автор был назван и в далнейшем получил популярност как мутарджим Асым. Стоит также отметить, что он сыграл важную роль в исследовании вышеназыванных произведений. При переводе етих словарей исследователь помимо своего екземпляра привлек к исследованию множество других и более древних рукописей «Гамусуль-мухит» и «Бурхан». В результате текстологических работ были выявлены ошибки и настоящий текст этих словарей. Только после этой деятельности автор переводил сам текст словарей.

Ключевые слова: Мутарджим Асым, лугат, «Гамусуль-лугат» «Гамусуль-Мухит», языковедение.

SUMMARY

NIJABAT ISLAMOVA

THE ROLE OF MUTARJIM ASIM IN THE RECOGNITION OF "GAMUSUL-MUHIT"

Translators have played a major role in delivering valuable works from the past to the present day. One of such translators is Asim Efendi. Asim Efendi was named as translator Asim in the result of the high level translation of valuable dictionaries such as "Gamusul-muhit" and "Gamusul-muhit" At the same time, Asim played a great role in the recognition of these works. While translating the works, he did not depend on the original, but also used previous books and discovered the truth and misconceptions in these books.

Key words: Translator Asim, dictionary, "Gamusul-muhit", "«Gamusul-lughat», "

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

İLHAMƏ RÜSTƏMOVA
Gəncə Dövlət Universiteti
ilhame@mail.ru

AZƏRBAYCANDA VƏ İNGİLTƏRƏDƏ ROMANTİK CƏRƏYANIN MEYDANA GƏLMƏSİNİN TARİXİ SƏBƏBLƏRİ

Romantizm dünya ədəbiyyatı və mədəniyyətinin inkişaf tarixində böyük bir dövr təşkil edir. Dünyada tarixi bir hadisə kimi, romantizm tarixi bir hadisə kimi qiymətləndirilməlidir. Romantizm Azərbaycanda və İngiltərədə ayrı-ayrı tarixi mərhələlərdə cərəyan vermişdir. Bunun səbəbi Qərb ilə Şərq arasında tarixi inkişaf arasındakı xronoloji uyğunsuzluqdur. Romantizm tarixi hadisələrlə sıx əlazəlidir və Azərbaycanda romantizm XX əsrin əvvəllərində İngiltərəyə nisbətən daha sonra baş verib.

Açar sözlər: romantizm, konsepsiya, romantik qəhrəman,tarix.

Romantizm dünya ədəbiyyatının və ümumilikdə dünya mədəniyyətinin ən nəhəng hadisələrindən biridir və böyük, çox mühüm bir tarixi dövrü əhatə edir. Dünya əhəmiyətli hadisə olaraq romantizm bütün regionlarda inkişaf edib və həm ideya, məzmun, həm də poetika xüsusiyyətləri baxımından hər bir milli mədəniyyətin, ədəbiyyatın formalaşmasında çox mühüm rol oynamışdır. Məhz buna görə də romantizm meydana gələn dövrdən bu ədəbi cərəyana çox böyük maraq göstərilir, bu sahədə ciddi tədqiqatlar aparılırdı. Zaman keçdikcə bu maraq azalmır, əksinə, daha da artırdı. Bu da təsadüfi deyil, çünki romantizm cərəyanı sonrakı ədəbi inkişafa son dərəcə böyük təsir göstərmişdi. Belə ki, XX əsrdə romantizm cərəyanının öyrənilməsi ilə Azərbaycanda, İngiltərədə, Rusiyada bir çox görkəmli tədqiqatçılar məşğul olub. Həmin tədqiqatlarda romantizmin tipoloji və spesifik xüsusiyyətləri, onun dünya ədəbiyyatı üçün kəsb etdiyi əhəmiyyət açıqlanır. İngilis ədəbiyyatşünaslığında, daha çox empirik tendensiyalar üstünlük təşkil edir, yəni ümumi problemlərdən, romantik dövrün estetik xüsusiyyətərindən daha çox ayrı-ayrı müəlliflərin yaradıcılığı tədqiq olunurdu. Yəni, ingilis tədqiqatçılarının araşdırmaları nisbətən dar çərçivədə aparılırdı. Azərbaycan ədəbiyyatşünaslığına gəldikdə isə, burada ümumnəzəri və konkret tədqiqatlar arasında nisbət qorunur, saxlanılırdı. Məsələn, M.Cəfərin “Azərbaycan ədəbiyyatında romantizm”, V.Osmanlının “Azərbaycan romantikləri”, A.Hacıyevin “Romantizm və realizm” əsərlərində romantizm dünya ədəbiyyatı üçün ümumi hadisə kimi tədqiq olunur, Azərbaycan romantizmi isə, onun mənbələri, inkişaf yolu, təcrübəsi, həmin kontekstdə, yəni dünya romantizminin tərkib hissəsi kimi öyrənilir. Eyni zamanda

Azərbaycan ədəbiyyatşünaslığında ayrı-ayrı romantiklərin yardıcılığına və hətta ayrı-ayrı romantik əsərlərin təhlilinə həsr olunan tədqiqatlar da az deyil. Yəni, ümumbəşəri xarakter daşıyan ədəbi hadisəyə tam başqa-başqa yanaşma nəzərə çarpır. Avropa ədəbiyyatında romantizmin formalaşması, onun inkişafı meydana gəldiyi dövrdən həmin cərəyanın nəzəri baxımından dərk olunması ilə paralel şəkildə baş verirdi. Belə ki, İngiltərənin görkəmli romantikləri- Vordsvort, Kolric, Sauti, Şelli, Bayron romantik əsərlər yaratmaqla yanaşı, romantik ədəbiyyatın ciddi nəzəri tədqiqatı ilə məşğul olublar. Azərbaycan ədəbiyyatında da romantizmin M.Hadi, H.Cavid kimi dahi nümayəndələri romantik cərəyanı öyrənməyə, onun nəzəri prinsiplərini əsaslandırmağa, Azərbaycan bədii ədəbiyyatında oynadığı rolu qiymətləndirməyə cəhd göstərirdilər. Qeyd edilənlərə əsaslanaraq, tam əminliklə demək olar ki, romantizmin tədqiq olunmasına müxtəlif yanaşmaların olması zəruri bir haldır və bu sahədə mövcud olan nəzəri boşluqlar son illərdə getdikcə azalır.

Onu da qeyd etmək lazımdır ki, ayrı-ayrı romantiklərin əsərlərinin müqayisəsi ön plana çox maraqlı və mühüm bir məsələni çıxarır. Bu məsələ də ümumdünya ədəbi prosesi məsələsidir.Yəni, mill ədəbi ənənələrin, formaların, xüsusiyyətlərin, müxtəlifliyinə baxmayaraq, bütün romantik əsərlərdə ümumi, oxşar cəhətlər vardır. Məhz bu oxşarlıq ayrı-ayrı milli ədəbiyyatların vahid dünya ədəbi prosesi çərçivəsində inkişaf etməsi haqqında nəticə çıxarmağa imkan verir.

Romantizm cərəyanı, romantik sənət və ədəbiyyat həm Qərbdə, həm də Şərqdə inkişaf etmişdi. Burada başq bir ciddi məsələni də vurğulamaq lazımdır: Qərb və Şərq mədəniyyəti kulturoloji və xüsusilə də ideoloji nöqteyi nəzərdən bir çox tarixi mərhələlərdə bir-birindən fərqlənən fenomen idi. Bu səbəbdən Qərb və Şərq çox vaxt bir- birinə qarşı qoyulur, zidd bir məvhumlar kimi göstərilir və nəticədə insanların dünyagörüşündə yalnış təsəvvürlər formalaşırdı. Əslində isə Qərb və Şərq heç zaman biri- birindən təcrid olunmuş şəkildə yaşamamış, inkişaf etməmişdi. Qərbi Avropa və müsəlman Şərqi daima yaxın ünsiyyətdə olmuş və Avropa ədəbiyyatında Şərqə, onun ədəbiyyatına, tarixinə, mədəniyyətinə olan maraq da bundan irəli gəlirdi. Avropa ölkələrində şərqşünas alimlər ciddi tədqiqatlar aparır, İslam dünyasının mədəniyyətini öyrənirdilər. Artıq səlib yürüşləri dövründən avropalılar Şərqdə incə, tam yeni mədəniyyətlə rastlaşmış və buradan çox şey mənimsəmiş, öyrənmişdilər. XIX əsrdə romantik ədəbiyyatda Şərqə olan maraq öz təcəssümünü tam yeni şəkildə tapır. Romantiklərin əsərlərində Şərq romantik qəhrəman üçün ideal bir məkan kimi təsvir olunurdu. Belə mövqe o zaman Avropa gerçəkliyindən, Fransa inqilabından, ona bəslənən ümidlərin puç olmasından, doğrulmadığından irəli gəlirdi. İdeal qəhrəman Avropa reallığı ilə barışmır, ona qarşı mübarizə aparır, özünə layiqli yeri məhz Şərqdə tapırdı.

Universal tarixi hadisə olduğuna görə, romantizm məhz tarixi mövqedən qiymətləndirilməlidir. Ümumbəşəri hadisə olan romantizm Azərbaycanda və İngiltərədə ayrı-ayrı tarixi mərhələlərdə meydana gəlir. Buna səbəb Qərbin və Şərqin tarixi inkişafının xronoloji cəhətdən bir-birinə uyğun gəlməməsidir.

Romantizmin yaranması tarixi hadisələrlə sıx bağlıdır və Azərbaycanda romantizm İngiltərədə olduğundan daha gec–XX əsrin əvvəlində meydana gəlir. Tarixi hadisələrə bağlılıq romantizmin öyrənilməsini sadələşdirmir, bəlkə də, onu daha da mürəkkəbləşdirir. İngiltərədə romantizmin yaranmasına Fransa burjua inqilabı, Azərbaycanda isə XX əsrin əvvəlində milli-azadlıq hərakatı, müstəmləkəyə qarşı mübarizə təkan vermişdi. Bu oxşarlıq da, öz növbəsində tipologiya məsələsini üzə çıxarır. Romantizmi tədqiq edən alimlərin hamısı bir məsələdə həmişə həmfikirdirlər- yaranma zamanından, məkanından, milli xüsusiyyətlərindən asılı olmayaraq, hər bir milli romantizm (bizim tədqiqatda konkret olaraq ingilis və Azərbaycan romantizmi) ümumi cəhətlərə malikdir və məhz buna görə də, dünya ədəbiyyatının ən universal metodlarından biridir.

Qərb və Şərq sadəcə coğrafi məfhumlar deyil, daha çox nəhəng kulturoloji məfhumlardır. Məhz bu səbəbdən romantizmi tarixi kontekstdən ayrı şəkildə təhlil etmək düzgün olmazdı. Qərbi Avropa romantizmi feodal cəmiyyətin dağıldığı, yeni burjua cəmiyyətinin qurulduğu dövrə təsadüf edirdi. Şərq, konkret olaraq Azərbaycan romantizmi isə İranda, Türkiyədə inqilabların baş verdiyi və Yaxın Şərqdə milli-azadlıq hərəkatlarının genişləndiyi vaxta təsadüf edir. Bu da Q.Pospelovun irəli sürdüyü "cəmiyyətlərin və ədəbiyyatların durumunda analogiya" [1, 53], haqqında fikrini təsdiq edir. Romantizmin meydana gəlməsində xronoloji uyğunsuzluq isə bu regionların inkişafında mövcud olan uyğunsuzluqla bağlıdır. Hər bir milli ədəbiyyatın, romantizmin tipologiyası müstəqil bədii sistem kimi tədqiq olunmalıdır. Belə tipologiyanın aktuallığını yalnız dünya ədəbiyyatı çərçivəsində üzə çıxarmaq mümkündür, çünki yalnız belə yanaşma regionalararası müqayisələr aparmaq üçün imkan yaradır.

Romantizm XVIII əsrin sonlarına doğru Avropada meydana gələn bədii, ədəbi və intellektual cərəyandır. İngilis ədəbiyyatında Romantizm dövrü haqqında müxtəlif tarixlər irəli sürülür, lakin Lirik balladanın nəşr olunduğu 1798-ci il bu dövrün başlanğıcı, Kraliça Viktoriyanın tacqoyma mərasiminin baş tutduğu 1837-ci il isə sonu hesab olunur. Bu dövrün yazıçıları özlərini romantik kimi hesab etmirdilər və bu termini ilk dəfə Viktoriya dövrünün ədəbi tənqidçisi işlətmişdir. Romantizm sonradan dünyanın digər ingilis dilli ölkələrinə yayılmışdır.[2,5]

Fransız burjua inqilabı bütün Avropa ölkələrini sarsıtmışdı. Mütləqiyyətin devrilməsi, minilliklərlə qurulan, inkişaf edən ictimai quruluşun məhv edilməsi cəmiyyətdə mövcud olan ziddiyyətlərə son qoymamış, əksinə yeni problemlər yaratmış, qanlı hadisələrə səbəb olmuşdu. Təsadüfi deyil ki, inqlabdan sonra cəmiyyətdə böyük bir çaşqınlıq, məyusluq abu-havası hökm sürürdü. Reallıq gözlənilən nəticələrədən çox uzaq idi, inqilab ona bəslənən arzu və ümidləri doğrultmamışdı. Romantizimin ən əsas xüsusiyyətləri-burjua cəmiyyətinə barışmaz münasibət, ali, yüksək idealların reallıqla uyuşmaması- cəmiyyətdə hökm sürən əhval-ruhiyyədən irəli gəlidi. Romantik sənətin metodunu da, məhz həyata münasibətin mahiyyəti və onun bədii ifadəsi təşkil edir. Həmin münasibət romantiklərin yaradıcılığında tam fərdi şəkildə özünü göstərirdi. Belə ki, Kolricin fəlsəfi axtarışları, Vordsvortun kənd həyatının ideallaşdırması, Şelli-

nin inqilabi utopiyaları, Kitsin gözəllik idealı, Valter Skottun tarixə, keçmişə marağı, Bayronun üsyankarlığı-bunların hamısı sözsüz ki, eyni romantik etirazın müxtəlif formaları idi.

Romantizmin klassik dövrü Böyük Fransa inqilabından XIX əsrin birinci yarısına qədərki vaxtı əhatə edir. Lakin onun Şərqi Avropa xalqlarının və bir çox şərq xalqlarının ədəbiyyatlarındakı təzahürü sonrakı dövrləri əhatə edir. Məsələn, Azərbaycanda romantik cərəyan XX əsrin əvvəllərinə, realist cərəyanla eyni vaxtda yaranıb. Hadi, Cavid, Səhhət kimi klassiklərdə özünü göstərmişdir. Bu, xalqların iqtisadi və ona bağlı olan mədəni tərəqqisindəki qeyri-bərabər inkişafdan irəli gəlir. İqtisadi ləngimə xalqların vahid ümumdünya ədəbi prosesinə qoşulması vaxtını da ləngidir.[3]

Azərbaycan ədəbiyyatında romantik cərəyanın tədqiq edən daha bir maraqlı tədqiqat da A.Hacıyevin “Romantizm və realizm” əsəridir. A.Hacıyev öz tədqiqatında qeyd edir ki, bədii yaradıcılıq probleminin tarixinə retrospektiv nəzər salmadan, əvvəlki ədəbi proseslərdən təcrid olunmuş şəkildə romantizmi təhlil etmək düzgün olmazdı.Tədqiqatçı qeyd edir ki, əslində romantizmin inkişafı yaradıcılıq tipləri problemi ilə sıx bağlıdır və bu məsələ çox zəngin tarixə malikdir. “Yaradıcılıq növləri haqqında müzakirələr artıq antik dövrdə aparılır və bir çox hallarda kəskin mübahisələrə səbəb olurdu. Şərqdə, Orta Əsrlər dövründə həmin problem nəzəri traktatlarda, Şərqin görkəmli ədiblərinin mülahizələrində əks olunurdu. Belə ki, bu problemə Əbdülkahur Curcani, Xatib Təbrizi, Nizami, Nəvai və başqa ədiblər müraciət edərək, onu təhlil etmişlər” [4, 6].

Azərbaycan ədəbiyyatında romantizm cərəyanı tam şəkildə XX əsrin əvvəlində formalaşmışdı və XX əsrin əvvəlində baş verən nəhəng tarixi sarsıntıları özündə əks etdirirdi. Buna əsaslananaraq, M.Cəfər özünün “Azərbaycan ədəbiyyatında romantizm” əsərində problemi belə qoyur: “Azərbaycan romantizmini gec yaranan romantizm hesab etmək olarmı?” [5, 64]. Tənqidçi özü bu suala mənfi cavab verir. M.Cəfərin fikrincə Azərbaycan ədəbiyyatında romantizm mürəkkəb tarixi vəziyyət nəticəsində yaranmışdı. Daha sonra, M. Cəfər həmin tarixi səbəbləri açıqlayır. Alimin fikrincə bu hadisələr ilk növbədə - 1905- ci ilin rus inqilabı və onun Azərbaycanda doğurduğu əks səda ilə bağlı idi. Şərqdə inqlabi ideyaların yayılmasında aparıcı rol oynamaq da məhz Azərbaycanın payına düşmüşdü. Onu da qeyd etmək lazımdır ki, M.Cəfərin Azərbaycan romantizminin meydana gəlməsini bilavasitə 1905-ci il rus inqlabı ilə əlaqələndirməsi o dövrdə estetik problemin həllinə spesifik, partiya yanaşması ilə bağlı idi. Əslində isə romantizmin meydana gəlməsi bir sıra səbəblərin - tarixi, ictimai, ideoloji, estetik səbəblərin - kompleksi nəticəsində formalaşır. Bu səbəblərin arasında ən əhəmiyyətlisi milli şüurun oyanması, bədii-estetik vasitələrlə regional düşüncə çərçivəsindən kənara çıxmaq və xalqın üzləşdiyi problemləri dərk etmək cəhdi idi. O dövrdə ədəbiyyatda paralel olaraq ən müxtəlif axın və cərəyanlar mövcud idi. Onların arasında aparıcı rolu da romantizm və realizm oynayırdı. M.Cəfər tənqidi realizmi “Azərbaycan ədəbiyyatının ən qabaqcıl hadisəsi” adlandırırdı, çünki məhz Azərbaycan realizmi özündə mütərəqqi qüvvələrin ideya və əhval-ruhiyyəsini əks edir,

Şimali və Cənubi Azərbaycanda milli azadlıq hərəkatlarını salamlayırdı [5, 67]. Cəmiyyət keçid dövrünü yaşayanda eyni zamanda bir neçə cərəyanın mövcud olması da mümkündür. M.Cəfər ədəbi cərəyanların bölgüsünü bilavasitə siyasi qüvvələrin bölgüsü ilə əlaqələndirirdi. Bu mövqeyini əsaslandırmaq üçün M.Cəfər Ü.Hacibəyovun sözlərinə müraciət edir: "1905-1906-cı illərin təsiri Azərbaycanda yeni inkişaf və təkamül mənbələri yaratmışdı. Bu mənbələrdən saçan nur hər yerə yayılmalı və geriliyin ən qaranlıq guşələrini işıqlandırmalı idi" [5, 73]. Burada yenə də bir sıra məqamlar dəqiqləşdirilməlidir: birincisi, Ü.Hacıbəyov bilavasitə 1905-1906-cı illərdə baş verən inqilabi hadisələri nəzərdə tutmur, ikincisi Ü.Hacıbəyov inqilabdan çox "tərəqqi və təkamül" haqqında fikirlər söyləyirdi. Yəni, Ü.Hacıbəyovun 1905-ci ilin inqilabi hadisələrinə baxışları M.Cəfərlə müqayisədə daha geniş və çoxcəhətlidir. Həqiqətən, XX əsrin əvvəlində Rusiyada və Yaxın Şərqdə çox mürəkkəb, bir- biri ilə sıx əlaqədə olan tarixi hadisələr baş verirdi: inqilab, milli azadlıq hərəkatı, demokratiyaya doğru inkişaf, Rusiyada dövlət idarəçiliyində dəyişikliklər və b. Ümumiyyətlə, XX əsrin əvvəlində həm Avropa, həm Asiya xalqları mürəkkəb və ziddiyyətli tarixi və siyasi tendensiyalara cəlb olunmuşdu. Bu da müxtəlif bədii-estetik konsepsiyaların yaranmasına təkan verirdi. Həmin səbəbdən Azərbaycan ədəbiyyatında o zaman tənqidi realizm və romantizm birgə fəaliyyət göstərir və bu cərəyanların hər biri müəyyən bədii-estetik vəzifəni yerinə yetirirdi. Bu tam təbii hal idi, çünki yeni tarixi şərait bir çox aktual problemləri üzə çıxarırdı. XIX əsrin sonunda-XX əsrin əvvəlində Azərbaycan ədəbiyyatında yeni nəsil yazıb yaratamağa başlayır. Həmin ədiblər artıq demokratik mövqedən çıxış edir və Azərbaycan ədəbiyyatında yeni insan konsepsiyası formalaşırdı. Həmin konsepsiya insanın şeir, poeziya vasitəsi ilə fəal mübarizə aparmasından ibarət idi. Eyni zamanda, həmin konsepsiya abstrakt üsyankarlıq və maarifçilik illüziyalardan uzaqlaşır və mürtəce dini ədəbiyyata qarşı çıxış edirdi. Yeni ədəbiyyatın formalaşmasında tərcümələr də mühüm rol oynayırdı. Bir sıra Azərbaycan ədibləri məhz vətəndaş poeziyasının tərcümələrinə müraciət edərək, Rusiyanın özündə baş verən demokratik proseslərə Azərbaycan oxucularını da cəlb edirdilər. Bu da öz növbəsində demokratik ideyaların daha geniş yayılmasına imkan yaradırdı.

Azərbaycan romantizmində insan şəxsiyyətinin dəyəri, ləyaqəti ətraf həyata bəslədiyi nifrətlə, onunla qarşıdurması ilə ölçülmür. Azərbaycan romantizmində qəhrəman ilk növbədə xalqına, insanlara, bütün bəşəriyyətə xidmət edir və əsas qiyməti də ona xalq verir. Yəni bu personajlar elitarlıqdan uzaqdır, onlar xalqın içindən çıxıb. Bu baxımdan, Azərbaycan romantik ədəbiyyatında yaranan qəhrəmanlar şübhəsiz, Bayronun tənha, özünü bütün dünyaya qarşı qoyan romantik qəhrəmanlarında mənən üstündür [6, 41].

İngilis ədəbiyyatında romantik qəhrəman hər bir milli ideyadan uzaqdır. Bu da tarixi durumla bağlıdır. İngiltərə özü möhtəşəm imperiya olduğu halda, milli istiqlal mövzusu ingilislər üçün aktual deyildi. Azərbaycan ədəbiyyatında romantik qəhrəman real həyata müəyyən mənada daha yaxındır. Burada nə Bleykin mifik obrazlarına, nə də Şellinin yaratdığı əfsanəvi qəhrəmanlara yer

yoxdur. Bu obrazlar konkret olaraq Vətənin azadlığı, ana dili, uğrunda mübarizə aparır. Deyilənlərə əsaslanaraq, tam əminliklə demək olar ki, Azərbaycan romantiklərinin yaratdığı qəhrəman ingilis romantik qəhrəmanından mənəvi cəhətdən daha üstündür.

ƏDƏBİYYAT

1. Поспелов Г.Н. Искусство и эстетика. М.: Искусство, 1984
2. The Norton Anthology of English Literature, 7th edition, vol.2, p. 5
3. Rəhim Əliyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008.
4. Гаджиев А. А. Романтизм и реализм. Баку: Элм , 1972
5. Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Az.SSR EA,1963
6. 26. İsmayılov Ə. Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında “demonizm” ənənəsi. Bakı: Elm, 1991, 224 s.

РЕЗЮМЕ

ИЛЬХАМА РУСТАМОВА

ИСТОРИЧЕСКИЕ ПРИЧИНЫ ПОЯВЛЕНИЯ РОМАНТИЧЕСКОГО ТЕЧЕНИЯ В АЗЕРБАЙДЖАНЕ И В АНГЛИИ

Романтизм представляет собой огромную эпоху в истории развития мировой литературы и культуры. Поскольку всемирно историческое событие, романтизм следует оценивать исторически. Романтизм, происходил на отдельных исторических этапах в Азербайджане и в Англии . Причиной этого является хронологическое несоответствие исторического развития между Западом и Востоком. Романтизм тесно связан с историческими событиями, а романтизм в Азербайджане произошел позже, чем в Англии - в начале двадцатого века.

Ключевые слова: романтизм, концепция, романтический герой, история.

SUMMARY

ILKHAMA RUSTAMOVA

THE HISTORICAL REASONS OF EMERGENCE OF ROMANTICISM IN AZERBAIJAN AND IN ENGLAND

Romanticism is a great epoch in the history of world literature and culture. As a worldwide historical event, romanticism should be evaluated historically. Romanticism occurred in separate historical stages in Azerbaijan and in England. The reason for this is the chronological mismatch of the historical development between the West and the East. Romanticism is closely linked to historical events, and romanticism in Azerbaijan occurred later than in the England - at the beginning of the twentieth century.

Keywords: romanticism, conception, the romantic hero, history.

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

CƏMİLƏ MƏHƏRRƏMOVA
AMEA NaxçıvanBölməsi
CemileNihatMeherremova@gmail

PASSİV FONDA KEÇMİŞ BİR SIRA OYKONİMLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ (BABƏK RAYONU)

Məqalədə Babək rayonuna daxil olan və hazırda passiv fonda keçmiş oykonimlərdən və eyni zamanda Babək rayonuna daxil olan oykonimlərin yaranma yollarından və Naxçıvan ərazisində yaşamış prototürk tayfaların bu adların yaranmasında əsas rol oynamasından bəhs olunur. Burada passiv fonda keçmiş kəndlər araşdırılmış, bu kəndlərin adlarının passiv fonda keçmə səbəbləri izah edilmiş və oykonimlərdən bəziləri (Ərəfsağı qışlağı kəndi, Alagözməzrə kəndi, Hacıabad kəndi, Kərəm çatağı kəndi, Qalacıq kəndi, Qarabulaq kəndi, Qaraquş kəndi, Qaraca kəndi, Qarağac kəndi, Məmmərzəbəy Dizə kəndi, Naxçedəniz kəndi, Sürməlik kəndi, Tüqavil kəndi və s.) linqvistik tədqiqata cəlb edilmişdir. Məqalədə yeni elmi nəticələr əldə edilmişdir.

Açar sözlər: Babək rayonu, oykonim, passiv fond, Ərəfsağı qışlağı, Alagözməzrə, Hacıabad, Kərəm çatağı, Qalacıq, Naxçedəniz, Sürməlik kəndi

Mənbələr tarixin yaddaşı, aid olduqları dövrün parlaq səlnaməsidir. Bu səlnamələrin hər səhifəsində tarixi fakt və gerçəkliklər öz əksini tapır və müxtəlif vasitələrlə gəlib bizə çatır. Toponimlər tarixin yaddaşını yaşadan əhəmiyyətli mənbələrdəndir. Bu abidələrin öyrənilməsi və müasir elmi səviyyədə araşdırılması üçün xaraktercə müxtəlif mənbələr vardır. Belə mənbələr sırasına qədim və orta əsrlərə aid abidələr, yazılı və şifahi ədəbiyyat nümunələri, aşıq ədəbiyyatı, elmi bədii və tarixi əsərlər, qədim və müasir xəritələr, müxtəlif lüğət və ensiklopediyalar, tarixi sənəd və arxiv materialları, qəzet və jurnal materialları, əhalinin siyahıya alma sənədləri, statistika idarəsinin məlumatları və s. daxildir. Onomologiya üçün xarakterik olan bu mənbələr Naxçıvan Muxtar respublikası Babək rayonun ərazisindəki onomastik vahidlərin də araşdırılıb üzə çıxarılmasında mühüm rol oynayır. Məlumdur ki, Naxçıvan, həmçinin tədqiqata cəlb etdiyimiz Babək rayonuna daxil olan bir çox kənd Azərbaycanın və dünyanın ən qədim yaşayış məskənlərindəndir. Ərazidə aparılan arxeoloji qazıntılar, əldə edilən maddi mədəniyyət abidələri, yer-yurd adları bu diyarın qədimliyini tarixi faktlar əsasında təsdiqləyir.

Babək rayonun passiv fonda keçən oykonimləri bunlardır: Alagözməzrə kəndi, Abbadlı kəndi, Almalı kəndi, Badamaqaya kəndi, Başkənd kəndi, Canıqışlağı kəndi, Dərəşam kəndi, Dibkənd kəndi, Didabad

kəndi, Əlincə məzrəsi kəndi, Ərəfsağı qışlağı kəndi, Hacıabad kəndi, Həsənağa Dizə kəndi, Xəlil xarabası Məzrəsi kəndi, Xəlifə düzən Məzrəsi kəndi, Xocamverdi Məzrəsi kəndi, Xoşlu qışlağı kəndi, İşıqlar kəndi, Kərimbəy dizə kəndi, Kərəm çatağı kəndi, Kiçik Tumbul kəndi, Kolanı kəndi, Köhnə Vayxır kəndi, Qalacıq kəndi, Qarabulaq kəndi, Qaraquş kəndi, Qaraca kəndi, Qarağac kəndi, Qiyaslı kəndi, Qulubəy kəndi, Qırdəş kəndi, Qızılca qışlaq kəndi, Lizbirt kəndi, Məmmərzəbəy Dizə kəndi, Molla Həmdi Məzrəsi kəndi, Moylu kəndi, Naxçedəniz kəndi, Sərav kəndi, Sust kəndi, Sübhanverdi Dizə kəndi, Sürməlik kəndi, Şeyxyusifli kəndi, Təhnəli kəndi, Tüqavil kəndi, Yezdabad kəndi, Yemxana kəndi, Yengicə kəndi, Zeynəddin məzrəsi kəndi, Zəvələ kəndi.

Alagözməzrə kəndi. Babək rayonunda qədim kənd adıdır. 1727- ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə (11, s. 26), 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə adı çəkilmişdir. Bu kənd adı hər iki mənbədə də Sair Məvazi nahiyəsinə daxil olmuşdur. XIX əsr mənbələrində bu kənddə yaşayış olmadığı qeyd olunmuş, ad antroponim səciyyəli adlar sırasına daxildir. A.Bağırovun tədqiqatlarında oykonim Alagöz elinin adı ilə bağlı kimi izah edilmişdir (1, s. 102). Sonralar isə Alagöz sözü ixtisar edilmiş və Məzrə şəklində qalmışdır. Məzrə yaşayış olmayan, boş qalmış yer deməkdir. Məntəqə adının dəyişdirilməsi səbəbindən oykonim passiv fonda keçmiş hesab olunur.

Ərəfsağı qışlağı kəndi. 1590-cı il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə bu məntəqə adı Naxçıvan sancağının Sair Məvazai, Qarabağ, Ordubad qəzasının Əlincə və Sisyan nahiyələrində “böyük”, “kiçik” fərqləndirici coğrafi ad göstəricisi ilə “Ərəfsaq”, “Ərəfsa”, “Ərəfsağı”, “Ərəfsəcik”, 1728-ci illər “İrəvan əyalətinin icmal dəftər”ində isə, Sisyan nahiyəsində “Ərəfsayi” kimi yazılışlarda qeydə alınırlar (11, s. 27, 29; 8, s.150, 182-183). Bu adlar müxtəlif tədqiqatlarda ərəb fars sözləri ilə “üç ərəb ” kəndi mənasında izah edilmişdir. K.N.Smirnov, İ.N.Şopen, B.Ə.Budaqov və başqalarına istinad edən Adil Bağırov adın kəngərlilərin “ərəfsəli” tayfası adından, yarandığını, həmçinin də bu tayfa adının da “Sofulu” qolundan ayrılma olduğunu yazmaqla adın yazılşındakı “saq” komponentini *sak* tayfa adına bağlamağı da ehtimal edir (1, s. 69). F.Rzayevin isə bu adın sak tayfa adı ilə bağlı olduğunu tam əminliklə yazır. Adın yazılışına diqqət yetirsək, adın üç komponentdən “ər-əf-sağ” tərkib hissələrindən ibarət olduğunu aydın şəkildə görürük(13, s.171). Burada “*ər*” - kişi, igid, “*əf*”-əv kimi f ≈ v fonetik dəyişmədə ifadə etsək ev yaşayış yeri, “*sağ*” isə ğ ≈ k səs əvəzlənməsi şəklində sak tayfa adı ilə bağlı yaranmışdır. Bütövlükdə bu məntəqə adının mənasını “*Sak ərlərinin evi, yurdu”* kimi izah etmək daha məqsədə uyğundur.

Hacıabad kəndi. Babək rayonunda qədim kənd adıdır. 1727- ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Naxçıvan sancağının Naxçıvan nahiyəsində (11, s. 24) Hacıbala, Hacıvar variantlarında qeyd olunmuşdur. Sonrakı mənbələrdə isə Hacıvar və Yuxarı Hacıvar variantlarında işlədilmişdir. 1936-cı ildə Hacıvar adı Azadkənd adı ilə əvəz olunmuş (15) və

sonradan Hacıvar şəklində bərpa olunmuşdur. K.N.Smirnovun fikrincə, Hacıvar adı kəngərlilərə məxsus tayfa adıdır. T.Əhmədovun yazdığına görə isə *var* qədim İran dillərində düzəltmə formaları ilə "şəhər; qala; divar; yeraltı ev; qazma" mənalarında, etimoloji cəhətdən "hasarlama, çəpərləmə, möhkəmlətmə, istehkam, heyvanlar üçün divarla hörülmüş tövlə, divar, hasarlanmış kənd və s." deməkdir. Bu söz vaxtilə Azərbaycan dilində "köç yeri, hər hansı bir icmanın yurdu alçıq yeri", geniş mənada isə "yaylaq icmalarına məxsusu yurd, məskən, otlaq" mənaları daşımışdır(1, s. 59). Umumiyyətlə *var* sözü *abad* topoformatına yaxınmənalı söz olub, daha çox "kənd, köç yeri, yurd, məskən " mənalarını bildirir. Hacıabad məntəqə adı iki (hacı və abad) komponentlərindən ibarətdir. Birinci tərkib hissə şəxs adı *Hacı* ikinci tərkib hissə isə *abad* yəni yuxarıda verildiyi kimi *kənd köç yeri yurd* məskən deməkdir və bütövlükdə hacıya məxsus yer, yurd, məskən kimi izah olunur. Birinci tərkib hissəsi şəxs adı olduğu üçün məntəqə adı antroponomik səciyyəli oykonimlər sırasına daxildir. Məntəqə adı hazırda Hacıvar şəklində işlənir. Hacıabad formasına rast gəlinmədiyi üçün məntəqə adı passiv fonda keçmiş hesab olunur.

Kərəm çatağı kəndi. 1590 il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə və 1727- ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu məntəqə adı Kərəmçataq və Kərəm çatağı şəklində Mülki-Arslan nahiyəsində qeydə alınmışdır (8, s. 166; 11, s. 28). XIX əsrdən sonrakı dövrlərə qədər bu ad Kərməçataq, Kərim çatax, Gərməçataq variantlarında işlənmişdir. Oykonim iki leksik vahiddən (Gərmə və çataq) ibarətdir. İkinci komponent olan "Çataq" sözü "iki dağın birləşdiyi yer" mənasını ifadə edir (5, s. 64). *Gərmə* isə "Kərimə", "Kərəmə" sözlərinin fonetik dəyişikliyə uğramış formasıdır. Bütövlükdə "*iki dağın birləşdiyi yerdə Kərəmə(Kərimə) məxsus yer "* mənasını daşıyır. Antroponim səciyyəli adlar sırasına daxildir. Məntəqə adı hazırda Gərməçataq şəklində işlənir. Kərəmçatağı formasına rast gəlinmədiyi üçün məntəqə adı passiv fonda keçmiş hesab olunur.

Qalacıq. Məntəqə adına 1590-cı il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Naxçıvan qəzasının Naxçıvan nahiyəsində, 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə İrəvan livasının Karbi nahiyəsində, 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan qəzasının Qışlağat nahiyəsində rast gəlinir. Sonrakı XVIII əsrin sonu və müasir dövrümüzə qədərki mənbələrdə bu ada rast gəlinmir. Qala müdafiə istehkamı məqsədli tikilidir. Əsasən, iri, yonulmamış qaya parçalarından hörülən qalalardan həm müdafiə məqsədilə, həm də heyvanları saxlamaq və yaşamaq məqsədilə istifadə olunmuşdur. B.Budaqov və Q.Qeybullayevin yazdıqlarına əsasən, 1590-1728 illərdə İrəvan və Naxçıvan əyalətlərində 16 Qalacıq adlı kənd var imiş. (6, s. 176) Qalacıq kəndi Qarabağlar kəndinə yaxın ərazidə yerləşirmiş. Arxeoloji qazıntılar bu kəndin xarabalıqlarını aşkar etmiş və qədim yaşayış məntəqəsini müəyyənləşdirmişdir. Deyilənə görə , Qarabağlar kəndinin əsası Qalacıq kəndindən köçənlər tərəfindən qoyulmuşdur. Bu fikirlər həqiqətə uyğun deyil. Çünki, 1590-cı ildə Qarabağ nahiyə mərkəzi, Qalacıq isə

ayrıca kənd imiş. İndi Qarabağlar kəndinin qoşa minarə yerləşən ərazisi Qalacıq adlanır (1, s.156). *Qala* və kiçiltmə mənalı *–cıq* şəkilçisinin birləşməsi ilə yaranan bu ad, yəni Qalacıq oykonimi “kiçik qala” mənasında işlənir. Məntəqə adının hazırda xarabalıqları qaldığı üçün passiv fonda keçmiş hesab olunur.

Qarabulaq. Məntəqə adı 1727-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Naxçıvanın Qarabağ nahiyəsində (11, s. 29), 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə Naxçıvan livasının Qarabağ nahiyəsində qeydə alınır. Sonrakı XVIII əsrin sonu və müasir dövrümüzə qədərki mənbələrdə bu ada rast gəlinmir. *Qara* və *bulaq* hissələrindən ibarətdir. Burada qara komponenti “böyük”, “iri”, “nəhəng” mənalarında işlənmiş “bulaq” komponenti isə hidronim nomen-ad göstəricisidir. Məntəqə adının hazırda xarabalıqları qaldığı üçün passiv fonda keçmiş hesab olunur.

Qaraquş kəndi. Məntəqə adına 1590-cı il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə Naxçıvanın Mülki-Arslan nahiyəsində, 1727-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Naxçıvanın Mülki-Arslan nahiyəsində (11, s. 28), 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə Naxçıvan livasının Mülki-Arslan nahiyəsində qeydə alınır. XIX əsr və ondan sonrakı illərdə olan mənbələrdə bu ada rast gəlinmir. Qaraquş adının qara komponenti “böyük”, “uca”, “geniş” mənasında, quş komponenti isə qədim hunlara məxsus quşan tayfa adı ilə bağlı yaranmışdır. Mənası “quşanlara məxsus uca yer, geniş məkan” deməkdir (1, s. 158). İzahlardan da aydın olur ki, bu məntəqənin adı qədim hunların quşan tayfasının bu əraziyə köçməsi və burada məskən salması ilə əlaqədardır. Bu məntəqə adı tayfa adı ilə bağlı yarandığı üçün etnooykonim hesab olunur. Məntəqə adının hazırda xarabalıqları qaldığı üçün passiv fonda keçmiş hesab olunur.

Qaraca. Məntəqə adı 1727-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Naxçıvanın Qışlağat nahiyəsində(11, s. 30), 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə Naxçıvan livasının qeydə Qışlağat nahiyəsində alınır. Bu ada sonrakı tarixi qaynaqlarda rast gəlinmir. Azərbaycan dilinin izahlı lüğətində bu sözün müxtəlif variantlarına rast gəlmək olur. Qaraca sözü bütövlükdə morfoloji cəhətdən sifət kimi *“qara rəngli, qaramtıl, dəyərsiz qiymətsiz”*, isim kimi isə *“dəni qara toz halına salan taxıl xəstəliyi”* mənalarında göstərilmişdir. Lakin “*qara”*sözünün ayrılıqda leksik mənasının nəzərə alsaq*“böyük, güclü, əzəmətli, nəhəng, hündür”* və s. bu izahlar məntəqənin etimoloji izahına uyğun gəlmir. Aydın Paşayev, Alimə Bəşirovanın birgə hazırladığı “Azərbaycan şəxs adlarının izahlı lüğəti” kitabında “*Qaraca”* sözü şəxs adı kimi izah olunmuş və bütövlükdə*“əzəmətli, nəhəng, güclü”*anlamlarını ifadə edir və bu da məntəqəninin adının etimologiyasının antroponim səciyyəli oykonim olduğunu sübuta yetirir. Məntəqə adının hazırda xarabalıqları qaldığı üçün passiv fonda keçmiş hesab olunur.

Qaraağac. Məntəqə adı 1727-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə, 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə

Naxçıvan livasının Qışlağat nahiyəsində qeydə alınır (11, s. 30). Bu ada sonra tarixi qaynaqlarda rast gəlinmir. Naxçıvan əhalisi qədimdə yaşayış yeri seçərkən, obalarına, yurdlarına, yaşayış yerlərinə ad verərkən ərazinin bitki örtüyünün zənginliyini də diqqət yetirmiş, və öz müşahidələrinə da çox əsaslanmışdır. Və buna görə də Naxçıvanın onomastik sistemində fitonim səciyyəli coğrafi adlar da yaranmışdır. Qaraağac bitkisinin zənginliyi ilə əlaqədar yaranmış və yaxud da *qara* sözünün leksik-semantik mənasını nəzərə alaraq *"uca, hündür ağacların yerləşdiyi yer məkan"*adlandırmaq olar. Məntəqə adının hazırda xarabalıqları qaldığı üçün passiv fonda keçmiş hesab olunur.

Məmmərzəbəy Dizə kəndi. Babək rayonuna məxsus bu kənd adı XVIII əsrin sonu və ya XIX əsrin əvvəllərində Məmmədrza adlı şəxs tərəfindən qoyulmuş və həmin vaxtdan 1950-ci illərə qədər Məmmədrza Dizə adını daşımışdır. Kəndə 1950-ci illərdən sonra Sovet hakimiyyəti illərində Yeniyol adı verilmişdir. 2003-cü ildən etibarən isə məntəqə adı yenidən Məmmədrza Dizə kəndi şəklində bərpa olunmuşdur. Məntəqə adının dəyişdirilməsi səbəbindən oykonim passiv fonda keçmiş hesab olunur.

Naxçedəniz. Məntəqə adı 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan livasının Sair Məvazi nahiyəsində, 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Naxçıvan livasının Sair Məvazi nahiyəsində qeydə alınır (11, s.30). Bu ada sonrakı tarixi qaynaqlarda yaşayış olmayan kəndlər sırasında Naxış Nərgiz, Nəqşi Nərgiz kimi variantarında rast gəlinir. Qədim yaşayış məntəqəsi olan bu kənd Babək rayonun Pircuvar düzündə Əshabül-kəhf yolunun kənarında yerləşir. Hazırda kənd yoxdur, ancaq kəndin ərazisi el arasında Naxışnərgiz kimi tələffüz olunur. Adın izahı barədə danışan mərhum akademik Ziya Bünyadov yazır ki, Naxçe-dəniz yaşayış məntəqəsinin yerini müəyyənləşdirərkən maraqlı bir faktla qarşılaşdıq "Naxçedəniz" adlı yaşayış məntəqəsi bu günkü "Nəqşi-Nərgiz " kəndinin ərazisinə təsadüf etdi. K.A.Nikitin "Dəniz" kəliməsinə belə aydınlıq gətirir: Naxçıvanın 7 verstliyində dağ çayının axarı boyunca "Naxşu-narqiz" adlı karbonat bulaqlara rast gəlmək olar. Görünür ki osmanlıların "dəniz" kimi yazdıqları kəlimə "bulaq" mənasında, "naxçe" sözü isə bəlkə "turş, duzlu" anlamında işlənmişdir (11, s.20). Adil Bağırov isə Naxçedəniz adındakı Naxçe komponentinin Naxçıvan sözündəki "naxç" komponenti arasında bir yaxınlıq, eyniköklülüyün özünü göstərdiyini yazır. Lakin F.Rzayev adın izahı ilə bağlı yazır ki, bu ad *Nax* etnos adından, eləcə də yazıyaqədərki dövr türk dili elementləri olan –çı məsubluq şəkilçisi, "ten"- düzən, "iz/ is"- zəkalı, ağıllı mənalı leksik vahidlərdən formalaşmışdır və Naxçedəniz sözünün mənasını Ağıllı Nax düzənliyi kimi izah etmişdir. Aparılan bütün tədqiqatlardan sonra bu məntəqə adının mənasını "Naxlara-nax tayfasına məxsus bulaqlar" kimi izah edə bilərik. Məntəqə adının hazırda xarabalıqları qaldığı üçün passiv fonda keçmiş hesab olunur.

Sürəməlik kəndi. Məntəqə adına 1590-cı il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Naxçıvanın Naxçıvan nahiyəsində Yuxarı və Aşağı

Sürəmərk, 1727-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Naxçıvanın Sair Məvazi nahiyəsində Yuxarı və Aşağı Surəmərc, 1874-1892-ci illərə aid arxiv materiallarında Naxçıvan uezdinin tərkibində Surəməlik(16) kimi formalarda rast gəlinir. Elnur Kəlbizadə Sürəməri qalası haqqında tədqiqat apararkən, Naxçıvan ərazisində (indiki Babək rayonu ərazisində) XX əsrin ortalarına qədər Sürəməlik toponiminin mövcud olduğunu qeyd etmişdir. AMEA-nın müxbir üzvü Adil Bağırov da, XVI əsrin sonlarına qədər bu ad Yuxarı Sürəmərək və aşağı Sürəmərək adları ilə qeydə alındığını yazmışdır. XX əsrin ortalarından etibarən bu məntəqə adı haqqında heç bir məlumat yoxdur. Sürəməlik bir sıra tədqiqatlarda sürəməlik yazılışında izah olunmuş və *sur* komponentini ərəb dilində qala, məlik isə səxs adı olaraq göstərilmişdir. Ümumilikdə Sürəməlik məntəqə adı “Məliyə məxsus qala” kimi izah olunmuşdur(1, s.187). F.Rzayev bu məntəqə adının izahını Şir tayfa adı ilə bağlayaraq yazır ki, bu adda *u* saiti düşmüş və ilkin variantda *sür+əm+ər+uk* şəklində Şir tayfa adı və prototürk dil elementləri ilə formalaşmışdır. Şir tayfa adına qoşulan **im/em**- *sadə xalq, bəzən də xeyirə aparan yol*, **ər** *–kişi igid*, **ik/uk**- oğul varis kimi qədim türk sözləri məntəqə adını “Şarların sadə igid oğlu” mənasında izah edir müəllif adda türk dilləri üçün xarakterik olan ş≈s, a≈ü, e≈ə, u≈i fonetik səsəvəzlənmələri ilə qarşılaşdığını söyləmişdir(13, s. 296-297). Məntəqə adı etnonim səciyyəli oykonimlər sırasına daxildir və bu kəndin ərazisində əhali yaşamadığı və müasir coğrafi bölgüdə yer almadığı üçün passiv fonda keçmiş hesab olunur.

Tüqavil. Bu məntəqə adına ilk dəfə 1728-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Naxçıvanın sancağının Qarabağ nahiyəsinin Qıvraq və Sənkam kəndləri arasında Tüqavil formasında rast gəlinir (11, s. 29). Sonrakı mənbələrdə bu məntəqə adına rast gəlinmir. İlk dəfə bu məntəqə adını tədqiqata F.Rzayev cəlb etmişdir. Həm tarixi, həm də dilçilik baxımından Tuq +av+il quruluşunda birhecalı yaranışla bir daha qədimliyini təsdiq edən bu məntəqə adı, etimoloji cəhətdən ilk dəfə izah olunur. **Tuq** tayfa adına qoşulan av sözü qədim türklərdə əcdad mənasını daşımış, il isə bəzi sözlüklərdə “tutan, saxlayan” mənalarında işlənmişdir. Bununla bərabər biz “*il*” sözünə “Oğuznamədə” və “Orxan-Yenisey” yazılarında, eləcədə V.V.Radlovun sözlüyündə “yurd, bölgə” mənalarında da rast gəlirik. Bu gün də söz xakas, şor, tuvin dillərində “ulus”, “kənd”, osmanlı türklərində isə “bölgə”, “inzibati ərazi” mənalarında “il” şəklində işlənməkdədir(13, s. 457). Biz bu məntəqə adının “tuq tayfalarının əcdadlarının yurdu” mənasında olduğunu düşünürük. Məntəqə adı tuq tayfalarının adı ilə bağlı yarandığı üçün etno oykonimlər sırasına daxildir. Məntəqə adının hazırda xarabalıqları qaldığı üçün passiv fonda keçmiş hesab olunur.

Məlumdur ki, əsrlər boyu əraziyə xarici hücumların çoxalması nəticəsində Naxçıvan ərazisi müharibələr meydanına çevrilmiş, ərazinin maddi- mədəniyyət abidələri, var-dövləti soyğunçuluq və qarətlərə məruz qalmış və bu hadisələr ərazinin toponimlər sisteminə, xüsusilə də oykonimlər sisteminə də öz təsirini göstərmişdir.

Aparalan elmi araşdırmanın nəticəsində tədqiqata cəlb etdiyimiz Babək rayonunun passiv fonda keçmiş oykonimlərinin Azərbaycan , Türk mənşəli olduğu qənaətinə gəlirik .

ƏDƏBİYYAT

1. Bağırov A. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333s.
2. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri.Bakı: Elm, 2002,286 s.
3. Bağırov A.Onomologiya problemləri I cild Bakı: Elm və təhsil, 2010, 436 s.
4.Bağırov A.Onomologiya problemləri II cild Bakı: Elm və təhsil, 2012, 413 s.
5. Budaqov B, Qeybullayev Q.Naxçıvan diyarının yer yaddaşı Bakı:Nafta-press,2004,120s.
6. Budaqov B, Qeybullayev Q.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti.
Bakı:Oğuz eli,1998,452s.
7. İmanlı A. Qədim türk oykonimləri.Bakı:«Ləman» nəşriyyat poliqrafiya, 2017, 95 s.
8. İrəvan əyalətinin icmal dəftəri.Bakı: Elm,1996, 184 s.
9. Kəlbizadə E. Naxçıvanın tarixi Coğrafiyası(XII-XVIII əsrin birinci yarısı), Naxçıvan:Əcəmi NPB, 2016, 200 s.
10. Гейбуллаев Г. К этногенезе азербайджанцев. Т.I, Баку:Элм, 1986,192 с
11. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.
12. Rzayev F.Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c. Bakı: ADPU, 2013, 528 s.
13. Rzayev F. Naxçıvan əhalisinin etnogenizi tarixindən. IIc.Bakı: ADPU, 2017, 589 s.
14. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən.Bakı:Yazıçı,1989, 500 s.

Arxiv materialı

15. Naxçıvan MRMərkəzi Dövlət Arxivi, fond 40, siyahı 1,arx.348
16. Naxçıvan MRMərkəzi Dövlət Arxivi, fond 24, siyahı 1,arx.4344

РЕЗЮМЕ

ДЖАМИЛА МАГЕРРАМОВА

ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ НЕКОТОРЫХ ОЙКОНИМОВ ВХОДЯЩИХ В ПАССИВНЫЙ ФОНД (БАБАКСКИЙ РАЙОН)

Статья посвящена об ойкониумах в Бабекской области, которая сейчас является пассивным фондом, а также путям неясности Бабекской области и прототюркских племен, живущих на территории Нахчывана, чтобы играть ключевую роль в создании этих имен. Были проанализированы прошлые деревни на пассивном фонде, и причины прохождения этих деревень были объяснены на пассивном фонде, некоторые ойкониумы (зимняя деревня Арафасаги, деревня Алагёзмезра,

деревня Хаджибад, деревня Керемчатагы, деревня Калачик, деревня Гарабулаг, деревня Каракуш, деревня Гараджа, деревня Гараагадж, Мамерзебек Деревня Дизе, деревня Нахчедениз, деревня Суремелик деревня Тугавил и др.) участвовали в лингвистических исследованиях. В статье получены новые научные результаты

Ключевые слова: *Бабекский район, ойконим, пассивный фонд, зимняя Арафасаги, Алагёзмезра, Хаджибад, Керемчатагы, Калачик, Нахчедениз, Суремелик, деревня Тугавил*

SUMMARY

JAMILA MAHARRAMOVA

LINGUISTIC ANALYSIS OF A NUMBER OF OYKONYMS IN THE PASSIVE BACKRAUND OF THE BABEK REGION

In the article mentions the passage of passages in the Babek region and the current ways of forming the obscurity of the Babek regionand prototourish tribes living in the Nakhchivan territory in the creation of these names. The passive roots of old villages were examined and the reasons for the names of these villages were transfered to the backround and some sources(Erefsag kishlak village , Alagozmazra village, Hacıabad village, Kerem çatakı village, Kalacık village, Karabulak village, Karakush village, Karaca village,Karaagac village,Mememmerzebey Dize village, Naxchedeniz village, Suremelik village, Tugavil village)were involved in linguistic investigation. New scientific results have been achieved in the field.

Key words*:* *Babek region, oykonium, passiv fond, Erefsag kishlak , Alagozmazra, Hacıabad, Kerem çatakı, Kalacık, Naxchedeniz, Suremelik,Tugavil village*

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

TARİX

VƏLİ BAXŞƏLİYEV
AMEA Naxçıvan Bölməsi
Email: velibahshaliyev@mail.ru

NAXÇIVANIN ENEOLİT MƏDƏNİYYƏTİ

Naxçıvançay və Sirabçay vadisində 2010-2017-ci illərdə aşkar olunan Eneolit abidələri yalnız Azərbaycan arxeologiyasının öyrənilməsi üçün deyil, həmçinin Cənubi Qafqaz arxeologiyasının öyrənilməsi üçün mühüm əhəmiyyəti olan nəticələr vermişdir. Bu abidələr Son Neolit və Son Eneolit mədəniyyətləri arasındakı boşluğu doldurmağa imkan verir. Naxçıvan təpə, Uzun oba, Uçan Ağıl yaşayış yerləri Eneolit mədəniyyətinin erkən və orta mərhələsini öyrənməyə, həmçinin onları dövrləşdirməyə imkan verir. Yaşayış yerlərindən götürülən kömür nümunələri və keramika məmulatının analizinə əsasən Naxçıvanın Eneolit mədəniyyəti dörd mərhələyə bölünərək xarakterizə edilmişdir.

Açar sözlər: Naxçıvan, Eneolit, boyalı keramika, Naxçıvan təpə, Sirabçay.

2013-2017-ci illərdə I Kültəpədə aparılan araşdırmalar bu abidənin Eneolit dövrünə aid edilən “1a” və “1b” təbəqələrinin (4, c. 24) Son Neolit dövrünə aid olduğunu təsdiq etmişdir (*10, s. 37*). Kültəpənin müxtəlif təbəqələrindən götürülən karbon analizlərin nəticələri e. ə. 6372-5200 illəri göstərmişdir (9, c. 38-41; Şəkil 1). Məlum olduğu kimi, XX əsrin ikinci yarısında Azərbaycanın Eneolit dövrünə aid edilən bir sıra abidələri də hazırda Neolit dövrünə aid edilir. Qafqazşünas tədqiqatçılar hazırda Eneolit dövrünü e.ə. V minillikdən başlayırlar. Bu baxımdan Naxçıvanın Eneolit mədəniyyətinin öyrənilməsində I Kültəpə ətrafında aşkar olunan Eneolit dövrünə aid yeni yaşayış yerləri olduqca əhəmiyyətlidir. Bu abidələr sırasına Naxçıvan şəhəri ərazisində aşkar olunan Naxçıvan təpə yaşayış yeri də aiddir.

Naxçıvan təpə yaşayış yeri Naxçıvançayın sağ sahilində, dəniz səviyyəsindən 853 m yüksəklikdə yerləşir. Yaşayış yeri Naxçıvançay sularının açdığı yarğanın üzərində salınıb. Ehtimal ki, çay vaxtilə yaşayış yerinin yaxınlığından keçirmiş, hazırda isə ondan 200 m aralıdadır. Yaşayış yerinin bir hissəsi əkin sahələrinin altında qalmış, bir hissəsi isə Naxçıvançay üzərindən körpü çəkilərkən dağıdılmışdır. Hazırda yaşayış yerinin salamat qalan hissəsinin sahəsi 2 hektara yaxındır.

Yaşayış yeri 3x1,5 m ölçüdə iki şurf və iki 10x10 m ölçüdə iki sahədə qazıntılar aparılmaqla tədqiq edilmişdir.

Araşdırmalara əsasən demək olar ki, Naxçıvan təpə yaşayış yerinin sakinləri ilk dövrlərdə bir tərəfi ana torpaqda qazılmış, digər qismi isə kərpiclə hörülmüş yaşayış evlərindən istifadə etmişlər (Şəkil 2.). Bu tip yaşayış evlərinin qalıqlarına Ovçular təpəsində (*24, p. 31-87*) və Yeni yol (*3, s. 50*) yaşayış yerində də rast gəlinmişdir. Sonrakı mərhələdə kərpicdən inşa olunmuş dördkünc formalı evlərdən istifadə olunmuşdur (Şəkil 3).

Yaşayış yerindən aşkar olunan arxeoloji materialların əksəriyyəti keramika məmulatı və obsidian parçalarından ibarətdir. Keramika məmulatının əsas xüsusiyyəti Dalma təpə tipli boyalı və basma naxışlı keramikanın olmasıdır. Keramika məmulatı gil laylarını bir-birinin üzərinə yapışdırmaq və bir-birinin üzərinə qoymaqla, yəni lent üsulu ilə hazırlanmışdır. Bəzi qabların üzəri incə təbəqə ilə suvanmışdır. Araşdırma göstərir ki, bu bəzi hallarda qabların rəng tonunu dəyişmək, bəzən isə ornamentasiya ilə bağlı olmuşdur. Bu, xüsusilə barmaq basqısı ilə naxışlanmış keramikaya aiddir. Araşdırmalar göstərir ki, səliqəsiz və qarışıq barmaq basqıları qabların üzərinə ayrıca layların yapışdırılması ilə bağlı olmuşdur. Fikrimizcə, bəzi tədqiqatçılar barmaq basqılı keramikanın etnoqrafik xüsusiyyətlərlə bağlı olmasını ehtimal etməkdə haqlıdırlar (*21, p. 37-40*). Lakin bəzən bu üsuldan qabların təmir edilməsi üçün də istifadə olunmuşdur. Keramika məmulatı başlıca olaraq saman qarışığı olan gildən hazırlanmış və qırmızı rəngin müxtəlif tonlarında bişirilmişdir. Qum qarışığı olanlar tək-tək nümunələrlə təmsil olunmuşdur. Rəng tonları sarı və qırmızının müxtəlif tonları ilə təmsil edilmişdir. Az miqdarda boz rəngli qablara təsadüf olunmuşdur.

Yaşayış yerindən aşkar olunan keramika məmulatını altı qrupa bölmək olar. Birinci qrupa sadə keramika məmulatı, ikinci qrupa boyalı keramika məmulatı, üçüncü qrupa qırmızı boya ilə örtülmüş naxışsız keramika, dördüncü qrupa basma naxışlı keramika, o cümlədən barmaq basqısı ilə naxışlanmış keramika, beşinci qrupa daraq basqısı ilə naxışlanmış keramika, altıncı qrupa daraqvari alətlə üfüqi zolaqlar şəklində naxışlanmış keramika aiddir.

Sadə keramika məmulatı üstünlük təşkil edir (Şəkil 4). Onlar başlıca olaraq incə saman qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Lakin bəzən qabların divarları arasında bişməmiş boz rəngli təbəqəyə rast gəlinir. Bu tip qablardan bəzisinin üzəri sarı boya ilə örtülərək az cilalanmışdır. Bəzi qabların iç tərəfi kobud şəkildə daraqvari alətlə düzəldilmiş, bəzisinin isə içərisinə qırmızı rəng çəkilərək cilalanmışdır. Bəzi qabların qulpşəkilli çıxıntıları vardır. Bu qrupdakı qablar başlıca olaraq kasa, küpə və çölməklərdən ibarətdir. Gil manqallar (Şəkil 4) və iri həcmli təsərrüfat qabları da bu qrupa bu qrupa aiddir. Bu tip keramika məmulatı Culfa Kültəpəsi (*13, p. 38*), Dalma təpə (*18, p. 101*), Dava Göz tepe (*14, p. 73*), Seh Gabi B (*22, p. 232-236*) yaşayış yerlərindən məlumdur.

İkinci qrupdakı qablar boyalıdır (Şəkil 5). Onlar başlıca olaraq qatqısı olmayan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Bu tip keramika kəsikdə qara rəngdədir. Onlar hər iki üzdən qırmızı boya ilə örtülərək xarici səthləri qara rənglə həndəsi motivdə naxışlanmışdır. Üzərində və içərisində saman izlərinə rast gəlinməmişdir. Naxışlar olduqca müxtəlifdir. Bir-birinin içərisinə çəkilmiş üçbucaqlar üstünlük təşkil edir. Bundan başqa yolkaşəkilli, bir-biri üzərində olan kiçik üçbucaqlar, içərisi paralel xətlərlə doldurulmuş ücbucaqlar, torşəkilli və sünbülşəkilli naxışlar da vardır. Bəzən naxışlar qabların sarı rənglə boyanmış səthinə, bəzən isə boyanmamış səthinə qara rənglə çəkilmişdir. Naxışlar sünbülvari formadadır. Keramika parçalarının birinin səthi bitişik rombların içərisinə çəkilmiş üçbucaqlarla naxışlanmışdır. Bu tip boyalı keramika məmulatı Dalma təpə (*18, fig. 4, A, E; fig. 7, D; Fig. 10, A*), Culfa Kültəpəsi (*13, p. 38, fig. 10, 1-3,5-8*), Seh Gabi B (*22, p. 253-304, fig. 55, 1.1, 1.2; fig. 56, 14.1, 14. 3; fig. 61, 53.1,53.8*), Lavin təpə (*19, fig.7-9*), Sonqar vadisi (*23, fig. 6, 15-17*), Hacı-Firuz (*26, fig. 97*) və digər yaşayış yerlərindən məlumdur.

Üçüncü qrupdakı keramika məmulatı saman qarışıq, bəzən isə qatqısız gildən hazırlanmış və hər iki üzdən, bəzən də yalnız xaricdən və ağzının kənarı içəridən qırmızı boya ilə örtülmüşdür. Bu tipdəki keramikanın hər iki üzündə saman izləri vardır (Şəkil 6). Bu tip keramika Dalma təpə (*18, p. 117*), Seh Gabi B (*22, p. 226-230*), Lavin təpə (*19, p. 101*), Culfa Kültəpəsi (*13, p. 38*) digər yaşayış yerlərindən məlumdur.

Dördüncü qrup keramika saman qarışığı olan gildən hazırlanmış, bəzən yaxşı, bəzən isə qeyri-bərabər bişirilərək basma ornamentlə naxışlanmışdır (Şəkil 7). Ornamentlər olduqca müxtəlifdir. Onlar xüsusi alətin basılması ilə hazırlanmışdır. Onların bəzisi dırnaq və barmaq basqısı ilə icra edilmişdir. Bəzi ornamentlər küt alətin basqısı ilə icra olunmuşdur. Ornamentlər arasında çərtmələr üstünlük təşkil edir. Naxışların bir qismi olduqca düzgün və səliqəlidir. Digər qismi isə qarmaqarışıqdır. Ehtimal ki, bəzi naxışlar dırnaq və barmaq basqısı ilə hazırlanmışdır. Bu xüsusilə üzəri suvanmış qablarda özünü göstərmişdir. Bu qrupdakı qablar istifadə edilmə sahəsinə görə də müxtəlifdir. Onlar arasında olduqca səliqəli hazırlanmış yemək, mətbəx və təsərrüfat qablarına rast gəlinir. Qabların bəzisi hər iki üzdən, bəzisi isə xaricdən qırmızı boya ilə örtülmüşdür. Bu tip keramika Dalma təpə (*18, p.101, fig. 8*), Seh Gabi B (*22, p. 242-251, fig. 49-54*), Siahbid (*22, fig. 104*), Çoga Maran (*22, fig. 105*), Lavin təpə (*19, p. 101, fig. 9, 172; fig. 10, 1069*), Sonqar vadisindəki (*23, fig. 3; fig. 5; fig. 7-8*) abidələrdən məlumdur.

Beşinci qurup qablar daraq basqısı ilə naxışlanmışdır (Şəkil 8, 1-3). Bu tip keramika nümunələri başlıca olaraq iri həcmli qabların parçalarından ibarətdir. Lakin onlar arasında incə hazırlanmış məişət qabları da vardır. Bu tip keramika məmulatının bəzisi sadə, bəziləri isə sarı, ya da qırmızı boya ilə örtülüdür. Daraq basqıları bəzən səliqəli olub müəyyən kompozisiya yaradır, bəzən isə səliqəsiz və qarışıqdır. Bu tip keramika Dalma təpə yaşayış yerindən yaxşı məlumdur (18,, *fig. 8, E; Pl. II, b*).

Altıncı qrupdakı keramika nümunələri daraqvari alətlə naxışlanmışdır (Şəkil 8, 4). Bu tip keramika məmulatı olduqca azdır və incə daraqvari alət vasitəsi ilə naxışlanmışdır. Onlar Ovçular təpəsinin bənzər naxışlarından daha incə olması ilə fərqlənir. Bu tip ornament Culfa Kültəpəsinin müxtəlif təbəqələrindən (*13, p. 110, fig. 9, 1; fig 13, 10; fig. 15, 4; fig. 20, 14*), Naxçıvan Kültəpəsi, Uzun oba, Uçan ağıl yaşayış yerlərindən məlumdur. Naxçıvan Kültəpəsi, Uzunoba, Uçan ağıl yaşayış yerlərindən aşkar olunan bu tip keramika çap olunmamışdır. Bu tip keramika başlıca olaraq e.ə.V minilliyin ikinci yarısına aid abidələrdən yaxşı məlumdur (*24, p. 31-87*).

Yaşayış yerinin alt təbəqəsinin keramikasında müəyyən dəyişikliklər izlənməkdədir. Üst təbəqə üçün xarakterik olan qırmizi boya üzərindən qara rənglə naxışlanmış keramika bu dövrdə azalmışdır. Basma naxışlı keramikanın çeşidləri artmışdır. Onlar qırmızı, bəzən də sarı rənglə boyanmışdır. Qeyd etmək lazımdır ki, Culfa Kültəpəsinin alt layları Dalma Təpə tipli boyalı keramika ilə xarakterizə olunur, lakin burada basma naxışlı keramika aşkar olunmamışdır (*13, p. 38, fig. 10, 1-3,5-8*). Ehtimal ki, bu tip keramika Culfa Kültəpəsindəki boyalılardan erkən mərhələyə aiddir. Daha çox dəyişiklik sadə keramika məmulatında izlənir. Bu dövrdə sadə keramika məmulatının bir qismi içəridən qırmızı boya ilə örtülərək yaxşı cilalanmış, şübhəsiz ki, yemək qabları kimi istifadə olunmuşdur. Bu tip keramika məmulatının bir qismi isə enli qırmızı zolaqlarla naxışlanmışdır. Təəssüf ki, bu tip naxışlar bütöv şəkildə əldə edilmədiyindən onların motivini tam şəkildə müəyyənləşdirmək mümkün deyil.

Yaşayış yerində aşkar olunan heyvan sümüklərinin analizi[1] bu yaşayış yerindəki insanların heyvandarlıqla məşğul olduğunu, başlıca olaraq mal-qara və xırdabuynuzlu heyvan saxladıqlarını göstərir. Ovçuluq çox az istifadə olunmuşdur. At və it sümüyü yalnız bir nümunə ilə təmsil olunmuşdur. Botaniki qalıqlar hələlik yoxdur. Məsələ bundadır ki, ocaqlarda karbon qalıqları çox azdır. Karbonlaşmış bitki qalıqları isə hələlik yuyulmuş torpaqlardan aşkar olunmamışdır. Ola bilsin ki, gələcək araşdırmalar zamanı botaniki qalıqlar haqqında müəyyən fikir demək olacaqdır.

Araşdırmalar bu tip keramikanın cənuba doğru irəlilədikcə azaldığını göstərir. Öncə Urmiya gölünün cənubunda və qərbində yayıldığı güman edilən bu keramika Urmiyanın şimalında (*14, p. 69-87*), hazırda isə Naxçıvanda aşkar olunmuşdur. İran Azərbaycanında bu mədəniyyət Culfa Kultəpəsi (*13, p. 33-167*), Ahranjan Təpə (*25, p. 7-17*), Lavin Təpə (*19, p. 95-117*), Qoşa Təpə (*20, 2005, p. 304*), İdir Təpə (*14, p. 80*) və Baruj Tepe (*15, p. 4-25; 16, p. 3-21*) yaşayış yerlərinin qazıntısı zamanı aşkar edilmişdir. Hazırda bu tip keramika İran Azərbaycanında 100-dən artıq yaşayış yerindən məlumdur. Yaşayış yerlərinin bir qismi oturaq əhaliyə, bir qismi isə köçmə maldarlıqla məşğul olan insanlara məxsusdur (*14, p. 80*). Tədqiqatçıların fikrinə görə, bu mədəniyyət Şimal-Qərbi İranda çiçəklənmiş və Urmiya gölünün cənubuna

[1] Fauna qalıqları Remi Berthon tərəfindən araşdırılmışdır.

yayılmışdır (*14, p. 80*). Dalma təpə keramikasının kimyəvi analizi onun yerli istehsalın məhsulu olduğunu göstərmişdir (*21, p. 40*). Aşkar edilmiş keramika məmulatına əsasən Naxçıvan təpə yaşayış yerini e.ə.V minilliyin birinci yarısına aid etmək olar[2]. Yaşayış yerinin alt təbəqəsindən götürülən kömürün analizi e.ə. 4945-ci ili göstərmişdir[3]. Bu yaşayış yerinin, həmçinin Sirabçay hövzəsində yerləşən digər abidələrin tədqiqi (*7, c. 88-95; 8, c. 136-145*) Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Eneolit mədəniyyətini dövrləşdirməyə imkan verir.

Məlum olduğu kimi, Eneolit dövrünün erkən və orta mərhələsinə aid Cənubi Qafqazda yox deyiləcək qədər azdır. Bu isə həmin dövrün kifayət qədər yaxşı öyrənilmədiyini göstərir. Bu baxımdan Sirabçay hövzəsində aşkar olunan Uzun oba və Uçan ağıl yaşayış yerlərinin müəyyən əhəmiyyəti vardır. Bu yaşayış yerlərindən götürülən karbon analizlərin nəticələri e. ə. 4690-4450-cü illəri göstərməklə Ovçulartəpəsi ilə təmsil olunan son Eneolit dövründən əvvəlki dövrə aiddir (*1, s. 34*).

Dalma təpə tipli boyalı keramika məmulatı Naxçıvanda hələlik Uzun oba və Uçan ağıl yaşayış yerindən tək-tək nümunələrlə məlumdur (*2, s. 117-124.*). Barmaq basqılı keramika isə hələlik Uçan ağılda bir nümunə ilə təmsil olunur. Babək rayonunun Göynük kəndi yaxınlığında yerləşən Bülöv Qaya yaşayış yerində Dalma təpə tipli boyalı keramikanın aşkar olunması bu tip keramikanın gələcəkdə başqa abidələrdən də tapılacağna işarə edir. Dalma təpə tipli basma naxışlı keramika tək-tək nümunələrlə Qarabağ abidələrindən də məlumdur (*5, c. 197-198, табл. 22, 1; табл. 56, 1 və b.*). Qeyd etmək lazımdır ki, Dalma təpə mədəniyyətinə aid keramika məmulatının bir qrupu qırmızı rəngdə boyanması ilə xarakterizə olunur. Bu tip keramika Uçan ağıl (10, c. 110), Uzun oba (10, c. 109), Bülöv qaya yaşayış yerlərindən, həmçinin Qarabağ abidələrindən məlumdur (*5, c. 318, 330 u др.*). Yeri gəlmişkən qeyd edək ki, qırmızı rənglə anqoblanmış keramika Naxçıvanda Xələc yaşayış yerində geniş yayılmışdır. Xələc keramikasının formaca Urmiya hövzəsindəki Göy təpə yaşayış yerindən aşkar olunan qablarla bənzər olmasına baxmayaraq boyama motivləri tamamilə fərqlidir. Lakin Göy təpədə də anqobüstü naxışlara rastlanır. Yanıq təpə ilə də bəzi müqayisələr aparmaq mümkündür. Yanıq təpə qablarında Xələc üçün xarakterik olan enli paralel xətlərə rastlanır. Xələc keramikasının bəzəmə motivi yaxınlıqda yerləşən Tilkitəpə və Texut keramikasından fərqlənərək Mil düzünün abidələri, xüsusilə Kəbirli (*12, s. 40, puc. 37*) keramikasının naxışları ilə uyğundur. Onlar naxışların çəkilmə texnikasına görə də eynidir. Bəzi hallarda Xələcdə olduğu kimi anqobüstü naxışlardan istifadə olunmuşdur. Xələc keramikasının naxış motivlərinin

[2] Karbon nümunələri İtaliyanın Lesse şəhərində analiz edilmişdir.

[3] Kömür analizləri Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5

bənzər olduğu abidələrdən biri Norşuntəpədir. Lakin Norşuntəpədə boya anqob üzərinə deyil qabın saxsısı üzərinə çəkilmişdir. Xələc boyalıların bəzi bəzəmə motivləri Xalaf tipli qablarda da işlənmişdir. Araşdırmalar qırmızı anqoblu keramikanın Eneolit dövrünün erkən mərhələsi üçün xarakterik olduğunu, Eneolitin orta mərhələsində də davam etdiyini göstərir.

Uzun oba yaşayış yeri müəyyən xüsusiyyətlərinə görə diqqət çəkir. Yaşayış yerində aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, bu abidəyə aid mədəni təbəqənin üzəri 2 m qalınlığında torpaq qatı ilə örtülmüşdür. Babək rayonunun Uzunoba kəndi yaxınlığında, Naxçıvançayın sağ sahilində yerləşən bu abidə yalnız kəşfiyyat xarakterli qazıntı ilə öyrənilmişdir. Abidənin şərq yamacında 2 m uzunluğunda açılan kəşfiyyat qazıntısı zamanı alınan stratiqrafik kəsikdə 2, 5 m qalınlığında olan təbəqənin yığılma ardıcıllığını müəyyən etmək mümkün olmuşdur. Qazıntı zamanı e.ə. V minilliyin birinci yarısı ilə tarixlənən boyalı keramika parçalarının aşkar olunması (Şəkil 9, 3-4) mədəni təbəqənin e. ə. V minilliyə aid olduğunu göstərir ki, bu da region üçün olduqca nadir haldır. Bu dövrə aid maddi-mədəniyyət nümunələri 2010-cu ilin qazıntıları zamanı Culfa Kültəpəsindən (*13, p. 110, fig. 8-10*) də aşkar olunmuşdur ki, bu da həmin istiqamətin e. ə. V minillikdə, yaxud ondan əvvəl Şimal-Qərbi İranla (Cənubi Azərbaycan) Naxçıvançay vadisi arasında əsas yol olduğunu göstərir.

Babək rayonunun Sirab kəndindən şimalda yerləşən Uçan ağıl yaşayış yerinin yerüstü materialları boyalı qablar və samanlı keramika nümunələrindən ibarətdir. Tapıntılar arasında Kür-Araz mədəniyyətinə aid keramika parçalarına da rast gəlinmişdir. Tapıntılar arasında Duzdağdan məlum olan daş baltalara bənzər bir ədəd əmək alətinin aşkar olunması da diqqətəlayiqdir. Yaşayış yerində üç yerdə qazıntı aparılmışdır. Birinci sahənin ölçüsü 5x5 m, ikinci sahənin ölçüsü 5x5 m, üçüncü sahənin ölçüsü 5x10 m olmuşdur. Qazıntılar mədəni təbəqənin relyefdən asılı olaraq 0, 20-1,20 sm arasında qaldığını göstərir. Uçan ağıl yaşayış yerinin tədqiqi zamanı saman qarışığı olan qırmızı rəngli keramika nümunələri, o cümlədən boyalı qabların parçaları aşkar olunmuşdur. Keramika nümunələrinin araşdırılması onların e. ə. V minilliyin birinci yarısına və Ovçular təpəsindən əvvələ aid olduğunu təsdiq edir. Bu, abidələrdən götürülən karbon nümunələrinin analizi ilə də təsdiq olunmuşdur. Uçan ağıl yaşayış yerindən Culfa Kültəpəsindən məlum olan Dalma Təpə tipli boyalı keramika parçalarının aşkar olunması bu yaşayış yerləri arasında əlaqələrin olduğunu təsdiq etməkdədir (Şəkil 9, 1-2). Qeyd edək ki, Uçan ağıldan aşkar olunan boyalı keramika nümunələrinin biri də Mesopotamiya abidələrində yayılan boyalılarla bənzərdir. Bununla bərabər Sirabçay hövzəsindən aşkar olunan Son Eneolit dövrü keramikası Ovçular təpəsi mədəniyyətində fərqli xüsusiyyətlərə malikdir. Ovçular təpəsindən fərqli olaraq Sirabçay hövzəsinin Son Eneolit keramikasında darama bəzəmələr yoxdur. Ovçular təpəsindən sonraya aid olan bu mədəniyyət sarı və qırmızı rəngli, saman qarışığı olan keramika ilə təmsil olunmuşdur. Saman qarışığı olan keramika nümunələrinin bir qismi cilalanmışdır. Keramika nümunələrinin bir

qismi isə qaba qum qarışığı olan gildən hazırlanmışdır (Şəkil 10). Bu yaşayış yerlərinin araşdırılması Naxçıvanın Erkən və Son Eneolit dövrü mədəniyyətinin Urmiya hövzəsi və Şərqi Anadolu ilə əlaqələr şəraitində inkişaf etdiyini göstərir.

Araşdırmalar göstərir ki, bu mövsümi yaşayış yerləri Göyəm, Dərələyəz və Zəngəzur dağlarında yerləşən metal və qeyri metal yataqların istismarında müəyyən rol oynamışdır (6*, c. 143*). Zirincli yaşayış yerində mis filizinin qalıqlarına və metal qəliblərə rast gəlinməsi bu yaşayış yerlərində metal emalının mövcud olduğunu göstərir. Zirincli yaşayış yerindən aşkar olunan gil qəlib standart yastı baltalar tökmək üçündür. Bu yaşayış yerində bu tip baltaların seriyalarla buraxıldığına işarə etməkdədir. Ovçular Təpəsində isə metaləritmə sobaları üçün körük ucluğu tapılmışdır. Məlum olduğu kimi mis ilə zəngin Zəngəzur dağlarının yataqlarından qədim dövrdə istifadə olunmuşdur (*11, c. 7-216; 6, c. 16-28*). Zəngəzur yataqlarında qədim mədənlərə və mis emalının izlərinə də rast gəlinmişdir. Şübhə yoxdur ki, qədim insanların köç yolları üzərində salınan bu yaşayış yerləri Zəngəzur mis yataqlarınının Naxçıvanda məskunlaşan tayfalar tərəfindən istismar edildiyini göstərir.

Naxçıvanın Eneolit abidələrinin bir qismində Sünik yataqlarının obsidianlarından istifadə olunması da bunu təsdiq edir. Araşdırmalar Urmiya hövzəsinin yaşayış yerlərində başlıca olaraq Sünik obsidianından istifadə olunduğunu göstərir (*17, p. 1956-1965*). Naxçıvan abidələrində isə əsasən Göyçə obsidianından istifadə olunmuşdur (*8, c. 143*). Sünik obsidianı faiz etibarı ilə azdır və ikinci yerdədir. Ehtimal ki, Urmuya hövzəsində yaşayan insanlar Zəngəzur dağlarındakı xammal mənbələri ilə Naxçıvançay vadisində yaşayan insanlar vasitəsi ilə əlaqə saxlamışlar. Qeyd etmək lazımdır ki, bu yaxınlarda Naxçıvançay vadisindən üzərində mis filizinin izləri olan mədən alətinin tapılması bu əlaqələrin yalnız obsidianla deyil, həm də mis yataqları ilə bağlı olduğunu göstərir.

Yeni abidələrin tədqiqi Naxçıvanın Eneolit mədəniyyəti haqqında bitkin təsəvvür əldə etməyə imkan verir. Bu abidələrin tədqiqi həmçinin Naxçıvanın e.ə. V-IV minilliyə aid Eneolit abidələrini yenidən dövrləşdirməyə imkan verir:

Birinci dövrə Naxçıvan təpə yaşayış yerinin alt qatlarını aid edə bilərik. Bu mərhələ e. ə. V minilliyin birinci yarısını, təqribən e. ə. 4945-4600 –cü illəri əhatə edir. Yuxarıda qeyd etdiyimiz kimi, bu dövrə aid keramika məmulatı altı qrupa ayrılır. Bu dövr üçün basma naxışlı, daraq basqılı, qırmızı anqoblu keramika xarakterikdir. Sadə keramika məmulatının bir qismi relyef qurşaq və qulaqçıqşəkilli ornamentlə naxışlanmışdır.

İkinci mərhələ Naxçıvan təpə yaşayış yerinin üst qatları, Uçan ağıl və Uzun oba yaşayış yerləri ilə təmsil olunur. Bu mərhələ təqribən e.ə. 4600-4400-cü illəri əhatə edir. Qeyd edək ki, Naxçıvan təpə yaşayış yerinin üst qatları boyalı keramika məmulatı ilə xarakterizə edilir. Bu tip boyalı keramika həmçinin Culfa Kültəpəsindən çox sayda aşkar olunmuşdur.

Üçüncü mərhələ Ovçular Təpəsi yaşayış yeri ilə təmsil olunur. Bu mərhələ e.ə. 4400-4000-ci illəri əhatə edir. Bu mərhələ başlıca olaraq daraqvari alətlə çəkilmiş naxışlarla xarakterizə olunur. Lakin məməcik və relyef naxışlı keramika nümunələri də vardır. Keramika məmulatının bir qismi daraq basqısı ilə, bir qismi isə ağız kənarına düzülmüş yuvarlaq dəliklərlə bəzədilmişdir.

Dördüncü mərhələyə e.ə. 4000-3800-cü illərə aid Sirabçay vadisindəki arxeoloji abidələr aid edilə bilər. Bu mərhələdə daraqvari alətlə naxışlama tamamilə aradan çıxır, sadə keramika məmulatı üstünlük təşkil edir (Şəkil 10). Üçüncü mərhələ üçün xarakterik olan ağız kənarı yuvarlaq dəliklərlə naxışlanmış keramika bu dövrdə də öz inkişafını davam etdirir.

ƏDƏBİYYAT

1. Bakhchaliyev V., Marro C., Ashurov S., Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.

2. Baxşəliyev V.B. Kültəpə ətrafında arxeoloji araşdırmalar // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s. 117-124.

3. Baxşəliyev V., Quliyeva Z., Rzayeva R. Yeni Yol yaşayış yerində arxeoloji araşdırmalar Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Sosial elmlər seriyası. 2017, № 1, s. 49-56

4. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982. 316 с.

5. Ахундов Т. У истоков Кавказской цивилизации Гарабагского неолита. Баку: Афполиграф, 2017, 918 с.

6. Бахшалиев В.Б. Древняя металлургия и металлообработка на территории Нахичевани. Баку: Элм, 2005, 120 с.

7. Бахшалиев В.Б новые энеолитические памятники на территории Нахчывана // Российская археология, 2014, № 2, с. 88–95.

8. Бахшалиев В.Б. Новые материалы эпохи неолита и энеолита на территории Нахчывана // Российская археология, 2015, № 2, с. 136-145.

9. Бахшалиев В.Б. Новые данные о поселении Кюльтепе I в Нахчыване // Российская археология, 2016, № 3, с. 38-41.

10. Бахшалиев В.Б., Маро К., Реми Б., Кулиева З. Археологические раскопки на поселении Кюльтепе / Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic - Late Bronze Age. Baku: Институт археологии и этнографии. 2017, с. 26-41

11. Иессен А.А. К вопросу о древней металлургии меди на Кавказе // Известия ГАИМК. М.-Л, 1935, вып. 120, с. 7-216.

12. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: Элм, 1987. 260 с.

13. Abedi A., Khatib Shahidi H., Chataigner CH., Niknami K., Eskandari N., Kazempour M., Pirmoham-madi A., Hoseinzadeh J. and Ebrahimi GH. Excavation at Kul Tepe of (Jolfa), North-Western Iran, 2010: First Preliminary Report”, *Ancient Near Eastern Studies*. Vol. 51, 2014, pp. 33-167.

14. Abedi A. Iranian Azerbaijan Pathway From The Zagros To The Caucasus, Anatolia And Northern Mesopotamia: Dava Göz, A New Neolithic And Chalcolithic Site In NW Iran. Mediterranean Archaeology and Archaeometry, Vol. 17, № 1 (2017) pp. 69-87

15. Alizadeh, K. and Azarnoush, M. (2003a) Systematic survey of Tepe Baruj: Sampling method and statistical results (Barresi-ye Raveshmand-e Tappe-ye Baruj: Ravesh-e Numunebardari va Natayej-e Amari)," *Iranian Journal of Archaeology and History* 33, 2003a, pp. 4–25 (In Persian with English summary).

16. Alizadeh, K. and Azarnoush, M. Systematic survey of Baruj Tepe: Cultural relationship between the south and the north of the Araxes River (Barasiy-e Ravehsmand-e Tapeh Baruj: Ravabet-e Farhan-gi-e do soye Rood-e Aras)," *Iranian Journal of Archaeology and History* 34, 2003b, pp. 3–21 (In Persian with English summary).

17. Khademi N., F., Abedi A., Glascock M. D., Eskandari N. and Khazaee M. Provenance of prehistoric obsidian artifacts from Kul Tepe, Northwestern Iran using X-ray fluorescence (XRF) analysis // Journal of Archaeological Science, 2013, 40. P.1956-1965.

18. Hamlin C. Dalma Tepe, *Iran*, 13, 1975, pp. 111–127.

19. Hejebri N., Binandeh A., Nestani J. and Vahdati N. H. Excavation at Lavin Tepe North-west Iran, *Ancient Near Eastern Studies*, Vol. 40, 2012, pp. 95-117.

20. Hejebri N., Purfaraj A.The investigation of cultural relationships of Ardebil province with north and northeastern Iran in Neolithic and Chalcolithic periods: Based on archaeological data of Ghosha Tepe in Shahar Yeri," in *Abstracts of the International Symposium on Iranian Archaeol-ogy: Northern and Northeastern Regions*, Tehran: Iranian Center for Archaeological Research, 2005, p. 304.

21. Henrickson. E. F. and Vitali. V. The Dalma Tradition: Prehistoric Inter-Regional Cultural Integration Highland Western Iran, *Paleorient*, Vol. 13, № 2, 1987, pp. 37-45.

22. Henrickson E.F.Ceramic styles and cultural interaction in the Early and Middle Chalcolithic of the Central Zagros, İran. A Thesis submitted in conformity with the requirwmwnts for the degree of Doctor of philosophy in the University of Toronto. Toronto, 1983, 840 p.

23. Heyderyan M., Zeydi M., Herieyan H. Kirmanşahın Sonqar vadisində Orta Kalkolitik yaşayış yerləri // Payambastanşünas, 1392, № 19, p. 1-14.

24. Marro, C., Bakhshaliyev, V. and Ashurov, S. Excavations at Ovçular Tepesi (Nakhichevan, Azerbaijan). First Preliminary Report the 2006-2008 seasons. *Anatolia Antiqua* XVII, IFEA, Paris, 2009, p. 31-87.

25. Talai H. Pottery evidence from Ahrendjan Tepe, a Neolithic site in Salmas plain, Azerbaijan, Iran. *AMI* (16), 1983, pp. 7-17.

26. *Voigt M.M.* Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: University of Pennsylvania, 1983. 396 p.

РЕЗЮМЕ

ВЕЛИ БАХШАЛИЕВ

ЭНЕОЛИТИЧЕСКАЯ КУЛЬТУРА НАХЧЫВАНА

Энеолитические поселения, выявленные в 2010-2017 гг. на долинах Нахчыванчай и Смрабчай имеют значение не только для изучения Азербайджанской археологии, а также для изучения археологии Южного Кавказа. Эти памятники позволяют наполнять пробел, созданный между культурами позднего неолита и позднего энеолита. Археологические материалы поселения Нахчыван тепе, Узун оба и Учан агыл позволяют изучить раннего и среднего периода энеолитической культуры. В настоящее время на основе анализа угля, взятого из различных поселений, а также керамических изделий энеолитическая культура Нахчывана разделена на четыре периода.

Ключевые слова: Нахчыван, энеолит, расписная керамика, Нахчыван тепе, Сирабчай.

SUMMARY

VELI BAKHSHALIYEV

ENEOLIT CULTURE OF NAKHCHYVAN

The Chalcolithic settlements revealed in 2010-2017 on valleys Nakhchivanchay and Smrabchay matter not only for studying of the Azerbaijani archeology and also for studying of archeology of South Caucasus. These monuments allow will fill the gap created between the cultures of the Late Neolithic and the Late Chalcolithic. Archaeological materials of the settlement of Nakhchivan Tepe, Uzun Oba and Uçan Ağıl allow to study the early and middle period of Chalcolithic culture. Now on the basis of the analysis of the coal taken from various settlements and also and pottery the Chalcolithic culture of Nakhchivan it is divided into four periods.

Keywords: Nakhchivan, Chalcolithic, painted ceramics, Nakhchivan tepe, Sirabchay.

	Sampl İD	***Sample***	***Radiocarbon Age (BP)***	***$\delta^{13}C$ (‰)***	***Date BC (95,4%)***
1	Kultepe-2013-B-035	**LTL14889A**	**6374 ± 50**	**-24.4 ± 0.4**	**5473-5293 BC**
2	Kultepe-2013-B-006	**LTL14890A**	**6926 ± 45**	**-18.6 ± 0.2**	**5903-5720 BC**
3	Kultepe14-P1,002	**LTL14935A**	**6477 ± 45**	**-21.3 ± 0.6**	**5520-5341 BC**
4	Kultepe14-D004	**LTL14936A**	**7042 ± 45**	**-22.8 ± 0.6**	**6014-5836 BC**
5	Kultepe14-C021	**LTL14937A**	**6548 ± 45**	**-19.6 ± 0.5**	**5616-5466 BC**
6	Kultepe14-A057	**LTL14939A**	**6420 ± 45**	**-25.5 ± 0.3**	**5475-5320 BC**
7	Kultepe14-A072	**LTL14940A**	**6355 ± 45**	**-23.9 ± 0.6**	**5468-5399 BC**
8	Kultepe13 AO12	**LTL14035A**	**6462 ± 45**	**-26.6 ± 0.5**	**5490-5320 BC**
9	Kultepe14-C034	**LTL15113A**	**7099 ± 50**	**-21.1 ± 0.6**	**6070-5880BC**

10	Kultepe14-C032	**LTL15114A**	**7065 ± 50**	**-19.9 ± 0.5**	**6040-5840BC**
11	Deyirman Yeri	**LTL14886A**	**5011 ± 45**	**-26.4 ± 0.3**	**3946-3701 BC**
13	Yeni Yol 2013	**LTL14894A**	**5063 ± 45**	**-22.1 ± 0.5**	**3965-3761 BC**
14	Yeni Yol 2014-1007	**LTL14895A**	**4853 ± 45**	**-17.1 ± 0.4**	**3712-3622 BC**
15	Serin Bulaq 2013-1	**LTL14892A**	**4953 ± 40**	**-20.7 ± 0.4**	**3902-3880 BC**
16	Ucan Agil 2013	**LTL14893A**	**5585 ± 45**	**-21.9 ± 0.7**	**4497-4344 BC**
17	Sorsu 2013: 1008	**LTL14063A**	**4945 ± 45**	**-27.7 ± 0.5**	**3910-3870 BC**
18	Uzunoba 15- 010	**LTL16019A**	**5674 ± 45**	**-20.3 ± 0.5**	**4620-4370 BC**
19	NB2017.2095	**LTL17636A**	**5956 ± 45**	**-24.7 ± 0.4**	**4945-4722 BC**
20	Uçan Agıl 15-2019	**LTL16009A**	**5713 ± 45**	**-23.4 ± 0.4**	**4690-4450 BC**

Şəkil 1. Naxçıvanın Neolit və Eneolit yaşayış yerlərindən götürülən karbon nümunələrin analizinin nəticələri.

Şəkil 2. Yarımqazma tipli ev (Naxçıvan təpə).

Şəkil 3. Dördkünc formalı ev (Naxçıvan təpə).



Şəkil 4. Naxçıvan təpə yaşayış yerinin sadə keramikası.



Şəkil 5. Naxçıvan təpə yaşayış yerinin boyalı keramikası



Şəkil 6. Naxçıvan təpə yaşayış yerinin qırmızı anqoblu keramikası.



Şəkil 7. Naxçıvan təpə yaşayış yerinin basma naxışlı keramikası.



Şəkil 8. Daraq basqısı (1-3) və daraqvari alətlə (4) naxışlanmış keramika (Naxçıvan təpə).



Şəkil 9. Uzun oba (3-4), Uçan Ağıl (1-2) və Ovçular təpəsindən (5) tapılmış boyalı keramika.



Şəkil 10. Sərin bulaq yaşayış yerinin keramikası.

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

HACIFƏXRƏDDİN SƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi
hacifexreddin@yahoo.com.tr

ŞƏRQ MEMARLIĞININ GÖZƏL NÜMUNƏSİ – YENGİCƏ HAMAMI

Məqalədə Şərur rayonunun Yengicə kəndində inşa olunmuş hamamdan bəhs olunur. Qeyd olunur ki, XVIII əsrdə əslən Şahtaxtı kəndindən olan Tovuz xanım tərəfindən inşa etdirilən hamam təkcə Yengicə kəndinin deyil, ətraf kəndlərin də əhalisinin həyatında mühüm rol oynamışdır. XX əsrin ortalarına qədər fəaliyyət göstərən hamam təkcə yuyunub paklanmaq yeri olmamış, həm də insanların görüş, söhbət, istirahət, hətta müəyyən xəstəliklərdən müalicə yeri olmuşdur.

Açar sözlər: Naxçıvan, Yengicə, Şahtaxtı, hamam, bərpa.

Müxtəlif təyinatlı tarix-memarlıq abidələri ilə çox zəngin olan Naxçıvan bölgəsində orta əsrlər zamanı yaradılan gözəl memarlıq nümunələrindən biri də hamamlardır. Məlumdur ki, isti və soyuq su ilə təchiz olunan və insanların yuyunduğu yerlər hamam adlanırdı. İslam qanunlarına görə bir insanın girdiyi suya başqa bir insanın girməsi xoş qarşılanmır. Çünki durğun bir suya kimsə girirsə həmin su kirlənir. Ona görə də İslam şəriətində axar suda yuyunma, paklanma, dəstəmaz alma bəyənilir və təqdir olunur. Buna görə də orta əsrlər zamanı digər Şərq ölkələrində olduğu kimi Azərbaycanın da əksər iri yaşayış məskənlərində hamamlar inşa olunurdu.

Keçmişdə hamamların funksiyası təkcə insanların yuyunma yeri olmaqla məhdudlaşmırdı. Onlar həm də insanların istirahət, dincəlmək, söhbət etmək, görüş yerləri idi. Məhz bütün bunaları əsas götürərək etnoqraf alim, tarix üzrə elmlər doktoru Şirin Bunyadova yazır ki, ictimai hamamlar özünəməxsus funksiya (gigiyena, müalicə, mərasimlər keçirilməsi) daşımaqla yanaşı, həmçinin informasiya mübadiləsinin gerşəkləşdiyi görüş yeri kimi də mahiyyət kəsb edirdi (1, s. 114). Beləliklə, bir sıra xəstəliklərin (soyuqdəymə, yel və s.) müalicəsində, əsəblərin sakitləşməsində və s. mühüm rol oynayan hamamlar ümumiyyətlə, insanların, bütövlükdə cəmiyyətin həyatında xüsusi rola malik yerlər idi. Ona görə də orta əsrlər zamanı hamamlar üçün möhtəşəm, memarlıq baxımından çox gözəl binalar inşa edirdilər. Bu iş Səfəvi hökmdarı I Şah Abbasın zamanında xüsusilə geniş miqyas almış, bir sıra şəhərlərdə hamamlar inşa etdirilmişdir (3, s. 718). Bu səbəbdən də orta əsr Azərbaycan şəhərlərində, kəndlərində çoxlu hamamlar meydana gəlmişdi. Təkcə Təbriz şəhərində XVII yüzillikdə “Leyli və Məcnun”, Kəcilbaşı, Pəsə Kuşək, Boz, Cahanşah, Mir-Mir darvazası kimi çox məşhur hamamlar, Dəvəçilər məhəlləsi, Rey darvazası, Xiyaban məhəlləsi, Surxab məhəlləsi, Öküz bazarı hamamları,

çoxlu saray hamamları fəaliyyət göstərirdi (7, s. 166) Hamamların tikintisində məscidlərin memarlıq üslubundan istifadə edilir, hətta onlar üçün bir neçə günbəz qoyulurdu.

İndiyədək qalan nümunələrə və qalıqlarına əsasən deyə bilərik ki, Azərbaycan, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan bölgəsi hamamların geniş yayıldığı ərazilərdən biri olmuşdur. Naxçıvan bölgəsində qalan nümunələr təsdiq edir ki, Azərbaycanda, bütünlükdə Şərqdə olduğu kimi burada da hamamlar yerüstü və yeraltı olmaqla əsasən üç hissədən ibarət olurdu: 1. Soyunma yerləri; 2. Yuyunma yerləri; 3. Suyun qızdırılması yerləri. Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycan üçün günbəzli, səkkizbucaqlı salonlardan ibarət olan giriş və çimmə otaqları, kiçik yerləşgələri, çimmə yerində "xəznə"ləri (soyuq və isti su olan yer), "külxan" adlanan qızdırılma kamerası olan hamamlar xarakterik idi. İnşaat mədəniyyətinin mühüm elementi olan hamamlar dərinlikdə tikilirdi və müxtəlif mərasimlərə xidmət edirdi (1, s. 135).

Orta əsrlər zamanı bəzi yaşayış məskənlərində kişilər və qadınlar üçün nadir hallarda ayrı hamamlar inşa edilmişdir. Ancaq əksər vaxtlarda ayrı-ayrı hamamlar tikilmir, mövcud hamamlar həftənin müəyyən günləri kişilərin, müəyyən günləri isə qadınların istifadəsinə verilirdi. Hamamın qadınlara aid olmasını əhaliyə xüsusi üsullarla bildirirdilər. Bu baxımdan Hüsenqulu Sarabskinin qeydləri maraq doğurur. H.Sarabski "Köhnə Bakı" əsərində yazır: "Hamam zənənə (qadın üçün – F.S.) olanda kulxançını və ya camadarı dama çıxarıb şeypur çaldırmağa başlardılar. Əhali başa düşərdi ki, bu gün hamam zənənədir. Hamamın qapısında qırmızı mərcanı fitə asardılar ki, yoldan ötən və şeypur səsini eşitməyən kişilər hamamın zənənə olduğunu bilsinlər" (9, s. 168).

Bizə qədər gəlib çatan qaynaqlarda Naxçıvan bölgəsində olan hamamlar haqqında maraqlı məlumatlar gəlib çatmışdır. XVII əsr türk səyyahı Evliya Çələbi Naxçıvan şəhəri haqqında bəhs edərkən yazır ki, "Cənabi hamamı son dərəcə gözəl və işıqlıdır. Qapı və divarı şirəli kaşıdan və döşəmələri isə ağ mərmər daşdandır. Hamam məhrəbaları şahmat naxışı ilə bəzədilmişdir. Mehmanxanamıza yaxın Zal paşa hamamı vardır. Onun bütün qapı və divarı şirəli kaşılarla örtülmüşdür. Döşəməsi başdan ayağa boz, sumağı və tünd qırmızı mərmər daşlardandır. Elə işıqlı hamamdır ki, onun bütün pəncərələri büllurdandır. Həyətin ortasında böyük bir hovuz var. Xülasə, gözəl havası olan bu hamamın tərifi, təmizliyi və gözəlliyini şərh etməkdə, qələm belə acizdir" (2, s. 13). E.Çələbidən bir neçə il sonra, 12 aprel 1673-cü ildə Naxçıvanda olmuş fransız səyyahı Jan Şardən də adlarını çəkməsə də Naxçıvan şəhərində çoxlu hamamlar olduğunu qeyd etmişdir (10, s. 63). Təəssüf ki, bu səyyahların Naxçıvan şəhərində gördüyü bu hamamlardan heç biri günümüzədək gəlib çatmamışdır.

Bununla belə orta əsrlər zamanı Naxçıvan bölgəsinin müxtəlif yaşayış məskənlərində fəaliyyət göstərmiş bəzi hamamlar yarımuçuq vəziyyətdə olsa da zəmanəmizədək gəlib çatmışdır. Buna Ordubad rayonunun Üstüpü, Gənzə, Darkənd, Yuxarı Əylis, Vənənd, Şərur bölgəsinin Yengicə, Kəngərli bölgəsinin

Şahtaxtı və digər kəndlərdəki hamamları misal göstərmək olar. Burada bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, Naxçıvan hamamları da bir sıra Şərq ölkələrindəki hamamlar kimi xarici görünüşcə diqqəti çox cəlb etməsələr də, daxili hissələri çox gözəl olmuş, orada insanların rahatlığını təmin edən hər cür şərait olmuşdur.

Naxçıvan ərazisində indiyədək salamat və ya yarımuçuq vəziyyətdə gəlib çatan hamamların bir xüsusiyyəti diqqəti cəlb edir. Həmin hamamların bir hissəsi yaşayış məskəninin əsas məscidinin yaxınlığında, bəzi hallarda məscidə bitişik şəkildə inşa olunmuşdur. Görünür, bu məscidə gələn adamların burada yuyunub paklanması və yaxud dəstəmaz alması zərurətindən irəli gəlmişdir.

Orta əsrlər zamanı Naxçıvan bölgəsində nəinki şəhərlərdə, hətta kənd tipli yaşayış məskənlərində də möhtəşəm hamamlar inşa olunaraq əhalinin istifadəsinə verilmişdir. Memarlıq üzrə fəlsəfə doktoru G.Qənbərova Naxçıvan ərazisində inşa edilən hamamları 2 tipə ayırır: Birinci tipə sadə planlaşma həlli olan düzbucaqlı, bir-biri ilə əlaqədar olan bir neçə otaqlı hamamlar aiddir. Şahtaxtı və Xok hamamları bu tipə aiddir. İkinci tipə giriş otağı səkkizbucaqlı planda tikilmiş hamamlar aiddir. Bu otaq ayrı-ayrı qrup otaqların mərkəzində yerləşir. Naxçıvan şəhərində İsmayılxan hamamı, Ordubad şəhərində, Ordubad rayonunun Vənənd kəndində, Şərur rayonunun Yengicə kəndində tikilən hamamlar bu tipə aiddir (4, s. 224-225).

Naxçıvan bölgəsində özünün memarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edən hamamlardan biri də Şərur rayonunun Yengicə kəndində inşa olunmuş hamamdır. Hamamın inşa edildiyi Yengicə kəndi rayon mərkəzindən 2 km cənub-qərbdə yerləşir və bölgənin qədim və böyük yaşayış məskənlərindəndir. Kəndin yaxınlığında yerləşən orta əsrlərə aid Yengicə yaşayış yerindən əldə olunan maddi-mədəniyyət nümunələri təsdiq edir ki, kənd orta əsrlər zamanı inkişaf etmiş yaşayış məskənlərindən olmuşdur. Yerli əhalinin verdiyi məlumata görə vaxtilə kənddə üstüörtülü çarşı, buzxana və karvansara olmuşdur. Qalıqlarına əsasən demək olar ki, binaların tikintisində tağbənd və günbəzlərdən istifadə edilmişdir. Arxeoloji və etnoqrafik materiallara əsasən XIII-XIX əsrlərə aid edilən və çox böyük sahəni əhatə edən yaşayış yerində sənətkarlara məxsus məhəllələr olmuşdur. Həmin məhəllələrdən biri hazırda əhali arasında “Çölməkçilər məhəlləsi” adı ilə qalmaqdadır (6, s. 469).

“Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyəti”nin yaradıcılarından biri və elmi katibi Mirbağır Mirheydərzadənin 1928-ci ildə, Cəmiyyətin üzvlərindən M.Rəsizadənin 1930-cu ildə verdikləri məlumatlardan aydın olur ki, həmin vaxt Yengicə kəndində ancaq türklər yaşamış, əhali 3 tayfadan ibarət olmuşdur: Talıb xanlı, Sadaxlı, Çəçənni. Kəndin Zərtukən, Dəvəğğuz, Bərə, Heybət arxı, Kobut, Keçi budağı, Qumnax, Ding arxı, Kərpicli, Qazılı, Cilovxannı adlı kövşənlərində əhali pambıq, taxıl və çəltik əkməklə məşğul olmuşdur” (5; 8, s. 81).

Haqqında bəhs olunan hamam kəndin mərkəzində böuük bir ərazini tutan Çarşıbazarın başlanğıcında inşa olunmuşdur. Şərq memarlığı üslubunda

inşa edilmiş bu hamam yerli əhalinin fikrincə, XVIII əsrdə əslən Şaxtaxtı kəndindən olan Tovuz xanım adlı qadın tərəfindən tikdirilmişdir. Deyilənlərə görə Tovuz xanın Şərurun daha iki kəndində də hamam tikdiribmiş. Yengicə hamamı zəmanəmizədək müəyyən dağıntılara uğrasa da, qismən salamat vəziyyətdə gəlib çatmışdır. Hamamın ümumi sahəsi 650 m^2, içərisinin sahəsi 545 m^2-dir. Bina 19x19x5 sm ölçüdə bişmiş kərpiclə əhəng məhlulu istifadə olunmaqla tikilmişdir. Divarları qalındır. Hamam binası düzbucaqlı formada olmaqla iki səkkizbucaqlı zala və onlara bitişik iki köməkçi otağa bölünür. Zalları örtən sferik günbəzlər, girişdəki sadə formalı baştağ və digər xidməti otaqlar qismən dağıntıya məruz qalsalar da hamamın daxili planı yaxşı vəziyyətdədir. Bu da hamamın ilkin quruluşunu hərtərəfli bərpa etməyə imkan verir.

Hamamın mərkəzi hissəsi yerin səviyyəsindən 1.5-2 metr dərinlikdə inşa edilmişdir. Ona görə də bura gələnlər hamama daş pillələrlə yenir, səkkizbucaqlı şəkildə inşa olunmuş soyunma zalına girirlərmiş. Mürəkkəb formalı günbəzlə tamamlanan zalın şimal divarında soyuq aylarda zalı qızdırmaq üçün buxarı düzəldilmişdir. Bu zaldan ensiz keçidlə yuyunma salonuna daxil olurlarmış. İndiyə qədər qalmasa da, kənd əhalisinin şəhadətinə görə bu zalın mərkəzində iki hovuz var imiş. Hovuzların birində isti, digərində soyuq su saxlanırmış. Hamamda masajdan sonra insanlar müalicəvi əhəmiyyət daşıdığı üçün əvvəl isti, sonra isə soyuq su olan hovuza girirmiş. İki zalın arasında yerləşən köməkçi otaqların qapıları yuyunma zalına açılır. Hamamın ocaqxanası cənub hissədə yerleşir. Hamama daxil olan su saxsı borular vasitəsi ilə divar boyu keçərək xəznədə toplanır, orada qızdırılaraq xüsusi adamlar tərəfindən uzun qulplu çömçə ilə qablara doldurularaq yuyunma salonuna verilirmiş. Hamamın yuyunma salonu döşəmənin altında yerləşdirilmiş içərisindən isti hava axan saxsı borular vasitəsilə qızdırılırmış. Binanın işıqlandırılması günbəzin mərkəzində yerləşən baca və divarlarda açılmış kiçik pəncərələr vasitəsi ilə həyata keçirilirmiş (4, s. 224-229; 6, s. 469).

Toplanmış etnoqrafik çöl materiallarına əsaslanaraq demək olar ki, XX əsrin ortalarına qədər hamamdan Yengicə kəndinin əhalisi ilə birlikdə ətraf kəndlərin əhalisi də istifadə etmişdir. Bu hamam da digər Şərq hamaları kimi qoyulan qaydaya uyğun olaraq həftənin müəyyən günləri kişilərə, müəyyən günləri isə qadınlara xidmət etmişdir. Bir qayda olaraq kişilər üçün ayrılan günlər çox olmuşdur. Həftədə 5 gün işləyən hamamdan 3 gün kişilər, 2 gün qadınlar istifadə edərmişlər. Bu hamamın da qadınlar üçün açıq olduğunu bildirmək üçün Hüseyqulu Sarabskinin qeyd etdiyi və yuxarıda xatırlatdığımız üsullardan, xüsusilə gərənay (borusu üzərində heç bir çalğı deşiyi olmayan, üfürərəkən gur səs çıxaran qədim musiqi aləti) çalınmasından istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, hamama gələnlər, xüsusilə kişilər hamama uzunsürən yuyunmaqla bərabər həm də istirahət, müxtəlif insanlarla ünsiyyətdə olmaq, söhbət etmək məqsədi ilə gəlirdilər. Ona görə də hamama gələn adamlar həmin günün çox hissəsini hamamda keçirirdilər. Onlar hamamda çay

içir, sulu qəlyan çəkir, istirahət edirdilər. Hətta hamamda yaşlı müştərilər üçün ayrıca otaqlar nəzərdə tutulmuş, onların istirahəti, namaz qılması, çay içməsi, qəlyan çəkməsi üçün şərait yaradılmışdır.

Bu hamam üçün maraqlı məqamlardan biri “Bəy hamamı” mərasimidir. Yaşlı əhalinin dediyinə görə keçmişdə bir çox adamlar hamama faytonla getməyə üstünlük verdiyi halda toyu olan bəy yaxınları və musiqiçilərin müşaiyəti ilə hamama piyada gedərmiş. Hamama gedən yolun ətrafında yerləşən evlərdə yaşayan adamlar onlara şirniyyat, meyvə, bəzi hallarda süd verərlərmiş. Bu adət qonşu kəndlərdən bəy hamamına gələn bəylər üçün daha təmtəraqlı olarmış. Bəylərin isə verilən nemətlərdən istifadə etməsi, ən azından dadması hədiyyə verənlərə hörmət əlaməti kimi qiymətləndirilirdi və çox xoş qarşılanırdı.

Ancaq keçən yüzilliyin sonlarından etibarən bu hamam fəaliyyətini dayandırmış, tədricən unudulmuş və müəyyən dağıntılara məruz qalmışdır. Bu səbəbdən də onun bərpa və təmirinə ehtiyac yaranmışıdır. Məlumdur ki, Naxçıvan Muxtar Respublikasında 1996-cı ildən başlanan geniş miqyaslı abadlıq, quruculuq işləri sırasında tarix-mədəniyyət abidələrinə, ümumiyyətlə keçmiş irsə diqqət və qayğı xüsusi yer tutur. Son iyirmi il ərzində muxtar respublikada bu sahədə böyük işlər görülmüşdür. Yüksək dövlət qayğısı sayəsində muxtar respublika ərazisində indiyədək gəlib çatan daşınmaz tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış, onlar əsasında çoxlu ümumiləşdirici əsərlər, monoqrafiyalar, kitablar, məqalələr yazılaraq nəşr etdirilmiş, xalqımıza və beynəlxalq ictimaiyyətə çadırılmışdır. Həmçinin zaman keçdikcə güclü aşınmaya məruz qalmış 60-dan artıq müxtəlif təyinatlı tarix memarlıq abidəsi, o cümlədən türbələr, məscidlər, xanəgahlar, hamamlar, buzxanalar və s. nümunələr orijinallıq saxlanmaqla yüksək səviyyədə bərpa olunaraq xalqa qaytarılmışdır. Bu iş indi də davam etdirilməkdədir. Bu baxımdan Şərur rayonunun Yengicə kəndində yerləşən və haqqında bəhs etdiyimiz hamam da diqqətdən kənarda qalmamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov keçmişdə bölgə əhalisinin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynadığını, memarlıq abidəsi kimi əhəmiyyətini nəzərə alaraq hamamın müasir vəziyyəti ilə yerindəcə tanış olmuş, onu memarlıq- konstruktiv cəhətdən möhtəşəm bir abidə, Azərbaycan memarlığının gözəl nümunəsi kimi dəyərləndirmişdir. Həmçinin Ali Məclisin Sədri sistemli tədqiqata ehtiyacı olduğunu nəzərə alaraq abidənin və ətrafının hərtərəfli tədqiq və bərpa olunması ilə bağlı aid təşkilatlar qarşısında mühüm vəzifələr qoymuş, bununla əlaqədar bir sıra tapşırıqlar vermişdir. Məhz buna görə də AMEA Naxçıvan Bölməsində Yengicə hamamı və onun çevrəsinin hərtərəfli tədqiq olunması məqsədi ilə uyğun mütəxəssilərdən ibarət “Tədqiqat qrupu” yaradılmışdır. Tədqiqat qurupunun üzvləri Yengicə hamamı və çevrəsinin dərindən və hərtərəfli tədqiqi ilə əlaqədar Ali Məclis Sədrinin tövsiyə və tapşırıqlarını yüksək səviyyədə yerinə yetirmək üçün qüvvələrini səfərbər edəcək, səylə çalışacaqlar.

ƏDƏBİYYAT

1. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı: Elm, 2012, 384 s.
2. Çələbi E. Səyahətnamə (Azərbaycan tarixinə dair seçmələr). Bakı: Azərnəşr, 1997, 92 s.
3. İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild. Bakı: Təhsil, 792 s.
4. Qənbərova G. Şərur rayon Yengicə kəndində hamam (XVIII-XIX əsr). AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2007, №1, s. 224-229
5. Mirheydərzadə M. Noraşen dairəsinə səyahət. "Şərq qapısı" qəzeti, 16 fevral 1989-cu il.
6. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan,2008, 521 s.
7. Onullahi S.M. XIII-XVIII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 280 s.
8. Rəsizadə M. Şərur dairəsində səyahət haqqında qeydlər. Azərbycanı öyrənmə yolu, 1930, sayı 4-5, s. 81-82
9. Sarabcki H. Köhnə Bakı. Bakı: Yazıçı, 1982, 254 s.
10. Şardən J. Səyahətnamə. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı: Elm, 1994, 96 s.

РЕЗЮМЕ

ГАДЖИФАХРЕДДИН САФАРЛИ

ИЗЯЩНЫЙ ОРАЗЕЦ ВОСТОЧНОЙ АРХИТЕКТУРЫ -БАНЯ ЕНГИДЖА

В статье говоротся о бане построенной в селе Енгиджа Шарурского района. Отмечается, что построившийся XVIII в. со стороны Товуз ханума родом из села Шахтахты, эта баня играла важную роль не только в селение Енгиджа и в жизни людей окрестных деревень. Баня, действующая до середины XX в. существовала не только местом обмывания и очишание, но и была также места встречи, беседы, отдыха людей, даже при лечении некоторых заболеваний.

Ключевые слова: Нахчыван, Енгиджа, Шахтахты, баня, восстановление.

SUMMARY

HAJIFAKHRADDIN SAFARLI

YENGIJA BATH HOUSE – ONE OF THE MAGNIFICENT SAMPLE OF EASTERN ARCHITECTURE

The article deals with bath house built in Yengija village of Sharur region. It is noted that the bath house was built in the XVIII century by Tovuz khanim from Shahtakhti village and played an important role not only in the life of the Yengija village but also round villages. The bath house continue its activity till the middle of the XX century. It was a place where the people were having bath also meeting, talking, resting even curing some illness.

Key words: Nakhchivan, Yengija, Shahtakhti, bath house, restoration.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5**

Yengicə hamamı

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

İBRAHİM KAZIMBƏYLİ
Azərbaycan Dillər Universiteti
ibrahimkazimbeyli@gmail.com

İRƏVAN QUBERNİYASININ İNZİBATİ VAHİDLƏRİNDƏ AZƏRBAYCANLI ƏHALİYƏ QARŞI ERMƏNİLƏRİN PLANLI ŞƏKİLDƏ HAZIRLADIQLARI SOYQIRIM VƏ DEPORTASİYALARIN İLKİN MƏRHƏLƏLƏRİ (II MƏQALƏ)

Tarixi Azərbaycan ərazilərinə köçürülərək yerləşdirilən ermənilərin İrəvan və digər bölgələrin ən yaxşı xəzinə torpaqlarında məskunlaşmaları, çarizmin onlara yerlərdə özünün etibarlı hərbi-siyasi dayağı kimi baxması, sonrakı mərhələlərdə müsəlman əhali ilə ermənilər arasında ziddiyyətlərin və münaqişələrin yaranmasına gətirib çıxardı.

Həm də XIX əsrin sonlarından başlayaraq siyasi cəhətdən təşkilatlanan ermənilər, Rusiyanın yardımı ilə əsrin əvvəllərindəki erməni köçkünlərdən fərqlənirdilər. Çünki bu erməni kütləsi sivil bir toplum olmayıb, başıpozuq bir qüvvə mahiyyətində idi. Sonrakı dövrlərdə Rusiya hakimiyyət orqanları tərəfindən hər cür dəstək alan ermənilərin məskunlaşdıqları İrəvan bölgəsində və digər Azərbaycan ərazilərində özlərinə dövlət yaratmaq uğrunda mübarizəyə başlamaları bölgədə daha gərgin və qanlı erməni-müsəlman toqquşmalarına gətirib çıxardı.

Bu qanlı qırğınların səbəbləri, hazırlanması, həyata keçirilməsi, əsas məqam və məqsədləri əsaslandırılmış elmi dəlillərlə məqalədə geniş təhlil olunur.

Açar sözlər: İrəvan, quberniya, inzibati, soyqırım, deportasiya, mərhələ.

İrəvandadakı erməni-müsəlman toqquşmalarının şiddətlənməsi və ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qırğın və talanlarla bağlı Osmanlı dövlətinin 1905-ci il iyunun 23-də Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə təfsilatlı məlumatlar daxil olduqdan sonra Osmanlı hökuməti Peterburqdakı səfiri vasitəsilə erməni silahlı dəstələrinin Osmanlı ərazilərinə keçməsinin qarşısının alınması və Qafqazdakı müsəlmanların təhlükəsizliyinin təmin edilməsi üçün Rusiya hökuməti ilə yenidən danışıqlara başladı.(4.v.1-3) Rusiyanın baş diplomatı səfirə yenə də bütün lazımi tədbirlərin görüləcəyini vəd etsə də, heç bir real tədbir görülmədi.

İyunun 1-də əldə edilən müvəqqəti sülhdən sonra İrəvan şəhərində sülh-barışıq bərpa oldusa da, bu zaman erməni komitələri tərəfindən müsəlman kəndlərinə hücum əmri verildi. İrəvan mahalında iğtişaş qoparmaq üçün şəhərdən erməni başbilənləri komandanlar təyin edir və hər mənsəb sahibi öz bölüyü ilə təyin edildiyi yerə getməkdə idi. Bu günlərdə yenə də İrəvanda

qorxu və müharibə ehtimalı müsəlmanların qəlbində qalmaqda, əhali təşviş içərisində idi. Ara-sıra şəhərdə güllə səsləri hələ də eşidilməkdə idi.

Bu zaman azərbaycanlıların başı hakimiyyət bölgüsünə qarışdı. Yerli hakimiyyət orqanlarına seçkilər keçirilməsi vaxtı deyildi və bu vurnuxma ilə erməni hücumunun təhlükəsi arxa plana keçdi. İş o yerə çatdı ki, ermənilərlə müsəlmanlar arasında barışıq yaratmaq üçün şəhərə gələn şeyxülislam hadisələrə müdaxilə etməli oldu. O, firqəbazlıq edən İrəvan əyanlarına səslənərək deyirdi: “Cammat! Biz bu şəhərə gəlmişik iki ədavətli milləti barışdırıb sülh edək, nəinki rəhbərlik və firqəbazlıq üstə çəkişən əyanları...”(20.səh.28) Rəislər və məmurlar xalqı azdıraraq çoxsaylı partiyalar və qruplaşmalar üçün tərəfdarlar toplayarkən ermənilər azərbaycanlı məhəllələrindən birini mühasirəyə aldılar və onun sakinlərini qırmağa başladılar.(19.səh.186)

Bu zaman mahalda erməni silahlı birləşmələri müsəlman kəndləri üzərinə hücum edərək əhalini qırmaqda idilər. Uşaq, qadın, qoca bilmədən silahsız azərbaycanlı əhali qılıncdan keçirilir, Quranlar yandırılır, müsəlmanların ən ülvi hissləri təhqir edilirdi. M.S.Ordubadi İrəvan mahalındakı vəziyyəti təsvir edərək yazırdı: “İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda və boğmaqda idi”.(20.səh.29)

İyunun 1-də ermənilər Qırxbulaq mahalının Gözəcik kəndinə hücum etdilər. Tirjabat adlı erməni kəndindən gerçəkləşdirilən qəfləti hücum Gözəcikdə vahiməli bir vəziyyət yaradır, çaşqın vəziyyətə düşən azərbaycanlılar tələsik kənddən çıxıb yarım verst məsafədə olan qonşu Məngus kəndində pənah apardılar. Ermənilər azərbaycanlıları təqib edib Məngus kəndinə də hücum etmək istəyirlər. Bu zaman Novruz Kazım oğlu adlı bir kənd ağsaqqalı qəhrəmanlıq nümayiş etdirdi. O, kənddən qaçan azzərbaycanlılara üzünü tutaraq dedi: “Hara qaçırsınız? Düşməndən qaçmaq yox, torpağı qorumaq lazımdır... Bilirsiniz ki, bizim bu məzarlığımızda yatan babalarımızın sümükləri çıxarılıb kənddə yandırıldıqdan sonra onların məzarları yerində Ermənistan təşkil ediləcəkdir. Mən axirətdə məsul olmamaq üçün müdafiəyə qalıb qüvvəm çatdığı qədər çalışacağam”. Lakin heç kəs onu eşitmədi. O, tək-tənha qoşalülə tüfəngi ilə müdafiə olunmaq qərarına gəldi. Bir neçə erməni öldürdü, sursatı bitdiyi üçün əsir düşdü. Ermənilər kəndə od vurdular, məscidi, minbəri və müqəddəs kitabları yandırdılar. Novruz kişi Tirjabat erməni kəndinə gətirildi və burada kəndin erməni keşişi Ayrapet tərəfindən başı kəsildi. Daşnaklar Novruz kişinin başını “min beş yüz müsəlman sərkərdəsinin başıdır” deyə əvvəlcə Aleksandropola, sonra isə Bakı şəhərinə göndərdilər.(20.səh.30-31)

İyunun 2-də 10 min nəfərlik erməni alayı Məngus kəndinə hücum edir. Ermənilər kəndi tərk etməyə macal tapmamış 80 yaşlı ağsaqqal əlili şişə taxmışdılar. Kəndin kəndxudası Qaladibi kəndindən olan Cahanbəxş iki yoldaşı ilə birlikdə dağlarda gizlənərək ermənilərin izlədiyi qadınları qoruyurdular. Hətta, onlar iki erməni yaraqlısını da məhv edə bildilər. On min nəfərlik erməni qoşunu kəndi tutarkən, onun sakinləri Təzəkənd kəndində

sığınacaq tapdılar. Ermənilər tərəfindən dağıdılan 12 müsəlman kəndinin əhalisinin hamısı cəmi 20 evdən ibarət olan Təzəkəndə toplanmışdı.

1905-ci il iyun ayının 3-də 150 evdən ibarət Güllücə kəndi ermənilərin hücumuna məruz qaldı. Güllücəyə Başkeni adlı erməni kəndindən gerçəkləşdirilən hücumda 10 minə qədər erməni əsgəri iştirak edirdi. Ermənilərin məqsədi müsəlmanları özlərinə əlaltı etmək, yaxud onları məhv edib çoxdan bəri arzusunda olduqları istiqlaliyyəti əldə etmək idi. Buna görə də bütün məmləkət ermənіləri əldə silah müsəlmanlar əleyhinə qiyam etmişdilər. Güllücə kəndi hər tərəfdən erməni yaşayış məntəqələri ilə əhatə olunduğundan erməni cəlladlarının mühasirəsinə düşmüşdü. Güllücə kəndinin Məşədi Qəmbər, Mahmud, Hacı Hüseyn və başqalarından ibarət 15 nəfərdən ibarət kiçik bir dəstəsi müqavimət göstərdilər. Lakin qüvvələr nisbəti qeyri-bərabər olduğundan müqavimət itki ilə nəticələndi və dəstə geri çəkilməli oldu. Güllücə kəndinin silahsız əhalisi canlarını qorumaq üçün qaçıb 1,5 verst aralıqda yerləşən Tutya, Damagirməz, Kamal adlı azərbaycanlı kəndlərinə pənah apardılar. Kəndi tərk etməyə macal tapmayanlar isə ermənilər tərəfindən qətlə yetirildilər.

Müsəlman kəndlərinə ermənilər tərəfindən edilən aramsız hücumların yaratdığı anarxiya və panika bölgənin bütün azərbaycanlı kəndlərində normal həyatı iflic etmişdi, əhali səksəkə içərisinsə yaşayırdı. İyunun 4-də 150 evdən ibarət Kamal kəndinin sakinləri kəndin mövqelərinin təhlükədə olduğunu gördüklərindən arvad-uşaqlarını götürüb qonşuluqdakı Damagirməz kəndinə qaçdılar. Yaranmış panika şəraitində Damagirməz kəndinin sakinləri də onlara qoşulub 20 verst məsafədə olan Təzəkəndə pənah apardılar. Bu kənddə 18 gün ağır ehtiyac içərisində gün keçirəndən qonşu müsəlman kəndlərinin sakinləri İrəvanda əldə edilən növbəti sülhdən sonra rus əsgərlərinin mühafizəsi altında öz dağıdılmış, viran edilmiş evlərinə qayıda bildilər.(20.səh.31-32)

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə daxil olan 8 fevral 1906-cı il tarixli bir sənəddə, İrəvan bölgəsində ermənilər tərəfindən dağıdılaraq yandırılan və əhalisi soyqırıma məruz qalan 25 müsəlman kəndinin adı verilir: 1. Horus, 2. Çəhri, 3. Cənnətli, 4. Tavus, 5. Bitdicə, 6. Köy-vali, 7. Saarımsəng, 8. Məngus, 9. Gözəcik, 10. Güllücə, 11. Tonya, 12. Damagirməz, 13. Kuh, 14. Kamal, 15. Kəmərli, 16. Bozavant, 17. Torpaq-qala, 18. Masumlu, 19. İpəkli, 20. Oğru-bənli, 21. Çidəmli, 22. Novo-Bayazid (Yeni Bəyazid), 23. Dokuzlu, 24. Tutublu, 25. Hamamlı*.(5)

"Novoe Obozrenie" qəzetinin 6 iyun 1905-ci il tarixli nömrəsində İrəvan bölgəsinin Qırxbulaq mahalının müsəlmanlarının Bakı Dumasına ünvanladıqları 2 iyun tarixli teleqram nəşr olunmuşdu. Abbas Ağayev, Süleyman Bəyov və Konbad bəy tərəfindən imzalanan teleqramda göstərilirdi ki, "bu tarixdədək Qırxbulaq mahalının 10 müsəlman kəndi ermənilərin hücumuna məruz qalmış və bu kəndlərdə müsəlman əhaliyə qarşı qırğın, onların əmlaklarına qarşı isə talan həyata keçirilmişdir. Canlarını qorumaq

* Kəndlərin adı sənəddə olduğu kimi verilmişdir.

üçün digər müsəlman kəndlərinə pənah aparan bu kəndlərin müsəlman əhalisi yerli hökumətdən himayə ümidləri olmadığından aclıqdan ölmək təhlükəsi ilə üz-üzədir. Yalvarırıq, yardım əlinizi uzadıb bizi ölməyə qoymayın”.(6.v.1)

1905-ci il may ayının sonu – iyun ayının əvvəllərində Şərur-Dərələyəz qəzasının müsəlman kəndləri ermənilərin hücumlarına məruz qaldı. Bəhs edilən dövrdə Şərur-Dərələyəz qəzasında 163 kənd var idi ki, onlardan 109-u Dərələyəz nahiyəsində, 54-ü isə Şərur nahiyəsində yerləşirdi. Şərur nahiyəsində yalnız 6 erməni kəndi və 2 qarışıq kənd, Dərələyəz nahiyəsində isə 23 erməni kəndi və 2 qarışıq kənd var idi. Şərur-Dərələyəz qəzasının 76 min nəfər əhalisinin 55 min nəfərini azərbaycanlılar, 21 min nəfərini ermənilər təşkil edirdi. Azərbaycanlıların sayca üstün olmalarına baxmayaraq, ermənilərin hərbi cəhətdən hazırlıqlı olmaları və hökumət məmurlarından aldıqları hərtərəfli dəstək onları cürətləndirirdi. Ermənilərin Şərur-Dərələyəz qəzasının təkcə Hors kəndinə gerçəkləşdirdikləri 1905-ci il 27 oktyabr tarixli hücum zamanı 53 azərbaycanlı öldürülmüş, 255 ev yandırılmış, əhalinin mal-qarası və digər əmlakı talan edilərək aparılmışdı.

Eyni dövrdə Sürməli qəzasında da qırğınlar törədildi. Bu bölgələrdə də həyata keçirilən qırğınların ssenarisi əvvəlkilərlə eyni idi, yenə Daşnaksütyun partiyası azərbaycanlılara qarşı törədilən milli qırğınların əsas təşkilatçısı və bu partiyanın üzvləri iştirakçıları idilər. Hökumət məmurları da yenə ermənilərə azərbaycanlılara qarşı hücumlara təhrik edir, bir çox hallarda ermənilərlə birlikdə hərəkət edir, silahsız müsəlman əhalisinin təhlükəsizliyini təmin etmək üçün heç bir iş görmür, ən yaxşı halda bitərəf qalır və ya qırğınlar başa çatandan sonra hadisə yerinə gəlir və əsgərlər göndərirdilər.

Bəhs edilən dövrdə ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları Eçmiədzin qəzasına daxil olan Əştərək nahiyəsi də qanlı qırğınlar meydanına çevrilmişdi. Əştərək bölgəsində 10 sırf azərbaycanlı (Batrinc, Əkərək, Kiçikkənd, Təkiyə, Nəziravan, Uşu, Persi, Əngirsək, Kavtarlı, Hamamlı), 6 sırf erməni (Əştərək, Muğni, Karbi, Ohannavəng, İlançalan, Qalacıq) kəndi mövcud idi. Parpı, Soğomosavəng və Qotur kəndlərində isə azərbaycanlılarla ermənilər qarışıq yaşayırdılar.(15.səh.62-63)

1905-ci il iyunun 3-də Abaran, Şoragöl, Pəmbək və Aleksandropol ermənilərı bir yerə yığışıb İlançalan erməni kəndi istiqamətindən 142 evdən ibarət olan Uşu adlı azərbaycanlı kəndinə hücum etdilər. Uşu kəndi ermənilərə ciddi müqavimət göstərdi,8 saat davam edən şiddətli vuruşmadan sonra ermənilər davam gətirməyib bir çox tələfatdan sonra qaçmağa məcbur oldular. Ertəsi gün “bu müsəlmanları belə az qüvvələrlə məğlub etmək olmaz” deyən ermənilər döyüşü təxirə salıb ətrafdakı erməni kəndlərindən əsgər yığmağa başladılar. Ermənilərin mühasirəsində olan azərbaycanlıların isə hər tərəfdən yolları kəsildiyindən bir nəfər də olsa onlara köməyə gələn yox idi. Qüvvələrini artıran ermənilər iyunun 5-də yenidən Uşu kəndinə hücum etsələr də, yenə məğlub olub geri çəkildilər. Bu vuruşmada azərbaycanlılardan iki nəfər qətl edildi, bir nəfər də yaralandı.

Ermənilər yenidən qüvvələrini artırmaq üçün əsgər toplamaqla məşğul olduqlarından iyunun 6-7-də nisbi sakitlik hökm sürdü. İyunun 8-də ermənilər yenidən hər tərəfdən Uşu kəndinə hücum etdilər. Onların əsas silahları beşaçılan tüfənglər olduğu halda, azərbaycanlılarda berdanka tüfəngləri idi. Səhərədən axşamadək davam edən vuruşmada azərbaycanlıların sursatı tükənməkdə olduğundan onlar istehkamları tərk edib Uşu kəndinə çəkildilər. İlk əvvəl arvad-uşaqlarını məscidə yığan azərbaycanlılar daha sonra onların təhlükəsizliyini təmin etməkdən ötrü onları yolsuz keçidlər, dağlarla aparıb yüksək yaylaqlarda yerləşən Sürməli müsəlmanlarının himayəsinə verdilər. Axşam alaqaranlıqda Uşu kəndində davam edən xəncər döyüşündə azərbaycanlılardan 4 nəfər – 2 əlil kişi və 2 qoca şəhid oldu. Tüfəngli ermənilər qarşısına xəncərlə çıxmağa məcbur olan azərbaycanlılar əsl şücaət göstərdilər. Ermənilərdən 180 nəfər öldürüldü və bir o qədər də yaralandı. Azərbaycanlılar artıq kənddə qalmağı münasib bilməyib kəndi boşaltdılar. Ermənilər kəndə od vurdular. Uşu kəndinin əhalisinə vurulmuş maddi zərərin məbləği 200 min manat civarında idi.

İyunun 9-da Pərsi (34 ev), Nazrəvan (58 ev), Kiçikkənd (36 ev), Kötüklü, Qoşabulaq, İrgu, Əngirsək (20 ev) kəndlərinə hücum edən ermənilər bu kəndləri də viran edib, silahsız azərbaycanlı əhalini qılıncdan keçirdilər. Ermənilərin törətdiyi vəhşiliklərlə bağlı M.S.Ordubadi yazırdı: "Bu müharibələrdə ermənilərin şan-şöhrətinə ziyan vuran bir iş vardısa, o da müharibə vaxtında südəmər körpələri, qoca qarıları öldürmək idi".(20.səh.34-35)

Həmin gün eyni zamanda 85 evdən ibarət məşhur Təkyə adlı azərbaycanlı kəndi də ermənilərin hücumuna məruz qaldı. Azərbaycanlılar tamamilə silahsız, ermənilər isə mükəmməl silahlı olduqlarından azərbaycanlılar kəndi boşaldıb, arvad-uşaqlarını götürüb yüksək təpələr başına pənah apardılar. Ermənilər kəndə od vurub yandırdılar. Bu zaman axund Məhəmməd Əli Mirzə Əbdül-Hüseyn Qazızadənin imarətində olan 200 cild Quran və digər müqəddəs kitablarla yanaşı, onun bütün kitabxanası və qazı idarəsinə məxsus kitablar da yandırıldı. Bununla yetinməyən ermənilər Quranları süngülərə keçirib məşəl kimi yandırırdılar. Azərbaycanlıların kəndin məscidinə sığındığını güman edən ermənilər əvvəlcə məscidi gülləbaran etdilər, daha sonra onu oda yaxdılar. M.S.Ordubadi Eçmiədzin qəzasında ermənilər tərəfindən dağıdılan və yandırılan azərbaycanlı kəndlərin sırasına iyunun 10-da daha 9 kəndin də əlavə olunduğunu və bütün bu dəhşətlər qarşısında hökumət məmurlarının etinasızlıq göstərdiyini dilə gətirərək yazırdı: "İyun ayının 10-da Eçmiədzində 9 məşhur islam kəndi dağıdıldı, hökumət isə heç bir tədbir görmədi. Bəzi yerlərdə hökumət etinasızlıq göstərdiyi kimi, bu mahalda da etinasız rəftar edib bir çarə qılmadı. Ümid edirəm ki, hər iki millət bunun mənasını gözəlcə başa düşür".(20.səh.35)

Sənədlərdən aydın olur ki, 1905-ci il may ayının sonu - iyun ayının əvvəllərində ermənilərin Eçmiədzin qəzasındakı müsəlman kəndlərinə hücumu zamanı 9 Azərbaycan kəndi dağıdılmış, əhalisi soyqırıma məruz qalmış və öz yurd-yuvalarından didərgin salınmış və bütün bu milli qırğın aktları qarşısında

hakimiyyət tərəfindən azərbaycanlı əhalini müdafiə etmək üçün heç bir tədbir görülməmişdir.

Yuxarıda da qeyd edildiyi kimi, ermənilər bir bölgədə qırğınlar törədib başa çatdırdıqdan sonra burada sülh edib, başqa bölgələrdə əməllərini davam etdirir və sadəcə hadisələrin coğrafiyasını dəyişirdilər. 1905-ci il iyun ayının ortalarından başlayaraq Yelizavetpol quberniyasının Qarabağ və digər bölgələrində azərbaycanlılara qarşı milli qırğın aktları həyata keçirildi. İyun ayından başlayan qırğınlar nəticəsində Cəbrayıl-Qaryagin qəzasının Veysəlli, Qacar, Cəmənli, Arış, Qışlaq, Məzrə kəndləri darmadağın edildi.(20.səh.36-58) Təkcə 16-21 avqust tarixlərində Şuşada törədilən qırğınlar zamanı 81 müsəlman öldürülmüşdü.(7)

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə daxil olan 2, 6 və 7 sentyabr 1905-ci il tarixli məlumatlarda ermənilərin Şuşada, Bakıda və digər bölgələrdə müsəlmanlara qarşı törətdiyi iğtişaş və qırğınlardan bəhs edilərək göstərilir ki, avqustun 12-də ermənilər Şuşada müsəlmanlar üzərinə qəflətən hücum etmiş, erməni məhəlləsində yaşayan bütün müsəlmanları qətl etmiş, 40 evdən ibarət bir kəndi tamamilə yandırmışlar. Hazırda ermənilərlə müsəlmanlar arasında toqquşmalar davam etməkdədir. Ermənilər iğtişaşları yatırmaq üçün gələn Yelizavetpol vitse-qubernatoru Vladimir Nikolayeviç Baranovskini də yaralamışlar. 200 insan ölmüş və yaralanmış, 200-ə qədər ev də xarabalığa çevrilmişdir. İğtişaşlarda İran təbəələri də öldürülmüş və bununla bağlı İranın Tiflisdəki konsulu Eçmiədzin katolikosluğuna teleqram göndərərək, bu hadisənin İranda da erməni-müsəlman toqquşmalarına səbəb ola biləcəyini xatırlatmışdır. Yelizavetpol və Nuxada da iğtişaşlar törədilmişdir. Bu iğtişaşlardan ən çox əziyyət çəkən və zərərlər görən müsəlmanlardır. Bakıda da ermənilər müsəlmanlar üzərinə hücumlar etmiş, nəticədə avqustun 22-nə qədər 270 müsəlman və 130 başqa millətlərin nümayəndələri öldürülmüşdür. 300-ə qədər neft quyusu yandırılmış və dağıdılmışdır.(8)

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən İstanbul hökumətinə göndərilən 31 yanvar 1906-cı il tarixli məlumatda ermənilərin Şuşa qəzasında dağıdıb yandırdıqları 19 müsəlman kəndinin adları verilir: 1. Xankəndi, 2. Malkəndi, 3. Qacar, 4. Abdal, 5. Gülanı, 6. Papervənd, 7. Şelli, 8. Kuratlar, 9. Gülablı, 10. Qaradağlı, 11. Dovanalılar, 12. Dəlili, 13. Xanəzək, 14. Qaib Alı, 15. Xəlifəli, 16. Kürk Cihan, 17. Can Həsən, 18. Xocalılar, 19. Həsən Abad.(9) Bu kəndlərlə bağlı başşəhbəndərin növbəti, 5 fevral 1906-cı il tarixli teleqramında isə yandırılan 19 müsəlman kəndinin vəziyyəti haqqında məlumat verilir və bölgənin müsəlman əhalisinin acınacaqlı durumundan bəhs edilir. Bildirilir ki, “Şuşa qəzasının adı çəkilən müsəlman kəndlərinin nümayəndələri şəhbəndərliyə gəlmiş və imdad istəmişdir. Nümayəndələrin verdikləri məlumata görə, ermənilər müsəlman kəndlərini mühasirədə saxlayaraq kənardan kəndlərə ərzaq və digər zəruri malların daxil olmasına imkan vermirlər, əhali qıtlıq çəkir. Yandırılan 19 müsəlman kəndinə gələn hökümət məmurları müsəlmanları tərksilah etmiş, ermənilərə isə toxunmamış-

lar”.(10) Osmanlı hökuməti Şuşa qəzasında müsəlman əhaliyə qarşı baş verənlərlə bağlı dərhal İstanbuldakı rus səfiri danışıqlar aparır, lakin rus diplomatı İstanbul hökumətinin bu addımını Rusiyanın daxili işlərinə qarışmaq kimi qiymətləndirir.(2.v.1-2) Bundan sonra Osmanlı hökuməti Peterburqdakı Osmanlı səfirliyinə təlimat göndərir ki, Rusiya hökuməti qarşısında adı çəkilən məsələni qaldırsın və müvafiq tədbirlərin görülməsinə çalışsın.(10) Bu təlimat üzrə səfir Rusiya hökumət rəsmiləri ilə görüşür, baş verənlərlə bağlı Osmanlı hökumətinin narahatlığını dilə gətirir və təcili təxirəsalınmaz tədbirlərin görülməsini xahiş edir. Rusiya hökuməti Osmanlı səfirinə yenə də “müsəlman əhalinin təhlükəsizliyini qorumaq üçün bütün lazımi tədbirlərin görüləcəyi” təminatını verir, lakin reallıqda heç bir iş görülmür.

Cənubi Qafqaz müsəlmanları yaxşı anlayırdılar ki, hökumətin möhkəm iradəsi və hadisələrə birbaşa müdaxiləsi olmadan diyarın bütün bölgələrini əhatə edən erməni-müsəlman toqquşmalarının qarşısını almaq mümkün olmayacaqdır. Buna görə də 1905-ci il iyun ayının 10-da Yelizavetpol, Bakı, Tiflis, Borçalı, Dağıstan və Batum vilayətlərinin müsəlmanlarını təmsil edən 9 nəfərdən ibarət nümayəndə heyəti Tiflisə gələrək Qafqaz valisi Vorontsov-Daşkovla görüşdülər. Görüşdə müsəlman nümayəndələr Bakı, Naxçıvan və İrəvanda baş verən erməni-müsəlman toqquşmaları haqqında məlumat verdilər və erməni-müsəlman toqquşmalarının baş verməsində müsəlmanların günahının olmadığını, günahkar tərəfin ermənilər olduğunu valinin diqqətinə çatdırdılar, vali də öz növbəsində erməni-müsəlman toqquşmalarında müsəlmanların günahkar olmadığını bildiyini heyətə bəyan etdi.(11)

Bu görüşdə müsəlman nümayəndələr eyni zamanda müsəlmanların Rusiya hökümətindən tələb və təkliflərini valinin diqqətinə çatdıraraq bildirdilər ki, müsəlmanların təhsil haqqı, mətbuat orqanları təsis etmə haqqı və digər hüquqları təmin edilməli, torpaq problemi həll edilməli, yaylaq və qışlaqlardan istifadə haqqı təmin edilməli, kənd polisi ləğv edilməli, müsəlmanların banklardan yararlanması təmin edilməli, müsəlmanlara zadəganlıq hüququ tanınmalı, müsəlmanlar da bölgənin idarəçiliyində iştirak etməli və s. Qafqaz valisi isə bu tələblərin araşdırılacağına və həll ediləcəyinə söz verdi.

Lakin Qafqaz valisi tərəfindən verilən sözlərin elə söz olaraq da qalıb yerinə yetirilməməsi Cənubi Qafqaz müsəlmanlarını başqa addımlar atmağa vadar edirdi. Belə ki, ermənilər tərəfindən İrəvanda, Şuşada və Bakıda müsəlmanlar üzərinə edilən son hücumlar və bu hücumlar nəticəsində müsəlmanların qırğınlara məruz qalmalarına cavab olaraq müsəlmanlar keçirdikləri toplantılarda Rusiya silahı ilə silahlanmış ermənilərin müsəlmanları qırğınlara məruz qoymaları və Rusiya hökümətinin müsəlman əhalini bu hücumlardan qorumaq üçün heç bir iş görmədiyi açıq şəkildə vurğulanmış və müsəlmanları ermənilərin hücumlarından qorumaq üçün Osmanlı sultanına və İran şahına müraciət etmək haqqında qərarlar qəbul olunmuşdu.(12)

Onu da qeyd etmək lazımdır ki, İrəvan bölgəsində və Cənubi Qafqazın digər bölgələrində ermənilərin müsəlmanlara qarşı mütəmadi hücumları bölgənin müsəlman əhalisinin Osmanlı dövlətinə mühacirət etməsinə təkan

verdi. Təkcə 1905-ci il iyul ayının ilk on günlüyündə Cənubi Qafqaz müsəlmanlarından 250 nəfərdən ibarət 34 ailə Osmanlı ərazilərinə keçərək Osmanlı təbəəliyinə qəbul etmək üçün müraciət etmişdilər. Mühacirlərin müraciətləri təmin edilmişdi.(3.v.1-2) 1905-ci ilin sentyabrında Ərzuruma gələn 75 ailədən ibarət Qarabağ mühacirləri Osmanlı hökumətinin göstərişi ilə Adanaya yerləşdirilmiş və onlara yardımlar göstərilmişdi.(13.v.2)

1905-ci il sentyabrın 18-də İrəvanda sayca üçüncü erməni-müsəlman toqquşması baş verdi. Lakin bu dəfə İrəvan qubernatoru tərəfindən iğtişaşların genişlənməsinin qarşısı alındı. Bununla belə, bu iğtişaşlar da tələfatsız ötüşmədi. İrəvan quberniyası general-qubernatorunun verdiyi 19 sentyabr 1905-ci il tarixli məlumatda deyilir ki, baş verən kütləvi iğtişaşlar zamanı 8 müsəlman, 2 erməni öldürülmüş, 3 müsəlman, 8 erməni isə yaralanmışdır.(16.səh.95-96)

Erməni-müsəlman qırğınlarına son qoymaq məqsədilə 1906-cı ilin fevralında Qafqaz canişini İ.Vorontsov-Daşkovun təşəbbüsü ilə Tiflisdə daşnak liderləri və azərbaycanlı ictimai fikrinin tanınmış nümayəndələrinin iştirakı ilə konfrans çağırıldı. O dövrün mətbuatında “Erməni-müsəlman qurultayı” adlandırılan həmin konfransda canişinliyin bütün heyəti, Tiflis, Yelizavetpol və İrəvan qubernatorları, ermənilərin 28, müsəlmanların 29 nümayəndəsi, iki qazı və iki yepiskop iştirak edirdi. Burada azərbaycanlıları Əhməd bəy Ağayev, İsrafil Hacıyev, Əli Mərdan bəy Topçubaşov, Məhəmməd ağa Vəkilov, Qarabəy Qarabəyov, Ələkbər bəy Xasməmmədov, Adil xan Ziyadxanov və b. təmsil edirdilər. İrəvan quberniyasının müsəlmanlarını Ağa xan İrəvanski, Abbasqulu bəy Hacıbəylinski və şahzadə Şahqulu Mirzə təmsil edirdilər.

Erməniləri isə, “Mşak” qəzetinin müdiri Kalantar, Aleksandr Xatisov, Samson Artyunov, Muşeksyan, Stepanov, Arakelyan, Taqiyanusov, Ter-Avanesov, arximandrit Muradyan və b. təmsil edirdilər.

Bu toplantıda azərbaycanlı nümayəndələr “Daşnaksütyun” partiyasının niyyətlərini və planlarını ifşa edib, onun Cənubi Qafqazda törədilən qırğınların əsas təşkilatçısı və icraçısı olduğunu, hökumət dairələrinin isə bu təşkilatın əməllərinə və törədilən müsəlman qırğınlarına göz yumduqlarını faktlarla sübuta yetirdilər. Azərbaycan nümayəndələrindən Şahmalıyev açıq şəkildə bəyan etdi ki, “dövlət adamları terrordan qorxub erməni tərəfini müdafiə edirlər...”(20.səh.113) Uzun-uzadı aparılan qarşılıqlı ittihamlarla müşaiyət olunan müzakirələrin yekununda hökumət tərəfindən Cənubi Qafqazda terrorun aradan qaldırılması, ictimai asayişin təmin edilməsi və silahlı dəstələr saxlayan siyasi partiyaların ləğvi haqqında qərarlar qəbul edildi. Lakin hadisələrin sonrakı axarı bu yığıncağın Qafqaz canişini tərəfindən gözdən pərdə asmaq, Azərbaycan ictimai rəyini öyrənmək üçün təşkil edildiyini göstərdi. Belə ki, bundan sonra ermənilərin törətdiyi milli qırğın nəinki səngidi, əksinə, daha da genişləndi və artıq çar məmurları da hadisələrdə ermənilərin tərəfində açıq-aşkar iştirak etməyə başladılar.(18.səh.223-224)

Tiflisdə keçirilən konfransın nəticəsi olaraq erməni-müsəlman barışıq komissiyası yaradılmışdı. Lakin toqquşmaların səngiməsindən bir qədər sonra

erməni silahlı dəstələri yenidən qırğınlara başladılar. Erməni müəllifi A-donun verdiyi məlumata görə, İrəvan şəhərində dördüncü erməni-müsəlman toqquşması 1906-cı il mayın 27-də və iyunun 8-9-da baş verdi. Toqquşma mayın 27-də İrəvandakı Qantar (Tərəzi) meydanında başladı. Atışma çox qısa davam etdi. Köməyə gələn qoşunlar qayda-qanunu bərpa etdilər. Lakin 36 nəfər ölü və yaralı verdikdən sonra, öldürülən 22 nəfərdən 13-ü erməni, 7-si azərbaycanlı, 1-i molokan, 1-i yəhudi olmuşdur. 14 yaralının 7-si erməni, 4-ü azərbaycanlı, qalanları başqa millətlərin nümayəndələri olmuşlar. İyunun 8-də İrəvanda yenidən toqquşma başlasa da, qoşunların qəti tədbirlərə əl atması sayəsində tezliklə yatırıldı. Bu dəfəki toqquşmada hər iki tərəfdən 10 nəfər öldürüldü. Qətlə yetirilənlərdən 5-i azərbaycanlı, 3-ü erməni, 1-i kürd, 1-i yəhudi idi. 19 yaralıdan isə 13-ü azərbaycanlı, 6-sı erməni idi. İyunun 9-da səhər güclü atəşlə açılsa da, itki olmadı.(17)

1906-cı il iyulun 29-da erməni daşnakları Zəngəzur qəzasının Mədən bazarında Səfyar bəyi vəhşicəsinə qətlə yetirib, daha sonra Qafan dərəsində yerləşən Karxana kəndinə hücum etdilər. Kəndin əhalisi tamamilə məhv edilir. Karxana qırğınları ilə bağlı M.S.Ordubadi yazır: "Erməni camaatı daş diblərindən, kol aralarından müsəlmanları bir-bir tapıb əsir alır, yainki qətlə yetirirdilər. Bu vaxt bir daşın arxasında 30-a qədər övrət-uşaq və bir neçə hərbi silahını əldən vermiş kişi tayfası gizlənmişdilər. Bu pünhan olmuş övrətlərin arasında Pakizə xanım adlanan cavan bir övrətin döşündə Füruzə adlı südəmər qızı var imiş. Məsum qız açılan güllələrin səsdasından anasının döşündən dartınıb qeyri-ixtiyar qorxudan ağlamaqda idi. Bu cocuğun ağlamaq səsdasını ermənilər eşidib gəlib hamısını həlak edirlər..."(20.səh.120)

Karxana kəndinin əhalisini bütünlüklə qətl edən ermənilər elə həmin gün Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərinə hücum edib bu kəndləri viran etdilər. Bu kənlərin əhalisinin canlarını qurtara bilmiş hissəsi Qatar kəndinə pənah apardı. Ermənilər Qatar kəndinə hücum etdilər. Qatarlılar qəhrəmanlıq göstərərək 8 min nəfərlik erməni silahlıları qarşısında 9 gün ərzində kəndi müdafiə etdilər. Qüvvələr nisbətinin qeyri-bərabər olması, azərbaycanlılara kənardan kömək gəlməməsi və iranlı fəhlələrin satqınlıq edərək ermənilərə kömək etməsi Qatar kəndinin taleyini həll etdi. Avqustun 9-da kəndə girən ermənilər kəndi tamamilə yandırdılar. Qatar kəndinin əhalisi Kəllədağ kəndinə pənah aparmalı oldu. Bundan sonra ermənilər Oxçu-Şəbədək dağ silsiləsində yerləşən müsəlman kəndlərinə hücum etdilər. Erməni hücumuna məruz qalan müsəlman kəndlərin sakinlərinin cəmləşdiyi Saqqarsu kəndinə hücum edən erməni silahlı birləşmələri burada dəhşətli soyqırım həyata keçirdilər. 1906-cı il iyulun 29-dan başlayaraq sentyabr ayının ortalarnadək erməni silahlı birləşmələri Zəngəzurun Xələc, Karxana, Lov, Daşnov, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbədək, Atqız, Pürdavud, Zurul, Güman, İyilli, Sənalı, Minənəvür, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq, Panuslu, Girdəkan, Kəllədağ kəndlərini dağıdıb və ya yandıraraq viran etdilər, əhalisini qətlə yetirdilər, əmlaklarını talan

etdilər.(20.səh.136) Bu kəndlərin canlarını qurtara bilən azərbaycanlıları digər kəndlərə, əsasən də Ordubada pənah apardılar.

Ermənilərin soyqırımından canını qurtarıb Ordubada gələn qaçqınların verdikləri məlumata əsasən ordubadlılar Qafan dərəsində, Saqqaarsuda və digər ərazilərdə ermənilərin qətlə yetirdikləri insanların meyitlərini gətirmək üçün dəstələr təşkil etdilər. Ordubad könüllüləri avqustun 16-da Saqqarsuda Molla Həsən Əfəndinin özü ilə bərabər kənddən çıxardığı 62 qadın və uşağın meyitlərini tapdılar. İki gün sonra isə yenicə ailə qurmuş iki gəncin, Molla Həsən Əfəndinin yandırılmış cəsədlərinə, 15 körpə uşağın palaza bükülmüş və bir-birinə qarışmış kəsilmiş başlarına və digər bədən üzvlərinə rast gəlindi.(14.səh.29-30)

Ordubad əhalisi çarizmin ermənіləri müdafiə və himayə etdiyini başa düşərək Zəngəzur kəndlərini azad etmək üçün könüllülərdən ibarət silahlı dəstələrin təşkilinə başladılar. 1000 nəfəri qaçqınlardan, 800 nəfəri isə yerli əhalidən olmaqla 1800 nəfərlik hərbi dəstələr Saqqarsuya doğru hərəkət etdilər. 1906-cı il sentyabrın 16-da erməni silahlı qüvvələri ilə həlledici döyüşdə qalıb gələn könüllülər Zəngəzurun bütün işğal olunmuş kəndlərindən ermənіləri qovub çıxardılar. Lakin ermənilər işğal etdikləri bütün Zəngəzur kəndlərini yandırıb viran qoymuşdular. Vəziyyətin azərbaycanlıların xeyrinə dəyişdiyini görən rus hakimiyyət dairələrinin göndərdiyi 500 nəfərlik kazak ordusu bölgəyə gələrək qaçqınların guya onlar tərəfindən öz kəndlərinə qaytarıldığı görüntüsünü yaratmağa başladılar. Bu zaman fürsətdən istifadə edən ermənilər yenidən hücuma keçdilər. Lakin Girdəkan-Panuslu döyüşü də Ordubad könüllülərinin qələbəsi ilə başa çatdı.(18.səh.225-226)

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, XX əsrin ilk illərindən başlayaraq erməni siyasi təşkilatları olan Daşnaksütyun və Hnçaq partiyalarının rəhbərliyi ilə ermənilər Cənubi Qafqazda türk-müsəlman əhalisinə qarşı sistemli soyqırım aktları həyata keçirmişlər. Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən bu soyqırım aktları XX əsin ilk illərindən başlayaraq 1910-cu ilə qədər davam etmiş, 1905-1906-cı illər isə bu soyqırım aktlarının ən qızğın, ən dəhşətli dövrü olmuşdur.

Erməni muəllifi S.Zavaryanın verdiyi məlumata gorə, bəhs olunan dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 (cəmi 75) müsəlman kəndi dağıdılmışdı.(1.səh.51) T.Svyatoxovskinin məlumatına görə isə, bəhs olunan hadisələr zamanı 128 erməni və 158 müsəlman kəndi dağıdıldı və ya talan edildi. İnsan tələfatı 3000-dən 10000 nəfərə çatırdı.(21.səh.55-56) Lakin baş verən soyqırım aktlarının detallarının araşdırılması göstərir ki, bu rəqəmlər hadisələrin miqyasını tam əhatə etmir. Belə ki, 1897-ci ildə İrəvan quberniyasında azərbaycanlı əhalinin sayı 313176 nəfər olduğu halda, 10 ildən sonra - yəni 1907-ci ildə 302965 nəfər qalmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə təkcə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdir.(1.səh.50)

Bütövlükdə İrəvan və Yelizavetpol quberniyaları ərazilərində ermənilərin hücumuna məruz qalan, talan edilən, dağıdılan və ya yandırılan, əhalisi isə qətl edilən və ya qaçqına çevrilən Azərbaycan kəndlərinin sayı 200-dən çox olmuşdur. İrəvan quberniyasının ərasizi daşnak silahlı birləşmələrinin və Osmanlı ərazilərindən Cənubi Qafqaza keçən erməni terrorçularının əsas istinadgahı olduğundan bu bölgənin türk-müsəlman əhalisi soyqırım aktlarının ən dəhşətli səhnələrinə şahidlik etmişdir. XX əsrin əvvəllərinə qədər İrəvan şəhərinin özündə azərbaycanlı və erməni əhalisinin sayı təxminən bərabər olduğu halda, 1905-1906-cı illər qırğınlarından sonra şəhər əhalisinin etnik tərkibi ermənilərin xeyrinə dəyişdi.

Erməni daşnaklarının Azərbaycan qəzalarında, xüsusilə də İrəvan quberniyasında və Yelizavetpol quberniyasının dağlıq hissəsində türk-müsəlman əhalisinə qarşı törətdiyi qırğınlar onların bu bölgədə türk-müsəlman əhalisini məhv edib özlərinin etnik üstünlüklərini təmin etmək və siyasi cəhətdən dövlət kimi istinad olunacaq ərazi yaratmaq, növbəti mərhələdə isə bu ərazilərdə siyasi hakimiyyəti ələ almaq və dövlət yaratmaq planları ilə birbaşa bağlı idi. Erməni siyasi təşkilatlarının bu planları Rusiyanın bölgədə yeritdiyi siyasətə uyğunlaşdırıldı və nəticədə türk-müsəlman əhalisinə qarşı sistemli soyqırım aktları törədildi. Ermənilərin türk-müsəlman əhalisinin üzərinə qaldırılması, planlı şəkildə erməni-müsəlman münaqişəsinin törədilməsi, türk-müsəlman kəndlərinə gerçəkləşdirilən erməni hücumları zamanı Rusiyanın bölgədəki siyasi və hərbi hakimiyyət nümayəndələrinin ermənilərə hərtərəfli dəstək verməsi və ya ən yaxşı halda hadisələri sadəcə müşahidə edib azərbaycanlı əhalinin təhlükəsizliyini qorumaması Rusiyanın dövlət siyasəti olduğu və bütün bunların planlı şəkildə Cənubi Qafqazı inqilabi proseslərdən kənarda saxlamaq və çarizmin digər strateji planları ilə bağlı olduğu faktlarla sübuta yetirilmişdir. Bu mənada, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımın bilavasitə və birbaşa icraçıları ermənilər olsalar da, həmin illərdə bu bölgədə dövlət hakimiyyətini həyata keçirən çarizm və onun yerlərdəki məmurları da ən azı ermənilər qədər məsuliyyət daşıyırlar.

ƏDƏBİYYAT

1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, Qartal, 1998. səh. 51.
2. BEO, no. 2757/206702, v. 1-2.
3. BEO, no. 2620/196439, v. 1-2.
4. BOA, A.MKT.MHM, no. 549/24, v. 1-3.
5. BOA, Y.A.HUS, no. 500/6.
6. BOA, HR.TO, no. 359/40, v. 1.
7. BOA, Y.A.HUS, no. 493/110.
8. BOA, Y.A.HUS, no. 494/36.
9. BOA, Y.A.HUS, no. 500/21.
10. BOA, Y.A.HUS, no. 499/57.

11. BOA, Y.A.HUS, no. 491/80.
12. BOA, Y.A.HUS, no. 492/96.
13. BOA, A.MKT.MHM, no. 527/32, v. 2.
14. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. (Qısa tarixi oçerk). Bakı, Azərbaycan nəşriyyatı, 1992, s. 29-30.
15. Mustafa N. Ermənilərin 1905-ci ildə Eçmiədzin qəzasında törətdikləri qırğınlar // Tarix və onun problemləri, № 4, 2013, s. 62-63.
16. Mustafa N. Erməni silahlı dəstələrinin 1905-1906-cı illərdə Cənubi Qafqazda törətdikləri qırğınlar // “Hərbi bilik” hərbi elmi-nəzəri, publisistik jurnal, Bakı, 2013, № 5, s. 95-96.
17. Mustafa N. İrəvan şəhəri. Bakı, 2013 //Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası, http://www.iravan.info/1905-1906_qirginlar.html
18. Naxçıvan tarixi. Üç cilddə, II cild, s. 223-224.
19. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX в. Часть I, с. 186.
20. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman (azərbaycanlı) davasının tarixi. Bakı. 1991. 190.səh.
21. Svyatoçovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə . Bakı, Xəzər Universitəsi, 2000, s. 55-56.

РЕЗЮМЕ

ИБРАГИМ КАЗЫМБЕЙЛИ

ПЕРВЫЕ ЭТАПЫ ГЕНОЦИДА И ДЕПОРТАЦИИ, ПОДГОТОВЛЕННЫЕ АРМЯНАМИ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ В АДМИНИСТРАТИВНЫХ УЧАСТКАХ ИРЕВАНСКОЙ ОБЛАСТИ (СТАТЬЯ II)

На исторических территориях Азербайджана Иреван и других провинциях переселение и размещение армян на самых лучших землях ,которые были военно – политическим оплотом царизма привело, к конфликтам между мусульманским населением и армянами

В то же время, начиная с конца XIX века организованные с политеческой точки зрения и с помощью России переселение армян в начале века отличалось . Поскольку эта армянская масса не была гражданским коллективом по природе являлась неконтролируемой силой. В последюшие этапы армяне с помощью российских властей начали бороться за создание государства в Иревнской области и в других азербайджанских землях , привело к возникновению противоречий и кровавых конфликтов между армянами и мусульманами.

Причиной этих кровавых убийств, подготовка , реализация основных моментов и целеи подробно анализируется на основных научных доказательствах в статье.

Ключевые слова: Иреван ,провинция , административный, геноцид, депортация, этап.

SUMMARY

IBRAHIM KAZIMBEYLI

THE FIRST STAGES OF THE GENOCIDE AND DEPORTATIONS PREPARED PLANNED MANNER BY ARMENIANS AGANIST AZERBAIJANI POPULATION IN THE ADMISNISTRATIVE UNITS OF IRAVAN PROVINCE (ARTICLE II)

Armenians moved and settled in historical territorries of Azerbaijan, their settling down in the best treasure lands of the other regions and Iravan Province, their concerning as a military-political bulwark by tsarism, brought to the conflicts between muslim population and armenians.

At the same time beginning from the end of the XIX century armenians organised by politically with the help of the Russia they were differ from the armenians moved in the beginnings of the century. Because this armenian mass were not civil collective, they were in an unstable importance. Later armenians by eachsided help of Russian authorities began to struggle on founding the state in Iravan Province and the other Azerbaijani lands brought to the bloody armenian- muslim collusions.

The reasons of these bloody massacres, preparation, implementation, main points and aims are analysed on basic scientific evidences in the article widely.

Key words: Iravan, province, administrative, genocide,deoprtation, stage.

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

VASİF QAFAROV
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutu
vasifqafarov@rambler.ru

OSMANLI-AZƏRBAYCAN HƏRBİ ƏMƏKDAŞLIĞI VƏ AZƏRBAYCAN MİLLİ ORDUSUNUN YARADILMASI PROSESİ (1918-ci il iyun-oktyabr)

Məqalədə Azərbaycan Cümhuriyyətinin ordu quruculuğu prosesi Osmanlı-Azərbaycan hərbi əməkdaşlığı kontekstində araşdırılmışdır. 1918-ci ilin iyulunda İstanbul hökumətinin hazırladığı Osmanlı-Azərbaycan hərbi müqavilə layihələri tədqiqata cəlb edilmiş və Osmanlı imperiyasının Azərbaycan ordusunun yaradılması prosesində yeri və rolu müəyyən edilmişdir. Həmçinin Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında hərbi əməkdaşlığın xarakteri öyrənilmişdir. Yeni yaradılan Azərbaycan ordusunun Bakının azad edilməsi əməliyyatında iştirakı da şərh edilmişdir. Problemlə bağlı tədqiqata cəlb edilən arxiv sənədlərinin əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmişdir.

Açar sözlər: Azərbaycan korpusu, Azərbaycan ordusu, Azərbaycan diviziyası, Osmanlı-Azərbaycan hərbi əməkdaşlığı, Qafqaz İslam Ordusu, Osmanlı-Azərbaycan hərbi müqavilə layihələri.

1918-ci ildə yeni yaranan Azərbaycan Cümhuriyyətinin qarşısında dayanan ən ümdə vəzifələrdən biri ordu quruculuğu idi. Bəhs edilən dövrdə davam etməkdə olan dünya müharibəsi və Cənubi Qafqazda tüğyan edən anarxiya şəraitində təbii ki, əsas rolu ordu oynamaqda idi. 1918-ci il iyunun 4-də Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında imzalanan Batum müqaviləsinin dördüncü maddəsinə görə, Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən tələb edildiyi təqdirdə, Osmanlı hökuməti ölkədə qayda-qanunu və daxili asayişi təmin və bərpa etmək üçün Azərbaycana zəruri hərbi yardım göstərməyi öz öhdəsinə götürdü [19, v. 3, s. 2; 17, v. 9; 16, v. 12a; 14, v. 12; 15, v. 3; 1, v. 2]. Qeyd etdiyimiz kimi, müqavilə hələ imzalanmadan, 1 iyun 1918-ci il tarixində Batum konfransındakı Azərbaycan nümayəndələri mətni hazır olan bu müqaviləyə istinad edərək Osmanlı hökumətinə müraciət edib hərbi yardım istədilər [20, v. 62-63]. Osmanlı hökuməti elə həmin gün bu müraciətə müsbət cavab verdi [20, v. 64-65]. Bununla da, türk qoşunlarının Azərbaycana gəlməsi üçün hüquqi əsas yaradılmış oldu.

Bəhs edilən dövrdə Azərbaycan Cümhuriyyətinin sərəncamında “Tatar süvari alayı” kimi tanınan Müsəlman korpusundan başqa elə bir ciddi hərbi qüvvə yox idi. 600 nəfərdən ibarət olan Müsəlman korpusu könüllülər və

bölgədə olan türk əsirləri hesabına öz sıralarını 1000 nəfərə qədər genişləndirmişdi [4]. Eyni zamanda, Azərbaycanın ayrı-ayrı bölgələrində könüllü silahlı dəstələrin formalaşması prosesi gedirdi və bir çox hallarda bu dəstələrə vaxtilə rus əsirliyində olan türk zabitləri rəhbərlik edirdilər. Məsələn, Nuxada təşkil edilmiş könüllü dəstəyə türk zabitləri Bədri və Sidqi əfəndilər, Zaqataladakı könüllü dəstələrə Hakkı və Əlaəddin əfəndilər başçılıq edirdilər [26, s. 231].

1918-ci ilin martında bolşevik-daşnak alyansı Bakıda törətdiyi türk-müsəlman soyqırımından sonra aprel-may aylarında demək olar ki, bütün Bakı quberniyasını öz nəzarətinə götürüb, eyni əməllərini davam etdirməkdə idi. Azərbaycan Cümhuriyyətinin nəzarətində yalnız Gəncə quberniyası qalmışdı, bu quberniyanın da bir sıra bölgələrində, hətta Gəncə şəhərinin özündə də erməni silahlı quldur dəstələri mövcud idi və bu dəstələr türk-müsəlman əhalisinin həyatını təhdid etməkdə idi. Eyni zamanda, müstəqil Azərbaycan dövlətinin yaranması xəbərini eşidən kimi Bakı Xalq Komissarları Soveti türk hərbi hissələri toplanana qədər Azərbaycan istiqlaliyyətinin beşiyi olan Gəncəni dağıtmaq və Azərbaycan Cümhuriyyəti hökumətini beşiyində boğmaq üçün 1918-ci il iyunun 6-da Gəncə üzərinə yürüş haqqında əmr verdi. Yaranmış bu kritik vəziyyətdə hər günün öz hökmü var idi. Buna görə də Qafqaz İslam Ordusu komandanlığı qısa vaxt ərzində Azərbaycanda könüllülük və ya səfərbərlik prinsipi ilə yerli əhalidən əsgər toplayıb, onlara təlim keçib ordu formalaşdırmağın qeyri-mümkün olduğu qənaətinə gəldi. Azərbaycan əsgərlərinə təlim keçmək üçün ayrılmış Osmanlı hərbi heyəti də hələ Mosuldan gəlməmişdi. Bu qənaəti Batum konfransındakı Azərbaycan nümayəndələri hələ daha əvvəl hasil etmişdilər və bunun üçün də onlar Osmanlı hökumətindən Azərbaycana nizami türk ordusunun göndərilməsini təkidli şəkildə xahiş edirdilər.

1918-ci il iyunun 2-də Osmanlı hərbi komandanlığı Azərbaycanda hərbi əməliyyatlara başlamaq haqqında əmr verdi [3; 27, s. 98]. Qafqaz cəbhəsinin komandanı Vehib paşa elə həmin gün Ənvər paşaya göndərdiyi teleqramında yazırdı ki, Bakı və ətrafının bolşeviklərdən təmizlənməsi polkovnik Mürsəl bəyin komandanlığı altında 5-ci Qafqaz diviziyasını bölgəyə göndərdim və ehtiyac olarsa bu qüvvələri daha da gücləndirəcəyəm [3]. 1918-ci ilin 9-15 iyun tarixlərində 5-ci Qafqaz diviziyasının bölmələri Gəncəyə daxil oldu. Bu diviziyada ümumilikdə 257 zabit, 5575 əsgər və 1366 heyvan var idi [31, s. 26-27; 32, s. 75].

1918-ci il iyunun 7-də və 9-da Ənvər paşanın verdiyi əmrlərlə Qafqaz cəbhəsindəki ordu hissələri yenidən qruplaşdırıldı, 3-cü, 6-cı və 9-cu ordulardan ibarət Şərq orduları qrupu yaradıldı. Qrupun rəhbəri Vehib paşa oldu. Lakin o, 1918-ci il iyunun 29-da Şərq orduları qrupu komandanlığından istefa verdi. Vehib paşanın yerinə Ənvər paşanın əmisi Xəlil paşa təyin olundu. Şərq orduları qrupuna bağlı olan Qafqaz İslam Ordusunun qarşısında duran əsas vəzifə Bakını azad etmək idi.

Qafqaz İslam Ordusu ilk olaraq Gəncədəki erməni silahlılarını tərk-silah etdi. Ermənilərin tərk-silah edilməsindən sonra 1918-ci il iyunun 17-də Qafqaz İslam Ordusunun bolşevik-erməni birləşmələri ilə baş tutan kəşfiyyat xarakterli ilk toqquşması uğursuz oldu. Bu döyüşdən sonra Nuru paşa, Qafqaz İslam Ordusunun yerli əhali hesabına gücləndirilməsi üçün cidd-cəhdlə çalışmaqla yanaşı, yeni döyüş planının hazırlanması işinə bölgəni daha yaxşı tanıyan general Əliağa Şıxlınski və digər Azərbaycan zabitlərini də cəlb etməli oldu.

Birinci Qaraməryəm döyüşündən sonra Nuru paşa Ənvər paşaya və Şərq orduları qrupuna göndərdiyi raportlarda yeni hərbi qüvvə və silah-sursat göndərilməsini xahiş edirdi. O, Ənvər paşaya göndərdiyi 1918-ci il 20 iyun tarixli teleqramda 20 min tüfəng və çox miqdarda silah-sursat və əlavə olaraq daha bir qədər nizami qüvvə və bir süvari diviziyası qurmaq üçün kifayət edəcək zabit kadrları göndərilməsini xahiş edirdi [32, s. 76]. Lakin bəhs edilən dövrdə Almaniyanın qəti şəkildə Osmanlı hərbi qüvvələrinin Azərbaycana yeridilməsinə qarşı çıxması səbəbiylə Qafqaz İslam Ordusuna əlavə qüvvə göndərilməsi mümkün olmadı. Nuru paşanın əlavə hərbi qüvvə tələbinə cavab olaraq Ənvər paşa ona tövsiyə etdi ki, 5-ci Qafqaz diviziyasını toplu halında saxlamaqla düşmənə qarşı mübarizə aparılsın [32, s. 85]. Bu halda əsgər çatışmazlığını keçirdiyi könüllü səfərbərliklə Azərbaycan əhalisi hesabına aradan qaldırmağa çalışan Nuru paşa ilk dövrlərdə istənilən nəticəni əldə edə bilmədi. Buna görə də Nuru paşa, yenidən Ənvər paşaya müraciət edərək daha bir diviziyanın Qafqaz İslam Ordusunun sərəncamına göndərilməsini xahiş etdi. Bununla bağlı o, Ənvər paşaya göndərdiyi 1918-ci il 27 iyun tarixli raportunda yazırdı: “Yeni təşkilatdan bir nəticə əldə edilmir. Gənclərdən silah altına 30 min nəfərin gəlməsi gözlənildiyi halda, cəmi 37 nəfər gəlmişdir. Bunlardan istifadə edilməyəcəyi anlaşılmışdır. Bakı məsələsini özümüz təklikdə tezliklə həll etməyimiz üçün bu bölgəyə daha bir diviziya göndərilməsi uyğundur” [32, s. 85]. Bundan dörd gün sonra, 1918-ci il 1 iyul tarixində Nuru paşa Baş Komandanlıq Vəkalətinə və Şərq orduları qrupu komandanlığına göndərdiyi növbəti raportunda Qafqaz müsəlmanlarının real iş görmək qabiliyyətində olmadığını və bunun üçün də yeni ordu göndərilməzsə, vəziyyətin çox pis olacağını qeyd edirdi. O, yazırdı: “Cənubi Qafqaz müsəlmanları çox danışar, az iş görərlər, keflərinə baxan, pulu həddən çox sevən adamlardır. Müsəlmanların qeyrət və fədakarlığı az müşahidə edilir. Bakı hərəkatında iştirak edənlər lap azdır. Onlardan çox az fayda görülür. Bakı məsələsinin həlli əhali içərisində Osmanlı nüfuzunun qiymətini qorumaq üçün lazımdır. 5-ci diviziyanın gücləndirilməsinə təcili ehtiyac var. Əks təqdirdə, vəziyyətimiz yaxşı deyildir” [32, s. 85].

Qeyd edək ki, Nuru paşanın bu raportları 1918-ci ilin iyun ayındakı vəziyyəti əks etdirirdi. Bu elə bir dövr idi ki, iyun ayının 16-na qədər Tiflisdə fəaliyyət göstərən Azərbaycan hökuməti həmin tarixdə Gəncəyə köçdükdən sonra da yaranmış siyasi böhran və digər obyektiv səbəblərlə bağlı olaraq ölkəyə tam hakim ola bilməmiş, eyni zamanda ölkənin müstəqilliyi faktı və

istiqlaliyyəti qorumaq zərurəti kimi məsələlər xalqa təlqin edilməmişdi. Həmçinin, birinci Azərbaycan hökumətində hərbi nazirlik olduğu halda, iyun böhranından sonra təşkil edilən ikinci hökumət kabinəsində hərbi nazir vəzifəsinin olmaması və bütün hərbi işlərin Nuru paşanın əlində cəmlənməsi, onun da Qafqaz İslam Ordusu komandanlığı işləri ilə məşğul olması və müstəmləkədən yenicə azad olunmuş Azərbaycan xalqının yüz ildən çox bir dövr ərzində hərbi işdən uzaq tutulduğu üçün ilk öncə əhali içərisində təbliğat işlərinin aparılmalı olduğunu lazımi səviyyədə qiymətləndirməməsi elan edilən könüllü səfərbərliyin arzuolunmaz nəticələrlə yekunlaşmasına gətirib çıxarmışdı.

Azərbaycan hökumətinin tərkibində Hərbi Nazirliyin yaradılması ilə bağlı bu zaman İstanbulda olan M.Ə.Rəsulzadə də Tələt paşa ilə müzakirələr apardı və bu müzakirələrdə belə bir yekun fikrə gəlindi ki, ölkədə Hərbi Nazirliyin olması hökumətin həm daxili, həm də beynəlxalq nöqteyi-nəzərindən faydalı və lazımlıdır. Bu barədə Azərbaycanın xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi 1918-ci il 19 iyul tarixli məktubunda məlumat verən M.Ə.Rəsulzadə ordu quruculuğu üçün Hərbi Nazirliyin vacibliyi üzərində dayanır və qeyd edirdi ki: "Qoy, bu nazirlik olsun. Felən yenə Nuru paşa həzrətləri idarə etsin... Heç eybi yoxdur" [2, v. 47]. Lakin Nuru paşa Hərbi Nazirliyin yaradılmasına imkan vermədi. Çünki Nuru paşa hərbi nazir olub Azərbaycan Nazirlər Şurası sədrinə tabe olmaq istəmirdi. Məcburiyyət qarşısında qalan hökumət, hərbi işlər üzrə müvəkkil vəzifəsi təsis etdi və İsmayıl xan Ziyadxanovu bu vəzifəyə təyin etdi.

İkinci Azərbaycan hökuməti təşkil edildikdən dərhal sonra, 1918-ci il iyunun 19-da hökumət Azərbaycan ərazisində hərbi vəziyyətin tətbiq edilməsi haqqında qərar qəbul etdi [33, s. 16]. Bunun ardınca, hökumətin qəbul etdiyi 1918-ci il 23 iyun tarixli qərarla ölkədə hərbi dövrün qanunları tətbiq edildi [33, s. 17-18]. İyunun 26-da Azərbaycan hökumətinin qərarı ilə Müsəlman korpusu "Əlahiddə Azərbaycan korpusu" adlandırıldı [33, s. 18]. Elə həmin gün hökumətin qəbul etdiyi digər bir qərarla Əlahiddə Azərbaycan korpusu nəzdində xüsusi tapşırıqlar üzrə general vəzifəsi təsis edildi. Azərbaycan hökuməti iyulun 3-də hərbi xidmətə çağırış yaşının müəyyən edilməsi haqqında qərar qəbul etdi, həmin qərara əsasən 19 yaşına çatmış gənclər hərbi mükəlləfiyyətli hesab olundular [33, s. 19]. Baş nazir F.X.Xoyski və hökumətin hərbi işlər üzrə müvəkkili İ.Ziyadxanovun imzladığı 1918-ci il 11 iyul tarixli qərarla 1894-1899-cu illərdə anadan olmuş müsəlmanlar ordu sıralarına çağırıldılar [33, s. 21]. Hərbi mükəlləfiyyətdən yayınan şəxslər barəsində hərbi vəziyyət dövrünün qanunlarına uyğun olaraq cəza verilməsi nəzərdə tutulurdu. Yelizavetpol Əxzi-Əsgər İdarəsi Azərbaycan Əxzi-Əsgər İdarəsi adlandırıldı, hərbi xidmətə çağırış və səfərbərlik işini həyata keçirməli olan bu qurum ölkədə hərbi nazirlik olmadığı üçün Daxili İşlər Nazirliyinin sərəncamına verildi. Hərbi xidmətə çağırış işinin təşkili üçün Qafqaz İslam Ordusu komandanlığı tərəfindən Əxzi-Əsgər İdarəsinin vəzifələrinə dair təlimat hazırlandı. Bu təlimata əsasən hər bir qəzada ordu zabitinin rəhbərlik

etdiyi ən azı bir əxzi-əsgər şöbəsi yaradılmalı və bu şöbələr hərbi xidmətə çağırış işini həyata keçirməli idilər. Bütün bu tədbirlər nəticəsində Azərbaycan gənclərinin ordu sıralarına göndərilməsi təmin edildi. Bununla yanaşı, hökumətin apardığı təbliğat işləri nəticəsində istiqlaliyyəti qorumaq zərurətini dərk edən Azərbaycan gəncləri də könüllü hərbi birləşmələrin tərkibinə yazılmağa başladılar və bu iş geniş vüsət aldı.

1918-ci il iyun ayının 22-nə olan məlumatda göstərilirdi ki, 9-cu, 10-cu və 13-cü Qafqaz alaylarının tərkibinə verilmiş Ağdaş bölüklərinin tərkibinin ümumi sayı 389 nəfər idi. Müsüslü dəstəsinin tərkibinə verilmiş Göyçay milli əsgər bölüyündə 150 döyüşçü var idi. İyun ayının 23-nə aid olan bir məlumatda bildirilirdi ki, Cavanşir qəzasında xeyli sayda süvari toplanılıb və həmin süvarilər Azərbaycan süvari alayından 20 nəfər ilə bir dəstə şəklində təşkil edilərək 5-ci diviziyanın tabeliyinə göndəriləcəklər. İyun ayının 27-nə aid olan məlumatda bildirilirdi ki, Nuxa və Zaqatalada 2 min nəfərlik bir dəstə toplanıb. İyunun 30-na aid olan məlumatda Gəncə ətrafında 500 nəfərlik bir dəstənin toplandığı və yaxın günlərdə onların Yevlaxdan cəbhə xəttinə göndəriləcəyi qeyd edilirdi [26, s. 274]. 1918-ci ilin 27 iyun tarixinə Əlahiddə Azərbaycan korpusunun şəxsi heyəti artıq 225 zabit və 5277 əsgərdən ibarət idi. Korpusun sərəncamında 4342 tüfəng, 36 pulemyot, 14 tapanca və 1 zirehli qatar var idi [36, s. 79].

1918-ci il iyulun 9-na aid alan sənəddə Qazax ətrafında 350 silahsız könüllünün toplandığı bildirilirdi. İyulun 2-nə aid olan məlumatda Ağdamda 162 könüllü atlının yığıldığı qeyd edilirdisə, beş gün sonra, iyulun 7-nə olan məlumatda Ağdamda yığılan atlıların sayının 320-yə çatdığı və növbəti iki gün ərzində daha 70 atlının toplanacağı bildirilirdi. İyulun 6-na aid məlumatda Şuşada 28 süvaridən ibarət bölüyün və 70 nəfərdən ibarət piyada bölüyünün təşkil edildiyi qeyd edilirdi. İyulun 27-nə aid məlumatda Ağdamda toplanan hərbi qüvvələrdən 300 nəfərin Gəncəyə göndərildiyi bildirilir, iki gün sonra, iyulun 29-na aid məlumatda isə Ağdamda daha 162 süvarinin toplandığı qeyd edilirdi [26, s. 280-281].

Artıq avqust ayında 3-cü Azərbaycan alayının (Zaqatala alayı) tərkibində 19 kiçik zabit, 1 baş çavuş, 14 çavuş, 8 onbaşı, 51 süvari, 8 əmr nəfəri, 460 əsgər mövcud idi. 4-cü Ağdaş alayının 1-ci taburunda 665 nəfər, 2-ci taburunda 662 nəfər, 3-cü taburunda 701 nəfər, 2-ci Ağdam alayının 1-ci taburunda 373 nəfər, 2-ci taburunda 520 nəfər, atlı süvari bölüyündə 125 nəfər şəxsi heyət var idi. Şəki dəstəsində 285 nəfər, Bərdə ətrafındakı hissələrdə piyadaların sayı 472 nəfər, süvarilərin sayı isə 245 nəfər idi, Tərtərdə toplanan süvarilərin sayı da 245 nəfərə çatmışdı [26, s. 281]. Bu rəqəmlər aparılan işlərin nəticəsi olaraq mütəmadi olaraq artaraq dəyişirdi. Azərbaycan hökumətinin Qafqaz İslam Ordusu komandanlığı ilə birgə həyata keçirdiyi hərbi xidmətə çağırış və könüllü səfərbərlik işləri nəticəsində Əlahiddə Azərbaycan korpusunun şəxsi heyətinin sayı 1918-ci ilin iyunun ayının sonlarında 5500 nəfərə [36, s. 79], iyul ayının ortalarında 6000 nəfərə, avqust ayının sonlarında 7000 nəfərə çatdırıldı [28, s. 346; 36, s. 93-94]. Onu da qeyd

etmək lazımdır ki, bu rəqəmlər qeyd olunan tarixlərdə orduda xidmətlərini davam etdirməkdə olan Azərbaycan əsgərlərinin sayını əsk etdirir. Döyüşlərdə verilən itkilər bu rəqəmlərə daxil deyildir. Nəzərə alsaq ki, Bakının azad edilməsi uğrunda gedən döyüşlərdə Osmanlı nizami ordusu 1100-dən artıq şəhid verib, bu zaman türk ordusu ilə çiyin-çiyinə vuruşan və ən ağır döyüşlərdə böyük şücaətlər göstərən, yaxşı təlim görməyən Azərbaycan əsgərlərinin Bakı azad edilənə qədər ümumi itkisinin 4000-dən artıq olmasını söyləmək olar. Bu itkilər də nəzərə alınarsa, o zaman bəhs edilən dövrdə Qafqaz İslam Ordusunun tərkibində olan Azərbaycan əsgərlərinin ümumi sayının 10-12 min civarında olduğu ortaya çıxır. Türk tarixçisi A.N.Kurat da haqlı olaraq Qafqaz İslam Ordusunun tərkibində vuruşan Azərbaycan əsgərlərinin ümumi sayının 10-12 min olduğunu yazır [30, s. 531].

Osmanlı 5-ci Qafqaz diviziyası və Azərbaycan hərbi hissələrindən ibarət olan Qafqaz İslam Ordusunun Gəncə ermənilərinin tərk-silah edilməsi zamanı və Birinci Qaraməryəm döyüşündə verdiyi itkiləri (bu zamana qədər ordu şəhid, yaralı və itkin olaraq 254 nəfər itki vermişdi) nəzərə alsaq, 1918-ci il iyun ayının axırlarında bu ordunun ümumi sayının 11100 nəfərdən ibarət olduğu ortaya çıxır. Bunun 5598 nəfəri Osmanlı, 5502 nəfəri isə Azərbaycan əsgər və zabitləri idi. Göründüyü kimi, bəhs edilən dövrdə Qafqaz İslam Ordusunun tərkibinin təxminən yarısı Osmanlı, yarısı isə Azərbaycan əsgər və zabitləri idi.

İyul ayında Qafqaz İslam Ordusunun tərkibi 15-ci türk diviziyasının 38-ci alayının Azərbaycana göndərilməsi hesabına gücləndirilsə də, ordunun say tərkibində Osmanlı və Azərbaycan hərbi hissələrinin payı eyni qaldı. Çünki bəhs olunan dövrdə də həyata keçirilən hərbi xidmətə çağırış və könüllülərin toplanması hesabına Qafqaz İslam Ordusunun tərkibindəki Azərbaycan əsgərlərinin sayı da artmaqda idi. 1918-ci ilin iyul ayının sonlarında artıq Azərbaycan əsgərlərindən təşkil edilən alayların sayı dördə çatmışdı. 1-ci alay Qazax, 2-ci alay Qarabağ, 3-cü alay Zaqatala, 4-cü alay isə Ağdaş alayı adlandırılmışdı [10].

Həmin tarixdə S.Şaumyanın rəhbərlik etdiyi Bakı XKS qoşunlarının sayı isə 20 min nəfərdən çox idi [23, s. 157-158] və bu ordu zirehli qatar, zirehli avtomobil, təyyarə, top, pulemyot və digər mühüm silah-sursatla təchiz olunmuşdu. Bolşevik-daşnak qüvvələrinin təxminən iki dəfə artıq olmasına baxmayaraq, Osmanlı və Azərbaycan hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusu 1918-ci il iyunun 27-si ilə iyulun 1-i arasında baş verən dörd günlük Göyçay döyüşündə Kommuna qoşunlarının Gəncə üzərinə hücumunun qarşısını aldı və Bakı istiqamətində uğurlu əməliyyatlar həyata keçirməyə başladı. Göyçay döyüşündən sonra strateji təşəbbüsü ələ alıb əks hücuma keçən Qafqaz İslam Ordusu iyulun 5-də Ağsu-Kürdəmir xəttini, bir gün sonra Ağsunu, iyulun 10-da Kürdəmiri, iyulun 14-də isə Kərrar stansiyasını ələ keçirdi.

Qafqaz İslam Ordusuna əlavə hərbi qüvvə göndərən Ənvər paşa, Nuru paşaya göndərdiyi teleqramında "mövcud siyasi və hərbi vəziyyətin tezliklə

Bakını almağı diktə edir, nə lazımdırsa edin, bir an öncə hədəfə çatın” deyə əmr verdi [5]. 1918-ci il iyulun ortalarında Qafqaz İslam Ordusu Bakı istiqamətində əməliyyatlarını uğurla davam etdirmək üçün Şimal və Cənub qrupları olmaqla iki hissəyə ayrıldı. Şimal qrupuna 10-cu alay komandanı polkovnik-leytenant Osman bəy, Cənub qrupuna isə polkovnik Həbib bəy Səlimov komandanlıq edirdi. Şimal qrupu Şamaxını azad edib Bakı istiqamətində irəliləməli, Cənub qrupu isə dəmir yolu boyunca Bakıya doğru irəliləməli idi. Cəbhəyə ümumi komandanlıq isə Mürsəl paşaya tapşırıldı [32, s. 91-92].

Hücum əməliyyatlarını davam etdirən Qafqaz İslam Ordusu bölmələri iyulun 20-də Şamaxını azad etdilər. Məğlub olan bolşevik-daşnak qüvvələri 2 top, 1 zirehli avtomobil, 6 yük avtomobili, 30 nəqliyyat arabası, 6 mətbəx arabası, 1 minik avtomobili və silah-sursatının da bir hissəsini qoyub sürətlə Bakı istiqamətinə geri çəkildilər. Onları təqib edən Osmanlı-Azərbaycan qüvvələri bir-birinin ardınca kəndləri azad edə-edə iyul ayının sonlarında Bakının astanasına gəlib çatdılar. Artıq iyulun 30-31-də döyüşlər Bibiheybət və Xırdalan ərazilərində gedirdi.

Bu uğurlu əməliyyatların davamlılığını təmin etmək və son məqsədə çatmaq üçün 1918-ci ilin iyulunda Qafqaz İslam Ordusu komandanlığı və Azərbaycan hökuməti həm yerli müsəlmanlar hesabına ordu sıralarını gücləndirməyə çalışır, həm də Azərbaycana daha bir diviziya nizami ordu göndərilməsi üçün təkidli şəkildə Ənvər paşaya müraciət edirdi. Bu zaman təkcə 5-ci Qafqaz diviziyası və Azərbaycan qüvvələrinin gücü ilə Bakının azad edilməsinin mümkün olmayacağı Şərq orduları qrupu vasitəsilə Baş Komandanlıq Vəkalətinə bildiriləndən sonra Ənvər paşa, Almaniyanın türk qoşunlarının Azərbaycana yeridilməsinə qarşı kəskin mövqe tutmasına baxmayaraq, 15-ci piyada diviziyasının bölmələri hesabına Qafqaz İslam Ordusuna əlavə hərbi qüvvə göndərmək barəsində əmr verdi. Rumıniya ilə sülh müqaviləsinin imzalanmasından sonra 15-ci Osmanlı piyada diviziyası buradan geri çəkilərək 1918-ci il mayın 15-dən etibarən Köstəncəyə toplanmışdı. Bu diviziya 1918-ci il iyunun 26-da Köstəncədən Rəşid paşa gəmisi ilə hərəkət edərək iyunun 28-də Batuma çıxdı. 15-ci piyada diviziyasının İbraildə saxlanılan 45-ci piyada alayı və 15-ci topçu alayı istisna olmaqla, Batuma çıxarılan 38-ci və 56-cı piyada alayları və diviziya istehkam və süvari bölükləri, teleqraf tağımı, çörəkçi hissə, səhiyyə bölüyü, 52-ci səyyar xəstəxana və iki yüngül cəbbəxana hissəsinin ümumi sayı 157 zabit və 7636 əsgərdən ibarət idi. Polkovnik Süleyman İzzət bəyin rəhbərlik etdiyi 15-ci diviziyada 32 pulemyot, bol miqdarda silah-sursat və 4911 heyvan var idi [32, s. 76]. 1918-ci il iyulun 6-da 5-ci Qafqaz diviziyasını gücləndirmək məqsədilə 15-ci diviziyadan 38-ci alay Azərbaycana göndərildi. İyulun ortalarında Qafqaz İslam Ordusunun sərəncamına yetişən 38-ci alay 65 zabit və 2475 əsgərdən ibarət idi [32, s. 91].

1918-ci il avqustun ilk günlərində Qafqaz İslam Ordusunun Bakıya baş tutmuş ilk hücumu uğursuzluqla nəticələndikdən və həmçinin bu zaman ingilis

qüvvələrinin Bakıya gəlməsindən sonra qüvvələri gücləndirmək zərurətini hiss edən Nuru paşa yenidən Şərq orduları qrupundan əlavə hərbi qüvvə istədi. Buna görə də Osmanlı hərbi komandanlığının əmri ilə 15-ci diviziyanın təchizatı yaxşı olan 56-cı alayı və 36-cı diviziyanın 106-cı Qafqaz alayı 15-ci diviziya komandiri Süleyman İzzət bəyin komandanlığı altında 1918-ci il sentyabrın 3-də Gümrüdən Azərbaycana yola salındı. 15-ci diviziyanın qərargahı ilə birgə boşaltdığı bölgəni 36-cı Qafqaz diviziyası təhvil götürdü. 15-ci diviziya 191 zabit və 5541 əsgərlə bəzi yüklərini Gəncədə buraxaraq sürətli hərəkətlə sentyabrın 9-da Bakı cəbhəsinə çatdı [32, s. 114]. Bununla da, 1918-ci ilin iyun ayının əvvəllərindən etibarən Azərbaycana göndərilən Osmanlı qoşunlarının ümumi sayı 14104-ə çatdı. Bunlardan 513-ü zabit, 13591-i əsgər idi.

1918-ci ilin yayında Azərbaycan hökumətinin milli ordunun təşkil edilməsi istiqamətində həyata keçirdiyi ciddi işlər də öz nəticəsini vermişdi. Bəhs olunan dövrdə Osmanlı hakim dairələri və eyni zamanda Qafqaz İslam Ordusu komandanlığı da Azərbaycan ordusunun yaradılması işinə birmənalı olaraq müsbət münasibət bəsləyir və bu işdə yardımlarını əsirgəmirdilər. Lakin Osmanlı hökuməti yaradılmaqda olan Azərbaycan ordusunun Azərbaycan hökumətinin deyil, Türkiyənin nəzarətində olmasına çalışırdı. İlkin dövrlərdə bu xüsus elə də nəzərə çarpmasa da, 1918-ci ilin iyul ayında artıq Azərbaycan əsgərlərinin sayı 6000 nəfərə çatdıqda Osmanlı hökuməti həm faktiki, həm də hüquqi cəhətdən Azərbaycan ordusunu özünün komandanlığı altına almaq və öz nəzarətində saxlamaq işinə xüsusi diqqət ayırmağa başladı. Bu məqsədlə 1918-ci ilin iyul ayının əvvəllərində İstanbul hökuməti tərəfindən Osmanlı-Azərbaycan hərbi müqavilə layihələri hazırlandı.

Osmanlı-Azərbaycan hərbi müqavilə layihələrindən biri 8 maddədən ibarət olub, 20 il üçün nəzərdə tutulmuşdu. Müqavilə layihəsinə görə, Osmanlı hökuməti Azərbaycan ordusunun təşkili məsələsində yardım etməyi öz üzərinə götürürdü və bunun qarşılığında Azərbaycan hökuməti Osmanlı dövləti müharibədə olduğu müddətdə Osmanlı ordusunun öz ərazisindən keçməsinə mane olmamalı və tələb edildiyi təqdirdə öz ordusunu da Osmanlı hökumətinin əmrinə verməli idi; Azərbaycan ordusunu təşkil etmək üçün Osmanlı hökuməti mütəxəssis zabit heyəti göndərməli, bu heyətin məsrəfləri və maaşı Azərbaycan büdcəsindən ödənilməli idi; Azərbaycan hökuməti öz ərazisində ordu üçün yararlı ola biləcək bütün sərvət və məhsulları Osmanlı hökumətinin ehtiyaclarına yönəltməli idi; Azərbaycan ordusunun silah-sursat və hərbi təchizatı Osmanlı hökuməti tərəfindən beynəlxalq hüquq dairəsində təmin edilməli və bunların məsrəfləri Azərbaycan büdcəsindən ödənilməli idi; Azərbaycan ordusunun rəsmi dili, hərbi komanda və rabitə dili Osmanlı ordusundakı kimi türkcə olmalı idi; Azərbaycanda hərbi məktəblər yaradılana qədər Osmanlı hökumətinin müəyyən edəcəyi miqdarda azərbaycanlı tələbə Osmanlı hərbi məktəblərində yetişdirilməli idi; Azərbaycan ordusu zabitlərinin vəzifə təyinatları və rütbələri Osmanlı zabitlərinin təyinat və rütbələri ilə eyni olmalı və tərəflərin birinin ordusundan digər tərəfin ordusuna göndərilən

zabitlər mənsub olduqları ordudakı rütbənin hüquq və səlahiyyətlərinə sahib olmalı idilər [18, v. 138].

Eyni tarixdə hazırlanmış digər bir Osmanlı-Azərbaycan hərbi müqavilə layihəsi isə 14 maddədən ibarət olub, 90 il üçün nəzərdə tutulmuşdu. Bu müqavilə layihəsinə görə, Osmanlı hökuməti Azərbaycan ordusunun təşkilini öz üzərinə götürür və bu ordu istər Azərbaycanın daxilində, istərsə də xaricində Osmanlı Baş komandanlığının hərbi vəziyyətə görə verəcəyi qərarlara uyğun olaraq hərəkət etməli idi; Azərbaycan hökuməti Osmanlı Baş komandanlığının təyin edəcəyi miqdarda müntəzəm və daimi bir ordu saxlamalı idi; Azərbaycan ordusunun uniforma, təşkilat, islahat, təchizat, rütbə, təltif, əmr və komandası və s. məsələləri Osmanlı ordusu ilə eyni olmalı idi; Azərbaycan ordusunun komandanları Osmanlı ordusu komandanları kimi təyin olunmalı idi; Osmanlı Baş komandanlığı və ya Hərbi Nazirliyi lüzum görərdisə, Azərbaycan ordusu Osmanlı tərəfindən və ya Osmanlı ordusu Azərbaycan tərəfindən hərbi əməliyyatla cəlb edilməli və Osmanlı Baş komandanlığının sərəncamı altında olmalı və bu şəkildə ordu bu iki tərəfdən hansının ərazisində müharibə aparardısa ordunun xərcləri həmin hökumətin büdcəsindən ödənilməli idi; Azərbaycan hökuməti öz ərazisində ordu üçün yararlı ola biləcək heç bir sərvət və məhsulu Osmanlı hökumətinin icazəsi olmadan xaricə ixrac etməməli, həmçinin bunları daxildəki əcnəbilərin sərəncamına da verməməli idi; Azərbaycan ordusunun silah-sursat və hər cür təchizat işləri Osmanlı hökuməti tərəfindən tədarük edilməli və bunların məsrəfləri Azərbaycan büdcəsindən ödənilməli idi; Azərbaycan hökuməti hərbi büdcəsini Osmanlı hökumətinin təyin edəcəyi miqdarda müəyyən etməli idi; Azərbaycan ordusunun rəsmi dili, hərbi komanda və rabitə dili Osmanlı ordusundakı kimi türkcə olmalı idi; Osmanlı hökuməti Azərbaycan ordusunun təlim-tərbiyəsi üçün lazım olan qədər təlimçilər heyəti göndərməli və bu heyətin yol, qalma xərcləri və maaşını Azərbaycan hökuməti ödəməli idi; Azərbaycanda hərbi məktəblər yaradılana qədər Osmanlı hökumətinin müəyyən edəcəyi miqdarda azərbaycanlı tələbə Osmanlı hərbi məktəblərində yetişdirilməli idi [18, v. 135, s. 1-3] və s.

Hazırda Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində Osmanlı Xarici İşlər Nazirliyinin fondunda saxlanılan bu müqavilə layihələrinin üzərində tarix və imzalar yoxdur, lakin müqavilə layihələrinin mühafizə olunduğu qovluğun üzərində “11 iyul 1918-ci il” tarixi yazılmışdır. Eyni zamanda, bu müqavilə layihələrinə Osmanlı hüquqşünaslarının bəzi qeyd və düzəliş təklifləri də olmuşdur. Bu qeydlərdə də göstərildiyi kimi, Osmanlı hökuməti Azərbaycan ordusunun təşkili işini öz üzərinə götürsə də və lazımi anda Azərbaycan ordusunu öz sərəncamına almaq hüququ alsa da, Osmanlı tərəfi Azərbaycana yardım edib-etməməkdə sərbəst qalır və hər hansı bir təəhhüd altına girmirdi [18, v. 139-140]. Bundan başqa, Osmanlı hökuməti Azərbaycan ordusunun təşkili və təchizatı məsələlərində yaxından iştirak və yardım etməyi öz üzərinə götürməklə bərabər, Azərbaycan ordusuna ali nəzarəti və lazımi anda Osmanlı ordusunun Azərbaycana yeridilməsi

hüququnu da təmin etmiş olurdu. Bu da öz növbəsində, "hərbi müqavilə layihəsi"nin faktiki olaraq Azərbaycan ordusunun tam olaraq Osmanlı hökumətinin sərəncamına verilməsi və onun maraqlarına tabe etdirilməsi demək idi.

90 il üçün nəzərdə tutulan, 14 maddədən ibarət müqavilə layihəsinin yazıldığı sənədin arxa tərəfində qeyd edilmişdi ki, "layihə olaraq hazırlanmışdır, hələlik mühafizə edilməlidir" [18, v. 135]. Qeyd edək ki, bu müqavilə layihəsi tərəflər arasında imzalanmasa da, Qafqaz İslam Ordusu komandanlığının Azərbaycan ordusuna münasibətdə həyata keçirdiyi siyasət və atdığı addımlar adı çəkilən müqavilə layihəsinin müddəalarını reallaşdırmaqdan başqa bir şey deyildi.

1918-ci il avqustun 2-də Nuru paşa tərəfindən imzalanan sənəddə göstərilirdi ki: "1. Azərbaycan daxilində indi hərbi-təşkilati işlər ordu (Qafqaz İslam Ordusu – V.Q.) tərəfindən həyata keçiriləcəkdir; 2. İki diviziyadan ibarət bir ordu korpusu təşkil olunacaq. Nizami hərbi hissələr ilk əvvəl ordu əmrində olmaqla müxtəlif məntəqələrdə alaylar təşkil olunacaq və sonra bunlar birləşdirilib diviziya və korpus meydana gələcəkdir" [10].

Bunun ardınca, 1918-ci il avqustun 13-də Nuru paşa Azərbaycan korpusunun ləğv olunması və onun yenidən qurulması haqqında əmr verdi. 7 bənddən ibarət olan bu əmrin 6-cı maddəsində göstərilirdi ki, Azərbaycan korpusu dərhal ləğv edilir və onun Gəncə və digər ərazilərdə olan hər növ silah-sursat, araba, heyvan, geyim və digər əmlakı yeni təşkil ediləcək korpusu təchiz etmək üçün Qafqaz İslam Ordusunun əmrinə verilir [7]. Əmrin digər maddələrinə görə, Azərbaycan Cümhuriyyətinin ordu təşkil etmə işlərini Qafqaz İslam Ordusu tənzim və idarə etməli; Təşkil edilməkdə olan kiçik birliklər korpus və diviziya qərargahlarının təşkilinə qədər birbaşa Qafqaz İslam Ordusuna bağlı olmalı; Süvari birliklər müxtəlif məntəqələrdə təşkil edilməli və bunlar sonradan ehtiyaca görə daha böyük birliklər halına gətirilməli; Azərbaycan korpusunun zabitlərinin hamısı müsəlman olmalı; bütün zabit və əsgərlər Osmanlı uniforması geyinməli; Yeni təşkil ediləcək hərbi birliklərdə danışıq və yazı dili türkcə olmalı idi [7].

Göründüyü kimi, Azərbaycan korpusu ləğv edilir, onun bütün əmlakı Qafqaz İslam Ordusuna və Azərbaycan ordusunun yenidən təşkili işi də Nuru paşanın sərəncamına verilirdi. Yenidən təşkil edilməsi nəzərdə tutulan Azərbaycan ordusu Azərbaycan Cümhuriyyəti hökumətinin deyil, Osmanlı hərbi komandanlığının əmrində olmalı idi. Nuru paşanın 1918-ci il 13 avqust tarixli əmrini Azərbaycan korpusunda olan qeyri-müsəlman zabitlərinin ordudan kənarlaşdırılması və orduda türk dilinin tətbiq edilməsi ilə əlaqələndirənlər olsa da, əslində qeyd edilən tarixə qədər qeyri-müsəlman zabitləri demək olar ki, ordudan kənarlaşdırılmışdı, türk dilinin tətbiq edilməsi ilə bağlı da korpusu ləğv etməyə ehtiyac yox idi. Bu qərar əslində qeyd edilən tarixdə artıq say etibarilə 6000-7000 nəfər arasında bir hərbi qüvvə halına gəlmiş Azərbaycan korpusunun nisbi müstəqilliyinin aradan qaldırılması zərurətindən irəli gəlirdi. Bu korpusun müstəqilliyi növbəti mərhələdə Osmanlı

hərbi komandanlığının Azərbaycanla bağlı planlarının həyata keçirilməsinə mane ola bilərdi. Eyni zamanda, bu qüvvələrdən Osmanlı imperiyasının turançı siyasəti üçün Azərbaycan hüdudlarından kənarlarda həyata keçiriləcək əməliyyatlarda da istifadə edilməsi nəzərdə tutulurdu.

Nuru paşanın verdiyi 1918-ci il 20 avqust tarixli digər bir əmrlə Azərbaycan korpusunun komandan heyətindən Əliağa Şıxlinski, Həbib bəy Səlimov və Əbdülhəmid bəy Qaytabaşı Qafqaz İslam Ordusu qərargahına, Murad Tlexas ordu topçu müfəttişliyinə, İbrahim ağa Usubov ordu tabeliyinə, korpusun digər 120 zabiti də İslam Ordusunun ayrı-ayrı bölmələrinə göndərildi [9]. Bakının azad edilməsi uğrunda qarşıda həlledici döyüşün dayandığı, eyni zamanda zabit çatışmazlığının yüksək olduğu bir zamanda 20 avqust tarixli əmrlə general Mirzə Kazım və general Əmənulla Mirzə kimi təcrübəli zabitlərin təqaüdə göndərilməsi daha çox siyasi amillərlə izah oluna bilər.

Azərbaycan korpusunun ləğvindən, onun əsgər və zabitlərinin Qafqaz İslam Ordusunun bölmələri arasında bölüşdürülməsindən sonra Osmanlı hərbi komandanlığının planına görə Azərbaycanda 4 piyada alayın birləşdiyi 2 diviziyadan ibarət olacaq bir korpus təşkil edilməsi nəzərdə tutulmuşdu [8]. Başqa bir sənədə görə isə, yeni təşkil ediləcək Azərbaycan korpusu 2 piyada və 1 süvari diviziyadan ibarət olmalı idi [11]. Azərbaycan əsgərlərindən təşkil ediləcək tabur, alay və diviziyalara Osmanlı zabitləri komandanlıq etməli idilər.

Azərbaycan diviziyalarının və korpusunun yaradılması haqqında qərar qəbul edilsə də, Bakının azad edilməsinə qədər bütün diqqət cəbhəyə yönəldiyindən bu sahədə elə bir ciddi təşkilati işlər həyata keçirilmədi. Azərbaycan alayları Qafqaz İslam Ordusunun tərkibində və onun əmrində olmaqla Bakı əməliyyatında öz şərəfli missiyalarını davam etdirdilər. Osmanlı və Azərbaycan hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusu 36 saatlıq şiddətli döyüşdən sonra 1918-ci il sentyabrın 15-də Bakını düşmən qüvvələrdən azad etdi. Bakı azad edildikdən sonra Fələstin cəbhəsini gücləndirmək zərurəti ilə bağlı Azərbaycandakı Osmanlı qoşunlarının geri çağırılması və onların yerini yerli qoşunların tutması məsələsi də gündəmə gəlmişdi. Buna görə də Nuru paşanın 2 və 13 avqust 1918-ci il tarixli əmrləri üzrə Azərbaycan diviziyalarının və korpusunun yaradılması işi sürətləndirildi. 1918-ci il sentyabrın 23-də Qafqaz İslam Ordusu komandanlığının əmri ilə 1-ci, 2-ci və 3-cü Azərbaycan piyada alayları birləşdirilərək 1-ci Azərbaycan diviziyası təşkil edildi və polkovnik-leytenant Cəmil Cahid bəy diviziya komandiri təyin edildi. Sentyabrın 25-də isə Nuru paşanın 2-ci Azərbaycan diviziyasının təşkil edilməsi barədə verdiyi əmrə əsasən 4-cü, 5-ci və 6-cı Azərbaycan alayları təşkil edilməli idi. 4-cü piyada alayı artıq mövcud idi, 5-ci və 6-cı piyada alayları isə formalaşmaqda idi. 2-ci Azərbaycan diviziyasının komandiri polkovnik-leytenant Nazim bəy təyin edildi [6].

Osmanlı hökuməti Azərbaycan diviziyalarının təşkilinə böyük əhəmiyyət versə də, Azərbaycan ordusuna ümumi komandanlığı öz əlində saxlayırdı. Bakının azad edilməsindən az sonra Xəzər dənizində Qafqaz İslam

Ordusunun dəniz qüvvələri yaradılmağa başladı. Bu addım Xəzər dənizi tərəfdən Bakıya qarşı ola biləcək hücumların qarşısını almaq zərurəti ilə yanaşı, Osmanlı hökumətinin Orta Asiyaya yönələn turançı siyasəti ilə də bağlı idi. Buna görə də Osmanlı hökuməti Xəzər dənizində yaradılmaqda olan dəniz qüvvələrinə komandanlığı da Azərbaycan hökumətinə vermədi. Osmanlı imperiyasının bəhriyyə nazirinin 1918-ci il 21 sentyabr tarixli təqdimatına əsasən sentyabrın 23-də Osmanlı sultanı VI Mehmed Vahidəddin, sədrəzəm vəkili Ənvər paşa və bəhriyyə naziri Əhməd Camal paşanın imzaladığı "irade-i səniyyə" ilə Ümum İskələ və Limanlar komandanlığında olan Firkateyn (hərbi gəmi) kapitanı Kasımpaşalı Sükrü bəy Süleymanoğlu Qafqaz İslam Ordusunun Dəniz Qüvvələri komandanı təyin edildi [21, v. 1-2; 13, v. 1; 2, v. 3a]. Şükrü bəy, Xəzər dənizində yaradılmaqda olan Qafqaz İslam Ordusunun dəniz qüvvələrinə ümumi komandanlığı həyata keçirməli idi.

Azərbaycan diviziyaları təşkil edilən zaman bu diviziyaların təşkili işini sürətləndirmək üçün Osmanlı 5-ci Qafqaz diviziyasından 9-cu alay 1-ci Azərbaycan diviziyasına, 10-cu alay da 2-ci Azərbaycan diviziyasına təhkim edildi. Azərbaycan alaylarının tərkibində az miqdarda Osmanlı əsgərləri də var idi. Zabit heyətində isə Osmanlı zabitləri üstünlük təşkil edirdilər.

1918-ci il oktyabrın əvvəllərində Azərbaycan korpusunun tərkibi aşağıdakı kimi idi: 1-ci Azərbaycan diviziyasının tərkibinə 1-ci, 2-ci və 3-cü piyada alayları, 1-ci süvari alayı, 1-ci topçu alayı, 1-ci istehkam taburu, 1-ci teleqraf bölüyü, 1-ci səhiyyə bölüyü, 1-ci iaşə tağımı, 1-ci səyyar xəstəxana və 1-ci cəbbəxana taburu (3 piyada, 1 dağ və 1 səhra bölüyü), 2-ci Azərbaycan diviziyasına isə, 4-cü, 5-ci və 6-cı piyada alayları, 2-ci süvari alayı, 2-ci topçu alayı, 2-ci istehkam taburu, 2-ci teleqraf bölüyü, 2-ci səhiyyə bölüyü, 2-ci iaşə tağımı, 2-ci səyyar xəstəxana və 2-ci cəbbəxana taburu daxil idi. 3-cü süvari alayı, 1-ci ağır topçu taburu, 1-ci qaubitsa taburu, teleqraf taburu, dəmir yolu taburu və təyyarə dəstəsi birbaşa korpusa tabe idi [25, s. 397-398].

1-ci Azərbaycan diviziyası komandanlığı təşkil olunan kimi bu diviziyanın əsas qüvvələri Qarabağa göndərildi. Diviziyanın qərargahının Şuşada yerləşdirilməsi nəzərdə tutulmuşdu və bu diviziya təşkilatlanmanı Qarabağda başa çatdırmalı idi. 2-ci diviziyanın isə qərargahı Bakıda yerləşdirilməli idi. Azərbaycan diviziyaları təşkil edildiyi ilk vaxtlar rəsmi olaraq Qafqaz İslam Ordusunun 1-ci diviziyası və 2-ci diviziyası adlandırılmışdı. Azərbaycan korpusu təşkil edildikdən sonra onlar bu korpusun müvafiq diviziyaları adlandırıldılar.

1918-ci ilin oktyabrında Azərbaycan korpusundakı süvari alayları 1-ci diviziyanın tərkibində birləşdirildi, 2-ci diviziyanın tərkibində isə 4-cü süvari alayının təşkilinə başlanıldı. Bu süvari alaylardan başqa korpusa və Qafqaz İslam Ordusu komandanlığına tabe olan iki süvari bölüyü və Zəngəzurda ayrıca süvari bölüyü yaradıldı. Süvari alaylarının hər birinin tərkibində bir pulemyot bölüyünün təşkil edilməsi işi başa çatdırıldı. Ordu komandanlığına tabe olan Ordubad piyada taburu yaradıldı. 1-ci Azərbaycan diviziyasının tərkibində sərhəd alayının təşkilinə başlanıldı. Bu alay Azərbaycanla

Gürcüstan və Ermənistan arasında olan sərhədləri qorumalı idi. 3 taburdan ibarət olan bu alayda xidmət etmək üçün 25-35 yaş arası Azərbaycan gəncləri cəlb edilirdi [25, s. 399]. Qafqaz İslam Ordusu komandanlığı 1-ci Azərbaycan diviziyasının tərkibində olan 1-ci, 2-ci və 3-cü süvari alaylarını bu diviziyanın tərkibindən çıxarıb ayrıca bir süvari diviziyası yaratmağı da planlaşdırmışdı. Lakin dünya müharibəsindəki məğlubiyyət bu planları yarımçıq qoydu.

1918-ci il oktyabrın 11-də qüvvəyə minən “Azərbaycan hökumətinin əsgəri mükəlləfiyyətinin müvəqqəti qanunu”na görə 18 yaşından etibarən Azərbaycan vətəndaşları hərbi mükəlləfiyyətli hesab olunurdular. Sülh dövründə isə həqiqi hərbi xidmət 20 yaşdan başlanırdı. Piyada və nəqliyyat qoşunlarında xidmət 2 il, digər qoşunlarda isə 3 il müəyyən edilmişdi. Həqiqi hərbi xidmət başa çatdıqdan sonra keçmiş əsgərlər üçün 1-ci dərəcəli ehtiyatda xidmət piyadalar üçün 40 yaşına, digər qoşunlardan olanlar üçün isə 38 yaşınadək davam etməli idi. Obyektiv səbəblərə görə hərbi xidmətdən möhlət və güzəştlər də nəzərdə tutulmuşdu [25, s. 403].

1918-ci ilin yayında Azərbaycan hökumətinin, eyni zamanda Qafqaz İslam Ordusu komandanlığının qarşısında duran ən ümdə vəzifələrdən biri də yaradılmaqda olan Azərbaycan ordusunun azərbaycanlı zabit kadrları ilə təmin edilməsi məsələsi idi. Çünki bir əsrdən artıq bir zaman ərzində hərbdən uzaq tutulmuş Azərbaycan xalqının hərbi səriştəyə malik olmaması və milli zabit kadr çatışmazlığı ordu quruculuğu sahəsində ən ciddi problem olaraq qalmaqda idi. Bu zərurəti nəzərə alan Azərbaycan hökuməti 1918-ci ilin iyun ayında Gəncədə hərbi məktəbin yaradılması haqqında qərar verdi. Azərbaycanda səfərbərlik həyata keçirib yerli əhali hesabına Qafqaz İslam Ordusu sıralarını gücləndrməyə çalışan Nuru paşa da zabit kadrlarının çatışmazlığını aradan qaldırmaq üçün hərbi məktəblərin açılması işinə böyük əhəmiyyət verirdi. Bunun nəticəsi idi ki, Gəncədə açılan hərbi məktəbin praktik olaraq fəaliyyəti Azərbaycandakı türk zabitlərinin əməyi nəticəsində mümkün oldu. Nuru paşanın əmri ilə İslam Ordusunun ən təcrübəli zabitlərindən olan miralay Atif bəy adı çəkilən məktəbin rəhbəri təyin edilmişdi [12]. Qəbul norması 100 nəfər müəyyən edilən bu hərbi məktəbdə 200-ə qədər tələbə təhsil alırdı. Buraxılış imtahanını müvəffəqiyyətlə verən müdavimlər orduda 6 ay xidmət etdikdən sonra onlara zabit rütbəsi verilməli idi. Məktəbin ilk buraxılışı 4 ay sonra oldu. 1918-ci ilin 26-27 oktyabr tarixlərində keçirilən buraxılış imtahanlarında iştirak etmək üçün general Ə.Şıxlinski, polkovnik-leytenant Nazim bəy, polkovnik Seyfulla Mirzə Qacar və digər yüksək rütbəli hərbçilərlə Azərbaycan hökumətinin üzvü, maarif naziri N.Yusifbəyli Bakıdan Gəncəyə gəldilər. Eyni zamanda, həmin tarixlərdə Gəncədə olan Ənvər və Nuru paşaların atası Əhməd paşa da hərbi məktəbin buraxılış imtahanlarında iştirak edən fəxri qonaqlar sırasında idi [29]. Böyük ruh yüksəkliyi şəraitində keçən buraxılış imtahanlarını müvəffəqiyyətlə verən müdavimlər ordu sıralarına göndərildilər.

Qafqaz İslam Ordusu komandanlığı 1918-ci ilin avqustunda orduda kiçik zabit heyətinə olan tələbatı ödəmək məqsədilə “Ehtiyat Zabit

Namizədləri Təlimgahı” adlanan daha bir hərbi məktəb açdı. Bu məktəbin Qafqaz İslam Ordusu komandanlığı tərəfindən təsdiq edilmiş təlimatına görə, məktəb ordu üçün topçu, süvari, istehkam, pulemyotçu, qumbaraçı, təyyarəçilik, nəqliyyat, teleqraf, mühəndis və digər sahələr üzrə kiçik komandirlər – çavuşlar hazırlamalı idi. “Ehtiyat Zabit Namizədləri Təlimgahı”nın 1918-ci ilin oktyabrında baş tutan birinci buraxılışı zamanı məktəbi 400 nəfər bitirmişdi [12]. Bu hərbi məktəbi bitirən müdavimlər Azərbaycan ordusunun zabit kadrlarına olan ehtiyaclarının ödənilməsində mühüm rol oynadılar.

Bu siyasətin davam etdirilməsinin vacibliyini dərk edən Azərbaycan hökuməti 1918-ci il oktyabrın 27-də ölkədə üç yeni hərbi məktəbin açılması üçün 50 min rubl vəsait ayırdı [35; 34, s. 246].

Osmanlı hökuməti Azərbaycanda hərbi quruculuq prosesinə böyük əhəmiyyət verərək bu sahədə mühüm işlər həyata keçirsə də, yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan Cümhuriyyətinin bütün hərbi strukturunu öz nəzarətində saxlayır və buna Azərbaycanda və bütövlükdə Qafqazda özünün hərbi mövcudluğunu qoruyub saxlamaq üçün bir vasitə kimi baxırdı. Bu siyasət Osmanlı imperiyasının dünya müharibəsindəki məğlubiyyətinə qədər davam etdi. Azərbaycan hökuməti xalqın xilasındakı misilsiz xidmətlərinə görə Qafqaz İslam Ordusu komandanlığını özündən narazı salmamağa çalışmaqla yanaşı, ölkədəki hərbi hakimiyyəti də öz əlinə almağa səy göstərirdi. Dünya müharibəsində və regionda baş verən hadisə və prosesləri düzgün qiymətləndirən Azərbaycan hökuməti 1918-ci il oktyabrın 23-də keçirdiyi iclasında ölkədə Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul etdi. Bu qərar Nazirlər Şurası tərəfindən noyabrın 1-də imzalandı. Hərbi Nazirlik dövlətin qarşısında duran tarixi vəzifələrin həllində mühüm rol oynadığından ona rəhbərliyi baş nazir F.X.Xoyski öz üzərinə götürdü. Artilleriya generalı Səməd bəy Mehmandarov isə hərbi nazirin müavini təyin edildi və Nazirliyin formalaşdırılması ona tapşırıldı. Qısa zaman ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Noyabrın 15-də general S.Mehmandarovun əmri ilə Ümumi Qərargah təsis edildi. Polkovnik Həbib bəy Səlimov – Ümumi Qərargah və dəftərxananın rəisi, polkovnik Əbdülhəmid bəy Qaytabaşı – növbətçi general, polkovnik Seyfulla Mirzə – ləvazimat, general-mayor Murad Tlexas – topçu şöbələrinin rəisləri, general-mayor İbrahim ağa Usubov – hərbi təhsil şöbəsinin rəisi və qoşunlarda atıcılıq işinin müfəttişi təyin olundular. Bu şəxslər Müsəlman korpusu yaradıldığı gündən milli hərbi hissələrin təşkilində fəal iştirak etmiş və Azərbaycanın ərazi bütövlüyünün bərpası və qorunmasında, eləcə də müstəqil ordusunun formalaşmasında mühüm xidmətlər göstərmişdilər [22, s. 395].

Mudros müqaviləsinin şərtlərinə görə Müttəfiq dövlətlər adından Bakıya gələn general Tomson, hələ şəhərə gəlmədən, 1918-ci il noyabrın 17-dək Osmanlı və Azərbaycan qoşunlarının Bakını tərk etməsini tələb etdi. Buna görə də Osmanlı və Azərbaycan qoşunlarının Bakını tərk etməsinin ardınca Hərbi Nazirlik də noyabrın 22-də Gəncəyə köçdü və burada fəaliyyətini davam

etdirdi. Azərbaycan hökuməti ordu quruculuğuna böyük əhəmiyyət verir və bu işi özünün ən ümdə vəzifələrindən biri hesab edirdi. Təsadüfi deyil ki, Azərbaycan hökuməti 1919-cu il üçün nəzərdə tutduğu dövlət büdcəsində ordunun yaradılmasına 399,4 milyon manat ayırmışdı, bu məbləğ ümumi büdcənin 24 faizinə bərabər idi [24, s. 60]. 1919-cu ildə 25 minlik, 1920-ci ildə isə 40 minlik nizami milli ordu yaratmaq vəzifəsini irəli sürən Azərbaycan hökuməti bu vəzifələrinin öhdəsindən layiqincə gələ bildi.

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, 1918-ci ildə hərbi sahədə həyata keçirilən Osmanlı-Azərbaycan əməkdaşlığı Osmanlı imperiyası üçün Qafqazda onun mövcudluğunun qorunub saxlanılmasına və bu bölgə ilə bağlı siyasi və iqtisadi maraqlarının təmin edilməsinə hesablansa da, Azərbaycan Cümhuriyyəti üçün bu əməkdaşlıq xalqın məhv olmaqdan xilas edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi və suverenliyinin qorunması kimi ən ümdə vəzifələrin həyata keçirilməsi məqsədi daşıyırdı. 1918-ci ilin payızında dünya müharibəsindəki məğlubiyyət Osmanlı imperiyasının Azərbaycan və bütövlükdə Qafqazla bağlı planlarını həyata keçirməyə imkan verməsə də, Azərbaycan hökuməti Osmanlı-Azərbaycan hərbi əməkdaşlığı sahəsində qarşısına qoyduğu məqsədləri təmin edə bildi. Məhz bu əməkdaşlıq nəticəsində daşnak-bolşevik alyansının Azərbaycanda türk-müsəlman əhaliyə qarşı həyata keçirməkdə olduğu soyqırımlar dayandırıldı, ölkənin siyasi və iqtisadi mərkəzi olan Bakı şəhəri azad edilərək Azərbaycanın paytaxtına çevrildi. Eyni zamanda, bu əməkdaşlıq Azərbaycan ordusunun yaradılmasında, ölkənin ümumi hərbi strukturunun formalaşmasında və ordunun silah-sursatla təmin edilməsində müstəsna rol oynadı. Amma Osmanlı ordusu Azərbaycanı tərk edənə qədər Azərbaycan qoşunları Azərbaycan hökumətinin deyil, Qafqaz İslam Ordusunun nəzarətində və komandanlığında qaldı.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 894, siy. 2, iş 88.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 277, siy. 2, iş 7.
3. Türkiye Cumhuriyeti Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Dairesi Başkanlığı Arşivi (ATASE), BDH, K. 2922, D. 512, F. 27.
4. ATASE, BDH, K. 3819, D. 6, F. 1.
5. ATASE, BDH, K. 3819, D. 6, F. 7.
6. ATASE, BDH, K. 3821, D. 14, F. 9.
7. ATASE, BDH, K. 3821, D. 15, F. 4.
8. ATASE, BDH, K. 3821, D. 15, F. 4-1.
9. ATASE, BDH, K. 3821, D. 15, F. 50.
10. ATASE, BDH, K. 3821, D. 16, F. 1-9.
11. ATASE, BDH, K. 3821, D. 16, F. 1-56.
12. ATASE, BDH, K. 3823, D. 22, F. 7-10.

13. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA), BEO, no. 4535/340058.
14. BOA, HR.HMŞ.İŞO, no. 107/7.
15. BOA, HR.HMŞ.İŞO, no. 124/13.
16. BOA, HR.SYS, no. 2297/4.
17. BOA, HR.SYS, no. 2372/2.
18. BOA, HR.SYS, no. 2373/2.
19. BOA, HR.SYS, no. 2373/4.
20. BOA, HR.SYS, no. 2398/7.
21. BOA, İ.DUİT, no. 183/26.
22. Azərbaycan tarixi. 7 cilddə. V c., Bakı, Elm, 2001.
23. İsgəndərli A. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı, Elm və təhsil, 2012.
24. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, Elm, 1990.
25. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, Hərbi Nəşriyyat, 1999.
26. Süleymanov M. Qafqaz İslam Ordusunun quruluşu, hazırlıq və səfərbərlik vəziyyəti / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Editörlər: Mehmet Rıhtım, Mehman Süleymanov. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008, s. 227-286.
27. Swietochowski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, Xəzər Universitəsi, 2000.
28. Yüceer N. Qafqaz İslam Ordusunun Bakı şəhərini azad etməsi / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Editörlər: Mehmet Rıhtım, Mehman Süleymanov. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008, s. 333-356.
29. Kafkasya'dan Bir Haber / Vakit, no. 397 (30 Teşrinisani 1334), s. 2.
30. Kurat A.N. Türkiye ve Rusya. Ankara, Kültür Bakanlığı Yayınları, 1990.
31. Türker Y.R. Birinci Dünya Harbi`nde Bakû Yollarında 5 nci Kafkas Piyade Tümeni. Ankara, Genelkurmay Basımevi, 2006.
32. Yüceer N. Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan Harekatı. Ankara, Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Başkanlığı Yayınları, 1996.
33. Азербайджанская Демократическая Республика (1918-1920). Армия (Документы и материалы). Баку, издательство "Азербайджан", 1998.
34. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. (Сб. Документов). Баку, издательство "Азербайджан", 1998.
35. В министерствах. Военные школы / Газ. "Азербайджан", 29 октября 1918, № 21, с. 1.
36. Дарабади П. Военно-политическая история Азербайджана (1917-1920 годы). Баку, Издательский дом «Кавказ», 2013.

РЕЗЮМЕ

ВАСИФ КАФАРОВ

ОСМАНСКО-АЗЕРБАЙДЖАНСКОЕ ВОЕННОЕ СОТРУДНИЧЕСТВО и ПРОЦЕСС СОЗДАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ АРМИИ (июнь-октябрь 1918 года)

В статье процес создания армии Азербайджанской Республики исследовано в контексте Османско-Азербайджанского военного сотрудничества. К исследованию привлечены проекты Османско-Азербайджанских военных договоров подготовленных Стамбульским правительством. А также изучена характеристика военного сотрудничества между Османской империей и Азербайджанской Республикой. Прокомментировано участие новообразованной Азербайджанской армии в военной операции по освобождению города Баку. Большинство архивных документов, связанные с исследованием проблемы, впервые привлечены в научную сферу исследования.

Ключевые слова: Азербайджанский корпус, Азербайджанская армия, Азербайджанская дивизия, Османско-Азербайджанское военное сотрудничество, Кавказская Исламская Армия, проекты Османско-Азербайджанских военных договоров.

SUMMARY

VASIF GAFAROV

OSMANLI-AZERBAIJAN MILITARY COOPERATION AND PROCESS OF ESTABLISHMENT OF AZERBAIJAN NATIONAL ARMY (June-October 1918)

In the article, the army building process of the Azerbaijan Republic was investigated in the context of Ottoman-Azerbaijani military cooperation. The Ottoman-Azerbaijani military drafting projects prepared by the Istanbul government in July 1918 were investigated and the role and place of the Ottoman Empire in the process of the establishment of the Azerbaijani army was determined. The nature of military cooperation between the Ottoman Empire and the Republic of Azerbaijan has also been studied. The participation of the newly-established Azerbaijani army in the Baku operation was also commented on. Most archival documents involved in the problem-related research have been brought to scientific circulation for the first time.

Key words: Azerbaijani corps, Azerbaijani army, division of Azerbaijan, Ottoman-Azerbaijani military cooperation, Caucasian Islamic Army, Ottoman-Azeri military projects.

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

MUSA QULİYEV
AMEA Naxçıvan Bölməsi
kuliyevm@yandex.ru

PODPOLKOVNİK III EHSAN XAN NAXÇIVANSKİ - KƏNGƏRLİ

Məqalədə podpolkovnik III Ehsan xan Cəfərqulu xan oğlu Naxçıvanskinin həyatı və fəaliyyəti haqqında ətraflı məlumat verilir. Onun təhsil illərindən, Birinci Dünya müharibəsində iştirakından, Azərbaycan Xalq Cümhuriyyəti dövründə və sovet hakimiyyəti illərində xidmətlərindən söhbət açılır.

Açar sözlər: Paj korpusu,ulan polku. Kornilov, Şəki polku,Varşava, Qarabağ, Kiyev, Novoçerkask.

Birinci Dünya müharibəsinin başlanmasından 104 il ötür. Tarixi sənədləri vərəqləyib Birinci Dünya müharibəsində həmyerlilərimizin də cəsurluqları, hünərləri haqqında oxuduqca sevinməyə bilmirsən. Çünki əsl döyüşçü mükafat üçün yox, doğulduğu və yaşadığı ana torpaq uğrunda döyüşəndir. Onun özünün xəbəri olmadan verilən təltiflər və mükafatlar isə heç nəyin diqqətdən kənarda qalmadığını təsdiqləyir. Belə cəsur, qorxmaz süvari döyüşçülərdən biri də cəmi 26 il ömür sürmüş III Ehsan xan Cəfərqulu xan oğlu Naxçıvanski--Kəngərlidir. O, 1894-cü il aprelin 1-də Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini ailə mühitində alan III Ehsan xan XX yüzilliyin əvvəllərində Sankt-Peterburqdakı Paj korpusunda oxumağa getmişdir. Babalarının və atasının Rusiya imperiyasında hərbi xidmətlərini nəzərə alaraq ona əlahəzrətin Paj korpusunda oxumağa rəsmən icazə verilmişdir (5, v. 17).

1913-cü ildə III Ehsan xan Paj korpusunu birinci dərəcəli diplomla bitirmiş və saray (leyb) qvardiyasının korneti (kiçik zabiti) hərbi rütbəsini almışdır. Həmin ilin 6 avqustunda Rusiya çarının Varşava şəhərində (Polşa) yerləşən Ulan (nizəli süvari əsgərlər) polkuna hərbi xidmətə göndərilmişdir. III Ehsan xan Varşavadakı Ulan polkunun tərkibində olan 6-cı eskadronda (piyada qoşununda bölüyə bərabər süvari qoşun hissəsi) kiçik zabit rütbəsi ilə qeydə alınmışdır (5, v. 18).

Varşavadakı Ulan polkunda nümunəvi və intizamlı əsgər olan III Ehsan xan sonralar Birinci Dünya müharibəsinin iştirakçısı olmuşdur. Müharibə başlayanda 20 yaşı olmasına baxmayaraq, cəbhədə göstərdiyi hünər çar hökuməti tərəfindən yüksək qiymətləndirilir. 1914-cü ildə 3-cü dərəcəli “Müqəddəs Stanislav” ordeni (bant və qılınclarla) və 4-cü dərəcəli “Müqəddəs Anna” ordeni (üzərində “İgidliyinə görə” yazılmış) ilə təltif edilmişdir. 30 iyul 1915-ci ildə ona poruçik hərbi rütbəsi verilmişdir. Həmin ildə o, ikinci dərəcəli

“Müqəddəs Stanislav” (qılınclarla birlikdə), üçüncü dərəcəli “Müqəddəs Anna” (bantla və qılınclarla) ordenlərini də almışdır (5, v. 19).

1917-ci ildə hakimiyyəti ələ keçirən müvəqqəti hökumət orduya nəzarət edə bilmədiyindən hərbi hissələrdə intizamsızlıq baş alıb gedir. Ona görə də digər hərbçi Naxçıvanskilər kimi, III Ehsan xan da çətin vəziyyətdə qalır. O, həmin vaxtlar general L.Q.Kornilovun (1870-1918) yaratdığı könüllü ordunun tərkibinə daxil olmuşdur(4, s. 345).

Qeyd edək ki, L.Kornilov saray katibinin ailəsində doğulmuşdur. 1914-cü ildə piyada qoşun briqadasının, sonralar isə diviziyasının komandiri olmuşdur. Müharibədə əsir düşən L.Kornilov 1915-ci ildən 1916-cı ilin iyulunadək həbs düşərgələrində qalmış, sonralar əsirlikdən qaçmışdır. 1917-ci ilin fevral inqilabından sonra Petroqradda qoşun komandiri və 18 iyul tarixdən cənub-qərb cəbhəsinin komandiri olmuşdur. 2 sentyabr 1917-ci ildə həbs edilmiş və təsadüf nəticəsində həmin ilin 19 noyabrında Dona qaçmış və orada könüllü ordu yaratmışdı (1, s. 518). Onun yaratdığı orduya Qafqazın yerli süvari diviziyasının tərkibindəki Tatar polku və təkinlərdən ibarət türkmən döyüşçülərin də polku daxil olmuşdur. L.Kornilov hər iki polkun döyüşçülərinə çox inanırdı. O, türkməncə bildiyindən döyüşçülər ona sədaqət göstərirdilər. III Ehsan xan da bu könüllü orduya daxil olmuş və Novoçerkask şəhərində hərbi xidmətə başlamışdır. General L.Kornilovun yaratdığı könüllü ordu 1917-ci ildə müvəqqəti hökumətə qarşı qiyama qalxır. 1917-ci ilin avqust ayında III Ehsan xan da L.Kornilov qiyamının iştirakçısı olur. Petroqrada müvəqqəti hökuməti devirməyə gedən könüllü ordu müəyyən səbəblərə görə uğursuzluğa düçar olur(4, s. 289-291).

Həmin ilin sonlarında qardaşları III Kalbalı xan, Cəmşid xan və qohumları ilə Naxçıvana qayıdan III Ehsan xan erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşmüşdür.

Rusiyadan Gəncəyə qayıdan Tatar polkuna qardaşı Cəmşid xan Naxçıvanski komandirlik etdiyindən sonralar III Ehsan xan da Gəncəyə getməli olur. Bakının ermənilərdən xilas edilməsində göstərdiyi şücaətə görə, Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi ona podpolkovnik hərbi rütbəsi vermişdir (2). O, üçüncü Şəki süvari polkunun komandir köməkçisi olmuşdur. III Ehsan xan bolşeviklərin əleyhinə olan üsyanın da iştirakçısı olduğundan 1920-ci ildə bolşeviklər tərəfindən güllələnmişdir.

Cəsur döyüşçü III Ehsan xanın həlak olması ilə bağlı bəzi tədqiqatçılar onun Qarabağda, yaxud Kürdəmirdə güllələndiyini yazırlar. Qeyd edək ki, istər çar, istərsə də bolşevik Rusiyasında güllələnmələr sənədlərin məlumatına əsasən, həmişə qeydə alınırmış. Xan Naxçıvanskilər də təsadüfi adamlar olmadığından, yəqin ki, heç olmazsa, “üçlüyün” (“troykanın”) hökmü vardır. Axı həmin illərdə səhra məhkəməsi də fəaliyyət göstərmişdir. Ona görə də biz həmin illərə aid sənədlərin axtarışındayıq.

Buna səbəb isə əlimizdə olan bir məktubdur. Həmin məktubu 1990-cı ildə Moskvada yaşayan həmyerlimiz Hüseyn Teymurlu Naxçıvanda yaşayan qohumu Qadir Həsənəliyevə yazmışdır (2). Məktubun mətnindən görünür ki,

Moskvada gözdən-könüldən uzaq bir yerdə – Saltıkovka qəsəbəsində yaşayan Hüseyn Teymurlu Naxçıvanskiləri çox yaxşı tanıyırmış. Onun yazdığına görə, onların Xan sarayının yaxınlığında evləri varmış. O da məcbur qalıb öz familiyasını dəyişmişdir. Hüseyn Teymurlu Naxçıvanın mötəbər əsilzadələrindən biri olan Heydər bəy Bənəniyarskinin oğludur.

1990-cı ilin çətin günlərində Naxçıvanla yaxından əlaqə saxlayan qocaman alim azacıq da olsa, Xan Naxçıvanskilər haqqında xatirələrini qələmə almış və məktublarında naxçıvanlı ziyalıları maraqlandıran suallara cavab yazmışdır. Məktubda tariximiz üçün maraqlı və əhəmiyyətli faktlar əks olunmuşdur.III Ehsan xan haqqında onun yazdığını (azacıq ixtisarla) eyni ilə köçürürük: "1929-30-cu illərdə mən Muğanda işləyirdim. Bizim dəstədə yaşlı bir salyanlı kuryer var idi. O, mənim naxçıvanlı olduğumu bilirdi. Bir gün o, mənə Əhsan barəsində belə bir söhbət elədi: "Mən 1918-20-ci illərdə Qızıl Orduda əsgərlik edirdim. Bizim komandirimiz Əhsan Naxçıvanski idi. Eskadron hücuma gedəndə həmişə eskadronun qarşısında olardı. Çox igid adam idi. Əhsan xan çox hirsli idi. Bir gün onu ştaba çağırdılar. O getdi qərargaha. Bir neçə gündən sonra biz eşitdik ki, onu güllələyiblər. Onun yerinə başqa komandir gəldi".

Mən o kişidən soruşmadım ki, bu hadisə hansı rayonda, hansı cəbhədə olubdur.

Əhsən xan cavan vaxtı (müharibələrdən əvvəl) süvarilərin təlimi zamanı at çapanda atdan yıxılıb, daldan qaçan süvarilərin bir neçəsi onun üstündən keçiblər. Buna görə də onun başı (kəlləsi) qırılmışdı. Onun başından qırılan sümükləri həkimlər çıxarıb yerinə gümüş plastinkalar qoymuşdular. Odur ki, o, çox əsəbi idi" (2, s. 1-2).

Bu məlumatdan aydın olur ki, III Ehsan xan da qardaşı Cəmşid xan Naxçıvanski kimi Qızıl Orduda xidmət etmişdir. Onun əmisi II Ehsan xanın başından zədə alması haqqında arxiv sənədlərində məlumatlar vardır.

III Ehsan xanın isə başından zədə alması haqda hələlikdə sənədlər tapılmamışdır. III Ehsan xan güllələnəndə çox cavan idi – 26 yaşında. Bu məktub da təsdiqləyir ki, III Ehsan xanı həbs ediblər və güllələyiblər. Həmin illərin sənədləri isə Gürcüstan təhlükəsizlik orqanlarının arxivində saxlanılır. Çar Rusiyasının, Azərbaycan Xalq Cümhuriyyətinin və sovet hökumətinin ordusunun igid süvarisi III Ehsan xan Naxçıvanskinin-Kəngərlinin həyatı və fəaliyyəti müasir gəncliyimiz üçün nümunədir.

ƏDƏBİYYAT

1. ASE(Azərbaycan Sovet Ensiklopediyası). Bakı: 1981, V cild, 592 s.
2. Hüseyn Teymurlunun Qadir Həsənəliyevə məktubu. 25 may 1990-cı il (Müəllifin arxivindədir).
3. Адрес- календарь Азербайджанской Республики на 1920 г. Баку: 1920 г.

4. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской империи. Москва: Новый Аргумент, 2006, 432 с.
5. РГВИА (Российский Государственный Военно-Исторический Архив): Ф.408, опись 1, дело№ 1017, л. 17об-19.

РЕЗЮМЕ

МУСА КУЛИЕВ

ПОДПОЛКОВНИК III ЭХСАН ХАН НАХЧЫВАНСКИЙ – КЕНГЕРЛИ

В статье даётся обширная информация о жизни и деятельности III Эхсан хана, сына Джафаркули хана Нахчыванского. Также рассказывается об учебных годах, о его участии в Первой Мировой войне, о его заслугах в период Азербайджанской Демократической Республики и в годы советской власти. Впервые подверглись исследованию ряд архивных документов отважного воина III Эхсан хана Нахчыванского.

Ключевые слова: Пажеский корпус, уланский полк, Корнилов, Шекинский полк, Варшава, Карабах, Киев, Новочеркасск.

SUMMARY

MUSA GULIYEV

LIEUTENANT COLONEL THE THIRD EHSAN KHAN NAKHCHIVANSKI – KANGARLI

In the article detailed information is given about the life and activity of the lieutenant colonel Ehsan khan Jafargulu khan oglu Nakhchivanski III. His years of study, attendance in World War I, services during the Azerbaijan People’s Republic and soviet power are dealt in the article as well. Some facts and documents about the life and activity of the greatest commander Ehsan khan Nakhchivanski III have been investigated for the first time.

Key words: Paj corps, Ulan regiment, Sheki regiment, Kornilov, Varsaw, Garabagh, Kiev, Novocherkassk.

(*Akademik İ.Hacıyev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

SARA HACIYEVA
AMEA Naxçıvan Bölməsi
hacyevasara@yahoo.com
MEHMAN ŞABANOV
“Naxçıvan” Universiteti
serxanoqlu@mail.ru

NAXÇIVANDA XALÇAÇILIQ SƏNƏTİNİN İNKİŞAF TARİXİ

Xalqımızın milli və ümumbəşəri mahiyyət daşıyan mədəni dəyərlərindən biri də Azərbaycan xalçasıdır. Bizim xalçalarımız nənələrimizin, babalarımızın dilində olan bayatılarla, şeirlər və qoşmalarla uyğunlaşdırılıb toxunmuş və nəsildən-nəslə ərməğan edilmişdir. Şifahi xalq ədəbiyyatı ilə çox bağlı olan nənələrimizin toxuduğu xalçalar maddi ehtiyacla yanaşı, mənəvi ruhun ifadəçisi kimi də meydana gəlmişdir.

Acar sozler: xalçaçılıq, sənət, yun, toxumaq

Azərbaycan xalça sənətinin yaranması və inkişafı milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Tarixi çox qədim dövrlərə gedib çıxan xalçaçılıq sənəti xalq sənatkarları tərəfindən əsrlər boyu yaşadılmış, inkişaf etdirilmiş, zəmanəmizə qədər gəlib çatmışdır. Orta əsrlərdə xalçaçılıq yüksək inkişaf səviyyəsinə çatmış, Azərbaycanm şəhər və kəndlərində xalça istehsalı kütləvi xarakter daşımışdı. Bərdə, Təbriz, Naxçıvan, Xoy, Mərənd, Şabran mühüm xalçaçılıq mərkəzləri hesab olunurdu.

Xalçaçılıq sənəti türk xalqları arasında eramızdan çox öncə yayılmış, əsasən də türk qadınlarınm gündəlik məşğuliyyətinə çevrilmişdir. N.Diyarbəkirli Oktay Aslanapanm tədqiqat işlərinə əsaslanaraq, xalçanı türk sənətinin ən orijinal yaratmalarından biri olaraq, dünya mədəniyyətinə türklərin bir hədiyyəsi kimi səciyyələndirir (1, c. 140).Türk xalqları arasında bu sənətin ən çox yayıldığı ərazilərdən biri də Azərbaycandır. Azərbaycan xalqının adət-ənənələrini, milli ruhunu, mənəviyyatını özündə ifadə edən xalçalarımız dünyada müqayisə edilməyən nümunə tək qəbul olunur.

Arxeoloji materiallar və yazılı mənbələrdə Azərbaycan türklərinin xalçaçılıq sənətilə hələ Tunc dövründən məşğul olmaları haqqında bir sıra materiallar vardır. Bu sənət ilkin və orta əsrlər dövründə özünün ən yüksək səviyyəsinə çatmışdır. Azərbaycanda toxunulan ipək parçalar və rəngarəng xalçalar haqqmda VII əsrdə yaşamış Musa Kalankatuklı maraqlı malumatlar verir (4, s. 136). Azərbaycanın qərb bölgəsində yerləşən Naxçıvan diyarında dâ xalçaçılıq sənətinin ən qədim dövrlərə aid olduğunu sübut edən nümunələr aşkar edilmişdir. I Kültəpə ərazisində arxeoloji tədqiqatlar aparan O.Həbubul-

layev, burada ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy uçları aşkar etmişdir (3, s. 127). Aşkarlanan iy uçları hələ qədim dövrlərdən insanların əyiriciliklə məşğul olduğunu göstərir.

Xalçaçılıq sənətinin Naxçıvanda orta əsrlərdə inkişafı haqqında sənətşünas L.Kərimov üç cilidlik "Azərbaycan xalçaları" adlı monoqrafiyasında, xüsusi bölmə ayırmış və o dövrdə Naxçıvanda bir-birindən rəngarəng palaz, cecim, xalı toxunması haqqında məlumat vermişdir. Xalçaların üzərində türk mifologiyasından gələn damgalar və müxtəlif atributlar, çox zaman onun toxunma ili və toxuyanm adı öz əksini tapirdi.

Naxçıvanm zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng kompozisiyalarının həllinə çoxçeşidli boyalar bəxş etmişdir. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçalarm naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inançları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır.

XVII-XVIII əsrlərdə Azərbaycanda yaranan bir neçə böyük xalçaçılıq məktəbblərinin içərisində Naxçıvan xalçaçılıq məktəbinin də özünəməxsus yeri var idi. Qeyd etmək olar ki, Təbrizdə, Qarabağda çeşni əsasında istehsal edilən xalça nümunələrinin eynisi Naxçıvanda da toxunmuşdir. Bu bizə əsas verir ki, Naxçıvan xalçaçılıq məktəbinin Azərbaycan məktəblərilə sıx əlaqəsi olduğunu qeyd edək.

Orta əsrlər dövrünə aid malumatlarda göstərilir ki, Azərbaycanın ayrı-ayrı bölgələrində xalça və xalça məmulatları geniş yayılmış, həmçinin bəzi bölgələr toxuculuq sahələrinə görə bir növ ixtisaslaşmışdı. Məsələn, Muğanda palaz və çuval, Naxçıvanda və Xoyda xalça, Ərdəbildə və Şirvan bölgəsində parça istehsalına daha geniş yer verilmişdi. XVI-XVII əsrlərdə yaşayan məşhur rəssamlar da öz əsərlərində bir çox Azərbaycan xalçalarını təsvir ediblər. Məsələn, bizim xalçalarımız Venetsiya taciri və tədqiqatçısı Marko Polonu heyran etmişdir. XVI əsrin ingilis səyyahı Antoni Cenkilisin və XVII əsrin alman dəniz səyyahı Can Strusun qeydlərində xalçalarımız haqqında maraqlı malumatlar verilir. Macar rəssamı Hans Memlinqin "Məryəm və onun uşağı" rəsmində, alman rəssamı Hans Holbeynin "Səfirlər" rəsmində bir çox Azərbaycan xalçaları təsvir edilib (10).

Orta əsrlərdən başlayaraq Azərbaycan xalçaları bütün dünyada ticarət vasitəsi olub. Azərbaycana gələn səyyahlar və tacirlər də buradan özləri ilə xalça aparıblar. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan xalçaları dünyanın ən zəngin muzeylərinin və bir sıra şəxsi kolleksiyaların bəzəyinə çevrilib. Buna misal olaraq 1539-cu ildə Ərdəbildə Şeyx Səfi məscidi üçün toxunmuş, hazırda Nyu-Yorkun Metropoliten muzeyində saxlamlan xalını, yenə də 1539-cu ildə Təbrizdə həmin məscid üçün toxunmuş və haliyədə Londondakı Viktoriya və Albert muzeyində nümayiş etdirilən xalını göstərmək olar.

Orta əsrlər dövrü qədim Naxçıvan bölgəsində xalçaçılıq sənətinin inkişaf etdiyini sübut edən mühüm qaynaqlar mövcuddur. Naxçıvanda bu

sənətin yüksək səviyyədə inkişaf etdiyini sübut edən mühüm qaynaqlardan biri də qəbirüstü xatirə abidələrdir. Bildiyimiz kimi, orta əsrlər dövründə qəbirüstü abidələrdə dəfn olunan şəxsin sənət və peşəsi haqqında müəyyən təsvirlər həkk olunurdu. Bu abidələr üzərində simvolik şəkildə göstərilmiş hana, kirkid, daraq, toxucu təsvirləri verilmişdir. Bu təsvirlərdən məlum olur ki, həmin qəbirlərdə dəfn olunan şəxslər xalçaçılıq sənətilə məşğul olmuşdur.

Xalçanın toxunub ərsəyə gəlməsi üçün onun bir çox proseslərdən keçməsi lazım idi. Əvvəlcə hər hansı bir toxunacaq xalçanın ölçüsünü nəzərə alıb, həmin ölçüyə uyğun yunu seçirlər. Bu qoyun yunundan seçilməklə, təmizlənir, yuyulub, qurudulduqdan sonra daraqda daranaraq əlçim halına gətirilirdi. Yunu ip halına salmaq üçün əlçimlər cəhrədə əyrilirdi. Əyrilmiş iplik nisbətən yoğun və tiftikli olan dükcə şəklinə salınırdı. Dükçələrdəki ipliyi kırtız adlanan xüsusi alətlə cilalayırdılar. Bu metal çubuğun köməyi ilə sapın həddən artıq xovluluğu və müxtəlif növ bərkimələr aradan qaldırılırdı ki, iplik eyni qalınlıqda və hamar olsun. Bu iş üçün bəzən cağdan (corab toxumaq üçün polad simdən düzəldilmiş əşya -S.H) istifadə edilir. Hazırlanmış dükçələrdəki ip ikiqat olmaqla yumaqlanırdı. Əyrilmiş yunun boyanması asan olsun deyə kələf formasına salınırdı. İplər boyandıqdan sonra zivəyə sərilərək tamamilə qurudulurdu. Kələflər toxunmaq üçün yumaq halına gətrilirdi.

Xalçanın toxunuşuna əsasən payız fəslindən başlanılırdı. Toxunacaq xalçanın uzunluğu nəzərə alınaraq həmin ölçüdə hana ağacı qurulurdu. Xalçanı ərsəyə gətirmək üçün pambıqdan hazırlanmış əriş və arğac deyilən iplərdən istifadə edilirdi. Həmin iplər peşəkar qadınlar tərəfindən hana qurulduqdan sonra hana ağacına sarınırdı. Əriş iplərini bərkitmək üçün kücü ağacı deyilən ağac da hananın yan ağaclarına bərkidilirdi. Kücü ağacı eninə, sağdan sola yan ağaclara bərkidildikdən sonra əriş sapını uzununa kücü ağacına dolayıb düyün vuraraq, hananın başından keçirirdilər. Kücü ağacı ilə hana ağacları arasına əlavə olaraq qoltuq ağacı deyilən ağac dayanırdı ki, bu da toxunmuş
ilmələrin və keçiləcək arğac iplərinin bərkidilməsi üçün istifadə edilirdi. Eyni zamanda, kücü ağacının yuxarı tərəfində digər bir ağacdan da istifadə edilirdi ki, həmin ağac arğacların bir-birinə keçilməsi üçün lazım olurdu. Hana qurulub hazır olduqdan sonra müxtəlif rəngli iplər istifadə üçün kəndirə düzülərək hananın üzərindən asılırdı. Xalçanı toxumaq üçün əsasən həvə, kirkid, balaca bıçaq, qayçı və s. kimi alətlərdən istifadə olunurdu. Hər bir xalçanın dəyəri toxunulan ilmələrin sayı və həmin ilmələr vasitəsilə təsvir olunan naxışların dərin mənası ilə qiymətləndirilirdi. Xalçanın nəfisliyinin təyin edilməsi və ona qiymət qoyulması qaydası belə idi: bir şəst ölçüdə fərşin haşiyəsinə nəzər salırdılar, xalçanın həmin hissəsinin ilmələrini sayırdılar; əgər ilmələrin sayı çoxdursa, xalçanın qiyməti də baha olurdu (9, s. 92).

Toplanmış etnoqrafik çöl materiallarından məlum olur ki, qədim və orta əsrlər dövründən başlayaraq günümüzədək toxuculuq, bədii tikmə sənəti xüsusən qadınların mühüm məşğuliyyət sahəsi olmuş və demək olar ki, həmin sənət sahələrinin inkişafı əsasən qadın əməyinə əsaslanmışdır. Lakin bu o demək deyil ki, kişilər bu sənətdən tamamilə uzaq olmuşlar. Tarixin müxtəlif

dönəmlərində xalçaçı kişilər yaşamışlar və bir çox hallarda kişi xalça ustaları xüsusən xalçaçıların naxış tərtibatının yaranmasında fəal iştirak etmişlər.

Qadınların bilavasitə bu sənətlə məşğul olduğunu tədqiqatçılar bir tərəfdən İslam dininin qayda-qanunları ilə, digər tərəfdən də fəsillərlə əlaqələndirirlər. C.Mustafayev yazır ki, İslam dininin irəli sürdüyü qadağalara görə əməklərini evdən kənarda tətbiq etmək imkanı olmayan qadınlar vaxtlarının çoxunu ev işləri görməyə, eyni zamanda toxuculuğun müxtəlif sahələri ilə məşğul olmağa sərf edirdilər (8, c. 92). H.Q.Qədirzadənin fikrincə isə xalçaçılıq sənəti ilə ən çox qadınlar məşğul olduğundan, qadınların çöl-tarla işləri bitdikdən sonra havanın soyuq vaxtlarında, ev şəraitində bu iş yerinə yetirilir (6, s. 97).

Tarixi inkişafın hər bir mərhələsində Azərbaycanın xalça ustaları zamanın ruhunu, kütlələrin əhval-ruhiyyəsini yüksək bədii səviyyədə ifadə etmiş, öz niyyətini, qayəsini parlaq, gözoxşayan estetik formalarda təcəssüm etdirmişlər. L.Kərimov yazır ki, bütün təsviri sənətlərdə olduğu kimi, dekorativ tətbiqi sənət nümunələrində də xalqın həyatı, onun adət və ənənələri əks olunmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan xalçaçılıq sənətində işlədilən bütün bəzək elementləri real mühitdən alınmış təsvirlərdən ibarətdir (5, s. 31). Naxışların rəmzi mənaları Naxçıvan xalçalarının formalaşması, müxtəlif kompozisiya və çeşnilərinin yaranması prosesi bir neçə mənbədən qaynaqlanmışdır. Bunların ən əsası və zaman baxımından ilkini heyvandarlıqla məşğul olub yarımköçəri həyat tərzi sürən əhalinin toxuduğu xalçalardır. Heyvandarlıqla məşğul olan insanlar əldə etdikləri yundan zaman-zaman məişət əşyası kimi xalçalar toxumuş, öz milli-mənəvi, mifoloji düşüncə tərzlərini digər sənət əsərlərində olduğu kimi, xalçalar üzərində də naxışlar vasitəsilə həkk etdirmişlər. Əgər biz tarixi xalçalarımıza diqqətlə nəzər salmış olsaq və sonra memarlıq abidələrimizə baxmış olsaq görərik ki, yun ip ilmələrlə tamamlanan naxışların eynilə oxşarını biz abidələrimizin bəzək hissələrində də görürük.

Diqqət yetirin. XII əsrin tarixi memarlıq abidəsi Yusif Küseyir oğlu türbəsinin, Möminə xatın türbəsinin, XIV əsrin tarixi yadigarı Qarabağlar türbəsinin çoxüzlü səthləri ayrı-ayrılıqda hərəsi bir xalça naxışdır və birbirinə bənzəməyən həndəsi naxışların sintezindən yaranmış xalça çeşnilərdir. Sadəcə olaraq bu ornamental çeşnilər böyük rəssam-memarlar tərəfindən daşlarda ilmələnmiş "Naxçıvan" çeşnili xalçaların təkrarıdır. Bu daş xalçalar Naxçıvanın qədim mədəniyyətindən, onun kamil sənətkarlarından və ulu xalçaçılıq sənətindən xəbər verir. Azərbaycanda ornamental naxışsalma və nəbati naxışsalma ustası kimi Atabəylər dövlətinin baş memarı olan Əcəmi Naxçıvani hələ XII əsrdə özünün məşhur naxışsalma möhürünü vurmuşdur. Yalnız bundan sonra Əcəminin davamçıları və onun tələbələri istər memarlıqda, istər rəssamlıqda və istərsə də xalçaçılıq sənətinin ilkin çeşnisinin yaranmasında dünyanın müxtəlif yerlərində, o cümlədən da Təbriz xalçaçılıq məktəbinin kamilləşməsində öz izlərini qoymuşlar (7). Naxçıvanlı sənətkarlar ustalıqla xalçalar, parça və tikmələr ərsəyə gətirmiş və insanların bu cür sənətkarlıq

məhsullarına olan tələbatını ödəmişlər. Burada istehsal edilən 20-30 kvadrat-metrədək iri ölçülü, qalın toxunuşa malik xovlu otaqların isidilməsində istifadə edilmişdir.

Aparılan araşdırmalar və toplanmış materiallardan məlum olur ki, Naxçıvanda kilimlər məişətdə çox geniş istifadə olunmuşdur. Naxçıvan kilimləri istər rənginə, istərsə də bədii xüsusiyyətinə görə Qarabağ kilimlərinə çox oxşasa da, bəzi özünəməxsusluqları ilə fərqlənirlər. Xalçalar üzərində müxtəlif rəng kaloritindən və naxış növlərindən istifadə edilmişdir ki, bunların hər birinin, yəni həm rəng çalarlarının, həm də naxışların öxünəməxsus mənaları olmuşdur. Məsələn, Naxçıvan xalçalarında ən çox istifadə olunan rənglərdən biri qırmızı rəngdir.

Məlumdur ki, hələ ən qədim zamanlardan insanların mifoloji dünyagörüşündə qırmızı rəngdə qoruyuculuq xarakterinin olduğuna inanılmışdır. Həmçinin qırmızı rəngə xalq arasında canlı həyat rəmzi kimi də baxılmışdır. Yaşıl rəng isə islam simvolu olmaqla yanaşı, həmçinin təbiətin oyanmasının rəmzi kimi də qədimdən insanların düşüncəsində müqəddəs hesab edilmişdir. Naxçıvan xalçalarında rənglərlə yanaşı simvolik elemetlər də üstünlük təşkil edir. Məsələn, S şəklində olan qarmaqlar suyun rəmzini ifadə edir. Səlcuq türklərində çaxmaq mənasında işlənmişdir. Gecə-gündüzü ifadə edən romb təsvirləri, 1 il, 12 ayı ifadə edən naxışlar və s. Naxçıvan xalçaları üzərində bir sıra heyvan – dəvə, at, quş və s. təsvirlərinə də tez-tez rast gəlmək mümkündü.

Naxçıvan xalçalarında ən geniş yayılmış mürəkkəb element butadır. Naxçıvan xalçalarının özünəməxsus xüsusiyyətlərindən biri də qədim dövrlərdən tutmuş bu günədək odun, alovun bir sözlə müqəddəs ocağın rəmzi sayılan buta rəmzi mahiyyətli rəsmlərin təsviridir. Elmi araşdırmaların nəticəsindən məlum olur ki, buta rəsminə çevrilmiş tovuz quşu uzaq keçmişdə türk tayfaları arasında
günəş və od tanrısı hesab edilmişdir (2, s. 41).

Naxçıvan xalçalarında, eləcə də bədii tikmə və toxumalarında təsvir edilən buta tovuz quşunun rəmzi olmaqla eyni mənaya malik odu, alovu, ocağı təmsil edir. Xovlu xalçaların bəzəyinə çevrilmiş “Buta” elementi öz bədii quruluşuna və texniki üslubuna görə digər məktəblərdən fərqlənib “Naxçıvan butası” adını daşıyır. Buta naxışları xalçaların yelənlərilə yanaşı arasahə naxışlarında da üstünlük təşkil edir. Tədqiqatlardan aydın olur ki, yarandığı yerdən, görkəmindən asılı olaraq butanın çeşidləri çox olmuşdur: şabalıd-buta, qıvrım-buta, çiçəkli-buta, balabuta, bala-buta, baba-buta, lələk–buta, küsülü-buta, qovuşan-buta, qotazlı buta, evli-buta və s. Bu butaların hər biri Naxçıvan xalçalarına əsrarəngiz gözəllik gətirmişdir. Bu cür rəmzli mahiyyətli xalça sənəti nümunələri Naxçıvan Dövlət Tarix Muzeyinin fondunda saxlanılır. Xalçalarda təsvir olunan butalar təkcə od, alov rəmzi olmamış, eyni zamanda bir ailənin, nəslin, qəbilənin səadəti və gələcəyinin rəmzi olmuşdur.

Xalçalar üzərində ağac, yarpaq, gül və çiçək rəsmləri də geniş formada öz əksini tapmışdır. Xalçalar üzərində dini məzmun daşıyan təsbeh, möhür,

ələm, mehrab və s. kimi əşyaların təsviri isə təbii ki, islam mədəniyyəti ilə bağlıdır. Xalçalar üzərində əks olunan hər bir naxış, ahəng və ölçü, axıcılıq, rəng çaları, yığcamlıq, adətənənəyə bağlılıq bir başa qədim türklərin milli-mənəvi dəyərlərindən örnəklərdir. Beləliklə gəldiyimiz nəticə ondan ibarətdir ki, Azərbaycanın qədim xalçaçılıq ənənəsinin formalaşmasında Naxçıvanın da özünəməxsus rolu olmuşdur. Orta əsrlərdə Naxçıvanda xalçaçılıq sənəti daha da inkişaf etmiş, sonrakı dövrlərdə Naxçıvan əhalisinin məişət və iqtisadiyyatında mühüm yer tutmuşdur. Naxçıvan xalçaçılıq məktəbi Azərbaycan xalçaçılığının xüsusi bir qolunu təşkil edir. Naxçıvanda xalçaçılıq bu gün də yaşadılmaqdadır. Azərbaycan xalça sənəti qədim türk mədəniyyətinin tərkib hissəsi kimi ümumdünya mədəniyyətinə daxil olan qiymətli
sənət nümunəsidir. Xalça Azərbaycan xalqının milli dəyərlərindəndir və bu sənəti inkişaf etdirib, gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur. Bu baxımdan da Naxçıvanda xalçaçılıq bu gün də yaşadılmaqdadır.

ƏDƏBİYYAT

1. Diyarbəkirli N. Hun Sanatı. İstanbul: Milli Eğitim Basım evi, 1972, 243 s.
2. Əfəndiyev R. Azərbaycan xalq sənəti. Baki: İşıq, 1984.
3. Həbubullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1959, 133 s.
4. Kalankatuklu M. Albaniya tarixi. Bakı: Elm, 1993, 272 s.
5. Kərimov L. Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr. Bakı: Elm, 1983, 130 s.
6. Qədirzadə H.Q. Cəhriçäy vadisi: m.ö. IV minillikdən günümüzədək (tarixi- etnoqrafik araşdırma). Naxçıvan: Qızıl- dağ, 2007, 160 s.
7. Qədim A. Naxçıvanda xalçaçılığın tarixi. “Azad Azərbaycan” qəzeti, 2007, 10 oktyabr
8. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.
9. Süleymanov N. M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2006, 400 s.
10. http://www.azerbaijan.az/portal/Culture/ Folk/folkArts 01a.html

РЕЗЮМЕ

САРА ГАДЖЫЕВА, МЭХМАН ШАБАНОВ

ИСТОРИЯ РАЗВИТИЯ КОВРОТКАЧЕСТВА В НАХЧЫВАНЕ

Одним из культурных ценностей нашего народа, национального и универсального, является азербайджанский ковер. Наши ковры были адаптированы к нашим бабушкам и дедушкам, отцам, поэзии и привязанностям на их языке и были экстравагантными из поколения в поколение. Ковры, вырезанные нашими бабушками, которые очень тесно

связаны с устной народной литературой, также стали выражением морального духа, а также финансовой необходимости.

Ключевые слова: ковроткачество, искусство, шерсть, ткачество.

SUMMARY

SARA HAJIYEVA, MEHMAN SHABANOV

THE DEVELOPMENT HTSTORY OF THE CARPET-MAKING ART IN NAKHCHIVAN

Azerbaijani carpet is one of the cultural values, carrying national and universal essence of our people. Our rugs had been presented from generation to generation and woven by bayatis, poems and goshmas which had been told and adapt by our grandmothers, grand-fathers. Wovcn rugs by our grandmothers, which had been connected with folklore, had been prepared by material need, also as an expression of the moral spirit.

Key words: Carpet-making, art, wool, woven

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

ARZU ABDULLAYEV
Naxçıvan Dövlət Universiteti
a.ordubadi@yahoo.com

NAXÇIVAN ŞƏHƏRİNİN ELMİ HƏYATI, İCTİMAİ FİKRİN VƏ XALQ MAARİFİNİN VƏZİYYƏTİ (XIX ƏSR)

Rus işğalına qədərki dövrdə xanlıq ərazisində mövcud olan məktəblər, rus işğalından sonra imperiyanın tələblərinə uyğun olaraq dəyişdirilməyə başlamışdır. İmperiya idarəçiliyinin yeni tipli məktəbləri yaratmaqda məqsədi daha çox müstəmləkəçilik maraqlarına xidmət etmiş, xalqın öz tarixi köklərindən qoparılmasına istiqamətlənmişdir. Lakin rus müstəmləkçiliyi hər nə qədər çalışsa da Azərbayca ziyalısını tarixi köklərə bağlılıqdan qopara bilmədi, beləliklə də Şərq müdrikliyi ilə Qərb maarifçilik ənənələrini öz simasında cəmləşdirə bilən yeni tipli Azərbaycan ziyalıları yetişdi. XIX əsrin 60-cı illərinin əvvəllərində Rusiya imperiyasında reallaşdırılan təhsil islahatları Naxçıvandan da yan keçməmişdir. XIX əsrin 70-80-ci illərində Naxçıvan şəhərində 6 azərbaycanlı ibtidai məktəbi olduğu halda, ermənilərin və rusların hər birinin cəmi bir belə məktəbi olmuşdur. XIX əsrin sonları Naxçıvan şəhərinin tarixində həm də ilk qadın məktəbinin yardılması ilə əlamətdar olmuşdur. Beləliklə qeyd edə bilərik ki, XIX əsr Naxçıvan şəhərinin təhsil tarixində dəyişikliklər və yeniliklər mərhələsi olmuşdur

Açar sözlər: müstəmləkə, çarizm, maarifçilik, xanlıq, əsr, islahat, seminariya, qəza, bölgə, mətbuat

XIX əsr Azərbaycanın tarixi taleyində qanlı-qadalı hadisələrlə yanaşı, həm də bir sıra dəyişikliklərlə yaddaqalan olmuşdur. Rus işğalına qədərki dövrdə xanlıq ərazisində mövcud olan məktəblər, rus işğalından sonra imperiyanın tələblərinə uyğun olaraq dəyişdirilməyə başlamışdır. İmperiya idarəçiliyinin yeni tipli məktəbləri yaratmaqda məqsədi daha çox müstəmləkəçilik maraqlarına xidmət etmiş, xalqın öz tarixi köklərindən qoparılmasına istiqamətlənmişdir. Sovet dövründə yazılmış tarixi ədəbiyyatlarda, o cümlədən müasir dövrdə yazılmış bəzi əsərlərdə guya rus işğalına qədərki dövrdə Azərbaycanda təhsilin səviyyəsinin çox aşağı olması ilə bağlı fikirlər irəli sürülür, məktəb və mədrəsələr geriliyin və cəhalətin qalıqları kimi təqdim edilməsinə cəhdlər göstərilir. Halbuki əsrlər boyunca məhz bu məktəb və mədrəsələrdə yetişmiş görkəmli alimlər böyük kəşflərə imza atmış, bu kəşf və ixtiralardan təkcə Şərq dünyası deyil Qərb ölkələri də faydalanmışdır.

Rus müstəmləkəçiliyinin yeni məktəblər yaratmaqda, rusdilli ziyalıları formalaşdırmaqda əsas məqsədləri onlara yad olan Şərq dillərində danışan xalqın ziyalılarını “özününküləşdirmək”dən ibarət idi. Bu siyasətin mahiyyəti

"Naxçıvan tarixi" çoxcildliyində belə açıqlanır: "…Çarizm Azərbaycanda məktəb təsis etməklə xalqın yuxarı təbəqəsini, imtiyazlı sinifləri öz tərəfinə çəkməyə, onları qulluğa cəlb etməyə, bu yol ilə milli adət-ənənələrdən yayındırmağa cəhd edirdi" (14, s. 175). Məlum idi ki, milli və mənəvi hisslərdən qoparılmış şəxsiyyət hər nə qədər bilgi və savad sahibi olsa da onun milli hisslərdən məhrum olması gerçək ziyalıya çevrilməsinə imkan verə bilməz. Çar Rusiyasının bu məqsədi hətta o dövrə aid bəzi arxiv sənədlərində də əks olunmuşdur. Məsələn Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə yazılırdı: "Şübhə yoxdur ki, yuxarıda göstərilən tədbir müsəlman bəylərinin uşaqlarını məktəbə göndərməyə vadar edəcək, müsəlman uşaqları rus, gürcü və digər xristian uşaqları ilə birlikdə 3-4 il bir yerdə olmaqla rus dilini öyrənəcək və beləliklə də öz dini fanatizmini itirəcək və necə deyərlər ruslaşacaq: hökumətin bu ölkəyə münasibətində başlıca mənafe də bundan ibarətdir" (23). Lakin rus müstəmləkçiliyi hər nə qədər çalışsa da Azərbayca ziyalısını tarixi köklərə bağlılıqdan qopara bilmədi, beləliklə də Şərq müdrikliyi ilə Qərb maarifçilik ənənələrini öz simasında cəmləşdirə bilən yeni tipli Azərbaycan ziyalıları yetişdi. Bu prosesin başlaması və inkişafı isə məhz bizim araşdırdığımız xronoloji çərçivədə baş verdi.

Qeyd etdiyimiz kimi, Xanlıq dövründə Naxçıvanda əsas təhsil və maarif müəssisələri məhəllə məscidlərinin nəzdində fəaliyyət göstərən ibtidai məktəblər və mədrəsələr hesab olunurdu. Şəhərdəki mədrəsələrdən biri Zaviyə Mədrəsə Kompleksində fəaliyyət göstərmişdir. Qeyd edək ki, tarixi XVII-XVIII əsrlər aid edilən Zaviyə binası yarandığı dövrdə əsasən sufi təriqət tərəfdarlarının toplaşdığı məkan olmuşdur. H.Səfərli yazır ki, orta əsrlərdə Hürufi təriqətçilərinin toplandığı zikr yerləri xanəgah, bəktaşi və nəqşibəndilərin toplaşdığı yerlər isə zaviyə adlandırılırdı (17, s.66). Ehtimal ki, yarandığı dövrdən etibarən bu Zaviyə mədrəsəsi Naxçıvanda köklü sufi cərəyanlarından hesab edilən Bektaşi cərəyanı mənsublarına aid olmuşdur. Doğrudu orta əsrlərdə Naxçıvanda nəqşibəndi cərəyanının təsiri bölgədə böyük olsa da, Səfəvilərin güclənməsi ilə nəqşibəndiliyin rolu nisbətən azalmış, bəktaşi təriqəti isə XX əsrin əvvəllərinə qədər belə bölgədə ciddi nüfuza malik olmuşdur.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ilk növbədə rus dilində təhsil verən məktəblərin açılması zərurəti irəliyə sürüldü. Yuxarıda da vurğuladığımız kimi, bu daha çox çarizmin özünə sadiq yerli məmur sinfini formalaşdırmaq istəyindən irəli gəlirdi. 1827-ci ildə Tiflisin hərbi qubernatoru Sipyagin Cənubi Qafqazın bir sıra şəhərləri ilə yanaşı Nuxa (Şəki), Qazax, Şamaxı, Şuşa, Bakı və Qubada qəza məktəbləri açmaq fikrini irəli sürmüşdü ki, az sonra bu siyahıya Naxçıvan və Ordubad da əlavə olundu (14, s. 173). 1829-cu il avqustun 2-də təsdiq edilmiş Cənubi Qafqaz məktəblərinin birinci Nizamnaməsində Naxçıvan və Ordubad şəhərlərində də yeni tipli qəza məktəblərinin açılması göstərilsə də, bu məktəblərin yaradılması üçün bir sıra problemlər ortaya çıxmışdı. Naxçıvan şəhərində məktəb yaradılması ehtiyacı Cənubi Qafqaz Məktəbləri direktorunun təhlillərində qeyd olunsa da,

məktəblərin açılmasının ləngidilmə səbəbi kimi yerli sakinlərdən müəllimlik vəzifəsinə qabiliyyətli olan adamın olmaması göstərilirdi. Tədqiqatçı H.Əhmədov “XIX əsr Azərbaycan məktəbi” adlı tədqiqat əsərində direktorun fikirlərini aşağıdaki kimi təqdim etmişdir: “Naxçıvan əhalisi çox olan şəhərdir və əlbəttə, burada məktəbə ehtiyac vardır. Lakin yerli sakinlərdən müəllimlik vəzifəsinə qabiliyyətli olan adamın olmaması burada məktəb açılmasını ləngitdi” (3, s.11).

Bu yerdə məsələnin mahiyyətinin dərindən təhlilinə ehtiyac var. Yuxarıda da qeyd etdiyimiz kimi, xanlıq dövründə, eləcə də ondan əvvəlki dövrlərdə bölgədə fəaliyyət göstərən məktəb və mədrəsələr maarif işini yüksək səviyyədə həyata keçirmiş, müxtəlif naxçıvanlı alim və tədqiqatçılar ilk təhsillərini doğma vətəndə aldıqdan sonra Şərqin müxtəlif ölkələrinə gedərək yüksək səviyyəli təhsil görmüş və müxtəlif elmlərin əsaslarına yiyələnmişdilər. Lakin Çar Rusiyasının işğalı ilə həm də dini təhsil görmüş belə ruhani ziyalıların əksəriyyəti doğma yurdu tərk edərək Osmanlı və Qacarlar dövlətləri başda olmaqla Şərqin müxtəlif müsəlman məmləkətlərinə üz tutmuş, burda fəaliyyətlərini davam etdirmişlər. Yəqin ki, elə buna görə Naxçıvanda açılması nəzərdə tutulan yeni tipli məktəblərdə tədris planına daxil edilən şəriət, qiraət, hüsnxət, hesab, rus dili və ana dilindən dərs deyə biləcək ixtisaslı müəllim kadrlarının olmaması problemi üzə çıxmışdı (11, s.28).

Lakin yerli əhali və Naxçıvan xanlarının varisləri olan Ehsan xan kimi yüksək təbəqə yaxşı başa düşürdü ki, tarixi siyasi proseslərin çar Rusiyasının xeyrinə inkişaf etdiyi şəraitdə yerli şəraitə nəbələd yadelli məmurların zülmündən qurtarmaq, idarəçilik prosesinə daxil olmaq, eləcə də Rusiya vasitəsi ilə Avropanın və yeni dünyanın mədəni nailiyyətləri ilə tanış olmaq üçün rus dilinin öyrənilməsi mühüm şərtdir. Yerli əhalinin rus dilinə meyilli olması məsələsini imperiya maraqlarına uyğun olaraq daha da qabardan V.Qriqoryev əhalinin rusdilli məktəblərin açılmasına münasibətini öz əsərində belə əks etdirmişdi: “Yerli əhalidə rus dilini öyrənməyə böyük həvəs vardır. Bir çox vəzifəli şəxslər artıq rus dilini öyrənməyə başlamışlar və böyük müvəffəqiyyətlər əldə etmişlər. Ümumiyyətlə, bütün əhali onların uşaqlarına həm rus dili, həm də ictimai həyatda zəruri olan ibtidai bilik öyrətmək üçün şəhərdə rus məktəbi təsis etməyi ürəkdən arzu edir, hətta yerli başçılardan xahiş edirlər. Naxçıvan əyalətini idarə edən Ehsan xanın dediyinə görə, belə məktəbə şəhərdən və yaxın kəndlərdən 200-ə qədər şagird yığılar” (10, s.7).

Nəhayət ki, 1837-ci ilin mart ayının 15-də Cənubi Qafqaz məktəblərinin ikinci Nizamnaməsinə uyğun olaraq Naxçıvanda ilk qəza məktəbi fəaliyyətə başladı (3, s.12). Qeyd edək ki, “Azərbaycan tarixi” çoxcildliyinin IV cildində yanlış olaraq məktəbin 1938-ci ildə fəaliyyətə başladığı göstərilmişdir (1, s. 139). F.Cəfərov və R.Quliyev isə bəzi arxiv sənədlərinə istinad edərək Naxçıvanda ilk qəza məktəbinin 1837-ci il martın 25-də açıldığını yazmışlar (2, s.3) Naxçıvan şəhərindəki bu ilk qəza məktəbi Naxçıvanın hakimi general-mayor Ehsan xanın oğlanları İsmayıl və Kalbalı xanın xüsusi evində fəaliyyətə başlamışdı (15, s. 3). Məktəb ilk fəaliyyətə başladığı dövrlərdə burada 20-ə

yaxın şagird təhsilə cəlb edilmişdi. İşğal dövründə belə Kəngərli tayfasından olan Naxçıvan xanlarının varislərinin qəza məktəbi üçün öz şəxsi mülklərinin qapılarını açmaları, hətta bu məktəbə ildə gümüş pulla 200 manat ianə ayırmaları, məktəbi xüsusi himayələrinə götürmələri Naxçıvan xanlarının maarifin inkişafına münasibətini əks etdirir və ola bilməzdi ki, işğal dövründə təhsilə bu dərəcədə diqqət yetirdikləri halda, işğaldan əvvəl – müstəqil Naxçıvan xanlığının mövcud olduğu dönəmlərdə maarif işini diqqətdən kənarda qoysunlar.

Naxçıvan şəhərində yaradılmış ilk qəza məktəbi üçsinifli idi. Yarandığı ilk dövrlərdə öz tədris rəhbərliyi olmadığından bu məktəb də digər qəza məktəbləri kimi tədris işləri ilə əlaqədar Tiflis gimnaziyasının direktoru vasitəsilə xalq maarif nazirliyi ilə ünsiyyətdə olan Gürcüstan baş hakiminə tabe olmuşdur. 1840-cı ildən etibarən Naxçıvan şəhər qəza məktəbi Cənubi Qafqaz məktəbləri Baş müfəttişinin, 1849-cu ildən isə Qafqaz təhsil dairəsinin sərəncamına keçmişdir. Məktəbin birinci sinfi hazırlıq sinfi olaraq nəzərdə tutulmuşdu. İki yuxarı siniflərdə aşağıdakı fənlərin tədrisi təsdiq edilmişdir: şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsədən başlanğıc kurs, hüsnxət, rəsm və rəsmxət, ana dili. Tədris fənləri rus dilində keçirilirdi. Ana dili ikinci və üçüncü siniflərdə tədris edilirdi. Azərbaycan dili rus mənşəli şagirdlər üçün də məcburi fənn idi (16, s. 133).

XIX əsrin 30-cu illərində yaradılan məktəblərin ilk dövrlərdə xalqın rəğbətini qazanması üçün sırf yenilikçi və maarifçi mövqedən çıxış etməsi, yerli müsəlman türk əhalisinin maarif ənənələrinə hörmətlə yanaşdığını nümayiş etdirməsi heç də təsadüfi deyildi. Lakin XIX əsrin 50-ci illərində Çar Rusiyasının Qafqazdakı təhsil siyasətində etdiyi redaktələr çarizmin müstəmləkəçilik siyasətini tam çılpaqlığı ilə üzə çıxarırdı. XIX əsrin ortalarında Azərbaycanda yeni tipli məktəblər meydana gəldi ki, bunlar da ilk dəfə Qafqaz məktəblərinin 1853-cü il Nizamnaməsi ilə təsis edildi (14, s. 175).

XIX əsrin 60-cı illərinin əvvəllərində Rusiya imperiyasında reallaşdırılan təhsil islahatları Naxçıvandan da yan keçməmişdir. Qeyd edək ki, 1864-cü il iyulun 14-də "İbtidai xalq məktəbləri haqqında əsasnamə", həmin il noyabrın 19-da isə "Gimnaziya və progimnaziyaların nizamnaməsi" təsdiq edilmişdir (14, s. 176). XIX əsrin 30-60-cı illəri ərzində müxtəlif təhsil ocaqlarını bitirmiş müəllim və ziyalılar Naxçıvanda da təhsil prosesinin müxtəlif mərhələlərinə cəlb olunmağa başladılar. Bu ziyalılar içərisində azərbaycanlılarla yanaşı Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunun, Kutaisi və İrəvan gimnaziyalarının məzunları olan qeyri-azərbaycanlı maarifçi şəxslər də var idi.

Akademik İsa Həbibbəyli bu barədə yazır: "Qısa vaxtda Naxçıvan və Ordubad məktəblərində müxtəlif təhsil ocaqlarını bitirmiş qabaqcıl müəllimlər pedaqoji fəaliyyətə qədəm qoymuşdular. Şagirdlərin sayı artmış, məktəb kitabxanaları yaradılmış, rəsm, gimnastika, kənd təsərrüfatı və sənət dərslərinin, hətta latın dili məşğələlərinin keçirilməsinə başlanılmışdı" (6, s.32).

Bu dövrdə Naxçıvan şəhərindəki qəza məktəbində İ.Kuzanov, K.Çərkəzov, G.Balçevski, İ.Boqolyubov, C.Bodridze və başqa qeyri-azərbaycanlı ziyalılar uzun müddət rus dili, tarix, həndəsə, hesab, hüsnxət, şəriət, rəsmxət fənlərini tədris etmişdilər (11, s.30).

1868-ci ildə Naxçıvanda təhsilin struktur islahatları çərçivəsində daha bir addım atıldı. Belə ki, mövcud qəza məktəbləri ilə yanaşı Naxçıvan qəza məktəbi də üç əsas sinifli məktəbə çevrildi. Həmin ildə məktəbin tədris planına latın dili və avropa dilləri (alman, fransız) daxil edildi. Təhsil müddəti hər sinifdə 2 il olmaqla 6 il davam edirdi. Məktəbə 7-14 yaşlı uşaqlar qəbul olunurdu (22, v.1-9). Bu cür məktəblərdə şəriət, ana dilindən oxu və yazı, rus dili, hesab, rəsmxət, nəğmə, gimnastika, coğrafiya, tarix və təbiətşünaslıq kimi fənnlər tədris edilirdi (14, s. 176).

Rusiya Xalq Maarif Nazirliyi 1874-cü il may ayının 24-də “İbtidai xalq məktəbləri haqqında” nizamnaməni təsdiq etdi. Bu nizamnaməyə əsasən şəhər və kəndlərdə ibtidai təhsilin genişlənməsi nəzərdə tutulurdu. Nizamnamənin təsdiqindən sonra 1879-cu il mart ayıın 10-da Qafqaz Təhsil Dairəsinin xüsusi sərəncamı oldu (21, s.56). Elə həmin il iyul ayının 1-də üçsinifli Naxçıvan qəza məktəbi Naxçıvan şəhər məktəbinə çevrildi (21, s.74). Rusiya maarif mühitində kifayət qədər tanınmış pedaqoqlardan olan alim Konstantin Andreyeviç Nikitin (1832-1894) Naxçıvan şəhər məktəbinin direktoru təyin edildi (14, s. 177). XIX əsrin 80-ci illərindən başlayaraq şəhər məktəblərinin Nizamnaməsinə görə maliyyə vəsaitindən və tələbatlarından asılı olaraq məktəbdə oxuyan şagirdlərə müəyyən peşə öyrədilməsinə icazə verildi. Məhz bu qərardan sonra Naxçıvan şəhər məktəbinin nəzdində dülgərlik, xarratlıq, dəmirçilik, çilingərlik və kənd təsərrüfatı şöbələri təşkil edilmişdir ki, bu şöbələrdə də 40 nəfərə yaxın şagird təhsil alırdı. Bu dövrdə Naxçıvan şəhər məktəbi İrəvan quberniyasında fəaliyyət göstərən 5 şəhər məktəbi içərisində sənət şöbəsi olan yeganə məktəb idi (2, s.2). XIX əsrin 80-ci illərində Naxçıvan şəhər məktəbində təhsil almış bir çox şəhər sakinləri barədə kameral siyahılarda da məlumat verilmişdir. Diqqət çəkən məqam ondan ibarətdir ki, müsəlmanlardan əsasən yüksək təbəqəyə aid olan əhali təhsilə cəlb ediıdiyi halda, köçürülən ermənilər çar hökuməti tərəfindən demək olar ki, təbəqə fərqi diqqətə alınmadan məktəbə qəbul etdirilir və rusların işinə daha çox yarayan ermənilərin sonradan dövlət idarəsinə qəbulu üçün yol açılmış olurdu. Şəhər məktəbində təhsil ala bilməyən ermənilər isə xüsusi imtiyazla xrisitan təbəə üçün yaradılmış Naxçıvan ruhani məktəbində təhsilə cəlb edilirdilər. Bir sıra rus müəllifləri, o cümlədən S.Zelinski Rusiyanın müstəmləkəçilik siyasətinə uyğun olaraq ermənilərə daha çox təhsil verməyə çalışmaqla yanaşı, onların guya daha çox təhsilə meyilli olduqlarını əsaslandırmağa, müsəlmanların-azərbaycanlıların isə guya təhsilə meyilli olmadıqlarını göstərməyə çalışmış, molla məktəbləri və mədrəsələrin mahiyyətini düzgün anlamayaraq hər fürsətdə bu məktəbləri gözdən salmağa çalışmışlar (25, s. 249-251). Təəssüf ki, sovet dövründə və son dövrlərdə yazılan bəzi əsərlərdə də bu fikir daha çox qabardılmağa çalışılmışdır. Lakin azərbaycanlılarla ermənilərin təhsilə münasibəti haqqında belə yanlış yanaşma

irəli sürən S.Zelinskinin özünün irəli sürdüyü statistik rəqəmlər də sübut edir ki, bu fikir yanlışdır. S.Zelinski şəhər məktəbləri ilə bağlı təqdim etdiyi statistikada göstərir ki, XIX əsrin 70-80-ci illərində Naxçıvan şəhərində 6 azərbaycanlı ibtidai məktəbi olduğu halda, ermənilərin və rusların hər birinin cəmi bir belə məktəbi olmuşdur (25, s. 252).

1893-cü ildə Naxçıvan şəhərinin təhsil tarixində əlamətdar bir hadisə baş vermişdir. Belə ki, həmin il noyabr ayının 22-24-də "İrəvan quberniyası xalq məktəblərinin sahə qurultayı" Naxçıvan şəhərində keçirilmişdir. Qurultayda "Məktəblərdə müəllimlər heç bir əlavə vəsait sərf etmədən hansı kənd təsərrüfatı məşğələlərini təşkil edə bilərlər?" mövzusunda müzakirələr aparılmışdır. Burada həmçinin Naxçıvan şəhər məktəbində müxtəlif fənnlər üzrə keçirilmiş açıq dərslər də müzakirə olunmuşdur (13, s.159-160). Qurultayda Naxçıvan şəhər məktəbinin müəllimi Nəsrulla Əmirov da çıxış etmişdir. Qurultay məktəblərdə ipəkçiliyin təşkili və inkişaf etdirilməsi ilə bağlı qərar qəbul etmişdir.

Əvvəldə də qeyd etdiyimiz kimi çar Rusiyasının Qafqazda, o cümlədən Naxçıvanda təhsil siyasəti hər nə qədər insanları öz tarixi köklərindən, milli mənəvi dəyərlərindən ayırmağı qarşısına məqsəd qoysa da Azərbaycan ziyalıları öz simalarında buna imkan verməmiş, təhsilin verdiyi imkanlardan maksimum yararlanmağa çalışmışlar.

Artıq əsrin sonlarına doğru Azərbaycan ziyalılarının özləri yeni məktəb və maarif modelləri təklif etmək və onları reallaşdırmaqla adlarını maarif tariximizə qızıl hərflərlə yazdırmış oldular. Belə şəxsiyyətlərdən biri olan Məhəmməd Tağı Sidqinin 1894-cü ildə Naxçıvan şəhərində açdığı "Məktəbi-tərbiyyə" adlı tədris ocağı da məhz milli ziyalılarımızın düşündüyü və reallaşdırdığı təhsil layihəsi idi. Qeyd edək ki, Məhəmməd Tağı Sidqi bu tipli məktəbin ilk nümunəsini – "Əxtər"i 1892-ci ildə Ordubad şəhərində təsis etmiş (3, s.285), sonradan isə naxçıvanlı ziyalıların xahişi ilə Naxçıvan şəhərində də məktəb yaratmışdır (14, s. 179). Görkəmli ədib Cəlil Məmmədquluzadə M.T.Sidqinin yaratdığı bu məktəbi yazılarında "təzə türk məktəbi" adlandırmış, məktəbin "türk balalarının təzə üsulla savad və bilik əxz etmələrinə səbəb" olduğunu qeyd etmişdir (14, s.179). O dövrdə nəşr olunan Qafqaz qəzeti isə məktəbdə "mədəni xalqların ibtidai məktəblərinə xas olan bütün adi fənlər"in keçirildiyini yazmış və məktəbin yerli müsəlman ictimaiyyətinin xərci ilə idarə olunduğundan bəhs etmişdir (14, s.179). Q.Mədətov yazırdı ki, bu məktəblərdə səs üsulu ilə hazırlanmış əlifbalar, partalar, qlobuslar, sinif yazı taxtaları var idi. M.T.Sidqi məktəb proqramına rus, fars, ərəb dillərinin, tarix, coğrafiya və başqa fənnlərin tədrisini əlavə edərək, öz şagirdlərini qabaqcıl rus ədəbiyyatı ilə tanış edirdi (9, s.13). Bu məktəbin özündən əvvəlki məktəblərdən fərqini təhlil edən akademik İsa Həbibbəyli göstərir ki, o vaxta qədər mövcud olan qəza, şəhər, zemstvo və normal məktəblər ana dilinin ancaq bir fənn kimi tədris olunduğu rus məktəbləri idi. XIX əsrin 80-ci illərinin sonlarında meydana çıxmış rus məktəbləri isə anadilli fənlərin bir qədər də genişləndirdiyi rus məktəbləri idi.

“Məktəbi-tərbiyə” isə rus dilinin xarici dil kimi tədris olunduğu milli Azərbaycan məktəbi idi (18, s.6). Bu məktəbin binası əvvəllər şəhərin Buzxana məhəlləsindəki binalardan biri olmuş, sonralar isə Came məscidinin həyətində yığılmış ianə hesabına 4 otaqlı məktəb inşa edilmiş və məktəb burada fəaliyyətini davam etdirmişdir (18, s.269). Mənbələrdən aydın olur ki, məktəbin yeni binası 14 may 1896-cı ildə istifadəyə verilmişdir (18, s.269).

XIX əsrin sonları Naxçıvan şəhərinin tarixində həm də ilk qadın məktəbinin yardılması ilə əlamətdar olmuşdur. Naxçıvanda azərbaycanlı xanımlar üçün ilk dünyəvi qadın məktəbi də Məhəmməd Tağı Sidqi tərəfindən 1896-cı ildə təsis olunmuşdur (1, s. 351).M.T.Sidqinin təhsil tariximizdəki bu fövqəladə xidmətləri unudulmamış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 11 mart 2004-cü il tarixində “Görkəmli pedaqoq, maarifçi və şair M.T.Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında” Sərəncam imzalamış, Sidqinin irsi akademik İsa Həbibbəyli tərəfindən toplanaraq nəfis şəkildə nəşr edilmişdir (18, s.278).

Beləliklə qeyd edə bilərik ki, XIX əsr Naxçıvan şəhərinin təhsil tarixində dəyişikliklər və yeniliklər mərhələsi olmuşdur. Əsrin əvvəllərində Naxçıvanda əsasən Şərq tipli məktəb və mədrəsələrə əsaslanan təhsil sistemi olmuşdusa, əsrin ortalarından etibarən yaradılan məktəblər Şərq ənənələri ilə yanaşı Qərbi Avropa və Rusiyanın maarif nailiyyətlərindən də müəyyən müsbət çalarlar əxz etmişdir.

Rusiya işğalından sonrakı dövrdə isə daha çox dünyəvi və tətbiqi elmlər inkişaf etməyə başladı. Humanitar və sosial elmlər sahəsində mövcud olan romantizm və təzkirəçilik ənənələri realist ənənələrlə əvəzlənməyə başladı. Elmi əsərlərin dili də ərəb-farscadan ruscaya doğru dəyişməyə başlamışdı. Bu mənada XIX əsrin 30-70-ci illəri arasındakı dönəmi ümumilikdə Azərbaycan elmi üçün keçid dövrü hesab etmək mümkündür. XIX əsrin yetmiş-səksəninci illərindən etibarən Avropada, Rusiyada, Qafqazın siyasi və mədəni mərkəzi sayılan Tiflisdə təhsil alıb qayıtmış ziyalıların ölkə ictimai-maarifçi mühitində özünəməxsus yer tutması ilə elmi mühitdə də yeni istiqamətlər və dəyərlər oturuşmuş oldu.

Artıq XIX əsrin 70-ci illərindən etibarən Avropada təhsil almış Məhəmməd ağa Şahtaxtılı, Moskva Universitetini bitirmiş Fərəculla Şeyxov, Nəsrulla Şeyxov, Cəlil Səfiyev, Qori Müəllimlər Seminariyasının məzunları Cəlil Məmmədquluzadə, Mirzə Əliməmməd Xəlilov, Mirzə Ələkbər Süleymanov, Əbülqasım Sultanov, Novorossiysk İmperator Universitetinin məzunu Paşa ağa Sultanov, Xarkov Universitetindən məzun olmuş Ələkbər Məmmədxanov və başqalarının fəaliyyəti Naxçıvanda yeni maarifçi elmi dünyagörüşün formalaşmasında mühüm rol oynamışdır (14, s. 180).

Bəhs olunan dövrdə Naxçıvanda elmi fikrin inkişafından bəhs edərkən xatırlamalı olduğumuz əsas şəxsiyyətlərdən biri Məhəmməd ağa Şahtaxtılıdır (1846-1931). Dövrünün görkəmli aydınlarından biri olan M.Şahtaxtılı həm Şərq, həm də Qərb elmi mühitinin nailiyyətlərini mənimsəmiş, bu isə onun

hərtərəfli elm xadimi kimi yetişməsində əhəmiyyətli rol oynamışdır. O, rus, alman, fransız, ərəb, fars, yunan dilləri ilə yanaşı qədim pəhləvi, zənd və latın dillərinə də bələd olmuşdur (4, s. 7, 24, s.8). Hələ Naxçıvan şəhərində mədrəsə təhsili aldığı illərdə Şərqin elm və ədəbiyyat dilləri sayılan ərəb və fars dillərini mükəmməl şəkildə mənimsəmiş, ibtidai məktəbi bitirdikdən sonra Tiflis klassik gimnaziyasının məzunu olmuşdur. Avropanın o dövr üçün ən məhşur elmi mərkəzləri sayılan Almaniyanın Leypsiq Universitetinin tarix, fəlsəfə və hüquq fakültəsində, sonra isə Fransanın məşhur Sorbon Universitetindəki Ali Təcrübi Məktəbdə Qərb dünyasının elmi nailiyyətləri ilə tanış olmuşdur. Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamışdır. XIX əsrin 70-ci illərində dərc etdirdiyi ilk məqalələrində liberal xalqçılığın təsirləri duyulmaqdadır (13, s. 297).

Görkəmli maarifçinin 1879-cu ildə Tiflisdə "Tomson" mətbəəsində çap etdirdiyi "Təkmilləşdirilmiş Azərbaycan əlifbası" layihəsi də tarixşünaslığımızda "elmi sistemə malik olan əhəmiyyətli hadisə" kimi qiymətləndirilməkdədir (14, s. 182).

Ümumdünya Coğrafiya Cəmiyyətinin Paris konfransının iştirakçısı, Beynəlxalq Fonetika Cəmiyyətinin və Asiya Cəmiyyətinin üzvü kimi böyük yol keçmiş Məhəmməd ağa Şahtaxtılının Fransa, Rusiya və Qafqaz mətbuatındakı məqalələrində elmi baxış qabarıq şəkildə ifadə olunmuşdur (14, s. 181). Onun Tiflisdə rus dilində çıxan "Qafqaz" qəzetində 1882-ci ildə çap olunmuş "Müsəlmanlarda məktəb həyatı" adlı məqalələr silsiləsini Şərq təhsil sistemi, dil və əlifba islahatları, tarix, ədəbiyyat və maarifinin əsaslarını elmi şəkildə açan sanballı tədqiqat əsəri hesab etmək olar. M. Şahtaxtılının "Konstantinopoldan məktublar" silsilə məqalələri isə ciddi politoloji təhlilləri ilə seçilir. Dövrün siyasi proseslərinə elmi politoloji yanaşmanı ortaya qoyan bu yazılar siyasət nəzəriyyəçiləri üçün qiymətli mənbə hesab edilə bilər.

Bütün bunlarla yanaşı şəksiz ki, M.Şahtaxtılının müəllifi olduğu əsərlər içərisində "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsi ən ümdə yerlərdən birini tutur. Əsər mahiyyətcə həm etnogenoloji, həm tarixi, həm də politoloji əhəmiyyətə malikdir. Məqalənin başlığı kimi seçilmiş sualın cavabını elmi şəkildə açıqlamağa çalışan müəllifin gəldiyi qənaət belədir: "Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onun dilini isə Azərbaycan dili adlandırmaq çox yerinə düşərdi. Böyük bir hissəsi İrandan Rusiyanın payına düşmüş Azərbaycan mahalı – indiki Zaqafqaziyadır, əhalisi də türk xalqıdır.

Onları həm Şərq yazıçıları, eləcə də Avropa coğrafiyaçıları və etnoqrafları başqa adla yox, ancaq Azərbaycan türkləri adlandırırlar. Gündəlik həyatımızda xalqın
adını və onun dilinin adını iki sözlə ifadə etmək rahat deyil. Məsələn, azərbaycanlı türk dili… Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı" (19).

O, əlifba islahatları sahəsindəki fəaliyyətini 1902-1903-cü illərdə də davam etdirmişdir. Akademik İsa Həbibbəyli yazır ki, M.Şahtaxtılı Azərbaycan, rus və fransız dillərində 5 kitab çap etdirmişdir (7, s. 149).

Məmməd Tağı Sidqi XIX əsr təhsil sahəsində olduğu kimi, elmi pedaqoji fikir tariximizdə də özünəməxsus iz qoymuşdur. Bədii əsərlərindən birində “Dinü-dünyanı elm edər abad” deyən M.T.Sidqi bir sıra elmi əsərlərin də müəllifi olmuşdur.

Onun müəllifi olduğu “Nümuneyi-əxlaq” əsəri o dövrün ən mükəmməl pedaqogika dərsliklərindən biri hesab edilə bilər. Əsərdə müxtəlif pedaqoji istilahların elmi mahiyyəti açıqlanmışdır (18, s. 65-66). Müəllifin “Heykəli-insanə bir nəzər” əsəri isə tarixşünaslığımızda həm pedaqoji, həm də fəlsəfi əsər kimi qiymətləndirilir (14, s.183). İ.Həbibbəyli yazır ki, bu ədəbi-fəlsəfi traktatda müəllifin həyat və cəmiyyət, ictimai-mədəni tərəqqi haqqındakı fikir və düşüncələri əks etdirilmişdir. Sidqinin insanın formalaşması və bəşər cəmiyyətinin keçdiyi inkişaf mərhələləri haqqındakı elmi mülahizələri öz dövrü üçün yeni və cəlbedici olmuşdur (18, s. 14).

Sidqinin rus şairi Aleksandr Sergeyeviç Puşkinin yaradıcılığına həsr olunmuş və 1912-ci ildə Bakıda “Kaspi” mətbəəsində kitab halında nəşr olunmuş məruzəsi isə ciddi bir ədəbiyyatşünaslıq əsəri hesab edilə bilər. Bu əsərlə tanış olduqdan sonra belə bir qənaətə gəlmək mümkündür ki, Məhəmməd Tağı Sidqi nəinki A.S.Puşkinin eləcə də Firdovsi, Hafiz, N.Karamzin, İ.Krılov, A.Qriboyedov, M.Lermontov, V.Şekspir, Volter kimi dünya nəhənglərinin ədəbi və fəlsəfi yaradıcılığı ilə tanış olmuşdur (18, s.130).

Sidqinin “Töhfeyi-benat, yainki qızlara hədiyyə”, “Nəsihətnamə” əsərlərini də ciddi pedoqoji və didaktik əsərlər kimi qiymətləndirmək mümkündür.

Onun “Müxtəsər coğrafiya risaləsi” adlı əsəri isə coğrafiya sahəsində XIX əsr Azərbaycanında qələmə alınmış ciddi elmi əhəmiyyətə malik dərsliklərdən biridir. Əsərin yazılması zamanı müəllif Osmanlı və Rus qaynaqlarından da geniş şəkildə istifadə etmişdir (18, s. 277). Əsərdə yerin ölçüləri, Yerin təbii peyki olan Ayın Yer planeti ətrafında hərəkəti, kartoqrafik təsvirlər, coğrafi cəhətlər və bunların xəritə üzərində əks etdirilməsi ilə bağlı mühüm məlumatlar verilmişdir (18, s. 140-142). M.T.Sidqi o dövrdə insanlara məlum olan 5 qitə haqqında (Avropa, Asiya, Afrika, Amerika, Avstraliya və ya Okyanusiya) məlumat vermiş, okenalardan bəhs etmişdir. M.T.Sidqinin bu coğrafi əsərində 4 deyil, 5 dünya okeanından bəhs edilmişdir. 5 böyük dünya okeanını M.T.Sidqi bu cür təqdim edir: 1) Bəhri-mühiti-Atlasi (Atlantik Okeanı), 2) Bəhri-mühiti-Kəbiri (Böyük okean və ya Sakit okean), 3) Bəhri-mühiti-Hindi (Hind okeanı), 4) Bəhri-mühiti'Müncəm idi-şimali (Şimal Buzlu okean), 5) Bəhri-mühiti-Müncəmidi-cənubi (Cənub Okeanı) (18, s. 143). Bu əsərdə müəllif həm də ayrı-ayrı qitələrin siyasi coğrafiyasından bəhs etmiş, mövcud olan ölkələr, onların iri yaşayış məntəqələri haqqında məlumat vermişdir. Coğrafi əsərdə dünyanın çayları, körfəzləri, gölləri, adaları haqqında maraqlı məlumatlar verilmişdir.

XIX əsrdə Naxçıvan şəhərində dilcilik və lüğətçilik sahəsində xüsusi xidmətlərdən biri olan elm adamlarından biri Cümşüd Paşa İsmayıl oğlu Sultanov-Kəngərli olmuşdur. O orta təhsilini Naxçıvanda almış, ərəb, fars və rus dillərini mükəmməl şəkildə öyrənmişdir. Sonralar Paris Universitetinin hüquqşünaslıq fakültəsini bitirmiş, bir müddət hüquqşünas işləmiş, Parisdə olarkən Fransız dili ilə yanaşı Alman dilini də öyrənmişdir. Vətənə qayıtdıqdan sonra uzun müddər Naxçıvan şəhərində hüquqşünas kimi fəaliyyət göstərmişdir. Lakin cəhalət və mövhümada qarşı mübarizə, xalqın maariflənməsi uğrunda fəaliyyət onun düşmənlərini artırmış, nəticədə dövlət qulluğundan uzaqlaşaraq, bildiyi dillər əsasında lüğət tərtib etmişdir (12, s.290). Cümşüd Paşa Sultanovun bu lüğətini professor Abbas Zamanov Tiflis Kitabxanalarından birindən təsadüfən əldə etmiş və elm aləminə təqdim etmişdir.

Bu dövrdə Naxçıvanda elmi mühitin inkişafında və elmi əsərlərin meydana çıxmasında Naxçıvan şəhər məktəbinin xüsusi rolu olmuşdur. Bu məktəbdə müəllimlik fəaliyyəti göstərən Qori Seminariyasının məzunu Əliməmməd Xəlilovun və məktəbin nəzarətçisi Konstantin Nikitinin 1881-1882-ci illərdə yazdıqları "Naxçıvan şəhərinin metroloji müşahidə gündəliyi" (8, s.4-7) əsəri coğrafiya, iqlimşünaslıq və diyarşünaslıq-Naxçıvanşünaslıq sahəsində maraqlı əsərlərdən biri hesab edilə bilər. Əsərdə müəlliflərin müxtəlif metodlardan, xüsusilə müqayisəli təhlil metodundan geniş şəkildə istifadə etmələri əsərin elmi əhəmiyyətini daha da artıran məqamlardandır. Yerli təbiət hadisələrinin elmi şəkildə öyrənilməsində Bulqan hərbi hissəsinin həkimi N.A.Fyodrovun apardığı elmi tədqiqatlar bu istiqamətdə atılmış ilk addımlardan biri hesab edilə bilər (5, s. 122).

XIX əsrdə Naxçıvanda folklor nümunələrinin toplanılması, onların elmi tədqiqata cəlb olunması istiqamətində də bir sıra işlər görülmüşdür. Eynəli bəy Sultanovun "Azərbaycan atalar sözləri" adlı əsəri bu sahədə qiymətli əsərlərdən biri hesab edilə bilər. Bundan başqa öz dövrünün görkəmli şəxsiyyəti olmuş E.Sultanovun "Azərbaycanlılar nə oxuyurlar", "Qleb Uspenski Qafqazda", "Şahtaxtinski və Şərq fonetik əlifbası" əsərləri də ciddi elmi əhəmiyyətə malik əsərlərdir.

XIX əsrin sonlarında Naxçıvanda seçilən maarif və elm xadimlərindən biri Kərim bəy İsmayılov olmuşdur. O 1890-cı ildə Qori müəllimlər Seminariyasını bitirmiş, 1892-1893-cü illərdə Cəlil Məmmədquluzadənin müdir olduğu Nehrəm məktəbində müəllimlik etmişdir. O, "Hesab" dərsliyi hazırlamışdır. Onun "Nehrəm kəndi" adlı tarixi-etnoqrafik oçerki Tiflisdə nəşr edilən "Qafqaz ölkəsi və tayfalarını öyrənmək üçün materiallar" məcmuəsində nəşr edilmişdir (14, s. 277). Bu məqalədə bölgənin coğrafiyasına dair çox mühüm məlumatlar əksini tapmışdır (14, s. 185).

XIX əsrdə Naxçıvanın Rusiya tərəfindən işğalından sonra bölgəyə xarici tədqiqatçıların, xüsusən rus müəlliflərinin marağı daha da artmış və bu dövrdə Naxçıvanşünaslıq sahəsində mühüm əsərlər meydana çıxmışdır. Bu əsərlər əksər hallarda rus imperializminə xidmət etsə də, bir çox hallarda tarixi

faktları müəlliflərin şəxsi təəssübünün və mövqeyinin təsiri altında təhrifə uğratsa da bir sıra məsələlərin öyrənilməsi baxımından qiymətli qaynaqlardır.

Naxçıvanın tarixi, etnoqrafiyası, demoqrafiyası, coğrafiyasının öyrənilməsi üçün əhəmiyyətli diyarşünaslıq əsərlərindən biri V.Qriqoryevin “Naxçıvan əyalətinin statistik təsviri” adlı əsəridir. Əsər bu gün də Naxçıvanın XIX əsr tarixinin öyrənilməsi üçün ən əhəmiyyətli qaynaqlardan biri hesab edilir.

Nəticə olaraq qeyd edə bilərik ki, Naxçıvan elmi mühitindəki bu canlanma XX əsrin əvvəllərində də yüksələn xətlə davam etmiş, xüsusən sovet hakimiyyətinin qurulmasından sonrakı dövrdə Naxçıvan şəhəri elmi tədqiqatların episentr nöqtələrindən birinə çevrilmişdir.

Mətbuat. XIX əsr Azərbaycan tarixində həm də mətbuatın inkişaf dövrü kimi yaddaqalan olmuşdur. Bizə qədərki tədqiqatlarla tanışlığımız göstərir ki, XIX əsrdə Naxçıvan şəhərində mətbu orqanların yayım durumu ilə bağlı tədqiqatlar aparılmamışdır. Arxiv materialları sübut edir ki, XIX əsrin 60-cı illərində Naxçıvan şəhərində bir sıra rus dilli qəzet və jurnallar yayılırdı. Rus tədqiqatçısı İ.Y.Semyenov Ermənistan Dövlət Arxivində saxlanan sənədlər əsasında XIX əsrin 60-cı illərində İrəvan quberniyasının ayrı-ayrı məntəqələrində rusdilli jurnal və qəzetlərə abunəliklərlə bağlı cədvəl təqdim etmişdir. Cədvəl əsasında müəyyən etdik ki, 1865-ci ildə Naxçıvan şəhərində “Russkiy vestnik” (“Rus xəbərləri”), “Oteçestvennie zapiski” (“Yurddan qeydlər”), “İskra” (“Qığılcım”), “Voskresniy dosuq” (“Bazar asudəliyi”), “Uçitel” (“Müəllim”), “Qornıy jurnal” (“Dağ dərgisi”) adlı jurnallar, “Kavkaz” (“Qafqaz”), “Birjevıe vedimosti” (“Birja şərhləri”), “Senatskie vedmosti” (“Senat şərhləri”), “Qolos” (“Səs”), “Narodnaya qazeta” (“Xalq qəzeti”), “Veçernyaya qazeta” (“Axşam qəzeti”), “Sovremenniy listok” (“Müasir səhifə”) qəzetləri olmaqla ümumilikdə 13 qəzet və jurnala 34 abunəlik mövcud olmuşdur (26, s. 62). Naxçıvan şəhərində xüsusən maraq göstərilən qəzetlərdən biri “Kavkaz” qəzeti olmuşdur. Bunun əsas səbəbi fikrimizcə qəzet səhifələrində Naxçıvanla bağlı məsələlərə geniş yer verilməsi ilə bağlı olmuşdur. AMEA-nın müxbir üzvü, professor Zəhmət Şahverdiyev yazır ki, 1850-ci illərin sonlarından başlayaraq «Kavkaz» qəzetinin səhifələrində Naxçıvan haqqında xüsusi materiallar çap olunmağa başlamış, bu materiallarda Naxçıvan və Ordubad şəhərləri, Naxçıvanın ayrı-ayrı yaşayış məskənləri haqqında bəhs edilmişdir (20, s. 15).

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: Elm, 2007. 504 s.
2. Cəfərov F., Quliyev R. Naxçıvanın ilk məktəbi tarixindən // “Şərq qapısı” qəzeti, 22-25 iyul 1998-ci il, s.3
3. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1985, 300 s.

4. Hacıyev İ., Kəlbizadə E. Naxçıvanlı diplomatlar (Нахчыванские дипломаты). Naxçıvan: Əcəmi, 2016, 128 s.
5. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri (təkmilləşdirilmiş ikinci nəşri). Naxçıvan: Əcəmi, 2009, 424 s.
6. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr,1997, 684 s.
7. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.
8. Həbibov İ. XX əsrin əvvəlinin ab-havası. "Azərbaycan təbiəti" jurnalı, 1982, № 5., s. 4-7
9. Mədətov Q. Tarixin səhifələri // Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı:Elm, 1985, s. 9-28.
10. Məmmədov V. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu. Bakı: Çənlibel, 2001, 220 s.
11. Məmmədov V. XIX əsrdə Naxçıvanda təhsil // NDU "Elmi əsərlər"i, № 2, 2015, s. 28-33
12. Naxçıvan Ensiklopediyası, 2 cilddə I cild, Naxçıvan: Əcəmi, 2005, 356 s.
13. Naxçıvan Ensiklopediyası, 2 cilddə II cild, Naxçıvan: Əcəmi, 2005, 376 s.
14. Naxçıvan tarixi. Üç cilddə, II cild. Naxçıvan:Əcəmi, 2014, 528 s.
15. Naxçıvanda ilk məktəb və təhsilin inkişaf yolu // "Şərq qapısı" qəzeti, 28 avqust 1998, № 56, s. 3
16. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində. Bakı: Elm və təhsil, 2014, 180 s.
17. Səfərli H. Naxçıvanın türk-islam mədəniyyəti abidələri. Naxçıvan:Əcəmi, 2017, 216 s.
18. Sidqi M.T. Əsərləri (Toplayanı, tərtib edəni və müqəddimənin müəllifi İ. Həbibəyli). Bakı: Çaşıoğlu, 2004, 280 s.
19. Şahtaxtlı M.A. Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı? // "Kaspi", 1891, № 93
20. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
21. Şərif Ə. "Molla Nəsrəddin" necə yarandı. Bakı: Azərnəşr, 1986, 394 s.
22. Naxçıvan MR Dövlət Arxivi (NMR DA) fond 26, siyahı 1, iş 1.
23. Naxçıvan MR Dövlət Arxivi (NMR DA), fond 224, siyahı 5, iş 173.
24. Гаджиев И. & Кальбизаде Э. Из истории дипломатии. Saarbrücken: Lambert Academic Publishing, 2017, 64 c.
25. Зелинский С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский: Географически-статистическое и

сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т. VII. Тифлис, 1880, с. 209-258

26. Семенов И. Русские в истории Армении. Ериван:Лусабац,2009, 298 с.

РЕЗЮМЕ

АРЗУ АБДУЛЛАЕВ

НАУЧНАЯ ЖИЗНЬ ГОРОДА НАХЧЫВАН, СОСТОЯНИЕ ОБЩЕСТВЕННОЙ МЫСЛИ И НАРОДНОГО ПРОСВЕЩЕНИЯ (XIX ВЕК)

В период до русской оккупации школы в ханстве стали меняться после русской оккупации в соответствии с требованиями империи. Цель создания нового типа управления империей заключалась в том, чтобы служить более колониальным интересам и отводить людей от своих исторических корней. Однако, несмотря на то, что русский колониализм работал, азербайджанский интеллектуал не смог сломать связь исторических корней и следовательно, нового типа азербайджанских интеллектуалов, которые смогли сосредоточиться на восточной традиции западных просветительских традиций. Реформы образования в Российской империи в начале 60-х годов XIX века не произошли мимо Нахчывана. В 70-80-х годах XIX века в Нахчыване было шесть начальных школ для азербайджанцев, но только у армян и россиян имелась только одна такая школа. Конец XIX века был примечательным в истории города Нахчывана, а также с помощью создания первой женской школы. Таким образом, можно сказать, что XIX век стал этапом перемен и нововведений в истории города Нахчыван.

Ключевые слова: колониализм, царизм, просвещение, ханство, век, реформа, семинария, уезд, регион, пресс

SUMMARY

ARZU ABDULLAYEV

THE SCIENTIFIC LIFE OF NAKHCHIVAN, THE STATE OF PUBLIC OPINION AND PUBLIC EDUCATION (XIX CENTURY)

The schools in the khanate that existed before the Russian occupation began to change after the Russian occupation, in accordance with the requirements of the empire. The purpose of creating new type schools of empire administration was to serve more colonial interests and to draw people away from their historical roots. Although Russian colonialism worked hard, the Azerbaijani intellectuals could not break the bond of historical roots and thus, the new type of Azerbaijani intellectuals, who were able to combine Western enlightenment traditions with Eastern wisdom, grew up. In the early 60's of the 19th century education reforms in the Russian Empire applied in Nakhchivan too. In the 70-80s of the 19th century although there were six Azerbaijani elementary schools in the Nakhchivan, each of the armenians and

the russians had just one such school. At the end of the 19th century, the history of Nakhchivan city was also remarkable by the creation of the first female school. Thus, we can say that XIX century was the stage of changes and innovations in the education history of Nakhchivan city.

Keywords: colonialism, tsarist, prosperity, prince, age, reform, seminary, county, region, press

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

ZAMİN ƏLİYEV
Naxçıvan Dövlət Universiteti
e-mail: Zaminalisoy@gmail.com

XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİLƏRİN ƏSASSIZ “TÜRKİYƏ ERMƏNİSTANI” ƏRAZİ İDDİALARININ İFLASI

Məqalədə ermənilərin yaratdığı “Türkiyə Ermənistanı” əsassız ideyasının mağzi və onun süqutunun səbəbləri tədqiq olunmuşdur. Müəllif Qərb ölkələrinin “Erməni faktoru” siyasətini Osmanlı imperiyasına təsir vasitəsi kimi istifadə etməsinə aydınlıq gətirir, ermənilərin Türkiyyədə muxtariyyat qazanmasına münasibətilə ziddiyətlərin olmasını bildirir.

Burada ermənilərin “Türkiyə Ermənistanı” idayasının süqutundan sonra “Rusiya Ermənistanı” yaratmağa cəhd etməsi göstərilmişdir.

Açar sözlər: Şərqi Anadolu, erməni ərazi iddiaları,”Türkiyə Ermənistanı”, Osmanlı ermənilər, “Böyük Ermənistan” ideyası, “Şərq məsələsi”, böyük dövlətlər, geosiyasi maraqlar.

Rusiya XIX əsrin I yarısında Qafqaza hakim olduqdan sonra Şərqi Anadolu Bəsrə və İsgəndərun körfəzinə qədər “Böyük Ermənistan” layihəsini gerçəkləşdirmək şansları artdı. Ona görə ruslar Osmanlı ermənilərini üsyana şövq etmək siyasəti yeritməyə başladılar.

Böyük Britaniyanın Osmanlı Türkiyəsində “erməni məsələsinə” münasibəti isə XIX əsrin ikinci yarısında Berlin konqresindən sonra özünü bariz şəkildə göstərdi. Böyük Britaniya müstəqil bir Ermənistan yaratmaq istəyirdi, lakin Rusiya onun Şərqə doğru hərəkətinə mane olacaq belə bir dövlətin yaranmasında maraqlı deyildi. İngiltərə paytaxtı İstanbul olan xüsusi bir dövlətin, əslində Bizans imperiyasının bərpasını da istəyirdi. Böyük Britaniyanın Vandakı vitse-konsulu Klaytonun hesabatını təhlil edən S.Göhrçe yazır ki, ingilislər “Böyük Ermənistan”ın Osmanlı imperiyasında yaranması üçün lazımi qədər erməni əhalisi olmadığından həm erməni əhalisinin bölgəyə, həm də yerli türk əhalisinin digər yerlərə köçürülməsi lazım idi: “Osmanlı türk xalqının Kiçik Asiyanın başqa bölgələrinə köçürülməsi müqabilində ermənilərin bu bölgəyə gəlişini şirnikləndirmənin böyük faydası olmaqdadır” [6, s. 101]. İngilislər “Böyük Ermənistan” yaratmaq naminə yerli türkləri öz yurd-yuvalarından didərgin salmaq fikrində idilər.

Tədqiqatçı Bayram Kodaman “Erməni məsələsini” Qərb dövlətlərinin, süni yaratdığı “Şərq məsələsi”nin tərkib hissəsi hesab edir [7, s. 240]. İngiltərə

ermənilərə "Böyük Ermənistan" xülyasını vəd etsə də onlar Rusiyaya bölgədə ermənilərdən istifadə etməyə imkan vermədi. "İngiltərənin Türkiyədəki siyasətində isə bu zaman ermənilər lazım deyildi... İngiltərə çar Rusiyanın ermənilərə bel bağlamaq niyyətini puça çıxarıb ermənilərı Türkiyənin ixtiyarına buraxdı" [3, s. 10]. Müəllif-Qurko-Kryaətin məsələyə birtərəfli-ruspərəst və ermənipərəst mövqedən yanaşaraq Türkiyə Ermənistanında XIX əsrin sonlarında ermənilərin kürdlər tərəfindən tədrici qırğınına şəraitin yaranmasında İngiltərəni günahlandırır.

Z.Əmrahov "Osmanlı imperiyasında "erməni məsələsi" problemi" əsərində Ermənistanın ABŞ-dakı səfiri A.J.Gerokisyanın "1830-cu ildən 1914-cü ilədək Britaniya diplomatiyası və Erməni" məsələsi əsərini təhlil edərək müəllifin erməni olmasına baxmayaraq dövrün siyasi hadisələrini tədqiq edən rus tarixçilərindən fərqli olaraq obyektivliyi qorumağa çalışdığını, Böyük Britaniya siyasətinin erməni ərazi iddiaları ilə bağlı naməlum tərəflərini göstərməyə müvəffəq olduğunu qeyd etmişdir. "Öz müstəmləkə imperiyasını genişləndirməyə, yeni bazarlar əldə etməyə çalışan İngiltərə Yaxın Şərqdə Misir və Süveyş kanalına nəzarətə sahib olduqdan sonra çar Rusiyasının Aralıq dənizi, Hindistana uzanan yoluna əngəl olmağa çalışmışdır. Bu məqsədlə də Osmanlı imperiyasının Şərqi Anadolu vilayətlərində çar Rusiyası ilə qonşuluqda yaşayan erməni əhalisi bəsit bir alət kimi istifadə edilmişdir. İngiltərə hökuməti Osmanlı ermənilərini həm Rusiyadan ayırmaq, həm də Avropanı bu məsələyə cəlb etməklə, böyük dövlətlərin diqqətini özünün əsas hədəfindən yayındırmağı düşünmüşdür. İngiltərə-Rusiya qarşıdurmasından meydana gələn süni bir məsələdən Osmanlı hökümətinə təzyiq vasitəsi kimi də istifadə edilmiş, İngiltərədə hökumət səviyyəsində dəstəklənən ermənilər isə Anadolunun şərq əyalətlərində özlərinə dövlət yaratmağı, bu fürsətləri dəyərləndirmək üçün müxtəlif vasitələrin sınaqdan keçirilməsindən belə əl çəkməmişlər" [1, s. 100].

İngiltərə, Rusiya ilə yanaşı Fransa da Orta Şərq və Aralıq dənizi bölgəsində, Osmanlı imperiyası ərazisində "erməni ərazi iddialarından", onların müxtariyyət və müstəqillik ideyalarından öz məqsədlərinə uyğun bəhrələnməyə çalışırdı.

Fransa öz Şərq siyasətində:

-ermənilərı üsyanlara təhrik edir;

-onların ərazi iddialarını həyata keçməsi üçün maliyyə yardımı göstərirdilər.

-ermənilərin türklərə qarşı qanlı cinayətlərini ört-basdır edir;

-erməni terrorçuların qaçıb gizlənməsi üçün şərait yaradırdı.

-Osmanlı ermənilərindən öz siyasətlərindən bir alət kimi istifadə edirdi.

Tədqiqatçı D.Aydın erməni məsələsinin ortaya çıxmasında Fransanın rolunu bir neçə qrupa bölür: "1. Elçilik və konsulluqlar. 2. Ticarət. 3. Səyyahlar. 4. Missioner və dini qurumlar. 5. Qiyamların səbəb olduğu fikirlər. 6. Kütləvi nəşrlər" [5, s. 286].

Fransa da şərq məsələsi və erməni məsələsini vəhdətdə götürərək Qərb dövlətlərilə birlikdə Osmanlı imperiyasında öz müstəmləkəçilik siyasətində ermənilərdən istifadə etmiş. “İngiltərə və Fransa kimi dövlətlər öz məqsədləri naminə Osmanlı torpaqlarını aralarında bölüşdürmək üçün Şərq məsələsi olaraq gördükləri bu layihəni həyata keçirməyə başlamışlar. Belə ki, bu imperialist dövlətlər Osmanlı dövlətindəki müstəmləkəçilik məqsədlərini davam etdirmək üçün ermənilərlə daha çox maraqlanmağa başlamışlar. Bu maraq əvvəlcə Fransa, İngiltərə və Rusiya arasında başlamış, sonralar isə Amerika Birləşmiş Ştatları da bu məsələyə qatılmışdır” [8, s. 59]. Müəllif Osmanlı imperiyasında böyük dövlətlərin erməni amilindən bir kart kimi istifadə edərək öz geosiyasi maraqlarını gerçəkləşdirdiklərini göstərir.

Ermənilər III Napaleona müraciət edərək Osmanlı imperiyasında müstəqillik əldə etməyə ondan kömək istəmişlər. E.Akçora Birinci Dünya müharibəsi dövründə Fransanın Osmanlı imperiyası ərazisində yaşayan ermənilərə etdiyi yardımdan bəhs edir: “Fransa ....onların xaricə qaçırılmasında vasitəçi olmuşdur. Belə ki, 22 sentyabr 1915-ci ildə fransız kreyserləri Antiyuh limanının cənubundakı Musa Dağı silsiləsində yerləşən 5000 erməni qaçağını Portsaidə aparmışdır. 1916-cı ildə Fransanın Xarici İşlər Nazirliyi Suriyada qurmaq istədiyi “şərq legionu” üçün ermənilərdən də könüllü olaraq yardım istəmiş və qarşılığında isə müharibədən sonra Fransanın payına düşəcək Kilikiyanın ermənilərə veriləcəyini vəd vermişdir” [4, s. 92]. E.Akçoranın fikrincə, Birinci Dünya müharibəsindən müvəffəqiyyətlə çıxacaqları təqdirdə fransızlar Suriya, Livan və Kilikiya bölgələrini ələ keçirməyi, Kilikiya bölgəsində ermənilərə Fransız himayəsində bir idarəçilik verməyi, eləcə də ermənilərin Adana bölgəsinin təbii qaynaqlarından istifadə etməsini, daha sonra İsgəndərun və Mersin limanlarından faydalanmasını planlaşdırmışdır.

Tarix elmləri üzrə fəlsəfə doktoru Ziyad Əmrahov Antantanın Osmanlı haqqında planlarını arxiv materialları əsasında göstərmişdir: 1.Fransızlar Adana vilayətini öz nəzarəti altında saxlamağı və orada ermənilər hakim etməyi düşünürlər. Hətta işğal qüvvələri hərbi komandanı əvvəllər Adana şəhəri üçün Almanlar tərəfindən hazırlanmış bir planın bir ay içində həyata keçirilməsi üçün işə başlamışdı. 2.İngilislər Adananı hər nəyin bahasına olursa-olsun Fransaya güzəştə getməmək və İngiltərənin nəzarəti altına türk idarəçiliyində qalmasına üstünlük verirlər. 3.Osmanlı dövlətinin gələcəyi haqqında Antanta dövlətləri 2 qrupa ayrılmışlar: biri əsrlərdən bəri mədəniyyəti qəbul etməyərək, Osmanlı dövlətini parçalamaq, ortadan qaldırmaq, digəri isə Kiçik Asiyada kiçik bir hökumət kimi qalmasını müdafiə edir. Söylədiyim bu məsələlər Adanada yerləşən ingilis və fransız işğal qüvvələri əsgərlərinin söhbətləri və yazışmalarından məlum olmuşdur” [1, s. 123].

Z.Əmrahov XIX əsrin sonları, XX əsrin əvvəllərində zəifləmiş Osmanlı imperiyasının parçalanmasında Fransa açıq şəkildə erməni amilindən istifadə etdiyini qeyd edir.

Erməni tədqiqatçısı siyasi elmlər doktoru, professor Aleksandr Cvarants qeyri-obyektiv, erməni yalanları, saxta erməni "həqiqətlər"in yolu "Erməni məsələsi və Yaxın Şərq böhranı" adlı ikrahedici məqaləsində erməni həyasızlığına əsaslanaraq göstərir ki, guya "erməni məsələsinin mahiyyəti hazırda Türkiyə və Ermənistanın tərkibində yerləşən "tarixi Ermənistanın" etnik taleyilə bağlıdır" [10].

Müəllif XIX əsrdə Rusiya imperiyasının dağılmasına qədər və Birinci Dünya müharibəsinin nəticələrinə görə guya "erməni məsələsi"nin (əslində erməni ərazi iddialarının) əsas obyekti kimi Türkiyə tərkibindəki "Qərbi və Cənubi Ermənistanın əraziləri idi. Erməni siyasi qüvvələri (əslində siyasi-terror təşkilatları) o zamanlar hələ "birləşmiş və müstəqil Ermənistan" ideyasını sürürdülər. Burada söhbət Rusiya və onun mütəffiqlərinin mənəvi-mədəni yaxınlığının köməyilə (xristian həmrəyliyi və təəsübkeşliyi eyni zamanda hərbi yardımı ilə) Türkiyə Ermənistanının azad edilməsindən (Osmanlı Türkiyəsindən ərazi qoparılmasından) söhbət gedirdi" [10].

Müəllif "Böyük Şərq məsələsinin" də əsassız erməni məsələsinin də anqlosaks və rus imperiyasının qüvvə və maraqlarının, qarşılıqlı münasibətlərinin müəyyən etdiyini göstərir və yenə XX əsrin əvvəllərində qayıdır: "Birinci Dünya müharibəsi gedişində Rusiya erməni məsələsini öz maraqlarını nəzərə almaqla həll etməyə yaxın idi. 1916-cı ildə Sayks-Piko-Sazanov gizli hazırlanmasında əsasən Qərbi Ermənistan və Kiçik Asiyaya çıxış (Osmanlı ərazilərinin işğalı) müvafiq olaraq Britaniyanın inhisarında olan dünya ticarəti tranzitinə təhlükə yaradırdı.

Bu dövrdə Rusiya imperiyası və onun imperatoru II Nikolay çətin ki, o vaxtkı tarixi şəraitdə vahid və müstəqil Ermənistan yarada idi. Rusiya yalnız öz imperiyasını Qərbi (Türkiyə) Ermənistanı hesabına öz ərazilərini genişləndirməyi düşünürdü. Çarın daşnaklara Qafqaz Canişini Qraf İ.Vorontsov- Daşkov, Tiflis meri Aleksandr Xatisyan və yepiskop Meskop vasitəsilə müharibə ərəfəsində -1914-cü ilin yayında verdiyi şifahi vədlər isə heç bir siyasi-hüquqi öhdəliyə malik deyildi" [10]. Erməni müəllifi Rusiyanın öz geosiyasi maraqlarını deyil, erməni xalqının maraqlarını, yəni ərazi iddialarını əsas tutması gülünc və əsassızdır.

A.Svarans "Cənubi Ermənistana (Şərqi Anadolunun Türkiyə ərazilərinə) münasibətdə Kilikiyanın azadlığı uğrunda Erməni (Şərq) legionu yaratmış Fransanı da əsassız "erməni ərazi iddialarını" həyata keçirmədiyinə görə ittiham edir və XX əsrin əvvəllərində "erməni xalqının və Rusiya imperiyasının tərkibində və Fransanın protekoratlığı altında "tarixi Ermənistanın taleyinə müsbət təsiri ola bilərdi. Belə ki, Rusiya ilə ruhi-mənəvi və mədəni doğmalıq və Fransa ilə yaxınlığı olan ermənilər təhlükəsiz həyat və inkişaf, genefondun qorunub saxlanması və artması üçün əlverişli şərait əldə edə bilərdi" [10]. Erməni müəllifi erməni terror təşkilatlarının dinc türk-müsəlman əhalisini kütləvi məhv etmələrinə, müharibə şəraitində Osmanlı Türkiyə dövlətinə arxadan zərbə vurduqlarına görə hərbi qanunlara uyğun qayda yaradılarkən üsyan zamanı müəyyən itkilər vermələri müqabilində tamamilə tərsinə bir

mənzərə təsvir edir. Guya Antanta ölkələrinin (Rusiya və Fransanın) köməyi və ilk növbədə iştirakı ilə Türkiyə Ermənistanın azad olması (ərazi iddiaları!!!) kimi “ədalətli ideya” nəticədə ermənilərin taleyində ən böyük “faciyə” baş verdi. XX əsrdə “birinci genosiddə” guya 2 milyon (əslində sayı 1 milyona yaxın) erməni kütləvi deportasiyaya məruz qalmış, öz “etnik vətəni Qərbi və Cənubi Ermənistandan (heç vaxt mövcud olmayan, əslində Şərqi Anadoludan) yox olmuş, “böyük mənəvi-mədəni, maddi, maliyyə-iqtisadi itkilərə gətirib çıxartdır” [10]. Güya genosid nəticəsində həmin “Qərbi və Cənubi Ermənistan” ərazilərində ermənilər praktiki olaraq qalmadılar. Bu isə erməni müəllifin fikrincə Türkiyə siyasətçilərinə və ekspertlərinə əsas verdi ki, təsdiq etsinlər ki, “erməni ərazilərinin taleyi Türkiyənin xeyrinə həll olunub və “erməni məsələsi”nin izi-tozuda qalmayıb. Rusiya və Avropa möcüzəli şəkildə “genosid”dən yaxa qurtarmış erməni qaçqınlarının ən çox axınının qəbul etmiş “erməni icmalarının təşkil olunduğu, məskunlaşdığı ölkələrdir. A.Svarans yazır: “Simvolik olan odur ki, çar Rusiyasında bəzi ermənifoblar, o cümlədən knyaz, xarici işlər naziri A.B.Lobanov- Rostovskiy ermənisiz Ermənistan əldə etmək istəyirdilər, nəticədə Ermənistansız ermənilər qəbul etdilər. Tarixin bu dərinlərini müasir Rusiya və Qərb siyasətçiləri nəzərə almalıdırlar” [10]. Bizim fikrimizcə “tarixin dərslərini” ərazi iddiaları ilə, yalançı, saxta “həqiqətlərlə”, “mədəni millət” obrazları ilə öz vəhşi simalarını dünya ictimaiyyətindən gizlədən erməni tarixçiləri, siyasətçiləri, siyasi-terrorçu təşkilatları, “ərazi iddiası”, “işğalçılıq xəstəliyinə tutulmuş bütün dünya ermənilər başqa xalqları kütləvi qırğınlara məruz qoymamalı “saxta erməni genosidi” uydurmamalıdırlar, öz törətdikləri cinayətləri türk-müsəlman xalqlarının adına çıxmamalıdırlar. Onlar yüz minlərlə türk-müsəlman əhalisi öldürmüş, qılıncla parçalamış, süngülərlə dəlik-deşik eləmiş, uşaqları odun içərisinə ataraq diri-diri yandırmış, südəmər uşaqları süngülərə taxmış, təsəvvürə gəlməyən dəhşət və fəlakətlər törətmişlər, əraziləri etnik təmizləmələr vasitəsilə özününküləşdirməyə cəhd etmişlər.

Yusif Qazıyev ermənilərin ərazi iddialarının əsil mahiyyətini göstərərək arxiv materialları əsasında yazır: “Böyük Ermənistan” ideyası XIX əsrin sonlarında məhz Qərb dövlətlərinin havadarlığı ilə geniş vüsət almağa başladı. Bu ideya Qərb dövlətlərinin məxfi hazırladığı böyük “Şərq məsələsi” işinin variantlarından olan perspektivli “Erməni məsələsi”nə daxil edilmişdi. Qərb dövlətləri Osmanlı dövlətini təhrik edirdilər ki, ermənilərə imperiya daxilində muxtariyyət versin. Bu məqsədlə 23 dekabr 1896-cı ildə o zamankı böyük dövlətlərin-İngiltərə, Fransa, Almaniya, Avstriya-Macarıstan, İtaliya, Yaponiya və s. səfirliklərinin İstanbul yığıncağı çağırıldı. Konqres ərəfəsində beynəlxalq müşahidəçilərin iştirakı ilə Şərqi Anadoluda əhalinin milli tərkibi yoxlanıldı. Məlum oldu ki, ermənilərin muxtariyyət istədiyi 6 sancaqda erməni əhalisi digər xristianlarla birlikdə 20 faiz təşkil edirdi [3, s. 59-60]. Ermənilərin iddia etdikləri 6 vilayətdə əhalinin demoqrafik tərkibi barədə Abidin Paşa Qərb dövlətlərinin notasına cavabında yazmışdır: “Sizin nəzərinizə çatdırıram ki, Van, Diyarbəkir, Bitlis, Ərzurum və Sivas əyalətlərində dövlət qeydiyyatının

nəticəsi aşağıdakı tərkibdə olmuşdur: 17% erməni, 4% digər millətlər və 79% müsəlman"[2, s. 59-60]. Y.Qazıyev yazır ki, hüquqi və sosial bazası çatmadığı üçün İstanbul yığıncağında "erməni məsələsi" deyilən məsələyə son qoyuldu. Lakin ermənilər öz iddia və ideyalarından dönmədilər. Onların Osmanlı dövlətinin bütün sahələrində aparıcı qüvvəyə malik olduqlarına baxmayaraq üzə bir, ənsəyə iki üsulundan istifadə edib separatçılıq və satqınçılıqla məşğul olurdular. Bu hal Birinci Dünya müharibəsi ərəfəsində daha da fəallaşdı.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ermənilər hansı dövlətin himayəsində yaşayıblarsa, o dövlətin çətin məqamında ona qarşı satqın çıxmışlar. O cümlədən Osmanlı imperiyasının, İran imperiyasının, Rus imperiyasının, Sovet imperiyasının dağılmasında zirək ermənilər arxadan və altdan vurmaqla böyük rol oynamışlar.

Beləliklə, yaranmış tarixi şəraitdə süni olaraq böyük dövlətlərin öz geosiyasi maraqlarına uyğun yaradılmış, mahiyyəti Osmanlı Türkiyəsindən ərazi iddialarından ibarət, güya "Qərbi və Cənubi Ermənistanın Türkiyə zülmündən azad edilməsi", "Türkiyə və Rusiya Ermənistanın birləşdirilməsi" və "vahid Ermənistanın dirçəldilməsi" olan, "Böyük Yaxın Şərq məsələsinin" tərkib hissəsi kimi çıxış edən "erməni məsələsi" bütün dünya ermənilərinin türk-müsəlman dünyasına qarşı yönəlmiş mürtəce, təcavüzkar ictimai-siyasi doktirinasıdır.

Özlərinin türk-müsəlman dünyasına qarşı törətdikləri genosidi, qırğınları, xəyanətkar əməlləri dünya ictimaiyyətinə "əzilmiş xalqın- ermənilərin genosidi" kimi sırıyan, "Böyük Ermənistan" uğrunda türk-müsəlman xalqlarının zaman-zaman əraziləri hesabına dövlət qurumu yaratmış və öz ərazilərini günahız insanların canları hesabına genişləndirmiş ermənilər guya "türklərin 47 ilə yaxın (1876-1923-cü illərdə) genosidinə məruz qadıqlarını", "2 milyondan artıq ermənin məhv edildiyini", "tarixi vətənlərinin Qərbi və Cənubi Ermənistanın ermənilərdən etnik təmizləməyə səbəb olduğunu, bu saxta, yalançı, əsaslanmayan, faktları bütün dünya ictimaiyyətinə "tarixi həqiqət" kimi sırımaqda davam edirlər.

Xristian həmrəyliyi və təəssübkeşliyi, Yaxın Şərqdə "xristian dininin və xristian azlığın xilası" adı altında böyük dövlətlər Böyük Britaniya, Fransa, Rusiya eləcə də ABŞ və Almaniya öz geosiyasi maraqların uyğun olaraq "ermənilərə muxtariyyət", müstəqillik adı altında Osmanlı Türkiyəsinə və Türkiyə Cümhuriyyətinə təzyiq vasitəsi kimi istifadə etmişdir.

Qərb diplomatiyasının və Rusiyanın səyləri ilə XIX əsrdə və XX əsrin əvvəllərində bir çox beynəlxalq müqavilələrin San-Stefano müqaviləsi, Berlin traktını, Sevr müqaviləsi, Moskva və Qars, Lozanna müqavilələri əsasında əvvəlcə əzəli, qədim Azərbaycan ərazisində "əyalət", Sevr müqaviləsinə əsasən "ABŞ-ın mandatı altında Qara dənizə çıxışı olan 170 min kvadrat kilometr ərazisi olan "müstəqil Ermənistanın yaradılması haqqında qərar verilmiş, XX əsrin əvvəllərində Azərbaycan torpaqları hesabına özlərinin "Şərqi Ermənistan", "Qafqaz Ermənistanı", "Rusiya Ermənistanı" adlandırdıqları ərazilərimizdə təcavüzkar Daşnak Ararat Ermənistan Respublikası

(Ermənistan Demokratik Respublikası), sonralar isə Ermənistan sovet respublikası yaradılmasına nail olunmuşdur.

ƏDƏBİYYAT

1. Əmrahov Z. Osmanlı imperiyasında “Erməni məsələsi” problemi. Bakı: Elm və təhsil, 2007, 272 s.
2. Qazıyev. Y. “Erməni məsələsi”: yalanlar və gerçəklər. Bakı: Nurlar, 2009, 160 s.
3. Qurko-Kryajin V. Erməni məsələsi. Bakı: Azərbaycan, 1990, 32 s.
4. Akçora E. Van ve Çevresinde Ermeni İsyanları. (1896-1916). İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1994, 271 s.
5. Aydın D. Erməni Meselesinin Ortaya Çıkmasında Fransanın Rolü//Tarih Boyunca Türklerin Erməni Toplumu ile İlişkileri Sempozyumu. Atatürk Universitesi Rektörlüğü Yayınları, 8-12 Ekim 1984, Erzurum, s.285-291
6. . Gökçe Y. Büyük Ermənistanı Kurma Projesi // Ermeni Araşdırmalar, sayı 1, mart-nisan-mayıs, 2001, s.87-107.
7. Kodaman B. Erməni Meselesinin Doguş Sebepleri. //Türk Kültürü, sayı XIX, mart-nisan, 1981, Ankara, s.219- 246
8. .Metin H.Türkiyenin Siyasi Tarihinde Ermeniler ve Ermeni Olayları. İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, 1992,192 s.
9. Камуран Чурум. Армянская досье. Баку,1990, 189 с.
10. Александр Сваранц «Армянский вопрос и Ближне восточный кризис //http://www/noravatik .am/rus/ articles/ detail/RHP?ELEMENKIT/ ID-14426/

РЕЗЮМЕ

ЗАМИН АЛИЕВ

КРАХ БЕЗОСНОВАТЕЛЬНОЙ ИДЕИ АРМЯН СОЗДАНИЯ «ТУРЕЦКОЙ АРМЕНИИ» В КОНЦЕ XIX -В НАЧАЛЕ XX ВЕКОВ

В статье исследованы суть безосновательных притязаний армян на создание «Турецкой Армении» и причины их краха. Автор поясняет использование крупными государствами Запада в восточной политике «армянского фактора», как способ воздействия на Османскую Империю, заявляет о наличии противоречий в отношении к присвоению армянам в Турции статуса автономности.

Здесь показана попытка армян создания «Российской Армении», после краха идеи «Турецкой Армении».

Ключевые слова: Восточная Анатолия, территориальные притязания армян, «Турецкая Армения», османские армяне, идея «Великой Армении», «проблема Востока», крупные государства, геополитические интересы.

SUMMARY

ZAMIN ALIYEV

THE FAILURE OF BASELESS TERRITORIAL CLAIMS OF ARMENIANS ABOUT SO-CALLED "TURKISH ARMENIA" AT THE END OF XIX-EARLY XX CENTURIES

The article deals with the unfounded area claims of "Turkish Armenia" of Armenians and the reason of their failure. The author clarifies that the great states of the East used the Armenian issue was means of pressure against the Ottoman empire on their East policy, İt is shown in the article that, after the armeninans' insolvency of Turkish Armenia, they began their "Russian Armenia" claim

Key Words: East Anatolia, Armenians area claims, The Turkish Armenia, the Ottoman Armenian, the idea of "Great Armenia", the Eastern issue, big states, geopolitical interest

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

ASƏF ORUCOV
AMEA Naxçıvan Bölməsi
aseforucov@yahoo.com.tr

NAXÇIVANIN ŞƏHƏR ƏHALİSİNİN ƏNƏNƏVİ YEMƏKLƏRİ (XIX-XX əsrlər)

Məqalədə XIX-XX əsrlərdə Naxçıvan şəhərində ənənəvi yeməklər, onların hazırlanması xüsusiyyətlərindən ətraflı şəkildə bəhs edilmişdir. Həmçinin Naxçıvan şəhərində hazırlanan yeməklərin Muxtar Respublika və Azərbaycanın digər regionları ilə müqayisəsi aparılmaqla yerli, özünəməxsus cəhətlər diqqət mərkəzinə çəkilmişdir.

Açar sözlər: Naxçıvan, şəhər, etnoqrafik rayon, ət yeməkləri, bitki yeməkləri, qovurma,

Bir insan yaşaması üçün yemək yeməli, bir şeylər içməli, bir sözlə qidalanması laszımdır. Ancaq bir insanın nə yediyi və necə yediyi onun yaşadığı ərazi ilə bir sözlə təbii coğrafi şəraitlə, məşğuliyyət sahəsi və onun mədəniyyəti ilə bağlıdır. Dini, sosial və etnik mənsubiyyət də qidalanmada mühüm rol oynayan amillərdən biridir.

Yeməyin, qıdanın tarixinə nəzər salsaq görərik ki, insanın yaranması ilə meydana gəlmişdir. Onlar əvvəlcə bunu təbiətdən hazır şəkildə almış, sonralar isə ictimai inkişafın gedişi prosesində özləri çeşidli yeməklər hazırlamaq vərdişinə yiyələnmişlər. Bu baxımdan yeməklər xalqın maddi-mədəniyyətinin əsas tərkib hissələrindən birini təşkil edir. T.Əmiraslanov deyir: "Azərbaycan mətbəxi dedikdə yalnız xörəklər, onların bişirilmə qaydaları deyil, həm də tarix, fəlsəfə, süfrə psixologiyası, adət-ənənələr, xalqın etika və estetikası və s. bu kimi amilləri ahəngdar surətdə birləşdirən mətbəx mədəniyyəti başa düşülür. Dünyada ən güclü mətbəxlər Çin, Fransa və Türk mətbəxidir. Türk mətbəxinin tacı isə Azərbaycan mətbəxidir. Azərbaycan yeməkləri haqqında məlumat verən tədqiqatçı B.Sula qeyd edir ki, onların (azərbaycanlıların) mətbəxi o qədər zəngindir ki, qonşu xalqların da mətbəxinə öz təsirini etmişdir (8, s. 53).

AMEA-nın müxbir üzvü H.Q.Qədirzadə yazır ki, Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda bəzi elmi ədəbiyyatlarda işlədilən “mətbəx mədəniyyəti”, “milli mətbəx” ifadələri problemi tam əhatə etmir. Bu problemin bir tərəfidir ki, el arasında “aşbazlıq”, “biş-düş” alanan sahəni əhatə edir (5, s. 78) Bəzi kəslər bir-iki yemək resepti verməklə elə bilir ki, mətbəx mədəniyyətindən yazır. Halbu ki, mətbəx mədəniyyəti deyiləndə yemək növləri ilə yanaşı, yeməyin harda (təndir, ocaq, buxarı, qaz və elektrik cihazları), kim tərəfindən (gəlin, qaynana, evin qızı), hansı yeməyi nə zaman,

hansı qabda (qazan, bala qazan, çölmək, badya) bişirilməsi, süfrəyə verilməsi, süfrədən öncə görülən işlər, süfrədən sonra görüləcək işlər və yeyiləcək şiriniyyatlar nəzərdə tutulmalıdır.

Bu gün Naxçıvan yemək tədqiq etmək olduqca vacib bir məsələdir. Çünki bədnam qonşularımız Azərbaycan respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan yeməklərini öz adlarına çıxmış və çıxmaqda da davam etdirməkdədirlər. Bununla bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: "Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan dolma ermənicən nə deməkdir, onu deyə bilməz...". Bunun qarşısını almaq hər birimizin vətəndaşlıq borcudur.

Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan şəhərində də mətbəxdə əsasən heyvandarlıq və bitki mənşəli yeməklər üstünlük təşkil etmişdir. Müasir dövrdə quş mənşəli yeməklərdən də istifadə edilir. Belə ki, səhər yeməyində yumurta şəhər əhalisinin süfrəsində mühüm yerlərdən birini tutur.

Bitki mənşəli yeməklər içərisində taxıl bitkiləri daha çox olmuşdur. Bundan əlavə bitki mənşəli məhsullardan tərəvəz məhsulları da xüsusi yerlərdən birini tutmuşdur. Heyvan mənşəli məhsullar isə ət yeməkləri və süd məhsulları olmaqla iki yerə ayırmaq mümükündür (3, s. 163). Ancaq onu demək olmaz ki, Naxçıvanda əkinçiliklə məşğul olanlar daha çox əkinçilik məhsulları, heyvandarlıqla məşğul olanlar təkcə heyvandarlıq məhsulları ilə qidalanırlar. Yox, demək olmaz. Çünki Naxçıvan bölgəsində əhali qarışıq təsərrüfat sahələri (əkinçilik və maldarlıq) ilə məşğul olmuşdur. Az bir fərqlə elat tayfaların yeməkləri başqa tayfaların yeməklərindən fərqlənirdi. Bunu da daha çox XIX-XX əsrin əvvəllərinə şamil etmək olar. Günümüzdə isə bunu ayırd etmək mümkün deyil. Naxçıvan yeməkləri öz rəngarəngliyi çox çeşidliyi ilə diqqəti cəlb etmişdir. Ancaq ümum Azərbaycan mətbəxinin tərkib hissəsi kimidir. Etnoqraf alim F.Vəliyev yazır ki, Naxçıvan bölgəsinin əhalisinin ənənəvi xalq yeməkləri bir çox cəhətlərinə görə Azərbaycanın digər bölgələrinin, eləcə də Qafqazın milli yeməkləri ilə müəyyən dərəcə də ümumilik təşkil edir. Bu ümümilik özünü yeməklərin hazırlanmasında, eyni adlı ərzaq məhsullarından istifadə edilməsində, yeməklərin süfrəyə verilməsi qaydalarında və.s. də göstərmişdir (10, s. 58).

Bununla belə bölgənin yeməkləri özünəməxsus xüsusiyyətləri və spesifik çeşidləri ilə də fərqlənmişdir.

Azərbaycanın digər etnoqrafik bölgələrində olduğu kimi Naxçıvan bölgəsində əhalinin yeməkləri gündəlik və mərasim olmaqla iki qurupa bölünür. Mərasim yeməkləri (üz ağardan xeyr şər yeməkləri) hazırlanma texnologiyası, həcmi, tərkibinin kaloriliyi, çeşidin müxtəlifliyinə görə gündəlik yeməklərdən əsaslı sürətdə fərqlənirdi və bu gün də fərqlənməkdə də davam etmişdir (10, s. 57).

Yuxarıda qeyd etmişdik ki, yeməklər heyvan və bitki mənşəli olmaqla iki qurupa ayrılır. Bitki mənşəli yeməklər insan həyatında ilk dövrlərdən mühüm rol oynamışdır. İnsanlar qış fəslini başa vurub yaz fəslinə qədəm qoyduqda, ərzaq məhsullarının tükəndiyi bir vaxtda daha çox bitki (yabanı) mənşəli yeməklərlə qidalanırdılar. Yabanı bitkilərlə qidalanmaq əcdadlarımızın ilkin çağları ilə, əsas məşğuliyyətləri yığıcılıq olduğu bir zamanla səsləşir. H.Q.Qədirzadə yazır ki, hər şeydən öncə yığıcılıq ailələrin qış ehtiyatlarının hazırlanmasında və gündəlik tələbatlarının ödənilməsində ciddi rol oynayırdı. Yabanı halda bitən qazayağı, şomu, ələyəz, cacıq, şeb, çobankirmidi, xatınbarmağı, unnuca, salmança, livik və s. göstərmək olar (5, s. 78). Bu bitkilər qədim dövrdən başlayaraq günümüzədək erkən yazda həm kənd ailələrinin qida mənbəyinə çevrilib, həm də qış ərzaq ehtiyatı üçün tədarük edilib. A.A Qrosheym qeyd edirdi ki, yabanı yeməli bitkilər Qafqaz xalqlarının geniş istifadəsində olduğundan, onların qida öynəsi çox zaman bu bitkilərin üzərində qurulurdu. Onlardan orqanizmə çoxlu miqdarda vitamin daxil olduğuna görə bu öynə daha çox əhəmiyyətlidir. Bunlardan qışda duru yeməklər, plov üçün “üz-göz” hazırlayarkən istifadə edilir. Bununla yanaşı kəvərdən qış üçün turşu da qoyulur. Onu da qeyd edək ki, bu işlə əsasən qadınlar məşğul olar.

Bitki mənşəli ərzaqların içərisində çörək xüsusi yer tutmuşdur. Əcdadlarımız arasında çörək müqəddəs bilinmiş, insanların and yerinə çevrilmişdir. Hər bir azərbaycanlının yeməyinin əsasını çörək təşkil edir (2, s. 9). Ümumi olaraq, çörək kimi bilinən bu qidanın xalq arasında müxtəlif növləri vardır. Məsələn: lavaş, dəstəna, fətr, çırpma, qalın, cad və.s. Naxçıvanda və Azərbaycanın digər bölgələrində çörək deyərkən daha çox lavaş yada düşür. Araşdırmacılar çörək ifadəsini çevirmək (sacda bişirilən zaman) sözü ilə bağlılığını qeyd edirlər. Çörəkdən ilin bütün fəsillərində istifadə edilməsinə baxmayaraq, insanlar qış çörəyinə xüsusi fikir vermişlər. Payızın “qəps” ayında insanlar 7-8 pud unun çörəyini yapıb qış üçün tədarük görərdilər. H.Həvilov bu haqda yazır: “Çörək hər bir ailə üçün 3-7 günlük müddətə bişirilirdi. Başqa bölgələrdən fərqli olaraq Naxçıvanda isə uzunmüddət üçün (3-4 aylıq) lavaş hazırlanırdı” (3, s. 165). El arasında bu “qış çörəyi” adlanırdı. Bəlli olduğu kimi indinin özünə də yurdumuzun bir cox yerində çörək həmdə qədim türk sözü olub əppək kimi də qeyd olunur: saca əppək salmaq, əppək yapmaq və s. Xalqımızın qədim yazılı abidəsi olan Kitabi-Dədə Qorqud dastanında da oğuz yurdunun övladlarının yeməklərinin arasında tez-tez ətmək (Naxçıvanda əppək) adına rast gəlirik. Ətmək (əppək) sözü isə bir qayda olaraq əkmək sözündən yarandığı bilinməkdədir (4, s. 62).

Onu da qeyd etmək istərdik ki, keçmişdə hər bir taxıl bitkisinin ununa uyğun aşağıdakı çörək növləri yapılardı. Məsələn: tapı arpa, dəstana buğda və düyü unundan yapılardı. Cad hazırlamaq üçün qarğıdalı unundan istifadə edilərdi. Bunların hər biri xalqımızın uzunmüddətli təcrübəsi sayəsində əldə edilmişdir.

Birki mənşəli yeməklər içərisindən undan hazırlanan ənənəvi yeməklərdən xəşil, umac, tərək, horra, axsan, hərsə və s. qeyd etmək olar.

Bitki mənşəli yeməklər içərisində düyü yemək rasionunda buğdadan sonra iknci yeri tuturdu. Etnoqrafik materiallar Azərbaycan xalqı arasında düyüdən hazırlanan yeməklərin şahanə tacını plov olduğunu təsdiqləyir. Azərbaycanda daha geniş yayılmış plov növü aş-qaralı plov və ya süzmə plov idi (11, s. 168). Naxçıvan bölgəsində plova aş da deyirlər. Plov əsasən mərasim yeməkləri sırasına daxildir.

Bəhs olunan yeməklər içərisində əriştəni də qeyd etmək lazımdır. Qış ərzaq ehtiyatları içərisində əriştənin özünə məxsus yeri vardır. Əriştədən sıvıq əriştə (əriştə aşı) bişirilərdi. Günümüzdə şəhər əhalisinin demək olar ki, əsas hissəsi əriştəni, yarmanı bazardan alırlar. Bəzilərinin kənddə yaşayan qohumları pay olarq gətirir.

Bitki mənºəli yeməklədən olan bostan-tərəvəz məhsullarýndan qarpýz, yemiþ, xiyar, lobya (maaþ), paxla, badýmcan, soðan, sarýmsaq və b. həm əhalinin gündəlik yeməklərindən təzə halda, həm də onlarýn bəzilərindən hazýrlanan turþu (tutma, þoraba) halýnda və qurudularaq istifadə olunurdu. Pomidor, kələm, kartof və b. tərəvəz bitkiləri xalqýn yemək öynəsinə nisbətən gec daxil olmuºdur.

Əhalinin aparıcı təsərrüfat sahələrindən biri maldarlıq olduğundan insanların qidaya olan tələbatının bir hissəsi də maldarlıq (ət, süd) məhsulları ilə ödənilir. Buna görə də xalqımızın mətbəxində bu məhsullar ayrıca yer tutmuşdur. Onu da qeyd edək ki, bitki mənşəli qida məhsulları kimi heyvan mənşəli məhsullar da mövsümə uyğun istifadə edilmişdir. Azərbaycan xalqı mövsümdən asılı olaraq yazın axırı, yay və payız aylarında daha çox ətdən təzə halda, qış və yazın əvvəllərində isə ətdən qovurulmuş halda istifadə edilmişdir. Əhali ət yeməklərindən yayda az, qışda isə çox istifadə edir. Ət tədarükü qovurma, qaxac, cızdıq etmə və s. üsulla həyata keçirilir. Qışda daha çox işlədilən ət formasına qovurma deyilir. Qədim mənbələrdə göstərilir ki, türklər əti qurudub, qaxac şəkilində saxlar və çinlilərə də satardılar (1, s. 59).

Bişirilən qovurmanın suyuna Naxçıvan bölgəsində "təngov", "şorsu", "işgənə", "cıqata" deyilir. Qovurmanın suyundan qohumlara, qonşulara pay qoymaq adəti də mövcuddur. Bəzi bölgələrdə (xüsusən Ordubadda) qoyulan qovurma suyunun əvəzinə corab payı qoyub geri qaytarardılar.

Qovurma Azərbaycanın digər bölgələrində elatlar arasında yayıldığı halda, Naxçıvanda digər təsərrüfat sahələri ilə məşğul olan əhali də (şəhər əhalisi də) istifadə edir. Qovurmanı qışda demək olar ki, bir çox yeməyin içərisinə vurarlar. Demək olar ki, XXI-əsrin əvvəllərindən başlayaraq şəhər əhalisi qovurmanı ya pul ilə hazır şəkildə alar. ya da ət alıb öz həyətlərində, bina evlərində yaşayanlar isə qohumlarının həyətlərində əti qovurar, bununla da qovurma əldə edərlər.

Naxçıvan mətbəxinə xas olan ət yeməkləri (əsasən quzu, eyni zamnda cavan mal əti, müxtəli ev quşlarının əti) –bozbaş, piti, qovurma şorbası, bozpört, kəlləpaça, kabablar, daş küftə, dolmalar (yarpaq, kələm, üç bacı,

soğan) və. s. bu kimi xörəklərimiz yüksək zövqlə və ləziz hazırlanır, dadı və tamı ilə seçilməkdədir. Arxaik dövlərlə səsləºən ətbiºirmə qaydalarýndan biri də “büryan” idi. Əsasən Naxçývan və Qarabağ bölgələri üçün xarakterikdir. “Üz ağardan xeyir-þər yeməkləri” hesab olunan ət xörəklərinin Azərbaycanda çoxlu lokal-məhəlli variantlarý qeydə alýnmýþdýr. Naxçývanýn “gupa”sý, “doğramacý”, “xan atlandý”sý, “ət þamýsý” belələrindəndir (9, s. 223). Naxçývanda maldar tayfalarýn ət məhsullarýndan hazýrladýqlarý ənənəvi yeməklərdən biri də “baðýrbeyin” və “qan bozbaþý” yeməyidir (6, s. 287).

Naxçıvan əhalisi minilliklər boyu gündəlik və qışa tədarük edilən qida məhsulları içərisində süd-ağartı məhsullarına xüsusi yer vermişlər. Bunlardan süd, qatıq, yağ, xama, pendir, qurut, cortdan, şor, lor və s. misal göstərmək olar. Onu da qeyd edək ki, ət yemək ilkin çağlara aid edilsə də süd məhsullarından istifadə isə sonradan qazanılmışdır. Süd qaynar ºəkildə içilir, ondan müxtəlif yeməklər hazýrlanýr. Bunlardan bəziləri gündəlik yemək üçün istifadə olunur, bəziləri isə ehtiyat ərzaq kimi tədarük edilirdi (9, s. 203).

Süd məhsulları içərisində süfrənin “şahı” adlandırılan qış üçün xüsusi hazırlananlardan biri pendirdir. Bölgədə aşağıdakı pendir növləri üzlü, üzsüz, qaşar, sərmə, axtarma, ovma, döymə, çilğı, baş, motal qeydə alınmışdır. Bundan əlavə süd məhsulları içərisində qış üçün tədarük edilənlərdən biri də qurutdur. Qışda qurutdan qurudaşı, kələci (qurut kələcisi) bişirilirdi. Qurutu bişirmək üçün saxsı qablarda (əngənəkdə) əridirlər. Qurut bişiriləndə içərisinə qovurma, soğan, düyü, yarma və s. də vururlar. Keçmişdə qurut kənd yerlərində qış üçün ən sevimli yeməklərdən biri hesab edilirdi.

XIX əsrin əvvəllərinə aid olan rus mənbələrində Naxçıvanla bağlı yazılır ki, Naxçıvan əyalətində ailələr gündə üç dəfə yemək yeyərdilər. Axşam süfrədə çox yemək olur. Onlar axşamlar əsasən süd yeməkləri yeyərlər, süfrədə qaymaq və pendirdə olur. Sonra müəllif sözünə davam edərək yazır ki, burada əhali yeməyi tez yeyər və süfrə başında danışmazlar (7, s. 148). Süd yeməyindən şəhər əhalisinin daha çox sabahlar istifadə etdiyi haqqında məlumatlar əldə etmişik. Belə ki, Naxçıvan şəhərinə tabe olan kəndlərdən (Şıxmahmud, Əliabad, Qaraxanbəy, Qaraçuq və. s.) şəhərin məhlələrində, binaların arasında səhərlər süd satan qadınları günümüzdə görmək mümükündür.

Mətbəxə təsir edən amillərdən biri də başqa xalqlarla olan təmasdır. Buradan gəlib keçən xalqların, ticarət edən tacirlərin də mətbəxə öz təsiri olub. Bunu biz Naxçıvan bölgəsində də görürük. XXI əsrdən başlayaraq şəhər əhalisinin (kənd əhalisinə görə daha artıq) mətbəxinə Türkiyə Respublikasının və Avropa mətbəxinin böyük təsiri olmuşdur. Belə yeməklərdən pizza, lahmacun, dönər, hamburger və s. qeyd etmək olar.

İlkin müşahidələr, toplanmış ədəbiyyat materialları sübut edir ki, hazırda mətbəx mədəniyyətimiz millilik baxımından ciddi transformasiyaya uğramaqla qədim dövrdə formalaşmış bir sıra xörəklər unudulmuşdur. Gənc qızların çoxu həmin xörəkləri nəinki hazırlamağı bacarmırlar hətta onların adlarını belə bilmirlər. Bəzi ənənəvi yeməklərin adlarını verməklə bu cür

yeməkləri xalqımızın yaddaşına qaytarmaq mümkündür. Ancaq təssüf ki, bu yeməklərində hamısının adını, hazırlanma üsulunu qeyd edə bilmirik. Çünki bu iş ayrıca bir tədqiqat işidir ki, gələcək tədqiqatlarımızda bu məsələyə geniş yer verməyi düşünürük. Yeməklərin bölgələr üzrə fərqlənməsi süfrələrimizin zənginliyinə və maddi nemətlərin bolluğuna dəlalətdir. Xalqımızın ənənəvi yeməklərinin tarixi-etnoqrafik baxımdan Naxçıvan materialları əsasında öyrənilməsi belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan kulinariyası zəngin və müxtəlifliyi ilə həmişə diqqət mərkəzində olmuşdur.

ƏDƏBİYYAT

1. Cavad H. Türklərin tarixi və mədəniyyətinə bir baxış. Bakı: Azərnəşr, 1993, 176 s.
2. Əmiraslanov T., Əmiraslanov A. Qarabağ mətbəxi. Bakı: Nurlan, 2012, 216 s.
3. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 256 s.
4. Kitabi Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
5. Qədirzadə H.Q. Milli mətbəx və qonaqpərvərlik. Naxçıvan: Əcəmi, 2012, 112 s.
6. Məmmədova S. Naxçıvan bölgəsinin ənənəvi yeməkləri // Milli Azərbaycan tarix muzeyinin jurnalı, Bakı: 2012, №1, s. 286-300
7. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində. Bakı: Elm və təhsil, 2014, 180 s.
8. Sula B. Necə yaşayarsan yüzü haqlayarsan. Bakı: Yazıçı, 1989, 212 s.
9. Vəliyev F., Rəcəbli Q., Ağamalıyeva S. Yeməklər // Azərbaycan etnoqrafiyası 3 cilddə, II c., Bakı: Şərq-Qərb, 2007, s. 159-202
10. Vəliyev F. XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsi əhalisinin ənənəvi xalq yeməkləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, №2, s. 56-62
11. Vəliyev F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: Şərq-Qərb, 2010, 424 s.

РЕЗЮМЕ

АСАФ ОРУДЖОВ

ТРАДИЦИОННЫЕ ПИЩЕВЫЕ БЛЮДА НАСЕЛЕНИЯ ГОРОДА НАХЧЫВАН (XIX-XX вв)

В статье рассматриваются правила традиционных блюд население города Нахчывана, использование этих блюд для сезон. Во время исследования было обнаружено, что пища в Нахчыване по происхождение делится на две группы, как животные, так и травы. В то же время, как и в других этнографических регионах Азербайджана, блюда населения Нахчывана делятся на две группы, ежедневно и

церемониальные. Эти блюда отличаются технологией, объемом, содержанием калорий, разнообразием сортов.

Ключевые слова: Нахчыван, город, этнографический район, мясное блюдо, растенное блюдо, жаркое (коурма).

SUMMARY

ASAF ORUJOV

TRADITIONAL MEALS OF NAKHCHIVAN’S CITY PEOPLE IN XIX-XX CENTURIES

The article examines rules of Nakhchivan's traditional meals which rules of using these meals are investigated for chapters. It is discovered during the study Nakhchivan's traditional meals are divided into two groups: animals and herbs. At the same time, as in other ethnographic regions of Azerbaijan, the meals of the Nakhchivan's population are divided into two groups, which are daily and ceremonial. These meals differ in preparation technology, volume, caloric content, variety of varieties.

Key words: Nakhchivan, ethnographic region, meat meals, plant meals, roasting

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5**

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

SƏBUHİ HƏSƏNOV
AMEA Naxçıvan Bölməsi
h.sabuhu@gmail.com

ƏCDADLAR KULTU: TÖZLƏR VƏ DAŞBABALAR

Türk köçləri minillər boyunca davam etmişdir. Məhz bunun üçün də biz türk mədəniyyətini çox böyük ərazilərdə görürük. Türklərin daş abidələri bu mədəniyyətin ayrılmaz tərkib hissəsidir. Bir zamanlar mağara divarlarına, daşlar üzərinə işlənən düşüncələr, daha sonra inkişaf edərək daşbaba, töz ənənəsini yaratmışdır. Bu mədəniyyət türk xalqlarının ortaq mədəniyyətidir. Atalar ruhuna hörmət əlaməti kimi hazırlanan bu tarixi abidələr günümüzdə də müəyyən fərqliliklərlə davam etdirilir.

Açar sözlər: türk, daşbaba, töz, heykəl, inanc

Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı tədqiq edilən qəbirlərdən belə nəticəyə gəlmək olur ki, əcdadlar kultu eneolit dövründə mövcud olmuşdur. Belə ki, yaşlıların evlərin içində dəfn edilməsi bir başa əcdadlar kultundan xəbər verir. Eneolit dövrünün tədqiqatçılarından olan Vəli Baxşəliyev Kültəpə yaşayış evlərinin ortasında dəfn edilən qəbirləri məhz əcdadlar kultu ilə bağlamışdır. Qəbilə rəhbərlərinin evin altında dəfn edilməsi, əcdadın ruhunun çağrılması, onların qəbirlərinə təmas edilməsi və s. vasitələrlə əlaqə qurulmasına çalışılmışdır (4, s. 26). Daha sonra qəbirlərin evlərdən kənarda dəfn edilməsi başlanılmışdır. Maraqlısı burasındadır ki, bu adət dəyişilərək başqa formaya düşmüşdür. Aparılan tədqiqatlarda evlərdə kişi fiqurlarının tapılması cəsədi başqa yerə dəfn edilsə də əcdadların ruhunun evin içində qalması üçün tözlər, yəni heykəllərin və ya insan fiqurlarının evin içinə qoyulmasını görürük. Altay dağlarından Anadoluya qədər böyük coğrafiyada daima biz bu tip tözlərə rast gəlirik. Uzun müddət bu tözlər büt adlandırılmışdır. Onlar büt adlandırılmasında əlbətdə tədqiqatçıların heç bir günahı yoxdur. Gərək daşdan, gərəksə də taxtadan oyularaq düzəldilən bu tözlər ibadət üçün deyil, məhz əcdadların ruhlarının onlarda olmasına inanılaraq evlərdə saxlanılmışdır. Ərəblər Orta Asiyanı işğalı zamanı bu tözlərə rast gəldilər və onları büt adlandırdılar. Bu əcdadlar kultu, yəni qoruyan ruh inancıdır. Töz və ya tös deyilirdi. "Divani -lüğətit- türk" də bu sözün mənası əsl, kök deməkdir (9, s. 33).

Töz (Onqon). Sibir
Şəkil 2.

Türklərin *Töz* və Monqolların da *Ongon* dedikləri heykəlciklər, heyvan və ya insan şəklində sitayiş edilən bütlər və heykəlciklərdir. Bunlar, ağacdan,

daşdan, sümükdən hətta palçıqdan, daha doğrusu qəbilədəki sənətkarlar bunu əllərindəki istənilən maddədən hazırlayırdılar. Artıq bu heykəlciklər, o soyun ya da hər hansı bir ailə ocağının qoruyucuları olurdu. Müəyyən zamanlarda həyata keçirilən dini mərasimlərdə bu tözlərə yemək verilir və parça asılırdı (7, s. 32). Bu ənənənin uzun zaman davam etməsinin nəticəsi idi ki, daha sonra əcdadlar kultunu ifadə edən insan şəklindəki tözlər daha sonra əcdad heyvan, quş motivinə də keçmişdir. Bu İslam və xristianlığı qəbul etmiş türk bölgələrində unudulsa da, Altay və Sibir bölgəsində aborigen türk xalqları tərəfindən hələ də yaşadılmaqdadır.

Naxçıvan ərazisində Qızılburun yaşayış yerindən tapılan kişi fiquru xüsusi marağa səbəb olmuşdur (Şəkil 1). Boyu 20 sm olan bu fiqur gil məmulatından hazırlanmışdır. Sol əlini kəmərin üzərində olması onu sonrakı dönəmlərdə daşbabalarda bir əlində qədəh digər əli kəmərin üzərində olması epizoduyla oxşarlıq təşkil edir. Uzun arxalıq və ayaqqabısı da vardır. Vəli Əliyev qeyd edir ki, Azərbaycanda arxeoloji qazıntılar zamanı tapılan kişi fiqurları və digər faktlar göstərir ki, Tunc dövründə cəmiyyətdə kişilərin rolu üstün olmuş və bu cəhət dini etiqadlarda da öz əksini tapmışdır (5, s. 62). Kişi fiqurunun üzündə saqqal olmaması qədim türk daşbaba heykəlləri ilə oxşarlıq təşkil etməkdədir. Ola bilsin ki, bu kişi fiquru tözlərdən biridir. Çünki onun kiçik və daşına bilinməsi onun heykəlcik və ya töz olmasına isbat ola bilər.

Qızılburundan tapılan insan fiquru. Naxçıvan. Şəkil 1.

Tözlər əcdadların ruhlarının onların daxilində olmasına inanılaraq hazırlanmış, əcdadlarına hörmət olaraq evlərin ən yaxşı yerlərinə qoymuşdular. Çin xroniklərində türk döyüşçülərinin üzərlərində olan taxtadan bütlər haqqında məlumat verilmişdir ki, döyüşçülər bunları üzərlərində onlara uğur gətirməsi eyni zamanda onları qoruması üçün daşımışdılar. Türklər yürüşlərə gedərkən bu tözləri özləri ilə aparar və onların dodaqlarına yağ sürtərdilər (12, s. 467). Əlbətdə ki, biz bu tözləri taxta balballarla qarışdırmamalıyıq. Çünki, bu taxta balballar döyüşçünün öldürdüyü düşmən əsgərlərinin simvolu sayılırdısa, tözlər əcdadlar ruhunun simvolu olmaqla onların qoruyucuları sayılırdı.

Yuxarıda qeyd edildiyi kimi, tözlər əcdadlar ruhunun daşıyıcısı kimi evlərin ən gözəl yerlərində qoyulurdu. Altay və Yenisey qəbilələrində tözlər (ata heykəlləri) evin və ya çadırın ən şərəfli yerində saxlanılırdı. Bura töz deyilərdi və hər kəs onun önündə oturardı (9, s. 34).

Daşbaba
Şəkil 3

Tözlərin ortaya çıxmasına səbəb əcdadlar kultunun bilavasitə təsiri olmaqla yanaşı eyni zamanda onun müqəddəsləşdirilməsinin də səbəbi olmuşdur. Əlbətdə ki, atalar kultunu allahlaşdırmaq kimi bir inancları olmamışdır. Bu sadəcə öz əcdadına olan hörmətdən doğmuşdur. Hörmət etməklə sitayiş etməyə gedən yol incə bir cizgiylə ayrılır və ata heç bir zaman Tanrı dərəcəsinə çatmasa da, bir tanrı kimi öz toplumunun sevgisini qazanmışdır (10, s. 190). Öz soyu və əcdadı ilə qürur duyan bir kimsənin onu ifadə edən hər hansı bir əşyanı daşıması normal bir haldır. Deməli tözlər ilk növbədə onu daşıyanlara mənəvi arxayınlıq verirdi. Daha sonrakı dövrlərdə əsasən oğuzların Anadoluya gəlməsiylə bu adət uzun zaman davam etmişdir ki, bir müddətdən sonra İslam dinin təsiri ilə tözlərin büt adlanması və cəmiyyət tərəfindən sıxışdırılması ilə tarix səhnəsindən çıxmağa başladı.

Afşinin məhkəməsi ilə bağlı olan hadisə xüsusi ilə maraqlıdır. Əslən türk olan Afşin özüylə birlikdə taxtadan insan heykəli saxlayırdı. Türklərin islamı qəbul etdikdən sonra da töz özüylə saxladığı məlumdur. Düzdür Afşini mühakimə edənlər onun zərdüşt olduğunu söyləyirdilər. Afşinin ac saxlanılaraq öldürülməsindən sonra cəsədi asılmış, evində olduğu söylənilən taxta bütlər üzərinə atılaraq yandırılmışdır (6, s. 487). Məhkəmənin gedişində aydın olur ki, ərəblər Orta Asiyada olan tözləri büt kimi görür və ona qarşı fəal mübarizə aparırdılar.

Türk dünyasında tözlərdən həcmcə böyük olan daş heykəllərdə qoyulurdu ki, bunlar daşbabalar idi. Daşbaba mədəniyyətinin yaranmasında əcdadlar kultunun təsiri olmuşdur (Şəkil 3). Tayfanı və ya ailəni təmsil edən ağsaqqal öldüyü zaman onun qəbrinin üstünə daşdan hazırlanan daşbaba qoyulurdu. Qeyd edək ki, daşbabalar sadəcə kişilərə yox eyni zamanda qadınlara da qoyulurdu ki, bunlar daşnənə adlanırdı. Hakkaridə tapılan daş heykəllərdən 11-i kişi, 2-si isə qadına aid olmuşdur (8, s. 85). Daşbablardan fərqli olaraq daşnənələr daha sadə hazırlanmış, üzərinə az naxış vurulmuşdur. Onu da qeyd edək ki, daşnənələrin (3.3 m) boyu daşbabalardan ən azı 2 dəfə uzun olmuşdur.

Daşbaba abidələri çox böyük bir ərazini əhatə edirdi ki, bunların ən qədim formaları Anadolu (Hakkari) bölgəsində yerləşir. Türk köçləri ilə bağlı olaraq daha geniş ərazilərə yayılmışdır. Oktay Bəlliyə görə dikilidaşlar (daşbabalar və daşnənələr) skiflərlə birlikdə Anadolu bölgəsindən çıxaraq Avropadan Monqolustana qədər böyük bir əraziyə türk köçləri sahəsində yayılmışdır (8, s.

104). Fikrimizcə bu mədəniyyətin daşıyıcılar sadəcə skiflər yox, eyni zamanda skiflərin varisləri və bu tayfa ittifaqına daxil olan digər türk xalqları olmuşlar. Daşbabaların geniş ərazilərə yayılması üz quruluşlarındakı fərqliliklərin yaranmasına gətirib çıxarmışdır. Hakkaridə olan daşbabalar yumru və uzunsov üzə malik idilər. Naxçıvan ərazisində I Kültəpədə tapılan və hal-hazırda Naxçıvan Dövlət Tarix Müzeyində saxlanan daşbaş (büt) yumru sifətə malik olmuşdur. Qeyd edək ki, bu daşbaş Hakkaridə olan daşbabalara oxşamaqdadır. Onlar kimi yumuru üzə malik olmuş və qaşları bitişikdir (Şəkil 4). Bakı şəhəri ətrafında tapılan daşbabalar isə dördbucaq və yumru üzə malik olmuşdur.

Sitayiş məqsədi ilə hazırlanan büt. I Kültəpə. Şəkil 4.

Türk mədəniyyətində əsas yerlərdən birini tutan tözlər və daşbaba heykəlləri arasında müqayisə aparmaq üçün arxeoloji tədqiqatlardan başqa həmin mədəniyyətləri daşıyan etnoslara da diqqət vermək lazımdır. Daşbaba abidələri əsasən skif və onların varisləri olan digər türk tayfalarının yaşadığı ərazilərdə daha çox yayılmışdır. Bir zamanlar skiflərin yaşadığı ərazilərdə məskunlaşan türk tayfalarından biri olan kuman və qıpçaqlar da daşbaba ənənəsini davam etdirmişlər. Bunu isbat edən digər bir qaynaq isə dahi Nizaminin İsgəndərnamə əsəridir. Rus xaqanı olan Qıntalla döyüşmək üçün buraya gələn İsgəndərin Şimal yürüşünü təsvir edərkən dahi şair daşbaba mədəniyyəti haqqında da məlumat verir.

Hər biri elə ki, daşa yan alır
Qatı ürəkləri onda yumşalır (2, s. 261).

Qıpçaqların heykələ qarşı bu hörmətinin qədim tarixi olduğuna dəlalət edir. Əsərin digər bir yerində isə qıpçaqların öz heykəlləri qarşısında hörmətlə dayanmaları və hər bir döyüşçünün onun önünə ox qabından bir ox çıxararaq qoyulduğu nəql edilir. Qıpçaqların daşbabalara qarşı bu inam və hörmətin əsasında əlbətdə ki, onların əcdadlarının ruhlarını daşıdığı inancının var olmasıdır. Daha sonra da türk ellərində məlum olan pirə getmək, dua etmək və başqa inamların əsasında bu inanc öz yerini tutmuşdur.

O yerdən keçərkən daim qıpçaqlar
Pir deyib, başını səcdəyə qoyar (2, s. 262).

Kuman-qıpçaqlardan fərqli olaraq, oğuzlarda və digər türk tayfalarında daşbaba ənənəsi çox gözə çarpmır. Bunun əvəzində digər türk xalqları əsasən balbal abidələri ucaltmışdılar. Qeyd edək ki, balbal mədəniyyəti böyük ehtimalla daşbaba mədəniyyətinin davamı idi. İbn Fədlan oğuzlar içərisində olarkən onların öldürdükləri düşmənlərin taxta balballar saxladıqları haqqında məlumatlar vermişdilər. Ondan daha öncəki dövrlərə aid olan Göytürk abidələrində də biz balballarla daha çox rastlaşırıq. Balballar öldürülən düşmən böyüklərinin ruhlarını təmsil etməklə birlikdə o biri dünyada qələbə çalanın ruhuna xidmət etməyi simvolizə edir. Balbal mədəniyyətini izlədikdə biz əsasən onu görə bilərik ki, hər düşmənə balbal qoyulmur, üsyan qaldıran

düşmənə qoyulur. Ən çox balbala sahib sərkərdə isə Gültigin olmuşdur. Onun abidəsində *başda qırğız xaqanına abidə (balbal) qoydum* ifadəsi əslində üsyan qaldırmış qırğız xaqanının məğlub etdiyini göstərir (3, s. 80). İşbara Tarkan balbalında da *Alp erin balbal kısdı* (cəsur döyüşçülərini balbal qoydu) deməklə qoyulan balballardan söhbət açır (3, s. 54).

Əcdadlar kultunun ifadəsi olan tözlər və daşbaba heykəllərinin hansının daha tez yaranması haqqında bir-birinə əks olan iki elmi yanaşma var.

1) Daşbaba böyük və ağır olduğundan onlar qoyulduqları yerlərdə qalır və köçlər zamanı daşınması mümkün olmur. Buna uyğun olaraq daha kiçik variantları olan tözlər yaradılır.
2) Atalar kultunda əcdadlarını daha mükəmməl göstərmək üçün bəzi tayfalar öz tözlərinin daha böyük variantlarını, yəni daşbaba heykəllərini yaratmışdılar.

Hər iki elmi yanaşmanın hansının daha doğru olması ilk növbədə arxeoloji qazıntıların nəticəsində məlum olur. Biz Kültəpə yaşayış yerində tədqiq olunan qoç, öküz və digər heyvanların gil təsvirlərini gördükdən sonra tözlərin daha qədim olduğunu deyə bilərik. Gildən hazırlanmış heyvan fiqurları daha sonralar da davam etmiş, inanc sistemi dəyişildikdən sonra isə əsasən bəzək əşyalarına çevrilmişdilər. Bu heyvan heykəlciklərinin daha sonra böyük variantları olan qoç heykələri ilə rastlaşırıq.

Qədim dövrlərdən qəbir abidələrində baş verən dəyişikliklər eyni ilə onların üzərinə qoyulan daş abidələrdə əks olunmuşdu. Qəbirlərin yeraltı və yerüstü hissələrinin xüsusiyyətləri arasında bəlli olur ki, İslama qədər yeraltı bölümdə qoyulan qab-qacaq, buğa, qoç, at və ya onların kiçik fiqurları və yaraq-yasaqları İslamdan sonra qəbir üzərinə qoyulan sinədaş, başdaş, daşqoç, daşat üzərinə köçürülməyə başlanmışdır (1, s. 42-43).

Tözlər və daşbabalar arasında olan əlaqələr heyvan fiqurları arasındakı əlaqələrlə oxşardır. Biz daha kiçik heykəlləri yaşayış yerlərində ölünün yanında dəfn edildiyini görürük. Daha sonrakı zamanlarda isə onların əsasən də daşbabaları yaşayış yerlərindən uzaqda rastlaşırıq.

Daşbaba ənənəsi Ön Asiyada prototürklərin yaşadığı bölgələrdə e.ə IV minilliklərin ortalarında başlanan miqrasiyalarla bağlıdır (1, s. 8). Bu nəzəriyyəni ortaya atan Firudin Ağasıoğlu gərək Hakkaridə tapılan, gərəksə də Göbəkli təpədə tədqiq olunan qədim daş heykəllərə əsasən söyləmişdir. İlk qəhrəman kral kimi tarixə düşmüş Bilqamış dostu Enkidu üçün daşdan heykəl qoyulmasını əmr edir (11, s. 23). Bütün bu faktlar daş heykəl ənənəsinin əsasını Anadolu və ona yaxın olan ərazilərdə qoyulduğunu göstərir. Bu mənada Firudin Ağasıoğlunun Urmu nəzəriyyəsi özünü doğruldur.

Əcdadlara hörmət olaraq ucaldılan və ya qoyulan abidələr türklərin qədim və zəngin mədəniyyətə malik olduğunu göstərir. Qəbir daşlarının üzərinə insan şəkillərinin əks edilməsini sonrakı dönəmlərdə də xalq tərəfindən yaşadılığını görürük. Naxçıvan ərazisində və digər türk bölgələrində hələ də qəbir daşlarının üzərinə dünyasının dəyişənin şəkli vurulmaqdadır. Fikrimizcə bu tip qəbir daşlarının özəyində daşbaba ənənəsi dayanmaqdadır.

ƏDƏBİYYAT

1. Ağasıoğlu F. Daşbaba. Bakı: Elm, 2013.138 s.
2. Gəncəvi N. İsgəndərnamə, Bakı: Çaşıoğlu, 2004, 552 s.
3. Rəcəbov Ə, Məmmədov Y. Orxan –Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s .
4. Vəli Baxşəliyev. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti (e.ə VI-I minilliklərə aid arxeoloji abidələr əsasında). Bakı: Elm, 2004, 320 s.
5. Vəli Əliyev. Azərbaycanda Tunc dövrü boyalı qablar mədəniyyəti. Bakı: Elm. 1977, 164 s.
6. Ahmet Yaşar Ocak. Zındıklar ve mülhidler (15.-17. yüzyıllar). İstanbul: Tarih Vakfı Yurt Yayınları. 2003, 553 s.
7. Bahaddin Ögel. Türk mitolojisi: kaynaklar ve açıklamaları ile destanlar, I. cilt/ 5. bsk. Ankara: Türk Tarih Kurumu, 2010, 644 s.
8. Belli O. Hakkarinin kabartmalı dikilitaşları ve Anadoluda insan biçimli və kabartmalı mezar taşı yapma geleneği // II. Uluslararası Ahlat-Avrasiya bilim, kültür ve sanat sempozyumu. İstanbul: Doğu Ofset Matbaacılık, 2014, 84-107 s.
9. Ergün Candan. Atalarımızın Gök Tanrı dini. İstanbul: Sınırötesi yayınları, 2013, 179 s.
10. Jean Paul Roux. Eskiçağ və Orta Çağda Altay türkərində ölüm.Tərcümə edən Aykut Kazancıgil, İstanbul: Kabalcı yayın evi, 1999, 312 s.
11. Muazzes İlmiye Çığ. Gilgameş. Tarihte ilk kral kahraman. İstanbul: Kaynak Yayınları, 2000, 40 s.
12. Türklər Ansiklopediya. 3 cild. İlk çağ. Ankara: Yeni Türkiye yayınları, 2002, 1676 s.

РЕЗЮМЕ

САБУХИ ГАСАНОВ

КУЛЬТ ПРЕДКОВ: ТЁСЫ И ТАШДЕДЕ

Турецкие кочевничества продолжались на протяжении тысячелетий. И только потому мы видим турецкую культуру на очень больших территориях. Каменные памятники турок являются неотъемлемой частью этой культуры. Когда-то мысли изображенные на стены пещеры и камни, развиваясь затем создали каменную и тёсскую традицию. Эта культура является общей культурой тюркских народов. Создание исторических памятников в знак уважения духам предков продолжаются и по сей день с определенными различиями.

Ключевые слова: туркский, камень, тёс, памятник, верование

SUMMARY

SABUHI HASANOFV

FATHERS CULT: TOZES AND STONE FATHERS

Turk migration has continued along thosant years. For this reason we see Turkish culture in very big territories. The stone monuments of the Turks are an integral part of this culture. Once upon a time, the walls of the cave and the stones were thought to have developed, and then developed the stone, the pale tradition. This culture is a common culture of Turkic peoples. This historical monuments were created for to respect spirit of father, is continued with definite differents in modern day, too.

Key Words: Turkish, father stone, toz, sculpture, belief

(*Tarix üzrə fəlsəfə doktoru, dosent E.İsayev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

COĞRAFİYA

SURXAY SƏFƏROV
FƏRİDƏ TALIBOVA
Milli Aviasiya Akademiyası,
AMEA akad.H.Əliyev adına Coğrafiya İnstitutu
surxaysafarov@ymail.com
feride.talibova@mail.ru

METEOROLOJİ AMİLLƏRİN GÜNƏŞ ŞÜALARININ ATMOSFERDƏ MOLEKULYAR SƏPƏLƏNMƏSİNƏ TƏSİRİNİN RİYAZİ MODELLƏŞDİRİLMƏSİ

Məqalədə meteoroloji amillərin, günəş şüalarının, elektromaqnit dalğalarının atmosferdə səpələnməsinə təsirinin qiymətləndirilməsi zamanı ortaya çıxan bir çox metodiki məsələlərin riyazi (ədədi) modelləşdirmə yolu ilə həll olunması probleminin aktuallığı araşdırılmışdır. Günəş şüalarının səpələnməsinin əsas növünün molekulyar (Reley) səpələnmə olduğu nəzərə alınaraq, bu prosesə atmosferdə elektromaqnit dalğalarının meteoroloji amillərin təsirinin qiymətləndirilməsinin riyazi modelləşdirilməsi məsələsi kimi həll edilmişdir. Bu məqsədlə riyazi modelin strukturu seçilmiş, onun adekvatlığı yoxlanılmışdır. Riyazi modelin imkanlarının daha detallaşdırılmış tədqiqi üçün ədədi hesablama eksperimentləri aparılmışdır. Bu vaxt dalğa uzunluqlarının, havanın temperaturunun, su buxarının parsial təzyiqinin və atmosfer təzyiqinin müxtəlif qiymətlərindən istifadə olunmuşdur. Alınan nəticələr göstərmişdir ki, təklif olunan riyazi modeli bir sıra praktiki məsələlərin həllində uğurla istifadə etmək olar.

Açar sözlər: günəş şüalarının elektromaqnit dalğaları, molekulyar (reley) səpələnmə, riyazi modelləşdirmə, meteoroloji parametrlərin molekulyar səpələnməyə təsiri.

Günəş enerjisi potensialından istifadə məqsədilə yer səthinə gələn günəş şüalarının elektromaqnit dalğalarının atmosferdə səpələnməsinin lazımi dəqiqliklə qiymətləndirilməsi məqsədilə bir çox metodiki məsələlər riyazi (ədədi) modelləşdirmə yolu ilə həll oluna bilər [8, 9].

Məlumdur ki, atmosfer elektromaqnit nəzəriyyəsində molekulyar-aerozol mühit kimi qəbul olunur , Günəş şüalarının səpələnməsi və udulması bu mühitdə baş verir.

Bunlarla bərabər, günəş enerjisi potensialı məlumatlarının kəmiyyət interpretasiyasının əsas problemi şaquli atmosfer boyu keçən şüaların transformasiyasının adekvat nəzərə alınmasıdır [7].

Günəş şüalarının elektromaqnit dalğalarının zəifləməsi aşağıdakı hadisələrdən asılıdır [10]:

- atmosferin tərkibinə daxil olan qazların molekulyar udması nəticəsində zəifləmə;
- atmosfer aerozolları (dımka, duman, tüstü və bulud əmələ gətirən havada asılı olan bərk və maye hissəcikləri) tərəfindən udulma və səpələnmə hesabına zəifləmə;
- molekulyar səpələnmə hesabına zəifləmə;
- günəş şüalarının qəbuledici elementlərin giriş "hissəsində" fluktuasiyalar hesabına zəifləmə.

Bizə məlumdur ki, atmosferin vəziyyətinin məkan-zaman dəyişmələrinə meteoroloji amillər mühüm təsir göstərir. Bunun nəticəsində, səpələnmə effekti qeyri-bərabərdir olur (bu təsir dərəcəsi hava şəraitindən asılıdır) və zamana görə dəyişir. Buna görə də, hər bir günəş enerjisi potensialı məlumatlarının müəyyən oblastları ayrı-ayrı halda atmosfer səpələnməsinin müxtəlif təsirlərinə məruz qalır.

Beləliklə, Atmosferin Günəş enerjisinə təsirlərini nəzərə almaq məqsədilə qazformalı komponentlər üçün atmosfer modelini, aerozol modelini (növü və konsentrasiyası), atmosferin optik qalınlığını, səthi əksetmə əmsalını və bir sıra digər parametrləri bilmək lazımdır. Atmosferin belə xarakteristikalarını birbaşa ölçmək çox çətin olduğundan, onların alınması üçün hesablama üsullar işlənilir.

Məlumdur ki, atmosferdəki hissəciklərin ölçüləri və gələn şüaların dalğa uzunluğundan asılı olaraq atmosferdə üç növ səpələnmə əmələ gəlir:

Reley səpələnməsi və ya molekulyar səpələnmə-bu vaxt atmosfer hissəciklərinin ölçüləri dalğanın uzunluğundan kiçikdir;

Mi səpələnməsi və ya aerozol səpələnmə-atmosferdəki hissəciklərin ölçüləri görünən, yaxın infraqırmızı və istilik infraqırmızı oblastların dalğa uzunluqları ilə müqayisə oluna bilər;

Qeyri-selektiv səpələnmə-dalğa uzunluğundan asılı deyil, radiusu 10 m km-dən çox olan hissəciklər tərəfindən səpələnmə baş verir.

Ümumiyyətlə hər bir səpələnmənin tədqiqatlarının icmalı verilmişdir: Reley səpələnməsinin təyini üzrə tədqiqatların icmalı [13]-də, Reley atmosferinin optik qalınlığının təyin olunmasına həsr olunmuş tədqiqatların icmalı isə [10] –də verilmiş və müəyyən olunmuşdur ki, reley səpələnməsinin qiymətinin hesablanması zamanı müəyyən çətinliklər mövcuddur. Bu xüsusilə spektrin göy və ultrabənövşəyi oblastlarında özünü biruzə verir.

Reley nəzəriyyəsinə görə molekulyar səpələnmə $1sm^3$ həcmdə hissəciklərin sayından (N), səpələyici hissəciklərin həcmindən (V), şüalanmanın dalğa uzunluğundan (λ), hissəciklərin sınması göstəricisindən (n) və mühitin sınma göstəricisindən (n_0) asılıdır [12, 14].

Elektromaqnit şüalanmasının molekulyar səpələnməsi nəticəsində zəifləməsi modelinin əsasını aşağıdakı ifadədə aydın görmək olur [14]:

$$\alpha_m = \frac{3}{8 \cdot \pi} \cdot \beta_m , \qquad \textbf{(1)}$$

β_m Reley düsturu ilə təyin edilir [2, 6, 14]:

$$\beta_m = \frac{8}{3}\pi^3 \frac{\left(n^2 - 1\right)^2}{N \cdot \lambda^4} \cdot \frac{6 + 3\delta}{6 - 7\delta} \qquad \textbf{(2)}$$

Havadakı molekulların hesablanmış konsentrasiyasını belə təyin etmək olar [6]:

$$N = \frac{P}{k \cdot T}, \qquad \textbf{(3)}$$

Qeyd etmək olar ki, standart atmosfer şəraitində (T=273.1K, P=1013.25 hPa=101325 Pa) $N=2.686763 \cdot 10^{25}$ m^{-3} qiyməti Loşmidt sabiti adlanır.

Yer səthi üzərindən hava molekullarının hesablanmış konsentrasiyasının hündürlükdən (H, km, 50 km-ə qədər) asılı olaraq dəyişməsini ədəbiyyat məlumatlarından [4] istifadə edərək aldığımız aşağıdakı düstur vasitəsilə hesablamaq olar:

$$N = -5 \cdot 10^{-5} \cdot H^3 + 0.006 \cdot H^2 - 0.2143 \cdot H + 2.4883, \qquad \text{r} = 1.00 \bullet \qquad \textbf{(6)}$$

Birdəfəlik molekulyar səpələnmə vaxtı δ -nın qiyməti 0-9.7% həddində qəbul edilir [13]. Əsas atmosfer qazlarının və qarışıqlarının depolyarizasiya dərəcəsi cədvəl 1-də verilmişdir [3].

Cədvəl 1

Əsas atmosfer qazlarının və qarışıqlarının depolyarizasiya dərəcəsi (ölçüsüz kəmiyyət)

Qaz	**δ**
Hava	0.035
H_2O	0.020
N_2	0.036
O_2	0.065
CO_2	0.097
SO_2	0.031
H_2S	0.003
CH_4	0.000
Cl_2	0.041
HCl_2	0.007
CO	0.013

$$n = 1 + 10^{-6}\left(b(\lambda)\frac{P\left(1 + 10^{-6} P(1.049 - 0.0157\,T)\right)}{720.833 \cdot (1 + 0.003661\,T)} - P_w \frac{0.0624 - 0.00068\,\lambda^{-2}}{1 + 0.003661\,T}\right), \quad \textbf{(4)}$$

$$b(\lambda) = 64.328 + \frac{29498.1}{146 - \lambda^{-2}} + \frac{255.4}{41 - \lambda^{-2}}, \quad \textbf{(5)}$$

burada β_m–molekulyar səpələnmə əmsalı; *N*–havadakı molekulların hesablanmış konsentrasiyası; δ–səpələnən şüalanmanın depolyarizasiya dərəcəsi; *P*–atmosfer təzyiqi, Pa; *T*–havanın temperaturu, K; $\kappa = 1.380658 \cdot 10^{-23}\ \frac{\text{Coul}}{\text{K}}$–Bolsman sabiti; P_w–su buxarının parsial təzyiqi, hPa; λ -dalğanın uzunluğu, mkm; P–atmosfer təzyiqi, mm c.st.; T–havanın temperaturu, ^{0}C.

Molekulyar səpələnmənin hesablanması modelinin adekvatlığını yoxlamaq məqsədilə molekulyar səpələnmə əmsalının (1) düsturu vasitəsilə hesablanmış qiymətlərlə, 0.2-0.4 mkm-lik diapazon üçün müvafiq ədəbiyyatda verilmiş məlumatlar (atmosferin yerətrafı təbəqəsində standart şərait üçün) [1, 5, 11] tutuşdurulmuşdur (şəkil 1).



Şəkil 1. Molekulyar səpələnmə əmsalının ədəbiyyat məlumatları və (1) düsturu ilə hesablanmış qiymətlərinin müqayisəsinin nəticələri

Şəkil 1-dən göründüyü kimi, reley səpələnmə əmsalının model vasitəsilə hesablanmış qiymətləri ilə ədəbiyyat mənbələrində verilmiş qiymətlər bir birinə çox yaxındır və onlar arasındakı çox yüksək korrelyasiya əmsalı

(r=0.9999) bunu təsdiq edir. Bu məlumatlar modelin adekvatlığını göstərir və müvafiq məsələlərin həllində bunu uğurla istifadə etmək olar.

Modelin imkanlarının daha da detallaşdırılmış tədqiqi üçün ədədi hesablama eksperimentləri aparılmışdır.

Eksperimental hesablamalar-təqdim olunmuş modelin imkanlarını daha detallaşdırılmış formada hesablamağa imkan verir. Hesablamalar dalğa uzunluqlarının, havanın temperaturunun, atmosfer təzyiqinin və su buxarının parsial təzyiqinin müxtəlif qiymətləri üçün aparılmışdır.

Şəkil 1-dən görünür ki, elektromaqnit dalğalarının uzunluğu artdıqca reley səpələnmə əmsalı sürətdə azalır. Məsələn, hesablamalar göstərmişdir ki, dalğanın uzunluğu 0.20 mkm-dən 0.55 mkm-ə qədər artdıqda (yəni, λ 2.75 dəfə artdıqda) səpələnmə əmsalı ≈78 dəfə azalır.

Havanın temperaturunun dəyişməsinin reley səpələnmə əmsalına təsirinin qiymətləndirilməsi iki variant üçün aparılmışdır. Bu variantlarda havanın təzyiqi P=760 mm. c.st., havanın temperaturu isə hər 5^0C-dən bir 0^0C-45^0C-arası artırması qanunauyğuluğu ilə qəbul edilmişdir. Atmosfer mühiti kimi, hava və karbon qazı mühitinə baxılmışdır. Hava üçün (2) düsturundakı depolyarizasiya dərəcəsi δ=3,5% (və ya 0,035), karbon qazı üçün isə δ=9,7% (və ya 0,097)-dir.

Birinci variantda λ=0.20 mkm götürülmüşdür. Hesablamaların nəticələri şəkil 2-də verilmişdir.



Şəkil 2. Hava (T_0,20_hava) və karbon qazı (T_0,20_CO_2) mühitində reley səpələnmə əmsallarının havanın temperaturunun dəyişməsindən asılı olaraq dəyişməsi (p=760 mm c.st.; λ=0.20 mkm)

Buradan görünür ki, havanın temperaturunun reley əmsalına təsiri xətti xarakter daşıyır və temperatur artdıqca, əmsal da artır. Bu dəyişmələr hava mühiti üçün 1.00 1/km (0^0C) – 1.60 1/km (45^0C), karbon qazı mühiti üçün isə 0.90 1/km (0^0C) – 1.40 1/km (45^0C) intervalındadır. Hər iki mühit üçün temperaturun hər 5^0C artması zamanı reley səpələnmə əmsalı ≈0.05 1/km artır.

İkinci variantda isə λ=0.55 mkm götürülmüşdür. Hesablamalar yenə də hava və karbon qazı mühiti üçün aparılmışdır. Nəticələr şəkil 3-də göstərilmişdir.



Şəkil 3. Hava (T_0.20_hava) və karbon qazı (T_0.20_ CO_2) mühitində reley səpələnmə əmsallarının havanın temperaturunun dəyişməsindən asılı olaraq dəyişməsi (p=760 mm c.st.; λ=0.55 mkm)

Buradan görünür ki, birinci variantda olduğu kimi, ikinci variantda da havanın temperaturunun reley əmsalına təsiri xətti xarakter daşıyır və temperatur artdıqca, əmsal da artır. Bu dəyişmələr hava mühiti üçün 0.013 1/km (00C) – 0.090 1/km (450C), karbon qazı mühiti üçün isə 0.0115 1/km (00C) – 0.0185 1/km (450C) intervalındadır. Hər iki mühit üçün temperaturun hər 50C artması zamanı reley səpələnmə əmsalı ≈0.00062 1/km artır.

Hesablamalar göstərmişdir ki, atmosfer təzyiqi öz standart qiymətindən 20 mm c.st. artdıqda reley səpələnmə əmsalı 1,02 dəfə artır. Təzyiq həmin qiymət qədər azaldıqda isə - 1.02 dəfə azalır.

Növbəti mərhələdə havanın temperaturu T=00C; p=760 mm c.st., su buxarının parsial təzyiqinin (P_w) qiymətlərinin isə hər 3 hPa-dan bir 0- 27 hPa-a qədər dəyişməsi qəbul edilmişdir. Yenə də hava və karbon qazı mühitinə

baxılmışdır. Hesablamalar həm λ=0.20 , həm də λ=0.55 mkm üçün aparılmışdır.

λ=0.20 mkm üçün hesablamaların nəticələri şəkil 4-də verilmişdir.



Şəkil 4. λ=0.20 mkm halında su buxarının parsial təzyiqinin dəyişməsindən asılı olaraq hava və karbon qazı mühitində releyi səpələnmə əmsalının qiymətlərinin dəyişməsi

Şəkildən göründüyü kimi, hava mühitində su buxarının parsial təzyiqinin 0-dan 27 hPa-a qədər artması zamanı releyi səpələnmə əmsalı 1.010-dən 1.000 1/km-ə qədər azalır. Karbon qazı mühiti üçün isə bu dəyişmə 0.905 – 0.888 1/km intervalında baş verir.

λ=0.55 mkm variantı üçün hesablamaların nəticələri şəkil 5-də verilmişdir.



Şəkil 5. λ=0.55 mkm halında su buxarının parsial təzyiqinin dəyişməsindən asılı olaraq hava və karbon qazı mühitində reley səpələnmə əmsalının qiymətlərinin dəyişməsi

Şəkil 5.-dən göründüyü kimi, hava mühitində su buxarının parsial təzyiqinin 0-dan 27 hPa-a qədər artması vaxtı reley səpələnmə əmsalı 0.0130 – 0.0127 1/km-ə qədər azalır. Karbon qazı mühiti üçün isə bu dəyişmə 0.0116 – 0.0115 1/km intervalında baş verir.

ƏDƏBİYYAT

1. Белов М. Л., Городничев В. А., Пашенина О. Е. Сравнительный анализ мощности входных сигналов лазерных систем локации и видения ультрафиолетового диапазона # 08, август 2013 DOI: 10.7463/0813.0587120 // Научное издание МГТУ им. Н.Э.Баумана, Электронный научно-технический журнал «Наука и образование»: http://technomag.bmstu.ru/doc/587120.html

2. Васильев А.В. Экспериментальные модели атмосферы и земной поверхности. Балт. гос. техн. ун-т. – СПб., 2008. – 171 с.

3. Васильев Б.И., Маннун У.М. ИК лидары дифференциального поглощения для экологического мониторинга окружающей среды. Квантовая электроника, 2006, т. 36, № 9, с. 801–820.

4. Нестеров С.В. Лабораторные работы по курсу «Оптико-электронные системы передачи и извлечения информации» /«Московский Авиационный Институт (национальный исследовательский университет)», Филиал «Взлет», Москва, 2015, 21с.

5. Пудовкин О.Л. Дистанционное зондирование из космоса: основы атмосферной оптики. М.: 2013, 81 с. [Электрон ресурс] URL: magru.net/pubs/4084/.

6. Сивухин Д.В. Общий курс физики. Оптика. М., Наука, 1980, 751 с.

7. Сутырина Е.Н. Дистанционное зондирование земли : учеб. пособие / Е. Н. Сутырина. – Иркутск : Изд-во ИГУ, 2013. – 165 с.

8. Сушкевич Т.А. Математические модели переноса излучения. М., БИНОМ. Лаборатория знаний, 2005, 661с.

9. Сушкевич Т.А., Стрелков С.А., Иолтуховский А.А. Метод характеристик в задачах атмосферной оптики. М., Наука, 1990, 296с.

10. Терез Э.И., Терез Г.А., Лагунова М.И. Учет Релеевского рассеяния земной атмосферы при фотометрических наблюдениях // Ученые записки Таврического национального университета имени В.И.Вернадского, Серия «Физика». Том 21 (60). 2008 г. № 1. с. 117 – 124.

11. Тимофеев Ю.М., Васильев А.В. Основы теоретической атмосферной оптики (Учебно-методическое пособие). -СПб., 2007, 152 с.

12. Токарева О.С. Обработка и интерпретация данных дистанционного зондирования Земли, Томск, Изд-во Томского Политехнического Университета, 2010, 140 с.
13. Черногор Л.О., Рашкевич А.С. Возможности применения лазерных исследований атмосферы зоны чрезвычайной ситуации // Восточно-Европейский журнал передовых технологий, , 5/9(53), 2011, с.10-14.
14. Lu D., Mausel P., Brondizio E., Moran E. Assessment of atmospheric correction methods for Landsat Tm data applicable to Amazon basin LBA research // International Journal of Remoute Sensing. 2002. Volume 23. №13. – P. 2651-2671.

РЕЗЮМЕ

СУРХАЙ САФАРОВ, ФАРИДА ТАЛЫБОВА

МАТЕМАТИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ВЛИЯНИЯ МЕТЕОРОЛОГИЧЕСКИХ ЭЛЕМЕНТОВ НА МОЛЕКУЛЯРНОЕ РАССЕЯНИЕ СОЛНЕЧНЫХ ЛУЧЕЙ

В статье исследована актуальность решения проблемы по методу математического (численного) моделирования появившиеся вовремя оценки влияния метеорологических элементов, солнечных лучей, на рассеянии электромагнитных волн в атмосфере. Учитывая, что основным видом рассеяния солнечных лучей является молекулярная рассеянность, этот процесс решен как задача (Релей) математического моделирования оценки влияния метеорологических элементов на рассеянность электромагнитных волн в атмосфере. С этой целью выбрана структура математической модели, проверена адекватность её. Для детализированного исследования возможностей математического моделирования проведены эксперименты численного расчета. Здесь использованы различные значения длин волн температуры воздуха, парциальное давление водяного пара и атмосферного давления. Полученные результаты показывают, что предложенную модель можно удачно использовать в решении ряд практических задач.

Ключевые слова: электромагнитные волны солнечных лучей, молекулярное (челейное) рассеяние, математическое моделирования, влияние метеорологических параметров на молекулярное рассеянные.

SUMMARY

SURKHAY SAFAROV, FARIDA TALIBOVA

MATHEMATICAL MODELING OF METEOROLOGICAL ELEMENTS EFFECT ON THE MOLECULAR SCATTERING OF SOLAR RAYS

The article studies the urgency of solving the problem using the method of mathematical (numerical) modeling, which appeared in time of assess of the impact of meteorological elements, solar rays, on the scattering of electromagnetic waves in the atmosphere. Taking into account that molecular

scattering **(Rayleigh)** is the main type of solar rays scattering, this process is solved as the problem of mathematic modeling of the effect of meteorological elements on the dispersion of electromagnetic waves in the atmosphere.

For this purpose, the structure of the mathematical model has been chosen, and its adequacy has been verified. Numerical calculation experiments were carried out for a detailed study of the possibilities of mathematical modeling. Here, different values of the wavelength, air temperature, the partial pressure of water vapor and atmospheric pressure are used. The obtained results show that the proposed model can be successfully used in solving a number of practical problems.

Keywords: electromagnetic waves of solar rays, molecular **(Rayleigh)** scattering, mathematical modeling, the effect of meteorological parameters on molecular scattering.

(*Coğrafiya üzrə fəlsəfə doktoru, dosent N.Bababəyli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

PEDAQOGİKA VƏ PSİXOLOGİYA

VAHİD RZAYEV
Naxçıvan Dövlət Universiteti
vahidrzayev@mail.ru

NAXÇIVANDA KƏND İBTİDAİ MƏKTƏBLƏRİNİN YARANMASI VƏ İNKİŞAFI TARİXİNDƏN

Məqalədə XIX əsrin sonu və XX əsrin əvvəllərində Naxçıvanda kənd ibtidai məktəblərinin yaranması və inkişafı məsələləri öyrənilmişdir. Regionun Yengicə, Cəlilkənd, Nehrəm və Cəhri kimi ilk kənd ibtidai məktəblərinin meydana gəlməsi, əhali arasında dünyəvi təhsilin yayılması sahəsində əhəmiyyəti açıqlanmış, təhsilin məzmununa daxil olan fənlər aşkar edilmiş, şagird kontingentinin milli və silki tərkibinin müəyyənləşdirilməsinə səy göstərilmişdir.

Açar sözlər: Naxçıvanda kənd ibtidai məktəbləri, Yengicə kənd ibtidai məktəbi, Baş Nöraşen (Cəlilkənd), Nehrəm, Cəhri ibtidai məktəbləri, təhsilin məzmunu, şagird heyyəti.

XIX əsrin sonlarında bütün Qafqazda olduğu kimi Naxçıvanda zemstvo (yerli idarəçilik orqanları) və ictimaiyyətin köməyi ilə kəndlərdə savad təlimini yaymaq məqsədilə ibtidai məktəblər açıldı. Bu məktəblərdə təlim rus dilində aparılır, təhsilin məzmunu dünyəvi səciyyə daşıyırdı. Tədris planına şagirdlərin dini mənsubiiyətinə uyğun olaraq provaslav dini etiqadı və müsəlman şəriəti, ana dili, rus dili, hesab, hüsnxətt fənnləri, yerli şəraiti nəzərə alaraq təsərrüfatın müxtəlif sahələri (bağçılıq, bostançılıq) və sənətlər (dülgərlik və s.) üzrə bacarıqlar daxil edilirdi. Bu tədris müəssisələri regionun kəndlərində maarif işığının ilk qaranquşu kimi əhalinin əhəmiyyətli bir hissəsinin maariflə əhatə olunması, təhsillənmə vasitəsi idi. Digər tərəfdən, bir çox kəndlərdə bu tip tədris müəssisələrinin meydana gəlməsi Naxçıvanda ümumi təhsil verən məktəblərin şəbəkəsinin yarandığından bəhs etməyə imkan verir.

Regionda ilk kənd ibtidai məktəbi o zaman Şərur-Dərələyəz qəzasının (indiki Şərur rayonunun) Yengicə kəndində fəaliyyətə başladı. Yengicə zemstvo ibtidai məktəbi 1882 - ci ildə fəaliyyətə başladı. Məktəbin ilk nəzarətçısı Qori Seminariyasının məzunu Mirzə Ələkbər Süleymanov, ilk şəriət müəllimi isə Molla Zeynalabdin Qurbanbəyov olmuşdur. 1886-1887-ci illərdə bölgənin tanınmış pedaqoqlarından Sadıx Xəlilov müəllim kimi, daha sonralar nəzarətçı kimi işləmişdir. Həsən Nəzirbəyov, Abdulla Kəngərli, Həsən Ağayev, Məmməd Zamanbəyov, Molla Əli Fərəcbəyov və başqaları məktəbin yaxşı

təhsil ənənələrinin yaranması və inkişafında əməyi olan pedaqoq-müəllimlər olmuşlar.

XIX əsrin sonlarında regionun kəndlərində maarif işığı kimi fəaliyyət göstərən təhsil müəssisələrindən biri də Baş Noraşen normal ibtidai məktəbi idi. Baş Noraşen (indiki Cəlilkənd) zemstvo ibtidai məktəbi 22 sentyabr 1885-ci ildə açılmışdı. Məktəbin açılışı böyük təntənə ilə keçmiş, geniş əks-səda doğurmuşdur. Qafqaz Tədris Dairəsinin 1885-ci ilə aid sərəncamlarında bu hadisə geniş şəkildə əks olunmuş, məktəbin ilk açılış günü təfərrüatı ilə təsvir edilmişdir. Məktəbin açılış gününün izdihamı haqqında ilk dəfə tədqiqatçı alimlərdən akademik Hüseyn Əhmədovun (1,237) və İsa Həbibbəylinin (2, 124) əsərlərində məlumat verilmişdir. Akademik İsa Həbibbəyli "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı tədqiqatında açılış günü ilə bağlı verilən məlumat verərək yazır: "22 sentyabrda Baş Noraşen kəndində 50 şagirdlə...ikisinifli zemstvo məktəbi açılmışdır. Açılış günü demək olar ki, bütün şagirdlər öz valideynlərinin arzusu ilə mahuddan təzə köynək geymişdilər. Məktəbin balkonu gül-çiçəklə bəzədilmişdi... Çiçəklərdən "Baş Noraşen zemstvo məktəbi" sözləri yazılmışdı. Təntənəli mərasim əhalinin böyük izdihamı və Şərur-Dərələyəz qəza rəisinin, yerli qazının və digər qəza rəhbərlərinin, habelə qadınların iştirakı şəraitində keçmişdir (2,124).

Həmin il Baş Noraşen ibtidai məktəbinə 50 nəfər şagird qəbul olunmuşdu. Onlardan 32 nəfəri azərbaycanlı, 18 nəfəri isə digər millətlərdən idi. Əsrin sonlarına qədər şagird heyyətinin sayı tədricən yüksəlmiş 65 nəfərə qədər çatmışdı. Şagirdlərin milli tərkibinə görə sayında bir qayda olaraq əksəriyyət azərbaycanlı uşaqlardan ibarət olmuşdur. Qeyd edək ki, digər kənd ibtidai məktəblərində olduğu kimi bu cəhət aşağı təbəqənin uşaqlarının kənd ibtidai məktəblərinə qəbul edilməsinə heç bir məhdudiyyətin qoyulmaması ilə bilavasitə bağlı idi. Bu işdə yerli özünüidarə orqanları tərəfindən məktəblərə göstərilən maliyyə yardımlarının, şəxsi təşəbbüs yolu ilə xeyriyyəçiliklə məşğul olanların, ayrı-ayrı tədbirlər vasitəsilə toplanmış ianələrin və digər vəsait mənbələrinin əhəmiyyətli rol oynadığını xüsusi olaraq qeyd etmək lazımdır.

Müxtəlif illərdə Baş Noraşen ibtidai məktəbində bölgənin qabaqcıl ziyalılarından Mirzə Əli Xəlilov, Məmməd bəy Qazıyev, Mirzə Ələkbər Süleymanov, Əbülqasım Sultanov, Tağı bəy Səfiyev, Rəhim Rəhimov kimi pedaqoqlar yetişən nəslin təlim və tərbiyəsi ilə məşğul olmuşlar. Böyük yazıçı, jurnalist Cəlil Məmmədquluzadədə bu məktəbdə dərs demiş, bu tədris müəssisəsində ilk qələm təcrübəsi olan bir pərdəli "Çay dəsgahı" pyesini şagirdlərin iştirakı ilə tamaşaya qoymuşdur.

Məktəbdə şəriət və Azərbaycan dili dərslərini Molla Yaqubəli Kərbəlayı Qurban oğlu, Molla Mirzə Fazil Fərzəlibəy oğlu tədris etmişlər.

Bütün dövrlərdə məktəbin şagird kontingentinin böyük əksəriyyətini azərbaycanlı uşaqlar təşkil etmişlər. Bunu Muxtar Respublikanın Dövlət Tarix Arxivində Baş Noraşen məktəbinə aid müxtəlif illər üzrə saxlanılan sənədlər əsasında tərtib etdiyimiz cədvəldən də aydın görmək olar:

İllər Azərbaycanlı şagirdlər Rus və qeyri millətlərdən olan şagirdlər Cəmi

1900	50	42	92
1901		49	35	84
1904		67	27	94
1906		78	19	97
1912		90	24	114
1913		105	133	28
1914		92	9	101

Bəhs olunan dövrdə məktəbin fəaliyyəti üçün əhəmiyyətli sayıla biləcək bir cəhəti də göstərmək lazımdır. Bu cəhət məktəbin 1904-cü tədris ilinə aid hesabatında şagird kontingentinin ümumi sayında 4 qızın təhsil aldığına aid qeydin olması ilə əlaqədardır. Onlar rus əsilli olsalar da, bu tədris ocağında qızların təhsilə cəlb edilməsi ilə bağlı ilk təşəbbüs sayıla bilər. Sonralar, məktəbdə təlim alanların içərisində azərbaycanlı qızların da təhsil aldığını görürük. Baş Noraşen ikisinifli ibtidai məktəbinin 1915-ci ilə aid şagirdləri siyhısında iki nəfər məktəbli qızın adı çəkilir ki, bunlardan biri Səfiyeva Dilbər Teymur bəy qızı, digəri isə dini mənsubiyyətinə görə provaslav olan Sakayeva Valentina Zaxarovna olmuşdur.

Arxiv sənədləri əsasında müəyyənləşdirə bildiyimiz belə bir cəhəti qeyd edək ki, Baş Noraşen ikisinifli zemstvo ibtidai məktəbində ətraf kəndlərdən gələn çoxlu sayda şagird təhsil alırdı. Ulya Noraşen (indiki Oğlanqala), Aralıx, Qarxun, Qarabulaq, Mahmudkənd, Vərməziyar, Düdəngə, Zeyvə, Əskikənd, Kosacan, Siyaqut, Sərxanlı, Muğancıq arxiv sənədlərində adı çəkilən belə kəndlərdir.

Qədim diyarın ilk kənd ibtidai məktəblərindən biri də Nehrəm zemstvo normal məktəbi idi. Nehrəm ibtidai məktəb rəsmi olaraq 11 sentyabr 1985-ci ildə açılmışdır. Bu tədris müəssisəsi də yerli icma tərəfindən maliyələşdirildiyindən zemstvo məktəbi adlanırdı. Nehrəm ibtidai məktəbi də ikisinifli idi. Bu tədris müəssisəsi də şagirdlərin milli tərkibinə görə azərbaycanlıların üstünlük təşkil etdiyi ibtidai kənd məktəblərindən biri idi. Məktəbdə Ələsgər Şeyxəsənov, Cəlil Məmmədquluzadə, Sadıx Xəlilov, Kərim İsmayılov, Tağı bəy Səfiyev, Mirzə Cəlil Mirzəyev kimi dövrünün tanınmış maarifçiləri müxtəlif illərdə ştatlı nəzarətçi və müəllim kimi işləmişlər. Məktəbin fəaliyyət göstərdiyi dövr ərzində Molla Qasım Molla Zeynalabdin oğlu, Molla Məmmədqulu Molla Əbdülhəsən oğlu, Molla Məmmədqulu Qazıyev şəriət və Azərbaycan dili fənnini tədris etmişlər. Kərbalayi Cəfər Əli Kərbalayi Adıgözəl oğlu isə uzun müddət məktəbin fəxri nəzarətçisi kimi fəaliyyət göstərmişdir.

Nehrəm məktəbinin təlim-tərbiyə işlərində irəliləyişin, inkişafın yaranmasında böyük yazıçı Cəlil Məmmədquluzadənin xüsusi əməyi olmuşdur. O,15 yanvar 1890-cı ildən 1897-ci ilin iyun ayınadək Nehrəm ibtidai məktəbinin ştatlı nəzarətçisi işləmişdir. Nəhz onun səyləri nəticəsində bu təhsil ocağının şagird kontingentinin sayı 40 nəfərə çatmışdır. Böyük maarifçinin

səyləri nəticəsində Nehrəmin, ümumən Naxçıvan bölgəsinin mədəni həyatı üçün hadisə sayıla biləcək tədbirlərdən biri məktəbin nəzdində qız bölməsinin yaradılması idi. 8 nəfər Azərbaycanlı qızı təhsilə cəlb edə bildiyinə görə C.Məmmədquluzadə İrəvan xalq məktəblər direksiyasının təşəkkürünə layiq görülmüşdür.

Cəlil Məmmədquluzadə məktəbdə bir maarifçi kimi kəndin içtimai-mədəni həyatında da fəal iştirak etmişdir. O, Nehrəm məktəbində ilk dəfə olaraq diyarşünaslıq muzeyi yaratmağa nail olmuşdur. İşlədiyi kənddə, onun ətraf ərazilərində "yerli iqlimi və təbiəti öyrənməyə" çalışır.Torpağın şumlanması zamanı əhalinin əməyini yüngülləşdirmək üçün Tiflisdən dəmir kotan almağa nail ola bilməsi kənd camaatı arasında müəllim Mirzə Cəlilin nüfuzunu daha da artırmışdır.

Nehrəm ibtidai məktəbini milli mənsubiyyətinə görə azırbaycanlılardan təşkil olunmuş təhsil müəssisəsi kimi xarakterizə etmək olar. 1901-ci ildə təhsil alan şagirdlərin siyahısına nəzər yetirdikdə aydın olur ki, məktəbdə təhsil alan şagirdlərin hamısı azərbaycanlı uşaqlardan ibarət olmuşdur. Həmin siyahıda adları çəkilən şagirdlər aşağıdakılardır:

I şöbə:

1. Əliqulu Vəzirov
2. Əhmədli Əhmədəliyev
3. Abbas Bağırov
4. Allahverdi Hacıyev
5. Bəhlul Əliyev
6. Həsənqulu Abbasov
7. Həbib Ələkbərov
8. Hüseyn Məmmədov
9. Həsənəli Mehdiyev
10. İbrahim Nəsirov
11. İbadulla Abdullayev
12. İbrahim Əliyev
13. Qurban Mollayev
14. Muxtar Nağdəliyev
15. Murtuza Hacıyev
16. Sadıx Əliyev
17. Mehdi Həsənov
18. Tağı Həsənov
19. Tağı Mehdixanov

II şöbə

20. Əhməd Həşimov
21. Əhməd Nağdəliyev
22. Hüseyn Əbdülhəsənov
23. Nüseyn Nağıyev
24. Muxtar Mehtiyev

25. Məmmədnazım Abdullayev
26. Məmməd Həsənov
27. İbrahim Həsənov

III şöbə

28. Abbas Əbdülhəsənov
29. Heydər Vəzirov
30. Qadirağa Qadirov
31. Qulu Tarquluyev
32. Tağı Nağdəliyev

IV şöbə

33.Abas Abasov
34.Məmməd Nağdəliyev
35. Mehti ağa Vəzirov (3,13).

Məkəbin 1905-ci ilə aid hesabatında şagird heyəti 41 nəfərə çatmışdır. Bu artım yenə də azərbaycanlı uşaqların hesabına olmuşdur. I şöbədə 16 nəfər, II şöbədə 7 nəfər, III şöbədə 10 nəfər, IV şöbədə 5 nəfər, V şöbədə isə 3 nəfər. Qeyd edək ki, yuxarı şöbələrdə şagirdlərin azlığı müxtəlif səbəblərdən asılı idi.

Digər təhsil müəssisələrində olduğu kimi Nehrəm məktəbində də içtimai-mədəni tədbirlər keçirilir, ümumimperiya səviyyəsində keçirilən tədbirlərdə - yazıçı və şairlərin, elm və dövlət xadimlərinin yubilyei ilə bağlı tədbirlərdə, birinci dünya müharibəsində həlak olanların ailəsinə, yaralı əsgərlərə yardım məqsədilə inanə toplanışında fəal iştirak edirdilər. Naxçıvan Dövlət arxivində saxlanılan bir sənəddə hərbi xəstəxanada müslicə olunan yaralı əsgərlər üçün məktəbin müəllim və şagirdlərinin 1915-ci ilin may-iyun aylarında topladığı ianənin adlı siyahısı saxlanılır. Sənəddən aydın olur ki, bu humanist xarakterli tədbirdə Nehrəm məktəbinin aşağıdakı adı çəkilən müıllim və şagirdləri iştirak etmişlər:

1. Nəzarətçi Məmmədbağır Məmmədəliyev - 50 qəpik
2. Rəhim Rəhimov (müəllim) - 50 qəpik
3. Hacı Molla Məmmədqulu Qazıyev (müəllim) - 50 qəpik
4. Nəcəf Ələsgərov - 10 qəpik
5. Niftəli Niftəliyev - 10 qəpik
6. Mirhəmzə Seidov - 10 qəpik
7. Fərəculla Hacıyev - 10 qəpik
8. Qulamhüseyn Fərzəliyev - 10 qəpik
9. Tağı Tağıbəyov - 20 qəpik
10. İsmayıl Hacıyev - 13 qəpik
11. Cəlil Hacıyev - 20 qəpik
12. Usubəli Usubəliyev - 10 qəpik
13. Yadulla Mehtiyev - 10 qəpik
14. Ələsgər Məmmədov - 10 qəpik
15. Hüseynqulu Vəzirov - 10 qəpik

16. Qasım Tağıbəyov - 10 qəpik
17. Abasqulu Teymurov - 10 qəpik
18.Abbas Məmmədquliyev -3 qəpik (4,133)

Digər ibtidai məktəblər kimi Nehrəm məktəbində də ciddi intizam var idi. Xüsusilə uşaqların dərsə dəvamiyyətinə ciddi nəzarət olunur, dərs buraxma hallarına qarşı müəyyən tədbirlər görülürdü. Valideynləri maarifləndirmək, bu işdə onların fəallığını artırmaq daha geniş yayılmış tədbir formalarından biri idi.Arxiv sənədləri göstərir ki, bəhs olunan dövrün təhsil müəssisələrində, xüsusi ilə kənd məktəblərində dərs buraxma hallarının ciddi qeydiyyatının keçirilməsinə baxmayaraq çox vaxt belə bir xoşa gəlməz vəziyyətin qarşısı alınmaz olmuşdu. Nehrəm məktəbinin müəllimləri də belə bir arzu olunmaz hallarla tez - tez qarşılaşmalı olurdu. Uşaqların dərs buraxma hallarının səbəbləri göstərilərək (xəstəlik üzündən, üzürlü, üzürsüz səbəblərdən) sinif jurnalında qeyd olunurdu. Məsələn, məktəbin şagirdlərinin 1901-ci ilə aid dərs buraxma hallarının qeydiyyatı aparılmışdır. Bu qeydlərdən aydın olur ki, məktəbdə tədris ili ərzində xəstəlik üzündən 153, üzürlü səbəblərdən 156, üzürsüz səbəblərdən izə 183- cəmi 492 dərs buraxma halı olmuşdur (5, 24).

Məktəbin tədris vəsaitləri ilə təmin olunmasına xüsusi diqqət yetirilirdi. Tədris müəssisəsinin nəzarətçisi Sadıx Xəlilovun 1899-cu ilə aid raportundan aydın olur ki, həmin ildə yeni tədris vəsaitləri alınmasına gümüş pulla 100 manat xərclənmişdir. Şagird kitabxanasının və əsaslı kitabxananın fondlarından uşaqların istifadəsinə verilmiş müxtəlif məzmunlu kitabların və tədris vəsaitlərinin təmiz, səliqəli saxlanmasına, yüksək səviyyədə qorunmasına xüsusi diqqət yetirilirdi. Arxiv sənədlərində məktəbdə 2 aprel 1914-cü il tarixdən 14 aprel 1915-ci il tarixədək III,IV və V şöbələrdə oxuyan uşaqlara şagird kitabxanasından verilmiş kitablar haqqında bir hesabat saxlanılır. Hesabatda şagirdlər və onlara hansı kitabların verildiyi barədə məlumat verilir. Hesabat yuxarıda göstərilən şöbələrin bütün şagirdlərini əhatə edir.

Siyahıda mütailəni sevən, fəal şagirdlərdən bir neçəsinin adı qeyd olunur. Aşağıda həmin şagirdlər və onların mütailə etdikləri əsərlərin adlarını göstəririk:

1) Tağıbəyov Tağı - “ Гуси и лебеди “
2) Muxtarbəyov Novruz - “ Собака на службе человеку “
3) Süleymanov Bağır - “ Аленушка “
4) Fərzəliyev Hüseyn - “ Колобок “
5) Seyidov Mirhəmzə - “ Страшная поза “
6) İsmayıl Hacıyev - “ Дети в деревни “
7) Axundov Qasım - “ В родной деревне “
8) Əlibəyov Möhsün - “ Ревизор “
9) Mollayev Əbdülhüseynəzim - “Taras Bulba” və s (4, 38-40).

Naxçıvan Dövlət Tarix Arxivində saxlanılan kasıb uşaqların siyahısından ibarət bir sənəddə maraq doğurur.Tədqiqat göstərir ki, bu cür siyahıya alma digər təhsil müəssisələrində də olmuşdur. Kasıb uşaqların tədris ləvazimatı və geyimlə təmin olunması xeyriyyəçilik və ianələr yolu ilə həyata keçirilirdi.

1912-ci ildə Nehrəm məktəbində təhsil alan kasıb uşaqların birinci şöbə üzrə siyahısı aşağıdakı kimi tutulmuşdur:

I şöbə:

1. Ələkbər Axundzadə
2. Əbülfəz Seyidov
3. Həsən Fətəliyev
4. Mirhəmzə Seyidov
5. Mircəlil Seyidov
6. Məmmədəli Məmmədəlizadə
7. Əhməd Abbasəliyev
8. Əbdüləzim Mollayev (III şöbə)
9. Qulam Qasımov (6,47).

Cəhri kənd zemetvo ibtidai məktəbi Nehrəm kənd ibtidai məktəbindən bir gün sonra, yəni 12 sentyabr 1885-ci ildə təsis olunmuşdur. Bu təhsil müəssisəsi regionda meydana gələn və inkişaf edən kənd məktəblərindən biri kimi əhalinin təhsillınməsi işində müəyyən səviyyədə əhəmiyyətə malik tədris ocaqlarından idi. Milli mənsubiyyətinə görə məktəbin şagird heyyəti müxtəlif millətlərin uşaqlarından ibarət olsa da çox zaman azərbaycanlı uşaqlar üstünlük təşkil etmişdir. Yarandığı gündən Rusiyada bolşevizmin qələbəsinədək olan dövr ərzində məktəbdə şəriət və azərbaycan dili müəllimləri istisna olmaqla cəmi iki nəfər azərbaycanlı müəllimin - İrəvan seminariyasının məzunu Əli Abbasovun və Əli Rza Rəsizadənin işlədiyini görürük. Digər çox saylı müəllim dəstəsi, ştatlı və fəxri nəzarətçilər başqa millətlərdən ibarət olmuşdur. Müşahidə və təhlillərimiz gğstərir ki, bu cür vəziyyətin azərbaycanlı uşaqların təhsilə cəlb edilməsi işində müəyyən mənfi təsirləri olmuşdur. Muxtar Respublikanın Mərkəzi Dövlət Arxivində saxlanılan bir sənəd fikrimizi təsdiq edir. Cəhri kənd sakinləri adından İrəvan quberniya xalq məktəbləri direktoruna göndərilmiş ərizədə kəndin sakinləri başqa millətlərdən olan mənəviyyatsız müəllimlərin davranış və hərəkətlərindən əziyyət çəkdiklərini, narahat olduqlarını bildirirlər. Kənd camaatı təlim- tərbiyə işinə ziyan vuran, pedaqoq nüfuzuna ləkə gətirən müəllimlərin uşaqların təlim-tərbiyəsi işindən uzaqlaşdırılmasını maarif məmuruna bildirməyi vacib sayaraq öz şikayətlərini ifadə edən ərizəni aşağıdakı məzmunda hazılamışdılar:

“İrəvan quberniyasının cənab zati-aliləri xalq məktəblər direktoruna

20 sentyabr 1912-ci il

Naxçıvan qəzasının Cəhri kənd sakinləri tərəfindən

Ərizə

Zati aliləri biz dəfələrlə kəndimizin istər oğlan məktəbinin, istərsə də qız məktəbinin nəzarətçilərinə əxlaq və davranış çərçivəsində məlumat verdik və onlardan bizim də həmin məktəblərə göçürülməyimizi (uşaqlarımızın bu məktəblərdə təhsil almasını – V.R) xahiş etdik, lakin nədənsə bizim xahişimiz sizin rəhbərlik etdiyiniz Direksiyada hər dəfə nəticəsiz qaldı.

Yenicə başlanmış tədris işində bütün uşaqlar məktəbdə oxumağa həvəslə gəlir, lakin niyə onlar Q. Sandekov və Q. Ter – Ambakumyans kimi mənəviyyatsız pedaqoqların yanında oxumalıdırlar.

Onlar yalnız təlim-tərbiyə işinə ziyan vurmur, həmçinin onu xeyli dərəcədə aşağı salır, bununla da pedaqoq avtoritetini aşağı salır. Pedaqoqlar özünün mövqeyinə görə yüksəkdə durmağı bacarmalı, heç bir halda təlim-tərbiyə işlərinə ziyan gətirməməlidir. Belə halda pedaqoq adını daşıyanlar məktəb daxilində davranışlarının yol verilməzliyi ilə gənc nəslin maraqlarına (mənəviyyatına) ziyan vurar.

Zatı aliləri yuxarıda söylədiklərimiz haqqında Sizə məlumat verərək acizanə xahiş etməyi özümüzə şərəf bilirik ki, bizim kənd məktəbindən Q. Sandekov və Q. Ter - Ambakumyansı kənar etməklə Siz bizim uşaqların təlimə davam etmələrinə imkan yaradarsınız. Bizim kənd məktəbindən qeyd edilmiş pedaqoqları kənar etmək üçün lazımi ölçü qəbul edilməlidir. Əks halda bizi məcbur etməklə məktəbə mümkün olan qədər uşaq göndərə bilmərik.

Cəhri kəndi

18 sentyabr 1912-ci il" (7,54).

Kənd sakinlərinin məktəblər direktoruna şikayət ərazisindən göründüyü kimi müxtəlif məzmunda səbəblər, o cümlədən qeyri-millətlərdən olan müəllimlərin mənəviyyatsız, nəlayiq hərəkətləri əhalinin məktəblərə marağının artmasına, uşaqların kütləvi şəkildə təlim işinə yönəldilməsinə maneə yaradırdı. Əhalinin səylərinə baxmayaraq dəfələrlə etdikləri müraciətlər nəticəsiz qalmışdır. Beləliklə, bu adı çəkilənlərin əxlaqa zidd davranışlarını və digər antipedaqoji hərəkətləri nəzərə alsaq, bütövlükdə müəyyən obyektiv və subyektiv səbəbləri ifadə etməli olsaq göstərməliyik ki, əhalinin məktəbə maraqlarının qarşısının alınması onların yalnız öz milli və dini hissələri ilə bağlı olmamış, həmçinin çarizmin yerli idarəşilik siyasəti, xristianlıq təssübkeşliyi ilə də birbaşa əlaqədar olmuşdur.

Lakin bütün bu maneələrə, sədlərə baxmayaraq, Cəhri kəndinin əhalisi də övladlarının dünyavi təhsil verən məktəblərə qoymaqda maraqlı idi. Əksər hallarda məktəbin şagird heyyətində azərbaycanlı uşaqlar üstünlük təşkil edirdi.Məsələn 1903-cü ilin 23 sentiyabırına aid olan məlumata görə Cəhri ibtidai məktəbində 41 nəfər oğlan uşağı tıhsil alırdı (8, 6). Birinci sinfin aşağı şöbəsində təhsil alan 20 şagirddən 13-ü azərbaycanlı uşaqlardan ibarət olmuşdur. Həmin uşaqlar Əbdüləli Axundov, Əsədullia Axundov, Əhməd ağa Mirkərimov, Məşədi Kazım Axundov, Müseyib Axundov, Sadıx Axundov, Ələsgər Bayramov, İbrahim Bayramov, Hüseyn Qənbərov, Hüseyn Əliyev, Qulu Quluyev, Yusif Zeynalabdinov, Məhərrəm İbrahimovdan ibarət şagird heyətini təşkil edirdi (8,32).

Məktəbin fundamental və şagird kitabxanası da yaxşı təşkil olunmuş kənd ibtidai məktəb kitabxanalarından biri sayılırdı. Məktəb kitabxanasının fondu 1 yanvar 1911-1 yanvar 1913-cü illərdə aşağıdakı cədvəldə göstərildiyi kimi idi.

Kitabxananın vəziyyəti	Fundamental	Şagird	Cəmi

İllər üzrə	Neçə adda	Neçə nüsxə	Dəyəri	Neçə adda	Neçə nüsxə	Dəyəri	
1 yanvar 1913-cü il	357	1172	II	378	407	II	
1 yanvar 1913-cü il	735	1579	II	373	1241	II	
1912-ci ilə nisbətən artmışdır	783	1731	II	219	79	II	
	11	11	II	49	79	II	

Arxiv sənədlərində məktəbdə 1901-ci ildə 153 nəfər şagirdin təhsil aldığı göstərilir. Maraq doğuran cəhət onlardan 21 şagirdin qız olduğunun qeyd olunmasıdır. (9,72). Digər bir arxiv sənədində də 1910-cu ildə Cəhri kəndində qızlar üçün məktəb təsis edildiyi haqqında məlumat vardır (10,6). Yuxarıda qeyd etdiyimiz kimi kənd sakinlərinin adından İəvan xalq məktəblər direktorunun adına göndərilən ərizədə də qız məktəbinin adı çəkilir.lakin bu halda geniş və ətraflı dəlil-sübutlar olmadığına görə problemin aydınlaşdırılması imkan xaricindədir. Çox yəqin ki, bu məktəb qarışıq (“смешенны”) məktəb kimi düşünülmüş, bu əsasda fəaliyyət göstərmişdir.

Bəhs olunan dövrdə Cəhri kəndində təhsil sahəsində yeniliklərdən biri ibtidai məktəbin nəzdində Bazar günü məktəbinin açılması idi. Bu məktəb Cəhri və ona yaxın kəndlərin əhalisinin savadlandırmaq məqsədi daşıyırdı (12,12).

Cəhri kənd zemetvo normal ibtidai məktədində kənd təsərrüfatı və sənət şöbələri fəaliyyət göstərirdi ki, bu da şagirdlərin gələcəkdə yerli şəraitə uyğun peşələrə yiyələnməsinə hesablanmışdı.

Bölgədə XIX əsrin 80-ci illərində meydana gələn kənd ibtidai məktəbləri dövrün, zamanın tələbi, əhalinin dünyavi təhsilə ehtiyaclarından irəli gələn təhsil hadisəsi idi. Bu təhsil müəssisələri bölgənin əhalisinin böyük əksəriyyətini təşkil edən kənd əhalisinin savad təliminin zəmanəyə uyğun qurulması, kəndli kütlələrinin yeni baxışlarla tanışlığı, rus və Qərbi Avropa mədəniyyətinin geniş arealda yayılması vasitəsi kimi əhəmiyyəti böyük idi. Bu məktəblərin bir çoxunda milliyyətcə azərbaycanlı müəllimlər işləyirdilər ki, onlar yalnız müəliimliklə işlərini bitmiş hesab etmir, kənd camaatının maarifləndirilməsi məqsədi ilə bir ziyalı kimi müxtəlif mədəniləşdirici tədbirlər həyata keçirmək üçün öz qüvvə və bacarıqlarını əsirgəmirdilər.

Ədəbiyyat

1. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi, Bakı, Təhsil, 2006
2. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə mühiti və müasirləri, Bakı, Azərnəşr, 1997
3. Naxçıvan DTA,f.26, s.1, iş. 47/46
4. Naxçıvan DTA,f.26, s.1, iş. 50/51
5. Naxçıvan DTA,f.26, s.1, iş.47/46

6. Naxçıvan DTA,f.26, s.1, iş.49/50
7. Naxçıvan DTA,f.26, s.1, iş.65/66
8. Naxçıvan DTA,f.26, s.1, iş.64/65
9. Naxçıvan DTA,f.26, s.1, iş.03/04
10. Naxçıvan DTA,f.26, s.1, iş.65/65
11. Naxçıvan DTA,f.26, s.1, iş.66/66
12. Gürcüstan MDA,f.422, s.1, iş.5849

РЕЗЮМЕ

ВАХИД РЗАЕВ

ИЗ ИСТОРИИ СОЗДАНИЯ И РАЗВИТИЯ СЕЛЬСКОЙ НАЧАЛЬНОЙ ШКОЛЫ В НАХЧЫВАНЕ

В статье рассматриваются вопросы создания и развития сельских начальных школ в Нахчыване в конце XIX - начале XX вв. Создание начальных школ региона, таких как Енгиджа, Джалилкенд, Неграм и Джагри, была обоснована важность распространения светского образования среди населения, выявлены предметы, включенные в содержание образования, и были предприняты усилия для определения национального и сословного состава ученического контингента.

Ключевые слова: сельские начальные школы в Нахчыване, начальная школа села Енгиджа, Баш Норашен (Джалилкенд), Неграм, Джагри, содержание образования, ученический состав.

SUMMARY

VAHID RZAYEV

ABOUT THE HISTORY OF THE ESTABLISHMENT AND DEVELOPMENT OF RURAL PRIMARY SCHOOLS IN NAKHCHIVAN

The article studies the establishment and development issues of village primary schools in Nakhchivan in the late XIX and early XX centuries. The importance of the establishment of village primary schools of the region such as Yengija, Jalilkend, Nehram and Jahri and growing of secular education among the population was explained, the subjects included in the content of education were found out, and efforts were made to identify the national and the social composition of the student contingent.

Key words: village primary schools in Nakhchivan, Yengija village primary school, Bash Norashen (Jalilkend), Nehram, Jahri primary schools, content of education, student staff.

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

SƏBUHİ İBRAHİMOV
“Naxçıvan” Universiteti
s.ibrahimov71@mail.ru

NAXÇIVAN İSLAM ALƏMİNİN AYRILMAZ TƏRKİB HİSSƏSİDİR

Məqalədə aparılan əsas araşdırmalar Naxçıvanın İslam aləmi ilə sıx sürətdə bağlılığı, İslam dininin Naxçıvan əhalisinin mənəvi-mədəni irsinin zənginləşməsində mühüm rolu, bu ərazilərdə müxtəlif fəlsəfi fikir axınlarının olmasına həsr edilmişdir.

Həmçinin tədqiqatda göstərilir ki, on dörd əsrlik bir dövrdə həyatını islamı dəyərlər əsasında quran Naxçıvan ictimaiyyəti böyük mənəvi-mədəni irsə sahib olmuş, İslam dininin gözəlliklərini, humanist prinsiplərini, əxlaqi dəyərlərini həyata keçirməklə həm dahi şəxsiyyətlər, həm də çoxlu sayda nüfuzlu müctəhid adını qazanmış görkəmli insanları yetişdirmişdir.

Açar sözlər: Naxçıvan, İslam, dəyərlər, tarix, mədəniyyət.

Naxçıvan İslam aləminin ayrılmaz tərkib hissəsi olmaqla azərbaycançılıq məfkurəsini daim uca tutmuşdur. Naxçıvanın əlverişli coğrafi mövqeyi, eləcə də Qədim İpək Yolunun üzərində yerləşməsi xalqımıza fərqli mədəniyyətləri yaxından tanımaq imkanı qazandırmışdır. Yaradılan şərait, qurulan əlaqələr və saxlanılan münasibətlər nəticəsində yeni-yeni mədəniyyətləri, mifologiyaları, xalqları, dinləri və ideologiyaları tanımaqla yanaşı, həmin mədəniyyət və dinlərdən yararlanmaq da zərurətə çevrilmişdir. Bu da bu günkü Naxçıvan əhalisinin mənəvi irsinin zənginləşməsinə və inkişafına gətirib çıxarmışdır. Əzəli Azərbaycan torpağı olan Naxçıvanda yaranan mədəniyyət təkcə bir xalqa məxsus və lokal xarakterli olmamış, əksinə, ölkə hüdudlarını aşaraq geniş arealda yayılması, bu mədəniyyətin ümumbəşəri mahiyyətli qədim və zəngin cəhətləri ilə seçilmişdir. Belə ki, qədim türklər tarixən təktanrılı din olan Göy Tanrı dininə sitayiş etmişlər. Odur ki, İslam dinini qəbul etməklə ulu babalarımız nəinki milli kimliklərini itirmiş, əksinə, milli kimliyi İslam kimliyi ilə bütövləşərək və daha da zənginləşərək böyük türk-islam mədəniyyəti formalaşmağa başlamışdır. Məhz bu baxımdan da ilk öncə İslam aləmi ilə Naxçıvanı bağlayan amillərdən biri də din faktorudur.

Hadisələrə və yaranmış dini ideologiyalara ümumi konteksdə baxanda isə tarixən Naxçıvan ərazisində müxtəlif fəlsəfi fikir axınları, Gəmiqaya təsvirləri ilə Nuh Peyğəmbərin izləri, Əlincə qalası ətrafında müxtəlif Xəlvəti və Sufi təriqətləri, Qızılbaşlıq, Əhli-həqq və Hurufilik mistik cərəyanları yaranmış və çox zaman onlar qədim el yurdu Naxçıvanın sərhədlərini aşaraq ümumbəşəri dəyərlər qazanmışlar. Təsədüfü deyil ki, 2009-cu ildə Bakı şəhəri İslam Mədəniyyətinin paytaxtı olan zaman İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin

mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir.

Elə bu baxımdan da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2 iyun 2016-cı il verdiyi tarixi sərəncam qədim el yurdunun zəngin mənəvi və mədəni irsinə böyük dəyərin bariz nümunəsi olmaqla bərabər, Naxçıvanın İslam aləminin ayrılmaz bir hissəsi olduğunu bir daha bəyan edir: ***Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır.***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlərin lazımi səviyyədə keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:...

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı tədbirlər planını üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Belə ki, hər bir millətin, xalqın identifikasiyasının, adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin formalaşmasında inanc sistemi təsirli rola malikdir. Millətlərin hansısa dini qəbuletmə tarixi uzaq və ya yaxın ola bilər, lakin sosial həyatda, cəmiyyətin inkişafında, insanların həyat tərzində dinin özünəməxsus yeri vardır. Günümüzdə də din amili beynəlxalq münasibətlərdə nəzərə çarpan amil olmaqla yanaşı, insanların həyat tərzini və baxışlarını formalaşdıran faktor kimi qalmaqdadır.

Sonuncu səmavi kitab olan müqəddəs "Qurani-Kərim"in bir neçə ayələrində insanların İslam Peyğəmbəri Həzrəti Məhəmməd əleyhis-salamdan örnək götürməyi, Uca Yaradan qarşısında mütləq şəkildə təslim olması barədə buyurulmuş və bu, əslində, dinin mahiyyəti kimi təqdim edilmişdir. Belə ki, Qurani-Kərimdə: "**ان الدين عندالله الاسلام...**" ("Allah yanında (haqq olan) din, əlbətdə, İslamdır...") (1, Ali-İmran-19) deyə buyurulmuşdur. Həmçinin müqəddəs Qurani-Kərimin digər bir ayəsində isə: " **و من يبتغ غيرالاسلام دينا فلن يقبل منه و هو فى الاخرة من الخاسرين**" ("Kim İslamdan (yeganə Allaha təslim və itaətkar olmaqdan) başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!") (1, Ali-İmran-85) buyurulmuşdur.

Müqəddəs İslam dininin təşəkkül tapması və inkişafı elə həmin ayələrin fəlsəfi mahiyyətini ortaya qoyur. “İslam” sözü işlənmiş hər iki ayədə sonuncu səmavi dinin Allah yanında yeganə məqbul din sayılması vurğulanmışdır. Ali-İmran surəsinin 19-cu ayəsinin nazil olma səbəbini təfsir edənlər belə qənaətə gəlirlər ki, İslamdan qabaq olan dinlərin nümayəndələri; yəhudilər İudaizmin, xristianlar isə Xristianlığın ən üstün din olmasını iddia etdikləri zaman məlum ayələr nazil olmuşdur. Həmin ayədə Allah qatında əsl dinin əslində Uca Yaradana təslim olmaqdan ibarət olduğu bildirilmişdir.

İslam dini mahiyyət etibarilə bütün inanclara hörmətlə yanaşır və qarşılıqlı münasibət yaradır. Bu inancların bir din olaraq qəbul edilməsi də müqəddəs səmavi kitabda öz əksini tapır. Belə ki, Qurani-Kərimdə dünyada mövcud olan əsas dinlərə baxış tam şəffaf və aydın sürətdə özünü büruzə verməkdədir. Müqəddəs sonuncu səmavi kitab Qurani-Kərimdə “Zərdüştilik (Məcusilik), Yəhudilik, Sabilik, Məsihilik və İslamdan” (1, Həcc-17; Bəqərə-62) söz açılaraq, onlar ən azından din kimi göstərilmişdir.

Həmçinin Qurani-Kərimin bəzi ayələrində insanların doğru yola yönəlməsi, nicat tapması üçün onların imanı və saleh əməlləri vacib hesab edilir. Ayədə buyurulur: “Həqiqətən, iman gətirənlərdən (müsəlmanlardan), yəhudi, məsihi və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər” (1, Bəqərə-62).

Həmin ayələrin şərhinə baxsaq bir daha görərik ki, nazil olan ayə İslamdan əvvəl mövcud olmuş dinlərin insanları üçün nəzərdə tutulmuşdur. Eyni zamanda məntiq etibarilə belə məlum olur ki, İslam dininin zühurundan öncə dünyada yaşamış yəhudi, xristian və sabiilər arasında Allaha iman gətirib yaxşı əməl sahibi olanlar barədədir. Elə bu baxımdan da ayənin İslamın zühurundan sonrakı zamanlara heç bir aidiyyatı yoxdur.

Əldə edilən müqayisəli araşdırmaların məntiqi dəlili olaraq Həzrəti Məhəmməd əleyhis-salamın gətirdiyi dinin üstünlüyünü bilmədən və ya ümumiyyətlə bu dinin çağırışlarını eşitməmiş, yaxud onu düzgün dərk edə bilməyən qasirlər öz dinlərində Allaha inanıb yaxşı əməl sahibi olarlarsa, İlahi hikmət, mərhəmət və ədalət prinsipləri əsasında nicat tapacaqlar.

Naxçıvan İslam aləminin ayrılmaz tərkib hissəsi olmaqla bu dindən yararlanmış və görkəmli ziyalıları ilə Şərq dünyasında özünə layiqli yer tutmuş, bu dini dəyərlərin söykəndiyi Qurani-Kərimin ayə və surələri Naxçıvanda nəinki kitab mədəniyyətinin formalaşmasına, həmçinin daş yazı abidələrində də yazılıb saxlanılmaqdadır. Bu nəaliyyətlər isə müqəddəs İslam dinin vasitəsi ilə həyata keçirilmişdir. Təkcə Naxçıvandan çıxan yüksək elm, incəsənət və din xadimlərinin nüfuz dairəsi çox yüksək olmuşdur. Belə ki, otuza yaxın din xadiminin (müctəhidin) Naxçıvan mühitindən çıxması sözün əsl mənasında böyük məharət tələb edir (8, s. 198-239). Bu siçrayışa çatmaq üçün insanlar yalnız müqəddəs İslam dininə bağlılıqla nail olmuşlar. Məhz bu baxımdan da insanların mənəvi aləmini saflaşdıran nəinki İslam, bütün dinlərdə qardaşlış, mərhəmət və ədalət prinsipləri öz əksini tapır. Azərbaycan xalqının

ümummilli lideri Heydər Əliyev müqəddəs İslam dininin fəlsəfi mahiyyəti barədə deyirdi: "Ulu Peyğəmbərimiz Məhəmməd əleyhis-salamın yaydığı İslam dini və onun bütün müsəlman aləminə qoyduğu yadigar – Qurani-Kərim əsrlər boyudur ki, müsəlman dininə məxsus olan insanların həyatında çox böyük rol oynayır. Onların həyatı, yaşayışı, bu günü və gələcəyi, bu dünyada, o dünyada xoşbəxt olması üçün zəmin yaratdı" (5, s. 3).

İslam alimlərinə aid din tərifləri Qurani-Kərim və İslam inancları göz önündə saxlanılaraq verilmişdir. Bir nümunə olaraq Seyid Şərif əl-Gürganinin din tərifi verilə bilər: "Din, ağıl sahiblərini peyğəmbərin bildirdiyi gerçəkləri mənimsəməyə çağıran ilahi bir qanundur". Eyni tərif daha sonrakı bəzi qaynaqlarda da təkrar edilmişdir. Digər bir tərif isə belədir: "Din, ağıl sahibi insanları öz seçimləriylə şəxsən xeyirli olan şeylərə aparan ilahi bir qanundur". Məşhur İslam alimi Təhanəvi isə qismən fərqli bir din tərifi verir: "Din, ağıl sahiblərini öz iradələriylə indiki halda (dünyada) salaha, gələcəkdə (axirətdə) fəlaha göndərən, Allah tərəfindən qoyulmuş bir qanundur". Eyni müəllifə görə din qaynağı etibarilə Allaha, təbliği cəhətdən peyğəmbərə, tətbiq olunması baxımından da ümmətə nisbət edilir.

"Dini etiqad Allahın varlığı ilə əlaqədardır. Ona görə Allahın insanlar tərəfindən qəbul edilməsi ilə müxtəlif dini inanclar, o cümlədən tövhid məsələsi də qəbul edilir. Bununla belə Allahın varlığına inanmaq hər bir şeyin mövcudluğuna inanmaq deməkdir" (3, s. 1).

"Din – müqəddəslik duyğusunu yüksək tutan mənəviyyat hadisəsidir. O, dünya haqqında təsəvvürləri, konkret dəyərləri, onunla əlaqədar olan mexanizmləri və göstərişləri, reaksiyaları, həyat tərzini və sairini özünə daxil edir. Belə anlam daxilində din çox ehtimal ki, baş verən hər şeyə təsir edərək və öz növbəsində baş verən hər şey də dinə təsir edəcəkdir" (2, s. 28).

Başqa bir fəlsəfi yöndə tərif etsək: "Din – ictimai şüurun formalarından biri; bir və ya bir neçə Allahın, «Müqəddəslərin» - yəni fövqəltəbiiliyin bu və ya digər növünün reallığına inamı əsas götürən dünyagörüşü, davranış və spesifik fəaliyyətdir" (6, s. 109) anlamını dərk edə bilərik.

On dörd əsrdir ki, İslami dəyərləri özündə ehtiva edən Naxçıvan ictimaiyyəti olduq qədər mənəvi-mədəni irsə sahib olmuşdur. İslam dininin gözəlliklərini, humanist prinsiplərini, əxlaqi dəyərlərini həyata keçirməklə həm dahi şəxsiyyətlər, həm də çoxlu sayda nüfuzlu müctəhid adını qazanmış görkəmli insanları yetişməklə zəngin bir bölgəyə çevrilmişdir. Şərq aləminin ayrılmaz tərkib hissəsi olmaqla Naxçıvan İslami dəyərlərdən çox gözəl şəkildə bəhrələnmişdir. Bütün dəyərlər kimi, İslami dəyərlər də cəmiyyətdə insanların mənəviyyatını kamilləşdirən, əxlaqının keşiyində duran bir amildir. Dinsizlik insanları mənəvi boşluğa salır. Onların həyat və ölüm haqqında təsəvvürlərini məhdudlaşdırır. Heçlik və varlıq qarşısında aciz qalan insan özünə mənəvi dayaq axtarır. O, dayağı isə dində tapır. Din bir tərəfdən insanları öz işlərində fədakar edir, ikinci tərəfdən də mütiləşdirir.

İslami dəyərlərdə insan Allah Təalanın yaratdığı ən xoşbəxt məxluq olduğu kimi, həm də ən bədbəxt məxluqudur. Çünki o, bir gün öləcəyini bilir.

Onun bədbəxtliyi də, xoşbəxtliyi də şüurla bağlı olduğu kimi, insan bunun gücü ilə həm bədbəxtliyinin açarını tapmaq istəyir, həm də xoşbəxtliyinin. İnsanın ən böyük faciəsi odur ki, o öz şüuru ilə bir gün öləcəyini bilir. Bu isə onda vahimə yaradır. Bu vahiməyə qalib gəlmək üçün o əbədi aləm olacağını və onda baş verə biləcək hər hansı bir hadisənin (xeyir və şər) olması məcburiyyətində qalır.

Naxçıvanda yaranan dini inanc məkanları sözsüz ki, danılmazdır. Belə ki, Gəmiqaya ilə bağlı olan təsvirlər və dəhşətli Nuh tufanının yaratdığı fəlsəfi motivlər (1, Nuh surəsi), İslamdan min illərlə əvvəl baş verən Əshabi-Kəhf hadisəsi (4), VII əsr anadilli ədəbiyyatımızın nadir nümunəsi sayılan, orta əsr Azərbaycan xalqının “milli pasportu” adlandırılan “Kitabi-Dədə Qorqud” (9) eposunda isə artıq konkret olaraq Naxçıvan bölgəsinin toponimlərinin verilməsi ilə yanaşı Ulu Tanrıya inanc formaları yer almışdır.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi böyük şair və dramaturq Hüseyn Cavidin yaratdığı əsərlərlə də dinin mahiyyətini anlamaq olar. Onun dahiyanə, sönməz misraları ilə desək:

-Arif ol, arif, atma vicdanı,
Ara qəlbində dini-imanı,
Zahirin pək gözəl, fəqət nə çıxar,
Oynaşır batinində şeytanlar!... (7, s. 25).

Misralardan bir daha aydın olur ki, din təkcə zahirdə deyil, həm də batində yaşamalıdır. Sözsüz ki, bu gün İslam dininin mənəvi dəyərləri bəşər əxlaqının formalaşmasında xüsusi bir rola malikdir. Dünyada hər şey inkişaf prosesi keçməlidir və zamanın tələblərinə cavav verməlidir. Əgər zamanın tələblərinə cavab vermirsə həmin dini ideyalar da tarixin iti sürətli inkişafında öz əhəmiyyətini itirir və yaddan çıxır. Onun yerini zamanın tələblərinə cavab verə bilən yeni dini qanunlar tutur.

Nəticə etibarilə İslam nəinki Azərbaycanda, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da özünü büruzə verməklə dünyanın geniş coğrafi ərazilərində yayılmış və hər bir bölgə bu dinin mənəvi dəyərləri ilə bəhrələnməyə çalışmışdır. Belə ki, İslami dəyərlərin qorunub bu günə kimi saxlanılması Naxçıvanın mənəvi-mədəni irsinin zənginliyindən xəbər verir

Hesab edirik ki, Naxçıvanın İslam aləmi ilə bağlılığı istiqamətində aparılan tədqiqatlar Naxçıvanşünaslıq mədəniyyətinin, məfkurəsinin, mənəvi-mədəni irsə dair axtarışların və İslam dini dünyagörüşünün vəhdətinin fəlsəfəsini ortaya qoyur və Naxçıvan İslam aləminin ayrılmaz tərkib hissəsi olduğunu bir daha isbat edir.

ƏDƏBİYYAT

1. Qurani-Kərim. Tərcümə edənlər: Bünyadaov Z. Məmmədəliyev V. Bakı: 1992, 714 səh.
2. Aslanova R. İslam və mədəniyyət. Bakı: 2002, 406 s.
3. Dövlət və Din (ictimai fikir toplusu jurnalı), Bakı, 2011, yanvar-fevral 1(21), 255 s.)

4. Əbu Bəkr ibn Xosrov əl-Ustad. Munisnamə (tərcümə edən f.ü.f.d. İbrahimov S.) Bakı: AzTV, 2008, 143 s.
5. Əliyev H. Allahın yolunda hamımız bir olaq. Bakı:Azərnəşr, 1993, 31 s.
6. Fəlsəfə ensiklopedik lüğəti, Bakı, 1997, 520 s.
7. Hüseyn Cavid. Əsərləri. 5 cilddə, II c. Bakı: Lider, 2005, 352 s.
8. İbrahimov S.M. Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri. Bakı: Elm və təhsil, 2017, 336 s.
9. Kitabi-Dədə Qorqud, Bakı: Yazıçı, 1988, 266 s.

РЕЗЮМЕ

САБУХИ ИБРАГИМОВ

НАХЧЫВАН – НЕОТЪЕМЛЕМАЯ ЧАСТЬ ИСЛАМСКОГО МИРА

В статье нашли подробное отражение основные проведенные нами исследования прочной связи Нахчывана с миром Ислама, важной роли мусульманства в обогащении духовно-культурного наследия населения этого региона, существовавших здесь различных течений философской мысли.

Также нахчыванское общество, на протяжении четырнадцати веков включавшее в себя ценности Ислама, полностью овладело его духовно-культурным наследием; претворяя в жизнь нравственные ценности, гуманистические принципы, глубокое внутренне содержание Исламской религии, эта среда взрастила как гениальных личностей, так и многих видных деятелей, заслуживших влияние и известность мучтеидов.

Ключевые слова: Нахчыван, Ислам, ценности, история, культура.

SUMMARY

SABUHI IBRAHIMOV

NAKHCHIVAN IS AN INTEGRAL PART OF THE ISLAMIC WORLD

The paper contains a detailed reflection of the main research carried out by us which concerns Nakhchivan's strong relations with the world of Islam, the important role of Islam in enriching the spiritual and cultural heritage of the local population, and the various trends of philosophical thought that existed here.

Also the Nakhchivan society, which for fourteen centuries had been involving the Islam values, completely mastered its spiritual and cultural heritage. The people here were realizing moral values, humanistic principles, and deep internal content of the Islamic religion. This milieu has brought up both great personalities and powerful, prominent high religious persons.

Keywords: Nakhchivan, Islam, values, history, culture.

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

SUNAY ABBASOVA
“Naxçıvan” Universiteti
zeyneb.rzal@mail.ru

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN PSİXİ VƏ FİZİKİ İNKİŞAFINDA OYUNLARIN ROLU

Məqalədə məktəbəqədər yaşlı uşaqların həm fiziki, həm də psixoloji cəhətdən inkişafına təsir edir edən amillər göstərilir. Bu amillərdən biri də oyun metodudur. Oyun, uşağa heç kimin öyrədə bilmədiyi mövzuları öz təcrübələriylə öyrənmənin bir yoludur. Uşaq oyun oynarkən materialin rəngini, formasını, xassələrini, məkan münasibətlərini və kəmiyyəti öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvürlər əldə edir Bu metod bütün yaş dövrləri üçün əlverişli olmaqla uşağın məktəbəqədər təhsil müəssisəsindəki təlimi səmərəli keçməsinə imkan yaradır. Oyun, uşağın gələcək həyatının proyeksiyasıdır.

Açar sözlər: oyun, inkişaf, uşaq, məktəbəqədər, psixoloji

Məktəbəqədər yaş dövrü qısa, amma çox zəruri olmaqla uşağın həm fiziki, həm psixofizioloji, həm də şəxsiyyət baxımından inkişafının keyfiyyətcə dönüş dövrüdür. Ona görə ki, bu zaman şəxsiyyətin formalaşmasının əsaslı şəkidə təməli qoyulur. Həyatın birinci altı ili ərzində uşaq ətraf aləm haqqında ilkin biliklərə yiyələnir, onda insanlara, əməyə, təbiətə ayrı-ayrı münasibətlər formalaşmağa başlayır, düzgün davranış üçün adət və vərdişlər toplanır, xarakter tərbiyə olunur. Bu dövrdə uşağın fiziki inkişafı birinci növbədə diqqəti cəlb edir. 3-6 yaşlı uşağın boyunun, çəkisinin artmasında nəzərə çarpacaq dəyişiklik baş verir. Buna baxmayaraq həmin dövrdə uşağın əzələ və sümük sistemi xeyli inkişaf etmiş olsa da onun əl və ayaq əzələlərində hələ sümüklənməmiş qığırdaqlar qalır. Uşağın skeleti əsasən qığırdaq toxumalardan ibarət olur. Ona görə də lazımi tələblərə əməl olunmadıqda uşağın qaməti düzgün inkişaf etmir. Məktəbəqədər yaşlı uşaqların əqli inkişaf xüsusiyyətlərinin öyrənilməsi də vacibdir.

Uşaqların həm fiziki, həm də psixoloji cəhətdən inkişafına müxtəlif amillər təsir edir. Bu amillərdən biri də oyun metodudur. Oyun, uşağa heç kimin öyrədə bilmədiyi mövzuları öz təcrübələriylə öyrənmənin bir yoludur. Bu metod bütün yaş dövrləri üçün əlverişli olmaqla uşağın məktəbəqədər təhsil müəssisəsindəki təlimi səmərəli keçməsinə imkan yaradır. Oyun, uşağın gələcək həyatının proyeksiyasıdır.

Misir, İran, Krit uyğarlarına aid qazıntılarda bir çox oyuncağa rast gəlinmişdir. Qədim Misirdə taxtadan hazırlanmış kuklalar, taxtadan və ya daşdan hazırlanmış oyuncaqlar, kəpək doldurulmuş toplar ən qədim oyun

vasitələri olmuşdur. İlk oyuncaqlar təbii materiallardan,daş,ağac və gildən hazırlanırdı. Min illər əvvəl, misirli uşaqlar daş, saxsı və ya ağacdan düzəldilən hərəkət edən üzvləri və süni saçları olan gəlinciklərlə oynamışlar. Qədim Yunanıstanda və Romada isə uşaqlar mum, gil-torpaq, ox və yaydan hazırlanan oyuncaq gəlinciklərlə oynayırdılar. Qədim Yunanıstanda qız uşaqlarının öz uşaqlıq oyuncaqlarını Allaha qurban vermək kimi adətləri var idi. Belə ki toyu ərəfəsində 14 yaşlı qızlar öz gəlinciklərini məbədə təqdim edərdilər bu isə o vaxtlar yeniyetməliyə keçid mərasimi sayılırmış. Beləliklə, keçmişimizdən günümüzə qədər oyunlar zənginləşdirilmişdir.

İ.Seçenov qeyd etmişdir ki, ətrafdakını anlamaq səyi uşaqda adətən onların yaşıdlarına müraciət etdiyi suallarında, eləcə də oyunlarında ifadə olunur. Uşağın oyuna olan marağı, təqlidetmə meylini daha da gücləndirir, bu da Seçenovun fikrincə uşağın əqli və əxlaqi inkişafı üçün çox mühümdür. Eyni hərərəkətlərin, sözlərin dəfələrlə təkrar edilməsi beyində möhkəm əlaqələr yaradılmasına fikirlərin, hisslərin, davranışların formalaşmasına kömək edir. Oyunun əsas psixoloji xüsusiyyəti ondan ibarətdir ki, o uşaq şəxsiyyətinin bütün cəhətlərinə toxunur: onda fikirlər fəal işləyir, o, emosiyalarını idarə edə bilir. Oyunda uşaqlarda kollektivçilik hissi və kollektiv həyatın ilk vərdişləri tərbiyə edilir. Tərbiyəçi uşaqlara oyunda yoldaşları ilə hesablaşmağı , onların qayğısına qalmağı, kollektivi qiymətləndirməyi və sevməyi, mübahisəli məsələləri adətlə, birgə həll etməyi öyrədir.

Əsrlər boyu təkcə insanlar tərəfindən deyil, bütün canlılar tərəfindən oynanılan oyun yalnız uşaqların fərdi inkişafına yox bütöv cəmiyyətin inkişafına təsir göstərir. Heyvanların da hərəkətlərində oyun əlamətləri olur. Ətrafımızdakı heyvanları müşahidə etdikdə onlarında oyun oynadıqlarının şahidi oluruq. Məsələn, iki itin bir birini qovalaması, dəyişik səslər çıxarması onların oyun oynadıqlarını və bu oyundan zövq aldıqlarının bariz nümunəsidir. Uşağın, böyüklərin və hətta bütün canlıların həyatında böyük yer tutan oyunun nə olduğu haqqında hələ də psixoloq və pedaqoqlar ortaq bir fikrə gələ bilməmişdir. XVII əsrin əvvəllərində uşaq psixologiyasının dərinliklərini öyrənən filosof Jan Jak Russo oyunun mühüm və əsaslı əhəmiyyəti haqqında maraqlı fikirlər söyləmişdir. O, uşaqların öz dünyasını, hərəkət və davranışlarını dərk etməsində, eləcə də təhsil prosesində məqsədyönlü oyunun əhəmiyyətini xüsusi vurğulayır, oyun terapiyasının əhəmiyyətindən bəhs edirdi. "Uşaqlığa hörmət göstər, onu yaxşı və ya pis şəkildə mühakiməyə tələsmə. Həyatın gedişatına müdaxilə etməzdən əvvəl nə olacağını gözlə. Uşaqlıq səbəblərin yuxusudur" deyən filosof fikirlərini elmi şəkildə əsaslandırırdı.

Məşhur alman pedaqoqu Fröbel 1837-ci ildə Almaniyada "Kindergarden" adlı uşaq bağçası yaradır və burada eksperimentlər apararaq uşaqların həyatında oyunun nə qədər böyük rolu olduğunu əsaslandırır. O, "İnsanların təhsili" adlı kitabında yazır ki,hər bir oyunun daxilində şüurlu və şüursuz məqsədlər mövcuddur. F.Fröbel oyunun məzh psixoloji tərəflərini araşdırır. Onun nöqteyi-nəzərincə "uşaqlığın ən yüksək inkişafı oyundur, çünki

bu uşağın ruhunda nələrin baş verdiyinin sərbəst ifadəsidir. Uşaqların oyunu sadəcə bir hərəkət deyildir və bir çox mənalarla doludur”.

Uşağın təfəkkürü zəif inkişaf edirsə, zəncirvari olaraq digər idrak prosesləri də inkişafdan qalır. Çünki idrak proseslərinin biri digərindən ayrı inkişaf edə bilmir. Uşaqlarda təfəkkürü formalaşdıran ən mühüm vasitə isə müntəzəm və fərqli oyunların təşkil olunmasıdır: "Uşaq kiçik oyunlar oynamaqda çətinlik çəkirsə, məsələn, kubiklərin düzümü, rənglərin seçimi, uyğunlaşdırma və eyniləşdirmə fəaliyyətlərini icra edə bilmirsə, onun təfəkkürü formalaşmır, ya da gec formalaşır. Buna paralel olaraq uşaqlarda nitq qabiliyyətinin gecikməsi, danışıq zamanı həyəcanlanma və kəkələmə halları özünü göstərir. Rəsm çəkmək, sadə rəngləmə prosesi, şifahi məsələlərin həlli, eyni rənglərin seçilməsi və s. tipli oyunlar uşaqların idrak prosesini sürətləndirir. Uşaq oyun oynarkən ətraf aləmi kəşf edir, öz bacarığını inkişaf etdirir, valideynlərlə ünsiyyətdə olur. Hafizə oyunları uşaqlarda əsasən diqqəti təkmilləşdirir. Bu cür oyunlardan sonra uşaq konkret obyektə və ya mövzuya diqqəti cəmləşdirə bilir”

Keçmişdən günümüzə qədər var olan cəmiyyətlərdə oyun ilə əlaqədar materiallarla qarşılaşmağımız oyunun insan həyatında nə qədər əhəmiyyətli bir yeri olduğunu göstərir . Oyun hər zaman uşaqlar üçün ciddi tərbiyə vasitəsi olmuşdur. Onlar məhz oyun prosesində həyati dərk etməyi öyrənirlər. Uşaq oyun oynarkən materialin rəngini, formasını, xassələrini, məkan münasibətlərini və kəmiyyəti öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvürlər əldə edir. Başqa sözlə, uşaqlarda dünyagörüş genişlənir, təfəkkürü, nitqi və hafizəsi zənginləşir.

Bu zaman onlar – yeni biliklər qazanmaqla bərabər həm də öncə mənimsəmiş olduqları məlumatlara əsaslanaraq düşünür, müəyyən təhlillər aparırlar. Uşaqlar oyun vasitəsilə bir-birləri arasında ünsiyyət qurur, yeni dostlar, qazanırlar. Uşaqlar həmçinin başqalarına hörmət etmək, səbirli olmaq, liderlik kimi xüsusiyyətləri də oyun vasitəsilə əldə edirlər. Oyun fiziki, sosial, psixoloji və emosional tərəfdən uşağa təsir edərək onların inkişaf etməsində böyük rol oynayır. Oyunlar uşağın inkişafında, təhsilində və şəxsiyyətinin inkişafında əsaslı yer tutur. Ümumiyyətlə oyun məktəbəqədər yaş dövrünün əsas fəaliyyət növü hesab edilir. Uşaq sevdiyi oyunları yalnız həmyaşıdları ilə deyil, eyni zamanda valideynləri ilə oynamağı da çox sevir. Valideynlə birgə keçirilən oyunlar uşaq – valideyn münasibətlərinə müsbət təsir edir, onların ünsiyyətini daha da möhkəmləndirir. Uşağa məcburi öyrədilən çox sayda etik qaydalar oyun sırasında daha asan və maraqlı formada öyrədilə bilər. Eyni zamanda oyunun köməyi ilə uşaqlarda diqqət, qavrayış, hafizə, təfəkkür və təxəyyülün inkişafı üçün əlverişli şərait yaranmış olur. Məsələn: Uşağa 6 – 7 oyuncağa diqqətlə baxmaq və onları yadda saxlamaq təlimatı verilir. Daha sonra uşaqdan gözlərini yummasını və itən oyuncağın adını söyləməsinin tapşırığı verilir. Beləliklə uşaq oyun vasitəsilə inkişaf edir.

Oyun əsnasında uşağın bəzi hərəkətləri davamlı olaraq təkrar etməsi onun təbii olaraq əzələ inkişafını sürətləndirir. Eyni zamanda qaçmaq,

hoppanmaq, sıçrayış, qalxmaq, dırmaşmaq kimi fiziki güc tələb edən oyunlar da uşağın tənəffüs, dövran, həzm sistemlərinin nizamlı işini təmin edir. Uşaqların əl və barmaq əzələlərinin inkişafı olan kiçik əzələlərin inkişafı isə tutma, qoparma, kəsmə, bağlama kimi hərəkətlərin təkrarlanması nisbətində artmaqda və nəticəsində də gündəlik həyatda istifadə edilən bir çox bacarığının qazanılmasını təmin edir. Uşaqların oynadıqları oyunların hər biri bu cür fəaliyyətlərin ən az bir və ya bir neçəsini əhatə edir.

Məktəbəqədər yaşlı uşaqların həyatında süjetli, rollu oyunların çox böyük əhəmiyyəti var. Oyunun mövzusu və məzmunu uşaqlar tərəfindən düzəldilir. Bu onların fikirləşməsinə səbəb olur.

Uşaq "maşinist" və ya "aşbaz" olur. Onlar lazım olan avadanlıqlarla, alətlərlə davranmaq qaydalarını öyrənir. K.D.Uşinskinin təbirincə desək, uşaq oyunların əsnasında canlı həyat hadisələri qaynayır. Uşaqlardan biri mehtər olub atlara baxır, biri bankirdir pul sayır, ağa nökəri döyür, qızlar qonaq qəbul edir və s. Sujetli rollu oyunlara rəhbərlik etmək böyük ustalıq pedaqoji fakt tələb edir. Tərbiyəçi uşaq oyunlarına nəzarət edir ki, uşaqlar onun məzmununda mənfi hallara yol verməsinlər. Bəzən uşaqlar sərxoş, yaxud kobud davranışlı insan obrazları yaratmağa meyl edirlər, dərhal tərbiyəçi oyuna müdaxilə edir, onu müsbət əxlaqi keyfiyyətlər aşılayan istiqamətlər yönəldir. Daşıdığı mahiyyətə görə oyunlar yaradıcı və qaydalı olmaqla iki yerə ayrılır. Yaradıcı oyunlar uşaqların özləri tərəfindən yaradılır. Oyunun mövzusu onları əhatə edən xarici aləmdən götürülür.

Didaktik oyunlarda oynayanın qarşısında əqli vəzifə qoyulur. Heyvan şəkillərini cinsinə və növünə görə qruplaşdırmaq, deyilmiş tapmacanı tapmaq və s. N,K,Krupskaya əsərlərində yazırdı: " Uşaq hər şeyi əli ilə yoxlamalı, on dəfələrlə onu nəzərdən keçirməli və on dəfələrlə onu iyləməli onun adını çəkməlidir". Didaktik oyunun başlıca xüsusiyyəti qaydadır. Qaydanın həyata keçirilməsi oyunun məzmunun həyata keçirilməsidir. Qaydalar müxtəlif olur: onların biri oyun fəaliyyətini və ardıcıllığını təmin edir, o birisi oyuncaqların münasibətini tənzim edir. Azərbaycanın böyük pedaqoqu, professor M.Muradxanov oyunu iki mənada qəbul etmiş və göstərmişdir ki, birincisi, uşağın oyuncaqla və oyuncaqsız oyunla məşğul olması; ikincisi uşağın bütün həyatının, məişətinin, işinin, təlimdən kənar bütün yaşayışının oyun şəklində təşkil edilməsidir. Bununla yanaşı olaraq didaktik oyunlardan istifadə edilməsi uşaqlarda nitqin inkişafı, nitq qüsurlarının aradan qaldırılması işində də əsaslı rol oynayır.

Qeyd etmək lazımdır ki, oyun uşağın boş vaxtlarını doldurmaq üçün vasitə olaraq görülməməlidir, çünki o, həqiqi və vacib bir təhsil vasitəsidir. Oyun uşağın xəyal gücünü, yaradıcılığını inkişaf etdirir, insan münasibətlərini, köməkləşmə aktivasiyasını artırır. Qısacası oyun insanın özünü göstərə bildiyi ən sadə yoldur və təhsilin bir parçasıdır. Piaje qeyd etmişdir ki, " Oyun uşağın ən önəmli işidir". Uşaqlarla erkən yaşlarından oynanılan oyun yaradıcı və intellektual olmalıdır. Oyunda yüksək dərəcəli qadağalar olmamalıdır çünki yüksək dərəcəli qadağalar oyunun qeyri düzgün şəkildə mənimsənil-

məsinə gətirib çıxara bilər. Mədəniyyətlər nə qədər fərqli olsa da insan dediyimiz varlıq hamısı eynidir və hamısı ilə eyni münasibət qurulmalı erkən yaşlarından bütün mədəniyyətə sahib dövlətlərdə uşaqla uşaq kimi davranılmalı və diqqət qayğı göstərilməlidir. Hətta qüsurlu uşaqlar belə oyun üçün cəlb olunmalıdır və onlara uyğun formada tədris olunmalıdır nə də olsa fərqi yoxdur qüsurlu yaxud sağlam uşaqların hamısı çox dəyərlidir.

ƏDƏBİYYAT

1. M. Aliyeva Esen / Eğitim Fakültesi Dergisi XXI (2), 2008
2. A. Həsənov. Məktəbəqədər pedaogika. Bakı-2000.
3. R.Mursaqulova. N. Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012.
4. Калиниченко А.В., Микляева Ю.В. Развитие игровой деятельности дошкольников: Методическое посо- бие. – М., 2004. – 112 с.
5. PEHLİVAN Hülya, Oyun ve Öğrenme, Anı Yayınları, 2005

РЕЗЮМЕ

СУНАЙ АББАСОВА

РОЛЬ ИГР В ПСИХОЛОГИЧЕСКОМ И ФИЗИЧЕСКОМ РАЗВИТИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

В статье показаны аспекты влияющие на психологическое и физическое развитие детей дошкольного возраста. Одним из этих аспектов является игровой метод. Игра – метод позволяющий ребенку учиться на своем опыте вещам, которые никто другой его научить не может. Играя ребенок узнает о цвете, форме, свойстве, пространственном и количественном отношении материала, получает определенной представление о растениях и животных. Данный метод являясь благоприятным для всех возвратных периодов, также создает возможности для эффективного обучения в учреждениях дошкольного образования. Игра – это проекция будущей жизни ребенка.

Ключевые слова: игра, развитие, ребенок, дошкольный, психологический

SUMMARY

SUNAY ABBASOVA

THE ROLE OF GAMES IN PSYCHIC AND PHYSICAL DEVELOPMENT OF EARLY SCHOOL AGED CHILDREN

The article shows factors affecting the physical and psychological development of preschool children. One of these factors is the game method. The game is a way to learn the subjects that nobody can teach. The child learns the color, shape, properties, spatial relationships and quantities of the material while playing, getting some ideas about plants and animals. This method is

suitable for all ages, allowing the child to pass the preschool education institution effectively. The game is the projection of the child's future life.

Key words: game, development, child, preschool, psychological

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

AYGÜN RÜSTƏMOVA
“Naxçıvan”Universiteti
aygun-rustemova@inbox.ru

KİÇİKYAŞLI MƏKTƏBLİ ŞAGİRDLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ ADAPTASİYASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ROLU

Təlimdə adaptasiya kiçikyaşlı məktəblinin psixikasının məktəb təliminin şərtlərinə fəal uyğunlaşmasını təmin edən mürəkkəb prosesdir. Bu proses, adətən, uşağın şəraitə uyğunlaşmasından, onun həyatındakı razılıq və narazılıq səviyyəsindən asılıdır. Adaptasiya təlim fəaliyyətində hədəfləri təyin etmək və davranışları idarəetmə qabiliyyəti olub uşağın bacarıqlarını, şəxsi keyfiyyətlərini və öyrənmə fəaliyyətinin nəticələrinin qiymətləndirməsindən qaynaqlanır. Təlim fəaliyyətinə adaptasiya zamanı yaranan düzgün özünüqiymətləndirmə kiçikyaşlı məktəblilərin özlərinə qarşı müsbət duyğular yaratması, özünü olduqca yaxşı hiss etməsi və bunun nəticəsində özünə və ətrafdakılara qarşı uyumlu olması deməkdir. Qeyd etmək lazımdır ki, özünüqiymətləndirmə insanın qabiliyyət və imkanlarını nəzərə alaraq özünün şəxsiyyət kimi formalaşmasında mərkəzi yer tutur. Adekvat özünüqiymətləndirmə sayəsində kiçikyaşlı məktəblidə təlim fəaliyyətinə adaptasiyanı təmin etməklə bərabər onların müvəffəqiyyət motivasiyasını yüksəltməklə, eyni zamanda düşünmə qabiliyyətini və intellektual bacarıqlarının artmasına şərait yaradır.

Açar sözlər: təlim, adaptasiya, özünüqiymətləndirmə, inam, adekvat kiçikyaşlı məktəbli, şagird, uşaq

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə adaptasiyası hər zaman araşdırılan mühüm nəzəri problemlərdən biridir. Adaptasiya təlim fəaliyyətində hədəfləri təyin etmək və davranışları idarəetmə qabiliyyəti olub uşağın bacarıqlarını, şəxsi keyfiyyətlərini və öyrənmə fəaliyyətinin nəticələrinin qiymətləndirməsindən qaynaqlanır. Uşağın öyrənməyə hazır olması onun təlim fəaliyyətinə uyğunlaşmasının vacib bir komponentidir V.A.Suxomlinski yazırdı: “Təlim uşaqlar üçün o vaxt maraqlı, cəlbedici olur ki, o, fikrin, hisslərin, yaradıcılığın, gözəlliyin, oyunun parlaq işığı ilə şəfəqlənir” [6,216]. Təlim fəaliyyətinə adaptasiyanın əsas məqsədi kiçikyaşlı məktəblinin öz davranışlarını tənzimləməsi, müstəqil öyrənməsi, özünü motivasiya edə bilməsidir.

Uşaqların təlim fəaliyyətinə adaptasiyası onların sinir sistemindən, temperamentindən və xarakterik xüsusiyyətlərindən asılıdır. Bununla bərabər, kiçik məktəblinin təlimə adaptasiyası üçün onun fiziki baxımdanda öyrənməyə hazır olması vacibdir, yəni, şagirdin sağlamlıq vəziyyəti və fiziki gücü də

ibtidai təhsilin proqramını müvəffəqiyyətlə mənimsəməsinə imkan verməlidir. Çünki uşaq, sinfə gəldiyi ilk gündən qarşısına məqsədlər qoyulur ki, bu məqsədləri həyata keçirməsi üçün fiziki gücü yetərli olmalıdır.

Təlim fəaliyyətinə başlayan şagird öyrənmə fəaliyyətində müvəffəqiyyət əldə etməli, məktəbin davranış qaydalarına sahib olmalı, sinif kollektivinə qoşulmalıdır. Yəni zehni şəraitə və rejimə uyğunlaşmalıdır. Ümumiyyətlə adaptasiya uşağın təlim fəaliyyətində müvəffəqiyyətini təmin edir. Ona görə də kiçikyaşlı məktəblilərin qoyulmuş qaydaları mənimsəmələri, qarşılıqlı münasibətin təşkili və ünsiyyətləri üçün olduqca əlverişli mühit yaradılmalıdır. Piaje qeyd edir ki, inkişafın gedişinə uşağın yaşadığı sosial mühit də təsir göstərir. V.Ştern "sosial mühit" dedikdə uşağın yaxın əhatəsini nəzərdə tuturdu[6,56]. Təlim öz qarşısına uşağı bu vasitə və işarələrdən istifadə etmək təcrübəsini öyrətmək məqsədi qoyur ki, onların vasitəsilə öz davranışını və psixi proseslərini idarə etməyi mənimsəyir [6,58].

Psixoloqlar Y.L.Kolomenski və E.A.Panko kiçik məktəblilərin təlim fəaliyyətinə uğurla uyğunlaşmasında müsbət rol oynayan faktorları nəzərdən keçirmişlər. Bunlar aşağıdakılaradır.

- Münaqişələrin olmaması ilə xarakterizə edilən yaxşı ailə mühit.
- Uşaqların ailədə düzgün tərbiyə olunması.
- Valideynlərin müəllimlər ilə yaxın münasibəti.
- Uşağın evdə, bağçada və məktəbdə ünsiyyəti və onun təlim fəaliyyətinə hazırlanması..
- Uşağın yeni rejimin tələblərini yerinə yetirməsi

Nəzərə almaq lazımdır ki, kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə adaptasiyası çətin problemdir. Çünki əgər uşaq ilk vaxtlarda təlim fəaliyyətinə adaptasiya ola bilmirsə bu onun öyrənməsinə əsaslı şəkildə təsir göstərəcək. Təlim fəaliyyətinə adaptasiya kiçikyaşlı məktəblilərin şəxsiyyətinin inkişafına təsir göstərərək onun davranışında, digər insanlarla qurduğu ünsiyyətdə, münasibətlər sistemində özünü göstərir.

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə adaptasiyasında bir sıra faktorlar kimi özünüqiymətləndirmənin də böyük rolu vardır. Çünki məhz özünüqiymətləndirmə sayəsində məktəbli özünün həm fiziki, həm də psixoloji gücünə inanaraq ətrafdakılarla qurduğu münasibəti tənzimləyə bilir.

Psixoloji ədəbiyyata baxdıqda kiçikyaşlı məktəblillərin özünüqiymət-ləndirməsi ilə bağlı kifayyət qədər araşdırmanın aparıldığını görürük (A.S.Lipkina, R.X.Şakurov, E.A.Qorbakeva və.s). Hətta bir çox psixoloqlar məktəblilərin təlim fəaliyyətinə adaptasiyası üçün şüurlu başlanğıcın təməlini özünüqiymətləndirmədə görürlər. Çünki, kiçik məktəbyaşı dövründə uşağın şüuru daha sürətlə formalaşmağa başlayır və özü haqqında ilk fikirləri yaranır. Adətən şüurun formalaşmağa başlaması şagirddə özünüqiymətləndirmənin yaranmasına səbəb olur**.**

Psixoloji ədəbiyyatda özünüqiymətləndirmənin 3 səviyyəsi göstərilir: Adekvat özünüqiymətləndirmə, aşağı özünüqiymətləndirmə və yüksək özünüqiymətləndirmə.

Adekvat özünüqiymətlədirmə zamanı məktəbli öz bacarıq və qabiliyyətini olduğu kimi düzgün qiymətləndirir, aşağı özünüqiymətləndirmə zamanı bacarıq və qabiliyyətlərini olduqca aşağı, yuxarı özünüqiymətləndirmə zamanı isə öz keyfiyyətlərini şişirdilmiş şəkildə qiymətləndirirlər.

Ümumiyyətlə, psixoloji ədəbiyyatda təlim fəaliyyətinə adaptasiyada özünüqiymətləndirmənin rolu şagirdin özünəməxsus xarakterik xüsusiyyətlərini müəyyən edən və özünəhörmət səviyyəsini əks etdirən kompleks bir sistem kimi başa düşülür.

Psixoloq Paqano 1991-ci ildə apardığı tədqiqatda qey.d edirdi ki, insanlar içində olduqları mühitdə, tanınmaq, tanımaq və o mühitin bir üzvü olmaq istəyirlər. Uşaqların da, eyin zamanda vaxtlarının çox hissəsini keçirdikləri məktəbdə müəyyən yerə sahib olduqlarını, müəllim və sinif yoldaşları üçün dəyərli olduqlarını hiss etməyi istəmələri normaldır. Uşaqlar özlərini dəyərli olduqlarını hiss etdikləri ölçüdə özlərinə inanırlar və bu inam, güvən ətrafdakılarla olan münasibətlərinə təsir edir. Məhz uyğunlaşmanın əsas məqsədlərindən biri də ətraf mühitə inam duyğusunun formalaşmasıdır[11,5].

Psixoloq Harris (1997) qeyd edirdi ki, düzgün özünüqiymətləndirmə uşaqdan daha diqqətli və aktiv olmasını tələb edir. Psixoloq Piers (2003) isə düzgün özünüqiymətləndirmənin kiçikyaşlı məktəblinin müəllimdən asılılığına son qoyaraq onun müstəqilliyini təmin etdiyini iddia edirdi. Çünki özünü düzgün qiymətləndirən şagirdlər güclü və zəif tərəflərindən xəbərdar olaraq özlərinə obyektiv bir gözlə baxmağa öyrənirlər[11,5].

Təlim fəaliyyətinə adaptasiya kiçikyaşlı məktəblidə bacarıqların formalaşmasına, şagird statusunu qazanmasına, digərləri ilə - sinif yoldaşları, müəllim və valideynləri ilə düzgün qarşılıqlı münasibət qurmaq qabiliyyətini, yəni bir sözlə özünüqiymətləndirmə səviyyəsini tələb edir. Kiçikyaşlı məktəbli üçün özünüqiymətləndirmənin rolu böyükdür. Çünki məhz özünüqiymətləndirmə uşağın sistematik öyrənmə prosesinə daxil olmasına şərait yaratmaqla onun adaptasiyasını təmin edir. Özünüqiymətləndirmə uşağın özünə münasibətini, özünə yanaşmasını əks etdirir. Kiçikyaşlı məktəblinin özünü düzgün qiymətləndirməsi onun təlim fəaliyyətinə müvəffəqiyyətlə adaptasiyasına, eləcə də həmyaşıdları və böyüklər ilə qarşılıqlı münasibətin qurulmasına əsaslanır. Təlim fəaliyyətinə adaptasiya olan uşaq özünün-özünə olan münasibətini, eyni zamanda başqalarının özünə qarşı olan davranışını qiymətləndirir. Artıq məktəbli qəbul edilmiş sosial normalara uyğun davranışın müəyyən qaydalarına riayyət etmək ehtiyacını dərk etməyə başlayır. Ümumiyyətlə uşaqların təlim fəaliyyətinə adaptasiyası onların birbaşa başqaları tərəfindən qiymətləndirilən keyfiyyətlər barədə fikirlərindən asılıdır.

Əsası hələ məktəbəqədər dövrdə qoyulmağa başlayan özünüqiymətləndirmə sonrakı dövrlərdədə uşaqların öyrənməyə adaptasiyasına yardım edir. Əslində uşaqda özünəinam doğulduğu ilk günlərdən başlayır. 9-10 yaşlardan inkişaf etməyə başlayan özünəinam və özünüqiymətləndirmənin səviyyəsi 12 yaşda aşağı düşsədə yeniyetməlik dövründə tədricən yüksəlir. Əslində özünəinam insanın həyatı boyu davam edir. İlk illərdə ailənin uşağa

verdiyi dəyərlə formalaşmağa başlayan özgüvən onun məktəbə başlaması ilə özünü bu mühitdə rahat hiss etməsindən asılı olaraq inkişaf edir[7, 26].

Kiçikyaşlı məktəblilərdə yaranan özünəinamla "Mən"konsepsiyası arasında yaxın bağlantı vardır. Kiçikyaşlı məktəblilər ilk öncə özlərini fiziki baxımdan dəyərləndirilər.Məs:"Mən böyüyəm", "Mən güclüyəm", sonra praktiki bacarıqlarını, qabiliyyətlərini, davranışını, müsbət keyfiyyətlərini qiymətləndirir. Onlarda yaranana düzgün özünüqiymətləndirmə aktiv fəaliyyətləri ilə, bir növ özünümüşahidə ilə bağlıdır. Yəni uşağın özünü güclü, sevilən olaraq görməsi ilə çirkin, gücsüz, zəif olaraq görməsinin yarana biləcək özünüqiymətləndirmənin aşağı və ya yüksək olmasına əsaslı şəkildə təsir göstərir. Ona görə də "Mən"liyin dəyərləndirilməsi vacibdir. Özünüqiymətləndirmə uşağın psixoloji və fizioloji xüsusiyyətləri və sahib olduğu bütün xarakterik əlamətlərin dəyərləndirilməsidir. Təlim fəaliyyətində özünəinam uşağın özünü tanıması, kim olduğunu və kim olacağını dərk etməsi, bir sözlə şəxsiyyət ilə bağlı düşüncəsidir. Başqa sözlə özü haqqında duyqu və düşüncələri, özü üçün öyrənmə zamanı müvəffəqiyyət qazanmasıdır[7,22]. Uşağın özü haqqında dəyərləndirmələri onun təlim fəaliyyətinə adaptasiyasına əsaslı təsir göstərir

Təlim fəaliyyətinə adaptasiya uşağın sinifdəki sosial-psixoloji mövqeyini müəyyənləşdirir. Təlim fəaliyyətinə uğurla adaptasiya olan məktəblilər yeni öyrənilmiş materialı mövcud məlumatlarla əlaqələndirmək qabiliyyətinə yiyələnirlər. II sinfdə uşaqlar artıq, "təcrübəli" olaraq məktəbə gəlirlər. Onların təlim fəaliyyətinə, yeni vəzifələrə, yaşlılara, yaşıdlarına, yeni münasibətlərə uyğunlaşma dövrü bitmiş olur. Indi kiçikyaşlı məktəbli məktəbdən nə gözlədiyini və məktəbin ondan nə gözlədiyini yaxşı bilir [5,1]. Adətən onların II sinfdəki fəaliyyətləri I sinifdəki müvəffəqiyyət səviyyəsindən asılıdır. Buna baxmayaraq, II sinif şagirdinin özünüqiymətləndirməsi I sinfdəkilərdən əsaslı şəkildə fərqlənir. I sinif şagirdi üçün adətən özünü yüksək qiymətləndirmə xarakterik haldır. II sinifdə isə təlim fəaliyyətində özünüqiymətləndirmə kəskin şəkildə azalır. Daha sonra III sinifdə özünüqiymətləndirmənin səviyyəsi yenidən yüksəlir. Bu "ikinci sinif fenomeni" adlanır. II sinifdə özünüqiymətləndirmənin aşağı səviyəyə düşməsinin səbəbi onların təlim fəaliyyətinin nəticələrinin keyfiyyətinə diqqət yetirmək qabiliyyətinin artması ilə əlaqədardır[5,1]. Lakin hələdə onların öz fəaliyyətinin nəticələrini qiymətləndirmək məhduddur, onlar yalnız bəzi kompleks bacarıqları öyrənirlər. Buna görə də, qiymətləndirmə zamanı yaranan şübhə özünəinamı azaldır ki, buda kiçik məktəblidə dezadaptasiyasının yaranmasına səbəb olur. Belə ki, bu uşaqlar müvəffəqiyyət göstərsələr belə daima səhvlər etməkdən qorxaraq başqalarının uğurunu öz uğurlarından artıq qiymətləndirilər. Belə uşaqların xarakterik xüsusiyyətləri özlərini kənara çəkmək, özlərinin zəif cəhətlərini axtarmaq və diqqətlərini ona yönəltməkdir. Beləliklə uşaqların özlərinə olan inamı, özünüqiymətləndirməsi birbaşa onların təlim fəaliyyətinə adaptasiyasına əsaslı şəkildə təsir göstərir

Məktəbəqədər yaşlı uşaqdan öz bacarıqlarına görə fərqlənən kiçikyaşlı məktəb şagirddə özünüqiymətləndirmənin aşağı olması sayəsində qarşılaşacaqları uğursuzlauqlardan qorxaraq asan tapşırıqları yerinə yetirməyə çalışırlar. Çünki onların özünəinamları aşağı olduğu üçün öz bilik və bacarıqlarına şübhə ilə yanaşırlar. Buda öyrənmə fəaliyyətinə adaptasiya zamanı çətinlik yaradır. Təlim fəaliyyətinə adaptasiyta problemi yaşayan kiçikyaşlı məktəblilər özlərini başqalarının düşüncələri ilə qiymətləndirirlər. Belə ki, onlar özlərini başqaları-sinif yoldaşları ilə müqayisə edir və onların daha uğurlu olduqlarını düşünürlər. Özlərini o qədər arxa plana atırlar ki, nəticədə edə biləcəkləri tapşırıqları belə yerinə yetirə bilmirlər. Özünü aşağı qiymətləndirən şagirdlər özlərinə qarşı acıqlı olur və adətən özlərini yalnız hiss edirlər,hətta müvəffəqiyyət qazandıqda belə sevinmirlər. Məhz buna görə də risk almaqdan qaçırlar. Adətən kiçik məktəbyaşı dövründə xüsusilə I sinifdə ilk vaxtlarda sinif kollektivi uşaqlar üçün uzaq olur. Təlim fəaliyyətinin ilk günlərində uşaqlar yeni təəssuratlarla o qədər dolu olurlar ki, hətta xüsusi hazırlıq keçən məktəblilərdə belə qeyri-adi tipik davranışlar müşahidə olunur. Çünki məktəbdən fərqli olaraq bağçada daima özlərinə qarşı qayğı görən kiçikyaşlı məktəbli məktəbdə özünü “çarəsiz” olaraq görür. Bütün bunlar uşağın özünüqiymətləndirməsinin aşağı düşməsinə təsir göstərir.

Kiçikyaşlı məktəbli davranışını sosial normalara uyğun olaraq qurur. Onun düşüncəsi digər sinif yoldaşları ilə ünsiyyətdə - uşağın özünüqiymətləndirmə prosesində formalaşır. Əslində təlim fəaliyyətinə adaptasiya uşağın məktəbdə yerinə yetirməli olduğu tələbatlarının təmin edilməsi prosesidir. Ümumiyyətlə özünü düzgün qiymətləndirmə şagirddə fəaliyyət imkanlarını düzgün qiymətləndirmək,özünütənqid etmək, tənqidlərə adekvat reaksiyanı öyrənmək, baş verən problemlərin əsl səbəbini görə bilmək qabiliyyətinin inkişafını təmin edir. Araşdırmalar göstərir ki, özünəinamı yüksək olan kiçik məktəbyaşlı uşaqlar təlim fəaliyyətinə daha səmərəli adaptasiya olurlar, çünki onlar öz imkanlarını şüurlu olaraq dərk etdikləri üçün daha çox səy göstərirlər.

Tədqiqatçı psixoloqlar kiçik məktəblilərin özünüqiymətləndirmə xüsusiyyətlərinin başqalarının onları qiymətləndirmələri ilə əlaqəli olduğunu söyləyirlər.

Kiçikyaşlı məktəblilərin istər təlim fəaliyyətinə adaptasiyası, istərsə də özünüqiymətləndirməsi birbaşa müəllim şəxsiyyəti ilə bağlıdır. Yəni uşağa münasibətdə müəllimin mövqeyi, onların təlimə, öyrənməyə adaptasiyasına əsaslı şəkildə təsir göstərir. Məhz buna görə də, müəllimlərin qiymətləndirməsinə uyğun olaraq uşaqların özlərini və həmyaşıdlarını “əlaçı şagirdlər”, “yaxşı oxuyanlar”, “3 alanlar”, “pis oxuyanlar” və s kimi qrupa bölürlər. Artıq, kiçikyaşlı məktəblilər öz bacarıq və inkanlarının fərqinə varmağa başlayırlar, eyni zamanda qazandıqları müvəffəqiyyətin yalnız qabiliyyətlərindən deyil, göstərdikləri səylərdən asılı olduğunu dərk edirlər, özünüdərketmə başqa inkişaf mərhələsinə keçir. Təlim fəaliyyətinə adaptasiya olan kiçik məktəbli özünü sinif yoldaşlarından təcrid edilmiş şəkildə deyil, müəllimlə, sinif yoldaşları ilə qarşılıqlı münasibətlər sistemində sosial varlıq

olaraq qəbul edir. Özünüqiymətləndirmə insanın qabiliyyət və imkanlarını nəzərə alaraq özünün şəxsiyyət kimi formalaşmasında mərkəzi yer tutur.

Təlim fəaliyyətinə adaptasiya zamanı yaranana düzgün özünüqiymətləndirmə kiçik məktəblilərin özlərinə qarşı müsbət duyğular yaratması, özünü olduqca yaxşı hiss etməsi və bunun nəticəsində özünə və ətrafdakılara qarşı uyumlu olması deməkdir. Böyüklər tərəfindən sevgi görən, gözlənilən yaxınlıq və diqqəti görən, fikirlərinə dəyər verilən və önəmsənilən, məsuliyyət verilən, uğurla yerinə yetirdiyi tapşırıqlarda təriflənən, olduğu kimi qəbul edilən uşağın özünəinamı təbiiki yüksək olur [8, 2].

Məktəb təlimi uşaqların özünəinamlarını, fərqliliklərini və bacarıqlarını digər insanlar tərəfindən qəbul edilməsi ilə inkişaf etdirilir. Buarada kiçikyaşlı məktəblinin sinif yoldaşları ilə münasibəti, həmyaşıdları tərəfindən qəbul edilməsi, onlarda özünəinamın inkişafında xüsusi rol oynayır[8,2]. Düzgün özünüqiymətləndirmə nəticəsində kiçik məktəbyaşlı uşaqlar aşağıdakıların fərqinə varır:

- Kim olduqlarını və necə biri olmaq istədiklərini bilirlər.
- Güclü və zəif tərəflərini bildikləri üçün çətinliklə üzləşdikdə onu aradan qaldırmağa çalışırlar.
- Özlərini daha çox müsbət baxımdan dəyərləndirdikləri üçün özlərini yararlı hiss edirlər.
- Öz bacarıq və qabiliyyətlərinə inanırlar.
- Özlərinə hörmətlə yanaşırlar [8,4].

Qeyd etmək lazımdır ki, özünüqiymətləndirmə insanın qabiliyyət və imkanlarını nəzərə alaraq özünün şəxsiyyət kimi formalaşmasında mərkəzi yer tutur.

Adekvat özünüqiymətləndirmə sayəsində kiçikyaşlı məktəblidə təlim fəaliyyətinə adaptasiyanı təmin etməklə bərabər onların müvəffəqiyyət motivasiyasını yüksəltməklə, eyni zamanda düşünmə qabiliyyətini və intellektual bacarıqlarının artmasına şərait yaradır.

ƏDƏBİYYAT

1. Андреева Д.А. О понятии адаптация. //Человек и общество: ЛГУ, 1973.-300 с..

2. Бородкина Г.В. Еще раз о готовности к школе.// Начальная школа: плюс До и после. № 10.- 2002.-15с

3. Савинова Е. Ю. Исследование уровня самооценки младших школьников [Текст] / Е. Ю. Савинова // Педагогическое мастерство: материалы междунар. науч. конф. (г. Москва, апрель 2012 г.). — М.: Буки-Веди, 2012. — 180 с.

4. ÇELENK.S. İlköğretim okulları birinci sınıf öğrencilerinin ilkokuma ve yazma öğretimine hazırlık düzeyleri. Abarıt İzzet Baysal Üniversitesi Eğitim Fakultesi Dergisi.2008

5. Даниловой Елена Главная страница журнала «Начальная школа» Содержание №30/2002 «Второклассники».№ 8. 2002
6. E.Quliyev. Uşaq psixologiyası. Bakı.2002.
7. E.Yarımkaya. 12-14 yaş arası ilköğretim öğrencilerinin özgüven düzeylerinin voleybolda servis atma becerisi üzerine etkisi. Konya.2013
8. Filiz Yurtsever “ Kendine Güven” İstanbul Bilgi Üniversitesi. 2011.
9. İrfan Yurdabakan- Ayça Uzun-Buca “ilköğretġm öğrencilerine yönelik öz-değerlendirme tutum Ölçeğinin güvenirlik ve geçerliği” Eğitim Fakultesi Dergisi 30. 2011.
10. Гольцова Николаевна Людмила «Взаимосвясь самооценки и учебной мотивации в процессе адаптации первоклассников к школе ». Москва.2005.
11. Mediha Sarı, Fulya Cenkseven “İlköğretim öğrencilerinde okul yaşam kalitesi ve benlik kavramı” Uluslararası insan bilikleri dergisi.2008
12. Mehdizadə. Z.M. Uşaq psixologiyası Bakı 1988. III hissə
13. Мишина А.В. “Ообенности самооценки детей младшего школьного возраста. Тульский государственный педагогический университет им. Л.Н. Толстого Тула, Россия
14. Yoleri.Sibel Tanış. H.M. İlkokul Birinci Sınıf Öğrencilerinin Okula Uyum Düzeylerini Etkileyen Değişkenlerin İncelenmesi. Sosyal Bilimler Enstetüsü Dergisi. 2014.

РЕЗЮМЕ

АЙГЮН РУСТАМОВА

РОЛЬ САМООЦЕНКИ В АДАПТАЦИИ ШКОЛЬНИКОВ МЛАДШЕГО ВОЗРАСТА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

Адаптация - это сложный процесс, который обеспечивает активную адаптацию психики малолетнего школьника к условиям обучения. Этот процесс, как правило, зависит от адаптации ребенка к условиям, уровня согласия и несогласия в его жизни. Адаптация заключается в определении целей в учебной деятельности и умении контролировать поведение. Она формируется в следствии оценки навык ребенка, его личных качеств и результата образовательного процесса. Правильная самооценка, которая появляется во время адаптации к учебной деятелтности означает, что маленькие ученики будут создавать положительные эмоции по отношению к ним, чувствуя себя очень хорошо и в результате этого смогут быть совместимы с собой и окружающими.

Следует отметить, что в зависимости от способностей и возможностей, самооценка занимает центральное место в формировании человека как личности. Благодаря адекватной самооценке на ряду с обеспечением адаптации в учебной деятельности у малолетнего школьника, так же создаются условия для совершенствования мотивации успеха, способности мыслить и интеллектуальных способностей.

Ключевые слова: обучение, адаптация, самооценка, право, уверенность, адекватность, маленькие школьники, ученик, ребенок**.**

SUMMARY

AYGUN RUSTAMOVA

THE ROLE OF SELF-ASSESSMENT OF SMALL-SCHOOLCHILD TRAINING ACTIVITIES

Adaptation is a complex process that ensures the active adaptation of the psyche of a young schoolchild to the learning environment. This process, as a rule, depends on the adaptation of the child to the conditions, the level of consent and disagreement in his life. Adaptation is the definition of goals in learning activity and the ability to control behavior. It is formed as a consequence of the evaluation of the child's skill, his personal qualities and the result of the educational process. The correct self-esteem that appears during adaptation to learning activity means that small students will create positive emotions towards them, feeling very good and as a result they can be compatible with themselves and others.

It should be noted that, depending on abilities and opportunities, self-esteem is central to the formation of a person as an individual. Due to an adequate self-assessment along with ensuring adaptation in the learning activity of a young schoolboy, conditions are also created for improving the motivation for success, the ability to think and intellectual abilities.

Key words: training, adaptation, self-evaluation, right, confidence, adequate, little schoolchildren, pupil, child.

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

AYNUR ƏZİZOVA
“Naxçıvan” Universitetinin magistrantı
humanitarelmler@mail.ru

MİLLİ PEDAQOJİ ELMİN ƏHƏMİYYƏTİ

Pedaqogika elminin ictimai-siyasi və əxlaqi-mədəni baxımdan müstəsna əhəmiyyətinin və onun gənc nəslin təlim-tərbiyəsi prosesində rolunun dərin təhlili məqalənin əsas məzmununu təşkil edir.

Milli pedaqogikanın cəmiyyətin demokratikləşdirilməsi və humanistləşdirilməsi prosesində fundamental dəyərlər sistemi olması məqalədə xüsusi vurğulanır.

Açar söz: milli pedaqogika, pedaqogika, milli-mənəvi dəyərlər, qabaqcıl tərübə, pedaqoji bilik, təlim-tərbiyə, pedaqoq, pedaqoji kadrlar, şəxsiyyət.

Pedaqogika elmi bəşər tarixinin inkişafında və hər bir dövrün “insanın insan kimi” formalaşmasında sosial-humanitar məzmunlu unikal bilik mənbəyi olmuşdur. Onun tədqiqat sahəsi hər bir cəmiyyət üçün ləyaqətli insan formalaşdırmaqdan ibarətdir. Bu elm şəxsiyyətin formalaşmasına xidmət etdiyi üçün onun təsiri peşəkar fəaliyyət göstərən hər bir şəxsin inkişafında, onun gələcək fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. Əslində, uşaqdan böyüyədək hamı bu elmdən bəhrələnir. Həyatda uğur qazanmaq, yüksək nüfuz sahibi olmaq istəyən hər bir insan pedaqoji ünsiyyətə, tərbiyələndirici, təhsilləndirici, inkişafetdirici ideyaları özündə formalaşdırmaq kimi möhtəşəm bir sınaqdan keçməlidir və deməli, həyatda öz sözünü deməsi, bir şəxsiyyət kimi formalaşması üçün pedaqogikaya bir elm kimi istinad etməlidir [3].

Nəsillər dəyişdikdə sosial-iqtisadi və mədəni həyatda pedaqogikanın təsiri dərinləşir və bir elm kimi o, daha geniş sferaları əhatə edərək həyat və cəmiyyət, onların inkişafı və tərəqqisi naminə güclü vasitəyə çevrilir.

Müasir qloballaşan dünyada sosial-iqtisadi, ictimai-siyasi və əxlaqi-mədəni baxımdan da pedaqogikanın möhtəşəm rolu və əhəmiyyətini nəzərə alsaq bu elm həm də cəmiyyətin demokratikləşməsində və humanistləşməsində güclü təsirə malik fundamental baza kimi təzahür edir.

Bəzən insanlar düşünür ki, pedaqogikanı yalnız müəllimlər, xüsusən də orta məktəb müəllimləri bilməlidirlər. Bu yanaşmada, əslində, bir həqiqət var, çünki şəxsiyyətin formalaşdırılması işi məqsədyönlü və mütəşəkkil şəkildə orta məktəblərdə aparılır. Lakin bu iş ö uşaq və yeniyetmələri əhatə edən başqa mühit və müxtəlif peşə adamlarının pedaqoji biliklərə malik olması şəraitində aparıldıqda daha səmərəli nəticə verir. Bizə məlumdur ki, öyrətmə, tərbiyələndirmə yalnız məktəb həyatı ilə bitmir. İnsan ömrünün sonuna qədər öyrənir, dəyişir, yeni əxlaqi və əqli keyfiyyətlərə yiyələnir. Müxtəlif

kollektivlər və düşdüyü mühit ona müəyyən tələblər verir. Bu tələblərin, münasibətlərin səmərəli təsirə malik olması üçün, ali təhsilli şəxslərin zəruri pedaqoji biliklərə malik olması vacibdir. Çünki, insanlara göstərilən müxtəlif təsirlər bu və ya digər səviyyədə şəxsiyyət formalaşdırılmasına təsir göstərir. Şəxsiyyətin formalaşdırılması məsələsi isə bütün dövr, zamanlarda iqtisadi problemlər baxımından həmişə aktual olmuşdur. Bu müəyyən mənada cəmiyyətin mövcudluğu şərtlərindən biridir. Cəmiyyət ona lazım olan, onun iqtisadiyyatını, mədəniyyətini qoruyan və inkişaf etdirən insanlar formalaşdırmağa çalışır və geniş mənada tərbiyə prosesinin iştirakçısına çevrilir. Cəmiyyət, onu təşkil edən birliklər, şəxslər, böyüyən nəsil, ümumiyyətlə insanların formalaşmasında bu və ya digər mövqedən iştirak edirlər. Ona görə də müəssisə və idarələrdə çalışan rəhbərlərin, valideynlərin, ümumiyyətlə, tərbiyə ilə məşğul olan insanların pedaqoji biliklərə mallik olması zəruridir. Hər bir idarə rəhbəri insanları idarə etmək, onların fəaliyyətlərini istqamətləndirmək üçün pedaqoji ustalığa, fərdi yanaşma qabiliyyətlərinə və s. bu kimi pedaqoji biliklərə malik olmalıdır. Hər bir valideyn isə uşaqlarına təsir etməyin, tərbiyələndirməyin səmərəli yol və vasitələrini bilməlidir. Bu baxımdan formalaşdırma, tərbiyələndirmə geniş və mürəkkəb məsələdir. İnsanların formalaşdırılması, həyat üçün hazırlanması yalnız təlim-tərbiyə müəssisələrinin işi ilə məhdudlaşmır. Hər bir insan - uşaq, yeniyetmə, gənc, işçi bir ailənin üzvü, bir mühitin yaşayanı, bir kollektivin nümayəndəsi, bir idarənin işçisidir. Bu birliklər, mühit, insanlara müxtəlif təsirlər göstərir. Ona görə də bütün təhsil müəssisələrində, ümumiyyətlə, cəmiyyətdə pedaqoji biliklərin təbliği dövrün aktual problemlərindən biridir [2].

Təhsilin ayrı-ayrı sahələrinin inkişafı üzrə real vəziyyətin təhlili əsasında hazırlanıb təsdiq edilmiş proqramların reallaşdırılması nəticəsində təhsil infrastrukturunun müasir tələblərə uyğun təkmilləşdirilməsi, təhsilin məzmununun yeniləşdirilməsi və buna müvafiq yeni dərslik siyasətinin aparılması, təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, de-institutlaşdırma, məktəbəqədər təhsiltərbiyə işinin və peşə təhsilinin yeniləşdirilməsi, xaricdə təhsil və digər bu kimi sahələrdə əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Bütün bunlar Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi və sosial-iqtisadi, mədəni-maarif kursun nəticələridir. Bu kurs ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu gün "təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir". Dövrün, zamanın tələblərinə görə müasir dünya təcrübəsi əsas tutulmaqla ümumi təhsilin yeni konsepsiyasının işlənib hazırlanması, məqsəd və vəzifələrin yeni pedaqoji təfəkkür baxımından formalaşdırılması, fənlərin məzmununun konseptual müddəalarının müəyyənləşdirilməsi və fənn kurikulumlarının yaranması təhsil tariximizdə yadda

qalacaq mühüm nailiyyətlərdir. Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında, o cümlədən təhsil sahəsindəki davamlı inkişafı, dinamizmi, “oxuyan cəmiyyət”in qarşısında həlli vacib olan məsələlər qoyur. Yeniləşən təhsilimizin öncül mövqeyinin saxlanması, funksiyalarını yerinə yetirməsi və inkişafı milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli pedaqoji kadrların olmasından asılıdır. Hansı ki, bu cür keyfiyyətlərə malik pedaqoji kadrların hazırlanması, qabaqcıl pedaqoji təcrübənin, texnologiyaların mənimsənilməsi və praktikaya gətirilməsi və s. pedaqogikanın bilvasitə problemləridir, vəzifələridir. Pedaqogika elmi bu tələbləri ödəmək, pedaqoji prosesin effektivliyini yüksəltmək üçün yeni nəzəriyyə və texnologiyalar işləyir.

Davamlı insan inkişafında əsas göstəricilərdən biri əhalinin təhsil səviyyəsidir. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev ölkəmizin davamlı inkişafında təhsilin müstəsna əhəmiyyətini, onun millətin gələcəyini müəyyən etməsini, yeni təlim strategiyalarının işlənib hazırlanmasının vacibliyini daim vurğulayırdı. Müstəqillik əldə etdikdən sonra həyata keçirilən pedaqoji strategiya, formalaşan yeni struktur elementləri və dünyanın inkişaf etmiş ölkələrində əldə olunmuş müsbət pedaqoji nəticələr, milli-mənəvi dəyərlərimiz baxımından araşdırılmış və müasir baxışlar müstəvisində ölkəmizin təhsil sisteminə tətbiq edilmişdir. Dərslik və dərs vəsaitlərinin təkmilləşdirilməsi, interaktiv tədris üsullarının inkişafı, təhsil qanunvericiliyindəki yeniliklər, dərslərin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na əsasən müasir tələblərə cavab verməsi, təhsil sahəsində qarşıya qoyulmuş bir sıra strateji hədəflərin müəyyən edilməsi, informasiya texnologiyalarına əsaslanan yeni dərslərin təşkili, dünyada özünü doğrultmuş ideyaların müqayisəli təhlili müasir pedaqogika elminin inkişafının aktual məsələlərindəndir.

Müasir dövrdə pedaqogikanın nəzəri və metodoloji problemlərini, pedaqoji prosesin texnoloji əsaslarını, təlim, tərbiyə və təhsil məsələlərinin həllinə müasir yanaşmaları qabaqcıl təcrübə nöqteyi-nəzərdən geniş şəkildə öyrənməkdə milli pedaqoji fikir tarixində layiqli yeri olan M.M.Mehdizadənin, Ə.Seyidovun, H.M.Kazımovun, Ə.X.Paşayevin, F.A.Rüstəmovun, R.L.Hüseynzadənin, M.M.Həsənovun və digər görkəmli pedaqoqların - tədqiqatçıların dəyərli əsərləri gənc müəllimlər üçün əvəzsiz mənbədir. Zəngin pedaqoji fəaliyyətə, yanaşmalara, lazım gəldikdə, müxtəlif xalqların tanınmış və görkəmli pedaqoqlarının ideyalarına müraciət etmək və bunları müasir pedaqoji sistemə tətbiq etmək bacarığına yiyələnməklə isə onlar təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynaya bilərlər [1].

Milli və ümumbəşəri dəyərlərlə gənc nəslin əxlaqi-mənəvi məzmununu zənginləşdirmək, ölkəmizin və xalqımızın müasir inkişaf templərinə və tarixi ənənələrinə, həmçinin digər ölkələrin və xalqların pedaqoji fikir tarixinə və

təcrübəsinə istinad etməklə mükəmməl təlim-tərbiyə sistemi yaratmaq pedaqogikanın müasir hədəfləridir.

Bu gün Azərbaycan əsgərinin xalqa və Vətənə sədaqət andı içməsi və bu müqəddəs andı doğrultması tərbiyənin xüsusiyyətlərini tədqiq edən pedaqogikanın ayrılmaz sahəsinə çevrilmiş hərbi pedaqogikanın cəmiyyətimizə verdiyi töhfələrdən biridir. Multikultural dəyərlər kontekstində tolerant düşüncədə formalaşan insanın mənəviyyatını zənginləşdirməyə, onun mədəniyyətinin inkişaf etməsinə xidmət edən pedaqogika elmi bu gün həyatımızda öz yüksək əhəmiyyətini və həlledici rolunu daha qabarıq göstərməkdədir. Bu elmin qüdrətindən, gücündən, mənəvi zənginliyindən bəhrələnmək isə hər kəsin vətəndaşlıq borcudur.

ƏDƏBİYYAT

1. Ağayev M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Dərs vəsaiti. Bakı, 2011
2. Əliyeva Z. Pedaqogika. Bakı, 2004
3. İbrahimov F., Hüseyzadə R. Pedaqogika. I cild. Bakı, 2012

РЕЗЮМЕ

АЙНУР АЗИЗОВА

ЗНАЧЕНИЕ НАЦИОНАЛЬНОЙ ПЕДАГОГИЧЕСКОЙ НАУКИ

Глубокий анализ исключительного общественно-политического и нравственно-культурного значения педагогической науки и ее роли в учебно-воспитательном процессе подрастающего поколения, являются основным содержанием статьи.

В статье особо подчеркивается национальная педагогика, как система фундаментальных ценностей в процессе демократизации и гуманизации общества.

Ключевые слова: национальная педагогика, педагогика, национально-нравственные ценности, продвинутое вокальное образование, педагогические знания, подготовка, педагог, педагогический коллектив, личность.

SUMMARY

AYNUR AZIZOVA

THE IMPORTANCE OF NATIONAL PEDAGOGICAL SCIENCE

A profound analysis of the exceptional socio-political and moral and cultural significance of pedagogical science and its role in the educational process of the younger generation is the main content of the article.

National pedagogy as a system of fundamental values in the process of democratization and humanization of society is particularly emphasized in the article.

Key words: national pedagogy, pedagogy, national-moral values, advanced vocal education, pedagogical knowledge, training, educator, pedagogical staff, personality.

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

EMELYA SÜLEYMANOVA
“Naxçıvan” Universiteti
e.suleymanova@nu.edu.az

MİLLİ PEDAQOGİKA XARAKTERİN FORMALAŞMASINDA ŞƏXSİ ƏMƏYİN ROLU BARƏDƏ

Məqalədə, əsasən, xarakterin şəxsiyyətin davamlı fərdi-psixoloji xüsusiyyəti olması, insanların bir-birinin xarakterini tanıması, başa düşməsi, bir-birindən xarakterlərinə görə fərqlənməsindən bəhs olunur. Eləcə də xarakterlərinin necə və hansı şəraitdə formalaşması, onların xarakterlərinin formalaşdırılmasında şəxsi əməyin də böyük rol oynaması göstərilir. İnsanlardakı xarakter əlamətlərindən olan əməksevərlik, tənbəllik, məsuliyyətlilik və s. kimi keyfiyyətlər dahi mütəfəkkirlərimizin əsərlərində, eləcə də atalar sözü və məsəllərdə də müşahidə olunur.

Açar sözlər: xarakter, xarakterin formalaşması, şəxsiyyət, şəxsi əmək, tərbiyə.

Xarakter şəxsiyyətin davamlı fərdi psixoloji xüsusiyyəti olub, insanı özünə, başqa adamlara, yerinə yetirdiyi işə, istirahət və s. münasibətdə meydana çıxır, təzahür edir.

Şəxsiyyətin tipik davranış tərzini şərtləndirən, fəaliyyət və ünsiyyətdə əmələ gələn və təzahür edən davamlı fərdi xüsusiyyətlərin məcmusuna xarakter deyilir.

Hər bir insanın şəxsi əməyində olan iradi əlamətləri - qətiyyətlilik, mərdlik, müstəqillik, özünəsahibolma, təkidlilik və s. xarakterin sturukturunda özünəməxsus yer tutur. Milli pedaqogikada xarakterin formalaşmasının universal faktorlarından - tərbiyə, təhsil, sosial mühit, genetik kod və bunlardan biri də xarakterdir. Xarakter insanın keyfiyyətini, fərqli cəhətlərini, obyektiv həqiqətin onun şüurunda əks olunması ilə əlaqədar xüsusiyyətləri göstərir. Təsadüfi deyil ki, Heraklit demişdir: ”İnsanın xasiyyəti, onun taleyidir”. İnsanların şüurunu təhsil, tərbiyə və maarifləndirmə ilə dəyişib, pozitif xarakter tərbiyə etmək lazımdır. Xarakterin formalaşması tərbiyədən, tərbiyənin isə hansı mühit və şəraitdə aparılmasından asılıdır (7,s.25).

İnsanlar özlərinin xarakterinə görə bir-birindən fərqlənirlər. Onlar həmişə bir-birlərinin xarakterinə böyük əhəmiyyət verir, özlərinin davranış və rəftarında biri digərinin xarakterini nəzərə alırlar. Xarakter insanların bir-birini tanıması, başa düşməsi, başqa sözlə, ünsiyyət problemidir. Hər bir adamın şəxsiyyət kimi fərdi xüsusiyyətləri vardır. Biz xarakter deyəndə bu xüsusiyyətlərin məcmusunu nəzərdə tuturuq. “Əgər hər hansı bir adam ömründə bir dəfə xeyirxahlıq etmişdirsə, biz buna xarakter əlaməti

deməyəcəyik. Xeyirxahlıq yalnız davamlı ünsiyyət kimi özünü göstərəndə bu və ya digər adamın xarakter əlamətinə çevrilir. Xarakter əlamətləri ancaq bu zaman müəyyən bir adam üçün tipik olan davranış tərzini şərtləndirir “(2,s.467).

Əməksevərlik, səliqəlilik, məsuliyyət, xeyirxahlıq, inadkarlıq və s, yəni “işgüzar” keyfiyyətlər, eləcə də onun şəxsi uşaq oyunlarında, özünəxidmət əməyində formalaşır. Bu zaman böyüklərin onların fəaliyyətini necə simullaşdırması da vacib şərtlərdəndir. “Xarakter həyatda qazanılmış davranış formasıdır. Heç kim anadan tənbəl və ya işgüzar, kobud və ya mehriban, qəddar və ya humanist, səliqəli və ya pinti, təvazökar və ya xudbin doğulmur. Bu kimi keyfiyyətlər həyat prosesində, tipik şəraitin, təlim-tərbiyəsinin təsiri altında əldə edir” (3,s.78.

İnsanın xarakteri adətən sosial amillərin təsiri altında formalaşır. Xarakterin formalaşması problemini nəzərdən keçirərkən onun eyni zamanda həm sabit, həm də dəyişkən olması prinsipini tətbiq etmək lazımdır. Bundan başqa, şəxsiyyətin ən vacib xüsusiyyətlərindən biri olan xarakter-ictimai tarixi bir kateqoriyadır, ona görə də insanın xarakterinin formalaşmasından danışarkən həmişə sosial şərtlərin təsirini nəzərdə tutmaq lazımdır.

Hamımıza məlumdur ki, yer üzərində ucaldılan binalar, salınan bağlar, tikilən körpülər, quraşdırılan kompüterlər, bütün maddi və mənəvi dəyərlər insan zəkasının, bəşər əməyinin məhsuludur. Müxtəlif çeşidli maddi və ya mənəvi dəyərlər yaradan insanların özləri də inkişaf edir, zəkası cilalanır, qabiliyyətləri formalaşır, yeni-yeni bacarıq sahibi olurlar. Bu həyat həqiqəti müəllimlərə, o cümlədən sinif müəllimlərinə məlum olmalıdır ki, yüksək zəka, iti təfəkkür, dərin qabiliyyət sahibi olmaq üçün adamdan təkidli zəhmət, yorulmaq bilmədəm çalışmaq tələb olunur. Müdrik adamlar bu həqiqəti də dönə-dönə etiraf etmişlər. Məsələn, M.Ə.Sabir şeirlərindən birində gəncləri yeniliyə, elm oxumağa, maariflənməyə çağırırdı:

Elmin izzəti payidar olur,
Cəhlin nikbəti canşikar olur,
Hər kəs elm oxuyur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyun, əzizlər, oxumaq zəmanıdır!
Oxumaq hər adəmin ədəbi nişanıdır! (1,s.317)

M.F.Axundov yazır ki, alimlik ata çuxası deyil ki, miras kimi övlada verilsin. Əsil alim olmaq üçün yorulmaq bilmədən işləmək və təkidlə öyrənmək lazımdır.

Nizami “Yeddi gözəl”poemasında çalışmaq haqda belə demişdir:

Hər halda sən çalış, həyat əməkdir,
Cənnət kahılığı nəyə gərəkdir?
Kim qayğı bəsləsə öz əməyinə,
Özgəyə pis baxsa, o pisdir yenə(8,s.44).

“Milli pedaqogikaya görə, əməkdə qazanılan müvəffəqiyyətlər daha çox şəxsin malik olduğu qabiliyyətlərin məhsuludursa, qabiliyyətlər də onun

göstərdiyi işgüzarlığın, fədakarlığın, səyin nəticəsidir. Gərgin şəxsi fəaliyyət müəyyən qabiliyyətlərin yaranmasına səbəb olduğu kimi, yaranan yeni qabiliyyətlər də gələcək fəaliyyətin daha uğurlu olmasını şərtləndirir "(5,s.214).

Sənətlə elmin birliyini, vəhdətini təbliğ edən Azərbaycan pedaqoqu, filosofu, ensiklopedik alimi Nəsirəddin Tusinin fikrini əmək tərbiyəsində zirvə hesab etmək olar. O yazırdı ki, həssana ülumlə vəhdətdə elə bir qüvvədir ki, o, insanı müəziz etməklə bərabər, müşərrəf olmağa da zəmin yaradır (Qeyd: burada həssana - sənət, ülum - elm, müəziz - əziz, müşərrəf - şərəf mənasındadır), yəni sənət elmlə vəhdətdə elə bir qüvvədir ki, o, insanı əziz etməklə bərabər, şərəfli olmağa da zəmin yaradır.

Bu həqiqət el bayatılarına da süzülmüşdür:

Günləri bir-bir sana,
Yar verdi bir sirr sana,
Bir elm, bir də sənət
Xəzinədir insana (6,s.351).

Həyat faktlarından aydın görünür ki, adamın öz işinə, işinin gedişinə və nəticəsinə diqqət yetirməsi, uğurlarını və nöqsanlarını, bu nöqsanların səbəblərini nəzərə alması bacarıq və qabiliyyətləri yüksək dərəcədə inkişaf etdirməyin zəruri şərtlərindən biridir. Ali məktəbi fərqlənmə diplomu ilə başa vurmuş hər hansı müəllim öz üzərində müntəzəm, gərgin işləməsə ömründə ən qüdrətli, sayılb-seçilən müəllim ola bilməz: adi müəllim olaraq qalar.

Xarakterin əlamətlərindən əməyə münasibəti ifadə edən xarakter əlamətlərindən olan əməksevərlik, tənbəllik, məsuliyyətlilik və s. kimi keyfiyyətlər dahi yazıçı və mütəfəkkirlərimizin əsərlərində, eləcə də atalar sözü və məsəllərdə müşahidə olunur. Məsələn: Nizami gəncəvinin "Sirlər xəzinəsi"ndə özünün qoca yaşına baxmayaraq, kərpic kəsməklə məşğul olan bir bənnanın avara bir gənc oğlanla söhbəti bu cəhətdən çox maraqlıdır. Qoca vaxtında ağır zəhmətdən əl çəkməyi ona məsləhət görən cavana belə cavab verir:

Onunçün öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb, düşməyim xəcalətə.
Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac
Əlimin zəhmətilə toxdur gözüm deyil ac (4,s.56).

Nizami bu misralarda insanların xarakterindəki əməksevərliyi tərənnüm etmiş, lakin həmin cavanın xarakterindəki tənbəliyi isə tənqid etmişdir. Bir tərəfdən insanın şəxsi əməyinin onun xarakterinin formalaşmasına da necə təsir göstərdiyini də vurğulamışdır. İnsanın əməyi cəmiyyətin əsası, onun dayağıdır. İnsan həyatı üçün zəruri olan maddi və mənəvi nemətlər əməyin məhsuludur. Adamların yaşayış tərzi, güzəranı, firavan yaşayıb - yaşamaması əhəmiyyətli dərəcədə onların əməyindən, əməyə münasibətindən asılıdır. Bu həqiqəti yaxşı bilən xalqımız haqlı olaraq deyir: Zəhmət çəkən bal yeyər. Bəs zəhmətdən qaçan necə? Atalar yenə gözəl cavab verib: "Yayda kölgə xoş, qışda çuval boş" . İslam dinində də tənbəllik naqis keyfiyyət kimi qiymətləndirilir. "Allah

tənbəli sevməz” . İşləmək istəməyən, başqasını işlətməyə meyilli olan şəxslərdən də xalqın xoşu gəlmir və bu səbəbdən də deyir: ”Məndən sənə öyüd, ununu özün üyüt” .

Əmək əməli olaraq adamda bir sıra insani keyfiyyətlərin, həmçinin xarakterinin formalaşmasına da təsir göstərir. Zəhmət çəkən şəxs öz əməyinin iqtisadi və sosial mənasını, fizioloji, psixoloji və idrak mənasını anlayırsa, deməli o, şəxsiyyətcə kamilləşir.

Ümumiyyətlə,şəxsiyyətin xarakterinin formalaşmasında birinci növbədə tərbiyənin mahiyətini təşkil edən və psixoloji nöqteyi - nəzərdən bir-biriylə bağlı olan aşağıdakı cəhətlərə diqqət yetirmək lazım gəlir: tərbiyə olunan və tərbiyə edənin xüsusiyyətləri, onların qarşılıqlı münasibətləri, tərbiyənin məqsədi, tərbiyə prosesində istifadə olunan yollar. Məhz buna görə də tərbiyə prosesini düzgün idarə edə bilmək üçün həmin cəhətlərin hər bir xüsusiyyəti nəzərə alınmalıdır. Yalnız bu zaman tərbiyə prosesində şəxsiyyətin tələbatları maraq və meyilləri, dünyagörüşü, əqidə və idealları, qabiliyyət və xarakteri lazımi şəkildə formalaşdırıla bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Pedaqoji Antologiyası XIX-XX əsrin əvvəlləri. Bakı: ”Maarif”, 2011.
2. Bayramov.Ə.S, Əlizadə.Ə.Ə. Psixologiya. Bakı: Çinar-Çap, 2009.
3. Əliyeva.G. Psixologiya. Bakı:ADPU, 2015.
4. Əhmədov.H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
5. Kazımov.N. Seçilmiş əsərləri XVI cild. Bakı: Çaşıoğlu, 2011.
6. Kazımov.N. Məktəb pedaqogikası. Bakı: Çıraq, 2011.
7. Məmmədov.F. Kulturologiya. Bakı: Çıraq, 2008.
8. Nizaminin hikmət və nəsihətləri. Naxçıvan: Əcəmi, 2013.

РЕЗЮМЕ

. ЭМЕЛЯ СУЛЕЙМАНОВА

НАЦИОНАЛЫНАЯ ПЕДАГОГИКА О РОЛИ ЛИЧНОГО ТРУДА В ОРОРМИРОВАНИИ ХАРАКТЕРА

В статъе в основном обсуждается вопросы специвигнасти прочного, мьчно-психалогичеспого характера как свойства человека, понимание и восприялчие характера друг-другого, отличие друг от другого по характеру. А также показывается как и в какой среде формируется характер, болъшая ролъ личного труда в формировании их характера. Такие характерные особенности людей как трудолнабие, лености, ответственносты и др. Нашли свое отражение в трудах выдающихся мыслителей, в пословицах и в притгах.

Ключевые слова: Характер, форшфование характера, мчностъ, личный труд, воспитание

RESUME

EMELYA SULEYMANOVA

THE ROLE OF PERSONAL LABOR IN THE FORMATION OF CHARACTER IN NATIONAL PEDAGOGY

The article mentions that the character is characterized by a continuous personal-psychological character of identity,how people recognize, understand and characterize one another, and distinguish one another from one another. And how and in what circumstances the character is formed, their personal characteristics also play a major role in their personal work. Characteristics of people are laborious, lazy, responsible, and so on. such qualities are observed in the works of our great thinkers. It is also observed, as well as proverbs and parables.

Key words: character, character formation, identity, personal labor, upbringing.

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

KÖNÜL QARADAŞBƏYOVA
Azərbaycan Turizm və Menecment Universiteti
konul@mail.ru

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ YOLLARI

Məqalədə yeni pedaqoji təfəkkür dövründə pedaqoji texnalogiyalardan istifadə imkanları və onların xarici dillərin tədrisi prosesində verdiyi səmərənin pedaqoji əsaslarının üzə çıxarılmasına səy göstərilir. Burada pedaqoji əməkdaşlıq pedaqogikası, layihələr metodunun tələbələrin idrak fəallığının artırılmasında yeri və rolundan bəhs olunur, yeni informasiya texnologiyalarının köməyi ilə fransız dilinin tədrisi prosesində didaktik məqsəd və vəzifələr müəyyənləşdirilir, nəhayət İKT-nin təlimdə geniş vasitə, geniş imkanlar kimi yeri və əhəmiyyəti təhlil olunur.

Açar sözlər: Pedaqoji texnologiya, xarici dilinin tədrisi, əməkdaşlıq pedaqogikası, layihələr metodu, yeni informasiya texnologiyaları

Dünyada gedən qloballaşma və Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası təhsil sistemində yeni təlim texnologiyalarından, fəal və interaktiv təlim metodlarından, istifadə edilməsini tələb edir. Bu gün pedaqoji ədəbiyyatda “pedaqoji texnologiya” anlayışına tez-tez rast gəlinir. Bu anlayış pedaqogika elmində yeni istiqamətin təzahürüdür. Bu istiqamət ötən əsrin 60-cı illərində Amerikada və İngiltərədə yaranmış, indiki şəraitdə praktik olaraq dünya ölkələrinə yayılmışdır. Ötən əsrin 70-ci illərindən “pedaqoji texnologiya” anlayışı tədris prosesinin təkmilləşməsi ilə birbaşa bağlı olmuşdur.

Anlayışın ifadə etdiyi məna və mahiyyəti haqqında fikirlər müxtəlif olsa da, məsələyə yanaşmada əksəriyyət tərəfindən qəbul edilən ümumi cəhətlər, məqamlar da yox deyil. Hər şeydən əvvəl bu anlayış altında qabaqcadan müəyyənləşdirilmiş xarakteristikalar üzrə kompüter təlimi üçün işlənib hazırlanmış optimal didaktik proseslər başa düşülür. Son illərin dərsliklərinin birində göstərilir ki, pedaqoji texnologiya dedikdə, qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatlar komplekti başa düşülür (1, 227). İ.B.Çusovskaya pedaqoji texnologiya anlayışına üç aspektdən baxmağı zərurət hesab edir.

1. Pedaqogika elminin bir hissəsi kimi. Müəllif bu aspektin mahiyyətində pedaqoji prosesin layihələndirilməsi və təlimin məqsədi, məzmunu və metodlarının öyrənilməsini, işlənib hazırlanmasını qoyur.

2. Prossesual-təsviri proses kimi.Bu prosesin məqsəd, məzmun və vasitələrinin məcmusunu təlimin nəticələrinin planlaşdırılmasına nail olmaq üçün müəyyənləşdirilməsi vacib sayıl sayılır.
3. Fəaliyyət texnoloji prosesin həyata keçirilməsi şərti kimi. Bu prosesdə metadoloji və fərdi pedaqoji fəaliyyətin funksionallaşdırılması əsas götürülür (2, 36-37).

Pedaqoji texnologiya elə bir prosesdir ki, təlim prosesinə təsiri nəticəsində keyfiyyət dəyişikliyi yaranır. Pedaqoji texnologiya anlayışını aşağıdakı şəkildə formula etmək mümkündür:

Pedaqoji texnologiya = məqsəd + vəzifə + məzmun + metodlar (priyomlar, vasitələr) və təlim forması.

Texnologiyanın əsasında dəqiq müəyyənləşdirilmiş son məqsəd durur. Ənənəvi pedaqogikada məqsəd problemi aparıcı və nailiyyətlərin səviyyəsi dəqiq olmur. Texnologiyada isə məqsədə mərkəzi komponent kimi baxılır və onun nailiyyətlərini daha dəqiq müəyyənləşdirmək olur.

Müasir cəmiyyətdə hər bir kəsin ən azı bir xarici dil öyrənməsi zəruri məsələdir. Hər bir mütəxəssis öz sahəsi üzrə irəliləyiş əldə etmək, uğurlara nail olmaq istəyirsə, bir xarici dil bilməsi vacibdir. Bu cəhət insanda öyrənmə motivini yüksəldir, fəaliyyət sahəsində mütəxəssis kimi işinin məzmununu dəyişidirərək, yeni keyfiyyət, əlamətlər ilə zənginləşməsinə xidmət edir. Lakin xarici dillərin mənimsənilməsi yolunda bir sıra çətinliklər də yaradır ki, bu çətinliklərin aradan qaldırılması üçün bir sıra problemlərin həlli yollarını müəyyənləşdirmək lazımdır.

Xarici dillərin tədrisi prosesində yaranan çatışmazlıqlar şifahi təcrübi işlərdə daha aydın görünür. Buna səbəb sinif şəraitində təlimin diferensiallaşdırılması və fərdiləşdirilməsi zəruriliyinin nəzərə alınması ilə birbaşa bağlıdır. Təlim texnologiyaları və metodlarının metodikasının işlənib hazırlanmasında bu cəhətin nəzərə alınması vacibdir. Əgər söhbət xarici dillərin təlimində fərdi yanaşmanın reallaşdırılmasından gedirsə, deməli pedaqogikada humanist istiqamətlə bağlı olan fərdiləşdirmə və diferensiallaşdırma prinsipi təlimin mərkəzində durmalıdır, nəinki müəllim. Başqa dillə desək, təlimin əsasında şüurlu fəaliyyət durmalıdır. Ənənəvi təlimdə olduğu kimi bu prosesdə öyrətmə, nəyisə tələbəyə çatdıra bilmək bacarığı yox,tələbənin idraki qüvvələrini alışdırmaq əsas məqsəd hesab edilməlidir. Fərdi yanaşma təhsil sisteminin bütün komponentlərinə təsir edir və bütün məqsəd tərbiyə prosesinin öyrənən və tərbiyə olunan üçün əlverişli olmasına kömək göstərir.

Ümumitəhsil məktəbi üçün ümumididaktik konseptual yanaşma kimi təlimdə əməkdaşlıq maraqlı təcrübə də geniş yayılmışdır. Ədəbiyyatlarda göstərildiyi kimi təlimdə əməkdaşlıq ideyasının bütün detallarına qədər işlənib hazırlanması Amerika pedaqoqlarından F.Slavin, F.Conson, C. Conson və E.Aronsonun adı ilə bağlıdır. Bu texnologiya müxtəlif tədris situasiyalarında şagirdlərin birgə tədris fəaliyyətinin təşkili üçün şəraitin yaradılmasını başlıca

məqsəd kimi qarşıya qoyur. Təbii ki, şagirdlər müxtəlif imkanlara malikdir. Bəziləri müəllimin bütün şərhlərini kifayət qədər yaxşı və tez dərk edir, leksik materialı asan mənimsəyir, kommunikativ bacarıqları ilə fərəhlənir.

Digərləri isə material üzərində düşünməyə müəyyən vaxt sərf edir, əlavə nümunələr və şərhlərə ehtiyac duyur. Ona görə də tələbələri kiçik qruplarda (3-4 nəfər olmaqla) birləşdirmək, qrupun hər bir üzvünə tapşırılmış işin yerinə yetirilməsi üçün şərtləri müəyyənləşdirmək, onların vəzifələrinin nədən ibarət olduğunu aydınlaşdıraraq özünün əldə etdiyi nəticələrə cavabdehlik hissi formalaşdırmaq lazımdır. Məhz belə bir şəraitdə, birgə əməkdaşlıq şəraitində bütün çətinlikləri aradan qaldırmaq mümkündür.

Layihələr üsulu da xarici dillərin tədrisi prosesində səmərəli texnologiyalardan biri kimi layihələr metodunu göstərmək lazimdir. Layihələr metodu tədrisdə idraka əsaslanan priyomlar məcmuyudur. Bu zaman bu və ya digər problem tələbə tərəfindən müstəqil şəkildə yerinə yetirilir, alınan nəticələrə məsuliyyət və cavabdehlik daşıyır. Xarici dillərin öyrənilməsi prosesində məlumdur ki, tələbələrdə dil faktlarının düzgün tələffüz edilməməsi, kəkələmə və dolaşıqlıqlar yaranır. Bu işdə viktorinaların təşkili və keçirilməsi xüsusi əhəmiyyətə malikdir. Viktorinalar xarici dillərin tədrisinə yaradıcılıq, tədqiqatçılıq və yeni informasiya vericilik-çatdırma xarakteri gətirir ki, bu üç anlayışın sistemi layihələr metodunun əsas əlamətlərini özündə ehtiva edir. Viktorinalar tələbələrin müəllimlərlə qeyri-formal, rəsmi olmayan əlaqələrinə də şərait yaradır ki, bu da məşqələlərin maraqlı, qarşılıqlı inam və etimadla keçirilməsinə təsir edir, düzgün, dostcasına ünsiyyətin qurulmasına yardımcı olur.

Layihələr metodundan istifadə zamanı başlıca tələb problemin yarandığı planda yerinə yetirilməsidir. Alınan nəticələrin praktik və nəzəri əhəmiyyəti aydın şəkildə görünməli, tələbələrin dərsdə və dərsdənkənar vaxtlarda müstəqil fəaliyyəti, layihənin məzmununun strukturlaşdırılması dəqiq idarə olunmalıdır.

Layihənin həyata keçirilməsi və strukturunun işlənib hazırlanması aşağıda göstərilən mərhələlərə bölünür:

- problemin bölgüsünə, ayırd edilməsinə şərait yaradan stiuasiyanın müəyyənləşdirilməsi;
- problemin həlli üçün hipotezin (fərziyyənin) irəli sürülməsi və onun müzakirəsi;
- kiçik qruplarda hipotezin yoxlanılması üçün metodların müzakirə edilməsi;
- axtarılan fakt və arqumentlər üzərində kiçik qrupların işlərinin dəlil, sübutluğunu təkzib edilməzliyinin aydınlaşdırılması;
- bütün iştirakçılar tərəfindən hər bir qrupun müdafiə etdiyi layihənin mübahisəsi cəhətlərinə qarşı etirazlarını (opponentliyini) bildirməsinə şəraitin yaradılması;
- yeni problemlərin üzə çıxarılması.

Son illər tədris proseslərində yeni informasiya texnologiyalarının tətbiqi haqqında məsələ tez-tez qaldırılır. Lakin bu yalnız yeni texniki vasitələr deyil, əksinə tədrisin yeni metod və formalarla aparılması, təlim prosesində yeni yanaşmalar, yeni münasibətlər göstərilməsi kimi başa düşülməlidir. İndiki şəraitdə xarici dillərin tədrisində və ümumiyyətlə təhsil sahəsində əhəmiyyətli dəyişikliklər baş vermişdir ki, bu cür dəyişikliklər sırasında yeni informasiya texnologiyalarını və internet resuslarını, kompüter proqramlarının öyrənilməsini və digərlərini göstərmək olar.

Tədqiqatçı O.İ.Rudenko-Morqunun "Kompüter texnologiyası yeni təlim metodu kimi" məqaləsində yazdığı kimi, biz 1980-ci illərin ortalarından kompüter inqilabı informasiya əsrində yaşayırıq. İndiki halda informasiya texnologiyalarının tempi daha da yüksəlmişdir. Bu yeni yüksəliş mərhələsi kompüter texnikasının inkişafı sayəsində mümkün olmuşdur. Multimediya texnologiyasının ixtira edilməsi, qlobal kompüter informasiya şəbəkəsinin – internetin həyata tətbiqi cəmiyyətin informasiyalaşdırılması amili oldu. Bütün bunlar hiss olunmadan və asanlıqla həyatımıza daxil oldu. Onlar məktəbimizə və bütün ixtisas sahələrində geniş şəkildə istifadə edildi (3).

Xarici dillərin tədrisi prosesində kompüter proqramlarından istifadə edilməsinə gəlincə tədqiqatçı E.L.Nosenkonun fikirncə, bu istiqamətdə işlərə ötən əsrin 70-ci illərindən başlanılmışdır. Avtomatlaşdırılmış təlim sistemi təlimin texniki vasitələrindən birbaşa bağlı olmuşdur. Avtomatlaşdırılmış təlim kompüterin köməyi ilə geniş şəkildə reallaşdı. Bununla da təlim informasiyaları əlverişli qavrayış –dərketmə forması aldı. Tədris fəaliyyətinin proqramlaşdırılması gedişində idarəetmənin fərdiləşdirilməsi, problemli təlim, biliklərə nəzarət, həmçinin informasiya- soraq və digər kompüter resusrları yarandı (4, 26).

Çoxsayılı tədqiqatların nəticələri təhsildə kompüter texnologiyasından istifadənin aşağıdakı imkanlara malik olduğunu göstərir:

- təlim prosesini fərdiləşdirmə;
- biliyin faktik və nəzəri cəhətdən formalaşdırılması;
- bacarıq və vərdişlərə yiyələnmək;
- müəllimlərin nəzarət və özünənəzarət, təhlil və özünütəhlil üzrə bilik və bacarıqları mənimsədilməsinə səmərəli şəkildə təşkil etmək;
- səhvləri dəqiq və vaxtında təhsis etmək;
- hadisələri, anlayışları təsvir və təyin edə bilmək, öyrənilən obyektin modelini, hadisə və proseslərin əyani şəkildə nümayiş etdirə bilmək;
- yaradıcı təfəkkür, fantaziya, təxəyyül və təsəvvürlərin qayğısına qalmaq;
- müəllim əməyini əhəmiyyətli dərəcədə yüngülləşdirmək.

Kompüter təlim proqramları üzrə iş formaları xarici dillərin tədrisi ilə aşağıdakı şəkildə əlaqəlidir:

a) mühazirələrin öyrənilməsi
b) tələffüz üsulunun öyrənilməsi
c) dialoji və monoloji nitqin təlimi
d) yazışmaların öyrənilməsi

e) qrammatik hadisələrin işlənməsi

Hazırda kompüter bizim həyatımıza və həmçinin fransız dilinin təlimi prosesinə çox sürətlə daxil olmuşdur. Bir cəhəti də qeyd edək ki, bir çox tədqiqatçıların fikirinə görə təhsil sistemi dövlətin ictimai və siyasi quruluculuq işindən kənarda qala bilməz. Onların fikrincə təhsil cəmiyyətin sosial sifarişidir. Ona görə də müəllim və pedaqoq kompüter texnologiyasının həm didaktik funksiyasını, həm də sosial əhəmiyyətini və mahiyyətini nəzərə almalıdır. Bununla yanaşı, hər bir müəllim belə bir sadə həqiqəti dərk etməlidir ki, kompüter nə mexanikləşdirilmiş pedaqoq, nədəki müəllimin əvəzedicisi, yaxud onun funksiyasının daşıyıcısı, bənzəri deyil. İnformasiya mənbəyi kimi kompüter tələbələrin təlimində vasitə, onların təlim fəaliyyətinni güclü və geniş imkanlarıdır. Müəllim ona nail olmaq istəyir ki, maşından istifadə etməklə nəticələri alsın, doğru-düzgünlüyünü yoxlasın, yəni təlim fəaliyyətində bu vasitədən istifadə etsin.

Qeyd edək ki, internet resurslarından fransız dilinin tədrisi prosesində didaktik vəzifələrin həll olunması üçün aşağıda göstərilən qaydalardan istifadə etmək mümkünlüyü tədqiqatlarda bir mənalı olaraq göstərilir:

a)Oxu (qiraət) bacarığı və vərdişləri formalaşdırmaq. Bu prosesdə çətinlik səviyəsi ilə seçilən müxtəlif materiallardan istifadə oluna bilər.

b)İnternet şəbəkəsindəki mətnlərin səslərin əslinə uyğunluğundan istifadə etmək vərdşlərinin təkmilləşdirmək. Bu işlər müəllimin hazırlığına da uyğun olmalıdır.

c) Problem müzakirələr əsasında monoloji və dialoji fikir və mülahizə söyləmə vərdişlərini inkişaf edtdirməklə təkmilləşdirmək. Bu zaman şəbəkədəki materiallar hər hansı bir tələbə, yaxud müəllimin özü tərəfindən tədqiq edilə bilər.

ç) Tələbələrin yazılı nitqini təkminləşdirmək. Bu iş növü fərdi, yaxud partnyorlarla birlikdə həyata keçirilə bilər. Referatların, digər epistolyar (elmi və bədii üslubun) yazıların hazırlanması iki və üç tərəfdaşla işlənə bilər ki, bu istiqamətdə işlərin uğurlu olduğu təcrübədə yoxlanılmışdır.

d) mədəniyyətşünaslıq işləri ilə tanış etmək. Bu cür işlər tələbələri tədris olunan dilin yayıldığı ölkənin özünəməxsus ənənələri, mədəniyyətini, ünsiyyət şəraitində onların istifadə etdiyi müxtəlif nitq qaydaları və adətləri haqqında məlumatlandırma əsaslı koməklik göstərir.

e) Öz lüğət ehtiyatını artırmaq. Bu zaman müasir xarici dilinin leksikası, dildəki aktiv və passiv söz və ifadələr, o xalqının mədəniyyətinin inkişaf mərhələlərinin və müasir cəmiyyətin siyasi və sosial quruculuğu fonunda öyrənilməlidir.

ə) “Canlı” materialların sistemli istifadəsi əsasında dərsdə tələbələr əcnəbi dilin öyrənilməsinə sabit motivlər formalaşdırmaq. Bu zaman hər bir kəsin və hamının maraqları problemin aktuallığı, vəsaitdəki məntlərdə qoyulan məsələlərin müzakirələrinə diqqət yetirilməlidir.

Beləliklə, informasiya texnologiyaları və onlardan dillərin tədrisində istifadəsinə nəzarət üçün kriteriyalar müəyyənləşdirilməli və bu meyarlara

əməl edilməlidir. Tədris prosesinin səmərəliliyinin yüksədilməsi dilin öyrənilməsinə marağın artırılması, bütün tələbələrin tədris əməliyyatlarında fəal iştirakının təşkil edilməsi,həmçinin hər bir tələbənin müntəzəm və daimi olaraq tədris fəaliyyətinə cəlb edilməsi və s. bu kimi kriteriyaların gözlənilməsinə xüsusi diqqət yetirilməlidir.

Yekun olaraq göstərməliyik ki, xarici dillərin öyrənilməsində əsas məqsəd məcburu olaraq kommunikativliyi, tədris prosesində ünsiyyət və əlaqələri möhkəmləndirmək, digər məqsədləri (tərbiyələndirici, təhsilləndirici, inkişafetdirici) reallaşdırmaqdan ibarətdir. Kommunikativ yanaşma təlimdə ünsiyyət və mədəniyyətlər arası qarşılıqlı əlaqə və təsirlərin üsullarınnı formalaşdırılması nəzərə tutulur ki, bu işdə başlıca funksiyanı internet-informasiya texnologiyaları yerinə yetirir. Müasir şəraitdə kommunikativlik, interaktivlik, əslinə uyğun ünsiyyət, dilin mədəniyyət konteksində öyrənilməsi, təlimin humanistləşdirilməsi kimi prinsipləri xarici dillərin öyrənilməsi prosesində gözlənilməsi vacib olan prinsiplərdəndir. Xarici dillərin öyrənilməsində informasiya texnologiyaları ənənəvi üsullardan fərqli olaraq bu gün xarici dillərin öyrənilməsində geniş imkanlar açır. Bu imkanların pedaqoji-metodik əsaslarını müəyyənləşdirmək, onun məzmun istiqamətindən səmərəli şəkildə istifadə edə bilmək tədris-tərbiyə işində müəyyən üsullar qazanmaq imkanıdır.

ƏDƏBİYYAT

1. Paşayev. Ə.N. , Rüstəmov.F.A. “Pedaqogika, yeni kurs” Bakı, Nurlan, 2007
2. Чусовская И.Я. Компьютер в обучении иностранным языкам,Информатика и образование,2000,N 9
3. Руденко-Моргун.О.И.Компьютерные технологии как новая форма обучения,РКИ(Электронный ресурс)
4. Носенко Э.Л.Применение ИТ в образования,Инностранные языке в школе,№1,2002
5. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqrammı (2005-2007-ci illər),”Azərbaycan qəzeti”,21 avqust,2004

РЕЗЮМЕ

КЮНУЛ КАРДАШБЕКОВА

ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ И ПРЕПОДАВАНИЕ ИНОСТРАННЫХ ЯЗЫКОВ

В статье предпринята попытка выявить педагогические основы использования возможностей педагогических технологий на этапе нового педагогического мышления и их эффективности в преподавании иностранных языков. Здесь говорится о педагогике педагогического сотрудничества, о месте и роли проектного метода в повышении познавательной активности учащихся, определены дидактические цели и

задачи в процессе преподавания французского языка с помощью новых информационных технологий и наконец проанализированы место и значение ИКТ, как широких возможностей,в процессе обучения.

Ключевые слова: Педагогическая технология, преподавание иностранного языка , сотрудническая педагогика, проектный метод, новые информационные технологии

RESUME

KONUL GARDASHBAYOVA

INNOVATIVE PEDAGOGICAL TECHNOLOGIES IN TEACHING OF FOREIGN LANGUAGES

In the article, attempts are made to use opportunities of pedagogical technologies and reveal the pedagogical bases of their advantages in teaching process of foreign languages. Here’s dealt with pedagogy of pedagogical collaboration, the place and role of project methods in increasing pupils’ cognition activity, didactic aims and duties are determined in teaching process of French by means of new information technologies. Finally, the role and significance of ICT as wide means and ample opportunities in teaching are analyzed.

Key words: pedagogical technology, teaching of foreign, collaboration pedagogy, project methods, new information technologies

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2018, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2018, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2018, № 1

LALƏ QARAYEVA
“Naxçıvan” Universiteti
qarayeva-lale93@inbox.ru

MÜSTƏQİLLİK VƏ İDRAKİ FƏALLIĞIN ƏLAQƏSİ

Məqalədə idrak fəallığından, onun müstəqilliklə əlaqəsindən bəhs edilmişdir. Təlimdə müstəqilliyin və idraki fəallığın təmin edilməsindən söhbət açılmışdır. Bir sıra görkəmli pedaqoqların mövzu ilə bağlı fikir və tədqiqatları nəzərdən keçirlmişdir. Eyni zamanda təlim prosesində tələbələrin fəallığını motivləşdirən və stimullaşdıran üsullar haqqında məlumat verilmişdir.

Açar sözlər: idrak, idraki fəallıq, idrak müstəqilliyi, fəallıq, müstəqillik, idrak marağı, idrak tələbatı, motiv, təlim

İdrak nəzəriyyəsi termini ilk dəfə fəlsəfəyə 1854-cü ildə Şotlandiya filosofu J.Ferrey tərəfindən daxil edilmişdir. **İdrak**– insanların biliklərin əldə edilməsinə və inkişafına yönəlmiş fəaliyyətidir.

Təlim prosesi idrak fəaliyyətinin bir növüdür. Təlim prosesində öyrənmə idrak prosesinin qanunauyğunluğuna əsaslanır. Buradan belə nəticə çıxarmaq olar ki, “təlim prosesinin metodoloji əsasını idrak nəzəriyyəsi təşkil edir”.

Pedaqoji və psixoloji ədəbiyyatda "idraki fəallıq", "idrak müstəqilliyi", "müstəqillik", "yaradıcı fəallıq" və s. kimi terminlərə rast gəlinir. Bu anlayışlar bir-birindən fərqlənsə də biri digərini tamamlayır.

Burada "fəallıq" “müstəqillik” anlayışına nisbətən daha genişdir. Fəallıq müstəqilliksiz ola bildiyi halda müstəqillik fəallıqsız ola bilməz.

B.P.Yesipov bu haqda demişdir: "Fəallıq anlayışı müstəqillik anlayışından daha genişdir. Öyrənənin (tələbənin) fəallığı təlim prosesinin bütün mərhələlərində zəruridir". Əlavə olaraq qeyd edir ki, "Fəallıq, hökmən, bu və ya digər dərəcədə fikri müstəqillik tələb edir". (2.27-29)

Bəzən fəallıq dedikdə tələbədə ancaq zahiri fəallıq nəzərdə tutulur. Amma hərəkətsiz görünən tələbə də fəal və müstəqil işlə məşğul ola bilər. Buna görə də fəallıq dedikdə, tək xarici(əməli) fəallıq deyil, daxili(zehni) fəallıq da nəzərə alınmalıdır. Zehni fəallıq dedikdə, tələbənin düşünə bilməsi, müstəqil fikir yürüdə bilməsi, müəyyən fikirləri əsaslandırması və s. nəzərdə tutulur. Əməli fəallıq isə tələbənin daim hərəkətdə olması, seminar, mühazirə və ya laboratoriya məşğələlərində özünü daha aktiv göstərməyə çalışmasıdır.

Adətən, daxili və xarici fəallıq bir-biri ilə vəhdət təşkil edir. Daxili fəallıq xarici fəallıqsız mümkündür, amma xarici fəallıq daxili fəallıq tələb edir.

Göründüyü kimi, zehni və əməli fəallıq arasında geniş əlaqə mövcuddur. Bu haqda bir çox mütəxəsislər müxtəlif fikirlər irəli sürmüşlər. Bunlarda biri də S.P.Baranovdur. O yazır: "Fəallıq dedikdə biz buna birtəfli yəni- ancaq zehni fəallıq və ya ancaq əməli fəallıq kimi yanaşmamalıyıq. Burada tələbənin həm zehni fəallıq göstərməsi, nəticələr çıxarması, təhlillər aparması və.s , həm də əməli fəallıq göstərməyi, xüsusən nəzəri biliklərin əmək prosesində tətbiq edilməsi çox mühümdür. Qeyd edək ki, əməli fəallıq da zehni fəallığın iştirakı və nəzarəti altında aparılır". (2. 27)

Tələbələrin müstəqilliyi və fəallığı bir-biri ilə sıx bağlıdır. Pedaqoji ədəbiyyata nəzər salsaq görərik ki, bu haqda bir sıra pedaqoqların fikirləri mövcuddur. M.N.Skatkin bu haqda yazır: "Müvafiq praktika və çalışmalar olmadan tələbələrə müstəqil düşünməyi, öz fikirlərini dəqiq ifadə etməyi öyrətmək olmaz". (1.20)

B.P.Yesipov isə yazır: "Müstəqillik tərbiyəsi müstəqil iş prosesində öyrənilir". (2. 20)

M.İ.Xarlamov müstəqil işə təlim metodu kimi yanaşmışdır. Onun fikrincə , müstəqil işin icrası zamanı bir sıra tələblərə əməl edilməlidir:

- müstəqil iş üçün material düzgün seçilməlidir;

-müstəqil işdən qabaq müəllimin giriş sözü olmalıdır;

-məşğələ zamanı müəllim müstəqil işlərin gedişinə nəzarət etməli, yeri gələndə, suallarla müstəqil işin necə başa düşüldüyünə nəzarət etməlidir;

-müstəqil işdən qabaq əyani vasitələr nümayiş etdirilə bilər;

-öyrənilən materialın ayrı-ayrı hissələri müstəqil sürətdə oxuna bilər. (2.38)

Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru professor Nurəddin Kazımov müstəqil işlərə auditoriyadan kənar məşğələ kimi yanaşır. O, müstəqil işlər haqqında yazır: “Müstəqil iş biliklər, bacarıq və vərdişlər qazanmaqda tələbələrin müstəqilliyini formalaşdırmaq məqsədi güdür. Müstəqil işin növləri çoxdur: kitab üzərində, o cümlədən dərslik və dərs vəsaitləri üzərində iş; məşğələdə və məşğələdən kənarda jurnal və qəzet məqalələri və tarixi sənədlr üzərində iş; konsekt tutmaq; referat yazmaq; tezis yazmaq; mühazirə mətni üzərində işləmək; laboratoriya şəraitində müstəqil işləmək; müstəqil müşahidələr aparmaq; məruzə mətni hazırlamaq; tərcümə fəaliyyəti ilə məşğul olmaq və s.” (10.163)

Y.Kərimov dərsdə öyrənənlərin müstəqilliyinin və fəallığının təmin edilməsini başlıca məqsəd hesab edir. Müəllifin fikrincə, "müstəqillik heç kəsin təsiri olmadan öyrənənin tam sərbəstliyi, müəllimin istiqamətverici məsləhəti, köməyi ilə fəaliyyət göstərməkdir". Bundan əlavə müəllif fikrini davam etdirərək yazır ki, "müstəqillik öyrənənlərdə əməksevərlilik, əməyə hazır olmaq təşəbbüskarlığı, inamla qərar qəbul etmək, çətin vəziyyətlərdən çıxış yolu tapmaq, başlıca məsələni ikinci, üçüncü dərəcəli məsələlərdən ayırmaq, gələcək həyat yolunu müəyyənləşdirmək və s. kimi keyfiyyətləri aşılayır". (3.330)

M.İsmixanov müstəqil işin təlimdə bir sıra əhəmiyyəti haqqında yazır: " Müstəqil iş öyərənənlərdə müşahidəçilik, yaradıcılıq qabiliyyətlərinin təşəkkülünə imkan verir, sərbəst fikirləşmək, müqayisə və ümumiləşdirmələr edib nəticələr çıxarmaq bacarığı aşılayır. Müstəqil işlər idrak fəaliyyətini qüvvətləndirməyin, onlarda əqli müstəqilliyin mühüm vasitəsini təşkil edir. Sistematik aparılan müstəqil işlərin köməyilə öyrənənlərin biliklərin qazanılmasında və tətbiqində müəyyən sərbəstlik göstərir, qarşıya çıxan idrak məsələsini öz qüvvələri ilə həll etməyə alışırlar". (1.18)

M.İsmixanov pedaqoji ədəbiyyatda müstəqillik və fəallıqla bağlı müxtəlif fikirlərin olmasını nəzərə alaraq onları üç qrupa ayırmışdır.

Birinici qrup pedaqoqlar (R.M.Mikelson, N.D.Lebitov, R.A.Vasilyeva və b.) təlimdə öyrənənin fəallığında əsas zahiri cəhətləri ön plana çəkmişlər. Buraya öyrənənin(tələbənin) öyrədənin(müəllimin) köməyi olmadan işləməsi, işin icrasına müəyyən vaxt ayrılması və öyrənənin fiziki fəallıq göstərməsi daxildir.

İkinci qrup pedaqoqlar (R.B.Sroda, T.S.Panfilova və b.) öyrənənin daxili fəallığını ön plana çəkmişlər. Buraya öyrənənin əqli fəallığı, müstəqillik, yaradıcılıq və təşəbbüskarlıq göstərməsi və.s aid edilir.

Üçüncü qrup pedaqoqlar isə (B.P.Yesipov, E.Y.Qolant, N.Q.Dayri, N.Kazımov, P.İ.Pidkasistiy, B.P.Strezikozin, A.V. Usova, O.A.Nilson və b.) buraya isə həm daxili, həm də xarici fəallığı əsas götürlər.

Müəllif təsnif etdiyi üçüncü qrup pedaqoqların fikrini Yesipovun fikri ilə izah edir: "Müəllimin bilavasitə iştirakı olmadan, lakin onun tapşırığı ilə xüsusi ayrılmış vaxtda gördüyü iş-bu zaman şagirdlər səy göstərməklə, bu və ya digər formada özlərinin əqli və ya fiziki (və ya hər ikisi birlikdə) fəaliyyətlərinin nəticələrini ifadə etməklə qarşıya qoyulmuş məqsədə nail olmaq üçün şüurlu sürətdə cəhd göstərirlər". (2.21)

İnsanın idraki fəallığı idrak tələbatının nəticəsində meydana gəlir. İdrak tələbatı haqqında Ə.S.Bayramov yazır: "idrak tələbatı təmənnasız tələbatdır. Bu isə o deməkdir ki, əgər təfəkkür fəallığı həqiqətən idrak tələbatı doğurursa, o tələbənin konkret praktik məqsədləri ilə(mükafat, müvəffəqiyyət və s.) əlaqədar olmaya da bilər". (4.12)

Tələbələrdə idrak tələbatının formalaşdırılmasını aşağıdakı üç mərhələ ilə şərtlənir:

1. İdrakın ilk səviyyəsi- obyekt haqqında təəssürat əldə etmək tələbatıdır. Bu mərhələ çox vacibdir. Tələbənin yeni stimullara cəhd etməsində özünü göstərir.
2. İdrakın ikinci mərhələsi- maraqlarla əlaqədardır. İdrak tələbatının bu səviyyəsində tələbə informasiyaları seçə bilir, hər hansı münasibət bəsləyir. Bu isə tələbədə təbii olaraq biliyə tələbat doğurur. Onu da qeyd edək ki, idrak fəallığının bu səviyyəsi daha çox kortəbii xarakter daşıyır.
3. İdrak fəaliyyətinin bu mərhələsi o vaxt yaranır ki, idrak tələbatı kortəbii xarakter daşımır. İdrak mərhələsinin məhz bu mərhələsində tələbənin bu

və ya digər davamlı marağını, fəaliyyət sahəsindəkiimkanları və professional yaradıcılığını müəyyən edir.

Nurəddin Kazımov "Məktəb pedaqogikası" adlı əsərində elmi idrakla təlimin əlaqəsini açmağa çalışmışdır. O, yazır: "Yeni biliklərin alimlər tərəfindən kəşf edilməsi elmi idrak, öyrənələr tərəfindən (tələbələr) kəşf edilməsi isə təlim adlanır". N.Kazımov qeyd edir ki, "Bizim milli pedaqogika təlim nəzəriyyəmiz dialektik matrealizmin idrak nəzəriyyəsinə uyğun qurulur. Sonuncuya görə, biliyin əsas mənbəyi obyektiv gerçəklik, meyarı isə praktikadır. Xarici aləmin müşahidəsindən nəşət edən elmi idrak topladığı müşahidə materealını təfəkkür süzgəcindən keçirir, aldığı nəticənin reallığını əməli işdə, praktikada sınayır. Həmin idrak nəzəriyyəsindən çıxış edən bizim təlim nəzəriyyəmizə görə, öyrənənlər üçün yeni olan materialın tədrisi onların əsasən müşahidəsindən başlayır, müşahidə əsasında toplanan təəssüratlar müəllimin rəhbərliyi altında təhlil edilir və başa düşülür; təhlil yolu ilə öyrənənlər qazandıqları bilikləri təcrübəyə tətbiq edilir. Deməli təlimin ilk üç mərhələsi idrak mərhələsinə uyğun gəlir(qavrama, başa düşmə və təcrübə). Elmi idrakdan fərqli olaraq təlimin son dördüncü-biliklərin yoxlanılması və qiymətləndirilməsi mərhələsi də olur". (8. 85) Müəllif idrak fəallığı ilə təlimin əlaqəsini bilməyi tələb edərək bu haqda yazır: "Təlim nəzəriyyəsi ilə idrak nəzəriyyəsi arasında əlaqəni nəinki tədqiqat işi ilə məşğul olan mütəxəssis pedaqoqlar, habelə müəllimlər də bilməlidir. Çünki belə biliklər müəllimin təlim fəaliyyətində şüurluluğunu bir qədər də artırar deməli, təlim səmərəsini yüksəltmək üçün idrak zəmini yaradır". (8.86)

Tələbənin idrak fəallığı o zaman yaranır ki, müəyyən bilik ona hazır formada deyil, problem şəklində təqdim olunur. Təlimin yüksək səviyyədə qurulması üçün problemli təlimin mühüm rolu var. S.L. Rubinşteynin dediyi kimi: "Harada problem şəraiti yaranırsa, oradan fikir başlayır". (3.300) Təlimin çətinlikləri tələbələri müstəqil işləməyə sövq edir. Bunun müəllimin rəhbərliyi altında görülən işdən başlıca fərqi ondan ibarətdir ki, burada tələbələr problemin mahiyyətini özləri üçün aydınlaşdırmağa, məqsədə çatmaq yollarını tapmağa çalışırlar. Problem yanaşma tələbələri fəal tədqiqatçı vəziyyətinə qoyur, bir çox tapşırıqların müstəqil həllini tələb edir. Problemin həlli produktiv təfəkkürü fəallaşdırır. Problem üç istiqamətdə özünü göstərir: problemli şərh, problem axtarıcılıq, problem tədqiqatçılıq. Təlimin problemli xarakterə malik olması tələbələrdə inkişafetdirici təsir göstərir.

Hümeyir Əhmədov və Nigar Zeynalovanın müəllifləri olduğu "Pedaqogika" kitabında öyrənmə ilə bağlı belə bir nümunə gətirmişlər: “ Məktəbdə şagirdlər lüğət ilə işləməyi öyrənir və internetdə onlayn şəkildə lazimi sözün yazılış qaydasını tapma bacarığına yiyələnirlər. Bu bacarıqlar vərdişlərə, tətbiqetmə və daha sonra irələliyişə səbəb olur. Tətbiqetmə isə daha yaxşı nəticələr əldə etməyə kömək edir. Lakin müəllimlər tələbələri(şagidləri) öyrənmək üçün dərsdə fəal iştirak etməyə yönəldə bilməzsə, təlim prosesi problemlərə gətirib çıxaran əziyyətli bir yola çevrilər. Bu problemlərə öyrənilmiş dərslərin(mövzuların) unudulması, tapşırıqları yerinə yetirməkdən

imtina kimi çətinlikləri aid etmək olar. Bunlar isə bəzən davranışla bağlı problemlərə də yol açа bilər". (9.135)

Pedaqoji və psixoloji tədqiqatlar göstərir ki, tələbələrin təlim prosesində fəallığı stimullaşdırılan, motivləşdirilən, tənzim edilən prosesdir. Bu proses bir sıra amillərdən asılıdır: Bunlara motivləşdirmə, stimullaşdırma və təlim materialının təqdim edilmə forması və s. aiddir.

Motivləşdirmə dedikdə- tələbələri aktiv idrakı fəaliyyətə həvəsləndirmək üçün istifadə edilən üsul və vasitələr başa düşülür. A.N.Leontyev insanın beynində əks olunaraq onu müvafiq tələbatın ödənilməsi üçün fəaliyyətə təhrik edən amilləri həmin fəaliyyətin motivi adlandırmışdır. (7.206)

Pedaqoji proses üçün xarakterik olan motivlər idraki motivlərdir. İdraki motivlərin aşağıdakı səviyyələri vardır:

-geniş idraki motivlər(təlim prosesi və onun nəticələrindən məmnunluq);

-təlim idraki motivlər(biliklərin qazanılması, konkret təlim fənlərinin öyrənilməsinə can atmaq);

-özünütəhsil motivləri(əlavə biliklər qazanmağa həvəs göstərmək). (5.79).

Təlim motivləri (idraki) aşağıdakı kimi müəyyənləşdirilir: Fənnin məzmunu, keçirilən mövzunun həyatla əlaqəsi və yeri, şəxsi maraqlar, müəllimin nümunəsi və fənni tədris etmə qabiliyyəti, biliyini artırmaq bacarığı və s. (5.206)

İdraki motivləri içərisində əsas yeri təlim maraqları tutur. Təlim maraqları mənimsəmənin keyfiyyətini yüksəldir, tələbələri öyrənməyə, axtarıcılığa cəlb edir. Təlimə maraq təhsilin məzmunu, tələbələrin fəallığı və müəllimin şəxsi nümunəsi əsasında formalaşır.

Bununla bağlı İsmayıl Əliyev yazır: "Öyrənmənin motivləşdirilməsinin əsas amillərindən biri də müstəqillikdir. Müstəqillik müəllimin bilavasitə köməyi olmadan öyrənənlər tərəfindən fəaliyyətinin obyektinin, vasitələrinin müəyyən edilməsi və həyata keçirilməsidir. İdraki fəallığı yüksək olan tələbələrin müstəqillik səviyyəsi də adətən, yüksək olur".(5.83)

Q.İ.Şukina idrak marağını daha sadə və aydın şəkildə şərh edir. O, yazır: "İdrak marağı idrak sahəsinə, onu doğuran şeylərə və biliklərə yiyələnmək prosesinin özünə yönəldilmiş seçmə şəxsiyyət istiqaməti kimi qarşımıza çıxır. İdrak marağının xüsusiyyəti idrak marağına malik adamın hadisələrin səthində olmaq deyil, dərk edilən şeyin mahiyyətinə dərindən nüfuz etmək meylidir" . Daha sonra o, yazır: "İdrak marağı şagirdin idrak fəaliyyətini qüvvətləndirmək vasitəsidir. Müəllimə təlim prosesini cəlbedici etməyə imkan verən səmərəli vasitədir" (12.57)

İdrak fəallığı ilk növbədə idrak tələbatının yaranması və həmin tələbatın ödənilməsi üçün tələbənin müəyyən axtarış fəaliyyətinin tənzimlənməsində özünü göstərir. Əgər təlim zamanı müəyyən çətinliklər meydana gəlirsə və tələbə onun zəruriliyini hiss edirsə bu idrak fəallığının ilkin təkanıdır. Əgər tələbə qarşıya çıxan problemi həll etmək üçün bilik və təcrübənin çatışmazlığını hiss edirsə, əlavə informasiya əldə etməyə ehtiyac duyurssa, tələbələrdə təbii olaraq idrak tələbatı baş qaldırır. Bu halda tələbə obyekt

haqqında əlavə məlumat axtarır, qarşıya çıxan suallara cavab tapmağa, problemi müstəqil olaraq həll etməyə çalışır. Demək tələbə tək müəyyən elmi informasiyalar deyil, özünü yüksək mənəvi keyfiyyətlər yaratmağa daxili cəhd yaranır və bu tələbəni narahat edirsə, bu idrak fəallığının təzahürüdür.

M.İ.Maxmutov idraki müstəqillik haqqında yazır: "İdraki müstəqillik dedikdə, biz tələbələrdə maddi aləmdəki əşya, hadisə, proseslərin əsas və ikinci dərəcəli əlamətlərini müstəqil şəkildə seçmək, mücərrədləşdirmə və ümmumiləşdirmə yolu ilə yeni anlayışların mahiyyətini açmaq kimi əqli bacarıq və qabiliyyətlərinin olmasını nəzərdə tuturuq. İdraki müstəqilliyin əlamələri aşağıdakılardır: a) tələbə müxtəlif mənbələrdən yeni bilikləri istər əzbərləməklə, istərsə də müstəqil tədqiqat, "kəşf" yolu iləmüstəqil şəkildə əldə etmək bacarığı; b) qazanılmış bilik bacarıq və vərdişləri sonrakı özünütəhsildə istifadə edə bilmək bacarığı; c) istənilən həyati məsələnin həlli üçün bilik, bacarıq və vərdişləri praktik şəkildə tətbiq edə bilmək bacarığı". (2.32)

İdrak fəallığı ilə bağlı Yəhya Kərimov "Şagirdlərin idrak fəalliyyətinə diqqəti artırmalı" (İbtidai məktəb və məktəbəqədər tərbiyə 1972 №5) mövzusunda məqaləsində adından da göründüyü kimi diqqəti əsasən tələbələrə deyil, şagirdlərə çəkmişdir. O, burada belə bir fikir irəli sürmüşdür: "Tədris prosesində yüksək məhsuldarlığı təmin edən şərtlərdən biri şagirdlərin əqli və praktik fəaliyyətindən hərtərəfli istifadə etməkdir. Uşaqlar tədris prosesində nə qədər çox fəallıq göstərərlərsə, yenini dərk etməyin qaydasına nə qədər əsaslı yiyələnərlərsə, idraki vəzifələr o qədər sürətlə yerinə yetirilər. İdraki vəzifələr dedikdə o vəzifələr başa düşülür ki, onların həlli prosesində şagirdlər müstəqil axtarışlar yerinə yetirir, faktları təhlil etməklə özləri üçün yeni, əvvəllər müəllimlərdən eşitmədikləri şeyləri tapırlar". Bundan əlavə müəllif qeyd edir ki, "İdrak fəaliyyətini inkişaf etdirmək üçün ilk növbədə müəllim onları yaxşı tanımalıdır. Müəllim şagirdləri yaxşı tanımalı, onlar arasında qarşılıqlı anlaşma olmalıdır". (3.299)

Fikrimizcə, müəllifin şagirdlərə aid etdikləri fikirləri ali məktəb tələbələrinə də şamil etmək olar. Ümumilikdə götürdükdə şagirdlərə aid edilən müstəqil iş , fəallıq, idraki fəallıq anlayışları tələbələrə də aid edilir. Mahiyyət etibarilə eyni olsa da, ali məktəbdə bu anlayışlar daha geniş mənadadır.

ƏDƏBİYYAT

1. Məcid İsmixanov – İbtidai təlimdə şagirdlərin müstəqil işi. Bakı-1978
2. İsmayıl Əliyev-İbtidai siniflərdə dərs zamanı şagirdlərin müstəüil işlərinin səmərərlilik şərtləri. Bakı-Nurlan-2007
3. Yəhya Kərimov-Seçilmiş əsərləri II cild Bakı-2007.
4. Təlim-tərbiyyə prosesində şəxsiyyətin fəallaşdırılmasının xüsusiyyətləri, yol və vasitələri. elmi əsərlərin tematik məcmuəsi /AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi.. Bakı-1984
5. İsmayıl Əliyev-Pedaqogika-Naxçıvan 2017.
6. Əmrulla Paşayev, Fərrux Rüstəmov-Pedaqogika(yeni kurs)-Bakı-2010

7. Ləzifə Qasımova, Rəhimə Mahmudova-Pedaqogika 2003
8. Nurəddin Kazımov-Məktəb Pedaqogikası-Bakı 2002
9. Hümeyir Əhmədov, Nigar Zeynalova- Bakı 2016
10. Nurəddin Kazımov-Ali məktəb Pedaqogikası-Bakı 2011
11. Rəhimə Mahmudova-Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Çaşıoğlu, Bakı 2005
12. Mehdi Mehdizadə-Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirlməsi yolları-Bakı 1982
13. İbtidai məktəb və məktəbəqədər tərbiyə 1972 №5

РЕЗЮМЕ

ЛАЛА КАРАЕВА

СЕВЯЗЬ НЕЗАВИСИМОСТИ И ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

Статья посвящена познавательной деятельности, ее взаимосвязи с независимостью. Вопрос о независимости и знании обсуждался на тренинге. Ряд видных педагогов рассмотрели свои взгляды и исследования по этому вопросу.В то же время он был проинформирован о методах, которые мотивируют и стимулируют обучение учащихся в процессе обучения.

Ключевые слова: познавательная, познавательная деятельность, познавательная независимость, активность, независимость, познавательный интерес, когнитивная мотивация, мотивация, обучение

SUMMARY

LALA GARAEVA

RELATION OF INDEPENDENCE AND COGNITIVE ACTIVITY

The article deals with cognitive activity, its relationship with independence.The issue of independence and cognizance was discussed in the training. A number of prominent educators have reviewed their views and studies on the subject. At the same time, it was informed about the methods that motivate and stimulate students' learning in the learning process.

Key words: cognitive, cognitive activity, cognitive independence, activity, independence, cognitive interest, cognitive demand, motivation, training

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 4
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 4
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 4

RİYAZİYYAT

ƏLÖVSƏT DADAŞOV
AMEA Naxçıvan Bölməsi
E-mail: dadal_1954@mail.ru
VƏFA QAFAROVA
AMEA Naxçıvan Bölməsi
E-mail: arazdeniz826@gmail.com
TÜRKANƏ ƏLİYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: turkane_1990@mail.ru

İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ ZAMANI RİYAZİYYAT TƏLİMİNİN ƏSAS PRİNSİPLƏRİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Məqalədə riyaziyyat təliminin əsas prinsipləri müfəssəl şəkildə şərh edilir. Riyaziyyat təlimində şüurluluq, fəallıq və müstəqillik prinsiplərinin aparıcı prinsiplər olduğu xüsusi qeyd olunur. Göstərilir ki, müasir şəraitdə informasiya texnologiyalarından səmərəli istifadə etməklə şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsini yüksəltmək olar. Riyaziyyatın tədrisində fərdi yanaşmanın da mühüm əhəmiyyəti vardır. Bu zaman şagirdin intellektual səviyyəsi mütləq nəzərə alınmalıdır.

Açar sözlər: Riyaziyyat, təlim, prinsip, əyanilik, tədris.

Riyaziyyat təlimində qabaqcıl təlim təcrübəsi pedaqoqlar tərəfindən ümumiləşdirilərək təlim prinsipləri adlandırılmışdır. Bu prinsiplərdə təlim prosesinin vəzifələri, təlimdə müəllimin fəaliyyətinin əsas və mühüm cəhətləri əks olunur. Riyaziyyatdan metodik ədəbiyyatda aşağıdakı didaktik prinsiplər sistemi qəbul edilir:

1) riyaziyyat təlimində elmilik prinsipi;
2) riyaziyyat təlimində şüurlu mənimsəmə, fəallıq və müstəqillik prinsipi;
3) riyaziyyat təlimində müvafiqlik prinsipi;
4) riyaziyyat təlimində əyanilik prinsipi;
5) riyaziyyat təlimində fərdi yanaşma prinsipi;
6) riyaziyyat təlimində biliklərin möhkəmliyi prinsipi.

Riyaziyyat təlimində elmilik dedikdə, təlimin məzmununun elmin müasir səviyyəsinə uyğun olması başa düşülür. Riyaziyyat təlimində elmilik prinsipi əsasən dərsliklərin yazılması ilə təmin olunur. Məlumdur ki, riyazi material

təlim prosesinə didaktik işləndikdən sonra daxil edilir. Dərslik və ya didaktik sistem aşağıdakı tələbləri ödəməlidir:

1) Didaktik sistem əks etdirdiyi elm sahəsini ona məxsus məntiqi və biliklər sistemini mümkün qədər saxlamalıdır;

2) Didaktik sistemdə hər sonrakı tədris materialı özündən əvvəlki materialla əsaslandırılır;

3) Didaktik sistemdə tədris materiallarının yerləşdirilməsi ardıcıllığı şagirdlərin inkişafda olan psixoloji xüsusiyyətlərinə uyğun olmalı və bu ardıcıllıq şagirdlərin riyazi təfəkkürünün sürətli inkişafına yardım etməlidir;

4) Didaktik sistem elmi faktlar və anlayışlar arasındakı daxili əlaqəni açmalıdır.

Ənənəvi riyaziyyat təlimi yuxarıdakı tələbləri ödəmirdi, çünki:

a) hesab və cəbr süni surətdə bir-birindən təcrid edilmişdi;

b) həndəsə və cəbrdəki bəzi mövzuların əlaqəsi yox idi;

v) həndəsə digər məktəb fənlərindən təcrid olunmuşdu;

q) məktəb riyaziyyatı digər məktəb fənlərindən ayrı düş- müşdü.

Riyaziyyat təlimində elmilik prinsipinin reallaşmasına hər addımda nail olmaq olar. Məsələn, əgər müəllim riyazi anlayışlara tərif verərkən, riyazi mühakimələri qurarkən ifadələrin korrektliyinə diqqət yetirməyi və ya hər mühakiməyə tənqidi yanaşmağı şagirdlərdən tələb edirsə, o elmilik prinsipinə əməl edir. Təlimdə elmilik prinsipinin reallaşmasında hələ də maneələr vardır. Proqram və dərsliklərin mükəmməl olmamasını, ayrı-ayrı fənlər üzrə proqramların tam uyğun olmamasını buna misal göstərmək olar.

Riyaziyyat təlimində şüurluluq, fəallıq və müstəqillik prinsipləri aparıcı prinsip olmaqla təlimin müvəffəqiyyətini təmin edir. Şüurlu mənimsəmə dedikdə, şagirdlərin biliklərə elə dərindən yiyələnməsi başa düşülür ki, onlar aldığı bilikləri yeni konkret situasiyalarda tətbiq etməyi bacarırlar. Şüurlu mənimsəmənin təmin olunması müəyyən çətinliklərlə bağlıdır. Bu çətinliklərin ən əsası mənimsəmə mexanizminin «kifayət qədər» öyrənilməməsidir, çünki «şagird verilən tədris materialını mənimsəmişdir» təklifini dəqiq söyləmək mümkün deyil. Əgər şagird verilən suallara cavab verirsə, verilən çalışmaları həll edirsə, onda müəyyən ehtimalla «şagird tədris materialını mənimsəmişdir» söyləmək olar. Əks halda «şagird bu materialı mənimsəməmişdir» demək olar.

Təlim prosesində şagirdin tədris materialını necə mənimsəməsi haqqında daim informasiya almaq vacibdir. Buna yalnız pedaqoji cəhətdən düzgün qoyulmuş suallar sistemi vasitəsi ilə nail olmaq olar. Pedaqoji cəhətdən sual düzgün qoyulmuşdur dedikdə, biz həmin sualın şagirdi fəal zehni fəaliyyətə cəlb etdiyini başa düşürük. Təlim prosesində suallar elə tərtib olunmalıdır ki, onların tələb etdiyi informasiyanın həcmi optimal olsun. Əgər tələb olunan informasiyanın həcmi böyük olarsa, onda bu sual şagirdi fəal zehni fəaliyyətə cəlb etməz, çünki şagird bu informasiyanı qəbul etməkdə çətinlik çəkəcək. Əgər tələb olunan informasiyanın həcmi kiçik olarsa, onda bu sual yenə də şagirdi fəal zehni fəaliyyətə cəlb etməz, çünki cavab çox sadə və aşkardır. Təlim prosesində şüurlu mənimsəmənin əks qütbündə şagirdin biliyindəki

formalizm durur. Riyaziyyat təlimində 2 ənənəvi nöqsan olur: a) formalizm; b) nəzəriyyənin praktikadan təcrid olunması.

Təlimdə şüurlu mənimsəməyə şagirdin tədris fəallığı sayəsində nail olmaq olar. Şagirdin tədris fəallığının 2 növünü fərqləndirirlər: 1) dar mənada fəallıq; 2) geniş mənada fəallıq.

Geniş mənada fəallıq şagirdlərin zehni fəaliyyətidir. Dar mənada fəallıq isə şagirdin riyazi fəalliyətidir. Təlim prosesində müəllim aşağıdakılar vasitəslə şagirdlərin tədris fəallığına nail ola bilər:

1) Hər bir yeni bölmənin və mövzunun şərhini məsələlərin qoyuluşundan başlamaqla, yeni materialla köhnə material arasında əlaqə yaratmaqla, yeni materialın tətbiq sahələrini göstərməklə təşkil etdikdə;

2) Hər bir yeni sualın öyrənilməsinə yaradıcı münasibət tərbiyə etməklə;

3) Şagirdlərdə öz işinin nəticələrinə tənqidi münasibət tərbiyə etməklə.

Təlim prosesində şagirdlərin müstəqilliyi onların fəallığının və şüurluluğunun yüksək formasıdır. Ona görə də təlimdə şüurluluq və fəallığın təmin olunması şagirdin müstəqilliyinə nail olmaqdan ciddi asılıdır. Riyaziyyat təlimində müvafiqlik prisipinin əsasını tədris planı və proqramların tərtibində şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması tələbi təşkil edir. Müvafiqlik prinsipi tələb edir ki, tədris materialının həcmi və məzmunu şagirdlərin zehni inkişaf səviyyəsinə, mövcud bilik, bacarıq və vərdişlərinə uyğun olsun. Müvafiqlik prinsipi təlimdə sadədən mürəkkəbə, asandan çətinə, məlumdan məchula müddəasının həyata keçirilməsini tələb edir. Ona görə də təlimdə sistemlilik və ardıcıllıq prinsiplərinin ciddi gözlənilməsi müvafiqlik prinsipinin həyata keçirilməsinə imkan yaradır. Əyanilik riyaziyyat təlimində ən vacib prinsipdir. O mücərrəd təfəkkürün inkişafına köməklik göstərir. Obyekti inikas etdirmə xüsusiyyətinə görə əyaniliyin aşağıdakı növləri vardır:

1) Natural əyanilik (obyektlər, hadisələr və s.);

2) Təsviri əyanilik (tədris şəkilləri, modellər və s.);

3) Simvolik əyanilik (cədvəllər, qrafiklər, sxemlər və s.).

Riyaziyyat təlimində simvolik əyaniliyin rolu çox böyükdür. Lakin əyaniliyin bu növü heç də hamı üçün başa düşülən deyildir. Şərti işarələr sistemi olmaqla simvolik əyanilik faktiki olaraq simvolik dildir. Ona görə də simvolik dili öyrənmək lazımdır. Məsələn, heç də şagirdlərin hamısı qrafik dili bilmir. Təlimdə əyaniliyin səmərəsi əyani vasitələrin düzgün seçilməsindən və onların təlimdə düzgün tətbiq olunmasından asılıdır. Məsələn, planimetriya kursunun öyrənilməsində şəkil vacibdirsə, stereometriya kursunun öyrənilməsində isə şəkil artıq çox böyük əhəmiyyət kəsb etmir. Təkliflərin və mühakimələrin məntiqi-riyazi dildə yazılması onların mahiyyətinin açılmasında böyük yardım göstərir. Riyaziyyat təlimində biliklərin möhkəmliyi prinsipi şagirdlərdə sistemləşdərilmiş bilik, bacarıq və vərdişlərin uzun müddət ərzində yadda saxlanılmasını tələb edir. Buna tədris materialını əzbərləməklə nail olmaq olmaz. Biliklərin möhkəmliyi üçün onun fəal, şüurlu mənimsənilməsi zəruri şərtlərdir. Digər zəruri şərt isə təlimin elmiliyidir. Lakin

bunlar kafi deyildir. Riyaziyyatın tədrisində aşağıdakı müddəaların doğruluğu əsas götürülür:

a) yaddasaxlama təkrarlamaların sayı ilə düz mütənasibdir;
b) yalnız maraqlı və çox mühüm olan faktlar yadda qalır;
v) materialın yadda qalması üçün onun tətbiq sahəsi göstərilməlidir;
q) materialın yaxşı yadda qalması üçün onun məntiqi tam olan kiçik hissələrə bölünməsi vacibdir.

Qeyd etmək lazımdır ki, bütün faktların isbatını yadda saxlamaq vacib deyildir. Ən zəruri faktları yadda saxlamaq, lazım olduqda isə tələb olunan təklifi isbat etməyi bacarmaq lazımdır. Təlim prosesində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaq vacibdir. Təlim prosesi hər bir şagirdin təfəkkürünün xüsusiyyətlərini, yaddaşının xüsusiyyətlərini, nitqini, görmə qabiliyyətini, iradəsini və s. nəzərə almaqla təşkil olunmalıdır. Hətta eyni sinfin iki müxtəlif şagirdində göstərilən xüsusiyyətlər çox müxtəlifdir. Bu da təlimdə fərdi yanaşmanı zəruri edir. Hər bir şagirdin fərdi öyrədilməsini təşkil etmək yalnız ideal halda mümkündür. Müasir şəraitdə informasiya texnologiyasından səmərəli istifadə etməklə buna qismən nail olmaq olar. Məsələn, təlimdə mükəmməl öyrədici proqram sistemlərindən istifadə olunması buna imkan verir. Təlimdə fərdi yanaşma prinsipini təmin etmək müəllimdən yüksək peşəkarlıq tələb edir. Hər bir konkret tədris materialının öyrənilməsini sinif kollektivini şərti olaraq zəif, orta və güclü qruplara ayırıb, öyrənmə prosesini hər qrup üçün ayrıca təşkil etmək də təlimdə fərdi yanaşmaya qismən nail olmağa imkan verə bilər.

ƏDƏBİYYAT

1. B.Ə.Ağayev. Riyaziyyatın tədrisi metodikası. Bakı, 1961.
2. B.Ə.Ağayev. Səkkizillik məktəbdə riyaziyyatın tədrisi metodikası. I və II h. Bakı, 1972.
3. A.S.Adıgözəlov, T.M.Əliyeva. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Ümumi metodika. I və II h. Bakı, 1993.
4. Колягин Ю.М. и др. Методика преподавания математики в средней школе. Общая методика. М., 1975.
5. Колягин Ю.М. и др. Методика преподавания математики в средней школе. Частные методики. М., 1977.
6. Р.С.Черкасов, А.А.Столяр. Методика преподавания математики в средней школе. Общая методика. М., 1985.
7. В.И.Мишин. Методика преподавания математики в средней школе. Частная методика. М., 1987.

РЕЗЮМЕ

АЛОВСАТ ДАДАШОВ, ВАФА ГАФАРОВА, ТЮРКАНА АЛИЕВА

ЗНАЧЕНИЕ ИСПОЛЬЗВАНИЯ ОСНОВНЫХ ПРИНЦИПОВ ОБУЧЕНИЯ МАТЕМАТИКИ ПРИ ПРИМЕНЕНИИ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ

В статье рассматриваются основные принципы математического обучения. При обучении математики, акцент делается на принципах сознания, энтузиазма и независимости. Показано, что в современных условиях, уровень знаний, навыков и умений учащихся может быть улучшен за счет эффективного использования информационных технологий. Важен также индивидуальный подход к преподаванию математики. На этом этапе необходимо учитывать интеллектуальный уровень ученика.

Ключевые слова: математика, обучение, принциры, очность, преподавание

SUMMARY

ALOVSAT DADASHOV, VAFA GAFAROVA, TURKANA ALIYEVA

THE IMPORTANCE OF BASIC PRINCIPLES OF TRAINING MATHEMATICS WHILE APPLYING THE INFORMATION TECHNOLOGIES

The article deals with principles of mathematical training. When teaching mathematics, the emphasis is on the principles of consciousness, enthusiasm and independence. It is shown that in modern conditions, the level of knowledge, skills and abilities of students can be improved through the effective use of information technology. An individual approach to the teaching of mathematics is also important. At this stage it is necessary to take into account the intellectual level of the student.

Key words: mathematics, training, principle, fullness, teaching

(Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent M.İsmayılov tərəfindən təqdim edilmişdir)

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

Elmi toplumuza iqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat elmləri üzrə aparılan və indiyədək çap olunmamış yüksək elmi səviyyəli araşdırmaların nəticəsi olan məqalələr qəbul edilir.

Çapa təqdim olunan məqalələrə qoyulan tələblər:

1. Redaksiyaya təqdim olunan məqalələrin həcmi 10 səhifədən artıq olmamalıdır.

2. Məqalə həmmüəlliflərinin sayının üçdən artıq olması arzuolunmazdır.

3. Məqalənin keyfiyyətinə, orada göstərilən faktların dəqiqliyinə bilavasitə müəllif cavabdehdir.

4. Təqdim olunan məqalənin sağ küncündə "12"pt ölçüdə qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı, 1 interval ara verməklə aşağıda işlədiyi təşkilatın adı "12"pt ölçüdə adi və kiçik hərflərlə yazılır. Yenə 1 interval ara verməklə müəllifin (müəlliflərin) elektron poçt adresi göstərilir. Bunlardan sonra 1 sətir boş buraxılaraq ortadan "12"pt ölçüdə qalın və böyük hərflərlə məqalənin adı yazılır.

Daha sonra bir sətir boş buraxılaraq məqalənin Azərbaycan dilində, mətnin sonunda isə 2 dildə (ingilis və rus dillərində) xülasələri verilir. İngilis və rus dillərindəki xülasələrdən əvvəl sağ tərəfdə "12"pt ölçüdə məqalə müəllifinin (müəlliflərin) adı və soyadı, məqalənin adı isə qalın, böyük hərflərlə yazılır, sonra "12"pt ölçüdə adi hərflərlə xülasələrin mətni verilir. Hər xülasənin sonunda 10 sayda sözü keçməməklə açar sözlər yazılır. "Açar sözlər" söz birləşməsi qalın hərflərlə yazılır.

Xülasələr və ədəbiyyat siyahısı 1, məqalənin mətni isə 1,5 interval ara ilə yazılmalıdır.

Mövzu ilə bağlı mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat siyahısı yazıldığı dildə "12"pt ölçülü, 1 interval ara ilə *"kursivlə"*, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında "12"pt ölçülü qalın və böyük hərflərlə yazılır.

Redaksiyaya təqdim olunmuş məqalələr (CD və çap variantı) geri qaytarılmır.

Məqalələr müəlliflərin çalışdığı şöbə, kafedra rəhbərlərinin razılıq məktubu ilə yaxud AMEA-nın həqiqi, müxbir üzvlərinin rəyi ilə birgə təqdim olunmalıdır.

Məqalələr, xülasə və açar sözlər WinWord proqramında, yalnız Times New Roman şriftində yazılaraq kompakt diskdə (CD) və A4 vərəqində təqdim olunmalıdır.

Nəşriyyat direktoru: **Səadət ƏKBƏROVA**

Tərtibçi: **Sunay ABBASOVA**
Texniki redaktor: **Nuray ƏSGƏROVA**
Kompüterçi: **Səadət MƏMMƏDOVA**

e-mail: n.yaqubov@nu.edu.az